

Ellen G. White Estate

# Həyat Dərsləri

YELENA H. UAYT


Ellen G. White Estate
HƏYAT
DƏRSLƏRI
YELENA H. UAYT

# Həyat Dərsləri

Ellen G. White

Copyright © 2021, Ellen G. White Estate, Inc.

Information about this Book
Мүгәддимә
Tövsiyəli məsəllər
“Əkinçi toxum səpməyə çıxdı”
Əvvəl ot, sonra sünbül”
Dəlicə buğda
“Xardal toxumuna bənzər”
Əkin haqqında məsəllərdən götürülən başqa dərslər
Mayaya bənzəyir
Gizlədilmiş xəzinə
Mirvari
Tora bənzər
“Yeni və köhnə”
“Diləyin ki, başqasına verə biləsiniz”
İki nəfər dua edən

“Məgər Allah Öz seçdiklərini müdafiə etməyəcəkmi?”
“O, günahkarları qəbul edir”
Qeyb olmuşdu — tapıldı”
“Ona bu il də toxunma”
“Get, bütün yolları və çəpərləri axtar”
Bağışlama dərəcəsi
Fəlakətli nailiyyət
“Aramıza böyük bir uçurum qoyulmuşdur”
Söz və əməl
Rəbbin üzüm bağı
Toy paltarı geyməyən adam
Talantlar
“Haqsız sərvətlə əldə edilmiş dostlar”
“Mənim qonşum kimdir?”

Lütfün mükafatı
Adaxlının qarşılanması

# Information about this Book

## Overview

This eBook is provided by the Ellen G. White Estate. It is included in the larger free Online Books collection on the Ellen G. White Estate Web site.

## About the Author

Ellen G. White (1827-1915) is considered the most widely translated American author, her works having

been published in more than 160 languages. She wrote more than 100,000 pages on a wide variety of spiritual and practical topics. Guided by the Holy Spirit, she exalted Jesus and pointed to the Scriptures as the basis of one's faith.

## Further Links

A Brief Biography of Ellen G. White
About the Ellen G. White Estate

## End User License Agreement

The viewing, printing or downloading of this book grants you only a

limited, nonexclusive and nontransferable license for use solely by you for your own personal use. This license does not permit republication, distribution, assignment, sublicense, sale, preparation of derivative works, or other use. Any unauthorized use of this book terminates the license granted hereby. (See EGW Writings End User License Agreement.)

## Further Information

For more information about the author, publishers, or how you can support this service, please contact

the Ellen G. White Estate at mail@whiteestate.org. We are thankful for your interest and feedback and wish you God's blessing as you read.

# Мүгәддимә

*Dahi Müəllim İsa Öz şagirdlərini Fələstinin təpələri və düzləri ilə gəzərək, göl və çay kənarlarında istirahət edərək öyrədirdi. Öz məsəllərində O, İlahi həqiqəti insanlara ən adi həyat hadisələri və əşyalar vasitəsilə çatdırırdı. Bunlar həm çobana, həm inşaatçıya, həm əkinçiyə, həm səyyaha, həm də evdar qadına məlum hadisələr idi. Canlı söhbət zamanı adi həyat, məişət mövzuları insanların diqqətini Allaha, Onun insanlara olan məhəbbətinə yönəldir, Onun layiq*

*olduğu hörmət və ehtiramdan və eləcə də bir-birimizə qarşı göstərməli olduğumuz qayğı və məhəbbətdən bəhs edirdi. Oxuculara təqdim olunan kitabda Məsihin məsəlləri öz müzakirə mövzuları və tövsiyələri ilə vəhdət təşkil edir. Bir həqiqət mənbəyi kimi kitab oxucuların həyatda daha düzgün yol tapmasına kömək ola bilər.* [4] [5]

## Tövsiyəli məsəllər

Öz təlimində məsəllərdən istifadə edərək, Məsih bu dünyaya gəlişinin əsas məqsədini nümayiş etdirdi. Öz İlahi təbiətini və həyatını bizə açmaq üçün Məsih insan bədənini qəbul etdi və insanların arasında yaşadı. İlahi Olan bəşər təbiətində açıldı; gözəgörünməz izzət bəşər təbiətində görünən oldu. Beləliklə, insan ona məlum olmayanı məlum olan vasitəsilə öyrəndi; göylərə məxsus olan yerdəkilərin vasitəsilə açıldı; Allah insana bənzər şəkildə göründü. Məsihin məsəllərində məhz bu cəhət

nəzərə çarpırdı: naməlum şeylər məlum şeylərlə, İlahi həqiqətlər ən adi həyat hadisələri ilə insanlara açılırdı.

Müqəddəs Kitabda oxuyuruq: “İsa bütün bu şeyləri xalqa məsəllərlə öyrədirdi... ki, peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetsin: “Ağzımı məsəllərlə açacağam. Dünya yaranandan bəri gizli qalan şeyləri bəyan edəcəyəm” (Matta 13:34,35). Beləliklə, təbii və adi olan şeylər ruhlu olanı dərk etmək üçün vasitə oldu; Məsihi dinləyənləri daim əhatə edən və onlara həyat təcrübəsindən tanış olan hər şey Müqəddəs Kitabdakı həqiqətlərlə bağlanırdı.

Məsihin adi həyatla ruhlu həyat arasında körpü olan məsəlləri insanı Allahla, yeri göylə birləşdirən həqiqət zəncirinin həlqələridir.

öz təlimində təbiətdən istifadə edərək, Məsih Öz əlləri ilə yaratdığı və hər birinə özünəməxsus keyfiyyətlər və güc bəxş etdiyi şeylərdən [6] bəhs edirdi. Öz ilkin kamilliyində bütün yaradılış Allahın təfəkkürünün nəticəsi olaraq mövcud olmuşdur. Adəm və Həvvanın yaşadıqları Ədəm bağında təbiət Allahın hikmətini və təxəyyülünü əks etdirirdi. Müdriklik göz qabağında idi və ürəyə qəbul edilirdi; çünki Allahın yaradılış işlərində onlar Onun

hüzurunda olurdular. Lakin müqəddəs cütlük Qadir Allahın qanununu pozduğu andan etibarən Onun nuru təbiətdən üz döndərdi. Günah yer üzünü qaranlığa qərq etdi. Amma bu acınacaqlı halda da təbiət özünün gözəl keyfiyyətlərini saxlamaqdadır. Odur ki, Allah tərəfindən istifadə olunan təbiət bu gün də öz tərbiyəvi gücünü itirməyib, onu düzgün dərk etməklə biz Allah haqqında çox şeyləri öyrənə bilərik.

Məsihin zamanında bu öyüdlər çoxları tərəfindən qəbul edilmirdi, o zaman insanlar artıq Allahın yaratdıqlarında Onu görmürdülər. İnsanların günahkar xislətləri Allah

tərəfindən gözəl yaradılmış hər şeyi qaranlığa bürümüşdü; Allahın işləri Onun haqqında şahidlik etmək əvəzinə, Onu gizli saxlayan səddə çevrilmişdi. İnsanlar "Xaliq əvəzinə məxluqa pərəstiş və ibadət etdilər". Beləliklə, bütpərəstlər "düşüncələrində batil oldular və onların anlayışsız ürəklərinə qaranlıq çökdü" (Rom. 1:21, 25). Beləcə, İsraildə Allahın təlimini bəşəri təlimlər əvəz etdi. Allahı dərk etmək üçün verilmiş təbiət, qurbangətirmə xidməti və hətta Müqəddəs Yazılar da o qədər təhrif olunmuşdu ki, onlardan İlahi həqiqəti gizlətmək üçün istifadə edirdilər.

Məsih həqiqəti gizlədən hər şeyi kənarlaşdırırdı. O, təbiəti bürümüş günah pərdəsini qaldırıb, ondakı ruhlu gözəlliyi açmaq üçün gəlmişdi. Onun sözləri həm təbiətdə baş verən hadisələrdə, həm də Müqəddəs Kitab təlimində yeni məna açırdı.

İsa gözəl zanbağı qoparıb uşaqlara və gənclərə verdi. İlahi lütf işığından siması nura boyanmış, hələ Özü də gənc olan Məsih ətrafındakılara belə dedi: “Tarla zanbaqlarının necə böyüdüklərinə baxın; nə zəhmət çəkirlər, nə də iplik əyirirlər. Fəqət sizə deyirəm: Süleyman belə, [7] bütün izzətində bunlardan biri kimi geyinməmişdi”.

Bu sözlərin ardınca təsəlli dolu inamverici nəsihət gəlir. “Lakin əgər bu gün mövcud olub, sabah ocağa atılan tarla otunu Allah belə geyindirirsə, bizi daha çox geyindirməzmi, ey az imanlılar?”

Dağ moizəsində səslənən buna bənzər sözlər isə uşaq və gənclərə deyil, həyatın həг üzünü görmüş ümidsiz insanlara yönəlmişdi. İsa davamında buyurur: “Beləliklə, “Nə yeyəcəyik?”, “Nə içəcəyik?”, “Nə geyinəcəyik?” — deyə qayğı çəkməyin. Çünki bütpərəstlər bütün bu şeyləri axtararlar; Səmavi Atanız da bütün bu şeylərə ehtiyacınız olduğunu bilir”. Sonra O, əllərini açıb

ətrafdakı bolluğu göstərdi: “Fəqət əvvəlcə Onun Padşahlığını və Onun salehliyini axtarın və bütün bu şeylər sizə artırılacaqdır” (Mat. 6:28-33).

Beləliklə, Məsih zanbaq və tarla otları haqqındakı məsəlin mənasını açmış oldu. O bu mənanı hər bir zanbaq və otdan oxumağımızı istəyir. Onun sözləri əminliklə doludur və Allaha imanımızı artırır.

Məsihin həqiqəti o qədər geniş və həcmli idi ki, təbiətin hər guşəsi onu əks etdirirdi. Hər gün göz qabağında olan mənzərələrin hamısı İlahi həqiqətlərlə bağlı idi və təbiət Müəllimin məsəlləri ilə əhatə olunmuşdu.

Öz xidmətinin ilkin mərhələsində Məsih insanlara çox aydın ifadələrlə müraciət edirdi ki, onu dinləyən hər kəs başa düşə bilsin və xilas olsun. Ancaq bu həqiqətlər insanla rın böyük qismi tərəfindən tez unudulub getdi. "Mən ona görə onlara məsəllərlə söyləyirəm ki, gördükləri halda görməsinlər, eşitdikləri halda eşitməsinlər və anlamasınlar... Çünki bu xalqın ürəyi kobudlaşıb, qulaqları ilə ağır eşidirlər və gözlərini yummuşlar ki, görməsinlər" (Mat.13:13-15).

İsa onlarda maraq oyatmaq istəyirdi. O, etinasızları oyadıb, qəlblərinə həqiqət toxumu səpmək

istəyirdi. Məsəllərlə öyüd vermək o zamanlar yalnız israillilərdə deyil, başqa xalqlarda da məşhur idi. Ondan daha güclü təsir vasitəsi yox idi. İlahi həqiqətlər barədə bilik almaq arг- [8] zusunda olanlar Onun sözlərini başa düşə bilərdilər. Çünki O, səmimi suallara böyük həvəslə aydınlıq gətirirdi.

Məsihin məsəllər ilə danışmağının bir səbəbi də ondan ibarət idi ki, insanlar bəzi İlahi həqiqətləri qəbul etməyə hazır deyildilər və ya sadəcə olaraq, başa düşmürdülər. İlahi həqiqətləri təbiətdə baş verən hadisələrlə bağlayaraq və dinləyicilərin öz həyat

təcrübələrinə müraciət edərək, Məsih məsəlləri daha aydın və yaddaqalan edirdi. Beləliklə, dinləyicilər gələcəkdə də Məsihin öyüdlərindəki hadisələrlə rastlaşaraq, Onun sözlərini yada salırdılar. Müqəddəs Ruhun təsiri altında Xilaskarın sözləri daha da aydınlaşırdı. Məsəllərin əvvəlki qəlizliyi aradan qalxır və onlar daha da dərindən dərk edilirdi.

İsa hər qəlbə yol axtarırdı. Müxtəlif təsvirlərdən istifadə edərək, O həm həqiqətin hərtərəfli qavranılmasını, həm də dinləyicilərinin müxtəlif təcrübələrini və bilik səviyyələrini nəzərə alırdı. Onların maraqları gündəlik

həyatlarını əhatə edən obrazlar vasitəsilə ifadə olunurdu. Dinləyicilərin heç biri diqqətdən kənarda qalmırdı. Ən nəcib, ən günahlı dinləyici də bu sözlərin ona yönəldiyini hiss edirdi.

Xidmət etdiyi illərdə Məsihin məsəllərdən istifadə etməsinin başqa bir səbəbi də vardı. Ətrafında cəmləşənlərin arasında Onun təlimində həг hansı bir qüsur axtaran dünyəvi, şöhrətpərəst, barışmaz mövqe tutan kahinlər, din müəllimləri, ağsaqqallar da vardı. Onların göndərdikləri adamlar Məsihin ardınca gəzir, Onu izləyirdirlər ki, bir bəhanə tapıb

məhkum etsinlər və bütün əhalinin sevdiyi və tapındığı bir Şəxsi əbədi susdursunlar. Xilaskar onların niyyətini bilərək həqiqəti elə formada söyləyirdi ki, sözlərində bir bəhanə tapıb, Onu mühakimə edə bilməsinlər. Məsəllərdə O, yüksək vəzifə sahiblərinin zalımlığından, ikiüzlülüyündən bəhs edir və həqiqəti alleqorik bir formaya salırdı. Bu sözlər aydın şəkildə ifadə olunsa idi, onlar Onu dinləməzdilər və fəaliyyətinə son qoyardılar. Onu izləyənlərə heç bir bəhanə yeri qoymadan, həqiqəti elə aydın izah edirdi ki, şər ifşa olunurdu və namuslu insanlar [9] öz səhvlərini görüb, Onun öyüdündən lazımi

nəticələr çıxarırdılar. Dinləyicilərin diqqətini Allahın təbiətdə yaratdıqlarına cəlb edərək, Məsih insanlara Yaradanın dərkedilməz müdrikliyini və sonsuz rəhmdilliyini nümayiş etdirirdi. Beləliklə, təbiət və həyat təcrübəsi vasitəsilə insanlar Allah haqqında öyrənirdilər. "Dünya yarananda bəri Onun gözlə görülməz xüsusiyyətləri, yəni əbədi qüdrəti və ilahiliyi edilmiş şeylərlə anlaşılaraq, açıqca aşkara çıxır" (Rom.1:20).

Xilaskarın məsəllərlə təlimini həqiqətən "ali təhsil" adlandırmaq lazımdır. Məsih insanlara ən dərin elmi həqiqətləri aça bilərdi. Əsrlərlə

zəhmət və axtarışlar sərf olunan sirləri O, bir anda aça bilərdi. Bununla da O, dövrün sonuna kimi insanların istifadə edə bilməsi və yeni-yeni ixtiralar üçün mənbə yarada bilərdi. Ancaq O bunları etmədi. O, insana dünyanı sevdirən və onun şöhrətinə qida verəcək heç nə söyləmədi. O Öz təlimində çalışırdı ki, insan təfəkkürünü Sonsuz təfəkkürlə bağlasın. O, adamları Allah, Onun Kəlamı və işləri haqqındakı bəşəri nəzəriyyələri öyrənməyə dəvət etmirdi. O, Allahı Onun yaratdıqları, Kəlamı və uzaqgörənliyi vasitəsilə dərk etməyə çağırırdı.

Məsih mücərrəd nəzəriyyələr deyil, insanın inkişafı üçün zəruri olan, onun Allahı tanımaq qabiliyyətini artıran və yaxşılıq etmək imkanlarını inkişaf etdirən təlimlər verirdi. O həm yerdəki həyata, həm də əbədiyyətə aid olan həqiqətdən danışırdı.

Məsih İsrailin təhsil prosesinə rəhbərlik edirdi. Allahın əhdləri və qanunu haqqında danışaraq, O buyururdu: "Bunları övladlarınızın şüuruna yaxşı-yaxşı yeridin! Evinizdə oturanda, yol gedəndə, yatanda, duranda bunlar barədə danışın. Onları qolunuza bir nişanə kimi bağlayın. Gözlərinizin arasına alın bağı olaraq

taxın, evlərinizin qapı çərçivələrinə, şəhərlərinizin darvazalarına yazın" (Təs. 6:7-9). Öz təlimində İsa bu qanunları necə yerinə yetirməyin yolunu göstərmiş oldu. O, Göylərin səltənətinin qanunlarını elə nümayiş etdirdi ki, onların gözəlliyi və ölçüyəgəlməz dərəcədə qiymətli olduğu dərk edilsin. İsrail övladlarını [10] Özünün yer üzərindəki nümayəndələri kimi öyrədərkən, Rəbb onları təpələr və vadilərdə məskunlaşdırdı. Gündəlik həyatda da, ibadət xidməti zamanı da onlar təbiət və Kəlamla təmasda olurdular. Məsih şagirdlərini gölün sahilində, dağın ətəyində və yaxud ağaclıqda öyrədirdi ki, təbiətdən əyani surətdə

istifadə etmək mümkün olsun. Şagirdləri Məsihdən öyrəndiklərini Onunla birlikdə işdə istifadə edirdilər.

Beləliklə, yaradılmışa baxaraq, biz Yaradanı dərk edirik. İnsanlara Allahı tanıtmaq və azmışları düz yola gətirmək üçün Yazılarla bərabər böyük təbiət kitabından da istifadə olunmalıdır. Allahın yaratdıqlarını müşahidə etdiyimiz zaman, Müqəddəs Ruh imanımızı gücləndirir və əminliyimizi artırır. Bu əminlik məntiqi idrakın məhsulu deyil. Təfəkkür burada gücsüzdür, çünki Allahı dərk etmək üçün çox tutqunlaşıb, göz isə Onu görmək üçün çox korlanıb və qulaq Onun səsini

eşitmək qabiliyyətini itirib. Müqəddəs Kitabın dərin mənası, yüksək, ruhlu həqiqətləri insanın ürəyinə həkk olunur.

Təbiət vasitəsilə verilən İlahi dərslərin yüksək dəyəri ondadır ki, onlar təbii və sadədirlər. Hər kəs mənbəyə müraciət etməlidir. Təbiətin gözəlliyi insanı günahlardan və dünyəvi işlərdən çəkindirir, qəlbləri paklığa, sülhə və Allaha yönəldir. Təəssüf ki, çox tez-tez insanların fikri yanlış olaraq fəlsəfə və elm adlandırılan bəşəri nəzəriyyələrə qapılır. İnsanları təbiətlə sıx təmasa yönəltmək lazımdır. Qoy yaradılışın və məsihçiliyin bir Allaha malik

olduğunu öyrənsinlər. Qoy təbii şeylərlə ruhlu şeylərin harmoniyasını görməyi öyrənsinlər. Qoy təbiətdə gördükləri və toxuna bildikləri hər şey onlarda insani keyfiyyətləri artırsın. Bu onların idrakını gücləndirəcək, xasiyyətini inkişaf etdirəcək və bütün həyatlarını mənalı edəcəkdir.

Məsihin Öz təlimində məsəllərdən istifadə etməsi Şənbə gününün daşıdığı məqsədlərə tam uyğundur. Allah Şənbəni insana bəxş etdi ki, əllərinin yaratdıqlarını görüb Onu yada salsın. Şənbə günü Allahın qüdrətini və şöhrətini Onun yaratdıqlarında görmək üçün

verilmişdir. [11] Məhz ona görədir ki, İsa Öz qiymətsiz dərslərini təbiətdə yaratdıqları ilə bağlayırdı. Hər hansı bir gündən fərqli olaraq, müqəddəs istirahət günü biz Allahın təbiət vasitəsilə bizlərə demək istədiklərini böyük həssaslıq və diqqətlə oxuyub, dərk etməyə çalışmalıyıq. Xilaskarımızın məsəllərini Onun söylədiyi yerlərdə — zəmilər və ağaclıqlarda, açıq səma altında, güllər və çiçəklər içində öyrənmək lazımdır. Təbiətdə olarkən, Məsihin mövcudluğunu, Onun sülh və məhəbbətini daha da aydın hiss edirik.

Məsih Öz təlimini yalnız istirahət günü ilə yox, həm də iş həftəsi ilə sıx bağlayırdı. Öz təlimi ilə O həm yer şumlayana, həm də toxum səpənə bilik verir. Adi görünən təsərrüfat işlərində O, Allahın lütfünün insan qəlbindəki işini göstərir. Beləliklə, O, hər bir işdə və həyatda baş verən hər bir hadisədə Allahın həqiqətlərini dərk etməyə sövq edir. Beləliklə, gündəlik işlərimiz Allahı unutduracaq qədər diqqətimizi cəlb etməyəcək və gördüyümüz işlərdə biz Allahı və Xilaskarı yada salacağıq. Allah haqqında düşüncələr, qızıl ilmə kimi, iş və qayğılarımızın içindən keçəcəkdir. Bizim üçün Onun nuru yenidən təbiətin üzərində olacaqdır.

İlahi həqiqətin yeni-yeni dərslərini davamlı surətdə öyrənərək, biz də Onun kimi pak və kamil olmaq istəyəcəyik. Beləliklə, biz “Rəbb tərəfindən öyrədiləcəyik” və çağırıldığımız zaman olduğumuz vəziyyətdə “Allahla birlikdə qalacağıq” (Yeş. 54:13; 1 Kor. 7:24). [12]

## “Əkinçi toxum səpməyə çıxdı”

(Mat.13:1-9,18-23; Mk.4:1-20; Lk. 8:4-15)

### Əkinçi və toxumlar

Əkinçi haqqında məsəl ilə Məsih insanlarda Göylər Səltənəti

və böyük Əkinçi haqqında təsəvvür yaradır. Torpaq sahə-

sindəki əkinçi kimi, Allah Öz həqiqətinin toxumlarını səpmə-

yə gəldi. Bu toxumlar Onun məsəlləri idi ki, Onun lütfü haqqında

qiymətsiz həqiqətləri çatdırırdılar. Sadə olduğu üçün əkinçi haqqında məsəl lazımınca qiymətləndirilmir. Torpağa səpilən adi toxum haqqında danışaraq, Məsih bizim nəzərimizi insanı Allaha yaxınlaşdıran İlahi toxumlara cəlb edir. Xırdaca toxum haqqında məsəl Söyləyən — Göylərin Padşahıdır və həm torpağa səpilən toxumların, həm də həqiqət toxumlarının böyüməsi eyni qanunla idarə olunur.

Qalileya dənizinin sahilində İsanı görmək və dinləmək üçün camaat toplaşmışdı. Bunlar həqiqəti sevən və axtaran insanlar idilər. Onların arasında sağalmaq ümidi ilə İsaya

pənah gətirmiş ağır xəstələr də vardı. Məsih günahkar bəşəriyyəti qəmdən qurtarmaq üçün Allahdan güc almışdı və burada O, xəstələrə şəfa verərək, hamıya həyat, sağlamlıq və sülh bəxş edirdi. [13]

Adamların sayı artdıqca, Məsihə yaxınlaşmaq mümkün olmurdu. O zaman O, balıqçı qayığına minib sahildən bir qədər uzaqlaşandan sonra sahildəkilərə müraciət etdi.

Camaatın arxasında uzaqlarda gözəl Genisaret düzənliyi uzanırdı və sonra isə təpəciklər yüksəlirdi. Dağın ətəklərində və vadidə toxum səpən və ilk məhsul yığan əkinçilər görünürdürlər. Bu mənzərəni seyr

edərək, Məsih dedi: “Budur, bir əkinçi toxum səpməyə çıxdı. Səpərkən toxumlardan bəzisi yol kənarına düşdü və quşlar gəlib onu dimdiklədilər. Bəzisi torpağı çox olmayan daşlıq yerlərə düşdü və tez bitdi, çünki torpağın dərinliyi yox idi; günəş doğandan sonra soldu və kökü olmadığına görə qurudu. Bəzisi tikanlar arasına düşdü. Tikanlar çıxıb, onu boğdu. Başqaları isə bərəkətli torpağa düşdü; bəzisi yüz, bəzisi altmış, bəzisi otuz qat səmərə verdi”.

Məsih nə demək istəyirdi? O, missiyasının zəmanəsinin adamları tərəfindən dərk edilmədiyini görürdü. Onun gəlişi insanların ümidlərini

doğrultmurdu. Rəbb İsa yəhudi həyatının əsasını təşkil edirdi. Keçirdikləri təntənəli ibadət xidmətləri İlahi məqsəd daşıyırdı. Bunların hamısı bir zaman gələcək Şəxs haqqında söyləməli idi. Lakin sitayişin formasını saxlayaraq, yəhudilər bu mərasimlərin mahiyyətini və məqsədini nəzərdən qaçırmışdılar. İnsanların vacib saydıqları qanunlar, adət-ənənələr və mərasimlər Allahın onların vasitəsilə çatdırmaq istədiyi dərsləri unutdurmuşdu. Köhnəlmiş, dəyişməyən sitayiş qanunları və həyat qaydaları həqiqətin dərk edilməsinə və həyata keçməsinə mane olurdu. Nəhayət, Məsihin simasında əsl

Həqiqətlə qarşılaşan zaman onlar illər boyu sürən mərasimlərin və simvolların Onda reallaşdığını dərk edə bilmədilər. Həqiqəti qəbul etməyərək, onlar artıq mənasız olan simvol və mərasimlərdən əl çəkmədilər. Allah Oğlu gəlmiş olduğu halda, onlar Onun gəlişini təsdiq edən dəlil axtarırdılar. "Tövbə edin, çünki Göylərin Padşahlığı yaxınlaşıb" çağırışına onlar möcüzə tələb edirdilər (Mat.3:2). Məsih haqqında Xoş Xəbər onlar üçün büdrəmə daşı oldu, [14] çünki onlar Xilaskar əvəzinə əlamət tələb edirdilər. Onlar gözləyirdilər ki, Məsih həqiqəti güc işlətməklə, fəth etmək yolu ilə təsdiq edəcəkdir və Öz hakimiyyətini dünya

dövlətlərinin xarabalıqları üzərində quracaqdır. Onların məhz bu ümidlərinə cavab olaraq, Məsih əkinçi haqqında məsəli söyləyir. İlahi Səltənət silah və dağıdıcı fəthlər yolu ilə deyil, yeni həyat prinsiplərinin səbirlə insanların qəlbində cücərdilməsi yolu ilə qurulmalı idi.

“Yaxşı toxumu səpən İnsan Oğludur” (Mat. 13:37). Məsih padşah kimi deyil, əkinçi kimi gəlmişdi. O, dövlətlər fəth etmək üçün deyil, toxum səpmək üçün gəlmişdi. Öz davamçılarına asan qələbə və milli yüksəliş vəd etməyərək, itkilər və büdrəmələrlə dolu olan və yalnız

sonunda gözlənilən məhsulu verən uzun yolu səbirlə getməyi öyrədirdi.

Fəriseylər Məsihin məsəlinin mənasını başa düşsələr də, onların məqsədlərinə uyğun olmadığı üçün onu eşitməməzliyə saldılar. Dinləyicilərin əksəriyyətinə isə qəlblərini oxşayan, lakin ümidlərini doğrultmayan məsəl yeni Müəllimin məqsədini daha da sirli etdi. Onlar təklikdə İsanın yanına gəlir və izah etməsini xahiş edirdilər.

Məsih onlarda həqiqətə maraq oyatmaq istəyirdi ki, qarşılarına daha aydın məqsədlər qoysun. O, məsəlin mənasını onlara izah etdi, Onu səmimi qəlblə axtaran hər kəsə də Öz

sözlərini eyni şəkildə izah etməyə hazırdır. Bu Sözün mənası Müqəddəs Ruh üçün açıq qəlblə Allahın Kəlamına müraciət edənlərin heç birinə gizli qalmayacaq. Məsih deyir: “Kim Onun iradəsini yeritmək istəyərsə, öyrətdiklərimin Allahdanmı olduğunu, yoxsa Özümdənmi söylədiyimi biləcək” (Yəhya 7:17). Həqiqəti daha aydın başa düşmək üçün Məsihə müraciət edən hər kəs istədiyinə nail olur. O, Göylərin Padşahlığının sirlərini onlara açacaqdır və həqiqəti axtaran qəlblər üçün bu sirlər aydın olacaqdır. Göylərdən gələn nur insanın qəlbini işıqlandıracaqdır və bu işıq onun

ətrafındakılara qaranlıqda yanan şam kimi nur saçacaqdır. [15]

“Əkinçi toxum səpməyə çıxdı” (Mat.13:3). Həmin zamanlar Şərqdə həyat təlatümlü və həyəcanlı idi, düşmən hücumlarının qorxusu o qədər güclü idi ki, adamlar yalnız divarlarla əhatələnmiş şəhərlərdə məskunlaşırdılar. Torpaqda işləyənlər isə hər gün işləmək üçün şəhərdən kənara çıxırdılar. Göylərin Əkinçisi Məsih də eləcə, Özünün sülh və əmin-amanlıq içərisində olan Evini, hələ dünya yaranmazdan əvvəl Atanın yanında olan izzətini, kainat taxtındakı yerini tərk edib əkinə çıxdı; O, əzab və imtahanlara düçar

olmuş insan kimi çıxdı, təkbaşına çıxdı; çıxdı ki, Öz göz yaşları ilə itirilmiş dünyaya həyat toxumları səpsin, Öz qanı ilə onları suvarsın.

Davamçıları da Onun kimi əkinçi olmalıdırlar. Həqiqəti yaymaq üçün seçildiyi zaman İbrahim peyğəmbərə də buyrulmuşdu: "Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get" (Yar.12:1). "O haraya getdiyini bilməyərək, yola çıxdı" (İbr.11:8). Həvari Pavelə də Yerusəlim məbədində dua etdiyi zaman Allah buyurdu: "Get, Mən səni uzağa, qeyri-yəhudilərin yanına göndərəcəyəm" (Həv.iş. 22:21).

Bunlar kimi, Məsihlə birləşməyə çağırılmış hər bir kəs hər şeydən imtina edib, cəsarətlə Onun dalınca getməlidir. Bunun üçün hər şeydən, həyatdakı planlardan və yerdəki ümidlərdən tamamilə imtina etmək gərəkdir. Böyük həqiqətin toxumları zəhmət və göz yaşları, tənhalıq və qurbanlar hesabına əkilməlidir.

"Əkinçi Allahın Kəlamını səpir" (Mk. 4:14). Məsih dünyaya həqiqəti səpmək üçün gəlmişdi. İnsanın günaha düçar olduğu andan bəri, iblis yalan toxumlarını səpməkdə davam edir. Yalan vasitəsilə o, insanı özünə tabe edə bildi və həmin vaxtdan Göylərin Padşahlığının yerdə

bərqərar olmasına mane olmağa çalışır. Böyük Əkinçi Məsih isə həqiqət toxumlarını səpmək üçün gəldi. Allahın Müqəddəs dərgahında olan Məsih insanlara canlı həqiqət toxumlarını gətirdi. İnsanların günaha düçar olduqları andan Məsih həqiqəti açmaqdadır. Onun vasitəsilə insanlara çürüməyən, "əbədi diri olan Allah Kəlamı" çatdırılır (1Pet.1:23). [16] Günahkar bəşəriyyətə hələ Ədəmdə olarkən vermiş olduğu Öz ilk əhdində Məsih Xoş Xəbər toxumlarını səpirdi. Lakin əkinçi haqqında məsəl bilavasitə Məsihin və şagirdlərinin insanlar arasında gördükləri işlərə aiddir.

Allah Kəlamı toxumdur. Hər bir toxumda cücərmək üçün qüvvə vardır. Onda bitkinin həyatı gizlənmişdir. Beləliklə, Allah Kəlamı da həyat mənbəyidir. Məsih buyurur: “Sizə söyləmiş olduğum sözlər həqiqi ruh və həyatdır” (Yəh.6:63). “Mənim sözümü dinləyib Məni Göndərənə iman edənin əbədi həyatı vardır” (Yəh.5:24). Allah Kəlamının hər bir əhdində və əmrlərində bir qüvvə, Allahın qüdrəti vardır ki, Onun gücü ilə bütün əmrlər yerinə yetirilə və əhdlər reallaşa bilər. Allah Kəlamını inamla qəbul edən şəxs Allahın həyatına qoşulur və Onun qüdrətindən qidalanır.

Hər toxum özünəməxsus meyvə yetişdirir. Toxumu münbit şəraitdə səpsək, o, mütləq bir bitkiyə çevriləcəkdir. Allah Kəlamının toxumunu da inamla qəlbimizə səpsək, o, mütləq bizim xasiyyətimizdə və bütün həyatımızda Allahın varlığını nümayiş etdirəcəkdir.

İsrailin müəllimləri Allah Kəlamının toxumlarını səpmirdilər. Həqiqət Müəllimi kimi Məsihin təlimi zəmanəsinin kahinlərinin təliminin əksini təşkil edirdi. Onların təlimi adət-ənənələrə və insanların nəzəriyyəsinə arxalanırdı. Bu zaman tez-tez Allah Kəlamını onun

barəsində yazılanlarla əvəz edirdilər. Onların təlimi insanların qəlblərini möhkəmləndirmək iqtidarında deyildi. Məsihin təliminin əsas mövzusu və məqsədi isə məhz Allah Kəlamı idi. Ona sual verən insanlara O, belə cavab verirdi: “Belə yazılmışdır”, “Müqəddəs Kitab belə deyir”, “Bildiyimiz kimi”. Dost, yaxud rəqibdə oyanmış hər hansı bir maraqdan istifadə edərək, Məsih İlahi Sözün toxumlarını səpirdi. Yol, Həqiqət və Həyat olanın Özü Müqəddəs Kitaba istinad edərək buyurur: “Onlar Mənim haqqımda şəhadət edirlər”. Öz şagirdləri ilə söhbət zamanı “Musa ilə bütün peyğəmbərlərdən başlayaraq bütün

Müqəddəs Yazılarda Özü haqqında olan şeyləri onlara izah etdi” (Yəh.5:39; Lk.24:27). [17]

Məsihin davamçıları da Onun kimi yaşamalıdırlar. Bu gün də, keçmişdəki kimi, Allah Kəlamının həyati həqiqətləri tez-tez insan nəzəriyyələri ilə əvəz edilir. Hətta din xadimlərinin böyük qismi Müjdəni təbliğ etmələrinə baxmayaraq, bütövlükdə Müqəddəs Kitabı Allahdan ilhamlanmış Kəlam kimi qəbul etmirlər. Müdriklərin biri onun bir hissəsini, başqası o biri hissəsini şübhə altına alır. Onlar Müqəddəs Kitab haqqında özlərinin düşüncələrini Allah Kəlamından

üstün tuturlar, beləliklə, təbliğ etdikləri Kəlam onların şəxsi düşüncələrinə uyğun tərzdə söylənilir. Müqəddəs Kitabın İlahi həqiqiliyi təhrif olunur. Bu yolla şübhə toxumları geniş səpilir və insanlar nəyə inanmaq gərəkdiyini bilmirlər. İnsanların şüurunun qəbul edə bilməyəcəyi bir çox inanclar mövcuddur. Məsihin zamanında kahinlər Müqəddəs Kitabın çox hissəsini özlərinin qondarma mistik düşüncələri ilə əvəz edirdilər. İlahi Kəlamın aydın nəzəriyyəsi onların niyyətlərini ifşa etdiyi üçün təhrifə yol verirdilər. Bu hal bu günə kimi davam edir. Allah Kəlamını çox vaxt sirli və anlaşılmaz kimi qələmə

verirlər. Bu onun təhrifinə bəraət qazandırmaq və Allahın qanununu pozmaq üçün edilir. Məsih Öz təlimində bu hallara yol vermirdi. O buyururdu ki, Allah Kəlamı hər kəsə aydın olmalıdır. O, Müqəddəs Kitaba şəksiz mənbə kimi istinad edirdi və biz də ondan nümunə götürməliyik. Müqəddəs Kitab nəhayətsiz Allahın Kəlamı, təzadların sonu və imanın mənbəyi kimi qəbul olunmalıdır.

İnsanlar Müqəddəs Kitabdakı qüdrəti gizlədiblər və bu gün qarşılaşdığımız ruhlu düşkünlük bunun nəticəsidir. Kafedralardan ucalan moizələr artıq şüuru və qəlbi oyada bilən İlahilik daşımır. Çox

hallarda dinləyicilər belə söyləyə bilmirlər: “O, yolda bizimlə danışarkən və Müqəddəs Yazıları bizə izah edərkən, bizim ürəklərimiz alışıbyanmırdımı?” (Lk.24:32). İnsanlar isə, əvvəlki kimi, diri olan Allahı eşitmək, Onun varlığını hiss etmək istəyirlər. Fəlsəfi nəzəriyyələr və yaxud ədəbi əsərlər nə qədər parlaq olsa da, insan qəlbini dəyişib onu Allaha təslim edə bilmir. Bu yerdə insan təxəyyülü və ixtiraları gücsüzdür. Qoy insanlara Allah [18] Kəlamı danışsın. Qoy bu günə qədər yalnız insanların adətləri, nəzəriyyə və qanunları barəsində eşitmiş adamlar onların qəlbini əbədiyyət üçün Hazırlayanın sözünü dinləsinlər.

Məsihin ən çox sevdiyi mövzusu Allahın insanlara olan məhəbbəti və hədsiz lütfü haqqında bəhs etmək idi; O, Allahın və Onun qanununun müqəddəsliyindən danışırdı və Özünün Yol, Həqiqət və Həyat olduğunu deyirdi. Bu mövzular Məsihin davamçılarının da moizələrinin əsasını təşkil etməlidir. İnsanlara həqiqəti İsanın göstərdiyi kimi çatdırın. Qanunun və Müjdənin tələblərini aydın və səlis izah edin. İnsanlara Məsihin əzab-əziyyətlərlə dolu həyatı, təhqir olunması və öldürülməsi, dirilib göylərə ucalması və Allahın yanında bizlər üçün şahidlik etməsi və nəhayət, "Təkrar

gəlib sizi Öz yanıma gətirəcəyəm" (Yəh.14:3) əhdindən danışın.

Yanlış nəzəriyyələri müzakirə etmək və ya Müjdənin əleyhdarlarına qarşı mübarizə aparmaqdansa, Məsihin nümunəsinə əsasən davranın. Qoy Allahın xəzinəsinin həqiqət toxumları özləri parlayıb insanları cəlb etsin. "Allahın Kəlamını təbliğ edin", "Bütün sulu torpaqlarda toxum əkin", "Sözüm nazil olan adam onu dəqiq danışsın. Daha buğdanın yanında saman nədir?", "Allahın hər bir sözü pakdır... Sözünə heç nəyi əlavə etmə, yoxsa yalanını üzə çıxarar, səni tənbeh edər" (2 Tim. 4:2; Yeş. 32:20; Yer. 23:28; Məs. 30:5, 6).

“Əkinçi Allahın kəlamını səpir”. Burada həг bir tədris işinin əsası qoyulub. “Toxum Allah Kəlamıdır”. Lakin bugünkü təhsil ocaqlarının çox qismi Allah Kəlamını kənarlaşdırıblar. Müasir adamların şüurları tamam başqa mövzularla məşğuldur. Bugünkü təhsil sistemində ateist müəlliflərin dərsliklərinin tədrisi əsas yer tutur. Dərsliklərin çoxu öldürücü bədbinliklə doludur. Müasir elmi tədqiqatlarda çox vaxt həqiqəti gizlədirlər, çünki onların nəticələri təhrif olunmuş şəkildə cəmiyyətə aşılanır. Allah Kəlamı elmi nəzəriyyə adlanan təxəyyüllərlə müqayisə edilir və nəticədə etibarsız və ümidsiz

mənbə kimi elan edilir. Beləliklə, gənclərin şüu- [19] runa şübhə toxumu səpilir və çətin anlarda o, bədbinlik gətirir. Allah Kəlamına inam itəndə isə insan qəlbi rəhbərliyini itirir və günah qarşısında müqavimətsiz qalır. Gənclər Allahdan və əbədi həyatdan uzaqlaşdıran yola düşürlər.

Dünyamızda günahın bu qədər artmasını da yuxarıda deyilənlərlə izah etmək olar. Allah Kəlamı həyatımızdan kənarlaşdırılanda onun günahkar qəlbimizi dəyişmək qüdrəti də təsirsiz qalır. İnsan yalnız cismani toxumlar səpir və fani cücərtilər alır.

Bundan əlavə, şüurumuzun zəifləməsi və qabiliyyətsizliyi də bununla izah olunmalıdır. Allah Kəlamından uzaqlaşaraq, Ondan ilhamlanmamış adamların yazdıqları ilə yaşayaraq, insanın təfəkkürü get-gedə zəifləyir və işıqsız olur. O, əbədi həqiqətin əsasları ilə əlaqələnmir. Getdikcə təfəkkür çoxdan tanış olduğu əşyalarla yaşayır və şüurun yalnız onlara bağlanması onu get-gedə zəiflədir, imkanlarını daraldır və bunun nəticəsində o, bilik sahəsini genişləndirmək qabiliyyətini tamamilə itirir.

Yalançı təhsilin nəticəsi belə olur. Hər bir müəllimin məqsədi gənclərin

şüurunu İlahi Kəlamın həqiqətlərinə cəlb etmək olmalıdır. Bugünkü və gələcək həyat üçün məhz belə təhsil gərəkdir.

Belə bir təhsilin elmlərin öyrənilməsinə mane olacağı və təhsil səviyyəsinin aşağıya düşməsinə səbəb olacağı yalandır. İlahi bilik göylər qədər yüksək və kainat qədər böyükdür. Bizim əbədi həyatımıza aid məsələlər haqqında düşünməkdən daha ali və heyrətamiz vəzifə yoxdur. Qoy gənclər Allahın həqiqətlərini öyrənməyə çalışsınlar, çünki bu onların şüurunu işıqlandırıb, onları daha da qabiliyyətli edəcəkdir; bu, həqiqətlərə sadiq olan hər kəsi

təsviredilməz bir səviyyəyə qaldıracaqdır.

Müqəddəs Kitabın tədqiqi zamanı əldə edilmiş biliklər xilas planının təcrübədəki izharıdır. Bunlar isə insan qəlbində Allahın təzahürünü yaradır. Bu biliklər insan təfəkkürünü şeytan hiyləsinə qarşı güclü və məğlubedilməz edir; həqiqəti bilənlər Məsihin əməkdaşı və Onun mərhəmət işinin dünyada yayılmasında iştirakçı olurlar. Məsihçi təhsili insanı [20] Göylərin Padşahlığının üzvü və müqəddəslərlə birgə əbədi həyatın varisi edir.

Lakin müqəddəs həqiqətləri təbliğ edən şəxs yalnız öz şəxsi

təcrübəsindən keçirdiyi şeylərlə bölüşə bilər. “Əkinçi öz toxumlarını səpmək üçün çıxdf’. Məsih həqiqəti təbliğ edirdi, ona görə ki, Özü həqiqət idi. İsanın düşüncələri, xasiyyəti və həyat təcrübəsi Onun təlimində təsdiqləndiyi kimi, Allah Kəlamını təbliğ edən Məsihin davamçıları da bu Kəlamı həyatları ilə təsdiq etməlidirlər. Məsihi qəlbinə buraxan şəxslər onlara xilas, paklıq, müdriklik və doğruluq bəxş etmiş Şəxsi özləri dərk etməlidirlər. İlahi Kəlamı yayarkən, onlar bunu şübhə ilə etməməli və açıqlamasını da bir neçə haldan biri kimi irəli sürməməlidirlər. Onlar həvari Peter kimi imanla deməlidirlər: “Çünki biz

hiyləgərcəsinə uydurulmuş nağıllara uymadıq, ancaq Rəbbimiz İsa Məsihin ehtişamının şahidləri olaraq, sizə Onun qüdrətini və zühurunu bildirdik" (2 Pet.1:16). Məsihin davamçılarının hər biri, Onun zəmisində çalışan hər kəs, Onun sevimli şagirdi Yəhya kimi, söyləyə bilməlidir: "Həyat izhar olundu. Biz də gördük, şəhadət edirik və Atada olub, bizə izhar olunan bu əbədi həyatı sizə elan edirik" (1 Yəh. 1:2).

## Yol kənarına düşən toxum kimi olan qəlb

Əkinçi haqqındakı məsəldə əsasən toxumun bitməsinə səpildiyi torpağın təsirindən bəhs edilir. Bu məsəldə Məsih bunları demək istəyir: “Mənim işlərimi tənqid etdiyiniz və Mənim işlərim sizin istəklərinizə uyğun olmadığı üçün təhlükə içindəsiniz”. Sizin üçün ən vacib sual budur: “Mənim müjdəmə siz necə münasibət göstərirsiniz? Sizin əbədi aqibətiniz Mənim Kəlamımı qəbul və yaxud rədd edəcəyinizdən asılıdır”.

Yol kənarına düşmüş toxumdan danışaraq, O, belə dedi: “Yol kənarına düşənlər isə kəlamı eşidənlərdir ki, sonra iblis gəlir və iman [21] etməyib, xilas olmasınlar deyə,

kəlamı onların ürəyindən götürüb aparır” (Lk. 8:12).

Yol kənarına düşmüş toxum İlahi Kəlamın etinasız qəlbə düşməsini nümayiş etdirir. İnsan və heyvanların get-gəlindən tapdanmış cığır kimi, belə qəlb də dünyanın ehtirasları, ləzzətləri və günahları üçün açıqdır. Eqoist məqsədlərə və günahkar təbiətə uyaraq, belə qəlb “günahın hiyləsi ilə inadkar olur” (İbr. 3:13). İnsanın ruhlu keyfiyyətləri məhv olur. O, Kəlamı eşitsə də, onu dərk etmir. O başa düşmür ki, bu Kəlam məhz ona aiddir. O özünün həqiqi ehtiyacını, başı üzərindəki təhlükəni hiss etmir. O, Məsihin məhəbbətinə

cavab vermir, Onun lütfü haqqında xəbəri eşitmir və bunların ona aid olmadığını güman edir.

Yol kənarına düşmüş toxumları dənləyən quşlar kimi, şeytan da İlahi həqiqət toxumunu insan qəlbindən aparmağa hər zaman hazırdır. O qorxur ki, İlahi Kəlam hətta ən etinasız insanı da oyadıb, onun daşlaşmış qəlbini dəyişər. Şeytan və onun əlaltıları Xoş Xəbərin təbliğ olunduğu yerə gəlirlər. Mələklər insan qəlbinə İlahi Kəlamı aşılamaq istədikləri zaman, bəşəriyyətin düşməni hər an hazırdır ki, bu Kəlamın gücünü azaltsın və Onun insana olan gözəl təsirini məhv etsin.

Yalnız ona xas inadla Müqəddəs Ruhun işinə mane olmağa çalışır. Məsih Öz məhəbbəti ilə insan qəlbini Özünə yönəltmək istəyən zaman, Xilaskara yönəlmiş hər qəlbi şeytan Ondan yayındırmağa çalışır. O, insanda məhvə sürükləyən tənqidçilik ruhu yaradır, ona inamsızlıq, bədbinlik və ümidsizlik aşılayır. Vəzçinin hərəkəti və yaxud danışıq tərzi dinləyicinin xoşuna gəlməyən zaman, o məhz bu çatışmazlıqlara diqqət yetirir. Allah tərəfindən göndərilmiş və ona vacib olan həqiqətlər isə lazımınca dərk olunmur.

Şeytanın köməkçiləri də çoxdur. Bəzi insanlar özlərini məsihçi hesab edərək, başqalarının qəlbindən həqiqət toxumlarını qəsb etməkdə şər qüvvəyə yardım edirlər. İlahi Kəlamı dinləyənlərin bir qismi isə öz evlərində onu tənqid mövzusu edirlər. Onlar təbliğə adi bir məruzə, ya- [22] xud siyasi çıxış kimi münasibətlər bəsləyirlər. İlahi Kəlam kimi qəbul edilməli ikən, təbliğ onlar üçün yüngül zarafat və yaxud istehzalı iradlar obyektinə çevrilir. Vəzçinin xasiyyəti, onun motivləri və hərəkətləri, həmçinin, imanlılar cəmiyyətinin üzvlərinin davranışı da həmin adamlar tərəfindən təhqiramiz şəkildə müzakirə edilir. Bu vaxt tez-

tez düşünülməmiş iradlar, qeybətlər və yaxud böhtanlar eşidilir və bunların hamısı imanda olmayanların yanında baş verir. Valideynlər tez-tez öz övladlarının yanında bu cür söhbətlərə yol verirlər. Beləliklə, Allahın Müjdəsini yayanlara və onların söylədiklərinə etibarsızlıq və hörmətsizlik yaranır. Bunun nəticəsində isə çoxları İlahi Kəlamın özünə belə sadəlövhlüklə yanaşırlar.

Nəticədə, belə ailələrdə gənclər imana gəlmirlər. Övladlarının Xoş Xəbərlə maraqlanmamaqları və Müqəddəs Kitabın həqiqətlərini etinasızcasına danmaqları isə valideynləri çaş-baş salır. Əxlaqi və

dini təsirin gəncləri maraqlandırmaması onlarda təəccüb doğurur. Onlar dərk etmirlər ki, məhz özlərinin təsiri övladlarının qəlbini sındırır. Yaxşılıq toxumu kök atmadığı üçün şeytan onu qəsb edir.

## Daşlı torpaqdakılar

“Daşlığa düşənlər isə onlardır ki, kəlamı eşitdikdə sevinclə qəbul edirlər. Lakin kökləri olmadığından bir müddət iman edirlər və imtahan zamanı imandan dönürlər”.

Daşlı torpağa düşmüş toxum dərinə getmir. Tez cücərməyinə baxmayaraq, daşların arasında kök

atmadığı üçün inkişaf etmək qüvvəsi almadan çox tezliklə quruyur. Dini qəbul etmiş adamların bir çoxu daşürəkli çıxırlar. Nazik torpaq qatının altında gizlənmiş qaya kimi, insan ürəyinə xas olan özünəməhəbbət hissi də onun yaxşılıq etmək arzu və istəklərinin əsasını təşkil edir. Özünəməhəbbət hissi dəf olunmayıb. İnsan [23] öz “mən”inin günahkarlığını görmədən ürəyini Allaha tabe etmir. Belə insanlar təbliğlə tez maraqlanırlar, təsirə tez düşürlər. Zahirən onlar imanlılar cəmiyyətinə daxil olmalarına çox sevinirlər, lakin həqiqətdə imandan uzaqdırlar.

Bu şəxslərin dindən tezliklə uzaqlaşmalarına səbəbin İlahi Kəlamı çox tez, asanlıqla və böyük həvəslə qəbul etmələri olduğunu güman etmək düzgün deyil. Matta da Xilaskarın çağırışını eşidən kimi hər şeyini atıb, Onun dalınca getdi. Allah istərdi ki, biz Onun sözlərini dərhal, bizim ürəyimizə toxunan an qəbul edək və bu sözlərin sevinclə qəbul edilməsi tərifəlayiqdir. “Göydə tövbə edən bir günahkara görə... daha çox sevinc olacaqdır” (Lk.15:7). Məsihə iman gətirmiş insan qəlbi də sevinclə dolur. Ancaq məsəldə deyildiyi kimi, “Kəlamı dərhal qəbul edən” kəslər bunun nəyin bahasına başa gələcəyini bilmirlər. Allah Kəlamının onlardan

nə tələb etdiyini nəzərə almırlar. Onlar bu Kəlamdan özlərinin keçmişdən qalan vərdişləri və adətlərini ləğv etmək və bütünlüklə Allahın iradəsinə tabe olmaq üçün istifadə etmirlər.

Bitkinin kökləri torpağın dərinliklərinə baş vurur və gözlə görünməyən maddələr bitkiyə həyat bəxş edir. Məsihçinin həyatı da buna bənzəyir; onun ruhlu həyatı da qəlbin Məsihlə gözəgörünməz ittifaqı və iman vasitəsilə qidalanır. Lakin ürəkləri daşlı torpağa bənzəyən dinləyicilər Məsihə iman gətirmək əvəzinə, yalnız öz güclərinə güvənirlər. Onlar öz yaxşı əməllərinə

arxalanırlar, öz doğruluqlarına şübhə etmirlər. Onlar Rəbbin gücündən qidalanmamış və Onun qüdrəti ilə möhkəmlənməmişdirlər. Beləleri "köksüzdürlər", çünki Məsihlə bir deyillər.

İsti yay günəşi dərin kök salmış cücərtiləri canlandıraraq, kök atmamışları yandırıb qurudur. Həmin vəziyyət "özündə kök olmayan", "qərarsız olan" və "çətinliyə düşən kimi Kəlamdan imtina edən" şəxslərlə baş verir. Çoxları Xoş Xəbəri günahdan azad olmaq üçün yox, əziyyətlərdən qurtarmaq üçün qəbul edirlər. Onlar dinin onları çətinliklərdən azad edəcəyini güman

edərək, bir müddət xoşbəxt olurlar və həyatları [24] çətinliksiz keçən müddətdə bu adamlar həqiqi məsihçi təsəvvürü yaradırlar. Lakin imtahan qarşısında onlar aciz olurlar. Məsihə iman gətirdikləri üçün edilən məzəmmətlərə dözmürlər. İlahi Kəlam onların günahlı vərdişlərini ifşa edib, onlar üçün əziz olan şeyləri qurban verməyi tələb edəndə, bu tələblərə əməl etmək iqtidarında olmurlar. Həyatlarını qəti dəyişmək onlar üçün imkansız görünür. Onlar bugünkü narahatçılıq və çətinliklərə baxırlar və əbədi dəyərləri unudurlar. İsanı tərk etmiş şagirdləri kimi, onlar belə deyirlər: “Bu, çətin sözdür. Onu kim dinləyə bilər?” (Yəh. 6:60).

Özlərini Allaha iman gətirmiş hesab edənlərin çoxu Onu dərk etmək yolunda şəxsi təcrübələri olmayan adamlardır. Onların Allahın iradəsinə uyğun yaşamaq arzuları Müqəddəs Ruhun təsiri altında yox, özlərinin istəkləri və səyləri ilə həyata keçirilir. Onların həyatı İlahi Qanunla tənzimlənmir. Məsihi özlərinin şəxsi Xilaskarı kimi qəbul etsələr də, günahlarından azad olmaq üçün onlara güc verəcəyinə inanmırlar. Diri Xilaskarla şəxsi dərin ünsiyyətə girmədikləri üçün onlarda irsi və sonradan qazanılmış qüsurlar qalmaqdadır.

Müqəddəs Ruhun təsirinə ümumi tərzdə inanmaq və Onun ifşaedici təsiri altında tövbə etmək bir-birindən fərqli anlayışlardır. Bir çox insanlar Allahdan uzaq olduqlarını dərk edir və Ondan daha çox öz günahlarına bağlı olduqlarını anlayırlar. Onlar bu vəziyyəti dəyişmək üçün müəyyən işlər görürlər və səylər göstərirlər, ancaq bununla yanaşı, öz “mən”lərini ləğv etmirlər. Özlərini Məsihə tam tabe etmirlər ki, Allahın qüdrəti Öz iradəsini icra edə bilsin. Xasiyyətlərinin İlahi səviyyədə dəyişməsini istəmirlər. Çatışmayan cəhətlərini ümumiyyətlə etiraf etsələr də, ayrı-ayrı günahlardan əl çəkmirlər. Hər səhv addımla köhnə

günahkar təbiətləri onları uçuruma aparır.

Bu insanların yeganə ümidi Məsihin Nakdimona dediyi sözlərdəki həqiqəti özləri üçün dərk etmələrindədir: “Yenidən doğulmalısınız”. “Bir kimsə yenidən doğulmasa, Allahın Səltənətini görə bilməz” (Yəh. 3:7, 3). [25]

Həqiqi müqəddəslik insanın özünü bütövlüklə Allaha həsr etməsindədir. Həqiqi məsihçi həyatının əsas şərti bundan ibarətdir. Məsih bizdən tam tabeçilik, fədakarlıq və ürəyin, şüurun, qəlbin və bütün qüvvənin sərf olunmasını gözləyir. Öz “mən”ini qorumaq lazım

deyil. Yalnız öz mənafeyi üçün yaşayan şəxs məsihçi ola bilməz.

İnsanın bütün hərəkətlərinin əsasında məhəbbət hissi durmalıdır. Allahın göylərdəki və yerdəki üsul-idarəsinin əsasını məhəbbət təşkil edir və məsihçinin xasiyyəti məhz onun üzərində qurulmalıdır. Yalnız məhəbbət onu cəsarətli və dönməz edə bilər. Yalnız bu hiss məsihçinin müxtəlif çətinliklər və imtahanlardan çıxmasına kömək edər.

Məhəbbət qurbanla nümayiş etdirilir. Xilas planının əsasında qurban dayanırdı — bu qurban o qədər geniş, dərin və yüksəkdir ki, heç bir ölçüyə sığmaz. Məsih bizim

xilasımız naminə hər şeyini verdi və Ona həqiqətən iman edənlər də Xilaskar naminə hər şeylərindən imtina etməyə hazırdırlar. Onun məhəbbəti və həqiqəti onlar üçün daim birinci yerdədir.

Əgər biz İsanı seviriksə, Ona həsr olunmuş həyatı da sevəcəyik, Ona öz minnətdarlığımızı bəxş edəcəyik və Onun üçün çalışacağıq. Bu işin özü bizim üçün asan olacaqdır. Onun uğrunda biz ağır imtahanları, ağrı və qurbanları sevinclə qəbul edəcəyik. Yalnız bu yolla biz Onun insanları xilas etmək istəyini dərk etmiş oluruq. Yalnız bu yolla Onun insan

qəlbinə nə qədər incə yanaşdığını başa düşmüş oluruq.

Həqiqi məsihçilik bundan ibarətdir. Bundan qeyri hər şey yalandır. Heç bir kənar nəzəriyyə, yaxud həvarilik bir nəfər insanı da xilas edə bilməz. Məsihə tam təslim olmayınca, biz Onunku ola bilmərik. Məhz məsihçi həyatındakı yarımçıqlıq məqsədyönlü və qərarlı olmağı imkansız edir. Eyni zamanda həm özünə, həm də Məsihə xidmət etmək cəhdi insan ürəyini daş edir ki, bu daşın üzərində İlahi Kəlam bitə bilməz, çünki imtahanlar qarşısında acizdir. [26]

## Tikanlar arasına səpilmişlər

"Tikanlar arasına düşənlər isə onlardır ki, Kəlamı eşidirlər; lakin getgedə bu həyatın qayğıları, zənginliyi, zövqlərilə boğulur və yetkin səmərə vermirlər".

Xoş Xəbər toxumu çox zaman tikanlıqlar və barsız otlar arasına düşür və əgər insanın qəlbində ruhlu dəyişiklik baş vermirsə, köhnə vərdişlər və əvvəlki günahkar həyat tərzi tam dəyişməyibsə, şeytani hisslər insanın qəlbindən tam kənar edilməyibsə, yaxşılıq cücərtiləri bitməyəcəkdir. Bu insanın məhsulu

tikanlar olacaq və yaxşılıq cücərtilərini məhv edəcəkdir.

Lütf yalnız daim müqəddəs həqiqətləri qəbul etməyə hazırlanan ürəkdə yer tapır. Günah otları baxılmayan torpaqda da sürətlə cücərir, onlara xidmət etmək lazım deyil, lütfü isə böyük qayğı ilə bitirmək lazımdır. Tikanlı otlar həmişə bitməyə hazır olduqları üçün onları daim qoparmaq lazımdır. Ürək daim Allahın təsiri altında olmayınca və Müqəddəs Ruh onu təmizləyib, insanın xasiyyətini daim gözəlləşdirməyincə, əvvəlki günahlı vərdişlər və qüsurlar mütləq onun həyatında özünü göstərəcəkdir. İnsan

öz inamından sevinclə danışa bilər, lakin Xoş Xəbərlə ziyalanmayıbsa, onun dedikləri gücsüzdür. Əgər o, günah üzərində tam qələbə əldə etməyibsə, günah ona qalib gələcəkdir. Kəsilmiş, lakin kökündən çıxarılmamış alaq otları sürətlə bitərək bütün sahəni bürüyə bilər.

Məsih insanların nəzərini qəlbi izləyən təhlükələrə cəlb edir. Markın yazdığına görə, bunlar bu günün qayğıları, var-dövlət həvəsi və başqa ehtiraslardır. Luka qayğılara, var-dövlətə və həyat ehtiraslarına diqqət yetirir. Bunların hamısı İlahi Kəlamı unutdurur və həqiqət toxumlarının bitməsinə imkan vermir. Qəlb

Məsihin qidası ilə qidalanmadığı üçün Ruh insan ürəyini tərk edir. [27]

“Bu həyatın qayğıları”. Bu qayğılardan heç kim azad deyil. Kasıbın qayğıları ağır zəhmət, ehtiyac və yoxsulluq təhlükəsidir. Varlının qayğısı isə yığdığı var-dövləti itirmək qorxusundan ibarətdir. Məsihin davamçılarının çox hissəsi tarladakı çiçəklərdən götürməli olduqları dərsi unudurlar. Bu adamlar Onun daimi qayğısına etibar eləmirlər. Məsih isə Ona tam etibar etməyincə, onların qayğılarını yüngülləşdirə bilməz. Beləliklə, təbii olan həyat qayğıları insanları Məsihdən kömək almaq

üçün Ona yönəltmək əvəzinə, Ondan uzaqlaşdırmış olur.

Allaha xidmət etməkdə faydalı ola biləcək bir çox insanlar öz güclərini var-dövlət toplamağa sərf edirlər.Onların bütün enerjisi iş fəaliyyətinə həsr olunduğu üçün ruhlu dəyərlərdən imtina etməyi zəruri hesab edirlər. Beləliklə də, onlar Allahdan uzaqlaşırlar. Müqəddəs Kitab bizi işləməyə və "səydə zəifləməməyə" çağırır (Rom. 12:11). Biz işləməliyik ki, ehtiyacı olanlara yardım edə bilək. Məsihin davamçısı mütləq işləməlidir və o, elə bir işlə məşğul ola bilər ki, günaha yol verməsin. Çoxlarını isə iş

fəaliyyətləri o dərəcədə cəlb edir ki, dua etməyə, Müqəddəs Kitabı öyrənməyə, Allaha ibadət etməyə və Ona sərf etməyə vaxtları qalmır. Hərdən belə qəlbdə də müqəddəs və göylərdən gələnə ehtiyac oyanır, lakin gündəlik qayğılardan ayrılıb, Müqəddəs Ruhun söylədiyi ən əsas, ümdə olanı eşitməyə vaxt qalmır. Əbədiyyət onların nəzərində ikinci dərəcəli, dünyəvi işlər isə birinci dərəcəli məsələdir. Bu vəziyyətdə isə İlahi Kəlamın toxumları bar verə bilməz, çünki qəlb dünyəvi toxumları cücərtməklə məşğuldur.

Həyatda müxtəlif məqsədlər güdən insanların çoxu belə bir yalanla

yaşayırlar. Onlar hətta insanların xeyri üçün ürəkdən çalışırlar və hesab edirlər ki, bu işlər onları Allaha ibadət etməkdən azad edir. Dua etmək və İlahi Kəlamı təhlil etmək vasitəsilə Allahla ünsiyyətə girməkdən imtina edərək, onlar Məsihin bu sözlərini unutmuş olurlar: “Mənsiz heç bir şey edə bilməzsiniz” (Yəh. 15:5). Onlar Məsihsiz yaşayırlar, həyatları Onun lütfü ilə işıqlanmır və xasiyyətlərində də şöhrətpərəstlik duyulmaqdadır.

[28] Nəticədə, onların ibadəti şöhrətpərəstliyə, birinci olmaq arzusuna və ürəkdəki eqoist istəklərə çevrilir. Məsihçi ibadətində uğursuzluğun ən mühüm səbəbi bundan ibarətdir. Buna görə də onun

nəticələri çox cüzi və nəzərəçarpmaz olur.

“Varlanma həvəsi”nin insana çox güclü təsiri vardır. Dünyanın vardövlət sahibləri tez-tez unudurlar ki, bu sərvətlərin qazanılması üçün güc verən Allahdır. Onlar belə deyirlər: “Biz öz qabiliyyətimizlə və biləyimizin gücü ilə bu sərvəti qazandıq” (Qan. tək. 8:17). Sahib olduqları var-dövlət onları Allaha şükür etməyə yox, öz “mən”lərini yüksəltməyə doğru aparır. Onlar Allahdan asılı olduqlarını və yaxınlarına münasibətdə daşıdıqları vəzifələrini unudurlar. Sahibi olduqları var-dövlətin Allah

tərəfindən bəxş edildiyini dərk etmək və buna görə də ondan Onun adının izzətləndirilməsi və insanların mənafeyi üçün istifadə etmək əvəzinə, onlar var-dövlətlərinə özlərini ucaltmaq vasitəsi kimi baxırlar. Bu məqsədlə sərf olunan var-dövlət insana İlahi keyfiyyətləri aşılamaq əvəzinə, onda şeytani hisslər oyadır. Bu halda da İlahi Kəlamın toxumları alaq otları ilə basılır.

İnsan üçün böyük təhlükə doğuran cəhətlərdən dünyəvi ləzzətləri və "həyatın zövqləri"ni göstərmək lazımdır ki, onları şəxsi ehtirasları ödəmək üçün sevirlər. İnsanı gücdən salan, onun şüurunu

dumanlandıran və ruhlu həqiqətləri dərk etmək qabiliyyətini kütləşdirən vərdişlər və qüsurlar “cana qarşı döyüşən cismani ehtirasların” nümunəsidir (1 Pet. 2:11).

Məhvedici ehtiraslara öz — özlüyündə günahlı olmayan, lakin Allahın Səltənətindən üstün tutulanda təhlükəli olan işlər də aid edilməlidir. Bizim şüurumuzu Allahdan yayındıran, hisslərimizi Məsihdən uzaqlaşdıran hər şey qəlbimiz üçün öldürücüdür.

Şüurun gənc, fəal və sürətli inkişafı zamanı insanın öz mənliyini inkişaf etdirmək və özünə pərəstiş etmək meyli güclü olur. Bu vaxt işləri

uğurlu gedərsə, onu vicdanının səsini boğub, xasiyyətin həqiqi gözəlliyini [29] görmək qabiliyyətini unutmaq təhlükəsi gözləyir. Zamanla həyat şəraitinin özü insanı Allah Kəlamına zidd inkişaf etməyə vadar edir.

Övladlarının yetkinlik dövründə valideynlərin məsuliyyəti daha da artıq olur. Bu dövrdə bütün qüvvələr gənclərdə həyata düzgün baxış və həqiqi müvəffəqiyyət haqqında fikir formalaşdırmağa yönəlməlidir. Ancaq bu gün valideynlərin çoxu öz səylərini bu məqsəd əvəzinə, övladlarının günahkar dünya həyatında çiçəklənməsinə yönəldirlər. Onların tanışlıq əlaqələri məhz bu

məqsədə xidmət edir. Öz övladlarını kübar cəmiyyətə üzv etmək üçün bu valideynlər böyük şəhərlərə köçürlər. Onlar uşaqlarını elə mühitə salırlar ki, bu onlarda şöhrət və qürur hisslərinin aşılanmasına gətirib çıxarır. Belə bir mühitdə qəlbin və təfəkkürün təbii inkişafı pozularaq, ali məqsədlər itirilir. Allaha təslim olub əbədi həyat varisi olmaq fikri dünyəvi həyat mənafeyi ardınca qaçarkən unudulur.

Valideynlərin çoxu hesab edirlər ki, övladlarının əyləncələrinə yol verməklə, onları xoşbəxt edirlər. Onlar övladlarının idman azarkeşliyini, şən məclislər aludəçiliyini dəstəkləyərək, onların

ehtiraslarına və qürurlarına rəvac verirlər. Lakin ehtiraslar təmin edildikcə, onlara maraq güclənir. Belə gənclərin maraqları get-gedə yalnız əyləncədən ibarət olur. Zaman keçdikcə əyləncələr onların həyatının əsas məqsədinə çevrilir. Nəticədə, insan öz ehtiraslarının, ərincəkliyin və qeyri-ciddiliyinin köləsinə çevrilir ki, bunlar da onun həqiqi məsihçi olmaq imkanını yox edir.

Təəssüf ki, həqiqətin təməli və dirəyi olmaq əvəzinə, imanlılar cəmiyyəti də bəzən əyləncəyə qarşı eqoist məhəbbətə rəvac verir. Dini məqsədlərə vəsait toplamaq üçün imanlılar cəmiyyətləri nə kimi

vasitələrdən istifadə etmirlər? Onlar mərhəmət məqsədi ilə bazarlar, şam axşamları, geyim yarmarkaları və hətta lotereya və digər tədbirlər təşkil edirlər. Çox vaxtlar hətta Allaha ibadət üçün ayrılmış yerlər də ticarət, şənliklər və başqa əyləncələrlə murdarlanır. Bunun nəticəsində isə gənclərin Allahın məbədinə və müqəddəs ibadətə hörməti böyük dərəcədə [30] itirilir. İnsanın özünü idarə etmək səyləri nəticəsiz qalır. Özünəpərəstiş, qarınquluMluq, qeybət etmək kimi keyfiyyətlər insana hakim kəsilir və onların qarşısı alınmazsa, təhlükəli dərəcədə vüsət alırlar.

Həzz almaq və əyləncə dalınca getmək şəhərlərdə daha güclüdür. Valideynlərin çoxu övladları üçün şəhər həyatı seçərək, onlara böyük üstünlüklər verdiklərini düşünürlər, lakin nəticədə bağışlanmaz səhv və gecikmiş təəssüf hissi keçirirlər. Müasir şəhərlər sürətlə Sodom və Homorraya bənzəyirlər. Çoxsaylı istirahət və bayram günləri yalançı bayram əhval-ruhiyyəsi yaradırlar. Həyəcanlı əyləncələr — teatrlar, at yürüşləri, qumar oyunları, içki məclisləri və ziyafətlər güclü emosional gərginlik əmələ gətirir. Gənclər də bu ümumi axına qoşulurlar. Beləliklə, yalnız əyləncə naminə əylənənlər şeytan vəsvəsəsinə

düşmək üçün qəlblərini açırlar. Onlar öz vaxtlarını qayğısız şənliklərə və mənasız həyat tərzinə sərf edirlər. Özləri kimi aldadıcı xoşbəxtlik və ləzzətlər axtaranların arasında onlar bu nəşəli təsirə düçar olurlar. Onlar doyana qədər, başlıcası isə artıq şüurlu və faydalı həyat tərzi keçirmək imkanından məhrum olana qədər bu əyləncələrdən ayılmaq istəmirlər. Onların dini ehtiyacları sönür və ruhlu həyatları qaranlığa qərq olur. Qəlbin bütün gözəl keyfiyyətləri və insanın ruhlu dünya ilə hər hansı bir bağlılığı itir.

Bu zavallıların bəziləri müəyyən anlarda özlərinin acınacaqlı

vəziyyətlərini görüb, təəssüflənib tövbə edə bilərlər. Allah onları hər an bağışlaya bilər. Lakin onlar öz qəlblərinə o qədər ziyan vurublar ki, həyatlarının sonuna kimi təhlükə altında olacaqlar, çünki bu insanlarda yaxşı və pis anlayışlarını fərqləndirmək qabiliyyəti yox dərəcəsindədir. Artıq nə Müqəddəs Ruhun yönəldici səsini eşidir, nə də şeytanın kələklərini ayırd edə bilirlər. Hər bir çətin, təhlükəli anda Allahı itirə bilərlər. Əyləncələr dalınca qaçmaq həyatı gələcəkdə əvəzolunmaz itkilərə gətirir.

İnsanların qəlbini cəlb etmək üçün şeytan öz hiyləgər oyununda

qayğılardan, var-dövlətdən və həzlərdən istifadə edir. Bizə xəbərdarlıq [31] edilib: “Dünyanı və dünyada olan şeyləri sevməyin. Kim dünyanı sevərsə, onda Atanın məhəbbəti yoxdur. Çünki dünyada olan hər şey, yəni cismani ehtiras, gözlərin ehtirası və həyatın təkəbbürü Atadan deyil, dünyadandır” (1 Yəh. 2:15, 18). İnsanların ürəklərini açıq kitab kimi oxuyan Allah buyurur: “Amma diqqətli olun ki, ürəkləriniz qarınquluGluq və sərxoşluqla, bu həyatın qayğıları ilə ağırlaşmasın və o Gün sizi qəflətən yaxalamasın” (Lk. 21:34). Müqəddəs Ruhdan ilham almış həvari Pavel isə belə yazıb: “Varlanmaq istəyənlər isə yoldan

çıxır və tora düşürlər və insanları fəlakətə və həlaka aparan bir çox mənasız və ziyanverici ehtiraslara qapılırlar. Çünki hər cür pisliyin kökü pulpərəstlikdir. Buna qapılan bəziləri iman yolundan uzaqlaşıb, özlərinə bir çox əzablar çəkdirdilər" (1 Tim. 6:9, 10).

## Torpağın hazırlanması

Əkinçi haqqında məsəldə Məsih diqqətimizi əkinin nəticələrinin toxumun düşdüyü torpaqdan asılı olduğuna yönəldir. Hər bir şəraitdə əkinçi ilə toxum dəyişmirlər. Bu isə onu göstərir ki, əgər İlahi Kəlam

bizim ürəklərimizi və həyatımızı dəyişmirsə, bunun səbəbi bizim özümüzdədir. İlahi Kəlamın toxumları o vaxt məhsul verir ki, bizim özümüzdə yeniləşmək arzusu böyük olur. Əlbəttə, biz özümüzü dəyişə bilmərik, lakin seçmək imkanı əlimizdədir və bizim gələcəkdə kim olacağımız bundan asılıdır. Yol kənarındakı, daşlı və yaxud alaq otları ilə örtülmüş torpaq həmişə belə qalmağa məhkum edilməyib. Allahın Ruhu daim ümidsizlik möhürünü sındırıb, insanı dünyəvi yalanlardan ayıraraq, onda əbədi dəyərlərə ehtiyac oyadır. Yalnız İlahi Ruha müqavimət göstərən insan Onun səsini eşitmir və duymur. Ürəklərinin kasıblamasında

insanlar özləri günahkardırlar, özləri qəlblərinə yaxşılıq toxumlarının səpilməsinə imkan vermirlər. [32]

Ürək bağına xidmət etmək gərəkdir. Onun torpağını günahdan tövbə etməklə yumşaltmaq lazımdır. Daim şeytanın səpdiyi alaq otlarını kökündən qoparmaq lazımdır. Alaq otları ilə örtülmüş sahəni ağır zəhmətlə təmizləmək olar. Eyni ilə təbii ürəkdəki günahlı istəkləri də yalnız İsa naminə və Onun yardımı ilə uzun və ağır səylər nəticəsində dəf etmək olar. Öz peyğəmbəri vasitəsilə Rəbb bizi buna dəvət edir: “Özünüz üçün təzə əkin yeri şumlayın, lakin tikanlar arasında əkməyin”. “Özünüz

üçün doğruluq əkin, məhəbbət bəhərini biçərsiniz” (Yer. 4:3: Huş. 10:12). O bu işi bizim üçün görmək istəyir və bizi Ona yardımçı olmağa dəvət edir.

İlahi Kəlamın toxumlarını səpənlərin qarşısında ürəkləri Xoş Xəbəri qəbul etmələri üçün yetişdirmək kimi ali məqsəd dayanır. Kəlamın təbliği zamanı dəbdəbəyə çox, ürəkdən-ürəyə söhbətə isə az yer verilir. İtirilmiş qəlblərlə şəxsi işləməyə ehtiyac vardır. Biz hər bir insana şəxsən, Məsihə xas dərin həssaslıqla yanaşıb, onda əbədi həyata canlı maraq oyatmalıyıq. Bəzən insan qəlbi çoxdan bəri

tapdanmış yol kimi bərk olur və onu Xilaskara gətirmək cəhdi əbəs görünə bilər. Lakin məntiqin və təfəkkürün gücsüz olduğ.u yerdə Məsihin məhəbbəti Allah Kəlamını təbliğ edənlə şəxsi ünsiyyət zamanı daşlaşmış ürəkləri belə yumşaldıb, onlarda həqiqət toxumları səpmiş olar.

Kəlamı əkənlər daim gözləməlidirlər ki, onun cücərtiləri qəlbin baxımsızlığı nəticəsində alaq otları ilə örtülüb məhv olmasın. Hər iman etmiş məsihçini ilk günlərdən məsihçiliyin əsasları haqqında məlumatlandırmaq gərəkdir. O başa düşməlidir ki, sadəcə Məsihin

qurbanı vasitəsilə xilas olmayacaqdır, ancaq Məsihin həyatını öz həyatı edərək, Onun xasiyyətini öz xasiyyəti edərək xilas olacaqdır. Hər kəsə deyilməlidir ki, öz yükünü ləyaqətlə özü çəkməlidir və təbiətən günahkar xasiyyətini dəyişməlidir. Gərək hər bir kəs Məsihin əsgəri kimi özünü unudub, səbir və təmkinlə Onun ardınca gedərək, Onun üçün çalışmağın ləzzətini dadsın. İnsanlar Onun məhəbbətinə etibar edib, öz qayğılarını Ona həvalə [33] etməyi öyrənməlidirlər. Qoy onlar başqa insanları Ona cəlb etmək sevincini duysunlar. Başqalarına göstərilən diqqət və məhəbbət içində onlar öz “mən’lərini unudacaqlar. Dünyəvi

ləzzətlər artıq onları cəlb etməyəcək, qəlblərini soyuda bilməyəcək. Həqiqət kotanı torpağı hazırlayacaqdır. O, bərkimiş torpağı yumşaldacaqdır. O, tikanları qoparmaqdan əlavə, onları kökündən təmizləyəcək.

## Bərəkətli torpaqdakılar

Əkinçinin zəhməti xoşbəxtlikdən həmişə əbəs olmur. Bərəkətli torpağa düşmüş toxum haqqında Xilaskar deyir ki, “o, Kəlamı eşidər, anlayar və doğrudan da səmərə verər, bəzisi yüz, bəzisi altmış, bəzisi otuz qat səmərə gətirər”. “Bərəkətli torpaq üzərinə

düşənlər isə onlardır ki, Kəlamı eşidib, sadiq və təmiz ürəkdə saxlayırlar və səbirlə səmərə verirlər”.

Məsəldə göstərilən “sadiq və təmiz ürək” heç də günahsız ürək deyil, axı Xoş Xəbər günahkarlar üçün gəlmişdir. Məsih demişdir: “Mən salehləri deyil, günahkarları tövbəyə çağırmağa gəlmişəm” (Mk. 2:17). Sadiq və təmiz ürək Müqəddəs Ruh üçün açıq olanlardır. Onlar günahkar olduqlarını dərk edərək Allahın mərhəmət və məhəbbətinə ehtiyac duyurlar. Həqiqəti səmimiyyətlə dərk edib ona təslim olmaq istəyirlər. Təmiz ürək —

imanlı ürəkdir, İlahi Kəlama imanla yaşayan ürəkdir. İman gətirmədən bu Kəlamı qəbul etmək olmaz. “Çünki Allaha yaxınlaşan iman etməlidir ki, O var və Onu axtaranlara mükafat verir” (İbr. 11:6).

Deməli, “Kəlamı eşidib sadiq və təmiz ürəkdə saxlamağın” mənası bunda imiş. Məsihin zamanında fəriseylər görməmək üçün gözlərini yumur, eşitməmək üçün qulaqlarını tuturdular və ona görə də həqiqət onlara çatmırdı. Bilərəkdən özlərini bilməməzliyə və görməməzliyə vurduqları üçün onları cəza gözləyir. Məsih isə Öz şagirdlərinə ürəklərini [34] və şüurlarını Onun sözləri üçün

açıb iman etməyi tövsiyə edirdi. Onlar görüb və eşidərək iman etdikləri üçün Məsih onlara xeyir-dua verdi.

Bərəkətli torpağa bənzədilmiş dinləyici — Kəlamı “bəşəri söz olaraq deyil, əslində olduğu kimi, Allahın sözü olaraq qəbul edir” (1 Salon. 2:13). Müqəddəs Kitabı yalnız o kəslər həqiqətən dərk edə bilər ki, onlar onu Allahın şəxsən onlara aid olan Sözü kimi qəbul edirlər. Onlar Sözə həssaslıq və müqəddəs həyəcanla yanaşırlar, çünki onlar üçün o, canlı həqiqətdir. Onlar Kəlama iman etmək üçün şüurlarını və ürəklərini ona təslim edirlər.

Kornelius və yoldaşları məhz belə dinləyicilər idilər ki, həvari Peterə belə dedilər: “İndi biz hamımız Allahın sənə əmr etdiyi hər şeyi dinləmək üçün burada, Allahın qarşısında hazırıq” (Həv. iş. 10:33).

Həqiqətin dərk olunması idrakın gücündən çox, istəklərin paklığından və həqiqi imanın sadəliyindən asılıdır. Allahın mələkləri o kəslərə yaxınlaşırlar ki, onlar ürəkdən gələn səmimiyyətlə İlahi rəhbərlik umurlar. Müqəddəs Ruh həqiqət xəzinəsini məhz onlara açır.

Məsihin bərəkətli torpağa bənzətdiyi insan Kəlamı eşidərkən onu qəlbində elə möhkəm saxlayır ki,

şeytan öz şər qüvvəsi ilə bu cəvahiri həqiqi məsihçidən oğurlaya bilmir.

Kəlamı, sadəcə, eşitmək, yaxud da onu oxumaq azdır. Kim həqiqətən bir şeyə nail olmaq istəyirsə, Kəlamın gətirdiyi həqiqət üzərində uzun müddət və əzmlə düşünməlidir. Ciddi diqqət və dua ilə düşüncələr həqiqəti dərk etməyə və Müqəddəs Kitabın mənasını dərindən başa düşməyə gətirəcəkdir.

Allah bizə əqlimizi ali və təmiz düşüncələrlə doldurmağı tövsiyə edir. O istəyir ki, biz daim Onun mərhəməti və məhəbbəti haqqında düşünərək, möcüzələrlə dolu qurtuluş planını dərk edə bilək. Bu təqdirdə

Onun ali həqiqətləri aydınlaşaraq, bizim qəlblərimizi təmizləyib, şüurumuzu paklaşdırmaq istəyimizi gücləndirəcəkdir. Daim pak olan müqəddəs düşüncələr əhatəsində qəlb Allah Kəlamı vasitəsilə Allahla ünsiyyətdə olaraq yeniləşir. [35]

"... və səmərə verirlər". Sözü eşidərək, onu qoruyub saxlayanlar iman qazanacaqlar. Qəlbə nüfuz etmiş Allah Kəlamı mütləq özünü yaxşı əməllərdə büruzə verəcəkdir. Bu, Məsihin xasiyyətinə oxşar xasiyyətdə və insanın həyatında əyani görünəcəkdir. Məsih Özü haqqında demişdir: "Ey Allahım, Sənin istəyinə əməl etmək Mənə zövq verir,

Qanununu qəlbimdədir” (Məz. 40:8). “Mən öz iradəmi deyil, Məni Göndərənin iradəsini yerinə yetirirəm” (Yəh. 5:30). Müqəddəs Kitab belə deyir: “Kim deyirsə ki, Onda yaşayır, O necə hərəkət etdisə, özü də eyni cür hərəkət etməlidir” (1 Yəh. 2:6).

Allah Kəlamı insanın irsi və əldə edilmiş xarakter cəhətlərinin əksini təşkil edir. Lakin bərəkətli torpağa bənzəyən dinləyici Kəlamı eşidərkən, onun bütün şərtlərini və tələblərini qəbul edir. Öz vərdişlərini, adətlərini və yaşayış qaydalarını Allah Kəlamına təslim edir. Onun gözlərində fani olan, səhvə yol verə

bilən bəşər qanunları əbədi olan Allah Kəlamı yanında aciz görünür. O, sidq ürəklə və geri dönmədən, əbədi həyata tərəf gedir. O, könüllü və sevinclə tabe olduğu həqiqətə nəyin bahasına olursa-olsun, itkilərdən, təqiblərdən və ölümdən belə qorxmayaraq sadiq qalacaqdır.

Bu təqdirdə belə insan "səbirlə" səmərə verəcək. İlahi Kəlamı qəbul edənlərdən heç kim imtahan və çətinliklərdən azad olmur, lakin bu zaman onlar təlatüm, imansızlıq və bədbinliyə qapılmırlar. Zamanla yaranmış vəziyyətdən çıxış yolu görməyib, Allahın bizim haqqımızdakı məqsədlərini dərk

etmiriksə də, son nəticədə hər şeyin yaxşı olmasına inamı itirməməliyik. Biz Rəbbin məhəbbət və mərhəmətini unutmadan, öz qayğılarımızı Ona həvalə edib səbirlə Onun bəxş edəcəyi qurtuluşu gözləməliyik.

Münaqişə və dramlar bizim ruhlu həyatımızın inkişafında müəyyən dərəcədə rol oynayırlar. Mətinliklə qarşılanmış çətinliklər bizim xasiyyətimizi möhkəmlədib, gözəl ruhlu keyfiyyətlər şəklində qiymətsiz ruhlu səmərə verəcəkdir. Qaranlıq və şimşəklər arasında iman, ləyaqət və məhəbbətin səmərəsi daha da artır. [36]

“Budur, əkinçi ilk və son yağmuru alıncaya qədər, yerin qiymətli məhsulunu səbirlə gözləyir” (Yaq. 5:7). Eyni ilə məsihçi də Allah Kəlamı onun həyatında öz məhsulunu verincəyə qədər səbirlə gözləməlidir. Tez-tez, Ruhun məhsulu haqqında dua edərkən, Allah bu dualara bizi yerləşdirdiyi və ruhlu məhsulun yetişməsinə səbəb olan şəraitlə cavab verir, ancaq biz isə Onun məqsədini anlamayaraq, hadisələrin gözlənilməz dönüşünə təəccüblənərək, təlatüm içində oluruq. Lakin unutmaq olmaz ki, heç kəs uzunmüddətli inkişaf yolu keçmədən Müqəddəs Ruhun bu məhsulunu əldə edə bilməz. Bizim vəzifəmiz Allah Kəlamını

mənimsəyib, ondan möhkəm tutmaq və özümüzü onun rəhbərliyinə təslim etməkdən ibarətdir. Bu təqdirdə gec, ya tez istənilən nəticə əldə olunacaqdır.

"Kim Məni sevərsə, sözümə riayət edər; və Atam onu sevər və biz onun yanına gedib onunla bərabər məskən salarıq" (Yəh. 14:23). Yenilməz qüdrət mənbəyi ilə canlı ünsiyyətdə olduğumuz üçün, ali və kamil təfəkkür bizi idarə edəcəkdir. Öz ruhlu həyatımızı İsa Məsihə tabe edəcəyik. Bu zaman biz əvvəlki kimi eqoist həyat keçirməyəcəyik, çünki Məsih bizdə yaşayacaqdır. Bizim həyatımız Onun xasiyyətini nümayiş

etdirəcəkdir. Beləliklə, Müqəddəs Ruh bizlərdə bar verəcəkdir — “biri otuz, biri altmış, biri isə yüz qat səmərə ilə”. [37]

## Əvvəl ot, sonra sünbül”

(Mk. 4:26-29)

Əkinçi haqqında məsəl dinləyicilərdə çoxsaylı suallar doğurdu. Onların bir qismi başa düşdü ki, Məsih yer üzündə Öz padşahlığını qurmaq üçün gəlməyib, çoxlarını isə məsəl çaş-baş saldı. Onların çaşdıqlarını görən Məsih başqa bənzətmə gətirərək, onların fikrini yerdəki padşahlıqdan ayırıb, Allahın lütfünün insanın qəlbində gördüyü gərgin işə yönəltdi.

“Və dedi: Allahın Səltənəti yerə toxum səpən adam kimidir. Gecəgündüz yatar, durar və toxum bitər, böyüyər, özü isə bunun necə olduğunu bilməz. Çünki torpaq öz-özünə əvvəl otu, sonra sünbülü, daha sonra isə sünbüldə dolu dəni verir. Məhsul yetişdiyi zaman, dərhal orağı işə salar. Çünki biçin vaxtı gəlmişdir”.

“Məhsul yetişdiyi zaman, dərhal orağı işə salan” Məsihin Özü olacaqdır. Qiyamət günü məhz O, yer üzündə məhsul biçəcəkdir. Lakin məsəldə bəhs olunan əkinçi Məsih üçün zəhmət çəkəni göstərir. Məsəldə deyilir ki, toxum səpən onun “necə

bitib, böyüməyini bilməz”, bu, əlbəttə ki, Məsihə aid deyildir. Məsih yatıb dincəlmədən gecə-gündüz Öz xalqına nəzarət edir və toxumların necə böyüməsi məhz Ona əyandır.

Toxum haqqında məsəl bizə onu açır ki, Allah təbiətdə Öz işini görməkdədir.Toxumun bitmək qanunu və imkanları ona Allah tərəfindən verilmişdir. Lakin təkbaşına bitmək üçün onda güc yoxdur. Buna görə [38] bu prosesdə müəyyən iş insana məxsusdur. O, torpağı hazırlayıb, peyinləyib, toxumları səpməlidir. Alaq otlarını da o təmizləməlidir. Lakin elə hədd var ki, insan ondan o yana keçə bilmir.

Öz gücü və təffəkkürü ilə insan heç vaxt toxumu bitməyə məcbur edə bilməz. Bacardığı işləri gördükdən sonra o, qalan şeylərdə Öz yenilməz qüdrəti ilə əkini və biçini möcüzəli ardıcıllıqla Birləşdirənə arxalanmalıdır.

Toxumda həyat gizlənmişdir, torpaqda isə onu canlandıran qüvvə var, lakin gecə və gündüz müddətində onun üzərində Allahın sonsuz qüdrəti işləmədən, toxum bar gətirməz. Qurumuş zəmilər yağışla islanmalıdır, günəşlə isinməlidir, səpilmiş toxum qidalanmalıdır. Yaradanın toxuma verdiyi həyatı yalnız Özü canlandıra bilər. Yalnız

Allahın gücü ilə hər bir toxum cücərib boy atır.

“Torpaq zoğlarını necə cücərdirsə, bağ əkilən toxumları necə yetişdirirsə, Xudavənd Rəbb də bütün millətlər qarşısında salehliyi və həmdi belə yetişdirəcək” (Yeş. 61:11). Ruhlu həyatda da toxumla təbiətdə baş verən vəziyyət alınır: həqiqət müəllimi ürəkləri yumşaldıb toxum səpməlidir, lakin onu canlandıran güc yalnız Allaha məxsusdur. Elə hədd var ki, ondan sonra insan səyləri əbəsdir. Biz Kəlamı təbliğ etsək də, qəlbi oyadıb onda paklıq və şükür etmək cücərtiləri bitirə bilmərik. Kəlamın

təbliğində insanın imkanlarından qat-qat üstün olan qüvvə iştirak etməlidir. Yalnız Allahın Ruhu sayəsində Kəlam canlı və qüdrətli olub, insan qəlbini əbədi həyata qaytara bilər. Məsih Öz şagirdlərinin məhz bu məsələni dərk etməsini istəyirdi. O deyirdi ki, səylərinin müvəffəqiyyətli olması üçün onların özlərində heç bir şey yoxdur və yalnız Allahın möcüzələr yaradan qüdrəti Onun Kəlamını güclü edir.

Əkinçinin əməyi həmişə imanlı zəhmət olub. Toxumun cücərməsinin, sonra isə böyüyüb inkişaf etməsinin sirri ona məlum deyil. Lakin əkinçidə bitkiyə həyat verən Allahın qüdrətinə

iman var. İlk baxışdan əkinçi toxumları torpağa ataraq, onun ailəsinə çörək verə bilən qiymətli [39] dənləri itirmiş kimi görünür. Həqiqətdə isə o, əlindəki neməti artıqlaması ilə əldə etmək üçün torpağa atır. Eyni ilə Məsihin davamçıları da zəhmət çəkmə lidirlər ki, səpdikləri toxumların məhsulunu yığa bilsinlər.

Bərəkətli toxum soyuq, qürurlu, dünyəvi ürəkdə bir müddət həyat əlaməti olmadan, kök atmadan qala bilər. Lakin sonra, Allahın Ruhu qəlbə həyat verdiyi zaman, gizlənmiş toxum oyanacaq, cücərəcək və boy ataraq axırda Allahın şərəfinə

səbirsizliklə gözlənilən məhsulu verəcəkdir. Öz gündəlik işimizdə biz hansının — bunun, yoxsa digərinin arzu edilən nəticə verəcəyini çox vaxt bilmirik. Bizə bunu bilmək vacib də deyil. Biz yalnız öz işimizi görməliyik, onun səmərəsi isə Allahdan asılıdır. “Toxumunu səhər vaxtı səp, axşama qədər də əlin boş durmasın” (Vaiz 11:6). Allahın mərhəmətli əhdində deyilir: “Dünya durduqca əkin-biçin, isti-soyuq, yay-qış və gecə-gündüz sona yetməyəcək” (Yar. 8:22). Bu əhdə iman edərək, əkinçi torpağı şumlayır və toxum səpir. Onun əhdinə sadiq qalaraq, biz də ruhlu zəmidə zəhmət çəkirik: “Ağzımdan çıxan kəlmə də

belədir: boş yerə yanıma qayıtmaz, ancaq istədiyimi yerinə yetirər, onu göndərdiyim iş, icra olunsun deyə, həyata keçirər" (Yeş. 55:11). "Ağlaya-ağlaya toxum daşıyıb əkən sevinc harayı ilə dərzləri daşıya-daşıya gələcək" (Məz. 126:6).

Toxumun cücərməsi ruhlu həyatın başlanğıcını göstərirsə, onun boy atması məsihçinin inkişafını nümayiş etdirir. Təbiətdəki kimi, burada da inkişafsız həyat yoxdur. Torpağın altından çıxmış bitki ya böyüyür, ya da ölür. Onun böyüməsi sakit və gözəçarpmaz keçsə də, daimidir. Məsihçi qəlbinin inkişafı da belədir. İnkişafımızın hər bir mərhələsində

həyatımız həmin an üçün kamil olsa da, hətta Allahın bizimlə bağlı məqsədlərinin hansısa biri yerinə yetmiş olsa belə, daimi olan inkişafımız davam edir. Paklaşmaq bütün ömrün zəhmətidir. İmkanlarımız artdıqca təcrübə və biliklərimiz genişlənir. Biz öz çiyinlərimizə daha böyük məsuliyyət götürməyə qadir oluruq və həll edilən məsələlərin qəlizləşməsi ilə yanaşı, kamilliyimiz də artır. [40]

Bitki Allahın onun inkişafı üçün göndərdiyi qida ilə böyüyür; o, torpaqda kök atır, günəşin şüalarını qəbul edir, şeh və yağışla sulanır və havadakı həyatverici maddələri udur.

Eyni ilə məsihçi də Allahın gücünə arxalanaraq ruhlu aləmini inkişaf etdirir. Gücsüz olduğumuzu bilərək, biz gərək bütün keyfiyyətlərimizdən istifadə edib, Allaha daha yaxın olaq. Bitki torpaqda kök atdığı kimi, biz də Məsihdə dərin kök salmalıyıq. Günəş şüalarını, şeh və yağışı qəbul edən bitki kimi, biz də qəlblərimizi Müqəddəs Ruha açıb Ondan qida almalıyıq. "Güclə, qüdrətlə yox, yalnız Mənim Ruhumla iş görəcəksən, — deyir Ordular Rəbbi" (Zək. 4:6). Əgər biz təbiətimiz və canımızla Məsihə ümid etsək, "O, hökmən dan yeri kimi doğacaq, yağış kimi — torpağı sulayan yaz yağışı, kimi yanımıza gələcək" (Huş. 6:3).

Bizim üçün “şüalarında şəfa olan salehlik günəşi kimi doğacaq” (Mal. 4:2). Biz “zanbaq kimi çiçək açacağıq”, “buğda kimi cücərəcək, meynə kimi tumurcuqlayacağıq” (Huş. 14:5,7). Məsihi bizim şəxsi Xilaskarımız kimi qəbul edib, hər şeydə Ona arxalansaq, sonsuz olaraq Onda böyüyəcəyik.

Taxıl “əvvəl otu, sonra sünbülü, sonra da sünbüldə dəni” yetişdirir. Əkinçinin toxum səpib, onu becərməyində əsas məqsəd ağır və çoxsaylı dənlər əldə etməkdir. Əkinçiyə ac olanlar üçün çörək və gələcək toxum səpini üçün toxum lazımdır. İlahi Əkinçi də Öz zəhməti

və qurbanı əvəzində mükafat kimi biçin vaxtını gözləyir. Məsih Özünü insanların qəlblərində bərqərar etmək istəyir və bunu Ona iman gətirmişlərin vasitəsilə edir. Məsihçinin həyatının məqsədi bar verməkdir — imanlı insanda Məsihin xasiyyətini bərpa edib, sonra da bu xasiyyəti digər insanlarda bərqərar etməkdir.

Taxıl "əkinçiyə toxum, yeyənə çörək vermək" üçün cücərir, böyüyür və bar verir (Yeş. 55:10). Eynilə insan da özü üçün yaşamamalıdır. İmanlı şəxs dünyada Məsihi nümayiş etdirir ki, başqalarını da xilas yoluna gətirsin. [41]

İnsan yalnız özünü düşünərsə, onun həyatında ruhlu inkişaf və həqiqi səmərə olmaz. Məsihi öz şəxsi Xilaskarımız kimi qəbul edərkən, biz özümüzü unudaraq başqalarına yardım etməliyik. Məsihin məhəbbətindən danışın, Onun xeyirxahlığı və həssaslığından bəhs edin. Üzərinizə düşən bütün vəzifələri yerinə yetirin. Başqalarının ağrılarına ürəkdən yanaraq, əlinizdən gələn vasitələrlə itirilmişləri xilas etməyə çalışın. Məsihin Ruhunu — təmənnasız məhəbbət və başqalarına xidmət Ruhunu qəbul etdiyiniz zaman, siz özünüz də kamilləşib səmərə verəcəksiniz. Sizin xasiyyətinizdə Ruhun tərifəlayiq

səmərəsi özünü büruzə verəcək. Sizin imanınız artacaq, etimadınız möhkəmlənəcək, məhəbbətiniz isə daha da kamil olacaqdır. Siz getdikcə pak, lütfkar və gözəl olan hər şeydə Məsihə bənzəyəcəksiniz.

"Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbirlilik, lütfkarlıq, yaxşılıq, sədaqət, həlimlik, özünə hakim olmaq" (Qal. 5:22, 23). Bu səmərə heç vaxt ölməyəcəkdir, əksinə, əbədi həyat üçün özünə bənzər olan yeni səmərəyə səbəb olacaqdır.

"Məhsul yetişdiyi zaman, dərhal orağı işə salar. Çünki biçin vaxtı gəlmişdir". Məsih Öz xasiyyətinin

imanlılar cəmiyyətində izhar olunmasını sonsuz həvəslə gözləyir. Məsihin xasiyyəti tam şəkildə Onun xalqında əks olunan zaman O gələcək ki, onları Özününkülər elan etsin.

Hər bir məsihçinin əsas vəzifəsi yalnız Rəbbimiz İsa Məsihin zühurunu gözləmək deyil, həm də Onun gəlişini sürətləndirməkdir (bax. 2 Pet. 3:12). Əgər Onun adını çəkən hər bir kəs Onun izzəti naminə səmərə vermiş olsa idi, Xoş Xəbər toxumları yer üzünə necə sürətlə yayılardı. Sonuncu böyük məhsul yığımı vaxtı tez yetişərdi və Məsih yetişmiş buğdaları yığmaq üçün gələrdi. [42]

## Dəlicə buğda

(Mal. 13:24-30, 37-43)

"İsa onlara başqa bir məsəl də söyləyib dedi: Səmavi Səltənət tarlasına yaxşı toxum əkən bir adama bənzəyir; adam yatarkən, onun düşməni gəlib buğdaların arasına dəlicə buğda səpib getdi. Buğda böyüyüb samərə verdiyi zaman dəlicələr də göründü".

Məsih davamında onlara dedi: "Tarla dünyadır". Aydındır ki, burada söhbət Məsihin dünyadakı imanlılar cəmiyyətindən gedir. Bu məsəl

Allahın Padşahlığını nümayiş etdirir, Məsihin adamları xilas etmək işini göstərir, bu iş isə imanlılar cəmiyyətinin köməyilə görülür. Sözsüz ki, Müqəddəs Ruh dünyanın hər yerində mövcud olaraq adamların qəlbinə təsir edir, lakin Allahın Padşahlığı üçün məhsulun bitirilməsi və yetişdirilməsi məhz imanlılar cəmiyyətində baş verir.

“Yaxşı toxum səpən İnsan Oğludur... yaxşı toxum Səmavi Səltənətin oğullarıdır, dəlicə buğdalar isə şeytanın oğullarıdır”. Yaxşı toxum Allah Kəlamından, həqiqətdən doğulmuş adamları nümayiş etdirir. Dəlicə buğdalar isə yalanın məhsulu

və təzahürü olan insanları nümayiş etdirir. “Onları səpmiş olan düşmən iblisdir”. Nə Allah, nə də Onun mələkləri heç vaxt dəlicə buğdalar verən toxum səpməyiblər. Dəlicə buğdalar hər zaman Allahın və insanın düşməni olan şeytan tərəfindən əkilir. [43]

Şərqdə adamlar düşmənindən qisas almaq məqsədilə bəzən onun əkin sahəsinə buğdaya oxşayan alaq otunun toxumlarını səpərdilər. Bu otlar sahədə sürətlə artaraq buğdanı boğur və sahibinə əziyyət və zərər verir. Eynilə iblis də Məsihə olan düşmənçiliyindən Onun Səltənətinə şər toxumları səpir. Özü səpdiyi

toxumların məhsulunu isə Məsihin üstünə atır. Məsihin adını daşıyan, lakin Onun keyfiyyətlərini mənimsəməyən adamları imanlılar cəmiyyətinə daxil edərək, şeytan Allahın izzətini kiçiltmək, Onun xilas işini təhrif etmək və beləliklə də, insanları ölümə məhkum etmək istəyir.

Məsihin xidmətçiləri imanlılar cəmiyyətində həqiqi və yalançı məsihçilərin qarışmasını görüb çox təəssüflənirlər. Onlar nə yollasa imanlılar cəmiyyətini təmizləmək istəyirlər. Məsəldəki mülkədarın qulları kimi, onlar tarlanı dəlicə buğdalardan təmizləməyə hazırdırlar.

Lakin Məsih onlara belə deyir: “Xeyr, dəlicələri seçərkən, onlarla bərabər buğdanı da qopararsınız. Biçinə qədər qoy hər ikisi birlikdə böyüsün”.

Məsih tam aydın şəkildə deyirdi ki, günahda açıq-açığına inad göstərənlər imanlılar cəmiyyətindən kənarlaşdırılmalıdır, lakin imanlının xasiyyətini və davranış motivlərini mühakimə etmək vəzifəsini O bizim üzərimizə qoymayıb. O bizi çox yaxşı tanıdığı üçün, bu məsələni bizə etibar etmir. Əgər biz imanlılar cəmiyyətini yalançı saydığımız adamlardan təmizləməyə başlasaq, mütləq səhvlərə yol vermiş olarıq. Biz çox zaman o adamları ümidsiz hesab

edirik ki, Məsih məhz həmin vaxt onları Özünə cəlb edir. Bu insanlarla özümüzün səhv düşüncəmizlə davranmış olsaq, onları axırıncı ümidlərindən məhrum etmiş olarıq. Özlərini məsihçi hesab edənlərin çoxları son anda itəcəklər. Bir çoxları isə yaxınlarının güman etməməyinə baxmayaraq, Göyləri qazanacaqlar. İnsanlar bir-birinin zahiri görkəminə baxıb qiymət verirlər, Allah isə ürəklərə baxır. Dəlicə və buğda biçinə qədər bir yerdə böyüməlidir; biçin isə imtahan dövrünün sonu deməkdir. [44]

Məsihin sözləri bizə mərhəmətli davranış, heyrətamiz dözüm və

həssas məhəbbət dərsini öyrədir. Alaq otları ilə xeyirxah məhsulun kökləri bir-birinə sarıldığı kimi, yalançı qardaşlar da imanlılar cəmiyyətində Məsihin həqiqi davamçıları ilə sıx bağlı ola bilirlər. İmanlı adlandırılanların həqiqi mahiyyətləri zahirən heç cür büruzə verilmir. Onları imanlılar cəmiyyətindən kənarlaşdıran zaman, məhz onlarla yaxın olduqları üçün iman etmiş şəxslər də itirilə bilərlər.

Bu məsəl Allahın insanlar və mələklərlə necə davrandığını göstərir. İblis — hiyləgər yalançıdır. Göylərdə günah etdiyi zaman, hətta Allaha sadiq mələklər də onun mahiyyətini

axıra kimi dərk etmədilər. Məhz buna görə Allah iblisi dərhal məhv eləmədi. O bunu etmiş olsaydı, müqəddəs mələklər Allahın ədalət və məhəbbətini dərk edə bilməzdilər. Allahın mərhəmət və xeyirxahlığına qarşı istər-istəməz yaranacaq şübhə — günah və fəlakətə səbəb olan şər toxumu olacaqdı. Buna görə də şərin atası müvəqqəti olaraq əfv edildi ki, mahiyyəti tam aşkar olunsun. Əsrlər boyu günahın nəticələrini görərək qüssələnən Allah qiymətsiz Qolqota Qurbanını bizə bəxş etdi ki, hiyləgər şeytanın yalanına heç kim uymasın. Alaq otlarını bərəkətli məhsula zərər vermədən qoparmaq olmaz. Göylərin və yerin Rəbbi olan Allah iblisə qarşı

dözümlü olduğu kimi, bizim də öz yaxınlarımıza qarşı dözümlü olmağımız lazım deyilmi?

İmanlılar cəmiyyətinə bəzi yalançılar daxil olduğu üçün məsihçiliyin həqiqiliyinə şübhə edilməməlidir; həmçinin həqiqi imanlılar öz cəmiyyətlərində yalançı qardaşlar olduğundan qüssələnməməlidirlər. İlk imanlılar cəmiyyətini yada salaq: Hananya və Şapira həvarilərə qoşuldular. Ona qədər sehrbazlıq edən Şimon vəftiz edildi. Paveli tərk edən Dimas imanlılardan sayılırdı. Yəhuda İskaryot həvarilər sırasında idi. Xilaskar bir canı belə itirmək

istəmirdi; Yəhuda ilə davranışı Onun pozulmuş insan təbiətinə olan səbrini nümayiş etdirir. Məsih bizə də bu qədər səbirli olmağı tövsiyə edir. O xəbərdar edir ki, yalançı qardaşlar əsrin sonuna qədər imanlılar cəmiyyətinə daxil olacaqlar. [45] Lakin Məsihin bu qədər xəbərdarlığına baxmayaraq, indiyə qədər adamlar alaq otlarını qoparmaq istəyirlər. Pis niyyətli adamlar kimi müəyyən ediləndən sonra, onların cəzalandırılması üçün imanlılar cəmiyyəti dövlət idarələrinə müraciət edirdi. Qəbul olunmuş qaydalara əməl etməyənlər həbs olunur, işgəncələr çəkir və öldürülürdülər; bunların hamısı öz əməllərini Məsihə

layiq hesab edənlərin fitvası ilə edilirdi. Həqiqətdə isə belə əməllərə Məsihin yox, yalnız şeytanın ruhu ilham verə bilərdi. Bu, dünyaya hakim olmaq istəyən iblisin iş metodudur. Onları eretik adlandırıb amansızcasına məhv edərək, imanlılar cəmiyyəti Allah haqqında təsəvvürü təhrif edirdi.

Öz məsəlində Məsih bizə başqalarını mühakimə edib günahlandırmaq əvəzinə, barışığı və özünə tənqidi yanaşmağı tövsiyə edir. Tarlaya səpilən dənlərin hamısı faydalı olmadığı kimi, imanlılar cəmiyyətinə mənsub olmaq faktı da həqiqi imanı sübut etmir.

Alaq otları buğdaya cücərtilər yaşıl olduğu müddətcə bənzəyir; lakin tarla qızılı rəngdə olub biçinə hazır olan zaman, alaq otları öz dənlərinin ağırlığı altında əyilən sünbüllərdən seçiləcək. Eynilə də zahirən imanlı görünən günahkarlar bir müddət Məsihin həqiqi davamçılarından seçilməyəcəklər və onların imanlılara bənzəməsi çoxlarını aldadacaqdır, lakin dünyanın məhsulunun biçini zamanı xeyir və şərin aldadıcı oxşarlığı birdəfəlik məhv ediləcəkdir. Məsihlə birləşmədən, yalnız zahirən imanlılar cəmiyyətinə daxil olmuş adamlar ifşa olunacaqlar.

Alaq otlarına buğda ilə birlikdə böyüyüb günəşə və yağışa sevinmək ixtiyarı verilibdir; lakin biçin vaxtı siz "salehlə pis adam, Allaha qulluq edənlə etməyən arasındakı fərqi yenə görəcəksiniz" (Məl. 3:18). Göylərin varisinin kim olacağını Məsih Özü həll edəcəkdir. O hər kəsi sözlərinə görə deyil, əməllərinə görə mükafatlandıracaqdır. İnsanın bəyan etdikləri heç nəyi həll etməyəcəkdir. Onun xasiyyəti aqibətini həll edəcəkdir.

Bütün alaq otlarının bərəkətli buğdaya dönəcəkləri vaxt haqqında Məsih heç nə demir. Buğda ilə alaq otları biçinə kimi, yəni dünyanın

sonuna [46] qədər bərabər bitəcəklər. O zaman alaq otlarını toplayıb, yandırmaq üçün dərzlərə bağlayacaqlar; fəqət buğdanı Allahın anbarlarına toplayacaqlar. “O zaman salehlər Atalarının Səltənətində günəş kimi parlayacaqlar”. Onda “İnsan Oğlu mələklərini göndərəcəkdir və onlar pis yola çəkən bütün şeyləri və qanunsuzluq edənləri Onun Səltənətindən toplayacaqlar; onları soba alovuna atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaqdır”. [47]

## “Xardal toxumuna bənzər”

(Mt 13:31. 32; Mk. 4:30-32; Lk. 13:18, 19)

Məsihi dinləyənlərin içərisində fəriseylər də çox idi. Onlar istehza ilə qeyd edirdilər ki, Onun Məsih olduğunu etiraf edənlər azdır. Onlar özlərinə sual edirdilər ki, bu sadə müəllim hansı yol ilə İsraili qüdrət zirvəsinə yüksəldəcəkdir və necə ola bilər ki, var-dövləti, hakimiyyəti və izzəti olmadan, O, yeni padşahlıq qura bilər. Məsih onların fikirlərini oxuyub, belə cavab verdi:

“Allahın Səltənətini nəyə bənzədək? Yaxud onu nə məsəllə müqayisə edək?” Dünyəvi hakimiyyətdə ona bənzəyən heç nə yox idi. Heç bir vətəndaş cəmiyyəti Ona bənzətmək üçün simvol ola bilməz. “Xardal toxumu kimidir. Yerə əkildikdə toxumların ən kiçiyidir. Əkildikdən sonra böyüyür və bütün bağça bitkilərindən daha böyük olur, elə iri budaqlar salır ki, göyün quşları onun kölgəsi altında yuva tikə bilirlər” (Mk. 4:31,32).

Torpağa düşmüş toxum Allahın Özü tərəfindən ona bəxş edilmiş həyat qanununa əsasən bitir və insanın səylərindən tamamilə asılı

deyil. Bu eynilə Məsihin Səltənətinə də aid edilir. Bu, yeni bir şeydir. Onun inkişaf prinsipləri dünya dövlətlərini idarə etmiş və edəcək qanunlara ziddir. Dünya hökmdarları öz hakimiyyətlərini zorakılıqla təsdiq edirlər; onlar öz iqtidarlarını müharibələrlə saxlayırlar; yeni Padşahlığın qurucusu isə Sülh Padşahıdır. Müqəddəs Ruh dünya padşahlıqlarını yırtıcı [48] heyvanlarla təsvir edir; Məsih isə "dünyanın günahını aradan qaldıran Allah Quzusudur" (Yəh. 1:29). Onun idarə üsulunda zorakılığa, insanın azadlığını tapdalayan heç nəyə yer yoxdur. İbranilər güman edirdilər ki, Allahın Padşahlığı da bu dünyanın

padşahlıqlarının qurulduğu tərzdə qurulacaqdır. Adamları doğru yola gətirmək üçün onlar zahiri təsirlərdən istifadə edirdilər, dünyəvi metodlar və özlərinin yaratdıqları planları tətbiq edirdilər. Məsih isə yeni həyatın İlahi təməlini verdi. Əbədi həqiqət və paklığı təsdiq edərək, O, yalan və günaha qalib gəldi.

Məsih Öz məsəlini danışan zaman xardal ağaclarını hər yanda görmək olardı. Onlar ot və sünbüllərdən uca idi, budaqlarıləngər vururdu. Quşlar budaqdan-budağa uçub, cəh-cəh vururdular. Ancaq bu nəhəng ağaclar, ola bilsin, ən xırda bir toxumdan boy atmışdı. Əvvəlcə bu toxum zərif bir

cücərti verir. İlk baxışda çox zəif görünən, lakin həqiqətdə böyük yaşamaq qüvvəsinə malik bu cücərti əzmlə böyüyür və inkişaf edərək, nəticə etibarilə möhtəşəm bir ağaca çevrilir. Məsihin Səltənəti də ilk baxışda sadə və əhəmiyyətsiz görünürdü. Dünya dövlətləri ilə müqayisədə o çox zəif görünürdü. Məsihin padşah olmaq haqqında sözləri bu dünyanın idarəçilərində gülüş doğura bilərdi. Lakin Məsihin davamçılarına bəxş edilmiş əbədi həqiqətlərdə Müjdə Padşahlığı özü ilə İlahi həyat gətirirdi. Lakin o necə sürətlə qol-budaq atdı, necə geniş yayıldı! Məsih xardal toxumu haqqında məsəl gətirdiyi zaman yeni

Səltənət yalnız bir neçə qalileyalı kəndlidən ibarət idi. Onların yoxsul və az sayda olmaları — Məsihin dalınca gəzən bu sadəlövh və bəsirətsiz balıqçılara qoşulmaq istəyənləri qaytarmaq üçün səbəblərdən biri idi. Ancaq xardal toxumu böyüyüb bütün dünya üzərində budaq açmalı idi. Əgər insan təsəvvürünü sarsıdan dünya səltənətlərinin hamısı gec, ya tez məhv olurlarsa, Məsihin Səltənəti qüdrətlə və hər şeyi əhatə edərək qalmaqdadır.

Lütf də belədir. Öncə o, insan ürəyində kiçik bir yer tutur. Lakin Kəlam deyilib, işığın şüası qəlbə

daxil olub və yeni həyatın başlanğıcı olan təsir başlayıb; onun nəticələrini kim ölçə bilər? [49]

Xardal toxumu haqqındakı məsəl Məsihin Padşahlığının ümumi inkişafından başqa, bu inkişafın hər mərhələsinin məsəldəki inkişaf mərhələləri ilə üst — üstə düşməyini nümayiş etdirir. Allahın Öz imanlılar cəmiyyətinin hər nəsli üçün ayrıca xüsusi həqiqətləri və tapşırıqları vardır. Hər zaman bu dünyanın həddindən artıq ehtiyatlı müdriklərinə gizli qalan həqiqət uşaq kimi sadə və təvazökar adamlara açılmışdır. Həqiqət fədakarlığa dəvət edir; döyüş və qələbəyə çağırır. Əvvəlcə həqiqəti

az adam eşidir. Onlara gülürlər, bu dünyanın dahiləri və dünya ilə ayaqlaşan imanlılar cəmiyyəti onlara qarşı dururlar. Məsihə şəhadət edən və yəhudilərin qüruruna və mərasimçiliyinə qarşı təkbaşına mübarizə aparan Vəftizçi Yəhya ilə də belə oldu. Xoş Xəbəri Avropaya ilk dəfə çatdıranlarla da belə oldu. Troasdan Filipiyə yola düşən iki çadır düzəldənin — Pavel və Silanın səfərləri nə qədər ağır və ümidsiz görünürdü. Qeysərlər paytaxtında Məsihi təbliğ edən, qolları zəncirlənmiş "qoca Pavel" ilə də belə oldu. Roma imperatorluğunun bütpərəstliyi ilə münaqişəyə girmiş kiçik kəndli və qul cəmiyyətləri ilə də

belə oldu. Dünya müdrikliyinin təzahürü olan qüdrətli kilsəyə qarşı çıxmış Martin Lüterlə də belə oldu. İmperatora və papaya qarşı çıxarkən, o, Allah Kəlamından nə qədər bərk yapışmışdı: “Mən bunun üzərində möhkəm dayanıram və başqa cür bacarmıram. Allah mənə kömək olsun”. Məsihi və Onun həqiqətini kilsə mərasimçiliyi, sensualizm və imansızlıq dövründə təbliğ edən Con Uesli ilə də belə oldu. Bütpərəst dünyasının fəlakətlərindən məyus olmuş, Məsihin məhəbbət müjdəsini insanlara çatdırmaq arzusu ilə yaşayan, əvəzində isə ruhani kahindən “Əyləşin, cavan oğlan! Allah bütpərəstləri imana gətirmək

istədiyi vaxt bunu sənin və mənim köməyim olmadan edəcəkdir" cavabını almış bir gənci təsəvvür edin.

Bizim dövrün dini fikir dahiləri keçmiş əsrlərdə həqiqət toxumlarını səpən adamları tərifləyərək, onlara abidə ucaldırlar. Ancaq bu da həqiqətdir ki, bu işi görərkən, onlar çox zaman həmin toxumların müasir [50] dünyamızdakı cücərtilərini tapdalayırlar. Yenidən keçmişdən qalmış bir fikir səslənir: "Biz Allahın Musa ilə danışdığını bilirik; bu Adamın isə haradan olduğunu bilmirik" (Yəh. 9:29). Keçmişdə olduğu kimi, məhz bizim dövr üçün

mühüm əhəmiyyət kəsb edən həqiqətlər də ruhani kahinlərə deyil, həddindən artıq ağıllı və müdrik olmayan, bəlkə də məhz buna görə Allah Kəlamına canlı imanını saxlamış insanlara açılır.

"Qardaşlar, baxın, siz dəvət olunmuşlar kimsiniz: aranızda cismani nöqteyi-nəzərdən müdrik, nüfuzlu və əsilzadə çox deyil. Lakin Allah, müdrikləri utandırmaq üçün dünyanın ağılsız saydıqlarını seçdi və güclüləri utandırmaq üçün dünyanın zəif saydıqlarını seçdi; Allah əhəmiyyətli sayılanları ləğv etmək üçün bu dünyanın əsilzadə olmayanlarını, xor baxılanlarını, hətta

heç əhəmiyyəti olmayanlarını seçdi ki” (1 Kor. 1:26-28), “sizin imanınız insan müdrikliyinə deyil, Allahın qüdrətinə istinad etsin” (1 Kor. 2:5).

Həqiqi məsihçilərin belə bir qardaşlığında xardal toxumu haqqındakı məsəl öz möhtəşəm təzahürünü tapacaqdır. Kiçik bir toxum böyük bir ağac olacaqdır: Sonuncu mərhəmət və xəbərdarlıq çağırışı bizi “yer üzündə yaşayanlara, hər millətə, hər qəbiləyə, hər dilə və hər xalqa təbliğ etmək” üçün (Vəh. 14:6) onların yanına getməyə dəvət edir ki, “Öz İsmi naminə bir xalq təşkil etsin” (Həv.iş.15:14). Beləliklə,

“bütün yer üzü Onun izzətindən aydınlaşacaq” (Vəh. 18:1). [51]

## Əkin haqqında məsəllərdən götürülən başqa dərslər

oxumların səpilməsi və bitkilərin inkişaf etməsi haqqındakı məsəllərdən ailədə və məktəbdə heyrətamiz dərslər kimi istifadə edilə bilər. Qoy uşaqlar və gənclər təbiət hadisələrində Allahın qüdrətinin təsirini görə bilsinlər ki, iman vasitəsilə əldə olunan təsviredilməz ənamlara sahib olsunlar. Geniş dünyanın ehtiyaclarını ödəyən Allahın heyrətamiz işini dərk edib, Onunla əməkdaşlıq etməyi öyrənərək,

gənnc insanlar öz həyatlarında daim Onun qüdrətinə arxalanacaqlar.

Allah toxumları da, yer kürəsi kimi, Öz Sözü ilə yaratdı. Öz Sözü ilə O, toxuma böyüyüb nəsil vermək qüvvəsini verdi. O buyurdu: “”Qoy yer üzü bitkilər yetirsin; toxumlar bitirən ot-ələf və torpaqda hər növ bəhərli ağaclar yetişsin. Ağaclar meyvə gətirsin və toxumları meyvələrinin içində olsun.” Belə də oldu... Allah gördü ki, bu, yaxşıdır” (Yar. 1:11,12). Allahın məhz bu sözü ilə toxum boy atır. Öz cücərtilərini günəşə tərəf yönəldən hər bir toxum “Nə söylədi, mövcud oldu, nə əmr etdi, quruldu” Allahın Kəlamının

möcüzə yaradan qüdrətini bəyan edir (Məz. 33:9).

Məsih Öz şagirdlərinə belə dua etməyi öyrədirdi: “Gündəlik çörəyimizi bizə bu gün ver”. O, gülləri göstərib, onlara sübut edirdi: “Əgər tarla otunu Allah belə geyindirirsə, sizi daha çox geyindirməzmi, ey az imanlılar?” (Mt. 6:11, 30). Bu duanı eşidərkən, Məsih Öz sözünü yerinə [52] yetirmək üçün daim hazırdır. Gözə görünməyən qüvvə daim insanın xeyrinə çalışaraq, ona geyim və qida bəxş edir. Allahın can bəxş edən həmin qüvvəsi ilə tarlaya atılmış toxum canlı bir bitkiyə çevrilir. Allah

kamil məhsulun yetişdirilməsi üçün hər nə lazımdırsa verir. Bu haqda zəbur oxuyan gözəl söyləmişdir:

*“Yer üzünün*
*qayğısına qalıb su*
*verirsən,*
*Onu bol, məhsuldar*
*edirsən.*
*Ey Allah, çayın su ilə*
*doludur,*
*Torpağı taxıl üçün*
*hazır edirsən.*
*Torpağın şırımlarını*
*sulayırsan,*
*Aralarını*
*bərkidirsən,*
*Gur yağışla torpağını*

*yumşaldırsan,*
*Məhsuluna bərəkət*
*verirsən.*
*Yay fəslinə gözəllik*
*çələngini*
*geyindirirsən,*
*İzlərindən bolluq*
*axır".*
*(Məz. 65:9-*
*11).*

Maddi dünya Allahın idarəsi altındadır. Təbiətdə hər şey müəyyən qanunauyğunluqlarla baş verir. Burada hər şey Allah tərəfindən istiqamətləndirilir, Yaradanın iradəsi ilə hərəkət edir. Buludlar və günəş, şeh və yağış, külək və fırtına —

hamısı Allahın nəzarəti altındadır və hamısı son nəticədə Onun iradəsinə tam şəkildə tabe olur. Məhz Allah Qanununa tabe olaraq toxum yerin altından cücərir, “əvvəl ota, sonra sünbülə, daha sonra isə sünbül dolu dənə” çevrilir (Mk. 4:28). Bu mərhələlərin hamısından bitki öz vaxtında keçir, çünki Onun iradəsinə müqavimət göstərmir. Bəs nə üçün Allahın surətinə və bənzərinə görə yaradılmış, şüur və nitq bəxş edilmiş insan yaradılanların içində yeganə varlıqdır ki, Onun ənamlarına çox vaxt biganə qalır, iradəsinə müqavimət göstərir. Necə ola bilər ki, məhz şüurlu varlıqlar dünyanın fəlakətlərinə səbəbkar olsunlar? [53]

İnsanın yaşaması üçün lazım olan hər şeyin əldə olunmasında Allahla insanın səylərinin ahəngdarlığı görünür. İnsan əllərinin toxum əkinində iştirakı olmadan məhsul əldə edilə bilməz. Lakin Allahın bəxş etdiyi günəş işığı və yağışlar, şeh və buludlar olmazsa, məhsul yetişə bilməz. Hər bir başlanğıcda, təşəbbüskarlıq fəaliyyətində də, elmi tədqiqatlarda da belədir. Bu, eynilə ruhlu aləmə də, xasiyyətin formalaşdırılmasına da, məsihçi fəaliyyətinin hər hansı başqa bir növünə də aid edilməlidir. Biz özümüz hərəkət etməliyik, lakin Allahın köməyi olmasa, bizim səylərimiz əbəs olacaqdır.

Ruhlu aləmdə, yaxud da dünyəvi işlərində insan nəyəsə nail olarsa, heç vaxt unutmamalıdır ki, o bunlara Allahın köməyilə nail olubdur. Allahdan asılı olduğumuzu dərk etmək çox vacibdir. Biz insan imkanlarını həddindən çox yüksəldərək, onun əl işlərinə çox arxalanırıq. Allahın bəxş edə biləcəyi qüvvəyə isə çox az ümid bəsləyirik. "Biz Allahın həmişçiləriyik" (1 Kor. 3:9). Bu işlərdə insanın payı çox cüzidir; lakin onun səyləri Məsihin İlahi əməkdaşlığına arxalanarsa, Onun bəxş edəcəyi qüvvə ilə insan hər şeyə nail ola bilər.

Toxumun cücərib bitməsi uşaqların tərbiyə işində əyani vəsait ola bilər. “Əvvəl ot, sonra sünbül, daha sonra isə sünbüldə dolu dən”. Bu məsəli bəyan eləmiş Allah həm də xırdaca toxum yaratmış, ona həyat qüvvəsi vermiş və onun inkişafını idarə edəcək qanunlar qoymuşdur. Bu məsəlin bəyan etdiyi həqiqətlər isə Onun Öz həyatının gerçəklikləridir. Məsih Allahın qoyduğu, bitkilərdə müşahidə olunan qanunla fiziki və ruhlu cəhətdən inkişaf edirdi və O istəyirdi ki, gənclərin hamısı buna riayət etsinlər. Məsih Göylərin Hökmdarı və izzət Padşahı olmasına baxmayaraq, Beytlehemdə körpə kimi, ananın qucağında köməksiz bir

uşaq kimi dünyaya gəldi. Uşaqlıq dövründə O, sözəbaxan bir uşaq nümunəsi idi. Məsih valideynlərinə hörmət göstərərək, onların iradəsini yerinə yetirərək və Öz uşaq imkanları ilə onlara kömək edərək, böyük kimi deyil, uşaq kimi hərəkət edirdi. Lakin Öz inkişafının hər mərhələsində [54] yüksəkdə duraraq, günahsız insan həyatını təzahür etdirən sadə və təbii xasiyyətə malik idi. Müqəddəs Kitab Onun uşaqlığını belə təsvir edir: “Körpə böyüyür, ruhən qüvvətlənir və hikmətlə dolurdu; Allahın lütfü də Onun üzərində idi”. Onun gəncliyi haqqında isə belə şəhadətimiz var: “İsa isə hikmətdə və boy-buxunda,

Allah və insanlar qarşısında lütfdə tərəqqi edirdi” (Lk. 2:40, 52).

Bunun üçün valideyn və müəllimlərin həssas zəhmətləri gərəkdir. Onlar gənclərdə müsbət keyfiyyətləri inkişaf etdirmək məqsədi güdməlidirlər ki, onların inkişafının hər mərhələsi həmin dövrün gözəlliyini əks etdirsin. İnsanın inkişafı təbii, ahəngdar olmalı, bağdakı gülün açmasına bənzəməlidir.

Öz təbiilikləri və qayğısızlıqlarını itirməyən uşaqlar həmişə cəlbedici olurlar. Uşağın hər hansı bir müvəffəqiyyətinə həddindən çox diqqət yetirərək, bunu onun yanında

tez-tez xatırlatmaq gərəksizdir. Uşaq şöhrətpərəstliyinə rəvac verərək, onun gözəlliyini, sözlərini və hərəkətlərini tərifləməkdən çəkinin. Uşağa bahalı və dəbdəbəli paltar geyindirmək düzgün deyil. Bu, körpə qəlbində qürur yaradır və yoldaşlarında paxıllığa səbəb olur.

Uşaqlar yaşlarına uyğun sadəlikdə tərbiyə olunmalıdırlar. Onlar valideynlərinə kömək məqsədilə gücləri çatan vəzifələri yerinə yetirməyi bilməlidirlər. Uşaqların əyləncə və məşğuliyyətləri yaşlarına uyğun olmalıdır. Uşaqlıq dövrü məsəldəki yaşıl cücərtilərə bənzəyir və yalnız onlara məxsus cazibəyə

malikdir. Uşaqların vaxtından tez böyüməlırinə rəvac verməyin ki, öz gənc yaşlarının təravət və cazibəsini mümkün qədər çox saxlasınlar.

Öz yaşlarına uyğun imanla uşaqlar da tam şəkildə xeyirxah məsihçi ola bilərlər. Allah onlardan yalnız bunu istəyir. Onlara ruhlu həqiqətləri aşılamaq lazımdır; valideynlər övladlarında onları Məsihlə daha da yaxınlaşdıra bilən keyfiyyətlərin formalaşması üçün şərait yaratmalıdırlar. [55]

Allahın qanunlarına uyğun olaraq, təbiətdə səbəbdən sonra mütləq nəticə gəlir. Biçin həmişə əkinin səviyyəsini göstərir. Səhlənkar işçi daim öz

zəhmətinin nəticələri ilə ifşa edilir. Məhsulun özü onun əleyhinə şəhadət edir. Ruhlu həyatda da belədir: hər işçinin səyi onun əməyinin nəticələri ilə ölçülür. Onun zəhmətkeş, yaxud səhlənkar əməyinin nəticəsi biçin zamanı açıtır. Gələcək əbədi həyatının taleyi də belə həll olunacaqdır.

Səpilmiş hər toxum öz növünə uyğun məhsul verir. İnsan həyatında da belədir. Buna görə də biz həssaslıq, qayğıkeşlik və məhəbbət toxumları əkməliyik, çünki nə əksək, onu da biçəcəyik. Eqoizm, özünü sevmək, özü ilə fəxr etmək və qüsurlara rəvac vermək kimi

xüsusiyyətlər isə onlara müvafiq məhsul verəcək. Özləri üçün yaşayanlar fani toxum əkirlər, bundan isə çürük məhsul alırlar.

Allah heç kimi məhv eləmir. Məhv olanların hər biri özü-özünü məhv etmiş olacaq. Vicdanının səsini susduran hər kəs imansızlıq toxumları əkir və onlara müvafiq məhsul götürür. Allahın ilk xəbərdarlığını rədd edən firon inad toxumları əkdi və onların da məhsulunu biçdi. Bunlar böyüyüb məhsul vermiş imansızlıq toxumları idi ki, onları firon qəlbinə özü əkmişdi. O, torpağı viran olana, özünün və səltənətinin ailələrində ilk övladlar ölənə və

dənizin suları onun atları, arabaları və əsgərləri üzərində birləşənə qədər inad etdi. Onun tarixçəsi müdrik "Nə əkərsən, onu da biçərsən" (Qal. 6:7) sözlərinin dəhşətli təsdiqidir. İnsanlar bu həqiqəti dərindən dərk etsələr, əkdikləri toxumların seçilməsində çox ehtiyatlı olardılar.

Əkilmiş toxumun məhsulu yenidən səpilir və beləliklə, məhsul ardıcıllıqla artırılır. Bu qanun bizim öz yaxınlarımızla münasibətlərimizdə də gerçəkləşir. Hər bir hərəkətimiz və sözümüz məhsul verən toxuma bənzəyir. Qayğıkeş xeyirxahlıq, barışıq və təvazökarlıq kimi cəhətlər başqa adamlarda, onların vasitəsilə də

qeyrilərində məhsul verəcək. Eynilə paxıllıq, pislik və çəkişmə ilə müşahidə olunan əməllərin toxumları da torpağa [56] düşdükdə, “acı kök” kimi böyüyüb, çoxlarını murdar edəcəkdir (İbr. 12:15). Öz növbəsində bu “çoxları” vasitəsilə isə nə qədər başqaları zəhərlənəcəklər. Beləliklə, xeyir və şər toxumlarının əkini daim davam edərək, həm dünyəvi, həm də əbədi həyat üçün məhsul verəcək.

Əkinçinin dərsi bizə bir də həm ruhlu, həm də maddi ənamlarda səxavətli olmağı öyrədir. Rəbb buyurur: “Bütün sulu torpaqlarda toxum əkənlər, siz nə xoşbəxtsiniz!” (Yeş. 32:20). “Bunu da deyim ki, az

əkən az da biçəcək; çox əkən isə çox da biçəcəkdir” (2 Kor. 9:6). Bütün sulu torpaqlarda əkmək Allahın ənamları ilə daim bölüşmək deməkdir. Bu bizim Allaha xoş olan, bəşəriyyətə humanist köməyimiz deməkdir. Buna bənzər xidmət və yardım bizi kasıb etməyəcəkdir: “Çox əkən çox da biçəcəkdir”. Əkinçi öz toxumlarını tarlaya ataraq, onları artırmış olur. Allahın ənamları ilə bölüşməkdə davamlı olan adamlar da belə qazanırlar. Bunun ilə onlar xeyir-dua alırlar. Allah onlara artıqlaması ilə verəcəyini vəd edir ki, onlar da başqalarına verə bilsinlər. “Verin, sizə də veriləcəkdir: ölçülüb-biçilmiş, silkələnib-basılmış, dolub-daşmış bol

bir ölçü ilə sizin ətəyinizə töküləcək" (Luk. 6:38).

Əkin və biçin bizə bundan da ali olanı öyrədir. Biz dünya nemətlərini yaxınlarımızla bölüşərkən, göstərilmiş qayğı və sevgi onları Allaha şükür etməyə vadar edir. Beləliklə, onların qəlbləri ruhlu həqiqət toxumlarının bitirilməsi üçün hazırlanır. Əkinçiyə toxum verən Allah isə onların böyüyüb əbədi həyatda məhsul verməsi üçün şərait yaradacaq və təminat verəcəkdir.

Torpağa düşmüş dən bizim xilasımız üçün Məsihin qurbanını göstərir. Məsih deyir: "Buğdanın toxumu yerə düşüb ölməzsə, o yalnız

qalar; fəqət ölərsə, çox məhsul verər” (Yəh. 12:24). Belə ki, Məsihin ölümü də Allahın Padşahlığı üçün bərəkətli məhsul verəcəkdir. Bitkilər aləmində olduğu kimi, Onun ölümünün nəticəsi də həyat olacaqdır.

Məsihlə birgə işləyərək layiqli məhsul vermək istəyən hər adam əvvəl torpağa düşüb ölməlidir. Həyat dünyanın ehtiyaclarının əkin tarlasına [57] atılmalıdır. Özünəməhəbbət və özünəxidmət isə məhv edilməlidir. Bu zaman özünü qurban vermək qanunu — özünü xilas etmək qanunu kimi nəticə verəcəkdir. Torpağa atılan toxum məhsul verir və bu məhsul özü də növbəti əkin üçün istifadə edilir.

Yeni biçində məhsul artırılmış olur. Beləliklə, əkinçi öz toxumunu torpağa ataraq, həqiqətdə onu saxlamış olur. İnsanların həyatında da belədir: vermək — yaşamaq deməkdir. Əbədiyyət üçün saxlanılan həyat Allahın və insanların xidmətinə könüllü olaraq həsr edilmiş həyat olacaqdır. Bu dünyada Məsih naminə həyatlarını qurban verən adamlar onu əbədi həyat üçün saxlayacaqlar.

Deməli, toxum ölür ki, yeni həyat versin. Bunu müşahidə edərək, biz dirilməni dərk edirik. Allahı sevənlərin hamısı yenə göylərdəki Ədəmdə yaşayacaqlar. Qəbirdə çürüyəcək insan bədəni haqqında

Allah demişdir: “Fanilikdə əkilir, qeyri-fanilikdə bitir; hörmətsizliklə əkilir, cəlalla dirilir; zəifliklə əkilir, qüdrətlə dirilir” (1 Kor. 15:42).

Əkinçi və toxum haqqında olan, təbiətin özündən götürülmüş məsəlin çoxsaylı dərslərindən bəziləri bunlardır. Valideyn və müəllimlər uşaqları ali həqiqətlərə yönəltmək, Müjdə dərslərini təcrübədə möhkəmlətmək üçün müxtəlif imkanlardan istifadə etməlidirlər. Qoy uşaqların özləri torpağı hazırlayıb, toxumları əksinlər. İş vaxtı valideynlər, yaxud müəllim müqayisə edərək, xeyir və şər toxumları əkilən ürəkdən söz açaraq deyə bilərlər ki,

torpağı əkinə hazırlayan kimi, insan qəlbini də həqiqət toxumlarının kök atıb böyüməsi üçün hazırlamaq lazımdır. Torpağa toxum əkildiyi zaman Məsihin ölümündən, ilk cücərtilər görünəndə isə dirilməyin həqiqiliyindən danışmaq olar. Səpilmiş toxumların sonrakı inkişafı vaxtı da təbii və ruhlu əkin haqqında bənzətməni davam etdirmək olar.

Gəncləri də bu tərzdə öyrətmək gərəkdir. Onlara torpaqda işləməyi öyrətmək lazımdır. Bunun üçün hər məktəbin yanında torpaq sahəsi təşkil edib, Allahın şəxsi dərs otağı kimi istifadə etmək məqsədəuyğun [58] olardı. Təbiətdə baş verənlər

özünəməxsus bir dərslikdir ki, Onun övladları ondan istifadə etməyi öyrənməlidirlər. Qəlbin tarlasını becərməyi də biz təbiətdən öyrənə bilərik.

Yenidən əkinçi və toxum haqqında məsələ qayıdaraq, bir mühüm məqama toxunaq. Əkilməmiş torpaqdan heç kim yaxşı məhsul almağı düşünmür. Torpağı əkinə hazırlamaq üçün isə inadla və əzmlə çalışmaq gərəkdir. İnsan ürəyindəki ruhlu iş də belə görülməlidir. İnsanların xilasında uğur qazanmaq istəyən adam onlara Allahın Kəlamını ürəkdən çatdırmaq istəməlidir. Bu zaman o, Müqəddəs Ruhun insanların

ürəklərini artıq əkib yumşaltdığını görəcəkdir. Torpağa inadlı əmək sərf edilməyibsə, o, məhsul verməyəcəkdir. Ürəyin tarlasında da belədir: Allahın izzəti üçün məhsul verməkdən ötrü onu Müqəddəs Ruh hazırlamalıdır.

Torpaqda vaxtaşırı işlədikdə, o, bərəkətli məhsul vermir. O bizdən daimi, gündəlik əmək tələb edir. Onu dərindən və tez-tez əkmək lazımdır ki, xeyirxah cücərtilərdən qidanı qəsb edən alaq otları məhv edilsinlər.Torpağı əkib səpənlər gələcək məhsulu məhz belə hazırlayırlar. Tarlanın ortasında dayanıb yerinə yetməyən ümidlərin

necə puç olduğunu müşahidə etmək heç bir bəhrə vermir.

Torpaqda əzmlə çalışan, eyni zamanda təbiətin ruhlu dərslərini dərk edən adamlara Allah xeyir-dua verir. Torpağı becərməyə başlayan zaman əkinçi nə kimi cəvahirata sahib ola biləcəyini təsəvvür edə bilmir. Əkinçi təcrübəli və ağıllı adamların məsləhətinə qulaq assa da, iş prosesində özünə açılan dərsləri də mənimsəməsi lazımdır. Bu, qəlbin tərbiyələnməsində uğurun inkarolunmaz şərtidir. Torpağın becərilməsi ruhun böyüməsində mühüm rol oynayır.

Toxumu dirildən, gecə və gündüz onun qayğısını çəkən, inkişaf etməsi üçün ona qüvvət verən Allah Öz övladlarına daha çox qayğı və diqqət göstərir. İnsan özünün dünya həyatı üçün toxum əkirsə, İlahi Əkinçi insanların qəlbində əbədi həyat üçün məhsul verəcək toxumlar əkir. [59]

## Mayaya bənzəyir

(Mt. 13:33; Lk. 13:20, 21)

Qalileyalı Peyğəmbəri dinləməyə bir çox savadlı və nüfuzlu insanlar gəlirdilər. Onların bəziləri Məsihin ətrafında cəmləşmiş insanlara maraqla baxırdılar. Burada yoxsul, savadsız, cırıq paltarlı dilənçini və üzündə günah möhürü olan quldurU, əlili və zinakarı, taciri və əyləncə adamını, yuxarı və aşağı təbəqənin nümayəndələrini, varlı və kasıbları görmək olardı. Bir sözlə, hamı bir-birini sıxışdıraraq, Məsihin sözlərini

eşitmək üçün Ona yaxın olmağa çalışırdılar. Bəzi savadlı adamlar belə bir əcaib yığıncağa baxıb, özlərinə sual verirdilər: “Allahın Padşahlığı bunlardan bina edilə bilərmi?” Xilaskar yenidən onlara məsəllə cavab verdi:

“Göylərin Padşahlığı xəmir mayasına bənzər. Qadın onu götürüb üç ölçü unun içində, bütün xəmir turşuyana qədər saxlayır”.

Yəhudilərin arasında xəmir mayası bəzən günahın simvolu şəklində işlədilirdi. Pasxa dövründə evdən hər cür mayanı uzaqlaşdırmaq tövsiyə edilirdi ki, bu da qəlblərdən günahı uzaqlaşdırmağı göstərirdi.

Məsih də Öz şagirdlərini xəbərdar edirdi: “Fəriseylərin mayasından — yəni ikiüzlülükdən — özünüzü qoruyun” (Lk. 12:1). Həvari Pavel isə “kin və yamanlıq mayasından” bəhs edir (1 Kor. 5:8). Lakin Məsihin məsəlində bəhs edilən maya simvolu Göylərin Padşahlığından xəbər verir. Burada o, Allahın hər cür işi sürətləndirən, hamını birləşdirən qüdrətini nümayiş etdirir. [60]

Heç kim o qədər yamarı və alçaq könüllü ola bilməz ki, bu qüvvə onda təmizləyici iş apara bilməsin. Özünü Müqəddəs Ruha təslim edən hər adamda yeni həyat prinsipi təsdiq

olunacaqdır; itirilmiş Allah təcəssümü insanda bərpa ediləcəkdir.

Ancaq insan şəxsi iradəsi ilə öz-özünü dəyişə bilməz. O belə bir yeniləşmə etmək üçün lazımi qüvvəyə malik deyil. Hazırlanan qidada istənilən dəyişikliyi əldə etmək üçün ona tamamilə kənardan götürülmüş bir şey — maya əlavə edirlər. Buna bənzər şəkildə, günahkar da izzət padşahlığına layiq olmaq üçün Allahın lütfünü qəbul etməlidir. Dünyada olan heç bir mədəniyyət və təhsil düşgün günah övladını göylərin övladı edə bilməz. Yeniləşdirən enerji Allahdan gəlməlidir. Arzu edilən dəyişiklik

yalnız Müqəddəs Ruhun köməyi ilə baş tuta bilər. Yuxarı, yaxud aşağı təbəqədən olmasına baxmayaraq, xilas olmaq istəyən hər kəs məhz bu yeniləşdirici qüvvəyə təslim olmalıdır.

Xəmirə qatılmış maya içəridən başlayaraq, bütün xəmiri şişirtdiyi kimi, Allahın lütfü də insanın ürəyinə nüfuz edərək, onun bütün həyatında təzahür edir. Heç bir sırf xarici dəyişiklik bizi Allahla barışmağa gətirə bilməz. Çoxları özlərinin bu və ya digər zərərli vərdişini tərgitməklə məsihçi olmaq haqqında düşünürlər. Lakin onlar vacib olan işdən

başlamırlar. Hər şeydən əvvəl ürəyin dəyişməsi gərəkdir.

İmana dildə şəhadət etmək başqa, ürəyi dolduran həqiqətlə yaşamaq isə tam başqadır. Həqiqəti, sadəcə, bilmək kifayət deyildir. Biz belə biliyə malik olsaq belə, təfəkkürümüzün istiqaməti dəyişməz qalır. Ürəyin özünün dəyişməsi və paklaşması gərəkdir.

Allahın qanunlarına yalnız borcluluq hissindən sadiq olan, yalnız tələb edildiyi üçün onlara riayət edən insan Allaha təslim olmağın həqiqi sevincini duymayacaqdır. Həqiqətdə, bu, imansızlıqdır. Allahın buyurduqları insanın istəklərinə zidd

olduğu üçün boyunduruq kimi qarşılananda, belə bir adamın həqiqi məsihçi olmadığına əmin ola bilərik. Allaha həqiqi itaət daxili təməl üzərində qurulmalıdır. O öz əsasını paklığa [61] məhəbbətdən, İlahi Qanuna valehlikdən götürür. Həqiqi paklığın əsasında Xilaskarımıza olan sədaqətimiz durmalıdır. Bu onunla nəticələnəcək ki, biz doğru olanı məhz doğru olduğu üçün həyata keçirəcəyik — çünki doğru olanı etmək Allahı məmnun edir.

Müqəddəs Ruh vasitəsilə ürəyin dəyişməsinin ali həqiqəti Məsihin Nakdimona dediyi sözlərdən əyan olur: “Doğrusunu, doğrusunu sənə

deyirəm: Bir kimsə yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz... Bədəndən doğulan bədəndir, Ruhdan doğulan ruhdur. Sənə: “Yenidən doğulmalısınız” — dediyimə təəccüblənmə. Yel istədiyi yerdə əsər, onun səsini eşidərsən, fəqət haradan gəlib, haraya getdiyini bilməzsən; Ruhdan doğulmuş hər adam da belədir” (Yəh. 3:3-8).

Müqəddəs Ruhdan ilham almış həvari Pavel belə yazır: “Mərhəməti bol olan Allah, bizi sevdiyi böyük məhəbbətdən ötrü, təqsirlərimiz üzündən ölü olduğumuz halda, bizə Məsihlə bərabər həyat verdi (siz Allahın lütfü ilə xilas olmusunuz) və

Məsihlə bərabər bizi dirildib, səmavi aləmdə oturtdu ki, gələcək dövrlərdə Öz lütfünün hədsiz zənginliyini İsa Məsihdə bizə göstərdiyi xeyirxahlıqla izhar etsin. Zira Allahın lütfü ilə imanla xilas oldunuz və bu sizdən asılı deyil, Allahın ənamıdır” (Ef. 2:4-8).

Xəmirə daxil edilmiş maya gizli təsir edərək, bütün kütləni turşudur; həqiqət mayası da gözəgörünməz şəkildə təsir edir ki, bu da nəticədə qəlbin yeniləşməsinə gətirib çıxardır. Öldürücü ehtiraslar onun təsiri altında yumşalaraq getdikcə zəifləyir. İnsanda yeni fikirlər, yeni hisslər və yeni istəklər doğulur. Qəlb özünə

yeni ideal — Məsihin həyatını seçir. İnsanın şüuru yenidən qurularaq, qabiliyyətləri yeni istiqamətə yönəldilir. İnsan yeni qabiliyyətlər əldə etmir, lakin malik olduğu qabiliyyətlər paklaşır və xeyir-dua alır. Onun vicdanı oyanır. Onun xasiyyəti dəyişərək Allaha xidmət etməyə yönəlir.

Tez-tez sual olunur ki, nə üçün özlərini İlahi Kəlama iman etmiş hesab edənlərin çoxlarının nə sözlərində, nə ruhlu vəziyyətlərində, nə də [62] xasiyyətlərində yuxarıda göstərilmiş dəyişikliklər baş vermir? Axı nə üçün ətrafımızda bir çoxları istəklərinə və planlarına zidd olan heç

nəyi qəbul etmirlər, günahlı ehtiraslara və sərt, amiranə və düşünülməmiş sözlərə yol verirlər? Həqiqətdən tamamilə uzaq olan insanlardakı kimi, aldadıcı dünya həyatına hakim olan özünəpərəstiş, eqoizm, cilovsuz təbiət, məntiqsiz düşüncələr, günahkar ehtiraslar, pozğun xasiyyət kimi cəhətlər yenə də onların həyatında görünməkdədir. Bunun səbəbi ondadır ki, bu adamlar həqiqətdə tamamilə Allaha təslim olmayıblar. Onlar həqiqət mayasını ürəklərinə qəbul etmədikləri üçün o təsirsiz qalmışdır. Onların günaha təbii və sonradan qazanılmış aludəçilikləri həqiqət mayasının yeniləşdirici qüvvəsinə tabe

edilməmişdir. Onların həyatında Məsihin lütfü olmadığı üçün, qəlbləri Onun onları dəyişdirə biləcək qüdrətinə imansızlıqla doludur.

“İman eşitməkdən, eşitmək isə Allahın Kəlamı vasitəsilə olur” (Rom. 10:17). Müqəddəs Yazılar xasiyyətin dəyişməsinin ən ali vasitəsidir. Məsih belə dua edirdi: “Onları həqiqətinlə müqəddəs eylə; Sənin sözün həqiqətdir” (Yəh. 17:17). İlahi Kəlamı öyrənərək onun buyurduqlarına tabe olsaq, o, ürəyimizdə mütləq iş apararaq, xasiyyətimizin müqəddəslikdən uzaq olan hər bir cəhətini zəiflədərək yox edəcəkdir. Vicdan vasitəsilə təsir edən

Müqəddəs Ruh günahlarımızı ifşa edir, Məsihin məhəbbətilə ürəyimizdə artan iman isə bizi bədəndə, qəlbdə və ruhda Onun təcəssümü ilə uyğunlaşdırır. Yalnız bu təqdirdə Allah bizdən Öz iradəsinin icrası üçün istifadə edə biləcəkdir. Bizə bəxş edilən qüvvə daxilimizdə təsir buraxır, sonra da xaricə çıxıb bizi malik olduğumuz həqiqəti başqalarına çatdırmağa vadar edir.

Allah Kəlamının həqiqətləri insanın ən əsas və mühüm ehtiyacına cavab verərək, qəlbin iman vasitəsilə yeniləşməsinə gətirir. Bu böyük prinsiplər gündəlik həyatımıza tətbiq edilmək üçün həddindən artıq pak və

müqəddəs hesab edilməməlidir. Bunlar göylərə çatan və əbədiyyəti göstərən həqiqətlərdir, lakin onların təsiri bəşəri təcrübədə həyata [63] keçməlidir. Bu həqiqətlər həyatın hər sahəsinə, ən böyükdən ən kiçiyə qədər hər şeyin dərinliyinə varmalıdır.

Ürəyə daxil edilmiş həqiqət mayası bizim istəklərimizi idarə edir, fikirlərimizi təmizləyərək istiqamətləndirir və xasiyyətimizi yumşaldır. O, şüuru itiləşdirir və qəlbin enerjisini artırır, mərhəmət və məhəbbət hisslərini güclü edir.

Məsihə yönəlmiş və Onun prinsiplərini mənimsəmiş insan dünya

üçün tapmacadır. Eqoist, pula həris insan yalnız dünyanın var-dövlətini, şöhrətini və ləzzətlərini əldə edə bilər. Əbədiyyət onun məqsədlərinə daxil edilmir. Məsihin davamçıları üçün isə dünya nemətləri öz cazibəsini itirir. Onlar Məsihin adı və Onun izzətlənməsi naminə əzmlə çalışaraq, hələ Məsihi qəbul etməmiş və bu dünyada ümidlərini itirmiş insanların xilas olması üçün fədakarlıq göstərirlər. Günahkar dünya yalnız əbədi sərvətləri həqiqi hesab edən belə insanları başa düşə bilmir. Onların ürəklərində Məsihin məhəbbət dolu xilasedici qüvvəsi yaşayır. Bu məhəbbət insanın bütün başqa istəklərini özünə tabe edib, onu

günah içində bogulan dünyadan yüksəyə qaldırır və onun öldürücü təsirindən xilas edir.

Allah Kəlamı bizim insanlarla hər cür ünsiyyət və əlaqələrimizi paklaşdırır. Həqiqət mayası bizdə rəqabət, şöhrət və birincilik arzusu doğurmur. Həqiqi, Göydən gəlmiş məhəbbət eqoist və etibarsız olmur. O, insanların alqışlarından asılı deyil. Allahın lütfünü qəbul edən insanın ürəyi Allaha və Məsihin Özünü qurban verdiyi adamlara sonsuz sevgi ilə doludur. Onun mənliyi şöhrət axtarmır. O, yaxınlarını ona etdikləri nəvazişə görə, ona yüksək qiymət verdiklərinə görə deyil, hamısı

Məsihin qanı ilə xilas aldıqları üçün sevir. İnsanlar onun istəklərini, sözlərini və hərəkətlərini səhv anladıqda isə məyus olmayaraq, əzmlə və təmkinlə işini davam etdirir. O, xeyirxah, qayğıkeş və ləyaqətlidir, eyni zamanda Allahın mərhəmət və məhəbbətinə etibar edərək, daim ümidlə yaşayır. [64]

Həvari bizə tövsiyə edir: “Sizi çağıran Müqəddəsə bənzəyib, özünüz də hər hərəkətinizdə müqəddəs olun, çünki yazılmışdır: ‘Müqəddəs olun, çünki Mən müqəddəsəm”‘ (1 Pet. 1:15,16). Məsihin lütfü bizə emosiyalarımızı və səsimizi Məsihə məxsus olan tərzdə cilovlamaq

qabiliyyəti verir. Allahın lütfünün təsiri bir-birimizlə münasibətlərdə, nəvazişdə, təskinlik verən sözlərdə və qayğıkeşlikdə izhar ediləcəkdir. Belə evdə mələklərin mövcudluğu duyulur. Bu zaman həyatımız Allaha ucalan büxur tüstüsü kimi ətir saçacaqdır. Məhəbbət xeyirxahlıqda, həlimlikdə, mərhəmətli və çoxsəbirli olmağımızda izhar ediləcəkdir.

İman etmiş adam zahirən də dəyişmiş olur. Qəlbdə mövcud olan Məsih Onu sevib qanunlarına riayət edən insanın üzündəki nurdan əyan olur. Belə sifətə həqiqət möhürü qonur. Onun üzündə zərif səma rahatlığı əks olunur. Bu sifətdə adi

insan məhəbbətindən uca olan xeyirxahlıq təcəssümü görünür.

İnsanda qəti dəyişikliklər edərək, həqiqət mayası ondakı kobudluğu zərifliyə, sərtliyi yumşaqlığa, eqoist hissləri xeyirxahlığa çevirir. Quzunun qanı ilə o, murdar olan hər şeyi yuyaraq paklaşdırır. Öz həyatverici qüvvəsi ilə o, şüuru, qəlbi və insanın bütün gücünü İlahi həyatla ahəngdarlığa gətirir. İnsan öz bəşəri təbiətilə İlahi təbiətin iştirakçısına çevrilir. O öz qüsursuz və kamil xasiyyəti ilə Məsihi izzətləndirir. İnsan müsbət tərəfdən dəyişdiyi zaman mələklər sevinc nəğmələrilə alqış edirlər, Allah və Məsih İlahi

təcəssüm almış qəlblər üçün sevinirlər. [65]

## Gizlədilmiş xəzinə

(Mt. 13:44)

"Göylərin Padşahlığı tarlada gizlədilən bir xəzinəyə bənzər. Onu bir adam tapıb gizlətdi və sevinclə gedib bütün varını satıb, o tarlanı satın aldı".

Qədim zamanlarda oğurluq və talançılıq tez-tez baş verdiyi üçün və hökumət dəyişilən zaman varlı adamlar böyük vergilərə tutulduğu üçün insanlar öz var-dövlətlərini torpaqda gizlədirdilər. Cəvahiratların gizlədilməsinin səbəbinin biri də

soyğunçu düşmən ordusunun hücumlarının daimi təhlükəsi idi. Belə bir şəraitdə torpaq xəzinə saxlamaq üçün yeganə etibarlı yer kimi görünürdü. Lakin zaman-zaman xəzinənin yeri unudulurdu: sahibini ölüm haqlayırdı və ya həbsxana, yaxud sürgün səbəbilə ayrı düşürdü; o zaman belə səylə saxlanılan xəzinə tale bir kimsənin üzünə gülüb, onu tapana qədər torpaq altında qalırdı. Məsihin vaxtında da tərk edilmiş torpaqlarda qədim pul və qızıl, yaxud da gümüş zinət əşyaları tapmaq heç də nadir hadisə deyildi.

Bir adam torpaq kirayələdi və əkin vaxtı basdırılmış xəzinə tapdı.

Sərvəti taparkən gördü ki, böyük var-dövlətə malik ola bilər. Qızılları yerinə basdırıb, evinə döndü və sərvət tapdığı tarlanı almaq üçün bütün varidatını satdı. Ailəsi və qonşuları onu dəli sandılar. Bu baxımsız tarlada onlar qiymətli heç nə görə bilmirdilər. Lakin o nə etdiyini yaxşı bilirdi və tarlanı alarkən onun hər qarışını yoxlayıb, onda gizlədilmiş hər şeyi tapmaq istəyirdi. [66]

Bu məsəl səma sərvətinin qiymətini və onun əldə edilib saxlanması üçün sərf edilən səyləri göstərir. Tarlada xəzinə tapan insan hər şeydən imtina edib, ağlasığmaz zəhmət və səylər sərf edərək,

gizlədilmiş sərvətə malik olmaq istəyir. Səma xəzinəsini aşkar edən adam da heç bir zəhməti ağır və heç bir qurbanı böyük saymayaraq, həqiqət sərvətinə malik olmağa çalışır.

Bu məsəldəki xəzinənin basdırıldığı tarla Müqəddəs Kitabı xatırladır. Xoş Xəbər — xəzinənin özüdür. Allah Kəlamının həqiqət sərvətləri ilə zəngin olduğu qədər, bütün yer kürəsi qızıl mənbələri ilə zəngin deyil.

## Səmavi sərvətlər necə gizlədilmişdir

Müjdənin sərvətləri gizlədilmiş adlanır. Öz müdrikliyinə arxalanan, ruhsuz məktəb fəlsəfəsinin əsarətində olan insanlar üçün xilas planının gözəlliyi, gücü və sirri gizli qalır. Çoxları gözləri var ikən görmür, qulaqları var ikən eşitmir və şüurları var ikən həqiqi sərvətləri seçə bilmirlər.

İnsan xəzinə basdırılmış yerin üstündən keçib gedə bilər. Böyük ehtiyac və yoxsulluq içində yaşayan bir adam ağacın altında oturub dincələrkən, onun kökləri altında yatan xəzinədən xəbərsiz ola bilər. İbranilər də belə idilər. Qızıl həqiqətlər xəzinəsi ibrani xalqına

etibar edilmişdi. Özündə Səmanın möhürünü daşıyan yəhudi həyat tərzi Məsihin Özü tərəfindən tərtib edilmişdi. Yəhudilərin rəmzlərində xilasın ali həqiqətləri gizlədilmişdi. Nəhayət Məsih gəldiyi zaman isə ibranilər obraz və simvolların dəlalət etdiyi Şəxsi tanıya bilmədilər. İlahi Kəlama malik olduqları halda, nəsildən-nəslə ötürülən adətlərə və Müqəddəs Yazının insanlar tərəfindən şərhinə qapılaraq, Məsihdə izhar olunmuş həqiqəti görmədilər. Müqəddəs Yazıların ruhlu mənası itirilmişdi. Hər cür biliyin xəzinəsi onlar üçün açıq olduğu halda, onlar onu tanımadılar. [67]

Allah Öz həqiqətini insandan gizlətmir. Ancaq insanlar öz əməlləri ilə onu özləri üçün anlaşılmaz edirlər. İsa ibranilərə Məsih olduğunu təsdiq edən kifayət qədər sübut gətirmişdi. Lakin Onun təlimi həyat tərzində qəti dəyişikliklər etməyi tələb edirdi. Yəhudilər başa düşürdülər ki, Məsihi qəbul etdikdə, öz eqoizmlərindən, çox əzizlədikləri qaydalardan və ənənələrdən, habelə öz vicdansız adətlərindən imtina etməlidirlər. Əbədi və dəyişməz həqiqətin qəbul edilməsi qurban tələb edirdi. Buna görə də Məsihə iman etmələri üçün Allahın verdiyi hər cür şəhadətdən üz çevirirdilər. Onlar Əhdi-Ətiqdə yazılanlara iman etdiklərini

bildirirdilər, eyni zamanda da Məsihin həyatı və xasiyyəti haqqında ondakı şəhadətləri qəbul etmirdilər. Onlar bunu gördükləri zaman iman edəcəklərindən qorxurdular, çünki bu təqdirdə özlərinin köhnə yalanlarından əl çəkməli idilər. Müjdənin xəzinəsi, Yol, Həqiqət və Həyat olan İsa onların yanında idi, onlar isə Göylərin verə biləcəyi ən böyük ənamı rədd etdilər.

“Bununla bərabər rəislərdən bir çoxları da Ona iman etdilər; fəqət havradan qovulmasınlar deyə fəriseylərdən ötrü imanlarını açıq bildirmirdilər” (Yəh. 12:42). Onlar hətta əmin oldular; iman etdilər ki,

İsa Allahın Oğludur; lakin Onu təbliğ etmək öz şöhrətpərəst istəklərindən imtina etmək demək idi. Onlar səma xəzinəsinə sahib olmaq üçün lazım olan imana malik deyildilər. Dünya xəzinəsilə həddindən çox məşğul idilər.

Bu gün də adamlar dünya sərvətlərinə malik olmaq üçün hərisliklə çalışırlar. Onların şüurları eqoist, şöhrətpərəst fikirlərlə qidalanır. Fani dünya varına, şöhrətinə və hakimiyyətinə malik olmaq üçün onlar bəşəri qanunları, ənənələri və tələbləri Allahın tələblərindən üstün tuturlar. Belələri

üçün Onun Kəlamının sərvətləri gizli qalır.

“Nəfsani adam, Allahın Ruhuna dair həqiqətləri qəbul etmir, çünki o bunları ağılsızlıq hesab edir və anlaya bilmir. Çünki bunlar ruhən dərk edilir” (1 Kor. 2:14). [68]

“Və əgər Müjdəmiz örtülüdürsədə, həlak olanlar üçün örtülüdür. Onlara gəlincə, bu əsrin tanrısı imansızların zehinlərini kor etmişdir ki, /görünməz/ Allahın surəti olan Məsihin izzəti haqqındakı Müjdənin nuru onları aydınlatmasın” (2 Kor: 4:3, 4).

## Xəzinənin dəyəri

Xilaskar görürdü ki, adamlar dünya nemətlərinə malik olmaq qayğısında əbədi dəyərləri itirirlər. O bu şəri aradan qaldırmağa cəhd etdi. O, insan qəlbini iflic edən bədxah qarğışı ləğv etməyi qərara aldı. Səsini ucaldaraq, O nida etdi: "İnsan bütün dünyaya yiyələnib öz canını itirərsə, ona nə fayda olacaqdır? Yaxud insan öz canı əvəzinə nə verə bilər?" (Mt. 16:26). Məsih düşkün bəşəriyyətin qarşısında nəzərdən qaçırdıqları xeyirxah dünyanı açır ki, əbədi həqiqətləri görə bilsinlər. O onları Allahın təsvirolunmaz izzətindən nura boyanmış Nəhayətsizin kandarına gətirir və oradakı xəzinələri onlara göstərir.

Bu xəzinənin qiyməti hesabsızdır, o, qızıldan və gümüşdən qiymətlidir. Onun yanında yerin bətnində olan bütün sərvətlər solğun görünür.

*“Dərinliklər deyər:*
*“Məndə yoxdur”,*
*Dəniz deyər:*
*“Yanımda yoxduı”.*
*Saf qızıl onu əvəz edə*
*bilməz,*
*Qiyməti gümüşlə*
*ölçülməz.*
*Onu Ofir qızılı ilə*
*qiymətləndirmək*
*olmaz,*
*Onu qiymətli damarlı*
*əqiqlə, göy yaqutla*

*dəyərləndirmək*
*olmaz.*
*Nə qızıl, nə də gözəl*
*cam ona tay deyil,*
*Hikmət saf qızıl*
*qablarla əvəz edilmir.*
[69]
*Yanında mərcanın,*
*büllurun adı*
*çəkilməz,*
*Hikmətin qiyməti*
*yaqutdan artıqdır”*
*(Əyy.*
*28:14-18).*

Müqəddəs Yazılarda belə bir xəzinə saxlanılır. Müqəddəs Kitab — Allahın ali dərsliyidir, Onun bizə

verdiyi elm həqiqət mənbəyidir. Həqiqət elminin hamısının təməli onda yerləşir. İlahi Kəlamda biliyin hər sahəsinə aid həqiqətlər aşkar etmək olar. Bundan əlavə, Müqəddəs Yazılar bütün elmlərin elmi olan xilas elmini öyrədir. O, Məsihin tükənməz xəzinəsidir.

Həqiqi ali təhsil Allah Kəlamını tədqiq edib, ona əməl edən zaman alınır. Lakin İlahi Kəlam əvəzinə, Allah və Göylərin Padşahlığı haqqında heç nə söyləməyən biliklər tədris ediləndə, verilən təhsil bu adın təhrifi sayılmalıdır.

Təbiət bizə gözəl həqiqətlər açır. Yer və göylər bu həqiqətlərlə doludur.

Onlar bizim müəllimlərimizdir. Təbiət bizə göylərin müdrikliyi və əbədi həqiqət dərsini keçir. Lakin günahkar insan bunları görmür. Günah onun gözlərini zəiflətdiyinə görə artıq o, təbiətin özünü belə düzgün qəbul etmir, çünki onu Allahdan uca tutur. Həqiqət dərsləri İlahi Sözü inkar edən insanların şüuruna çatmır. Bu adamlar təbiətin açdığı həqiqətləri o qədər təhrif edirlər ki, bu onları Yaradıcıdan uzaqlaşdırır.

Çoxlarına insan müdrikliyi İlahi Müəllimin müdrikliyindən üstün görünür, İlahi dərslər isə çoxdan köhnəlmiş və maraqsız sayılır. Lakin

Müqəddəs Ruhla canlanmış adamlar üçün bu əsla belə deyildir. Onlar sonsuz dərəcədə qiymətli sərvətləri görürlər və ondan ötrü bütün vardövlətlərindən keçərək, çürümək bilməyən cəvahirlər saxlanılan tarlanı almağa çalışırlar. Çoxlarının dahi hesab etdikləri müəlliflərin kitabları əvəzinə Allah Kəlamına müraciət edirlər. Onun Müəllifi dünyaya məlum olanların içində ən dahi Müəllif və Müəllimdir. O Öz həyatını bizim uğrumuzda verdi ki, Onun vasitəsilə əbədi həyata malik ola bilək. [70]

## Xəzinəni inkar etməyin nəticələri

İblis insan şüurunu aldadaraq, ona belə bir fikir aşılayır ki, guya, Allahın iştirakı olmadan belə yüksək bilik sahibi olmaq mümkündür. Öz aldadıcı tövsiyəsi ilə o, Adəm və Həvvanı Allahın sözünə şübhə edib, itaətsizliyə aparan bir nəzəriyyə ilə əvəz etməyə sövq elədi. Bu gün də şeytanın məkri hələ Ədəmdə başladığı bədxah işini davam etdirməkdədir. Təhsil proqramlarına ateist əqidəli müəlliflərin mülahizələrini salan müəllimlər gənclərin şüurunda Allaha inamsızlığa, Onun qanununa itaətsizliyə sövq edən toxumlar əkmiş olurlar. Belə müəllimlər nə iş gördüklərini dərk etmirlər. Onlar

təsəvvür etmirlər ki, ilk baxışda xoş niyyətli görünən fəaliyyətlərinin həqiqi nəticəsi nə kimi olacaqdır.

Müasir məktəb və kolleclərdəki tədrisin bütün mərhələlərindən tələbə uğurla çıxa bilər. O, biliklərin əldə edilməsi üçün var gücünü sərf edə bilər. Ancaq hələ Allahı tanımırsa və onun həyatını idarə edən qanunlara itaət etmirsə, istər-istəməz özünə zərər verəcəkdir. Günahkar vərdişlərin əsarətində olaraq, o, getdikcə özünə düzgün qiymət verə bilməyəcəkdir və öz üzərində nəzarəti itirəcəkdir. Bilavasitə özünə aid halları düzgün qiymətləndirməyəcəkdir. O öz

şüuruna və bədəninə çox e’tinasız və yüngül münasibət bəsləyəcəkdir. Zərərli vərdişlər onu getdikcə bərbad edəcəkdir. O, xoşbəxt ola bilməyəcəkdir, çünki pak, sağlam həyat qaydalarını inkar edib, qəlbinin ahəngdarlığını və rahatlığını pozan vərdişlərin əsarətində yaşayacaqdır. Nəticədə, inadlı təhsil illəri əbəs yerə itirilmiş olacaq, çünki həmin dövrdə özünü itirmiş olacaqdır. Öz fiziki və əqli qüvvəsini şüursuz halda xərcləyərək, öz bədəninin məbədini xarabalığa çevirmişdir. O bugünkü və gələcək həyat üçün itirilmişdir. Dünyəvi bilikləri mənimsəyərək, tükənməz sərvət sahibi olmaq arzusunda olmuşdur, lakin Müqəddəs

Kitabdan uzaqlaşaraq, hər cür sərvətdən qiymətli olan xəzinədən yan keçmişdir. [71]

## Xəzinə axtarışları

Bizim tədrisimizin əsasında Allahın kəlamı dayanmalıdır. Biz öz övladlarımızı da onda açılan həqiqətlərə yönəltməliyik. Yuxarıda deyildiyi kimi, burada tükənməyən bir xəzinə gizlənir, lakin insanlar onun yanından keçirlər, çünki onu axtarmaq istəmirlər. Onların çoxu həqiqəti inadla axtarmaq əvəzinə, onun haqqındakı təxmini təsəvvürlərlə və hər cür gümanlarla

kifayətlənirlər. Bu zavallılar başqalarının dediklərinə asanlıqla inanaraq, İlahi Kəlamda gizli xəzinə axtarışına bənzədilmiş sərbəst və əzmkar işə başlamaqdan qorxurlar. Ancaq insanların həqiqət haqqındakı gümanları nəinki etibarsız, eyni zamanda təhlükəlidir, çünki onlar son nəticədə insanı Allahdan üstün edirlər. “Rəb belə deyir” sözləri əvəzinə, onlar insanların cümlələrinə istinad edirlər.

Məsih — həqiqətdir. Onun kəlamları doğru və həqiqidir və özündə ilk baxışda göründüyündən daha dərin məna daşıyır. Məsihin kəlamlarının hamısı, öz zahiri

sadəliyinə baxmayaraq, çox qiymətlidir. Müqəddəs Ruhla paklanmış və möhkəmlənmiş şüur bu sadə kəlmələrin dəyərini dərk edə bilir. O, gizli olmasına baxmayaraq, qiymətli həqiqət mirvarilərini görməyə qadirdir.

Bəşəri nəzəriyyə və düşüncələr heç zaman bizi İlahi Kəlamın dərk edilməsinə gətirməyəcəkdir. Fəlsəfəni bir qədər mənimsəmiş adamlar çox vaxt hesab edirlər ki, həqiqətin axtarılmasında və küfrün imanlılar cəmiyyətinə daxil olmasının qarşısının alınmasında onların göstərişləri vacibdir. Lakin məhz onların bu göstərişləri və izahları

yalan nəzəriyyələrə və küfrə gətirir. Müxtəlif vaxtlarda insanlar Yazılarda qəliz və başa düşülməyən hesab etdiklərini izah etməyə inadlı cəhdlər edirdilər; lakin əksər hallarda onların bu cəhdləri aydınlaşdırmaq istədiklərini daha çox qəlizləşdirirdi.

Kahin və fəriseylər hesab edirdilər ki, İlahi Kəlam haqqında öz şərhlərini verərək, müəllim kimi böyük bir iş görürlər, lakin Məsih onların [72] haqqında belə buyurmuşdu: "Siz Yazıları və Allahın qüdrətini anlamadığınıza görə yanılırsınız" (Mk. 12:24). O onları "ehkam olaraq insan əmrlərini öyrətməkdə" ittiham edirdi (Mk. 7:7).

İlahi Kəlamın müəllimləri sayılan və güman olunduğu kimi, Yazıları başa düşən adamlar həqiqətdə Onu icra etmirdilər. Allah Kəlamının həqiqi mənasını görməmələri üçün şeytan onların şüurlarını korlaşdırmışdı.

Bu bizim günlərdə də bir çoxlarına aiddir. Bunda bir çox imanlılar cəmiyyətləri günahkardırlar. Bu gün müdrik insanlar kimi qəbul edilən kəslərin yəhudi müəllimlərinin səhvlərini təkrar etmək təhlükəsi çox böyükdür. Onlar İlahi Kəlamın yalan şərhini verdikləri üçün, çoxsaylı qəlblər çaş-baş qalaraq, qaranlıqda azıb İlahi həqiqətin düzgün mənimsənilməsindən uzaq olurlar.

Müqəddəs Yazını insan təxəyyülünün və ənənəvi təsəvvürlərin zəif işığında oxumaq doğru deyil. Rəvayət və təsəvvürlərə istinad edərək Yazını izah eləmək cəhdi, günəş şüalarına zəif çıraq işığı əlavə etməyə bənzər. Allahın müqəddəs Kəlamının dünyanın zəif çıraq işıqlarına ehtiyacı yoxdur. Onun Özü qüdrətli işıq mənbəyi, Allahın insanlara açılmış izzətidir və onun yanında hər hansı başqa bir işıq çox zəifdir.

Allah Kəlamının öyrənilməsi İlahi həqiqətlərin dərin, əzmli və həssas tədqiq edilməsindən ibarətdir. Səhlənkar şüur həqiqətin açıq-aydın

görünüşünə heç vaxt nail olmur. Belə ki, hətta dünya nemətlərinə nail olmaq üçün inadlı, səbirli və əzmli səylər tələb olunur. Öz işində müvəffəqiyyət əldə etmək istəyən adam da inadla çalışmalı və nəticəyə inanmalıdır. Eynilə inadlı zəhmətsiz biz ruhlu biliyə də malik ola bilmərik. Əbədi həqiqətlər xəzinəsini aşkar etmək istəyən adam torpaqdakı sərvətləri axtaran çalışqan insan kimi qazıntıya başlamalıdır. Etinasız, səysiz görülən iş burada nəticə vermir. Gənc və yaşlı olan hər insan Allahın Kəlamını yalnız oxumaq yox, onu lazımi əzm və yanğı ilə tədqiq edib, dua edərək həqiqəti aşkar etməlidir. Bu zaman onlar mükafat

alacaqlar, çünki Məsih onların idrakını gücləndirəcəkdir. [73]

Bizim qurtuluşumuz Müqəddəs Yazıda mövcud olan həqiqəti dərk etməyimizdən asılıdır. Allah istəyir ki, biz bu biliyə nail olaq. Axtarın, Müqəddəs Kitabın qiymətli həqiqətlərini öz yanan qəlblərinizlə axtarın. Qızılaxtaran yeri tədqiq edib qızıl mədənini axtardığı kimi, siz də Allah Kəlamını tədqiq edin. Allahla ünsiyyətdə daimiləşənə kimi, Onun sizin haqqınızda olan iradəsini dərk edənə kimi bu axtarışları dayandırmayın. Məsih bəyan eləyir: “Mənim adımla hər nə diləyərsinizsə, onu edəcəyəm; ta ki, Ata Oğulda

izzətlənsin. Əgər Mənim adımla bir şey diləyərsinizsə, onu edəcəyəm” (Yəh. 14:13, 14).

Xeyirxah və qabiliyyətli insan əbədi dəyərləri müəyyən dərəcədə təsəvvür edə bilər; lakin bəzən bu cür insan belə ona əyan olanları dərk edə bilmir, çünki görünən əşyalar Gözəgörünməzin izzətini gizlədir. Gizli sərvətlərə malik olmaq istəyən hər kəs öz axtarışlarında dünya nemətlərindən yuxarıda duraraq, onlardan tamamilə imtina etməlidir. Onun bütün zehni və qabiliyyəti buna həsr edilməlidir.

İtaətsizlik qapını Yazılardan əldə edilə biləcək böyük həcmdə biliklərin

üzünə bağlayır. Anlama Allahın əmrlərinə itaət deməkdir. Yazılar mövhumatçı və qısqanc insanların fikrinə uyğun şərh edilməməlidir. O, yalnız həqiqət haqqında bilikləri səmimi ürəkdən axtaran və ona itaət edən insanlar tərəfindən başa düşülə bilər.

Siz sual verə bilərsiniz: “Mən xilas olmaq üçün nə etməliyəm?” Yazını tədqiq etməyə başlayarkən, siz sonradan mənimsənilmiş və irsən aldığınız təsəvvürlərinizi kənara atmalısınız. Əgər Yazını öz şəxsi baxışlarınızı təsdiq etməkdən ötrü tədqiq edirsinizsə, heç zaman həqiqətə malik olmayacaqsınız.

Rəbbin buyurduğunu dərk etmək üçün Müqəddəs Kitabı tədqiq edin. Bu zaman sizin baxışlarınızın həqiqətlə üst-üstə gəlmədiyi məlum olsa, onu öz nöqteyi-nəzərinizə uyğunlaşdırmağa cəhd etmədən bəxş olunan nuru qəbul edin. Şüurunuzu və ürəyinizi Allahın Kəlamının ecazkar həqiqətlərini mənimsəmək üçün açın. [74]

Məsihə dünyanın Xilaskarı kimi iman etmək — səmavi sərvətləri dərk etməyə və düzgün qiymətləndirməyə qadir ürəklə idarə olunan paklaşmış şüur tərəfindən həqiqətin qəbul edilməsi deməkdir. Belə bir iman tövbə və xasiyyətin yeniləşməsi ilə

sıx bağlıdır. İman etmək — Müjdənin xəzinəsini aşkar edərək, onu tələb etdiyi vəzifələrlə birlikdə qəbul etmək deməkdir.

“Bir kimsə yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz” (Yəh. 3:3). O, həqiqəti təsəvvür edib, onun haqqında bir gümanda ola bilər, ancaq imanla açılan ruhlu görmə qabiliyyəti yoxdursa, səma xəzinəsini görməyəcəkdir. Bu xəzinəni bizə bağışlamaq üçün Məsih Öz həyatını vermişdir; lakin Onun qanına iman edib yeniləşmədən nə günahların bağışlanması, nə də hər hansı ölümə məhkum insana həyat vermək mümkündür.

Beləliklə, Allah Kəlamındakı həqiqətləri görməkdən ötrü bizim şüurumuz Müqəddəs Ruhla işıqlanmalıdır. Təbiətin gözəlliyi yalnız günəş öz şüalarını onun üstünə salan zaman görünür. İlahi Kəlamdakı sərvətlərin dəyərini də onların üzərinə Həqiqət Günəşinin parlaq şüaları düşməmiş tam qiymətləndirə bilmərik.

Sonsuz məhəbbətin mərhəmətilə göylərdən göndərilmiş Müqəddəs Ruh İlahi keyfiyyətləri özü ilə gətirir və onları Məsihə heç bir şəksiz inanan hər bir qəlbdə məskunlaşdırır. Onun qüvvəsilə xilas üçün vacib olan həyati həqiqətlər imanlı şəxsin

hafizəsində həkk olaraq, o qədər aşkar olur ki, həyat yolu tam aydın görünür və bir daha yol axtarmağa ehtiyac qalmır. Yazıları öyrənərək, biz daim Allahın Müqəddəs Ruhunun nuru haqqında dua etməliyik ki, Onun Kəlamının sərvətlərini aydın görərək qiymətləndirə biləк.

## Zəhmətin mükafatı

Heç kim heç zaman düşünməməlidir ki, onun üçün aydın olmayan heç nə qalmamışdır. Hər cür insan zəkasının dərinliyini təyin etmək [75] olar; dünyəvi müəlliflərin işlərini mənimsəmək mümkündür;

lakin ən yüksək, ən dərin və ən geniş zəka və insan təsəvvürü Allahı tam dərk edə bilməz. Bizim dərk edə biləcəklərimizdən kənarda daim dərk olıınmayan sonsuzluq qalır. Biz İlahi izzətin, sonsuz bilik və müdrikliyin yalnız xırda parıltısını görə bilirik; sanki qızıl mədəninin üstündə dururuq və o, dərinlikdə olan sərvətlərini yalnız daim qazıntı işləri aparan şəxslərə verəcək. Qazıntılar get-gedə dərinləşərək, nəticədə böyük xəzinəyə çıxaracaqdır. Həqiqi iman vasitəsilə insan İlahi biliklər əldə edəcək.

Məsihin ruhunda tədqiq edənlərin heç biri mükafatsız qalmayacaqdır.

Əgər insan Yazılara öyüd almaq istəyən bir uşaq kimi yanaşır və özünü tamamilə Allaha təslim edirsə, Onun Kəlamının həqiqətini mütləq tapacaqdır. İnsanlar Allaha itaətdə olsaydılar, Onun dünyanı idarə etmək planını başa düşərdilər. Səma aləmi özünün lütf və izzət xəzinəsini onlar üçün açardı. İnsanlar indikindən tamam fərqli olardılar, çünki həqiqət mirvarilərini axtararaq xeyirxahlaşardılar. Xilasın sirri, Məsihin zühür etməsi, Onun xilasedici qurbanı indiki qədər qaranlıq qalmazdı. Onlar aydın başa düşülməkdən əlavə, həm də daha yüksək qiymətləndirilərdilər.

Allaha Öz duasında Məsih dünyaya yaddaşlarda və ürəklərdə həkk olunmalı dərs verdi: “Əbədi həyat o deməkdir ki, Səni, vahid həqiqi Allahı və göndərdiyin İsa Məsihi tanısınlar” (Yəh. 17:3). Həqiqi təhsil məhz budur. İnsana həqiqi qüvvəni bu verir. Allahı və Onun göndərdiyi İsa Məsihi həqiqətən tanımaq — insanı Allahın surətinə və bənzərinə uyğun yeniləşdirir. Bu, insanı öz üzərində hakim olmağa və günahkar təbiətinin hər cür istək və ehtiraslarını şüurun ali məqsədlərinə təslim etməyə gətirir. Allahı dərk etmək insanı Allahın övladı və səmanın varisi edir. O, Nəhayətsizin dərgahı ilə təmasa

girir və kainatın tükənməz sərvətləri onun üçün açılır.

Allah Kəlamının tədqiq edilməsi sayəsində əldə edilən bilik məhz belə bilikdir. Bu xəzinənin əvəzində dünyanın bütün nemətlərindən imtina edən hər kəs onu tapa biləcəkdir. [76]

“Sən idrakı həqiqətən çağırsan, səs ucaldıb dərrakəni səsləsən, bunları gümüş kimi axtarsan, gizli xəzinə kimi arasan, onda Rəbb qorxusunu anlayarsan, Allahı tanıyarsan” (Məs. 2:3-5). [77]

## Mirvari

(Mt. 13:45, 46)

Xilaskarımız xilasedici məhəbbətin xeyir-duasını qiymətli mirvari ilə müqayisə edir. O Öz nəsihətini qəşəng mirvarilər axtaran bir tacir haqqında məsəllə təsvir edir, "o, dəyəri çox böyük olan bir mirvari taparaq, gedib bütün varını satıb onu satın aldı". Ən böyük dəyəri olan mirvari — Məsihin Özüdür. Allahın bütün izzəti və dolğunluğu Onda cəm olmuşdur. O, Allahın izzətinin parıltısı və Onun şəxsiyyətinin

təcəssümüdür. İlahi keyfiyyətlərin izzəti Onun xasiyyətində izhar edilmişdir. Müqəddəs Yazının hər sətri Onun işığı ilə parıldayır. Məsihin paklığı cüzi bir ləkəsi və qüsuru olmayan ağ mirvaridir. Heç bir insan əməli Allahın böyük və dəyərli ənamını əvəz edə bilməz. Onda heç bir qüsur yoxdur. “Hikmətin və biliyin bütün xəzinələri Məsihdə gizlədilmişdir” (Kol. 2:3). O, “bizim üçün Allahın müdrikliyi, salehliyi, qüdsiyyəti və xilası oldu” (1 Kor. 1:30). İnsan qəlbinin həm bu, həm də gələcək həyatdakı ehtiyaclarını ödəyəcək hər şeyi biz Məsihdə tapırıq. Bizim Xilaskarımız o qədər dəyərli bir mirvaridir ki,

Onunla müqayisədə başqa hər şey çox solğun görünür.

Məsih "Öz yurduna gəldi və Öz xalqı da Onu qəbul etmədi" (Yəh. 1:11). Lakin Allahın nuru dünyanın qaranlığında parladı "və qaranlıq onu dərk etmədi" (Yəh. 1:5). Fəqət Səmanın ənamına hamı biganə olmadı. Məsəldəki tacir səmimiyyətlə həqiqəti axtaran adamları təcəssüm etdirir. [78] Müxtəlif xalqların içində zəkalı, ciddi adamlar mövcuddurlar ki, onlar ədəbiyyatda, elmdə və bütpərəst dünyasının dinlərində qəlblərinə xəzinə ola biləcək bir varlıq axtarırlar. Yəhudilərin içərisində də hələ malik olmadıqları

şeyə çatmaq istəyənlər var idi. Formal dindən ümidlərini üzərək, onlar ruhlu və yüksək olanı axtarırdılar. Məsihin seçdiyi şagirdləri Kornelius və həbəş hərəmağası məhz həqiqəti qəlblərinə xəzinə etmək istəyən insanlar idilər. Onlar həqiqətə ehtiyac duyaraq, Səma nurunun göndərilməsi üçün dua edirdilər; Məsih onlara aşkar olan kimi Onu sevinclə qəbul etdilər.

Məsəldə mirvari ənam kimi təsvir edilmir. Tacir malik olduğu hər şeyi sataraq, onu satın alır. Çoxları bunda ziddiyyət görürlər, çünki Yazıda Məsihin Özü ənam kimi təsvir olunub. Həqiqətdə məsəl Yazının

ümumi məntiqindən kənar deyildir. Məsih həqiqətən də ənamdır, lakin o kəslər üçün ki, onlar canlarını, qəlblərini və ruhlarını son damlasına kimi Ona verirlər. Allaha itaətli həyat yaşayaraq, Onun buyurduqlarına sevinclə tabe olmaq üçün biz bütövlüklə özümüzü Məsihə təslim etməliyik. İbarət olduğumuz hər şey, bütün qabiliyyət və istedadlarımız Allaha məxsusdur və Ona səcdə üçün istifadə edilməlidir. Biz bu tərzdə tamamilə Məsihə təslim olduğumuz zaman, O da Özünü səmanın bütün sərvətləri ilə birlikdə bizə vermiş olur. Beləliklə, biz ən qiymətli mirvariyə malik oluruq.

Xilas azad seçilən ənamdır, lakin eyni zamanda o alınıb satılmalıdır. Bunu düzgün başa düşmək lazımdır. İlahi mərhəmətlə idarə edilən bazarda dəyərli mirvarinin qiyməti yoxdur və pulsuz alınır. Bu bazarda hər kəs, hətta ən yoxsul kasıb da səmanın varına malik ola bilər. Həqiqət mirvarilərini burada hər kəs ala bilər. "Budur, Mən sənin üzünə qapı açmışam, — deyərək Rəb nida edir, — onu heç kim bağlaya bilməz". Bu qapının ağzını heç bir qılınc kəsmir. İçəridən gələn səs dəvət edir: "İçəri gir". Xilaskarın səsi əzmlə və məhəbbətlə bizi dəvət edir: "Sənə məsləhət görürəm, Məndən odla

təmizlənmiş qızıl al ki, zəngin olasan" (Vəh. 3:8,18). [79]

Məsih haqqında Müjdə hər bir kəsin malik ola biləcəyi xeyir-duadır. Kasıb da xilası ənam ala bilər, çünki o, dünya nemətlərinə satılmır. Onu könüllü itaətlə, Məsihin Öz qanı bahasına satın aldığı canlar kimi, Ona təslim olmaqla əldə etmək olar. Ən kamil və əsaslı təhsil belə, insanı Allaha yaxınlaşdıra bilmir. Fəriseylər özlərinin bütün dünyəvi və ruhlu üstünlükləri ilə öyünərək, fəxrlə bəyan edirdilər: "Mən zənginəm və varlanmışam, heç nəyə ehtiyacım yoxdur"; lakin bununla bərabər onların hər biri "zavallı, yazıq,

yoxsul, kor və çılpaq” idi (Vəh. 3:17). Məsih onlara ən böyük dəyərə malik mirvari təklif elədi, lakin onlar onu qəbul etmədilər və O onlara belə dedi: “Vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər” (Mat. 21:31).

Biz əməllərimizlə xilas ola bilmərik, lakin ona elə bir yanğı və əzmlə can atmalıyıq ki, onun əldə edilməsi üçün dünyanın hər şeyindən imtina etməyə hazır olaq.

Biz dəyərli mirvarini axtarmalıyıq, lakin dünya bazarında və dünyəvi yollarla deyil. Onun qiyməti qızıl və gümüşlə ölçülmür, çünki bu mirvari Allaha məxsusdur.

Dünyəvi, yaxud ruhlu üstünlüklərin və xidmətlərin sayəsində xilas olacağınızı düşünməyin. Allah sizdən könüllü itaət gözləyir. O, günahlarınızdan əl çəkməyinizi xahiş edir. Məsih bəyan edir: “Mən qalib gəlib, Atamla bərabər Onun taxtında necə oturdumsa, qalib gələnə də icazə verəcəyəm ki, Öz taxtımda Mənimlə eləcə otursun” (Vəh. 3:21).

İlk baxışdan göründüyü kimi, bəzi adamlar bütün həyatlarını səma mirvarisini əldə etməyə həsr ediblər. Ancaq bununla bərabər onlar özlərinin zərərli vərdişlərindən əl çəkmirlər. Onlar özləri üçün ölmürlər ki, Məsih onlarda yaşaya bilsin. Buna

görə də onlar dəyərli mirvarini tapa bilmirlər. Onlar öz günahkar istəklərinə qalib gəlməyiblər, dünyəvi ehtirasların əsarətindən çıxmayıblar və çarmıxı götürüb Məsihin imtinalar və qurbanlarla dolu olan yolu ilə getmirlər. Az qala məsihçi olub, ancaq hələ də tam məsihçi olmayaraq, onlar Səma Padşahlığına yaxın kimi [80] görünürlər, lakin daxil ola bilmirlər. Xilasa yaxın olub, lakin tam xilas olmayaraq, tamamilə itmiş olurlar.

Qəşəng mirvarilər axtaran tacir məsəli ikili məna daşıyır: o, yalnız Göylərin Padşahlığına nail olmaq istəyənləri deyil, həm də Öz itirilmiş

varisini axtaran Məsihi təsvir edir. Qəşəng mirvarilər axtaran Səma taciri Məsih itirilmiş bəşəriyyətin simasında qiymətsiz mirvari görürdü. O, günah tərəfindən murdarlanmış və pozulmuş insanlarda xilas imkanlarını görürdü. Allahla iblisin döyüş meydanı olmuş və məhəbbətin qüdrəti ilə xilas edilmiş ürəklər Xilaskar üçün heç zaman sıxıntı keçirməmiş ürəklərdən daha çox dəyərlidir. Allah bəşəriyyəti ümidsiz və heç nəyə yararsız saymırdı; O, ona Məsihdə baxır və onu xilaskar məhəbbətin sayəsində ola biləcəyi kimi görürdü. O, Öz kainatının bütün sərvətlərini toplayıb bu mirvarini satın almaq üçün verdi. İsa onu alıb

Öz tacında qiymətli daş kimi yerləşdirdi. "Onlar Onun torpağında tac daş-qaşı kimi parıldayacaqlar" (Zək.9:16). "Ordular Rəbbi deyir: "Fəaliyyətə keçdiyim gün onlar Mənə məxsus xalq olacaq" (Mal. 3:17).

Buna baxmayaraq, biz ilk növbədə yadda saxlamalıyıq ki, dəyərli mirvari Məsih Özüdür və bu mirvariyə malik olmağımız bizim ən böyük nailiyyətimizdir. Müqəddəs Ruh bizə Mirvarinin dəyərini açıqlayır. Müqəddəs Ruhun təsiri məhz səma ənamının axtarışları xüsusən inadlı və əzmli olduğu zaman görünür. Məsihin zamanında Müjdəni çoxları eşitmişdi, lakin

şüurları yalan təlimlərlə tutulduğundan, onlar qalileyalı sadə Müəllimdə Allahın Elçisini görə bilmədilər. Ancaq Məsihin səmaya yüksəlib Allahın taxtına əyləşərək, vəsatətçilik xidmətinə başlaması Müqəddəs Ruhun göndərilməsi ilə əlamətdar oldu. Ruh Əllinci gündə göndərildi. Məsihin şahidləri ölülərdən dirilmiş Xilaskarın qüdrətini bəyan eləməyə başladılar. Səmanın nuru Məsihin düşmənlərinin aldatdıqları insanların qaranlıq şüurlarına da daxil oldu. Artıq onlar da Onda "İsrailə tövbə və günahların bağışlanmasını vermiş Rəis və Xilaskarı" görürdülər (Həv. iş. 5:31). Onlar Onu səma izzəti ilə əhatə

edilmiş, əllərində [81] itaətsizlikdən imtina etmiş hər bir şəxsə veriləcək saysız-hesabsız sərvətlər tutmuş gördülər. Həvarilər vahid Oğulun izzətini bəyan etdikləri zaman üç min qəlb iman etdi. Bu adamlar özlərinin günahkar və natəmiz olduqlarını görüb, Məsihin simasında özlərinə Dost və Xilaskar tapdılar. Həvarilərə verilmiş Müqəddəs Ruhun vasitəsilə Məsih yüksəldildi və izzətləndirildi. İman edən insanlar Onun Simasında hər şeyi — alçaldılmanı, əzabları və ölümü qəbul edərək, onları ölümdən qurtarıb əbədi həyat verən Şəxsiyyəti görürdülər. Müqəddəs Ruhun işi sayəsində Məsihin xasiyyəti onların qarşısında açıldı, Onun qüdrətinin və

böyüklüyünün həqiqi dərk edilməsinə gətirərək, onları imanlı sevinclə əllərini Ona uzadıb "Mən iman edirəm" deməyə vadar etdi.

Bundan sonra dirilmiş Xilaskar haqqında Müjdə dünyanın ən ucqar məntəqələrinə çatdı. İmanlılar cəmiyyəti çoxsaylı iman etmələrin şahidi oldu. Adamlar hər tərəfdən oraya axışdılar. İmanlılann çoxu təkrarən vəftiz olunurdular. Bütpərəstlər də məsihçilərə qoşulub ən böyük sərvətlərə malik olmağa çalışırdılar. Peyğəmbərin sözləri yerinə yetdi: ən gücsüz adam "Davud kimi oldu", Davudun evi isə "Rəbbin mələyi kimi oldu" (Zək. 12:8). Hər

bir məsihçi öz qardaşında xeyirxahlığın və məhəbbətin İlahi bənzərini görürdü. Hamı bir məqsədə qulluq edirdi. Bu məqsəd başqalarının da həyatına daxil oldu. Bütün ürəklər ahəngdar döyünürdü. Bütün imanlıların məqsədi Məsihin xasiyyətinə nail olaraq, Onun Padşahlığını genişləndirmək naminə çalışmaq idi. “İman edənlərin cəminin isə bir ürək və bir canı var idi... Həvarilər böyük qüdrət ilə Rəbb İsa Məsihin dirilməsinə şəhadət etdilər və Allah hamısına böyük lütflər yağdırdı” (Həv. iş. 4:32, 33). “Rəbb də xilas edilənləri gündən günə cəmiyyətə əlavə edirdi” (Həv. iş. 2:47). Məsihin Ruhu imanlılar

cəmiyyətinə həyat verirdi; çünki bu adamlar ən böyük dəyərə malik olan mirvarini tapmışdılar.

Bu, təkrar olunmalıdır, ancaq daha böyük qüdrətlə. Əllinci gündə Müqəddəs Ruhun göndərilməsi yalnız ilk yağmur idi; son yağmur isə [82] daha bol olacaqdır. Ruh bizdən ancaq vüsətli çağırış və qəbuletmə gözləyir. Müqəddəs Ruhun qüdrəti ilə Məsih yenidən Öz dolğunluğu ilə insanlara açılmalıdır. İnsanlar yenidən səma mirvarisinin tükənməz dəyərini görərək, həvari Pavel ilə birlikdə deyəcəklər: “Mənə üstünlük təmin edən hər şeyi Məsih naminə zərər saydım. Və hətta uğrunda hər şeyin

zərərini çəkdiyim Rəbbim Məsih İsanı tanımağın üstün dəyəri yanında hər şeyi ziyan hesab edirəm” (Flp. 3:7, 8). [83]

## Tora bənzər

(Mt. 13:47-50)

"Yenə, Göylərin Padşahlığı dənizə atılan və hər çeşid balıq tutan bir tora bənzər; dolduğu zaman, onu sahilə çəkdilər və oturub yaxşıları qablara qoydular, pisləri isə çölə atdılar. Bu dövrün sonunda da belə olacaqdır. Mələklər gəlib pisləri salehlərin arasından kənar edəcəklər. Onları soba alovuna atacaqlar. Orada ağlaşma və diş qıcırtma olacaqdır" (Mt. 13:47-50).

Dənizə torun atılması İmanlılar cəmiyyətinə həm yaxşıları, həm də pisləri cəlb eləyən Müjdəni təsvir edir. Onun səyahəti qurtaran zaman hökm günü gələcəkdir və salehlərin pislərdən ayrılması başa çatacaqdır. Məsih görürdü ki, İmanlılar cəmiyyətində yalançıların mövcudluğu həqiqəti hörmətdən salır. Yalançı məsihçilərin keçirdikləri günahkar həyat tərzinə görə, dünya çox zaman Müjdənin doğruluğunu şübhə altına alır. Məsihə etiqad edib, əməldə Onun Ruhunu daşımayan adamları görən bəzi məsihçilər belə, imanda zəifləyə bilərlər. Bu günahkarların İmanlılar cəmiyyətində qalmaları adamlarda belə bir fikir

yaradır ki, guya, Allah onların günahlarına göz yumur. Məsih isə gələcəyin üzərindəki örtüyü götürərək bəyan edir ki, insanın aqibətini onun həyatda tutduğu vəzifə yox, məhz xasiyyəti həll edəcəkdir.

Tor haqqında məsəl, alaq otları haqqında olan məsəl kimi, bizlərə onu demək istəyir ki, günahkarların hamısının Allaha iman edəcəkləri [84] vaxt olmayacaqdır. Alaq otları yalnız biçinə qədər buğda ilə birlikdə bitir. Yaxşı və pis balıqları yalnız son dəfə seçilmək üçün birlikdə sahilə çıxarırlar.

Eyni zamanda hər iki məsəl göstərir ki, hökm günündən sonra

artıq iman etməyə imkan olmayacaqdır. Müjdənin işi dünyada başa çatdığı zaman, dərhal salehlərin pislərdən ayrılması baş verəcək və hər birinin taleyi əbədi olaraq təsdiq ediləcəkdir.

Allah heç bir günahkarın ölümünü istəmir. “Varlığıma and olsun, pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram” Xudavənd Rəbb bəyan edir. “Dönün, pis yollarınızdan dönün! Nə üçün öləsiniz?” (Yez. 33:11). Onun Ruhu insanları sınaq dövrü bitməmiş həyat ənamını qəbul etməyə dəvət edir. Lakin Onun ənamını rədd edənlər

ölümlə baş-başa qalacaqlar. Allah bəyan edir ki, günah məhv olmalıdır, çünki şər kainat üçün dağıdıcıdır. Günahdan əl çəkməyənlər onun məhvi zamanı öləcəklər. [85]

## **“Yeni və köhnə”**

(Mt. 13:51, 52)

Xalqı öyrədərkən, Məsih eyni zamanda Öz şagirdlərini gələcək işə hazırlayırdı. Onun hər öyüdündə onlar üçün də dərs

var idi. Tor haqqındakı məsəli danışdıqdan sonra O, şagirdlərindən soruşdu: “Bütün bu şeyləri anladınızmı?” Onlar İsaya: “Bəli, Ya Rəb”, — dedilər. Bu zaman yeni bir məsəl gətirərək, O, şagirdlərinin qəbul etdikləri həqiqətlərə məsuliyyətlə yanaşmalarına işarə

etdi. “Beləliklə, Göylərin Padşahlığına öyrədilmiş hər din alimi xəzinəsindən təzə və köhnə şeylər çıxaran ev sahibinə bənzər”.

Ağıllı ev sahibi öz xəzinəsini gizlətmir. Onu insanların qarşısına çıxarır ki, onlara da onun haqqında bilik versin. Xəzinənin dəyəri ondan istifadə edən zaman çoxalır. Məsih öyrədir ki, Onun şagirdlərinə tapşırdığı həqiqət dünyaya çatdırılmalıdır. Həqiqət haqqındakı biliklər başqalarına çatdırıldıqca çoxalır.

Müjdə haqqında xəbəri ürəyinə qəbul etmiş hər kəs onu başqalarına çatdırmaq istəyəcəkdir. Məsihin İlahi

məhəbbəti öz canlı təcəssümünü tapmalıdır. Məsihi qəbul etmiş kəslər mütləq öz təcrübələrilə bölüşərək, Müqəddəs Ruhun onları apardığı yol haqqında danışacaqlar. Allahın və Onun göndərdiyi İsa Məsihin dərk edilməsi yanğısı, Yazılardakı araşdırmaların nəticələri, yorulmaz dualar və qəlblərindəki alovdan bəhs edəcəklər. Nəhayət, Məsihin onlara yönəlmiş sözləri [86] haqqında şəhadət edəcəklər: "Sənin günahların bağışlandı". Belə yaşantıları gizlətmək qeyri-təbii olardı və Məsihin məhəbbətilə dolu olanlar, əlbəttə ki, belə etmirlər. Müqəddəs həqiqəti dərk etdikcə, onlarda alınan xeyir-duanı başqaları ilə bölüşmək

arzusu çoxalacaq. Başqalarına İlahi lütf xəzinəsindən danışarkən, onlar bu lütfdən daha çox alacaqlar. Onların ürəkləri sadəlövh uşaq ürəyinə bənzəyərək, şərtsiz itaətdə olacaqdır. Onların qəlbləri şövqlə qüdsiyyətə çalışaraq, dünyaya çatdırmaq üçün getdikcə daha çox həqiqət və lütf sərvətlərinə malik olacaqdır.

Böyük həqiqət xəzinəsi — Allah Kəlamıdır ki, yazılmış kəlamlar, təbiətin kitabı və eləcə də Allahın insan həyatında baş verən işləri ona daxildir. Onun işini yerinə yetirərək, Məsihin davamçıları bu xəzinədən bəhrələnməlidirlər. Onlar həqiqət axtarışlarında insan şüuruna,

müdrikliyi Allah qarşısında dəlilik sayılan dahi adamlara deyil, ancaq Allaha arxalanmalıdırlar. Rəbb Onu dərk etməyə çalışan hər kəsə Özünün təyin etdiyi vasitələrlə Özü haqqında bilik çatdıracaqdır.

Məsihin davamçısı Onun Kəlamına iman edərək, ona uyğun yaşayarsa, onun üçün ətraf aləmdə düzgün qəbul edib, qiymətləndirə bilməyəcəyi heç bir elm qalmayacaqdır. Bu dünyada elə bir şey yoxdur ki, malik olduğu həqiqətlərin başqalarına çatdırılması üçün insana yararlı olmasın. Təbiət elmi Məsihin məktəbində təhsil alan hər bir şagirdin bəhrələnə biləcəyi

bilik xəzinəsidir. Təbiətin gözəlliyini müşahidə edərkən, onun sirlərini öyrənərkən, ağac əkərkən, yaxud torpağın, dənizin və səmanın möcüzələrini görərkən, bizə həqiqətin yeni mənası açılır. Allahın insanlara olan münasibəti, Onun müdrikliyi və ədalətliliyi haqqında dərin sirlər bizə agah olur, bu sirlər insan həyatında izhar edilir və onların hamısı səma xəzinəsindəndir.

Yalnız yazılmış kəlamlarda Allah haqqında biliklər günahkar insana mümkün qədər aydın açılmışdır. Bu, Məsihin tükənməyən sərvətlər xəzinəsidir. [87]

Bildiyimiz kimi, Allah Kəlamına Əhdi-Ətiq və Əhdi-Cədid daxildir. Onların hər biri digəri olmadan tam deyildir. Məsih Özü bəyan edirdi ki, Əhdi-Ətiqin həqiqətləri də Əhdi-Cədidinki qədər dəyərlidir. Məsih, bugünkü kimi, dünyanın başlanğıcında da insanların Xilaskarı idi. Öz İlahiliyini insan təbiətində təcəssüm etdirib dünyamıza gəlməzdən əvvəl, Müjdə artıq Adəm, Şet, Xənok, Məfusəl və Nuh vasitəsilə verilmişdi. Müjdənin daşıyıcıları Kənanda İbrahim, Sodomda Lut və hər nəsildə Onun gəlişi haqqında xəbər verən müjdəçilər idilər. İbranilərin həyat tərzləri, bütün mərasimləri Məsihin

Özü tərəfindən tərtib edilmişdi. Onların bütün qurbanlıq mərasimləri və ibadət sistemlərinin əsasında O dayanırdı. Qurbanlıq mərasimi zamanı axan qan Allahın Quzusunun qurbanını təsvir edirdi. Yalnız simvol olan qurbanlar Məsihdə öz son ifadəsini tapdı.

Ağsaqqallara izhar edilmiş, qurbanlıq mərasimlərində nümayiş etdirilmiş, qanunda təsvir edilib, peyğəmbər vasitəsilə açılmış Məsih ƏhdiƏtiqin zənginliyini təşkil edir. Öz həyatı, ölümü və dirilməsi ilə izhar edilərək, Müqəddəs Ruh vasitəsilə nümayiş etdirilmiş Məsih Əhdi-Cədidin xəzinəsini təşkil edir.

Bizim Xilaskarımız, Allahın izzətinin parıltısı — əbədi Xəzinə, həm Köhnə, həm Təzə Xəzinədir.

Məsihin həyatı, ölümü və vəsatətçilik xidməti haqqında peyğəmbərlərin qabaqcadan bəyan etdikləri, bütün bunların şahidi olan həvarilərin təbliğinin əsasını təşkil etməli idi. Məsihin təvazökarlığı, paklığı və qüdsiyyəti, təsviredilməz məhəbbəti onların əsas mövzuları olmalı idi. Müjdəni bütün dolğunluğu ilə təbliğ etmək üçün həvarilər yalnız Öz yerdəki həyatı və nəsihətləri vasitəsilə izhar edilmiş Məsihi deyil, eyni zamanda Əhdi-Ətiq peyğəmbərlərinin xəbər verdikləri və

qurbanlıq mərasimlərinin təsvir etdiyi Məsihi təbliğ etməli idilər. [88] Öz öyüdləri ilə Məsih insanları köhnə və mənbəyinin Özü olduğu həqiqətlərə qaytarırdı. Nə vaxtsa ağsaqqallar və peyğəmbərlər vasitəsilə bəyan etdiyi bu həqiqətləri, indi O, yeni işıqda göstərirdi. İndi onların mənası nə qədər fərqli təsvir edilirdi! Onun izahlarında işıq və ruhlu qida axını açılırdı. O vəd etdi ki, Müqəddəs Ruh şagirdlərini nurlandıracaq və Allah Kəlamı getdikcə aydınlaşacaq. Onun həqiqətləri onlara yeni gözəllikdə görünəcəkdir.

İlk dəfə Ədəm bağında xilas vədi verilən vaxtdan bəri Məsihin həyatı,

xasiyyəti və vəsatətçi xidməti daim insanları düşündürmüşdür. Müqəddəs Ruhun təsiri altında olan hər bir adam bu mövzuları yeni işıqda görürdü. Xilas həqiqətləri daim inkişaf edib yayılmağa qadirdir. Bu həqiqətlər uzaq keçmişdə açılsalar da, daim yenidirlər və inadkar şüur qarşısında Allahın daha böyük izzətini və daha möhtəşəm qüdrətini açırlar.

Hər bir əsrdə həqiqət daha da inkişaf edir, Müjdə öz həqiqətləri ilə hər dövrün insanları qarşısında təkrar-təkrar açılır. Lakin bununla bərabər, qədim həqiqətlər də öz əhəmiyyətini itirməyib; yeni həqiqət əvvəlkilərdən ayrı şəkildə müstəqil mövcud

olmayıb, onların davamını, inkişafını təşkil edir. Yalnız qədim həqiqətləri tam dərk edərkən, yenilərini həqiqətən başa düşə bilərik. Məsih diriləcəyi haqqında həqiqəti şagirdlərinə açmaq istədiyi zaman, "Musa ilə bütün digər peyğəmbərlərdən başlayaraq, bütün Yazılarda Özü haqqında olan şeyləri onlara izah etdi" (Lk. 24:27). Eyni zamanda aydın başa düşməliyik ki, bu, əvvəlki həqiqəti möhtəşəm edən, yeni mənasını açan işıqdır. Yeni həqiqəti qəbul etməyən, yaxud da inkar edən adam həqiqətdə köhnəyə də malik deyildir. Onun üçün köhnə həqiqət öz həyat qüvvəsini itirərək, yalnız ölü ehkama çevrilir.

Bir çox adamlar Əhdi-Cədidi qəbul etməyərək, yalnız Əhdi-Ətiqin həqiqətlərinə iman edir və onu təbliğ edirlər. Ancaq Məsihin təlimini qəbul etməkdən imtina etməklə sübut edirlər ki, həqiqətdə ağsaqqalların və peyğəmbərlərin dediklərini inkar edirlər. “Əgər siz Musaya iman etmiş olsaydınız, — Məsih deyir, — Mənə də iman edərdiniz; ona görə ki, o, Mənim haqqımda yazmışdır” (Yəh. 5:46). Bu səbəbdən onların Əhdi-Ətiq təlimində də həqiqi güc yoxdur. [89]

Eynilə özlərini imanlı adlandırıb, ancaq Müjdəni tədris edən şəxslər də səhvə yol verirlər. Onlar Məsihin: “Mənim haqqımda şəhadət edənlər də

onlardır” — deyə bəyan etdiyi Əhdi-Ətiq Yazılarını inkar edirlər (Yəh. 5:39). Köhnə Əhdi inkar etməklə, onlar əslində Yenisini də inkar etmiş olurlar; çünki hər iki Əhd bütövün ayrılmaz hissələridir. Heç kim Allahın Qanununu Müjdəsiz, yaxud Müjdəni Qanunsuz təsəvvür edə bilməz. Qanun — Müjdənin təcəssümüdür, Müjdə isə açıqlanmış qanundur. Qanun — kökdür, Müjdə — bu kökdən bitən ətirli çiçək və bəhərdir.

Köhnə Əhd Yenisinə işıq salır, Yenisi isə Köhnə Əhdi nurlandırır. Həm bu, həm digəri Allahın Məsihdə açılmış izzətini təsvir edir. Hər ikisi elə həqiqətlər izhar edir ki, onları

axtaranlara daim yeni dərinliklər açacaqlar.

Məsihdə və Məsihin vasitəsilə qazanılan həqiqət ölçüsüzdür. Yazının tədqiqatçısı sanki baxdıqca daha da dərinləşən və genişlənən mədənə baxır. Öz Oğlunu bizim günahlarımızın əvəzinə qurban vermiş Allahın məhəbbətinin sirrini bu həyatda dərk eləmək bizim üçün qeyri-mümkündür. Xilaskarın bizim dünyada həyata keçirdiyi iş daim möhtəşəm mövzu olaraq, bizim ən yüksək təxəyyülümüzlə belə tam dolğunluğu ilə dərk edilməmiş qalacaqdır. Bu sirrin dərinliyini dərk etmək arzusu ilə insan öz şüurunu nə

qədər işlətsə də, onun idrakı bu cəhətdən çox acizdir. Ən çalışqan tədqiqatçı burada sahilsiz dəniz görəcəkdir.

Məsihdə izhar edilmiş həqiqəti qəlblə qazanmaq olar, bütün həyat təcrübəsi ilə hiss etmək mümkündür, lakin izah etmək imkansızdır. Onun ucalığı, genişliyi və dərinliyi bizim dərrakəmiz xaricindədir. Öz təsəvvürümüzü son həddə qədər gərsək belə, göylər qədər uca olan və eyni zamanda bəşəriyyətdə Allahın surətini təcəssüm etdirmək üçün yerə nüfuz edən izahedilməz məhəbbətin yalnız tutqun xətlərini seçə bilərik. [90]

Ancaq biz İlahi mərhəməti görə bilərik. O, təvazökar, tövbə edən qəlbə açılır. Biz Allahın mərhəmətini Onun bizim uğrumuzda verdiyi qurbanı qiymətləndirdiyimiz qədər dərk etməliyik. Allah Kəlamını təvazökar ürəklə dinlədikdə, bağışlanmanın uca həqiqətini dərk edə bilərik. Onun parlaqlığı, dərinliyi və qüdrəti biz onu dərk etdikcə çoxalacaq.

Bizim həyatımız Məsihin həyatı ilə bağlı olmalıdır; biz hər zaman göylərdən enmiş canlı Çörəkdən qidalanaraq, öz yanğımızı daim təzə-tər və tükənməz sərvətlərini əsirgəməyən bulaqda söndürməliyik.

Daim qarşımızda Rəbbi görüb, Onu izzətləndirib şükür etsək, ruhlu həyatımızda qəlb təravətini saxlamış olarıq. Sanki dostumuzla söhbət edirmiş kimi, biz öz dualarımız vasitəsilə Allahla ünsiyyət yarada biləcəyik. O bizimlə şəxsən danışaraq, Öz sirlərini açacaqdır. Bu zaman biz tez-tez bilavasitə İsanın sevinc bəxş edən iştirakını hiss edəcəyik. Xanokla söhbət etdiyi kimi, O bizə də yaxınlaşdıqda ürəklərimiz od tutub yanacaqdır. Bu hal məsihçinin həyatında həqiqətən mövcud olduğu zaman, onun xasiyyətində sadəlik, ləyaqət və ürək təvazökarlığı kimi keyfiyyətlər büruzə verilir. Bu o deməkdir ki, o,

İsa ilə ünsiyyətdə olmuş və Ondan öyrənmişdir.

Məsihin dini — ona yiyələnmiş həг bir kəsdə özünü qüdrət, nüfuzedici prinsip, fəal ruhlu enerji şəklində göstərəcək. Onlar daim təravətli, qüvvətli və əbədi gənclik sevincinə malik görünəcəklər. Allah Kəlamını qəbul etmiş ürək nə buxarlanıb sovrulan gölməçəyə, nə də qiymətli yağı axıb gedən sınıq qaba bənzər. Belə qəlb dağlardan axan və tükənməz bulaqlardan güc alan çaya bənzər. Onun pak, şəffaf suları qayaların arası ilə axaraq yorğun, susamış və yükü ağır adamlara sərinlik gətirir.

Belə təəssüratlar hər bir həqiqət müəllliminə Məsihin təmsilçisi olmaq imkanını verir. Məsıhin təliminin ruhu ona ünsiyyət və dua vaxtı güc və məqsədyönlülük verir. Onun Məsih haqqındakı şəhadəti dar və cansız təlim olmayacaqdır. O, eyni fikirləri təkrar-təkrar söyləməyəcəkdir. Onun şüuru Müqəddəs Ruhla nurlanmaq üçün açıq olacaqdır. [91]

Məsih demişdir: "Mənim ətimi yeyib, qanımı içənin əbədi həyatı vardır... Diri olan Ata Məni göndərdiyi, Mən də Ata vasitəsilə yaşamaqda olduğum kimi, Məni yeyən də Mənim vasitəmlə yaşayacaqdır... Həyat verən ruhdur...

sizə söyləmiş olduğum sözlər ruhdur və həyatdır” (Yəh. 6:54, 57, 63).

Məsihin ətini yeyib, qanını içdiyimiz zaman, bunda əbədi həyatın əlamətini aşkar edirik. Bu, artıq köhnəlmiş, adi bir hal almış ideyalara rəğbət deyildir. Adət edilmiş mərasimin yerini artıq yeni bir şey tutur. Köhnə həqiqətlər öz gücündə qalırlar, lakin onlar yeni işıqda görünürlər. Həqiqətin yeni dərk edilməsi aşkar edilir, o hamı üçün aydın olan paklıq və ecazkarlıqla görünür. Bunda iştirak etmək imkanına nail olmuş adamlar Müqəddəs Ruhun təsirini qəbul edərlərsə, yeni həyatın canlandıran və

bərpa edən qüvvəsini mütləq hiss edəcəklər. Onlarda İlahi Məhəbbət alovu yandırılacaqdır. Onların idrakı o qədər zərif olacaqdır ki, həqiqətin gözəlliyini və böyüklüyünü tam hiss edə biləcəklər.

Müzakirə etdiyimiz məsəldə müdrik ev sahibinin timsalında uşaqların və gənclərin böyük ehtiyac duyduğu həqiqi müəllim təsvir edilmişdir. Belə bir adamdan ötrü Allah Kəlamı xəzinədirsə, o, aşkar etdiyi həqiqətin yeni gözəlliklərindən həm özü həzz alacaq, həm də onu başqalarına göstərəcəkdir. Belə müəllim dua edərək Allaha arxalanarsa, Məsihin Ruhu onun

üzərinə enəcək və Allahın Özü Müqəddəs Ruhla onun vasitəsilə başqalarının şüuruna təsir edəcəkdir. Bu müəllimin şüurunu və ürəyini Ruh xoş ümidlə, cəsarətlə və Müqəddəs Kitab surətlərinin aydınlığı ilə dolduracaq və o bunların hamısını ona etibar edilmiş gənclərə çatdıracaqdır.

Allahdan ilham almış Yazıların tədqiqatı nəticəsində müəllimə açılmış səmavi rahatlıq və sevincin mənbələri onunla ünsiyyətdə olan hər bir adam üçün qüdrətli xeyir-dua çayına çevriləcəkdir. Onun şagirdləri üçün Müqəddəs Kitab heç vaxt yorucu kitaba çevrilməyəcəkdir.

Müdrik nəsihətçi yanında Kəlam hər zaman arzuedilən olacaqdır. O, həyat çörəyi [92] kimi, heç zaman köhnəlib qurumayacaqdır. Onun təravəti və gözəlliyi daim uşaq və gəncləri öz ecazkarlığı ilə cəzb edəcəkdir. Öz şüalarını yerə saçan günəş kimi, Allah Kəlamı işıq və isti saçır və heç zaman tükənmir.

Onun Kəlamında müqəddəs, nurlandıran İlahi Ruh aşkar edilir. Nur, Yazının hər səhifəsindən yeni və qiymətli nur saçır. Orada dərin həqiqətlər açılır, sözlər və cümlələr isə o qədər aydın və təsvir edilənlərə müvafiq olur ki, sanki İlahi səs bizə müraciət edir.

Müqəddəs Ruh sevinclə gənclərə müraciət edərək, onların qarşısında Allah Kəlamının sərvətlərini və gözəlliklərini açır. Böyük Müəllimin vədləri hisslərimizi zəbt edərək, Allahdan gələn ruhlu qüvvə ilə qəlblərə şəfa verib, onları dirildir. Açılmış xeyirxah şüurda İlahi həqiqətlərə getdikcə artan yaxınlıq duyulur ki, bu da gələcəkdə insanı müxtəlif imtahanlardan mühafizə edəcəkdir.

Həqiqət kəlmələrinin əhəmiyyəti getdikcə artaraq, onların mənası elə geniş və dolğun olacaqdır ki, biz bunu güman edə bilməzdik. İlahi Kəlamın gözəlliyi və zənginliyi

insanın şüur və xasiyyətinə yeniləşdirici təsir bağışlayır. Səma məhəbbətinin nuru ürəklərimizə ilham verəcəkdir.

Müqəddəs Kitabı dərk etmək qabiliyyəti onu tədqiq etdikcə çoxalır. Tədqiqatçı onun hansı hissəsinə müraciət etsə, orada Allahın sonsuz müdrikliyi və məhəbbətini tapacaqdır.

Qədim ibranilərin həyat tərzinin tərtibatının tam mənasını biz hələ dərk etməmişik. Onların adət və mərasimlərində nəhəng və dərin həqiqətlərin əlamətləri gizlənir. Müjdə bu mərasimlərin sirlərini aça bilən açardır. Orada gizlədilmiş həqiqətlərin hamısı qurtuluş planını

dərk etdikcə aydınlaşır. Bu ecazkar mövzuları biz başa düşməliyik. Allah haqqındakı dərin həqiqətləri dərk etməliyik. Qəlblərində Allah Kəlamını tədqiq edərək, onu daha geniş və dərindən dərk etmək üçün Allahdan müdriklik istəyən insanlara açılan həqiqətləri mələklər də bilmək arzusundadırlar. [93]

Biz dünya tarixinin sonuna yaxınlaşdığımız üçün son günlər haqqında peyğəmbərliklərə xüsusi diqqət yetirməliyik. Yeni Əhd Yazılarının sonuncu kitabının dərk edilməsi bizə çox vacibdir. İblis çoxlarının şüurunu tutduğundan, onlar müxtəlif bəhanə ilə Vəhy

kitabının tədqiqindən qaçırlar. Lakin Məsih Öz qulu Yəhya vasitəsilə son günlərdə olacaq hadisələri açaraq deyir: "Bu peyğəmbərlik sözlərini oxuyan və dinləyənlər və onda yazılanlara əməl edənlər bəxtiyardırlar" (Vəh. 1:3).

"Əbədi həyat o deməkdir ki, — Məsih buyurur, — Səni, vahid həqiqi Allahı və göndərdiyin İsa Məsihi tanısınlar" (Yəh. 17:3). Bəs nə üçün bu biliyin həqiqi əhəmiyyətini və dəyərini biz dərk eləmirik? Bəs nə üçün Vəhy kitabının böyük həqiqətləri ürəyimizə nur saçmır, dilimizdən eşidilmir və bütün təbiətimizi əhatələmir?

Bizə Öz Kəlamını bəxş edərək, Allah xilasımız üçün lazım olan həqiqətlərin hamısını ixtiyarımıza verdi. Bu həyat mənbəyindən minlərlə adam ovuclasa da, o tükənmək bilmir. Minlərlə adam qarşısında Rəbbi görür və Ona baxaraq həmin surətə bənzəyir. Onun xasiyyətinin gözəlliyindən, Onun onlar üçün və onların Məsih üçün kim olduqlarından danışarkən alovlanırlar. Lakin İlahi Kəlamın tədqiqatçıları böyük və müqəddəs mövzuları tükətmədilər. Minlərlə yeni insan Yazıların tədqiqatı və xilas edilməyin sirlərinin axtarışına qoşula bilər. Məsihin həyatı və Onun səyahətinin xarakteri barədə

düşündüyümüz zaman, həqiqəti dərk etmək üçün yeni cəhdlər edənlərin şüurunu işıq şuaları daha parlaq nurlandırır. Həqiqət axtarışının hər nailiyyəti əvvəlkindən daha dərin və həyəcanlı olacaqdır. Həqiqət tükənməzdir. Məsihin bədəndə gəlməsi, günahın əvəzinə verdiyi qurbanı və vəsatətçilik xidmətini dərk etmək son zamana qədər insan şüurunu narahat etsə də, o, saysız illərin zirvəsindən göylərə baxıb, nida edəcəkdir: "Möminliyin sirri dərk olunmazdır!"

Burada, günahkar dünyada təxmini anlaya bildiklərimizi biz yalnız əbədiyyətdə tam dolğunluğu

ilə dərk edəcəyik. Bitməyən əsrlər boyunca [94] qurtuluş mövzusu xilas edilmiş adamların ürək və şüurlarını məşğul edəcəkdir. Məsihin şagirdlərinin imansızlığı üzündən onlara açılmayan həqiqətləri xilas olmuşlar dərk edəcəklər. Buna görə də daim Məsihin kamilliyi və izzətinin yeni-yeni tərəfləri açılacaqdı. Bitməyən zamanda sadiq Ev Sahibi Öz xəzinəsindən "yeni və köhnəni" çıxaracaqdır. [95]

## “Diləyin ki, başqasına verə biləsiniz”

(Lk. 11:1-13)

Məsih bizə bəxş edə bildiklərini daim Atadan alırdı. “Və eşitdiyiniz söz Mənim deyil, — O deyir, — Məni göndərən Atanındır” (Yəh. 14:24). “İnsan Oğlu Ona xidmət edilmək üçün deyil, xidmət etməyə gəlmişdir” (Mt. 20:28). O Özü üçün deyil, başqaları üçün yaşayır, düşünür və dua edirdi. Allahla ünsiyyətdə keçirdiyi saatlardan sonra, O hər səhər yenidən insanların yanına gəlib səma nurunu onlara izhar edirdi. O,

hər gün yenidən Müqəddəs Ruhla vəftiz olunurdu. Yeni günün ilk saatlarında Rəbbi Onu istirahətindən oyadaraq, ruhunu və ağzını lütf ilə təqdis edirdi ki, O da onu insanlara çatdırsın. O, səma saraylarından yeni sözlər alırdı, yorğun və əzgin olanlara yalnız bu kəlmələr lazım idi. "Yorğunlara sözlə dayaq olmağı bilim deyə Xudavənd Rəbb mənə savadlıların dilini verdi. O hər səhər qulağımı oyadır ki, savadlı adamlar kimi dinləyə bilim" (Yeş.50:4).

Məsihin dua etməsi və Allahla daim ünsiyyətdə olması Onun şagirdlərini heyrətə salırdı. Bir dəfə, Rəbbin qısamüddətli yoxluğundan

sonra, onlar Onu duaya dalmış tapdılar. Ehtimal ki, onların gəlişini görməyən Məsih ucadan dua etməyə davam edirdi. Şagirdləri heyrət içində idilər. O dua edib qurtardıqdan sonra onlar dedilər: “Ya Rəbb! Bizə dua etməyi öyrət”. [96]

Cavabında Məsih əvvəlcə dağüstü moizəsində verdiyi Rəbbin duasını onlara təkrar etdi. Sonra isə məsəl vasitəsilə onlara vermək istədiyi nəsihəti təkrar elədi. “Və onlara dedi: Fərz edək ki, sizlərdən birisinin dostu var. Gecə yarısı onun evinə gəlib deyir: “Dostum! Mənə üç çörək borca ver. Çünki yoldan yanıma bir dostum gəlib, ona təklif edəcək bir şeyim

yoxdur”. O da içəridən ona cavab verərək deyir: “Məni narahat etmə, qapı artıq bağlıdır və uşaqlarım mənimlə bərabər yataqdadırlar; qalxıb sənə bir şey verə bilmərəm”. Sizə deyirəm ki, əgər o, dostluq naminə qalxıb verməsə də, dostu üzə saldığından qalxıb nə qədər istəyirsə ona verəcəkdir”.

Burada Məsih Özü başqasına vermək üçün diləyən insan simasında təsvir edilir. Ona çörək lazımdır, əks təqdirdə o, gecikmiş yorğun qonağın ehtiyacını ödəyə bilməyəcəkdir. Qonşu narahat edilmək istəməsə də, diləyən öz diləklərini dayandırmır, çünki onun dostuna kömək etmək

lazımdır və diləyənin inadkarlığı axırda mükafatlandırılır və o, istədiyinə nail olur.

Şagirdlər də buna bənzər inadkarlıqla Allahdan xeyir-dua istəməlidirlər. Bir çox adamı doyurduğu zaman və səmavi çörək haqqında moizəsində Məsih şagirdlərinin Onun təmsilçiləri kimi görməli olduqları işi onlara açdı. Onların vəzifəsi insanlara həyat çörəyini bəxş etməkdən ibarət idi. Onlara bu işi tapşıran Şəxs onların imanını gözləyən sınaqları görür və bilirdi. Onları gözlənilməz şəraitə düşüb, öz imkanlarının məhdudluğunu hiss etmək gözləyirdi.

İnsanlar həyat çörəyi üçün müraciət edən zaman, onların qarşısında özlərini gücsüz və köməksiz hiss etmək təhlükəsi dururdu. Onların özlərinə daim ruhlu qida ilə qidalanmaq lazım olacaqdı ki, onlar da onu başqaları ilə bölüşə bilsinlər. Ancaq heç kim ehtiyacı ödənilmədən onlardan ayrılmalı deyildi. Məsih onların güc alacaqları mənbəni göstərir. Vaxtsız gəlməsinə baxmayaraq, həmin insan dostuna qonaqpərvərlikdə imtina etmədi. Dostuna təklif edə biləcək heç nəyi olmasa da, o, qonşusunun evinə gedib istədiyini [97] alana qədər inad göstərdi. Məgər Öz qullarını ehtiyacı olanları doyurmağa göndərmiş Allah

Öz işini davam etdirməkdən ötrü onların çatışmazlıqlarını ödəməyəcəkmi?

Ancaq bu məsəldəki təkəbbürlü qonşu İlahi xasiyyəti təsvir etmir. Haqqında söhbət gedən vəziyyətdə dərs — müqayisədə deyil, təzaddadır. Təkəbbürlü insan inadlı istəyi yalnız onun istirahətini pozan adamdan canını qurtarmaq üçün yerinə yetirir. Allah isə bəxş etdiyinə sevinir. O, şəfqətlə doludur və Onun hüzuruna imanla gələnlərin istəklərini ödəməyə çalışır. O bizə həvəslə, sevinclə bəxş edir ki, biz də başqalarına xidmət edərək, Ona bənzəməyə çalışaq.

Məsih bəyan edir: “Diləyin, sizə veriləcək; axtarın, tapacaqsınız; qapını döyün, sizə açılacaq. Çünki hər diləyən alır, axtaran tapır və qapı döyənə açılır”.

Xilaskar sözünə davam edir: “Aranızda elə bir ata varmı ki, oğlu çörək istərsə, ona daş versin? Yaxud balıq istərsə, ona balıq əvəzinə ilan versin? Yaxud yumurta istərsə, ona əqrəb versin? Beləliklə, madam ki, siz pis olduğunuz halda öz övladlarınıza yaxşı hədiyyələr verə bilirsiniz, Səmavi Atanızın Ondan diləyənlərə Müqəddəs Ruhu verəcəyi nə qədər yəqindir!”

Allaha imanımızı möhkəmləndirməkdən ötrü Məsih Ona yeni adla müraciət etməyi öyrədir, elə bir adla ki, insan qəlbindəki ən qiymətli təəssürat və xatirələrlə bağlıdır. O, Nəhayətsiz Allaha bizim Atamız kimi müraciət etmək hüququ verir. Müraciət edərkən adlandırdığımız bu ad bizim Ona olan sevgimizin və etibarımızın nişanəsidir. Digər tərəfdən, bu ad Onun bizə olan ata münasibəti və məhəbbətinin rəhnidir. Allahdan mərhəmət, yaxud xeyir-dua dilədikdə səslənən bu ad Onun üçün musiqi kimi səslənir. Ona Ata kimi müraciət etməyi təkəbbürlülük saymamağımız üçün Özü onu dəfələrlə təkrar edir. O

istəyir ki, bu ad və müraciət bizim üçün adi və təbii olsun.

Allah bizə Öz övladları kimi baxır. O bizi bu qayğısız dünyadan hifz edib seçdi ki, Padşah ailəsinin üzvləri, Göylərin Padşahının oğul və qızları [98] olaq. Körpə öz dünyəvi atasına etibar etdiyindən də daha dərin və güclü şəkildə Ona etibar eləməyimizi təklif edir. Bütün valideynlər öz övladlarını sevirlər, lakin Allahın məhəbbəti hər bir insan sevgisindən güclü, dərin və genişdir. O, ölçüyəgəlməzdir. Əgər hətta dünyəvi valideynlər öz övladlarına yaxşılıqlar bəxş edə bilirlərsə, Səmavi Atamız Ondan dua edib diləyənlərə

nə qədər zəngin Müqəddəs Ruh bəxş edəcəkdir!

Məsihin dua haqqındakı nəsihətlərinə xüsusi diqqət yetirmək lazımdır. Dua özündə İlahi elm gizlədir və Məsihin təqdim etdiyi təsvir hər adamın dərk etməli olduğu prinsipləri açır. İsa burada göstərir ki, duanın həqiqi ruhu necə olmalıdır. O bizi Allaha müraciətlərimizdə inadlı olmağa çağırır və Onun bizim duamızı dinləyib cavab vermək istəyinin şübhəsiz olduğuna zəmanət verir.

Bizim dualarımız yalnız öz xoşbəxtliyimiz üçün diləklərdən ibarət olmamalıdır. Biz bölüşə

biləcəyimiz şeylər haqqında dua etməliyik. Məsihin həyat prinsipləri bizim həyat prinsiplərimiz olmalıdır. “Mən Özümü onların uğrunda müqəddəs edirəm ki, — O Öz şagirdlərini nəzərdə tutaraq deyir, — onlar da həqiqətdə müqəddəs edilsinlər” (Yəh. 17:19). Məsihdə izhar edilmiş həmin müqəddəsləşmə, həmin fədakarlıq və özünü qurban vermə, Allah Kəlamının tələblərinə həmin itaət Onun qullarına da məxsus olmalıdır. Dünyadakı xidmətimiz özümüzə və öz firavanlığımıza xidmətə çevrilməməlidir; bizim məqsədimiz Allahı izzətləndirərək, günahkarların xilas edilməsində Onunla birləşməkdən ibarətdir. Biz

Allahdan xeyir-dua diləməliyik ki, onu başqalarına verə bilək. Yeni bilikləri dərk etmək, almaq qabiliyyəti yalnız o zaman saxlanılır ki, biz malik olduqlarımızı həvəslə başqaları ilə bölüşürük. Malik olduqlarımızı ətrafdakılarla bölüşməsək, səma sərvətlərini almaqda davam edə bilmərik.

Məsəldə qonşusunun yanına xahişlə gəlmiş insan dəfələrlə rədd cavabı alsa da, öz cəhdlərini davam etdirdi. Bizim dualarımıza da hər zaman [99] dərhal cavab verilmir; lakin Məsih öyrədir ki, dua etməkdə davam etməliyik. Dua Allahın məqsədini dəyişdirmək üçün təsis

edilməmişdir; o bizi Allahla ahəngdarlığa gətirməyə xidmət edir. Ona xahişlə müraciət etdikdə, O, əlbəttə ki, bizim öz ürəyimizə nəzər salıb günahımızda tövbə etməyimizi vacib sayır. Buna görə Allah bizi imtahan və sınaqlardan keçirib itaətə gətirir ki, Müqəddəs Ruhun qəlbimizdəki işinə mane olan şeyləri görə bilək.

İlahi vədlərin yerinə yetirilməsi üçün müəyyən şərtlər vardır. Hər hansı bir dua insanı öz məsihçi vəzifələrini icra etməkdən azad etmir. "Əgər Məni sevirsinizsə, — Məsih deyir, — əmrlərimi yerinə yetirin". "Kim əmrlərimə malik olub onlara

riayət edərsə, Məni sevən odur. Məni sevən, Atam tərəfindən seviləcəkdir; Mən də onu sevəcəyəm və Özümü ona göstərəcəyəm" (Yəh. 14:15, 21). O şəxslər ki, Allaha vədlərinin yerinə yetməsi üçün dua edir, lakin eyni zamanda müəyyən şərtlərə tabe olmurlar, Xudavənd Allahı təhqir etmiş olurlar. Onlar Məsihin adından istifadə edib, vədlərin icra olunmasını istəyirlər, lakin əməllərində Məsihə olan imanları və məhəbbətləri büruzə verilmir.

Bir çoxları Atanın onları qəbul etmək üçün qoyduğu şərtləri icra etmirlər. Bizi Allaha yaxınlaşdıra biləcək iman işimizi diqqətlə tədqiq

eləməliyik. Əgər biz Ona itaət etmiriksə, sanki Rəbbə ödəniş qəbzi təqdim edirik, lakin ödənməsi üçün vacib olan şərtləri yerinə yetirmirik. Biz əbəs yerə Allaha vədlərini xatırladıb, icra edilməsini istəyirik, çünki bu zaman bizim istəklərimizi yerinə yetirməklə Allah Öz adını şöhrətdən salardı.

Rəbbin vədi isə belə səslənirdi: “Əgər Məndə qalsanız və sözlərim sizdə qalarsa, nə istəyirsiniz diləyin, sizə veriləcəkdir” (Yəh. 15:7). Yəhya isə təsdiq edir: “Onu tanıdığımızı isə bundan bilirik ki, Onun əmrlərinə riayət edirik. Kim deyirsə ki, Onu tanıyıram, amma Onun əmrlərinə

riayət etmirsə, o, yalançıdır və onda həqiqət yoxdur. Kim Onun sözünə riayət edirsə, Allahın məhəbbəti onda həqiqətən kamil olmuşdur” (1 Yəh. 2:3-5). [100]

Məsihin şagirdlərinə verdiyi son əhdlərindən biri “Sizə bir-birinizi sevəsiniz deyə yeni bir əmr verirəm: sizi sevdiyim kimi, siz də bir-birinizi sevin” idi (Yəh. 13:34). Biz bu əmrə itaət edirikmi, yoxsa xasiyyətimizdəki qaba, qeyri-məsihçi cəhətlərə göz yumuruq? Əgər yaxınlarımızı kədərləndirib, incitmişiksə, bizim borcumuz öz günahımızı etiraf edib, var gücümüzlə barışığa çalışmaqdır. Allahın

hüzurunda həqiqi imanla dayanaraq, Onun xeyir-duasını istəmək üçün bu, mühüm şərtdir.

Rəbbin hüzuruna dua ilə gələnlər tez-tez başqa bir cəhəti də unudurlar. Allahla münasibətlərimizdə biz həmişəmi səmimiyik? Məlaki peyğəmbərin vasitəsilə Rəbb deyir: "Atalarınızın dövründən bəri qaydalarımdan döndünüz və onlara əməl etmədiniz. Mənə tərəf dönün, Mən də sizə tərəf dönərəm", deyir Ordular Rəbbi. Siz "necə dönək?" — deyə soruşursunuz. İnsan da Allahdan oğurlayarmı? Siz isə Məndən oğurlayırsınız. "Səndən nəyi oğurlayırıq?" — deyə soruşursunuz.

Ondabirləri və təqdimləri oğurlayırsınız” (Mal. 3:7, 8).

Hər cür xeyir-dua Vericisi olan Allah malik olduğumuz hər şeyin müəyyən hissəsinə hüququ olduğunu bəyan edir. Bu hissə Müjdənin bütün dünyaya yayılması məqsədilə ayrılıb. Allahdan aldığımız vəsaitlərin bir qismini qaytarmaqla, biz Onun ənamları üçün öz minnətdarlığımızı bildiririk. Lakin əgər Ona mənsub olanı qaytarmaqdan imtina ediriksə, necə Ondan xeyir-dua istəyə bilərik? Əgər yerdəki işlərimizdə biz bu qədər etibarsızıqsa, Onun səma işlərini bizə etibar edəcəyini necə güman edə

bilərik? Bəlkə dualarımızın çoxunun cavabsız qalmasının səbəbi bundadır.

Lakin Rəbb Öz sonsuz mərhəmətilə bizi əfv etməyə hazırdır və belə deyir: “Bütün ondabirlərinizi anbara gətirin ki, məbədimdə həmişə ərzaq olsun”. Ordular Rəbi deyir: “Siz bununla Məni sınayın. Görəcəksiniz ki, göylərin pəncərələrini sizə açacağam,üzərinizə ehtiyaclarınızdan da çox bərəkət yağdıracağam. Çəyirtkələri əkinlərinizi yeməyə qoymayacağam, tarlada meynəniz məhsulsuz qalmayacaq” deyir [101] Ordular Rəbbi. “Bütün millətlər sizi bəxtiyar sayacaq. Çünki ölkəniz gözəl bir yer

olacaq" deyir Ordular Rəbbi" (Mal. 3:10-12).

Bu vəd Allahın hər bir başqa tələbinə də aiddir. Onun bütün ənamları bizim itaətimiz şərtilə vəd edilmişdir. Allahın göyləri Ona kömək edənlər üçün xeyir-dualarla doludur. Ona tabe olanların hamısı Onun vədlərinin icra olunmasını diləyib, imanla gözləyə bilərlər.

Ancaq bununla bərabər, biz Allaha möhkəm, sarsılmaz iman göstərməliyik. Bəzən O bizim duamıza cavab verməyə tələsmir ki, imanımızı sınasın, yaxud diləyimizin səmimiliyinə əmin olsun. Kəlamına uyğun olaraq diləklərimizi Ona

ucaltdığımız zaman, Onun vədinə imanımızı qoruyaraq dualarımızda daimi olub, rədd edilməsi mümkün olmayan yorulmazlıq göstərməliyik.

Allah buyurmamışdır ki, bir dəfə diləyin və sizə veriləcəkdir. O bizi yorulmadan diləməyə həvəsləndirir. Dualarınızda inadlı olun. Yorulmaz diləklər — diləyən insanı daha səmimi və dərin hisslərə gətirir; onun nə isə əldə etmək istəyi çoxalır. Lazarın qəbri önündə Məsih Martaya belə dedi: “Əgər iman edərsənsə, Allahın izzətini görəcəksən” (Yəh. 11:40).

Çoxları isə canlı imana malik deyildirlər. Məhz buna görə də onlar

Allahın qüdrətinin bu qədər təzahürlərini görmürlər. Onların zəifliyinin səbəbi imansızlıqdadır. Öz qabiliyyət və imkanlarına Allahın onlar üçün etdiyi işlərindən çox inanırlar. Yalnız özlərinə güvənərək, bütün işlərini öz gücləri ilə yerinə yetirmək istəyirlər. Onlar plan və layihələr qururlar, lakin az dua edir və Allaha az etibar edirlər. Bəzən onlar hətta imanlı olduqlarını güman edirlər, lakin bu, yalnız ani bir meyldir. Öz həqiqi ehtiyaclarını dərk edib, Allahın onları ödəmək istəyini dərk etmədikləri üçün bu adamlar Allaha müraciətlərində inad və səy göstərmirlər.

Bizim dualarımız da gecə yarısı qonaq gəlmiş dostu üçün qonşusundan çörək istəyən yoxsul adamın xahişi qədər qızğın və inadlı olmalıdır. Diləklərimiz nə qədər səmimi və inadlıdırsa, bizim Məsihlə ruhlu [102] birliyimiz bir o qədər sıx olur. Nəticədə, biz getdikcə daha çox xeyir-dua alacağıq, çünki imanımız güclənəcəkdir.

Bizim vəzifəmiz yalnız dua ilə iman etməkdir. Dualarınızda ayıq olun. Ayıq olun və öz səylərinizi duaları eşidən Allahla birləşdirin. Daim yadınızda saxlayın ki, "biz Allahın yanında əməkdaşlarıq" (1 Kor. 3:9). Qoy sizin əməl və

sözlərininiz dualarınıza uyğun olsun. Bu sınaq sizin imanınızın səmimiliyini, yaxud dualarınızın ancaq cansız mərasim olduğunu sübut edəcəkdir.

Maneə və çətinliklərlə üzləşdiyiniz zaman adamların köməyinə güvənməyin. Allaha etibar edin. Öz problemlərimizlə başqalarına müraciət etdikdə zəifləyirik və əlbəttə ki, öz həmsöhbətimizə də güc vermirik. Bununla biz yalnız öz ruhlu gücsüzlüyümüzü onların üzərinə qoyuruq, onlar isə bunu yüngülləşdirə bilmirlər. Biz günahkar, ölümə məhkum insandan güc almağa

çalışırıq, halbuki bunu bizə Müqəddəs, Nəhayətsiz Allah verə bilər.

Allah yanımızda ikən müdriklik dalınca dünyanın axırına getmək lazım deyil. Sizin müvəffəqiyyətinizi malik olduğunuz, yaxud nə vaxtsa alacağınız qabiliyyətləriniz təmin etməyəcəkdir. Bunun hamısını sizdən ötrü Rəbb edə bilər. İnsanın edə biləcəyinə az arxalanaraq, Allahın hər imanlı qəlb üçün edə biləcəyinə bel bağlamaq lazımdır. O arzu edir ki, imanla Onun hüzuruna gəlib Ondan böyük işlər gözləyəsiniz. O sizə yalnız ruhlu məsələlərdə aydınlıq və müdriklik vermək yox, həm də

dünyəvi işlərdə bilik vermək istəyir. O sizin intellektual imkanlarınızı genişləndirə bilər. Sizə ustalıq və müdriklik verə bilər. İşinizdə səy göstərin, Allahdan müdriklik diləyin və sizə veriləcəkdir.

Məsihin sözünü etibarlı zəmanət kimi qəbul edin. Məgər O sizi yanına dəvət etmirmi? Heç vaxt ümidsizliyə qapılıb vəziyyətinizin çarəsiz olduğunu söyləməyin. Belə etdikdə siz çox şey itirirsiniz. Yaranmış şərait qarşısında qorxu və çətinliklərdən şikayət, rastlaşa biləcəyiniz bəlalar qarşısında keçirdiyiniz həyəcan onu göstərir ki, sizin imanınız zəifləyib, [103] sarsılmışdır. Elə danışıb hərəkət

edin ki, sanki imanınız sarsılmazdır. Rəbb üçün hər şey mümkündür; dünyanın hökmdarı Odur. İmanla baxın göylərə. İşıq, qüdrət və izzət Sahibinə müraciət edin.

Həqiqi imanda möhkəm, səbatlı prinsiplər, zamanın və sınaqların sarsıda bilmədiyi məqsədyönlülük olur. "Hətta cavanlar yorular, taqətdən düşərlər, igidlər əldən düşüb titrəyərlər. Rəbbə ümid bağlayanlar isə yeni qüvvət alarlar, qanad açıb qartal kimi yüksəklərə uçarlar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar" (Yeş. 40:30, 31).

Çoxları insanlara yardım etmək istəyirlər, lakin hiss edirlər ki, bölüşə

biləcək ruhlu qüvvəyə və işığa malik deyillər. Onlar öz duaları ilə lütf taxtına müraciət edib Müqəddəs Ruhun göndərilməsini istəməlidirlər. Allah verdiyi hər bir vədinə sadiqdir. Əlinizdə Müqəddəs Kitabı tutaraq Ona müraciət edin və söyləyin: "Ya Rəbb, mən Sənin dediyin kimi etmişəm. İndi isə Sənin "Diləyin, sizə veriləcəkdir; axtarın, tapacaqsınız; qapını döyün, sizə açılacaqdır" vədinə müvafiq olaraq Sənə müraciət edirəm".

Biz yalnız Məsihin adı ilə deyil, eyni zamanda Müqəddəs Ruhdan ilhamlanaraq dua eləməliyik. "Ruh Özü isə ifadə olunmaz ahlarla bizim

üçün vəsatət edir" cümləsi bu fikri nəzərdə tutur (Rom. 8:26). Belə diləyə Allah sevinclə cavab verəcəkdir. Biz Məsihin adı ilə səmimi və hərarətli dua etdiyimiz zaman, Allah məhz bu hərarətli dualarımıza görə "xahiş etdiyimiz, yaxud düşündüyümüzdən artıq" etmək niyyətində olur (Ef. 3:20).

Məsih demişdir: "Dua edib, istədiyiniz hər şeyi almış olduğunuza iman edin və sizə olacaqdır" (Mk. 11:24). "Mənim ismimlə hər nə dilərsinizsə, onu edəcəyəm; ta ki, Ata Oğulda izzətlənsin" (Yəh. 14:13). Sevimli Yəhya da Müqəddəs Ruhdan ilham alıb böyük inam və aydınlıqla

söyləyir: “Əgər biz Onun iradəsinə uyğun şəkildə bir şey diləyiriksə, O, bizi eşidir. Əgər biz biliriksə ki, O, hər dilədiyimizi eşidir, biz Ondan xahiş [104] etdiyimizi alacağımızı da bilirik” (1 Yəh. 5:11, 15). Ataya yönəlmiş dualarınızı İsa adı ilə ucaldın. Allah bu ada hörmət edir və sizi eşidəcəkdir.

Allahın taxtını əhatə edən göy qurşağı Onun hər şeydə sadiq olduğunu, Onda heç bir dəyişikliyin baş vermədiyini göstərir. Biz Onun qarşısında günahkarıq və Onun lütfünə layiq deyilik və buna baxmayaraq, Onun Özü bizim dodaqlarımıza ecazkar dilək

kəlmələri bəxş etmişdir: “Öz adın naminə bizdən imtina etmə, Öz izzətli taxtını alçaltma. Bizimlə olan əhdini pozma, yada sal” (Yer. 14:21). Öz ləyaqətsizliyimizi və günahkarlığımızı etiraf edib, Onun hüzuruna gəldiyimiz zaman, Özü bizim duamızı dinləyəcəyini vəd edir. Taxtının izzətinin özü Onun bizə verdiyi sözün möhkəmliyi üzərində dayanır.

Məsihi təsvir edən Harun kimi, Xilaskarımız məbədindəki adamlarının hamısının adlarını Öz ürəyinin əqdəsində daşıyır. Baş Kahinimiz bizdə etibar yaradan bütün

sözlərini xatırlayır. O bizimlə bağladığı əhdini əbədiyyən xatırlayır.

Məsihə üz tutmuş hər kəs Ona malik olacaqdır. Hər döyən üçün qapı açılacaqdır. Heç kimə deyilməyəcəkdir: “Məni narahat etmə, artıq qapılar bağlıdır, Mən onları açmaq istəmirəm”. Heç kimə deyilməyəcəkdir: “Mən sənə kömək edə bilmərəm”. Gecə yarısı ac qəlbləri doydurmaq üçün çörək diləyənlər istədiklərini alacaqlar.

Məsəldə qonaq üçün çörək istəyən “istədiyi qədər” alır. Bəs başqaları ilə bölüşə biləcəyimiz lütfü Allah hansı ölçü ilə verəcəkdir? Yazıda deyilir: “...Məsihin verdiyi

ölçü ilə" (Ef.4:7). Mələklər insanın öz yaxınlarına münasibətinə diqqətlə nəzarət edirlər. Görəndə ki, kimsə büdrəyənə məsihcəsinə mərhəmət göstərir, ona kömək edirlər və təskinlik sözlərini onun yadına salırlar. Bu sözlər onun dilində günahkar üçün həyat çörəyi olacaqdır. Beləliklə, Allah "Öz izzətli zənginliyinə görə Məsih İsa vasitəsilə sizin hər cür ehtiyacınızı ödəyəcəkdir" (Flp. 4:19). O sizin səmimi və doğru şəhadət sözlərinizi gələcək həyata məxsus [105] olan qüvvə ilə dolduracaqdır. Rəbbin Sözü sizin dodaqlarınızda həqiqət və düzgünlük rəmzinə çevriləcək.

Şübhəsiz ki, yaxınlarınızın xilasına yönəlmiş şəxsi səylərinizə təklikdə etdiyiniz fədakar dualarınız təməl qoymalıdır. Qəlbləri xilas etmək elmi böyük müdriklik tələb edir. İnsanların yanına getməzdən əvvəl İsanın hüzuruna gəlin. İnsanlara xidmət etməyə hazırlıq səma lütfünün taxtı önündə keçir.

Qoy sizin ürəyiniz Allaha, diri Allaha yönəlməyə çalışsın. Məsihin həyatı İlahi təbiətin iştirakçısı olan insanın nə kimi işlər görə bildiyini göstərir. Məsihin Allahdan aldığı hər şeyə biz də malik ola bilərik. Deməli, diləyin və alacaqsınız. Allahın vəd etdiyi hər şeyi Yaqubun inadkar imanı

ilə, İlyasın sarsılmaz mətinliyi ilə diləyin.

Qoy sizin şüurunuzu Allahın ali niyyətləri doldursun. Qoy sizin həyatınız gözəgörünməz bağlarla İsanın həyatına bağlansın. İşıqla zülmətə nur saçmağı buyurmuş Allah sizin ürəyinizi də nurlandırıb, İsa Məsihdə açılmış ilahi izzəti dərk etmək üçün işıq bəxş etmək istəyir. Müqəddəs Ruh sizə İlahi sirləri açıb, onları itaətkar ürəyinizi möhkəmləndirən canlı qüvvəyə çevirəcəkdir. Məsih sizi Nəhayətsizin qapısına çatdıracaqdır. Onda siz pərdə arxasında olan izzəti görəcək və bizdən ötrü vəsatət etmək üçün hər

zaman diri Olanın dolğunluğunu insanlara aça biləcəksiniz. [106]

## İki nəfər dua edən

(Lk. 18:9-14)

“Özlərinin saleh olduğuna güvənib, başqalarına xor baxan bəziləri üçün” Məsih fərisey və vergiyığan haqqında məsəli söylədi. Fərisey məbəddə dua etməyə gəlir, lakin özünü günahkar hiss edərək bağışlanmağa ehtiyacı olduğu üçün deyil, doğru olduğu və mükafat almaq üçün. Duanı özünə məziyyət sayaraq, onu Allahın gözündə ucaldacağını güman edir. Eyni zamanda o öz möminliyi ilə adamları

mütəəssir etmək istəyir. Həm Allahın, həm də ətrafındakıların rəğbətini qazanmaq istəyir. Onun Allaha sitayişi şəxsi mənfəət güdür.

O, şöhrətpərəstliklə doludur. Bu onun duasında, yerişində və sifətində büruzə verilir. Başqalarından uzaqlaşıb, sanki "Uzaq dur, Mənə yaxınlaşma, çünki mən səndən müqəddəsəm" deyərək (Yeş.65:5), təklikdə "öz-özünə" dua edir. Özündən tam razı halda hesab edir ki, Allah və insanlar ona heyrandırlar.

"Ya Allah! Mən başqaları kimi soyğunçu, haqsız, zinakar və yaxud da bu vergiyığan kimi olmadığım üçün, — o deyir, — Sənə

minnətdaram”. O özünü Allahın qüdsiyyəti ilə ölçmür, lakin başqa insanlarla müqayisə etməklə kifayətlənir. Onun şüuru İlahi keyfiyyətlərə deyil, bəşəri keyfiyyətlərə yönəlmişdir. Onun özündən razılığının səbəbi də bundadır. [107]

O öz yaxşı əməllərini saymaqda davam edir: “Həftədə iki dəfə oruc tuturam, əldə etdiyim hər şeyin onda birini verirəm”. Ancaq bu fəriseyin dini onun qəlbinə toxunmur. O, İlahi xasiyyətin keyfiyyətlərinə nail olmağa çalışmır, sevgi və mərhəmətlə dolu ürəyə malik olmaq istəmir. Həyatının yalnız zahiri tərəfini əhatə

edən dinlə məhdudlaşır. Onun paklığı özü güman etdiyi paklıqdır, onun şəxsi səylərinin məhsuludur və bəşəri meyarlarla dəyərləndirilir.

Kim özünü doğru sayırsa, başqalarına yuxarıdan baxacaqdır. Özünü başqaları ilə müqayisədə təsdiqləyən fərisey, onları da özü ilə müqayisə edib dəyərləndirir. Öz möminliyini başqa adamların möminliyi ilə müqayisədə qiymətləndirir və ona görə də əhatəsindəkilər nə qədər pisdirlərsə, onlarla müqayisədə özü-özünə o qədər mömin görünür. Onun özünü mömin saymağı başqalarını mühakimə etməyə rəvac verir.

“Başqalarını” Allah Qanununun pozucuları kimi mühakimə edir. Beləliklə də onda qardaşları mühakimə edən şeytanın ruhu büruzə verilir. Bu ruhla o, Allahla ünsiyyətə girə bilməz. Dua etdikdən sonra o öz evinə İlahi xeyir-duanı almadan qayıdır.

Vergiyığan isə başqa dindarlarla bir yerdə ibadətə gəlmişdir, lakin tezliklə özünü onlarla birgə dua etməyə layiq bilmədiyi üçün bir kənarda dayandı. Onlardan uzaqda durub, o, “gözlərini göyə qaldırmağa belə cəsarət etmirdi”, fəqət döşünə döyüb dərindən kədərlənir və özünə nifrət edirdi. O özünü Allah

qarşısında cinayətkar, günahkar və murdar sayırdı. O, ətrafındakılardan mərhəmət gözləmirdi, çünki onlar ona nifrətlə baxırdılar. O bilirdi ki, Allah qarşısında ona bəraət yoxdur və tam ümidsiz halda deyirdi: "Ya Allah! Mən günahkara mərhəmət et!" O özünü başqaları ilə müqayisə etmirdi. Günah hissi ilə tutularaq, o, sanki, Allahla təkbətək qalmışdı. Yeganə arzusu bağışlanıb, salehliyə nail olmaq idi, yeganə diləyi Allahın mərhəməti idi və o, xeyir-dua aldı. "Sizə deyirəm ki, — Məsih dedi, — o birisi yox, bu adam evinə təmizə çıxaraq getdi". [108]

Fərisey və vergiyığanın timsalında Allaha ibadətə gələn iki qrup adam təsvir olunmuşdur. Onlar bizim dünyaya ilk olaraq göz açmış iki körpəyə bənzəyirlər. Qabil özünü doğru sayırdı və Allahın hüzuruna yalnız minnətdarlıq qurbanı ilə gəlmişdi. O, günahlarında tövbə etməyib, Allahın mərhəmətinə ehtiyac duymurdu. Habil isə qan ilə qurban gətirib gələcəkdə gözlənilən Allahın Quzusuna işarə edirdi. O özünü Allah üçün itirilmiş sayaraq, tövbə edən günahkar kimi gəlmişdi; onun yeganə ümidi Allahın tükənməz məhəbbətinə etibar etmək idi. Rəbb onun qurbanından məmnun qaldı, Qabilin qurbanını isə qəbul etmədi.

Allahsız yaşamağın mümkün olmadığını dərk etmək, öz zəifliyimizi və günahkarlığımızı başa düşməyimiz Allahın bizi qəbul etməsi şərtlərinin birincisidir. “Nə bəxtiyardırlar ruhən yoxsullar; çünki Göylərin Padşahlığı onlarındır” (Mt. 5:3).

Dua edənlərin fərisey və vergiyığanla təsvir edilmiş hər iki nümayəndəsi üçün həvari Peterin əhvalatında özünəməxsus dərs vardır. Həvariliyinin başlanğıcında Peter özünü güclü sayırdı. Fərisey kimi, o da özündən razı idi və fəxr edirdi ki, “başqaları kimi deyil”. Yəhudanın satqınlığı ərəfəsində Məsih Öz

şagirdlərinə xəbərdarlıq edib, “Hamınız bu gecə Məndən dönəcəksiniz” dediyi zaman, Peter inamla dedi: “Hamı Səndən dönsə də, mən dönməyəcəyəm” (Mk. 14:27, 29). Peter özünü aldatmağın təhlükəsini təxmin etmirdi. Özünə güvənmək onu aldatdı. O hesab edirdi ki, nəfsə qalib gəlmək gücündədir; ancaq qısa bir vaxtdan, bir neçə saatdan sonra sərt sınaq vaxtı gəldi və o and içib Allahı şahid edərək, öz Rəbbindən imtina etdi.

Xoruzun banlaması ona Məsihin sözlərini xatırlatdığı zaman, etdiyindən dəhşətə gəlmiş Peter dönüb öz Rəbbinə baxdı. Bu anda

Məsih də Peterə baxdı və məhəbbət və mərhəmətlə dolu olan bu kədərli baxışın altında Peter özünü dərk etdi. O, çölə çıxıb ürəkdən ağladı. Məsihin baxışı onun ürəyini dağladı. Peterdən ötrü həlledici an yetişdi və o kədərlənərək öz günahında tövbə etdi. Öz kədəri və tövbəsi ilə o, [109] sözügedən vergiyığana bənzəyirdi və onun kimi, Peter də Rəbbin mərhəmətinə nail oldu. Məsihin baxışı onun bağışlandığına zəmanət verirdi.

O andan özünəgüvənmək onu tərk etdi. O, bir daha heç vaxt qürurlu sözlər söyləmədi.

Dirildikdən sonra Məsih üç dəfə Peteri sınadı. "Yunis oğlu Şimon, Məni bunlardan çox sevirsənmi? — O soruşdu". Peter artıq özünü qardaşlarının yanında yüksək tutmurdu. O, ürəyini oxuya Bilənə müraciət elədi. "Ya Rəbb! — o dedi, — Sən hər şeyi bilirsən; Səni sevdiyimi bilirsən" (Yəh. 21:15, 17).

Bu zaman ona məsul vəzifə tapşırıldı, əvvəlkilərdən daha böyük və incə iş həvalə edildi, Məsih ona Öz qoyun və quzularını güdməyi əmr etdi. Məsih həyatını verdiyi canların qayğısını Peterə tapşırmaqla, onun imanda möhkəm olacağına ən böyük zəmanət verdi. Nə vaxtsa qürurlu,

özünəgüvənən və hövsələsiz olan həvari təvazökar və tövbə edən oldu. Bu andan o daim özündən imtina etməyə və özünü qurban verməyə hazır olaraq, öz Rəbbinin arxasınca getdi. O, Məsihin əzablarını bölüşdürən oldu və Məsih Öz izzət taxtında oturduğu zaman, Peter Onun izzətini də bölüşdürəcək.

Peteri satqınlığa gətirmiş və fəriseyin Allahla canlı ünsiyyətinə mane olan günah bu gün də bir çoxlarının qəlbini çürütməkdədir. Allah üçün yad və insan qəlbi üçün təhlükəli keyfiyyətlərdən qürur və özünəgüvənmək kimi zərərliləri

yoxdur. Bütün günahların içində bunlar ən ümidsiz və əlacsızlarıdır.

Peterin satqınlığı adi zəifliyin nəticəsi deyil, çoxdan başlamış və tədricən davam edən düşkünlüyün nəticəsi idi. Özünəgüvənmək onu artıq xilas olduğunu düşünməyə vadar etdi və addım-addım aşağıya sürükləyib, öz Müəllimindən imtina etməyə gətirdi. Özümüzə tam əmin olub hələ göylərdə deyil, burada, yerdə aldanmaqdan mühafizə edildiyimizi güman etmək bizim üçün sadəlövhlük olardı. Doğru yola dönmələri nə qədər səmimi olsa da, Xilaskarı qəbul etmiş adamlar heç zaman artıq [110] xilas olunmuş kimi

danışıb, düşünməməlidirlər. Bu, səhv fikirdir. Öz imanını uca tutaraq, xilas olmağa ümid etmək hər kəsin vəzifəsidir, ancaq biz özümüzü Məsihə təslim edib, Onun bizi qəbul etdiyini bildikdə belə, aldanmaqdan azad deyilik. Allah Kəlamı öyrədir: "Çoxları paklanıb ləkəsiz və təmiz olacaq" (Dan. 12:10). Yalnız sınaqdan çıxmış adamlar "həyat tacını alacaqlar" (Yaq. 1:12).

Kim ki Məsihi qəbul edib özünün yenicə malik olduğu əminliyi ilə xilas edildiyini bəyan edirsə, o özünə güvənmək təhlükəsi qarşısındadır. Belələri öz zəifliklərini və İlahi qüvvəyə daim ehtiyac duyduqlarını

unudurlar. Onlar iblisin hiylələrinə hazır olmadıqları üçün, imtahan gəldiyi zaman Peter kimi günahın dərinliklərinə yuvarlanırlar. Bizə xəbərdarlıq edilir: “Kim düşünürsə ki, ayaq üstə durub, ehtiyatlı olsun ki, yıxılmasın” (1Kor. 10:12). Bizim təhlükəsizliyimizin yeganə təminatı özünə güvənməmək və daim Məsihdən asılı olmaqdır.

Peterə öz xasiyyətindəki yamanlığı və zəifliyi görüb, Məsihin qüdrətinə və lütfünə ehtiyacı olduğunu dərk etmək lazım idi. Rəbb onu sınaqdan qoruya bilməzdi, lakin əgər Peter diləsəydi, onu məğlub olmaqdan xilas edə bilərdi. Peter

Məsihin xəbərdarlığına riayət etmək istəsəydi, duasında ayıq olardı. O büdrəməkdən qorxaraq, qorxu və titrəyiş içində gəzərdi və Allahın yardımını və dəstəyini alaraq, şeytana məğlub edilməzdi.

Peterin düşkünlüyü onun qüruru ilə şərtlənmişdi və yalnız tövbə və təvazökarlıq sayəsində yenidən möhkəmlik əldə edə bildi. Peterin təcrübəsi hər bir tövbə edən günahkara ümid və təskinlik verə bilər. Peter dəhşətli günah etmiş olsa da, tərk edilmədi. Onun qəlbində Məsihin sözləri həkk edilmişdi: “Mən sənin üçün dua etdim ki, imanın azalmasın” (Lk. 22:32). Məsihin bu

duası və Onun məhəbbət və mərhəmət dolu baxışının xatirəsi acı vicdan əzabı içində olan Peterə ümid verdi. Məsih dirildikdən sonra Peteri xatırlayaraq, mələk vasitəsilə qadınlara dedi: “Gedin Onun şagirdlərinə və Peterə deyin: O sizdən qabaq Qalileyaya [111] gedir, sizə dediyi kimi, Onu orada görəcəksiniz” (Mk. 16:7). Peterin tövbəsi qəbul edilmişdi, onun günahını Xilaskar bağışlamışdı.

Peteri xilas etməkdən ötrü ona qarşı göstərilmiş mərhəmət bu gün də sınaq qarşısında tab gətirməyən hər qəlbə yönəlmişdir. İnsanı günaha qərq etdikdən sonra, onu köməksiz və

titrəyən, əfv olunmağını diləməkdən qorxan bir vəziyyətdə buraxmaq şeytanın sevimli hiyləsidir. Lakin biz qorxmalı deyilik, çünki Allah demişdir: “Qoy Mənə pənah gətirsinlər, Mənimlə barışsınlar. Bəli, qoy Mənimlə barışsınlar” (Yeş. 27:5). Bizim imanımızı möhkəmlətmək üçün hər tədbir görülmüşdür. Məsihə gedən yolda bizə təskinlik vermək üçün hər təklif verilmişdir.

Məsih Öz yaralı bədənini qurban verdi ki, Allahın mirasını alsın, verdi ki, Allahla barışmaq üçün insana bir imkan da yaratsın. “Buna görə O Özü vasitəsilə Allaha yaxınlaşanları tamamilə xilas etməyə qadirdir; çünki

onlar üçün vəsatət etmək məqsədilə daim yaşamaqdadır" (İbr.7:25). Öz ləkəsiz həyatı, itaətkarlığı və Qolqota çarmıxında ölümü ilə Məsih itirilmiş bəşəriyyət üçün vəsatət edir. İndi xilasımızın Başçısı bizdən ötrü yalnız diləyən kimi yox, lakin Öz qələbəsini bəyan edən Qalib kimi vəsatət edir. Onun qurbanı dolğun və kamildir. Bizim Vəsatətçimiz olub, Allahın hüzurunda Öz qüsursuz keyfiyyətləri və duaları, eləcə də xalqının tövbəsi və şükranlığı ilə dolu bir buxurdan tutaraq, Öz üzərinə götürdüyü işi icra edir. Onun salehliyinin ətrilə bürünmüş bu qabdan ucalan xoş qoxu Allaha ecazkar ətir kimi çatır. Bu

qurban Allahın rəğbətini qazanır və bağışlanma hər bir günahı yuyur.

Məsihin Özü bizim Əvəzedicimiz və Zəmanətçimiz oldu və O heç kimi tərk etməyəcəkdir. Əbədi ölümə məhkum olmuş bir adamı belə tənhalıqda qoymayan, Özünü insanların uğrunda qurban verən Kəs, daim öz gücü ilə xilas ala bilməyəcəyini dərk etmiş hər qəlbə şəfqət və mərhəmətlə baxacaqdır.

Məsih Ona yalvarışla yaxınlaşan heç bir adama etinasız qala bilmir, O hər kəsə qalxmaqda kömək edəcəkdir. Öz əvəzedici qurbanı ilə insana [112] tükənməz ruhlu güc ehtiyatı vermiş Şəxs bu qüvvədən bizim xilasımız

üçün istifadə etməyi dayandırmayacaqdır. Biz öz günah və kədərlərimizi Onun ayaqları altına qoymalıyıq; çünki O bizi sevir. Onun hər baxışı və hər sözü bizə təskinlik verir və etibar etməyə çağırır. O bizim xasiyyətimizi formalaşdıraraq, onu Öz iradəsinə uyğun nəcibləşdirəcəkdir.

Sadə etibarla tam şəkildə Məsihə arxalanan qəlb üzərində qələbə çalmaq üçün heç bir şeytani qüvvə kifayət deyildir. "O, yorğunlara güc verər, taqətsizlərin qüvvətini artırar" (Yeş. 40:29).

"Əgər günahlarımızı etiraf ediriksə, sadiq və adil olan Allah

günahlanmızı bağışlayıb, bizi hər yamanlıqdan təmizləyəcək”. “Üzərinizə təmiz su tökəcəyəm, təmizlənəcəksiniz. Sizi bütün kirlərinizdən və bütlərinizdən təmizləyəcəyəm”. Rəb deyir: “Ancaq sən öz təqsirini boynuna al ki, Allahın Rəbbə qarşı üsyan etdin” (1 Yəh. 1:9; Yez. 36:25; Yer. 3:13).

Ancaq əfv edilib rahatlığa nail olmazdan əvvəl özümüzü dərk etməliyik ki, bu dərketmə bizi səmimi tövbəyə gətirsin. Məsəldəki fərisey özünün günahkar olduğunu dərk etmirdi. Buna görə də Müqəddəs Ruh onun qəlbinə nüfuz edə bilmirdi. Onun qəlbi öz möminliyi ilə qürurlu

“mən” zirehinə bürünmüşdü ki, onu mələklərin əllərilə itilənmiş və onların əli ilə göndərilən Allah oxları da deşə bilmirdi. Məsih yalnız o adamı xilas edə bilər ki, özünü günahkar hiss edir. O, “qəlbi sınıq olanlara şəfa verməyə, əsirlərə azadlıq, korların gözlərinin açılacağını təbliğ etməyə, əzab çəkənləri azad etməyə” gəldi (Lk. 4:18). Çünki “sağlamlar de’yil, xəstələr həkimə möhtacdırlar” (Lk. 5:31). Öz həqiqi vəziyyətimizi müəyyən etməyimiz lazımdır, əks halda biz Məsihin köməyinə ehtiyac hiss etməyəcəyik. Üstümüzü almış təhlükəni dərk etməliyik, əks halda sığınacaq axtarmayacağıq. Öz

yaralarımızın ağrısını hiss etməliyik, əks halda müalicə olunmaq istəməyəcəyik.

Rəbb deyir: “Çünki deyirsən: Mən zənginəm və varlanmışam, heç nəyə ehtiyacım yoxdur. Amma bilmirsən ki, zavallı, yazıq, yoxsul, kor [113] və çılpaqsan. Sənə məsləhət görürəm, Məndən odla təmizlənmiş qızıl al ki, zəngin olasan; ağ paltarlar al ki, geyinəsən və sənin çılpaqlığının eybi görünməsin; göz dərmanı da al ki, gözlərinə sürtüb görəsən” (Vəh. 3:17). Odla təmizlənmiş qızıl — məhəbbətlə hərəkətə gətirilən imandır. Yalnız bu bizi Allahla barışığa gətirə bilər. Biz həddindən

çox fəal və işgüzar ola, çox iş görə bilərik; lakin məhəbbətsiz, Məsihin məhəbbətinə malik olmadan heç zaman səma ailəsinə daxil ola bilməyəcəyik.

Heç bir kəs öz yamanlıqlarını dərk edə bilmir. “İnsan ürəyi hər şeydən hiyləgərdir, sağalmaz xəstəliyi var. Onu kim başa düşə bilər?” (Yer. 17:9). Dil qəlbin yoxsulluğundan danışa, lakin eyni zamanda ürək öz yoxsulluğunu dərk etməyə bilər. Dil Allaha ruhən yoxsul olduğunu etiraf edən zaman, ürək şəxsi ləyaqəti və yüksək möminliyinə görə qürurlana bilər. Özünü dərk etməyin yalnız bir yolu və vasitəsi var: Məsihə nəzər

salmalıyıq. Məhz Allahı tanımaması insanı öz gözündə bu qədər saleh edir. Onun paklığı və kamilliyi bizə açılan zaman isə öz zəifliyimizi, yoxsulluğumuzu və yamanlıqlarımızı həqiqətdə olduğu kimi görəcəyik. Özümüzü şişirdilmiş düzgünlüyümüzün qiyafəsində, hər hansı bir başqa günahkar kimi, itirilmiş və ümidsiz görəcəyik. Biz görəcəyik ki, nə vaxtsa xilas olunacağıqsa da, bu bizim şəxsi keyfiyyətlərimiz sayəsində deyil, Allahın hədsiz lütfü hesabına baş verəcəkdir.

Vergiyığanın duası ona görə qəbul edildi ki, onda Rəbbə etibar, Ondan

asılılıq, tamamilə Onun qüdrətinə arxalanmaq ifadə edilirdi. Vergiyığan özündə rüsvayçılıqdan savayı heç nə görmür. Allaha can atan hər kəs də özünü belə görməlidir. Ehtiyacı olan insan imanla, hər cür qüruru rədd edən imanla Allahın sonsuz gücünə arxalanmalıdır.

Heç bir zahiri mərasim sadə imanı və öz mənliyindən tam imtinanı əvəz edə bilmir. Ancaq heç kim öz mənliyindən imtina edə bilmir. Biz yalnız bu işi görmək üçün Məsihə icazə verə bilərik. Sizin qəlbiniz nida etməlidir: “Ya Rəb, al mənim ürəyimi, çünki mən özüm onu Sənə verə bilmirəm. Sənin ona hüququn

var. Təmizlə onu, çünki mən özüm onu [114] Sənin üçün təmiz saxlaya bilmirəm. Mənim mənliyimin müqavimətinə baxmayaraq, xilas et məni, çünki o zəifdir və Sənin surətini itirmişdir. Bərpa et və təzələ məni, pak və müqəddəs göylərə ucalt məni, orada Sənin məhəbbətinin səxavətli axını qəlbimi yuyacaqdır".

Bu cür öz mənliyimizdən imtina etmək bizim məsihçi həyatımızın yalnız əvvəlində baş verməməlidir. Göylərə aparan yolda atdığımız hər addımla yeniləşməliyik. Bütün yaxşı işlərimiz bizdən kənarda olan qüvvədən asılıdır. Ürəyimizdə daim Allaha müraciət etməyin, öz

günahlarımızı daim səmimiyyət və hərarətlə etiraf edib, qəlbimizi Onun qarşısında itaətə gətirməyin vacibliyi bundadır. Yalnız daim özündən imtina edərək və Məsihə etibar edərək, hüzur içində yaşaya bilərik.

Məsihə nə qədər yaxın olub, Onun xasiyyətinin təmizliyini daha aydın görürüksə, günahın dəhşətli çirkinliyini o qədər çox dərk edirik və özümüzü o qədər az yüksəltmək istəyirik. Səmanın müqəddəs saydığı insanlar hamıdan az öz yaxşılıqları ilə qürrələnirlər. Həvari Peter Məsihin sadiq xidmətçisi oldu, o, Allahın işığı və gücü ilə yüksək dərəcədə nişanələnmişdi, Məsihin imanlılar

cəmiyyətinin qurulmasında fəal iştirak edirdi; lakin Peter heç vaxt öz dəhşətli düşgünlüyünü unutmurdu; onun günahı bağışlanmışdı, lakin o yaxşı başa düşürdü ki, düşgünlüyünə səbəb olan xasiyyətinin zəifliyi yalnız Məsihin lütfü ilə bütünlüklə məhv edilə bilərdi. O özündə fəxr etməyə layiq olan heç nə görmürdü.

Həvarilərdən heç biri özünün günahsız olduğunu bəyan etmədi. Ən çox Allaha yaxın olan adamlar, öz həyatlarını qurban verməyi bilərəkdən səhv hərəkət etməkdən üstün tutanlar, Allahın İlahi işıq və güclə nişanələdiyi kəslər öz təbiətlərinin günahkar olduğunu dərk

edirdilər. Onlar öz bədənlərinə etibar etmir, öz möminlikləri ilə qürrələnmirdilər, lakin bütünlüklə Məsihin salehliyinə arxalanırdılar. Məsihə nəzər salan hər kəs də belə edəcəkdir.

Bizim məsihçi həyatımızdakı hər yeni addımla tövbəmiz dərinləşəcəkdir. Bu sözlər məhz Rəbbin bağışladığı, Öz xalqı adlandırdığı kəslərə [115] aiddir: "O zaman pis əməllərinizi, xeyirsiz işlərinizi yada salacaqsınız. Təqsirlərinizdən və iyrənc işlərinizdən ötrü özünüzdən iyrənəcəksiniz" (Yez. 36:31). O yenə də deyir: "Səninlə yenidən əhd

bağlayacağam və biləcəksən ki, Rəbb Mənəm. Eləcə bütün etdiklərini bağışladığım zaman bunu yada salıb utanacaqsan.” (Yez. 16:62, 63). 0 zaman dodaqlarımız özümüzü tərifləmək üçün açılmayacaqdır. Möhkəmliyimizin yalnız Məsih olduğunu biləcəyik. Bu zaman həvarinin etirafı bizimki olacaqdır: “Bilirəm ki, məndə, yəni cismani təbiətimdə yaxşı şey yaşamır” (Rom. 7:18). “Mən isə Rəbbimiz İsa Məsihin çarmıxından başqa şeylə əsla öyünmürəm; o çarmıx vasitəsilə dünya mənim üçün çarmıxa çəkilmişdir, mən də dünya üçün çarmıxa çəkilmişəm” (Qal. 6:14).

Bu insanın təcrübəsilə tam ahəngdarlıqda çağırış səslənir: “Öz xilasınızı başa çatdırmaq üçün qorxu və lərzə ilə hərəkət edin. Zira sizdə Öz iltifatına görə istək və hərəkət hasil edən — Allahdır” (Flp. 2:12,13). Bu sözlərdə təhdid yoxdur ki, O Öz vədlərini yerinə yetirməyəcəkdir, Onun səbri tükənəcək, yaxud da Onun mərhəməti qurtara bilər. Ondan qorxmaq gərəkdir ki, iradəniz Məsihin iradəsinə zidd ola bilər, irsi, yaxud mənimsənilmiş cəhətləriniz və xasiyyətinizin keyfiyyətləri həyatınızı idarə edə bilər. “Sizdə Öz iltifatına görə istək və hərəkət hasil edən — Allahdır”. Qorxun ki, şəxsi

mənliyiniz sizinlə sizdə Öz işini görən böyük Rəbbin arasında dursun. Qorxun ki, iradəniz Allahın sizin vasitənizlə yerinə yetirmək istədiyi o ali məqsədi rədd etsin. Öz gücünüzə arxalanmaqdan qorxun, əlinizi Məsihin əlindən çıxararaq, həyat yolunu Onun daimi iştirakı olmadan getmək cəhdindən çəkinin.

Biz qürura və özünə güvənməyə sövq edən hər şeydən uzaqlaşmalıyıq. Buna görə də necə öz ünvanımıza, eləcə də başqalarının ünvanına söylənən tərif və yaltaqlıqdan çəkinməliyik. Yaltaqlıq — iblisin sevimli hiylələrindən biridir. O, təqsirləndirmə və mühakimə ilə

yanaşı, yaltaqlığa da əl atır. Beləliklə, qəlbi yıxmağa çalışır. Başqalarını tərifləyənlərdən şeytan öz alətləri kimi istifadə edir. Məsihin xidmətçilərinə [116] öz ünvanlarına səslənən hər tərif sözünü kənar etmək lazımdır. Öz mənliyinizin yüksəlməsinə icazə verməyin. Yüksəldilməyə yalnız Məsih layiqdir "Bizi sevənə, Öz qanı ilə günahlarımızdan bizi azad edənə" hər ürəkdən ucalan izzət və tərif olsun; bütün nəzərlər qoy Ona yönəlsin (Vəh. 1:5).

Allah qorxusuna yer verilən həyat kədərli və qaranlıq olmayacaqdır. Məhz Məsihin olmaması insanın

üzünə qəm möhürü vurur, onun həyatını isə kədərli dərbədər gəzintiyə çevirir. Özünəhəsəd və özünəməhəbbət əsarətində olanlar Məsihlə canlı, şəxsi birliyə ehtıyac duymurlar Qayaya düşüb sınmayan ürək öz bütövlüyü ilə fəxr edır. Insanlar çox zaman elə din axtarırlar ki, onların şəxsi ləyaqətlərini möhkəmləndirə bilsin. Onlar mümkün qədər geniş yollar axtarırlar ki, öz ecazkar ləyaqətlərinə dar olmasın. Onların kəskin heysiyyatları, şöhrət yanğısı və tərifə məhəbbət ürəklərində Xilaskar üçün yer qoymur, lakin Onsuz onların aqibəti kədər və qəmdir. İnsanın qəlbində yaşayan Məsih isə onun üçün

tükənməz sevinc mənbəyi olur. Məsihi əldə etmiş hər kəs üçün Allah Kəlamının hər kəlməsi belə sevinc və səadətdir.

“Uca və əzəmətli, əbədi yaşayan, adı müqəddəs Olan belə deyir: “Mən yüksək və müqəddəs yerdə yaşayıram, qırıq qəlbli olanların ruhunu diriltmək, həlimlərin ürəklərini dirçəltmək üçün onlarla birlikdəyəm” (Yeş. 57:15).

Allahın izzətini gördüyü zaman, Musa qayaların arasındakı dərədə gizlənmişdi. Eləcə də biz, Məsihin Öz deşilmiş əllərilə örtdüyü Qayalıqda gizlənərkən, Rəbbin Öz qullarına dediklərini eşidəcəyik. Allah Özünü

Musaya göstərdiyi kimi, bizə də "rəhmli və lütfkar, hədsiz səbirli, məhəbbət və sədaqətlə dolu, cəzanı, asiliyi və günahı bağışlayan" kimi göstərəcəkdir (Çıx. 34:6, 7).

Bağışlanma işi insanın təsəvvür edə bilməyəcəyi nəticələrə aparır. "Allahın Onu sevənlər üçün hazırladığı şeyləri, nə göz görmüş, nə qulaq eşitmiş və nə də insanın ürəyi duymuşdur" (1 Kor. 2:9). Məsihin [117] gücü ilə cəlb edilmiş günahkar ucaldılmış çarmıxa yaxınlaşıb onun qarşısında sərilərək, yeni yaradılmış olur. Ona yeni ürək verilir. O, İsa Məsihdə yenidən doğulur. Qüdsiyyət üçün artıq heç nə tələb olunmur.

“Adil olub İsaya iman edəni saleh sayan” Allahın Özüdür (Rom. 3:26). “O... saleh saydığı kimsələri də izzətləndirirdi” (Rom. 8:30). Bağışladan məhəbbət vasitəsilə yaranmış izzət və ucalıq — günah vasitəsilə yaşanmış rüsvayçılıq və düşkünlük qədər nəhəng və hətta ondan da böyük olacaqdır. Allahın surətinə müvafiq olmağa can atan insanlara səmavi xəzinə — onları heç vaxt yıxılmayan mələklərdən yüksək qoyacaq güc üstünlüyü hazırlanıbdır.

“Adamların nifrət etdiyi, millətin həqarətlə baxdığı, hökmdarların qulu olan şəxsə İsrailin Satınalanı, Müqəddəs Tanrısı, Rəbb belə deyir:

İsrailin Müqəddəs Tanrısı, sadiq Rəbb səni seçdiyinə görə padşahlar səni görüb ayağa qalxacaq, əmirlər qarşında yerə səriləcəklər” (Yeş. 49:7).

“Çünki öz-özünü yüksəldən hər kəs alçaldılacaq, öz-özünü alçaldan isə yüksəldiləcəkdir” (Lk. 14:11). [118]

## “Məgər Allah Öz seçdiklərini müdafiə etməyəcəkmi?”

(Lk. 18:1-8)

Məsih məhz İkinci gəlişinin ərəfəsindəki zamanlardan və Onun ardıcıllarının keçməli olacaqları təqiblərdən danışırdı. Məhz bu vaxtlara işarə edərək, O “daim dua etmək və heç ruhdan düşməmək barədə” məsəl söylədi.

“Bir şəhərdə, — O dedi, — Allahdan qorxmayan və adamlara hörmət etməyən bir hakim var idi. Elə həmin şəhərdə bir dul qadın da var

idi. Və qadın onun yanına gəlib dedi: "Məni rəqibimdən müdafiə et". Amma hakim xeyli müddət istəmədi. Sonra isə öz-özünə dedi: "Hərçənd mən nə Allahdan qorxur, nə də adamlara hörmət edirəm, bu qadın mənə zəhmət verdiyi üçün onu müdafiə edim ki, o, bir daha gəlib, mənim zəhləmi tökməsin". Və Rəb dedi: Ədalətsiz hakimin nə dediyini dinləyin. Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənləri müdafiə etməyəcəkmi? Onlar üçün çoxmu gecikəcək? Sizə deyirəm ki, onları tezliklə müdafiə edəcəkdir".

Bu məsəldə təsvir edilmiş hakim nə ədalətə hörmət, nə də məzlumlara mərhəmət edir. Ondan kömək uman dul qadına daim imtina edirdi. Qadın təkrar-təkrar onun yanına gəlirdi, ancaq nifrətlə rastlaşırdı və ədalət tapmırdı. Hakim bilirdi ki, həqiqət onun tərəfindədir və dərhal [119] ona yardım etməli idi, lakin istəmirdi. O öz hökm və qüdrətini nümayiş etdirmək istəyirdi, qadının müntəzəm yalvarış və diləkləri onun şöhrətpərəstliyinə həzz verirdi. Lakin qadın ruhdan düşmür və cəsarətini itirmirdi, o öz diləklərilə o vaxta qədər gəldi ki, hakim onun məsələsi ilə məşğul olmağa razılaşdı. “Hərçənd mən nə Allahdan qorxur, nə

də adamlara hörmət edirəm, bu qadın mənə zəhmət verdiyi üçün onu müdafiə edim ki, o, bir daha gəlib, mənim zəhləmi tökməsin”. Öz nüfuzunu xilas etmək üçün, hakimliyinin tərəfgirliyinin və ədalətsizliyinin ifşasından qorxaraq, o, inadkar qadını müdafiə etdi.

“Rəbb dedi: Ədalətsiz hakimin nə dediyini eşidin. Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənləri müdafiə etməyəcəkmi? Sizə deyirəm ki, onları tezliklə müdafiə edəcəkdir”. Burada ədalətsiz hakimlə Allah arasındakı kəskin təzad göstərilmişdir. Hakim dul qadının diləklərini yalnız öz

mənfəətini rəhbər tutaraq, onun inadkarlığından azad olmaqdan ötrü yerinə yetirdi. O, qadına qarşı nə şəfqət, nə də mərhəmət hissi keçirirdi; onun bədbəxtliyi hakim üçün heç bir əhəmiyyət kəsb etmirdi. Allahın Onu axtaranlara olan münasibəti bundan nə qədər fərqlidir! O, ehtiyaclı və yükü ağır olanların diləklərini hədsiz mərhəmətlə qəbul edir.

Hakimdən ədalət tələb edən qadın ərini itirmişdi. Yoxsul və tənha olub, əvvəlki varını artıq əldə edə bilmirdi. İnsan da beləcə günahın nəticəsində Allah ilə rabitəni itirmişdir və onun özündə xilas olmaq üçün heç bir

vəsait yoxdur. Lakin Məsihdə biz yenə də Allaha yaxın oluruq. Allahın seçdikləri Onun ürəyinə əzizdirlər. Bu Onun zülmətdən Öz ecazkar işığına çağırdığı kəslərdir ki, Onu izzətləndirib dünyanın zülmətində çıraq kimi parlasınlar. Ədalətsiz hakim ona inadlı diləklərlə müraciət edən dul qadını qorumaq üçün heç bir xüsusi maraq göstərmirdi; yalnız onun müntəzəm diləklərindən canını qurtarmaq üçün, yalvarışlarını dinləyib, axırda onu rəqibindən qorudu. Allah isə Öz övladlarını hədsiz və təmənnasız məhəbbətlə sevir. Yer üzündə Allahdan ötrü ən dəyərli şey — Onun imanlılar cəmiyyətidir. [120]

“Çünki Rəbbin payı Öz xalqıdır, Yaqub Onun payına düşən irsidir. Onu quraq bir torpaqda, uğultulu, boş-biyaban səhrada tapdı. Bir sipər kimi onu hifz etdi. Göz bəbəyi kimi onu qorudu” (Qan. tək. 32:9, 10). “Çünki Ordular Rəbbi deyir ki, izzəti üçün sizi qarət etmiş millətlərin yanına məni göndərdi. Sizə toxunan Onun göz bəbəyinə toxunmuş olur” (Zək. 2:8).

Dul qadının diləyi — “məni rəqibimdən müdafiə et” bu məsəldə Allahın övladlarının duasını təsvir edir. Onların ən böyük rəqibləri iblisdir. O, “qardaşlarımızın ittihamçısıdır” ki, onları Allahımızın

önündə gecə və gündüz ittiham edir (Vəh. 12:10). O daim Allahın xalqını şərləmək, günahlandırmaq, aldatmaq və məhv etməklə məşğuldur. Məsih bu məsəllə məhz iblis və onun qullarının təsirindən qorunmaq üçün dua etməyi öyrədir.

Zəkəriyyənin peyğəmbərliyində insanları şərləyən iblisin səyləri və Öz xalqını düşməndən qoruyan Məsihin müdafiəsi təsvir olunur. Peyğəmbər deyir: "Rəbb mənə bunu göstərdi: Rəbbin mələyinin önündə baş kahin Yeşua durmuşdu və onu ittiham etmək üçün sağında şeytan dayanmışdı. Rəbb şeytana dedi: "Rəbb səni məzəmmət etsin, ey

şeytan, Yerusəlimi seçən Rəbb səni məzəmmət etsin. Bu adam oddan çıxarılmış, yarısı yanmış odun parçasına bənzəmirmi?" O vaxt Yeşua əyninə çox çirkli paltar geyinib mələyin önündə dayanmışdı" (Zək. 3:1-3).

Allahın xalqı burada mühakimə qarşısında duran cinayətkar kimi təsvir olunmuşdur. Yosedek oğlu Yəşua baş kahin kimi böyük bəlaya düşmüş xalqı üçün xeyir-dua diləyir. Allahın qarşısında xalq üçün dilədiyi müddətdə şeytan onun sağ tərəfində əleyhdarı olaraq durmaqdadır. O, Allahın övladlarını ittiham edir və onların işini mümkün qədər ümidsiz

qələmə verməyə çalışır. O, Allah qarşısında onların yaman işlərini və çatışmayan cəhətlərini təsvir edir, Məsihin Öz köməyini onlardan əsirgəyəcəyini güman edir. Yəşua Allahın xalqının nümayəndəsi kimi ləkəli paltarlar geyinib, ittiham qarşısında durur. Öz xalqının günahkarlığını [121] dərk edərək, ittihamın böyüklüyündən sarsılmışdır. İblis onun qəlbini təqsir hissi ilə kədərləndirərək, tam ümidsizlik fikrini aşılayır. Buna baxmayaraq, o yenə də iblisin təqiblərinin qarşısında xahişçi kimi durmaqdadır.

İblisin ittihamçı kimi fəaliyyəti hələ səmada başlamışdı. İnsanın

günaha batmasından sonra o bu məhvedici işini yerdə davam etdirdi. Bu məhvedici fəaliyyət dünya tarixinin sonuna yaxınlaşdıqca xüsusi şəkil alacaqdır. Vaxtının az qaldığını gördükdə, şeytan daha böyük inadla hərəkət edərək, aldadıb məhv etməyə çalışacaqdır. İndi isə yerdə hətta öz zəiflikləri və günahları içində Yəhovanın qanununa riayət edən adamları gördükdə, qəzəblənir. O onların ləyaqətsizliklərinə sevinərək, insanı azdırıb Allahdan uzaqlaşdırmaq yolunda dəridən-qabıqdan çıxır. Şeytan Allahı və eləcə də dünyada Onun məqsədlərinin yerinə yetməsinə kömək edənləri, mərhəmətli və məhəbbətli, şəfqətli və

həг şeyi bağışlamağa çalışanları mühakimə edib ittiham etməyə cəhd edir.

Xalqına ənam edilən İlahi qüdrətin hər təzahürü iblisi qəzəbə gətirir. Həг dəfə Allah insanların xeyrinə hərəkət etdiyi zaman, iblis öz mələklərilə birlikdə ikiqat qüvvə sərf edərək, insanları ölümə gətirmək istəyir. O, Məsihdə güclənən həг kəsə paxıllıq edir. Onun məqsədi yamanlığa sövq etməkdir və buna nail olan zaman pisliyin bütün təqsirini məhz özü azdırdığı adamın boynuna yıxır. Onların ləkəli geyimlərinə, kamil olmayan xasiyyətlərinə işarə edir. Onların zəifliklərindən və

çatışmayan cəhətlərindən, naşükür günahlarından danışır, onların Məsihə oxşamayıb, yalnız öz Xilaskarlarının adını ləkələdiklərindən bəhs edir. Təkid edir ki, bütün bunlar ona bu adamları məhv etmək ixtiyarı verir. Şeytan insanlara belə bir fikir aşılayıb qorxudur ki, guya onların vəziyyətləri ümidsizdir və onların günah ləkələrini yumaq mümkün deyil. Onların imanlarını o qədər sarsıtmaq istəyir ki, onlar tamamilə onun azdırmalarına uyub, bütövlüklə Allahdan üz çevirsinlər.

Rəbbin xalqı iblisin ittihamlarına özü cavab verə bilmir. Özlərinə baxdıqları zaman, adamlar

ümidsizliyə qapılmağa hazırdırlar. Lakin onlar [122] İlahi Tərəfdara üz tuturlar. Bu zaman Xilaskarın Öz məziyyətləri onların bəraətinə çevrilir. “Allah adil olaraq İsaya iman edənə bəraət verə” bilər (Rom. 3:26). Allahın övladları Ona etibarla yalvarıb, iblisin ittihamlarını uzaqlaşdıraraq hiyləsini ifşa etməyini istəyirlər. “Məni rəqibimdən müdafiə et”, — deyə diləyirlər və Qolqota çarmıxının qüdrətli şəhadətilə Məsih qəzəbli ittihamçını susmağa məcbur edir.

“Rəbb şeytana dedi: Rəbb səni məzəmmət etsin, ey şeytan, Yerusəlimi seçən Rəbb səni

məzəmmət etsin. Bu adam oddan çıxarılmış, yarısı yanmış odun parçasına bənzəmirmi?” İblis Allahın xalqını zülmətə qərq edib məhv etmək istədiyi zaman onun qarşısında Məsih dayandı. İnsanların günaha batmalarına baxmayaraq, Məsih onların təqsirini Öz üzərinə götürdü. O, kösövü oddan çıxaran kimi, insanları zülmətdən qopardı. Öz insan təbiətilə Məsih insanlarla bağlıdır, Öz İlahi təbiəti ilə də nəhayətsiz Allahla birləşmişdir. İndi məhv olan qəlbə kömək etmək mümkündür və ən ağır ittiham götürülür.

“O vaxt Yeşua çox çirkli paltar geyinib mələyin önündə dayanmışdı.

Bu mələk önündə duran mələklərə dedi: “Onun əynindən çirkli paltarı çıxarın”. Sonra Yeşuaya dedi: “Bax, günahını sənin üzərindən götürdüm, indi sənə bayram paltarı geyindirəcəyəm”. Mən isə dedim: “Qoy başına da təmiz çalma bağlasınlar”. Başına təmiz çalma bağlayıb, ona paltar geyindirdilər. Rəbbin mələyi də yanında durmuşdu. Sonra Rəbbin mələyi Yeşuaya şəhadət edib dedi: “Ordular Rəbbi belə deyir: Əgər yollarımla getsən, verdiyim buyruğumu qoruyub saxlasan, evimə sən başçılıq edəcəksən, həyətlərimi sən qoruyacaqsan. Burada duranların arasından içəri keçmək haqqını sənə verirəm” (Zək. 3:3-7). Mələk

vasitəsilə Orduların Rəbbi adından Allahın qarşısında Onun xalqını təmsil edən Yeşuaya belə təntənəli vəd verilmişdir.

Allahın xalqının yamanlıqlarına baxmayaraq, Məsih onu Öz sevgi və qayğısından məhrum etmir. Onların paltarlarını dəyişmək üçün Onun hüququ və qüdrəti vardır. O onların ləkəli paltarlarını çıxararaq, tövbə [123] edib Ona iman edənləri Öz şəxsi salehlik paltarına bürüyür və səma yazılarında onların adları qarşısında dilək qeyd edir. O onları bütün səmavi Kainat qarşısında Öz xalqı kimi təbliğ edir. Onların düşməni olan iblis yalançı və hiyləgər

kimi ifşa edilir. Özü seçdiyi insanlara Allah ədalətlə yanaşır.

“Məni rəqibimdən müdafiə et” duası yalnız iblisdən deyil, həm də onun Allah xalqını təhrif olunmuş şəkildə təsvir etməyə, azdırmağa və məhv etməyə sövq etdiyi əlaltılarından qorunmaq haqqındadır. Allahın əhdlərinə riayət etməyi qərara alanlar öz şəxsi təcrübələrində görəcəklər ki, şər qüvvələrin istiqamətləndirdiyi düşmənləri vardır. Belə düşmənlər Məsihə hər addımda müqavimət göstərirdilər və bunu insana xas olmayan davamlı inadla edirdilər. Məsihin şagirdləri də öz

Rəbləri kimi, bu dünyada daim sınaqlarla rastlaşırlar.

Yazılar Məsihin İkinci gəlişi ərəfəsində dünyanı belə təsvir edir: həvari Yaqub acgözlük və zorakılığın təntənəsini təsvir edir. O deyir: “Gəlin indi, ey varlılar... Siz son günləriniz üçün sərvət toplayıbsınız!. Budur, tarlalarınızı biçən işçilərdən hiylə ilə gizlətdiyiniz əmək haqqı fəğan edir. Biçinçilərin fəryadı Səmavi Orduların Rəbbinin qulaqlarına çatdı! Siz dünyada zövqlə yaşadınız və kef çəkdiniz. Sanki boğazlanacağınız gün üçün özünüzü kökəltdiniz! Siz salehi məhkum edib öldürdünüz. O, sizə müqavimət

göstərmirdi" (Yaq. 5:1-6). Bu mənzərəni biz bu günlər də müşahidə edirik. Hər vasitə ilə, təqiblərə və rüşvətə əl ataraq, insanlar saysız-hesabsız var-dövlət toplayırlar, aclıq çəkən adamların fəryadı isə Allaha ucalır.

"Ədalət geri çəkildi, salehlik durdu uzaqda, çünki həqiqət şəhər meydanında yıxıldı, dürüstlük aramıza daxil ola bilmir. Həqiqət heç bir yerdə yoxdur, şərdən uzaq duran talan olunur" (Yeş. 59:14, 15). Bu peyğəmbərlik artıq Məsihin yerdəki həyatı dövründə yerinə yetmişdi. İlahi əhdlərə sadiq olaraq, O bu əhdlərdən üstün qoyulmuş bəşəri qanun və

adətlərə riayət etmədi. Buna görə Ona nifrət bəsləyir və təqib [124] edirdilər. Tarix təkrar olunur. İnsanların qanun və adətləri Allah Qanunundan üstün tutulur və İlahi əhdlərə sadiq olan adam təqib və təhqirlərə məruz qalır. Məsih Şənbəni pozmaqda və küfr etməkdə yalnız ona görə ittiham edildi ki, Allaha sadiq qalırdı. Onu şeytanın qulluqçusu adlandırır, Onu Bəəl-Zəvul elan etmişdilər. Eynilə Onun davamçıları da ittiham və təhrif edilirlər. Beləliklə, şeytan adamları günaha sövq edib, Allahın üzərinə kölgə salmaq istəyir.

Nə Allahdan qorxan, nə də insanlardan utanan hakim Məsihin məsəlində ondan ötrü təsvir edilmişdir ki, bir az sonra qarşısında Özünün duracağı o uzaq dövrün məhkəməsinin tərzini göstərə bilsin. O istəyir ki, Onun xalqı bədbəxtlik günündə dünyəvi hökmdar və hakimlərə bel bağlamağın nə qədər etibarsız olduğunu hər zaman dərk etsin. Allahın seçdiyi xalq tez-tez rəsmi şəxslər qarşısında durmalı olur, onlardan ötrü

İlahi Kəlam nəsihətçi və müşavir deyildir, lakin onlar öz təqdis olunmamış və idarə olunmayan ehtiras və istəklərinə riayət edirlər.

Ədalətsiz hakim haqqında məsəllə Məsih bizə nə etməli olduğumuzu göstərir. “Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənləri müdafiə etməyəcəkmi?” Hər şeydə bizə nümunə olan Məsih Öz bəraəti və müdafiəsi üçün heç bir cəhd göstərmədi. O Öz taleyini Allahın əlinə verdi. Eynilə Onun davamçıları da öz müdafiələri üçün düşmənlərini ittiham edib mühakimə etməli, yaxud da öz gücünə güvənməli deyillər.

Biz layiq olmadığımız sınaqlardan keçdiyimiz zaman, salehlik və təmkinliliyimizi itirməməliyik. Başımıza gələnlər nə

qədər ədalətsiz olsa da, biz çaşqınlığa düşməməliyik. Qisas hissinə qapılmaq doğru deyil, bununla biz ən əvvəl öz qəlbimizə zərər verəcəyik. Bu təqdirdə biz Allaha olan etibarımızı itirir və Müqəddəs Ruhu təhqir edirik. Axı bizim tərəfimizdə sadiq şahid, səma elçisi var ki, əvəzimizə düşmənə qarşı döyüşür. O bizi Həqiqət Günəşinin parlaq şüalarında gizlədəcəkdir. İblis bu səddi keçə bilməyəcək, bu müqəddəs işığın qalxanını deşə bilməyəcəkdir. [125]

Nə qədər ki dünya yamanlıq yolu ilə getməkdədir, çətinliklərin bizdən yan keçəcəyinə heç birimiz arxayın

ola bilmərik. Ancaq məhz bu çətinliklər bizi Uca Olanın hüzuruna gətirir. Biz yalnız hər cür müdrikliyin dolğunluğu olan Şəxsdən nəsihət ala bilərik.

Rəbb deyjr: “dar gündə Məni çağır” (Məz.50:15). Bizim bütün müşküllərimizi və problemlərimizi, İlahi yardıma ehtiyacımızı Ona təqdim etməyə dəvət edir. O bizi dualarımızda inadkar olmağa çağırır. Çətinliklərlə qarşılaşdığımız zaman biz dərhal səmimi, qızğın dua ilə Ona müraciət etməliyik. Bizim inadlı dualarımız Allaha olan böyük etibarımıza şəhadət edir. Ehtiyacımızın dərk olunması bizi

ürəkdən dua etməyə gətirir və Səmavi Atamız həmişə dilələri dinləyir, onlardan ötrü narahat olur.

Çox zaman öz imanları üçün təqiblərdən əziyyət çəkənlər aldanıb bu fikrə düşürlər ki, Allah onları unutmuşdur. İnsanların gözündə onlar cüzi azlıq kimi görünürlər. Düşmənləri sanki onların üzərində qələbə çalmışlar. Ancaq qoy onlar belə düşünməsinlər. Onların əvəzinə əzab çəkib, əziyyət və qəmlərini daşıyan Kəs onları unutmamışdır.

Allahın övladları düşmən qarşısında yalnız və köməksiz buraxılmayıblar. Dua Qadir Olanın əlini hərəkətə gətirir. Dua vasitəsilə

“ölkələr fəth etdilər, ədalət tətbiq etdilər, vədlərə nail oldular, aslanların ağızlarını bağladılar, şiddətli atəşi söndürdülər”. Biz iman uğrunda əzab çəkənlərin hekayələri ilə tanış olduqda, bunların mənasını dərk edəcəyik. Dualar “yadların ordularını qovdular” (İbr. 11:33, 34).

Əgər öz həyatımızı Ona xidmətə həsr eləsək, heç vaxt Allahın bizi çıxara bilməyəcəyi bir vəziyyətə düşməyəcəyik. Hansı bir ağır vəziyyətə düşsək də, daim etibarlı Bələdçiyə malikik. Yolumuzu istiqamətləndirən etibarlı Məsləhətçiyə malikik; itkilərimiz, kədərimiz, tənhalığımız nə qədər ağır

olsa da, yanımızda daim şəfqətli Dostumuz var. Öz biliksizliyimizdən səhvə yol veririksə də, Məsih bizi tərk etmir. Onun təmiz və aydın səsi bizə deyir: “Yol, həqiqət və həyat Mənəm” (Yəh. 14:6). [126] “Çünki O imdad deyib çağıran fəqirləri, məzlumları, köməksizləri qurtarır. Yoxsula, fəqirə rəhm edər, fəqirlərin canlarını azad edər (Məz.72:12, 13).

Rəbb bəyan edir ki, Ona yaxınlaşanlar, Ona səcdədə sadiq qalanlar tərəfindən izzətləndiriləcəkdir. “Ağlı Sənə yönəlmiş adamlara Sən kamil sülh verirsən, çünki onlar Sənə güvənirlər” (Yeş. 26:3). Qadir olanın əli bizə

uzanaraq, bizi getdikcə uzaqlara aparır. “İrəliyə get”, — Rəbb deyir. Mən sənə yardım göndərəcəyəm. Mənim adımın izzətlənməsi üçün diləyirsən və dilədiyinə nail olacaqsan. Mən sənin müvəffəqiyyətsizliyini gözləyənlər qarşısında izzətləndiriləcəyəm. Onlar Mənim Kəlamımımın izzətli qələbəsini görəcəklər”. “Və dua ilə iman edərək hər nə dilərsinizsə, alacaqsınız” (Mt. 21:22).

Qoy istismar edilən və ədalətsiz təqibə məruz qalanların hamısı Allaha üz tutsunlar. Ürəkləri möhkəmlikdə polada bənzəyənlərdən üz çevirin və öz diləklərinizi Yaradana açın. Onun

hüzuruna tövbə etmiş ürəklə gələn heç kimə imtina edilməyəcəkdir. Heç bir səmimi dua cavabsız qalmayacaqdır. Onun izzəti üçün səslənən səma xorunun himnləri arasında, Allah ən zəif insan varlıqlarının dualarını da eşidir. Biz ürəyimizin istəyini gizlicə bildirir, yol gedərkən sakitcə dua kəlmələrini pıçıldayırıq, lakin sözlərimiz kainatın Hökmdarına yetişir. Onlar, ola bilsin ki, heç bir insanın qulağına çatmır, lakin sakitlikdə, yaxud da dünyəvi qayğıların arasında itə bilməz. Qəlbin arzusunun qarşısını heç nə ala bilməz. O, küçələrin gurultusu arasında, kütlənin burulğanından ucalaraq səmaya yetişir. Axı biz Allaha

müraciət edirik və buna görə də duamız mütləq Ona yetişir.

Özünüzü ən ləyaqətsiz hesab etsəniz də, işinizi Allaha tapşırmaqdan çəkinməyin. Məsih də Özünü dünyanın günahı əvəzinə qurban verdiyi zaman, O hər qəlbin işini Öz üzərinə götürdü. "Məgər Öz Oğlunu əsirgəməyib hamımız üçün təslim edən, Onunla bərabər bütün şeyləri bizə ehsan etməyəcəkdirmi?" (Rom. 8:32). Məgər O bizə [127] ayıqlığımız və möhkəmliyimiz üçün verdiyi mərhəmətli sözünü icra etməyəcəkdirmi?

Məsih Öz mirasını iblisin əsarətindən azad etməkdən çox heç

nə istəmir. Lakin iblisin xarici təsirinin hökmündən azad edilməzdən əvvəl, onun daxilimizdəki hökmündən azad olmalıyıq. Rəbb sınaqlara ona görə icazə verir ki, dünyəvi keyfiyyətlərimizdən və zəifliklərimizdən, özünəməhəbbətdən, xasiyyətimizin qaba, qeyri-məsihçi cəhətlərindən təmizlənə bilək. O icazə verir ki, əzabların dərin suları bizim qəlbimizin üzərindən keçsin, çünki yalnız beləliklə biz Onu və Onun göndərdiyi İsa Məsihi dərk edə bilərik. Biz öz həyatımızda əzablarla üzləşirik ki, onların sayəsində son nəticədə günahdan təmizlənməyə ürəkdən ehtiyac duyaraq, sınaqlardan

dəyişmiş, müqəddəsləşmiş və xoşbəxt çıxa bilək. Çox zaman sınaq alovuna biz özünəməhəbbətdən zəifləmiş qəlblə ayaq basırıq; lakin dəhşətli sınağı səbirlə keçsək, ondan İlahi xasiyyətin cəhətlərini əks etdirərək çıxacağıq. Bizi keçirdiyi əzabların məqsədinə yetişdiyimiz zaman, “Rəbb sənin salehliyini nur kimi aydınlaşdıracaq, həqiqətini gündüz günəşi tək çıxaracaq” (Məz. 37:6).

Rəbb Öz xalqının dualarını dinləmir deyə qorxmaq lazım deyil. Təhlükə ondan ibarətdir ki, sınaqlar və acılar içində adamlar ruhdan düşüb ümidsızliyə qapılaraq, dualarında inadkarlığı itirə bilərlər.

İlahi mərhəmətin gücünü Xilaskar sirofinikiyalı qadına münasibətdə göstərdi. Ananın faciəsi Onun ürəyini ağrıtmışdı. O, ürəkdən əmin etmək istəyirdi ki, onun duası eşidilmişdir, lakin bununla bərabər O Öz şagirdlərinə müəyyən dərs vermək istədiyinə görə bir müddət sanki onun fəryad edən qəlbinin səsini eşitmirdi. Qadın öz imanının bütün gücünü təzahür etdirdiyi zaman isə ona təskinlik sözləri deyərək, dilədiyi qiymətli xeyir-dua ilə yola saldı. Şagirdlər heç vaxt bu dərsi unutmurdular və o, Yazılarda həkk edildi ki, inadlı duanın nəticəsini göstərsin.

Bu qadının ürəyinə inkaredilməz inadı Məsihin Özü qoymuşdu. Hakimə yalvaran dul qadına cəsarət və qətiyyət verən Məsih idi. Bundan [128] neçə yüz il qabaq Yəbbok çayının sahilində baş vermiş sirli güləşdə Yaquba belə inadkar iman verən Məsih idi. Onun insanlara bəxş etdiyi etibar heç vaxt mükafatsız qalmırdı.

Səma əqidəsində mövcud Olan ədalətlə hökm edir. Onun günah dünyasında sınaqlarla mübarizə edən xalqı Məsihi Onun taxtını əhatə edən mələklərdən daha çox sevindirir.

Bütün səmavi kainat bizim xırdaca planetimizə həddindən çox

maraq göstərir, çünki burada məskunlaşmış insanların canları üçün Məsih hədsiz qiymət vermişdir. Dünyanı Bağışladan gözəgörünməz bağlarla yeri göylərə bağladı, çünki burada Rəbbin bağışlatdıqları yaşayırlar. Səma varlıqları gəlib İbrahim və Musa ilə söhbət etdikləri günlərdəki kimi, yenə də yerə nüfüz edirlər. Böyük şəhərlərimizin iş burulğanında, küçələri, ticarət mərkəzlərini və əyləncə yerlərini dolduran kütlələr içində, insanların sanki həyatlarının yeganə məqsədi kimi, səhərdən axşamadək olduqları biznes, idman və əyləncə yerlərində və çox azlarının ali dəyərlər haqqında düşündüyü yerlərdə də səma yenə öz

təmsilçilərini və müqəddəslərini saxlayır. Gözəgörünməz səma nəzarətçiləri insanın hər sözünü və əməlini izləyirlər. İş, yaxud da əyləncə ilə məşğul olan hər yığıncaqda, hər ibadətdə adi insanın görə biləcəyindən daha çox dinləyici mövcuddur. Vaxtaşırı səmavi varlıqlar gözəgörünməz dünyanı gizlədən örtüyü qaldırırlar ki, fikirlərimizi dünyanın gündəlik qaçaqaçları və cəfəngiyyatlarından ayırıb, dediklərimizin və etdiklərimizin hamısından xəbərdar olan şahidlərə yönəldək.

Bizi ziyarət edən mələklərin səfərlərinin məqsədi bizə daha aydın

olmalıdır. Yadda saxlamaq lazımdır ki, bütün fəaliyyətimizdə səma varlıqlarının köməyi və qayğısı bizi müşayiət edir. Gözə görünməyən işıq və güc orduları həlim və təvazökar olanları ziyarət edirlər, o kəsləri ki, iman edərək İlahi vədlərin yerinə yetməsini diləyirlər. Nəhəng qüvvəyə malik olan mələklər, minlər və on minlər Onun sağ yanında dururlar, "onların hamısı qurtuluşu miras alacaq olanlara yardım etmək üçün göndərilən xidmətçi ruhlardırlar" (İbr. 1:14). [129]

Bu səma elçiləri insan oğullarının bütün söz və əməllərini diqqətlə qeyd edirlər, Rəbbin xalqına edilən hər bir

qəddarlıq və ədalətsizlik hadisəsi, Allahın övladlarının namussuz adamların hökmündən çəkdikləri hər şey göylərdə yazıya alınır.

“Məgər Allah Öz seçdiklərini, gecə-gündüz Ondan imdad istəyənləri müdafiə etməyəcəkmi? Onlar üçün çoxmu gecikəcək? Sizə deyirəm ki, onları tezliklə müdafiə edəcəkdir”.

“Buna görə böyük mükafat olan cəsarətinizi atmayın. Çünki sizin təhəmmülə ehtiyacınız var ki, Allahın iradəsini yerinə yetirib vəd olunmuş şeyə nail olasınız. Çünki daha bir az, lap az sonra Gələn gələcək, gecikməyəcək” (İbr. 10:35-37). “Budur, əkinçi ilk və son yağıntını

alıncayadək, torpaqdan qiymətli məhsulu səbirlə gözləyir. Siz də səbirli olun, ürəklərinizi möhkəmlədin, çünki Rəbbin gəlişi yaxındır" (Yaq. 5:7, 8).

Allahın çoxsəbirliliyi fövqəladədir. Mərhəmət günahkar üçün havadarlıq edənə kimi ədalət çox gözləyir. Lakin "ədalətlə həqiqət Onun taxtının təməlidir" (Məz. 96:2). "Rəbb hədsiz səbirlidir", lakin O, "qüdrətlidir və təqsirkarı cəzasız əsla qoymaz; Rəbbin yolu fırtınadadır, qasırğadadır, buludlar ayaqlarının tozudur" (Nah. 1:3).

İlahi Qanunun pozulmasında dünya ədəbsiz olub. Onun

dözümlülüyünə cavab olaraq, insanlar Onun nüfuzunu kobudcasına pozdular. Onlar Onun mirasına münasibətdə təqib və qəddarlıqda bir-birinə yardım edərək deyirlər: “Allah haradan biləcək? Haqq-Təalanın nə xəbəri var bundan?” (Məz. 73:11). Lakin elə sədd mövcuddur ki, onlar onu keçə bilmirlər. Onlar üçün müəyyən edilmiş həddə çatacaqları vaxta az qalıb. Artıq bu gün onlar Allahın dözümünün, lütfünün və mərhəmətinin son həddinə çatıblar. Lakin tezliklə Rəbb qalxacaqdır ki, Öz ləyaqətini müdafiə etsin, Öz xalqını azad etsin, şərin və yalanın daha geniş yayılmasının qarşısını alsın. [130]

Nuhun dövründə adamlar Allah Qanunundan o vaxta kimi imtina elədilər ki, artıq yer üzündə Yaradıcı haqqında hər cür təsəvvür itirildi. Onların haqsızlıqları elə dəhşətli həddə çatdı ki, Rəbb daşqın sularını yer üzünə yönəldərək, onun bütün haqsız sakinlərini məhv etdi.

Rəbb Öz işlərilə nəsildən-nəslə insanlara aşkar olurdu. Böhran yetişdiyi zaman, O Özünü izhar elədi və müdaxilə etdi ki, iblisin planlarının təcəssümünə imkan verməsin. Çox zaman Allah hadisələrin elə inkişafına imkan verirdi ki, bütöv xalqlar, ailələr, yaxud da ayrı-ayrı adamlar böhranlı

vəziyyətə düşürdülər və Onun müdaxiləsi açıq-aşkar baş verirdi. Belə anlarda hamı açıq-aydın görürdü ki, İsraildə Öz qanununu bərpa edən və Öz xalqının Müdafiəçisi Allah vardır.

Ümumi qanunsuzluğun təntənəsi dövründə sonuncu böyük böhranın yaxınlaşmasını aydın görə bilərik. İlahi qanuna itaətsizlik, demək olar ki, ümumi hal aldığı zaman, Onun xalqı öz vətəndaşları tərəfindən sıxıntılara və təqiblərə məruz qaldıqları zaman Rəbbin müdaxiləsi qaçılmazdır.

Elə bir vaxt yaxınlaşır ki, O deyəcəkdir: "Ey xalqım, keç içəri

otaqlara, qapıları ört, Rəbbin qeyzi keçənəcən qısa bir müddətə gizlən! Çünki budur, Rəbb yer üzünün sakinlərini qəbahətləri üzündən cəzalandırmaq üçün Öz məskənindən gəlir. Torpaq udduğu qanı üzə çıxaracaq, öldürülənləri artıq gizlətməyəcək" (Yeş. 26:20, 21). Özlərini məsihçi hesab edənlərin çoxları indi yoxsulları qarət edib sıxışdıra bilərlər, dulları və yetimləri aldada bilərlər; ancaq Allahın övladlarının vicdanını əsarətə sala bilmədikləri üçün, şeytanın qəzəbi onların da ürəyində baş qaldıra bilər, lakin bunların hamısına görə Allah onları məhkəməyə gətirəcəkdir. "Mərhəmət göstərməyənə hökm

mərhəmətsiz" olacaq (Yaq. 2:13). Bu adamların bütün yer üzünün Hakimi qarşısında duraraq, Onun mirasına verdikləri cismani və ruhlu ağrılara görə cavab [131] verməli olacaqları o an yaxındır. İndi onlar yalan ittihamlar irəli sürə bilərlər, Allahın Öz işini icra etmək üçün seçdiyi adamlara gülə bilərlər, Ona iman edənləri həbsə, qandallara, kökünün kəsilməsinə, ölümə məhkum edə bilərlər, lakin hər verdikləri ağrıya görə, hər tökülmüş göz yaşı üçün cavab verməli olacaqlar. Allah onların günahlarının əvəzini ikiqat verəcəkdir. Dönük imanlılar cəmiyyətinin simvolu olan Babili nəzərdə tutaraq, məhkəmə işindəki

xidmətçilərinə belə deyir: “Çünki onun günahları göyə qədər çatdı və Allah onun haqsızlıqlarını yada saldı. Babil sizə nə verdisə, ona da elə əvəzini verin. Onun əməllərinə görə ikiqat əvəzini verin. Sizə şərab hazırladığı kasada siz ona ikiqat hazırlayın” (Vəh. 18: 5, 6).

Hindistandan, Afrikadan, Çindən, dənizdəki adalardan, məsihçi adlandırılan ölkələrdən milyonlarla istismar edilmiş insanın acı fəryadı Allaha yetişir. Bu yalvarışlar cavabsız çox qalmayacaqdır. Allah dünyanı əxlaqi çürümədən təmizləyəcəkdir, lakin Nuhun dövründəki kimi, daşqın suları ilə deyil, heç bir insan

hiyləsinin söndürə bilməyəcəyi alov dənizilə.

“Millət yaranandan o vaxta qədər olmamış əzablı dövr gələcək. O dövrdə sənin xalqından kitabda adı yazılmış olan hər kəs xilas olacaq” (Dan. 12:1).

Məsih çardaqlardan, daxmalardan, zindanlardan, edam səkilərindən, dağ və səhralardan, yerin mağaralarından və dəniz batıqlarından Öz xalqını, Öz övladlarını Öz yanına yığacaqdır. Onlar yerdə itkilər, əzablar və işgəncələr çəkirdilər. Onlardan milyonları qəbirə rüsvayçı şəkildə gömüldü, çünki iblisin yalan

vədlərinə inanmaqdan imtina etdilər. İnsan məhkəməsi bu Allah övladlarını qatı cinayətkar elan etdi. Ancaq "Allahın Özünün Hakim kimi" oturacağı gün yaxındır. Həmin gün dünyəvi hökm ləğv ediləcək və Rəbb "Öz xalqının rüsvayçılığını götürəcək" (Yeş. 25:8). Onların hər birinə ağ paltarlar veriləcək (Vəh. 6:11). [132] ""Rəbbin satın aldığı müqəddəs xalq" deyəcəklər" (Yeş. 62:12).

Öz dövrlərində hansı çarmıxı daşımağa məhkum edilmələrinə, necə itkilər vermələrinə, yerdə necə təqiblərə məruz qalmalarına, müvəqqəti həyatlarını itirmələrinə

baxmayaraq, Allahın övladları bolluqla mükafatlandırılacaqlar. “Onun üzünü görəcəklər və Onun adı onların alnında olacaqdır” (Vəh. 22:4). [133]

## “O, günahkarları qəbul edir”

(Lk. 15:1-10)

“Bütün vergiyığanlar və günahkarlar Onu dinləmək üçün Ona yaxınlaşırdılar. Fəriseylər və din alimləri: “O, günahkarları qəbul edir və onlarla yemək yeyir”, — deyə gileylənirdilər”.

Onlar Məsihin günahkar və qüsurlu adamlarla ünsiyyətə üstünlük verdiyini, onların günahkarlığını duymadığını göstərmək istəyirdilər. Fəriseylər və din alimləri İsadan əllərini üzdülər. Nə üçün belə nəcib

xasiyyətli insan onlarla ünsiyyətə girmir və onların təliminə riayət etmir? Nə üçün O Özünü bu qədər sadə aparır və xalqın bütün təbəqələri arasında təbliğ edir? Əgər “O, həqiqətən, peyğəmbər olsa idi, — onlar deyirdilər, — bizə qoşulardı, vergiyığan və günahkarlara isə layiq olduqları etinasızlıqla yanaşardı”. Bu cəmiyyət keşikçilərini özlərindən çıxaran o idi ki, onların daima mübarizə apardıqları və Öz qüsursuz həyatı ilə eyni zamanda həm onların hörmətini qazanan, həm də onları mühakimə edən Şəxs cəmiyyətin tullantılarına gizlədilməyən şəfqətlə yanaşaraq, onlarla görüşürdü. Onlar Onun iş metodlarını bəyənmirdilər.

Onlar özlərini savadlı, seçilmiş, kamil və yüksək dərəcəli dindar hesab edirdilər, Məsihin nümunəsi isə istər-istəməz hamı qarşısında onların eqoizmini ifşa edirdi. Məsihin salehliyi onları acıqlandırırdı və onların mühakiməsinə səbəb olurdu. [134]

Onları hiddətləndirən həm də o idi ki, kahinlərə nifrətlə yanaşan və havranı heç vaxt ziyarət etməyənlər İsaya can atır və Onun sözlərini böyük diqqətlə dinləyirdilər. Qanunşünaslar və fəriseylər eləcə də dərk edə bilmirdilər ki, nəyə görə vergiyığanlar və günahkarlar İsaya can atırdılar.

Onlar bunun izahının nifrətlə ifadə etdikləri həmin sözlərdə gizləndiyini güman belə etmirdilər: “O, günahkarları qəbul edir”. İsanın yanına gələn adamlar Onun hüzurunda hiss edirdilər ki, hətta onlar üçün də günah uçurumundan xilas olmaq imkanı açılır. Fəriseylər bu adamlara yalnız nifrət edib, onları mühakimə edirdilər; Məsih isə onlara müvəqqəti olaraq Ata evindən getmiş, lakin Ata ürəyinin unutmadığı Allah övladları kimi yanaşırdı. Zəif və günahkar olmalarının özü onları Onun qayğı və mərhəmət obyektinə çevirirdi. Onlar Ondan uzaqlaşdıqca, Onun onları xilas etmək arzusu artır

və bundan ötrü daha böyük səy və qurban tələb edilirdi.

Bütün bunları İsrail müəllimləri özlərini qoruyucusu və şərhçisi saydıqları Müqəddəs Yazılardan öyrənə bilərdilər. Məgər dəhşətli günaha batmış Davud yazmamışdımı: “Qoyun kimi azmışam, bu qulunu axtar Sən” (Məz. 118:176). Məgər Mikəya Allahın günahkara olan məhəbbətini bu sözlərlə açmadımı: “Sağ qalan xalqının cəzasını aradan götürən, asiliyini bağışlayan Sənin kimi Allah varmı?” (Mik.7:18)

**Qeyb olmuş qoyun**

Bu dəfə Məsih Öz dinləyicilərinin diqqətini Yazılara yönəltmir. Onlara öz şəxsi həyat təcrübələrini xatırladır. Iordan yaxınlığında geniş yayılmış yaylaqlar çoxsaylı sürülər üçün bol otlaqlar idi; həm dərələrdə, həm meşəli təpələrdə çoxlu itmiş qoyunlar dolaşırdılar, qayğıkeş çobanlar onları axtarıb taparaq, geri gətirirdilər. Məsihi əhatə edənlərin [135] arasında məhz çobanlar və həm də pullarını sürülərə sərf eləmiş varlılar var idilər. Onlar İsanın nəsihətini dərk edə bilərdilər: “Sizlərdən yüz qoyunu olan kim onlardan birini itirdiyi zaman doxsan doqquzunu səhrada buraxaraq, itmiş olanı tapıncaya qədər arxasınca getməz?”

“Eləcə də nifrət etdiklərinizin canları, — İsa deyirdi, — Allahın mülkiyyətidir. Onlar Ona mənsubdurlar, çünki onları O yaratmış və bağışlamışdır, onlar Onun gözündə dəyərlidirlər. Çoban öz qoyunlarını sevib qeyb olmuş bircə qoyunu tapmayınca rahatlıq və dinclik bilməyən kimi, Allah da hər azmış canı sevir, lakin hədsiz dərəcədə çox sevir. Adamlar Onun məhəbbətini rədd edə bilərlər, Ondan qaça bilərlər, özlərinə başqa sahib seçə bilərlər, bütün bunlara baxmayaraq, onlar Allaha mənsubdurlar və O Özününkünü qaytarmaq yanğısındadır. O deyir: “Dağılmış qoyunların arasındakı bir

çoban sürüsünü necə yoxlayarsa, Mən də qoyunlarımla eləcə yoxlayacağam. Buludlu və qaranlıq bir gündə ətrafa səpələndikləri hər yerdən onları qurtaracağam" (Yez. 34:12).

Bu məsəldə çoban yalnız bir qoyunun axtarışına gedir, bu ən kiçik rəqəm idi. Deməli, hətta bir itirilmiş can olsaydı belə, Məsih həmin o bir nəfər üçün yenə də ölümə gedərdi.

Sürüdən ayrı düşmüş qoyun bütün yaradılmışlar içərisində ən köməksizidir. Çoban onu axtarmaladır, çünki özü geriyə yolu tapa bilməyəcək. Allahdan uzaqlaşmış adamla da belədir: o da itmiş qoyun kimi köməksizdir və

İlahi məhəbbət köməyinə gəlməyincə, o, Allaha qayıda bilməyəcək.

Qoyunların birinin qeyb olduğunu aşkar edən çoban toplanmış sürünü qayğısız müşahidə edib: "Mənim doxsan doqquz qoyunum vardır, bir qeyb olmuşu axtarmaq üçün zəhmət çəkməyə dəymir. Qoy özü gəlsin və mən ağılın qapısını açıb onu içəri buraxaram", — demir. Yox, bu bir qoyunun qeyb olması aşkar olunan kimi çobanın ürəyini narahatlıq götürür. O, sürünü təkrar-təkrar sayır. İtkiyə əmin olduqdan sonra, [136] o, bir dəqiqəsini də itirməyəcək. Doxsan doqquz qoyunu ağılda buraxaraq,

qeyb olanın axtarışına düşəcək. Gecə nə qədər qaranlıq və yol nə qədər təhlükəlidirsə, çobanın narahatlığı da o qədər güclü və axtarışları o qədər səyli olacaq. O bu bir qeyb olmuş qoyunu tapmaqdan ötrü qüvvəsini əsirgəməyəcəg.

O, qoyunun uzaqdan gələn səsini necə böyük məmnuniyyətlə qarşılayır. Səsin istiqamətinə cumaraq, sıldırım qayalara dırmaşır, uçurumun lap qırağı ilə öz həyatını təhlükə qarşısında qoyaraq gedir. Beləliklə, o, axtarışlarını o vaxta qədər davam etdirir ki, eşidilən səs get-gedə zəifləyərək qoyunun öləcəyini göstərir. Lakin axır ki, onun

səyləri mükafatlandırılır: qeyb olmuş tapılır. Çoban ona bu qədər narahatlıq verdiyinə görə qoyunu danlamır. Onu qamçı ilə qovmur. Titrəyən canlını sevincək öz çiyinlərinə qoyur; əgər qoyun yaralı və sınıqlıdırsa, onu əlinə götürüb sinəsinə sıxır ki, ürəyinin istisi ona həyat verə bilsin. Axtarışlarının əbəs olmadığından yüngüllük və məmnunluq hissi ilə qoyunu ağıla aparır.

Allaha şükürlər olsun ki, O bizə bədbəxt çobanın qoyunsuz qayıtmasının təsvirini vermədi. Bu məsəl uğursuzluqdan deyil, xilas edilməyin müvəffəqiyyətindən və sevincindən danışır. Onda biz İlahi

zəmanətə malik oluruq ki, Allah sürüsünün qeyb olmuş hətta bir qoyunu da unudulmayacaq, heç biri köməksiz qalmayacaqdır. Allahın bağışlanmasına icazə verdiyi hər kəsi Məsih ölüm uçurumundan və günah tikanlığından xilas edəcəkdir.

Ey ümidsiz və ruhdan düşən insan, məyus olma, ağır günah etmiş olsan da, ürəkli ol! Allah sənin günahlarını bağışlayarmı, Ona yaxınlaşmağına icazə verərmi deyə narahat olma. Allah artıq sənə doğru ilk addımını atıb. Hələ sən Ona qarşı üsyan etdiyin zaman O sənin axtarışına çıxıb. İncə ürəkli çoban kimi, O, doxsan doqquzunu

buraxaraq, qeyb olmuş birinin dalınca səhraya getdi. Ölə biləcək taqətsiz və yaralı canı Öz sevən əllərilə qucaqlayıb, sevincək təhlükəsiz sığınacağa aparır. [137]

Yəhudilər öyrədirdilər ki, İlahi məhəbbətin günahkara izhar edilməsindən əvvəl o tövbə etməlidir. Onların təsəvvürünə görə, tövbə — insanın göylərin xeyirxahlığını qazanması üçün vasitə idi. Məhz bu fikir fəriseylərin qəzəbli və hiddətli nidalarına səbəb olurdu: “O, günahkarları qəbul edir”. Onlar hesab edirdilər ki, Məsih yalnız tövbə etmişlərin Ona yaxınlaşmasına icazə verməli idi. Ancaq qeyb olmuş qoyun

haqqında məsəllə Məsih öyrədir ki, xilas bizim Allahı axtarmağımızın sayəsində deyil, Allahın bizi axtarması nəticəsində baş verir. “Anlayan heç kim yoxdur; heç kim Allahı axtarmır; hamı öz yolunu azmışdır” (Rom. 3:11, 12). Biz Allah bizi sevsin deyə tövbə etmirik, əksinə, O bizə Öz məhəbbətini açır ki, tövbə edə bilək.

Azmış qoyun nəhayət evə gətirilən zaman, çobanın minnətdarlığı sevinc dolu şən nəğmələrdə ifadə olunur. O öz dostlarını və qonşularını çağırıb nida edir: “Mənim sevincimə şərik olun, mən itmiş qoyunumu tapdım”. Beləcə

də azmış can ulu Çoban tərəfindən tapıldığı zaman, göylər və yer sevinc və minnətdarlıqda birləşir.

"Beləcə də göydə, tövbə edən bir günahkara görə, tövbəyə ehtiyacı olmayan doxsan doqquz saleh insan üçün olduğundan daha çox sevinc olacaqdır". Məsih sanki deyir: "Siz fəriseylər, hesab edirsiniz ki, Göylər sizə başqalarından daha çox meyllidir. Siz elə bilirsiniz ki, özünüzü şəxsi doğruluğunuz ilə çəpərləyərək təhlükəsizlik içindəsiniz. Bilin ki, əgər tövbə etməyə ehtiyac duymursunuzsa, Mənim xidmətim sizin üçün deyil. Yoxsul və günahkar olduqlarını hiss

edən bu zavallı canlar məhz onlardır ki, Mən almağa gəlmişəm. Səma mələkləri sizin nifrət etdiklərinizə şəfqətlə yanaşırlar. Siz onların hansısa Mənə can atdıqda hiddətlənir, yaxud istehza edirsiniz; bilin ki, bu zaman mələklər sevinirlər, səma həyətlərində isə qələbə nəğməsi ucalır".

Kahinlərin məsəlləri vardı ki, Allaha qarşı günah işlədən öldüyü zaman göylər sevinir; İsa isə öyrədirdi ki, öldürmək Allaha yaddır. Əksinə, Onun yaratdığı canlarda Allahın surətinin bərpa edilməsinə bütün göylər sevinir. [138]

Günah çirkabına batmış insan Allaha qayıtmaq istədiyi zaman düşmənçilik və etibarsızlıqla qarşılaşacaqdır. Onun tövbəsinin səmimiliyinə şübhə ilə yanaşan, yaxud da bir-birinə bu sözləri pıçıldayan adamlar da tapılacaq: “Onun möhkəmliyi yoxdur, mən inanıram ki, o, dözə bilməyəcəkdir”. Bu adamlar Allahın işini deyil, qardaşlarının ittihamçısı olan şeytanın işini görürlər. Günahdan azad olmaq istəməyən insan öz tənqidi ilə bu canı çaşdıraraq, onun cəsarətini sındırıb, ümiddən məhrum etmək və Allahdan daha da uzaqlaşdırmaq istəyir. Qoy tövbə edən günahkar hər azmışın qayıtması zamanı göylərdəki

sevincdən xəbərdar olsun. Qoy O, İlahi məhəbbətdə rahatlaşsın və fəriseylərin şübhələri və nifrətlərilə rastlaşarkən, heç bir vəchlə ruhdan düşməsin.

Kahinlər elə başa düşürdülər ki, Məsihin məsəli vergiyığan və günahkarlara aiddir; lakin o, daha geniş məna daşıyırdı. İtirilmiş qoyunun timsalında Məsih yalnız adi bir günahkarı deyil, eyni zamanda Allahdan dönmüş və günah içində məhv olan bir dünyanı nəzərdə tuturdu. Allahın idarə etdiyi nəhəng kainatda bu dünya yalnız bir atomdur, lakin bu kiçik düşkün dünya — bir azmış qoyun — Onun gözündə

sürüdən ayrılmamış doxsan doqquzundan daha qiymətlidir. Məsih, səmavi məskənlərin sevimli Hökmdarı Atası ilə bölüşdürdüyü uca mövqeyini və izzətini tərk etdi ki, tək bir azmış dünyanı xilas etsin. Bundan ötrü O, göylərdəki günahsız dünyaları, Onu sevən həmin doxsan doqquzunu müvəqqəti olaraq tərk etdi və günahkar yerə endi ki, bizim "asiliyimizə görə bədəni deşilsin, şər əməllərimiz naminə əzilsin" (Yeş. 53:5). Allah Özünü Oğlunda verdi ki, itirilmiş qoyunun qayıtmasının sevincinə malik olsun.

"Görün Ata bizə necə bir məhəbbət göstərmişdir ki, Allahın

övladları adlanaq” (1 Yəh. 3:1). “Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti naminə çəkdiyi əzabların qalanlarını öz bədənimlə tamamlamaq” (Kol.1:24) üçün Məsih deyir: “Sən Məni dünyaya göndərdiyin kimi, Mən [139] də onları dünyaya göndərdim” (Yəh. 17:18). Məsihin xilas etdiyi hər can, azmışların xilası üçün Onun adı naminə işləməyə çağırılmışdır. Qədim İsraildə bu iş çox vaxt rədd edilirdi. Bu gün də bəzən əsassız olaraq özlərini Məsihin davamçıları adlandıranlar bunu unutmurlarmı?

Bəs siz, ey oxucu, o itirilmişlərin neçəsini axtarıb Ata evinə

gətirmisiniz? Sizə ümidsiz görünən və sizi əsəbiləşdirən adamlardan üz çevirdiyiniz zaman, Məsihin yorulmadan axtardığı insanları rədd etmiş olduğunuzu anlayırsınızmı? Onlardan üz çevirdiyiniz həmin vaxtda, ola bilsin ki, onlar sizin mərhəmətinizə böyük ehtiyac duyurlar. Hər imanlılar cəmiyyətində özlərinə dinclik və salehlik qaytarmaq istəyən canlar vardır. Zahirən onlar qayğısızdırlar, lakin həqiqətdə Müqəddəs Ruhu dinləmək qabiliyyətini itirməyiblər. Onların çoxları Məsih üçün alına bilərlər.

Azmış qoyunu ağıla qaytarmasan, ölənə kimi veyllənəcəkdir. Beləcə də,

çox canlar vaxtında onların xilası üçün uzadılmış əl tapmayaraq, geri qaytarılmadan ölürlər. Çox zaman günah içində ölən insanlar dəyişməz, qayğısız görünürlər, lakin onlara da başqalarına verilən qədər imkanlar təqdim edilmiş olsa idi, onlar daha böyük qəlb xeyirxahlığı və faydalı həyata daha çox hazırlıq nümayiş etdirərdilər. Bu azmışlar üçün mələklərin ürəkləri yanır. İnsan gözləri yaşarmayıb, ürəyi mərhəmət üçün bağlı qalanda, mələklər ağlayırlar.

İmtahana çəkilənlərə və yolunu azmışlara dərin və qəlbi yandıra biləcək şəfqətlə yanaşmağımız nə

qədər vacibdir! Bizim Məsihin ruhuna çox, özünəməhəbbətə isə az, mümkün qədər az ehtiyacımız var!

Fəriseylər Məsihin məsəlində öz ünvanlarına irad sezirdilər. Onların Öz ünvanına yönəlmiş tənqidlərini qəbul etməyərək, Özü onları vergiyığan və günahkarlara qarşı nifrətlərinə görə tənqid edirdi. Bunu açıq şəkildə etmirdi ki, onların ürəkləri Onun üçün bağlanmasın; lakin Onun məsəli Allahın onlardan gözlədiyi işin görülməsinə işarə edirdi, onlar bu işi görə bilmədilər. İsrailin rəhbərləri həqiqi çobanlar olsa idilər, [140] həmin çoban kimi hərəkət edərdilər. Onlar Məsihin

mərhəmət və məhəbbətini izhar edərək, insanlara xidmətində Ona qoşulardılar. Bundan imtina etmələri — iddia və bəyanatlarının bütün yalanını təsdiq etdi və riyakarlıqlarını ifşa elədi. Bu zaman çoxları Məsihin iradını rədd etdilər, lakin buna baxmayaraq, Onun sözləri bəzilərini əmin etdi. Məsihin səmaya yüksəlməsindən sonra onların üzərinə Müqəddəs Ruh endi və azmış qoyun haqqında məsəldə Onun şagirdlərinə buyurulmuş vəzifənin icrasına başladılar.

## İtirilmiş dirhəm

Qeyb olmuş qoyun haqqında məsəli danışandan sonra Məsih başqasına keçərək dedi: “On dirhəmi olan Hansı qadın bir dirhəm itirsə, çıraq yandırıb, evi süpürüb, onu tapıncaya qədər axtarmaz?”

Şərqdə yoxsulların evləri adətən yalnız bir otaqdan ibarət, çox zaman pəncərəsiz və təbii ki, qaranlıq olurdu. Otağı gec-gec süpürürdülər və döşəməyə düşən pul tezliklə toz və zibillə örtülə bilərdi. Onu axtarıb tapmaq üçün hətta gündüz də şam yandırıb evi səliqə ilə süpürmək gərək idi.

Qadın ərə getdiyi zaman cehiz olaraq gümüş pullar alırdı, bunları ən

dəyərli hədiyyə kimi səliqə ilə saxlayırdı ki, gələcəkdə öz qızlarına versin. Bu qəpiklərin birini itirmək ciddi bədbəxtlik hesab edilirdi, onun tapılması isə böyük sevincə səbəb olurdu, onun bütün rəfiqələri bu sevinci ruhən canlanan qadınla bölüşdürməyə hazır idilər.

“Və tapdığı zaman, — Məsih deyir, — öz rəfiqələrini və qonşularını yığıb deyir: Mənim sevincimə şərik olun, mən itirilmiş dirhəmi tapdım! Beləliklə, sizə deyirəm ki, tövbə edən bir günahkar üçün də Allahın mələkləri hüzurunda sevinc olur”.

Bu məsəl də, əvvəlki kimi, onu göstərir ki, lazımi axtarışlar nəticəsində, hər cür itki yenidən tapıla bilər və böyük sevincə səbəb olar. Lakin [141] nəzərdən keçirilmiş iki məsəl müxtəlif günahkarlar növündən danışır. İtmiş qoyun bilir ki, o itibdir. O, çobanı və sürünü tərk edib və özü qayıda bilmir. Burada o kəslərdən danışılır ki, özlərinin Allahdan aralı düşdüklərini dərk edirlər və çaşqınlıq, məyusluq və güclü sınaqlar dumanındadırlar. İtirilmiş qəpik isə o adamları təsvir edir ki, onlar özlərinin günahları və təhrifləri ilə o dərəcədə əsir ediliblər ki, fəlakətli vəziyyətdə olduqlarını heç güman da etmirlər. Onlar

Allahdan uzaqlaşıblar, lakin bunu dərk etmirlər. Qəlbləri məhv olur, lakin bunu dərk etmirlər və bu onları təlaşlandırmır. “İtən quzu kimi azmışam, qulunu axtar, çünki əmrlərini unutmamışam” (Məz. 119:176). “Xalqım itmiş qoyunlar kimidir, çobanları onları azdırdı, dağlarda özbaşına dolandırdılar, onlar dağdan təpəyə getdilər, yatdıqları yeri unutdular” (Yer. 50:6). Nəzərdə tutulan məsəllə Məsih həm də onu göstərmək istəyir ki, hətta Allahın tələblərinə etinasız olanlar da, Onun mərhəmətli məhəbbətindən məhrum olmurlar. Onları axtarmaq lazımdır ki, onlar da Allaha qayıtsınlar.

Qoyun ağıldan uzaqlaşdı; çınqıllıqlarda, yaxud da dağlarda azdı. Gümüş pul isə evdə itdi. O burada, yaxındadır, ancaq buna baxmayaraq, onu da tapmaq asan deyil. Bu, səyli axtarışlar tələb edir.

Qeyb olmuş dirhəm haqqındakı məsəldə ailə üçün dərs vardır. Çox zaman ailədə onun üzvlərinin qəlblərinin vəziyyətinə dəhşətli qayğısızlıq və biganəlik müşahidə olunur. Onların içərisində Allahdan uzaqlaşmış insan da ola bilər, ailənin başqa üzvləri isə bu zaman heç bir narahatlıq keçirmirlər, əndişələnmirlər ki, onların yaxınlarından birinin simasında,

Allahın insanlara bəxş etdiyi ənamlardan biri itirilmiş olacaqdır.

Toz və zibillə örtülsə də, qəpik yenə də gümüşdür. Yiyəsi onu ona görə axtarır ki, o, müəyyən dəyərə malikdir. Eləcə də həг bir can günahla necə xarab edilsə də, Allahın gözündə ən böyük dəyərə malikdir. Hər bir qəpik üzərində hakim iqtidarın təsvirini və onun simvollarını daşıdığı kimi, insa da yarandığı zaman Allahın surəti və bənzəri onda [142] həкк edilmişdir; indi bu surət günahın təsiri nəticəsində qaralıb, paslansa da, o yenə də həг canda görünməkdədir. Allah bu canı Özünə qaytarıb,

salehlik və qüdsiyyətdə Öz Şəxsi surətini onda bərpa etmək istəyir.

Məsəldəki qadın inadla öz itirilmiş qəpiyini axtarır. O, şamı yandırıb, evi süpürür. Onun axtarışlarına mane ola biləcək hər şeyi kənarlaşdırır. Yalnız bir qəpiyin itməsinə baxmayaraq, qadın itirdiyini tapıncaya qədər öz səylərini dayandırmır. Beləcə də ailədə, əgər onun üzvlərindən biri Allah üçün itirilibsə, onun xilas edilməsi üçün bütün mümkün vasitələrdən istifadə etmək lazımdır. Qoy hər ailə üzvü özünü həssaslıqla və ciddi analiz etsin. Öz vərdiş və adətlərinizin hamısını diqqətlə nəzərdən keçirin və

dəyərləndirin. Görün ailə həyatınızın quruluşunda və davranışınızda hansısa səhv, yaxud itki yoxdurmu ki, itirilmiş qəlb ona görə tövbə etməkdən imtina edərək daşlaşır.

Əgər ailədə öz günahlı vəziyyətini dərk etməyən uşaq vardırsa, valideynlər təlaş keçirməlidirlər. Qoy şam yandırılsın. İlahi Kəlamı tədqiq edin və onun işığında diqqətlə ailənin hər cəhətini təhlil edin ki, nəhayət uşağın yadlaşmasının səbəbini tapasınız. Valideynlərə öz ürəklərinə də nəzər salmaq gərəkdir ki, öz vərdiş və hərəkətlərini yenidən düşünüb dəyərləndirsinlər. Uşaqlar Rəbbin

varı və mirasıdırlar, Onun mülkiyyətinin idarəsinə görə biz Onun qarşısında məsuliyyət daşıyırıq.

Xarici missioner tarlalarında çalışmaq istəyən ata və analar vardır; çoxları evdən kənardakı məsihçi fəaliyyətində çox fəaldırlar, onların öz övladları isə Xilaskarı və Onun məhəbbətini duymurlar. Öz uşaqlarının Məsihə malik olmaları işini bir çox valideynlər din xadiminə, yaxud şənbə məktəbi müəllliminə həvalə edirlər; lakin bununla onlar Allahın onların üzərinə qoyduğu vəzifədən imtina edirlər. Öz övladlarının məsihçi ruhunda təlim və tərbiyəsi valideynlərin özlərini Allaha

həsr edə biləcəkləri ən ali xidmətdir. Bu, bütün ömür boyunca səbirli zəhmət, səliqəli və inadlı səylər tələb edən işdir. Allahın bu böyük tapşırığını [143] inkar edərkən, biz dönük idarəçi oluruq və Onun etibar elədiyinə bizim etinasız münasibətimizə görə Allah bizim heç bir bəhanəmizi qəbul etməyəcəkdir.

Lakin bu vəzifədən imtina etməkdə təqsirli olanlar da ümidlərini üzməsinlər. Pulu itirmiş qadın onu yenidən tapana kimi axtardı. Qoy valideynlər də məhəbbətlə, imanla və dua ilə öz yaxınları üçün zəhmət çəksinlər, o vaxta qədər ki, onlar sevinclə öz övladları ilə Allahın

hüzuruna gəlib, nida edəcəklər: “Mən və Rəbbin mənə verdiyi övladlar budur” (Yeş. 8:18).

Bu, ev şəraitindəki həqiqi missioner xidmətidir və onu həyata keçirənlər üçün xidmət etdikləri şəxslər üçün olduğu qədər xeyirlidir. Öz yaxınlarımızın hamısı üçün qayğı göstərdikdə Məsihə sadiq qalarıqsa, biz özümüzü Rəbbin geniş ailəsinin üzvlərinə, sonsuz əsrlər boyunca birlikdə yaşamalı olacağımız bütün insanlara xidmət etməyə hazırlayırıq. Bir ailənin üzvləri kimi bir-birimizə göstərməli olduğumuz marağı məsihçi bacı-qardaşlarımıza da göstərməliyik.

Allah istəyir ki, ailədəki bütün bu zəhmət bizi ətrafımızdakı insanlara xidmətə hazırlasın. Bizim rəğbət dairəmiz genişləndikcə və insanlara olan məhəbbətimiz çoxaldıqca, biz hər yerdə səfarət xidməti üçün imkan tapacağıq. Böyük insan ailəsi bütün dünyanı doldurur və onun üzvlərinin heç birini rədd etmək olmaz.

Harada olsaq da, hər yerdə bizi qeyb olmuş gümüş, axtarmağa layiq olan qəpik gözləyir. Lakin biz onu axtarırıqmı? Hər gün biz ruhlu məsələlərə biganə olan insanlarla rastlaşırıq; onlarla söhbət edirik, ünsiyyətdə oluruq, lakin onların ruhlu durumlarına lazımi maraq

göstəririkmi? Biz Məsihi günahı bağışlayan Xilaskar kimi onlara təqdim edirikmi? Məsihin məhəbbətilə isinmiş özümüz, bu xilasedici məhəbbət haqqında imanı olmayanlara danışırıqmı? Əgər danışmırıqsa, bəs onda Allahın taxtı qarşısında bərabər durduğumuz zaman, ölmüş həmişəlik itirilmiş bu canlarla necə görüşəcəyik? [144]

Kim bir canın dəyərini müəyyən edə bilər? Onu bilməkdən ötrü Zeytun dağına gedərək, orada Məsihlə bərabər ayıq olun, həmin əzablı saatlarda ki, Onun alnındakı tər qan damlaları kimi idi. Çarmıxa çəkilmiş Xilaskara nəzər salın. Bu

fəryadı dinləyin: “Allahım, Allahım! Nə üçün Məni tərk etdin?” (Mk. 15:34). Onun qan sızan başına, sancılmış bədəninə, yaralanmış ayaqlarına baxın. Yadda saxlayın ki, Məsih hər şeyi təhlükə altına qoymuşdu. Bizi bağışlatmaq naminə, Səma özü təhlükə altında idi. Orada, çarmıxın kölgəsində Məsihin hətta yeganə bir günahkardan ötrü də Öz həyatını verməyə hazır olduğunu dərk edən zaman, tək bir canın dəyərini dərk edəcəksiniz.

Əgər siz Məsihlə sıx ünsiyyətdəsinizsə, hər bir insana Onun nöqteyi-nəzərilə baxacaqsınız. Məsihin sizi sevdiyi məhəbbətlə siz

də başqalarına yanaşacaqsınız. O zaman siz Onun uğrunda öldüyü insanları tərk etməyərək, qəbul edəcək, rədd etməyərək, cəlb edəcəksiniz. Əgər Məsih buna Öz şəxsi səylərini sərf etməsəydi, heç kim heç zaman Allaha geri qaytarılmazdı. Beləcə də biz canları yalnız öz şəxsi işimizlə xilas edə bilərik. Öz qədəmlərini ölümə tərəf yönəldənləri gördüyünüz zaman, siz rahat və etinasız qala bilməyəcəksiniz. Onların günahı nə qədər dəhşətli və düşmələri nə qədər dərindirsə, sizin onlara münasibətiniz o qədər həssas və onların xilasına yönəlmiş səyləriniz bir o qədər inadlı olmalıdır. Siz əzab çəkənin, Allaha

qarşı günah etmişin və öz təqsiri ilə istismar edilənin ehtiyaclarını seçə biləcəksiniz. Sizin ürəyiniz onlara şəfqətlə yanaşacaq və onlara öz kömək əlinizi uzadacaqsınız. Özünüzün iman və məhəbbət əllərinizdə onu Məsihə gətirəcəksiniz. Siz onlara qayğı göstərib təskinlik verəcəksiniz, sizin şəfqət və etibarınız onların qazandıqları möhkəmliyi itirməyə qoymayacaqdır.

Səmavi mələklərin hamısı bu işdə sizə yardım etməkdən sevinc duyacaqlar. Göylərin malik olduğu hər şey azmışları xilas etməyə [145] çalışanların sərəncamına veriləcəkdir. Ən qayğısız və qaba ürəklərə də

mələklər yol tapmağa yardım edirlər. Tək bir can da Allaha geri qaytarıldığı zaman, bütün göylər sevinirlər; serafimlər və xeruvimlər öz qızıl arfalarına toxunaraq, Allaha və Quzuya mərhəmətlərinə, insan oğullarına incə qayğı və məhəbbətlərinə görə həmd edirlər. [146]

## Qeyb olmuşdu — tapıldı”

(Lk. 15:11-32)

İtmiş qoyun, itirilmiş dirhəm və fərsiz oğul haqqındakı məsəllər açıqca göstərir ki, Allah ondan uzaqlaşanlardan ötrü yanır və onları sevməkdə davam edir. Onlar Allahdan dönsələr də, O onları fəlakətdə qoymur. O, hiyləgər düşmən tərəfindən sınağa çəkilən hamıya qarşı xeyirxahlıq və mərhəmətlə doludur.

Fərsiz oğul haqqındakı məsəldə Rəbbin nə vaxtsa Ata məhəbbətini

duymuş, lakin iblisə öz üzərində qələbə çalmağa icazə verən və onun əsarətinə düşmüş insanlara münasibəti təsvir edilir.

“Bir nəfərin iki oğlu var idi. Oğlanlardan kiçiyi atasına dedi: ‘Ata! Malikanədən mənə düşən hissəni mənə ver’. Və atası malikanəni onların arasında böldü. Bir neçə gün sonra, kiçik oğlu nəyi vardısa yığıb uzaq bir məmləkətə getdi”.

Bu kiçik oğulu ata evində hökm sürən intizam qaydaları sıxırdı. O hesab edirdi ki, onun azadlığı məhdudlaşdırılır. O öz atasının məhəbbət və qayğısını dəyərləndirmədi və hər şeydə yalnız

öz şəxsi arzularına əməl etməyi qərara aldı.

Bu gənc adam atasına olan bütün borclarını məhəl qoymadı və ona münasibətdə minnətdarlıq hissini itirdi; buna baxmayaraq, o özünün ata mülkiyyətinə olan hüququnu bəyan edir. Atası öləndən sonra mütləq ona çatacaq mirası, o dərhal almaq istəyir. O, ləzzətlərin [147] həmin saat, həmin gün həsrətində olaraq, tamamilə öz gələcəyinin qayğısına qalmır.

Öz hissəsini alıb, o öz ata evindən "uzaq bir məmləkətə getdi". İndi onun pulu çox idi və o, arzuladığı kimi hərəkət edə bilərdi. O xoşbəxtdir

ki, onun ürəyinin arzusu yerinə yetdi. Onu heç kim dayandırıb, “bunu etmə, özünü məhv edərsən”, yaxud “belə et, çünki bu doğrudur” demir. Günahkar yoldaşları onu günah uçurumuna sürükləyirlər və o “səfahətlə yaşayaraq, bütün varını puç etdi”.

Müqəddəs Kitab bizə o adamlardan danışır ki, onlar “özlərini müdrik adlandırdılar, fəqət ağılsız oldular” (Rom. 1:22); bu, sözügedən məsəldə kiçik oğula aiddir. Öz atasından saymamazlıqla tələb etdiyi varı əxlaqsızlıqla sovurdu. Onun gənc həyatının cəvahiri də əxlaqsızlıqla xərcləndi. Gəncliyin dəyərli illəri, şüurun gücü, həyatın başlanğıcına

məxsus olan həssas təəssüratlar, cavanlığın ruh coşqunluğu — hər şey ehtiras odunda yandırıldı.

O ölkədə böyük bir aclıq oldu və o, ehtiyac içində yaşamağa başladı. Nəhayət ölkənin sakinlərindən birinə qoşuldu, o isə onu tarlalarına, donuzları otarmağa göndərdi. İbrani üçün bu, ən alçaq və rüsvayçı işlərdən idi. Hələ bir müddət əvvəl özünün azadlığı ilə fəxr edən gənc indi qul vəziyyətinə düşdü. Onu nə vaxtsa valeh etmiş şan-şöhrət və bərbəzək yox olmuşdu. O özünü ən zalım zirzəmidə aşkar etdi — "günahının kəməndinə dolanmışdı" (Məs. 5:22); gözlərini qamaşdıran parıltı da, daş-

qaşlar da qeybə çəkilmişdi və zəncirlərinin bütün ağırlığını dərk edirdi. Bu viran olmuş və aclığa düçar olmuş ölkənin torpağı üstündə oturan və yalnız donuzlarla ünsiyyətdə olmağa məhkum edilmiş bu adam artıq donuzların yediyi keçi buynuzu ilə qarnını doydurmağa şad olardı. Onun firavan günlərində ətrafında toplaşan və onun hesabına yeyib-içən şən dəstədən indi yanında heç kim yox idi. Vaxtı ilə olan özbaşınalıq sevinci indi necə olmuşdu? Əvvəllər vicdanının səsini eşitməyərək, xeyirxahlığa olan hissiyyatını boğaraq, o özünü bəxtiyar sayırdı. [148] İndi isə o, bütün varını xərcləmiş, daim aclıq

çəkən, alçaldılmış, qüruru tapdalanmış, hər cür əxlaq istiqamətini itirmiş, iradəsiz və qabalaşmış halda insanların ən bədbəxti idi.

Burada günahkarın müsibətli vəziyyətinin necə doğru təsviri verilmişdir! Allahın xeyir-duasına, Onun məhəbbətinə malik olan günahkar, buna baxmayaraq, Allahdan ayrılmaqdan çox heç nəyi istəmir, çünki özünün eyibli həvəslərini və günahkar həzlərini ödəməyə can atır. Nankor oğul kimi Allahdan hüququ ilə ona məxsus olan xeyirxahlığı tələb edir. Ona bağışlanan xeyirxahlığı lazımi kimi

qəbul edərək, əvəzində Allaha öz minnətdarlığını və məhəbbətlə xidmətini vermək istəmir. Allahın üzündən özünə ev axtarmağa gedən Qabil kimi, fərsiz oğul "uzaq bir məmləkətə getdiyi" kimi, günahkarlar da öz səadətlərini Allahın olmasını münasib görmədikləri şeylərdə axtarırlar (bax. Rom. 1:28).

Belə bir həyatın xarici görünüşü nə qədər cəlbedici olsa da, şəxsi mənafe üçün yaşanmış həyat — boş şeyə sərf edilmiş həyatdır. Allahsız yaşamağa cəhd edən adam özünü bərbad edir. O, qiymətli illəri sovurur, şüurunun, ürəyinin və qəlbinin qüvvəsini boş yerə xərcləyir və

bununla da özünü əbədiyyət üçün yararsız edir. Allahdan uzaqlaşıb, həyatını özünə sərf etmək üçün yaşayan adam, həqiqətdə var-dövlət quluna çevrilir. Allahın mələklərlə ünsiyyətdən ötrü yaratdığı şüur yalnız dünyəvi, maddi şeylərə xidmət üçün istifadə edilir. Öz-özünə xidmət etmək mütləq buna gətirib çıxarır.

Əgər siz belə həyat seçirsinizsə, bilin ki, siz pullarınızı gündəlik çörək olacaq şeylərə xərcləmirsiniz və həqiqi məmnuniyyət gətirəcək şeylər üçün işləmirsiniz. Gec-tez siz cırlaşmağınızı dərk edəcəksiniz. Uzaq bir ölkədə tənhalıqda qalaraq, siz özünüzü bədbəxt hiss edəcək və

ümidsiz fəryad edəcəksiniz: “Nə zavallı adamam! Bu ölüm bədənindən məni kim xilas edəcəkdir?” (Rom. 7:24). Peyğəmbərin sözlərində əbədi olaraq sarsılmayan həqiqət vardır: “O adam lənətlidir ki, insana güvənir, bəşərin gücünə arxalanır, ürəyi Rəbdən ayrılır. O, çöldəki [149] yulğun ağacı kimi olacaq, xeyir gələndə onu görməyəcək. Səhrada olan quraq yerlərdə heç kəs yaşamayan şoranlıqda sakin olacaq” (Yer. 17:5, 6). Allah “Öz günəşinə əmr edir ki, pis və yaxşı adamların üzərinə doğsun və saleh olanlar ilə olmayanların üzərinə yağmurlar göndərir” (Mt. 5:45); lakin insanlar özlərini günün işığından və

yağmurdan məhrum etmək imkanına malikdirlər. Buna görə də Salehlik Günəşi parlayıb hamıya təmənnasız olaraq lütf yağmurunu göndərdiyi zaman, biz özümüzü Allahdan uzaqlaşdırıb, "səhranın quraq yerlərində məskunlaşa" bilərik.

Ancaq Allahın məhəbbəti Onsuz yaşamağı üstün tutmuş adamların da üzərinə axmaqda davam edir. Belə adama təsir edib, onu geri, Ata evinə qaytarmaq üçün, Allah bütün imkanlardan istifadə edir. Sərsəri oğul belə bir acınacaqlı vəziyyətdə "özünə gəldi". İblisin əsarəti altına düşməyinə səbəb olan yalan onun üzərində öz gücünü itirdi. Gənc dərk

etdi ki, onun əzablarının səbəbi öz ağılsızlığıdır və dedi: “Atamın nə qədər muzdlu işçisi vardır, hamısının da bolluca çörəyi var, mən isə burada acından ölürəm! Durub atamın yanına gedəcəyəm”. Sərsəri oğul yenidən ata məhəbbətinə ümid və yəqinlik əldə etdi. Onu geri, ata evinə çəkən də məhz bu məhəbbət idi. Eynilə Allahın məhəbbətinə yəqinlik günahkarı Allaha dönməyə sövq edir. “Allahın xeyirxahlığı səni tövbəyə gətirir” (Rom. 2:4). İlahi məhəbbətin mərhəməti və şəfqəti — bu qızıl zəncirlər təhlükədə olan hər canı qoruyur. Rəbb deyir: “Səni əbədi bir məhəbbətlə sevdim, buna görə də

sevgi ilə səni Özümə tərəf çəkdim” (Yer.31:3).

Oğul öz təqsirini etiraf etmək qərarına gəlir. O, atasının yanına gedib, belə deməyi qərara alır: “Mən göyə və sənə qarşı günah işlətdim və artıq sənin oğlun adlanmağa layiq deyiləm”. Lakin o əlavə edir: “Məni öz muzdlu işçilərinin sırasına al” və bununla ata məhəbbətini nə qədər dərk etdiyini göstərir. [150]

Gənc adam donuz sürülərini və onların yedikləri keçibuynuzları tərk edərək, öz nəzərini evinə yönəldir. Zəiflikdən titrədiyinə, acından taqətsizləşdiyinə baxmayaraq, o inadla öz yoluna davam edir. Onun öz

cırcındırını örtməyə bir şeyi yox idi, lakin bədbəxtlik onun qüruruna qalib gəldi və nə vaxtsa övladı olduğu yerdə indi muzdlu işçi yeri istəməyə tələsirdi.

Bu şən və qayğısız gənc ata evinin darvazasından çıxdığı zaman onun ürəyinə saldığı ağrı və kədərdən nə az xəbərdar idi. Öz əxlaqsız dostları ilə oynayıb kef çəkdiyi zaman, tərk etdiyi evə düşən kölgə haqqında nə az düşünürdü. Budur, indi də çox yorğun halda, ayaqlarını güclə sürüyərək evinə tərəf ağır-ağır yeriyən zaman bilmirdi ki, onu yenə də gözləyirlər. Lakin "hələ uzaqda ikən" atası onu tanıdı. Məhəbbət iti

gözə malikdir. Hətta oğlunun simasını güclü dəyişdirmiş günahlı illər onu tanımaqdan ötrü atasına mane olmadı. Atasının “ona rəhmi gəldi və qaçıb onun boynuna sarıldı və öpdü”.

Atası icazə verməz ki, kiminsə istehzalı baxışı oğlunun cır-cındırı və yoxsulluğuna rişxənd etsin. O öz çiynindəki bahalı, enli mantiyanı götürüb onunla oğlunun arıq bədənini bürüdü. O isə hönkürüb tövbə edərək, belə dedi: “Ata! Mən göyə və sənə qarşı günah işlədim və artıq sənin oğlun adlanmağa layiq deyiləm”. Ata onu qucaqlayıb evə apardı. Oğula muzdlu işçi yerini istəmək imkanı düşmədi. O — oğuldur, evdə

olanların ən yaxşısına layiq ediləcəkdir və kölələri ona tabe olub, xidmət edəcəklər.

Ata əmr etdi: “Ən gözəl xələt gətirib onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın, kökəldilmiş dananı gətirin, kəsin: yeyib şadlanaq!”

Üsyankar və fani gənclik illərində atası sərsəri oğula ciddi və tələbkar görsənirdi. O indi atasını nə qədər başqa görürdü! İblisin aldatdığı insanların gözündə də Allah zalım və cəzalandıran kimi görünür. Onlara elə gəlir ki, O, yalnız təqsirləndirib məhkum etmək istəyir və günahkarın hansısa bir qüsuru vardırsa, onu qəbul

edib, ona kömək etmək istəmir. [151] İnsanların çoxu Onun qanununu insan xoşbəxtliyini məhdudlaşdıran ağır yük sayırlar və ondan azad olmağa şaddırlar. Lakin o kəslər ki, Məsihin məhəbbəti gözlərini açmışdır, Allahı şəfqətlə dolu görürlər. Allah onlara zalım və rəhmsiz varlıq kimi deyil, öz tövbə etmiş oğlunu hərarətlə sinəsinə sıxmaq istəyən ata kimi təsvir edilir. Günahkar məzmurçu ilə bərabər nida edəcəkdir: "Ata övladlarına rəhm etdiyi kimi Rəbb də Ondan qorxanlara rəhm edir" (Məz.103:13).

Məsəldə sərsəri oğula qarşı zərrə qədər də istehza yoxdur, onun pis əməllərini heç kim üzünə vurmur.

Oğul hiss edir ki, keçmişdəki əfv edilib və unudulubdur, həmişəlik silinibdir. Allah da günahkara bunu deyir: “Asiliyini bulud kimi dağıtdım, günahlarını duman kimi sildim” (Yeş. 44:22). “Təqsirlərini bağışlayacağam, günahlarını daha yada salmayacağam” (Yer. 31:34). “Qoy pis adam öz yolunu, şər adam öz fikirlərini atsın. Qoy Rəbbə sarı dönsün ki, ondan mərhəmət tapsın. Qoy bizim Allahımız tərəfə dönsün, çünki Onun əfvi boldur” (Yeş. 55:7). “O gün, o zaman İsraildə təqsir axtarılacaq, ancaq olmayacaq. Yəhudada da günah axtarılacaq, ancaq tapılmayacaq” (Yer. 50:20).

Biz burada Allahın tövbə edən günahkarı qəbul etmək istəyi haqqında necə böyük zəmanət tapırıq! Siz, ey oxucu, öz yolunuzu seçmisinizmi? Allahdan çox uzaq düşməmisinizmi? Siz də nə vaxtsa günahkarlığın məhsulundan həzz alıb onların dodaqlarınızda yalnız toz olduğunu aşkar etmisinizmi? İndi, günlərinizin tükəndiyi, həyatdakı planlarınızın dağıldığı, ümidinizin öldüyü zaman, ümidsiz bir halda tənha qalmamısınızmı? Ürəyinizə çoxdan bəri müraciət edən, lakin dinləmək istəmədiyiniz o sakit səs indi sizə açıq-aydın deyir: "Qalxın gedin, çünki bu ölkədə artıq əmin-amanlıq yoxdur. Bu yer

murdarlandığına görə dəhşətli surətdə darmadağın olacaq” (Mik. 2:10). Öz Ata evinizə qayıdın. O sizi dəvət edərək deyir: “Mənə tərəf dön, çünki səni mən satın aldım” (Yeş. 44:22).

Sizə özünüzü daha yaxşı edənə kimi, Allaha gəlmək üçün. lazımi qədər xeyirxah oluncaya qədər Məsihdən uzaq olmağınızı pıçıldayan [152] düşmənə inanmayın. Əgər siz bunun nə vaxt baş verəcəyini gözləyəcəksinizsə, siz Ona heç zaman gəlməyəcəksiniz. “Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Ona yalvarın. Qoy pis adam öz yolunu, şər adam öz fikirlərini atsın. Qoy Rəbbə sarı dönsün ki, Ondan

mərhəmət tapsın. Qoy bizim Allahımız tərəfə dönsün, çünki Onun əfvi boldur" (Yeş. 55:6, 7). İblis sizin çirkli paltarlarınıza işarə etdiyi zaman, İsanın vədini təkrar edin: "Mənim yanıma gələni rədd etməyəcəm" (Yəh. 6:37). Düşmənə deyin ki, Məsih İsanın qanı hər cür günahdan təmizləyir. Qoy Davudun duası sizin şəxsi duanız olsun: "Məni züfa ilə pak et, təmiz olum, məni yu, qardan da ağ olum" (Məz. 51:7).

Ayağa qalxın və öz Atanızın yanına gedin. Hələ uzaqda olduğunuz zaman, O sizi qarşılamağa çıxacaq. Peşmançılıq içində Ona tərəf yalnız ilk addımınızı atdığınız zaman, O

artıq sizi Öz hədsiz məhəbbət ağuşuna almağa tələsəcəkdir. O, əzablı canın fəryadını tez eşidir. Ürəyin Allaha tərəf ən birinci çırpıntısı Ona məlumdur. Duanız necə cəsarətsiz ifadə edilmiş olsa da, göz yaşlarınız necə gizlin axıdılsa da, Allaha yönəlmiş hərəkətləriniz necə zəif olsa da, Allahın Ruhu onlara qarşı tələsir. Siz dua etdikdən və yaxud öz ürəyinizin meylini dərk etdikdən əvvəl, artıq qəlbinizdə mövcud olan lütfə qarşı Məsih daha böyük lütf göndərir.

Sizin Səmavi Atanız sizin əyninizdən günahla çirklənmiş paltarı çıxaracaqdır. Zəkəriyyə peyğəmbərin

çox gözəl simvol olan peyğəmbərliyində Rəbbin Mələyi qarşısında çirkli paltarlarda dayanmış dahi kahin Yəşua özündə günahkarı nümayiş etdirirdi. Lakin Mələk Rəbbin sözünü bəyan elədi:

“Onun əynindən çirkli paltarı çıxarın”. Sonra Yeşuaya dedi: “Bax günahını sənin üzərindən götürdüm, indi sənə bayram paltarı geyindirəcəyəm”... Başına təmiz çalma bağlayıb ona paltar geyindirdilər” (Zək. 3:4, 5). Beləcə, Allah sizə də “qurtuluş geyimi” geyindirib, “salehlik libasına” [153] bürüyəcəkdir (Yeş. 61:10). “Qanadları gümüş kimi bərq vuran,

tükləri isə qızıl kimi parlayan, göyərçinə oxşayırsınız” (Məz. 68:13).

O sizi Öz ziyafət evinə daxil edəcək və məhəbbət Onun sizin üzərinizdəki bayrağı olacaqdır (Nəğmələr nəğməsi, 2:4). “Əgər yollarımla getsən, — O deyir, — burada duranların arasında”, hətta Onun taxtını əhatə edən müqəddəs mələklər arasında “içəri keçmək haqqını sənə verirəm” (Zək. 3:7).

“Necə ki bəy gəlindən zövq alırsa, Allahın da səndən zövq alacaq” (Yeş. 62:5). “Allahın Rəbb, qüvvətli Qurtarıcın səninlədir! O sənin üçün sevinib şadlanacaq, səni məhəbbəti ilə yeniləşdirəcək, sənin

üçün tərənnümlə coşacaq!” (Sef. 3:17). Həm göylər, həm də yer Atanın sevinc nəğməsində qovuşacaq: “Çünki bu oğlum ölmüşdü, dirildi; qeyb olmuşdu, tapıldı”.

Beləliklə, buraya kimi Xilaskarın məsəlində heç bir qeyd yoxdur ki, şən görüş tamaşasının harmoniyasını poza bilsin. Lakin bu yerdə Məsih bir iştirakçı da daxil edir. Sərsəri oğul evə qayıdan zaman, böyük qardaşı “tarlada idi; qayıdarkən evə yaxınlaşdığı zaman, musiqi və rəqs səsləri eşitdi; nökərlərdən birini çağırıb soruşdu: “Bu nədir?” O, ona dedi: “Sənin qardaşın qayıdıb, atan isə kökəldilmiş dananı kəsib, çünki

onu sağ-salamat tapdı”. O isə hirsləndi və içəri girmək istəmədi”. Bu böyük qardaş atasının təlaşını bölüşmürdü və həmişəlik qeyb olduğu güman edilən qardaşını tamamilə gözləmirdi. Buna görə o indi də bu səfilin qayıtmağı münasibətilə atasının sevincinə şərik olmurdu. Şənlik səsləri onun ürəyini sevindirmirdi. O nökərdən şənliyin səbəbi haqqında soruşur və onun cavabı onda paxıllıq oyadır. Evə girib özünün qeyb olan qardaşını salamlamaq istəmir. Azmış oğula göstərilən nəvazişi öz ünvanına təhqir hesab edir.

Atası çıxıb oğluna nəsihət verdiyi zaman o öz xasiyyətinin hədsiz qürurlu və kinli olduğunu göstərdi. Özünün ata evindəki həyatını ödənilməmiş xidmət hesab edirdi və buna görə də yenicə qayıtmış sərsəri [154] oğula göstərilən xeyirxahlıq və rəğbətə hiddətləndi. Öz xidmətinin oğul xidmətindən daha çox nökər xidmətinə oxşadığını bildirdi. Atasının yanında daim sevinmək əvəzinə, bütün fikrini öz ehtiyatlı həyatına görə ona çatacaq nemətlərdə cəmləşdirdi. Onun sözləri sübut edir ki, o, yalnız buna görə günahın həzlərindən imtina edirdi. İndi isə, atasının ənamlarını onunla bərabər qardaşı da bölüşdürdüyü zaman,

böyük oğlu hesab edir ki, onunla ədalətsiz rəftar etdilər. O, qardaşına göstərilən rəğbətə görə ona paxıllıq edir. O aydın göstərir ki, atasının yerində olsa idi, sərsəri oğulu qəbul etməzdi. O hətta onu qardaşı kimi qəbul etməyərək, ancaq soyuqqanlılıqla “sənin oğlun” adlandırırdı.

Ancaq buna baxmayaraq, atası oğluna qarşı incəliklə və yumşaq rəftar edir. “Oğlum! — ona deyir, — sən həmişə mənimləsən və mənim bütün əmlakım sənindir”. Məgər qardaşının bütün sərsərilik illəri boyunca sən mənimlə mehriban

ünsiyyət üstünlüyünə malik deyildinmi?

Onun övladlarının xoşbəxtliyinə xidmət edə bilən hər şey tamamilə onlara məxsus idi. Oğulun ona aid olan ənam və mükafatlara şübhə etməyinə ehtiyac yoxdur: “Mənim bütün əmlakım sənindir”. Ancaq mənim məhəbbətimə iman edib, sənə verilmiş ənamları minnətdarlıqla qəbul etmək lazımdır.

Oğullardan birisi bir müddət öz ailə üzvlərindən üz çevirərək, ata məhəbbətini qiymətləndirmədi. Lakin budur, o qayıtdı və sevinc axını bütün təlaşlı fikirləri apardı. “Sənin bu

qardaşın ölmüşdü, dirildi, qeyb olmuşdu, tapıldı”.

Böyük qardaş öz qəlbinin nə qədər qaranlıq və naşükür olduğunu dərk edə bildimi? Dərk edə bildimi ki, qardaşı nə vaxtsa büdrəmişdisə də, yenə də onun qardaşı olaraq qalır? Böyük qardaş öz paxıllıq və daşürəkliliyinə görə peşman oldumu? Bu barədə Məsih heç nə demir. Bu məsəldə təsvir edilən əhvalat hələ davam etdiyinə görə Onun dinləyicilərinə sonu necə olacağını təyin etmək imkanı verir.

Bu məsəldəki böyük oğul Məsihin dövründəki tövbə etməyən ibraniləri və eləcə də vergiyığan və

günahkar hesab etdikləri hər kəsə nifrətlə [155] baxan bütün zamanların fəriseylərini təsvir edir. Onlar günahın ifrat formalarına qapılmadıqları üçün özlərini tamamilə saleh sayırlar. Məsih isə bu öcəşkən adamların diqqətini onların öz həyatlarına yönəldir. Məsəldə böyük oğula verildiyi kimi, onlara da Allah tərəfindən xüsusi üstünlüklər verilmişdir. Allah evində onlar özlərini oğul sayırdılar, lakin muzdlu işçi ruhuna malik idilər. Onlar zəhmət çəkirdirlər, lakin sevgidən yox, mükafat gözləyərək. Onların nəzərində Allah tələbkar gözətçi idi. Onlar görürdülər ki, Məsih vergiyığanları və günahkarları Onun

lütf ənamını təmənnasız qəbul etməyə dəvət edirdi, bu ənama kahinlər yalnız zəhmət və özünü məhdudlaşdırma yolu ilə nail olmaq ümidində idilər və onlar bundan incik düşmüşdülər. Ata ürəyini sevinclə dolduran sərsəri oğulların qayıtmaları onlarda yalnız həsəd və paxıllıq oyadırdı.

Məsəldəki böyük oğula verilən ata nəsihəti Göylərin fəriseylərə qarşı dözümlü münasibətini təsvir edir: "Mənim bütün əmlakım sənindir". Bu, ödəniş deyil, bu, ənamdır. Sərsəri oğul kimi, siz də onu yalnız layiq olmadığınız Ata Məhəbbətinin ənamı kimi qəbul edə bilərsiniz.

Öz-özünü saleh hesab etmək yalnız Allah haqqında yanlış təsəvvür yaratmır, o, eyni zamanda insanları öz həmqardaşlarına qarşı tənqidlərində soyuq, amansız edir. Eqoizm və qısqanclıq əsarətində olan böyük oğul öz qardaşının hər addımını izləyərək, onun hər bir əməlini tənqid edib, xırdaca bir qüsuruna görə mühakimə etməyə hazır idi. O onun hər səhvini yadda saxlayar, hər bir yanlış hərəkətini qeyd edərdi. Bununla o özünün bağışlamayan xarakterinə bəraət qazandırmağa çalışardı. Çoxları bu gün də belə edirlər. İnsan sınaqlar selinə qarşı durmaq üçün ilk səylərini göstərdiyi zaman, onlar yaxınlıqda duraraq, daim yenilməz və

öz bildiklərini edən xasiyyətlərilə həmişə ittiham və şikayət etməyə hazırdırlar. Onlar özlərini Allahın övladları hesab etsələr də, iblisin ruhunda hərəkət edirlər. Öz qardaşlarına qarşı münasibətlərilə onlar özlərini elə bir vəziyyətə salırlar ki, Allah onlara Öz nurundan verə bilmir. [156]

İnsanların çoxunu daim bu sual düşündürür: "Rəbbin hüzuruna nə ilə gedim? Uca Allaha necə səcdə edim? Önünə yandırma qurbanları ilə — birillik danalarla çıxımmı? Rəbbə min-min qoç qurbanları, zeytun yağının on minlərcə selləri xoş gələrmi? Asiliyimə görə ilk oğlumu,

günahım üçün Öz övladımı verimmi? Ey insanlar, Allah sizə yaxşı olanı bildirdi. Rəbb sizdən bundan başqa nə istəyir ki? Adil olun, məhəbbət göstərməyi sevin, Allahınızın önündə təvazökarlıqla gəzin" (Mix. 6:6-8).

Allahın istədiyi sitayiş bundan ibarətdir: "Mənim istədiyim oruc haqsızlığın buxovlarını qırmaq, boyunduruğun iplərini açmaq, sıxıntı içində olanları azad etmək, hər cür boyunduruğu məhv etmək deyilmi?" (Yeş. 58:6, 7). Özünüzü yalnız Səmavi Atanızın məhəbbəti sayəsində xilas edilmiş günahkar hiss etdiyiniz zaman, günahdan əziyyət çəkən başqa insanlara həssas mərhəmətlə

yanaşacaqsınız. Başqasının bədbəxtlik və tövbəsini bundan sonra qısqanclıq və şübhə ilə qarşılamayacaqsınız. Ürəyinizdə eqoizm buzu əridiyi zaman, Allahla tam harmoniyada olacaqsınız və Onun azmışların xilas edilməsinə görə olan sevincinə şərik olacaqsınız.

Özünüzü Allahın övladları saymağınız doğrudur; lakin əgər bu, həqiqətən, belədirsə, onda Allaha qayıdan — “sizin qardaşınızdır”, o qardaşınız ki, “ölmüşdü — dirildi, qeyb olmuşdu — tapıldı”. O sizinlə ən sıx tellərlə bağlıdır, çünki Allahın Özü onu Öz övladı hesab edir. Onunla öz qohumluğunuzu inkar

etməklə göstərəcəksiniz ki, İlahi ailənin üzvü deyil, bu evdə yalnız muzdlu işçisiniz. Azmış oğulun qayıtması münasibətilə olan görüşə və şadlığa qoşulmasanız da, sevinc və şənlik davam edəcəkdir: geri dönən oğul Atanın yanında və Atanın işində öz yerini tutacaqdır. Kimə çox günah bağışlanıbsa, o çox da sevəcəkdir. Siz isə bayırdakı zülmətdə qalacaqsınız. Çünki "sevməyən, Allahı dərk etməmişdir, çünki Allah məhəbbətdir" (1 Yəh. 4:8). [157]

## “Ona bu il də toxunma”

(Lk. 13:1-9)

Öz nəsihətlərində Məsih mərhəmətin dəvəti ilə məhkəmə haqqında xəbərdarlığı birləşdirirdi. “İnsan Oğlu, — O deyirdi, — insanların canını məhv etməyə deyil, qurtarmağa gəlmişdir” (Lk. 9:56). “Allah Öz Oğlunu dünyaya göndərməmişdir ki, dünyaya hökm etsin. Amma göndərmişdir ki, dünya Onun vasitəsilə qurtulsun” (Yəh. 3:17). Onun mərhəmət və şəfqət xidməti və onların İlahi ədalət və

məhkəmə ilə bağlanması barsız əncir haqqındakı məsəldə parlaq təsvir edilibdir.

Məsih insanları Allahın padşahlığının yaxınlaşması barədə xəbərdar edirdi və onları avamlıqlarına və laqeydliklərinə görə sərt məzəmmət edirdi. Hava haqqında qabaqcadan xəbər verən göydəki əlamətləri onlar oxuya bilirdilər; lakin Onun gəlişinə açıq-aydın işarə edən zaman əlamətlərini elə də dərk edə bilmədilər.

Lakin insanlar o zaman da, bu gündəki kimi, həvəslə aldanırdılar ki, onlar göylərin seçdiyi adamlardır və ifşa xəbəri başqa kimsələrə aiddir.

İsanın dinləyiciləri böyük həyəcana səbəb olmuş hadisə haqqında danışdılar. Yəhudeyanın hakimi Pontlu Pilatın bəzi tədbirləri xalq arasında güclü narazılığa səbəb olmuşdu. Yerusəlimdə ixtilaflar baş verən zaman, Pilat onları güclə yatırmağa cəhd etdi. İğtişaşların birində əsgərlər hətta məbədin sahəsinə soxulub, qurbanlıq mərasimi keçirən bir neçə qalileyalı zəvvarı öldürmüşdülər. İbranilər bu faciənin səbəbini həlak olanların günahkar olmasında görürdülər. Dəhşətli əhvalat haqqında [158] danışanlar gizli məmnuniyyət hissi keçirirdilər. Onlar hesab edirdilər ki, onlar üçün uğurlu qurtarmış bu faciə onların

həmin qalileyalılardan qat-qat yaxşı olduqlarını təsdiq edir, çünki Allah onlara qarşı daha çox mərhəmətli olmuşdur. Onlar Məsihdən həlak olanların ünvanına mühakimə sözləri eşitmək istəyirdilər, çünki onların bu cəzaya layiq olduqlarına şübhə etmirdilər.

Məsihin şagirdləri Müəllimlərinin nə deyəcəyini eşitmədən, bu hadisə barədə öz fikirlərini ifadə etmək istəmirdilər. O, başqalarının mühakiməsinə və onlar üçün məhkəmə qərarına uyğun olan cəzanın müəyyən edilməsinə dair onlara artıq məlumat vermişdi. Lakin buna baxmayaraq, onlar gözləyirdilər

ki, həlak olmuş qalileyalılar başqalarına nisbətən daha çox günahkar olduqlarına görə Məsih onları mühakimə edəcəkdir. Onun cavabı isə onların böyük təəccübünə səbəb oldu.

Yığıncağa müraciət edərək, Xilaskar dedi: “Məgər elə düşünürsünüz ki, bu qalileyalılar bu aqibətə uğradıqlarına görə bütün digər qalileyalılardan daha günahkardırlar? Yox, deyirəm sizə; lakin əgər tövbə etməzsinizsə, hamınız onlar kimi həlak olacaqsınız”. Bu müdhiş faciə insanların ürəklərini itaətli edib onları tövbəyə gətirməli idi. Məsihdə özünə

sığınacaq tapmayan insanların üzərində çaxacaq intiqam şimşəyi yaxınlaşırdı.

Şagirdləri ilə və yığıncaqla danışdığı zaman peyğəmbərliklə gələcəyə baxaraq, Məsih orada orduların mühasirəyə aldıqları Yerusəlimi görürdü. O, seçilmiş şəhər üzərinə addımlayan düşmənlərin ayaq səslərini eşidir, bu mühasirədə minlərlə həlak olmuşları görürdü. İbranilərin çoxları, qalileyalılar kimi, məbədin həyətlərində qurbanlıq mərasimi keçirən zaman öldürülmüşdürlər. Ayrı-ayrı insanların başına gələn faciələr onlar kimi günahkar olan bütün xalq üçün edilən

Allah xəbərdarlığı idi. “Əgər tövbə etməzsinizsə, — İsa deyir, — hamınız onlar kimi həlak olacaqsınız”. Qısa bir müddətə insanlar üçün sınaq zamanı yenə də uzadılmışdır. Onların əmin-amanlığına xidmət edəni dərk etmək üçün onlara yenə vaxt verilmişdir. [159]

“Bir nəfərin bağında əkilmiş bir əncir ağacı var idi, — O davam edir, — və gəlib onun üzərində meyvə axtardı, lakin tapmadı. Bağbana dedi: Budur, artıq üç ildir ki, mən bu əncir ağacının yanına gəlib meyvə axtarıram və tapmıram; onu kəs; niyə boş yerə torpaq tutur?”

Məsihi dinləyənlər qəti surətdə bu sözlərin kimə aid edildiyini bilirdilər. Davud öz nəğmələrində İsraili Misirdən gətirilmiş üzüm tənəyinə bənzədirdi. Yeşaya yazırdı: "İsrail nəsli Ordular Rəbbinin üzüm bağıdır, Yəhuda adamları isə Onun sevimli meynələridir" (Yeş. 5:7). Məsihin gəlişinə təsadüf edən nəsil Rəbbin üzüm bağındakı məhz həmin əncir ağacı idi ki, Onun xüsusi qayğısı və xeyir-duası ilə əhatə edilmişdi.

Allahın Öz xalqı üçün müəyyən elədiyi o uca məqsəd və Onun verdiyi o möhtəşəm imkanlar aşağıdakı gözəl sözlərdə təsvir edilmişdir: "Onlara Rəbbin şöhrətini aşkar etmək üçün

Rəbbin əkdiyi salehlik palıd ağacları deyiləcək” (Yeş. 61:3). Can üstündə olan Yaqub Müqəddəs Ruhdan ilham alaraq öz sevimli oğlu haqqında deyir: “Yusif barlı bir ağac, çeşmə kənarında meyvəli bir ağacdır, budaqları divarın üzərindən aşar”. Və davam edir: “Sənə kömək edən Atanın Allahıdır. Sənə xeyir-dua verən Külli-İxtiyardır. Yuxarıda göylərin bərəkəti ilə, dərinlikdə olan su mənbələrin bərəkəti ilə, döşlərin, bətnlərin bərəkəti ilə sənə xeyir-dua verəcək” (Yar. 49:22, 25). Beləliklə, Allah İsraili həyat bulağı üstündəki məhsuldar ağac kimi əkmişdir. O Özünün üzüm bağını “məhsuldar bir təpədə” yerləşdirdi. “O, torpağı

belləyib, daşları kənara atdı, seçmə meynələr əkdi” (Yeş. 5:1, 2).

“Üzümlüyün barını gözlədi, amma bağ cır üzüm gətirdi” (Yeş. 5:2). Məsihin dövründə bu xalq öz möminliyini əvvəlki yüzilliklərdəki yəhudilərdən daha çox şişirdirdi, lakin Müqəddəs Ruhun möcüzəli məhsullarından onlardan çox məhrum olmuşdu. Yusifin xasiyyətinin o dəyərli cəhətləri ki, onun həyatını bu qədər gözəl və rayihəli edirdilər, ibrani xalqının xasiyyətində təzahür edilmirdi. [160]

Allah Öz Oğlunun timsalında İsraildə xeyirli məhsul axtardı və tapmadı. İsrail boş yerə torpaq

tuturdu. Onun mövcud olmasının özü lənət idi, çünki o, üzümlükdə xeyirli ağacın bitə biləcəyi torpağı tuturdu. Beləliklə, İsrail Allahın onun vasitəsilə bu dünyaya göndərmək istədiyi xeyir-dualardan onu məhrum edirdi. İsraillilər öz həyatları ilə Allahı başqa millətlərin gözündə təhrif olunmuş şəkildə təsvir edirdilər. Onlar nəinki yararsız idilər, lakin artıq başqa xalqların da Allaha qayıtmağına ciddi mane olurdular. Onların dinləri əsas etibarilə təhriflər toplusuna dönmüşdü və insanları xilasa gətirmək əvəzinə, onları ölümə düçar edirdi.

Bu məsəldə bağban ağanın hökmünün ədalətli olduğuna şübhə etmir ki, ağac barsız qaldıqda onu kəsmək gərəkdir; lakin o, ağanın bu ağaca dərin marağını dərk edir və onu bölüşdürür. Bağbanı bu ağacı çiçəklənən və məhsuldar görməkdən çox heç nə sevindirə bilməz. Ağanın da bunu arzuladığını başa düşən bağban ona belə cavab verir: “Ağa! Ona bu il də toxunma, mən onun ətrafını belləyər və peyinlə dövrəyə alaram: meyvə gətirərsə, yaxşı”.

Bağban bundan sonra da, demək olar ki, ümidsiz ağaca qayğı göstərməyə hazırdır. O onu daha böyük qayğı ilə əhatə etməyi təklif

edir. Ona bütün diqqətini yönəldəcəkdir.

Ağa və bağban bu əncirə eyni dərəcədə maraq göstərirlər. Seçilmiş xalqa qarşı məhəbbətlərində də Ata və Oğul məhz buna bənzər şəkildə birdirlər. Məsih Öz dinləyicilərinə deyirdi ki, onlara daha böyük imkanlar veriləcəkdir. İlahi məhəbbətin ixtira etməyə qadir olduğu hər cür vasitələrdən istifadə ediləcəkdir ki, onlar salehlik əkmələri ola bilsinlər və bütün dünyaya xeyir-dua məhsulu versinlər.

Məsih bu məsəldə bağbanın səylərinin nəticələrindən danışmır. Onun hekayəsi burada bitir. Bu

hekayənin necə qutaracağının məsuliyyəti Məsihin sözlərini dinləyən nəslin üzərinə qoyulmuşdur. Onlara ciddi xəbərdarlıq edildi: "Əgər gətirməzsə, gələn il kəsərsən". Son [161] qərarın icra edilməsi Müəllimi dinləyənlərdən asılı idi. Qəzəb günü yaxın idi. Həmin vaxta kimi artıq İsrail üzərinə düşmüş bəlaların içində bağın yiyəsi mərhəmətlə Öz xalqına barsız əncirin ölə biləcəyi haqqında xəbər verirdi.

Məsihin bu xəbərdarlığı bu gün də səslənməkdədir. Ey qayğısız insanlar, siz də Rəbbin bağında barsız ağac deyilsinizmi? Hökmün sözləri sizə də aid deyildirmi? Nə müddətdir

ki, siz Onun ənamlarını alırdınız? Nə müddətdir ki, O sizin həyatınızı müşahidə edirdi və qarşılıqlı məhəbbət gözləyirdi? Allahın üzümlüyündə, bağbanın himayəsi və qayğısı altında olaraq, necə böyük imkanlara malik idiniz! Müjdənin xəbəri nə qədər tez-tez sizin ürəyinizə toxunurdu! Siz Məsihin adını daşıyırsınız. Zahirən siz hətta Onun bədəni olan imanlılar cəmiyyətinə mənsubsunuz. Yenə də siz dərk etmirsiniz ki, böyük məhəbbət ürəyi ilə canlı ünsiyyətiniz yoxdur. Onun həyatının axını sizin içinizdən axmır. Onun xasiyyətinin müsbət cəhətləri, "Ruhun ənamları" sizin həyatınızda büruzə edilmir.

Məhsulsuz ağac həm yağışı, həm günəş işığını, həm də bağbanın diqqət və qayğısını alır. O, başqaları kimi, torpağın şirələri ilə qidalanır. Lakin onun barsız budaqları yalnız torpağa kölgə salır və məhsuldar bitkilərin böyüməsinə mane olur. Beləcə də, bolluqla sizin üzərinizə axıdılan İlahi ənamlar dünyaya xeyir-dua gətirmir. Siz başqalarının malik ola biləcəkləri xeyir-duanı alırsınız.

Tam aydınlıqla olmasa da, dərk edirsiniz ki, yer üçün yüksünüz. Lakin yenə də Öz böyük rəhminə görə Allah sizi kəsmir. O sizə soyuq baxışla baxmır. Sizdən laqeydliklə dönüb, ölüm ayağında qoymur.

İnsana baxarkən, neçə əsr əvvəl qədim İsrail üçün ağladığı kimi, acı-acı hönkürür: “Ey Efrəyim, səni necə əldən verim? Ey İsrail, səni necə təslim edim?.. Mən qızğın qəzəbimlə rəftar etmərəm, Efrayimi artıq məhv etmərəm. Çünki Mən Allaham, insan deyiləm” (Huş. 11:8, 9). Mərhəmətli Xilaskar hər birimiz haqqında deyir: “Ona bu il də toxunma, Mən onun ətrafını belləyər və peyinlə dövrəyə alaram”. [162]

Uzun sınaq müddəti boyunca necə yorulmaz məhəbbətlə Məsih İsrailə xidmət edirdi. O, çarmıxda yalvarırdı: “Ata! Onları bağışla, zira nə etdiklərini anlamırlar” (Lk. 23:34).

Onun yüksəldilməsindən sonra Müjdə əvvəl Yerusəlimdə təbliğ edildi. Elə orada da Müqəddəs Ruh Onun şagirdlərinin üzərinə endi. Elə orada da ilk imanlılar cəmiyyəti dirilmiş Xilaskarın qüdrətini bəyan etdi. "Mələk üzlü" Stefan da Onun haqqında şəhadət edib öz canını verdi (Həv.iş. 6:15). Göylərin insanlara verə biləcəkləri hər nə vardırsa, əvvəl Yerusəlimə bəxş edilmişdi. Məsih dedi: "Bağım üçün etmədiyim şey qalmadı" (Yeş. 5:4). Eləcə də sizin üçün Onun qayğısı və əməyi zəifləmir, əksinə çoxalır. O hələ də deyir: "Mən, Rəbb, bağı qoruyuram, tez-tez sulayıram, gecə-gündüz

keşiyində dururam ki, heç kəs ona zərər verməsin” (Yeş. 27:3).

**“Meyvə gətirərsə, yaxşı; əgər gətirməzsə...”**

İlahi qayğıya cavab verməyən ürək sərtləşir və nəticədə Müqəddəs Ruhu dinləmək qabiliyyətini itirir. Bu zaman hər halda hökm ifadə olunur: “Onu kəs; niyə boş yerə torpaq tutur?”

Allah bu gün də bizi dəvət edir: “Dua sözləri ilə Rəbbə tərəf dönün... Onların dönüklüyünə əlac edəcəyəm, onları ürəkdən sevəcəyəm... Mən İsrailə bir şeh olacağam, o, zanbaq

kimi çiçək açacaq, Livan sidri kimi kök atacaq... Adamlar yenə də onun kölgəsi altında oturub, buğda kimi cücərəcək, meynə kimi tumurcuqlayacaqlar... Sənin bar verməyin Məndən olacaq” (Huş.14:2-8). [163]

## “Get, bütün yolları və çəpərləri axtar”

(Lk. 14:1, 12-24)

Xilaskara bir fəriseyin evində qonaq olmaq vaqe oldu. O həm yoxsulların, həm də zənginlərin dəvətini qəbul edirdi və Öz adətinə görə, gördüklərini tədris etdiyi həqiqət dərsləri ilə bağlayırdı. İbranilərin müqəddəs bayramları dövlət və dini təntənələrin birillik dövrü ilə bir vaxta düşürdü. Bu bayramlar onlar üçün əbədi həyat xeyir-duasının simvolu rolunu oynayırdılar. Onlar özlərini böyük

ziyafət içində, İbrahimin, İshaqın və Yaqubun əhatəsində təsəvvür edirdilər, həmin vaxt bütpərəstlər xaricdə qalaraq, bütün bunları yalnız acgözlüklə müşahidə edəcəkdilər. Bu onların ləzzət aldıqları təsvir idi. Məsih onlara bu dəfə vermək istədiyi xəbərdarlığı və öyüdü o böyük ziyafət haqqında məsəllə təsvir elədi. İbranilər əmin idilər ki, həm bu, həm də gələcək həyatdakı Allahın xeyir — duaları yalnız onlar üçün nəzərdə tutulubdur. Bütpərəstlərin də Allahın mərhəmətinə layiq olduqlarını onlar qəbul etmirdilər. Öz məsəlilə Məsih ibraniləri əmin etməyə cəhd etdi ki, bununla onlar mərhəmətin dəvətini rədd edir və həqiqətdə Allahın

Padşahlığından imtina edirlər. O deyirdi ki, ibranilərin beləliklə rədd etdikləri dəvət o kəslərə yönələcəkdir ki, ibranilər onlara nifrət edir, o kəslərə ki, yanlarından keçdikləri zaman, cüzamlıdan çəkinən kimi, paltarlarını yığışdırırdılar.

Verdiyi ziyafətə qonaqları dəvət edərkən, fərisey özünün eqoist istəklərini rəhbər tuturdu. Məsih isə ona dedi: "Əgər günorta, yaxud axşam [164] ziyafət düzəltsən, nə öz dostlarını, nə öz qardaşlarını, nə öz qohumlarını, nə öz zəngin qonşularını dəvət et ki, onlar da səni çağıraraq sənə əvəzini versinlər. Fəqət ziyafət düzəldəndə yoxsulları, əlilləri,

topalları, korları dəvət et, onlar sənə əvəzini ödəyə bilmədiklərinə görə sən bəxtiyar olacaqsan, zira salehlərin dirildiyi zaman sənə əvəz veriləcəkdir".

Burada Məsih Musa vasitəsilə Onun İsrailə verdiyi əmri təkrar edir. Rəbb buyururdu ki, onların müqəddəs bayramlarında "qəriblər, yetimlər və dul qadınlar gəlib bundan doyuncan yesinlər" (Qan.tək.14:29). Buna bənzər qonaqların dəvət edilməsi İsrail üçün ənənəvi hal idi. Həqiqi qonaqpərvərliyin sevincini dərk edərək, insanlar bütün il boyunca kasıb və məzlumlara qayğı göstərməyi öyrənməli idilər. Lakin bu

şənliklər daha böyük məna daşıyırdı. İsrailə bəxş edilmiş ruhlu xeyir-dualar yalnız onlar üçün nəzərdə tutulmamışdı. Allah onlara həyat çörəyini ondan ötrü vermişdi ki, onlar onu bütün dünya ilə bölüşdürsünlər.

Ancaq onlar bunu yerinə yetirmədilər. Məsihin sözləri onların mənliyinə töhmət oldu. Belə sözləri eşitmək fəriseylərin xoşuna gəlmirdi. Söhbəti başqa səmtə yönəltmək istəyən bir fərisey riyakarcasına nida etdi: "Allahın Padşahlığında çörək yeyən, nə bəxtiyardır!" Bu elə lovğalıqla ifadə olundu ki, sanki Allahın Padşahlığında onun yeri artıq hazır idi. Onun əminliyi bu gün

özünün Məsihdə xilas olmasından sevinclə danışaraq, bu xilasın şərtlərini yerinə yetirməyənlərin əminliyinə bənzərdir. Onun ruhu Balaamın dua etdiyi zaman malik olduğu ruha bənzəyirdi: "Saleh insanların ölümü ilə ölüm, sonum onlarınkı kimi olsun" (Say. 23:10). Bu fərisey özünün səma üçün yararlı olduğunu yox, səmaya gəldiyi zaman həzz alacağı şeyləri düşünürdü. Öz atmacası ilə o, ziyafət üzvlərinin düşüncələrini onların bugünkü vəzifələrindən yayındırıb, fikirlərini real həyatdan salehlərin diriləcəyi uzaq zamanlara yönəltmək istəyirdi. [165]

Məsih bu riyakarın ürəyini oxuyurdu və Öz nəzərini ona yönəldərək, bütün toplaşanların qarşısında artıq bu gün onların malik olduqları imtiyazların mənasını və vacibliyini açdı. Onlara göstərdi ki, gələcəyin xeyir-duasını bölüşdürmək üçün artıq bu gün görüləsi işləri vardır.

"Bir adam, — O sözə başladı, — böyük axşam ziyafəti düzəltdi və oraya çoxlu qonaq çağırdı. Yemək vaxtı gələndə ağa öz qulunu dəvət olunanların yanına göndərdi ki, onlara desin: "Buyurun, çünki artıq hər şey hazırdır". Lakin bu dəvətə qəribə etinasızlıq göstərildi. "Və hamı

birdən üzr istəməyə başladı. Birincisi ona dedi: “Mən bir torpaq sahəsi almışam, gedib ona baxmalıyam, səndən xahiş edirəm, məni bağışla”. Digəri dedi: “Mən beş cüt öküz satın almışam və onları sınaqdan keçirməyə gedirəm; səndən xahiş edirəm, məni bağışla”. Üçüncüsü dedi: “Mən evlənmişəm, buna görə də gələ bilmərəm”.

Bu səbəblərin heç biri bəraət üçün kifayət deyildi, çünki həqiqi zərurətdən doğmamışdı. Öz torpağına “gedib baxmaq” niyyətində olan adam onsuz da artıq onu almışdır. Gedib ona baxmaqdan ötrü ona görə tələsir ki, onun şüuru bütövlüklə bu

nailiyyətə cəlb edilmişdir. Öküzlər də artıq alınmışdılar. Onları sınaqdan keçirmək yalnız alıcının marağını ödəməkdən ötrü idi. Üçüncü üzr də imtina etmək üçün ciddi səbəb deyildi. Nəzərdə tutulan qonağın evlənməsi onun ziyafətdə iştirak etməsinə mane olmurdu. Onun xanımı da orada sevinclə qarşılanardı. Lakin onun öz planları var idi və onun nəzərində iştirak edəcəyini vəd etdiyi ziyafətdən cazibəli idi. O, artıq ləzzəti onu dəvət etmiş ağa ilə ünsiyyətdən deyil, başqa cəmiyyətdə almağı vərdiş etmişdir. O üzr istəmir və hətta imtina edərkən adi ədəb qaydalarına riayət etmir. “Gələ

bilmərəm” sözləri “mən gəlmək istəmirəm” həqiqətini güclə örtür.

Dəvət olunanların imtina üçün gətirdikləri bu səbəblərin hamısı onların şüurlarının əl çəkmək istəmədikləri başqa maraqlar üzərində cəmləşdiyini göstərir. Onların əvvəl qəbul etdikləri dəvət sonradan rədd edildi və səxavətli dost onların belə saymazlıqları ilə təhqir edildi. [166]

Məsihin məsəlindəki böyük ziyafət Müjdənin təqdim etdiyi xeyir-duaları təsvir edir. Ziyafət üçün hazırlanmış yeməklər — Məsihin Özüdür. O, göylərdən enmiş çörəkdir; xilasın mənbəyi Ondadır. Rəbbin müjdəçiləri Xilaskarın gözlənən

gəlişini ibranilərə çoxdan xəbər vermişlər; onlar Məsihə “dünyanın günahını ortadan qaldıran” Allahın Quzusu kimi işarə edirdilər (Yəh. 1:29). Allahın hazırladığı ziyafətdə O, insanlara səmavi ənamların ən böyüyünü, hədsizini təklif edir. Onun üçün tükənməz ehtiyatlar hazırlayaraq, Allahın məhəbbəti bu şənliyi yaratdı. “Bu Çörəkdən yeyən, — Məsih deyir, — əbədi yaşayacaqdır” (Yəh. 6:51).

Ancaq bu Şad Xəbər bayramına dəvəti qəbul etmək üçün insanlar öz dünyəvi maraqlarını bir məqsədə — Məsihi və Onun salehliyini qəbul etməyə tabe etməlidirlər. Allah hər

şeyini insana vermişdir və ondan xahiş edir ki, Ona etdiyi sitayişi hər cür dünyəvi və eqoist maraqlarından üstün tutsun. O, ikiləşmiş ürəyi qəbul edə bilmir. Dünyanı sevməyə sərf edilən ürək Allaha təslim edilə bilməz.

Bu məsəlin verdiyi dərs bütün dövrlər üçün əhəmiyyətlidir. Allahın Quzusu hara getsə, biz Onun dalınca getməliyik. Bizə Onun rəhbərliyini seçmək lazımdır. Onun dostluğu dünyəvi dostların cəmiyyətindən üstün tutulmalıdır. Məsih deyir: "Atasını və ya anasını Məndən artıq sevən Mənə layiq deyil; oğlunu və ya

qızını Məndən artıq sevən Mənə layiq deyil” (Mt. 10:37).

Məsihin dövründə ailə masası arxasında öz gündəlik çörəklərini yeyən zaman çoxları bu sözləri təkrar edirdilər: “Allahın Padşahlığında çörək yeyən nə bəxtiyardır”. Məsih isə göstərdi ki, əslində bu qiymətsiz masaya qonaq tapmaq nə qədər çətindir. Onun sözlərini dinləyənlər dərk edirdilər ki, Mərhəmətin çağırışına nahaq səs vermədilər. Dünyəvi var-dövlət, qazanc və nəşələr yanğısı onları tamamilə öz əsarətinə almışdı və hamısı yekdilliklə dəvəti rədd etdilər.

“Həyat çörəyi Mənəm. Atalarınız səhrada manna yedilər və öldülər; göylərdən gələn çörək isə elədir ki, onu yeyən ölməz. Göydən enmiş olan diri çörək Mənəm” (Yəh. 6:48-51). [167]

Təəssüf ki, bu gün də biz eyni mənzərəni müşahidə edirik. Məsəldəki axşam ziyafətinə dəvət olunanların bəhanələri bizim günlərdə Müjdəni qəbul etməkdən imtina edənlər tərəfindən yenidən səslənir. İnsanlar bəyan edirlər ki, Müjdənin tələblərini qəbul etmək naminə onlar özlərinin dünyəvi planlarını təhlükə altına qoya bilməzlər. Onlar hesab edirlər ki, onların dünyəvi maraqları

əbədi dəyərlərdən daha çox əhəmiyyətlidir. Hətta onların Allahdan aldıqları xeyir-dualar da onların qəlblərini Yaradan və Bağışlayandan ayıran səddə dönür. Bəziləri hətta müvəqqəti də olsa öz dünyəvi işlərindən yayınmaqdan qorxaraq, mərhəmət elçisinə deyirlər: "İndilik get, münasib vaxt tapdıqda, səni çağırtdıraram" (Həv. iş. 24:25). Digərləri Allahın çağırışına itaət etdikləri zaman vətəndaşlıq münasibət və əlaqələrində çətinliklər ola biləcəyinə istinad edirlər. Bu adamlar deyirlər ki, yaranmış qohumluq və dostluq bağlarının ahəngini poza bilməzlər. Bununla da onlar özlərini İsanın danışdığı

məsəldəki əsas surətlərə bənzədirlər. Onların aciz, zəif bəhanələrini ziyafətin Sahibi Öz dəvətinə qarşı nifrət təzahürü hesab edir.

“Mən evlənmişəm, buna görə də gələ bilmirəm” deyən adamın timsalında nəhəng insan kütləsi durur. Öz xanımlarının, yaxud ərlərinin sözünə baxaraq, Allahın çağırışına səs verməyən nə qədər insan var dünyada. Ər bəzən deyir: “Mənim xanımım bunun əleyhinə olduğu halda, mən Allaha münasibətdə öz məsləklərimə riayət edə bilmərəm. Onun təsiri mənim öz əqidəmə uyğun hərəkət etməyimi son dərəcə çətinləşdirəcəkdir”. Yaxud arvad

rəhmli dəvət alır: “Gəlin, zira artıq hər şey hazırdır”, lakin belə cavab verir: “Xahiş edirəm, məni bağışla, mənim ərim mərhəmət dəvətindən imtina edir. O deyir ki, onun iş qayğıları buna mane olur. Mən hər şeydə ərimlə bərabər olmalıyam, buna görə də gələ bilmirəm”. Çox zaman uşaqların ürəkləri daha həssas olur. Onlar İsanın çağırışına getmək istəyirlər. Lakin onlar öz ata və analarını sevirlər və bir halda ki, valideynləri Müjdənin dəvətinə lazımi diqqət göstərmirlər, övladlar hesab edirlər ki, onların da getməyi vacib deyildir. Onlar da bəyan edirlər: “Bağışla məni”. [168]

Bu adamların hamısı Xilaskarın dəvətindən imtina edirlər, çünki ailənin bölünməsindən qorxurlar. Onlar hesab edirlər ki, Allaha xidmətdən əl çəkməklə, evdə sülhü və əmin-amanlığı qoruyurlar, ancaq bu, yanılma, xülyadır. Eqoizm əkən insanlar onu da biçəcəkdirlər. Məsihin məhəbbətini rədd edərək, onlar insan məhəbbətinə paklıq və möhkəmlik gətirən yeganə məfhumu rədd etmiş olurlar. Bu insanlar yalnız səmanı itirməyəcəkdirlər, ancaq naminə səmanı qurban gətirdiyindən də həqiqi həzz almayacaqdırlar.

Məsəldə axşam yeməyi verən adam onun dəvətinin necə

qarşılandığını görüb qəzəblənərək “öz nökərinə dedi”: “Tez get, şəhərin küçələrində və səkilərində olan yoxsulları, əlilləri, topalları və korları buraya gətir”.

Ev yiyəsi qonaqpərvərliyini və səxavətini inkar edənlərdən üz çevirdi və həddən artıq yoxsulları, evləri və torpaq sahələri olmayanları dəvət elədi. O, yoxsulları və acları, onun səxavətini dəyərləndirə bilənləri çağırdı. “Vergiyığanlar və fahişələr, — Məsih dedi, — Allahın Padşahlığına sizdən qabaq girirlər” (Mt. 21:31). Bu, yaxud digər insan digərlərinin nifrətlə ondan üz çevirdikləri qədər günahkar olsa da,

heç zaman o qədər düşkün, o qədər yararsız olmayacaqdır ki, Allahın diqqət və məhəbbətindən məhrum edilsin. Məsih arzu edirdi ki, Onun yanına əldən düşmüş, yorğun, məzlum adamlar gəlsinlər. O, adamlara başqa heç yerdə əldə edə bilməyəcəkləri işıq, sevinc və sülh vermək istəyirdi. Günahkarların ən pisləri Onun dərin, səmimi şəfqətinə və məhəbbətinə malik olurdular. O Öz Müqəddəs Ruhunu göndərib, onları Özünə cəlb etmək üçün çağırır.

Yoxsulları və korları gətirən ağasına dedi: "Ağa! Sənin əmrin yerinə yetirildi, hələ artıq yer də vardır". Ağası qula dedi: "Get, bütün

yolları və çəpərləri axtar və insanları gəlməyə məcbur et ki, evim dolsun". Burada Məsih Müjdənin yəhudi dininin hüdudlarından çıxaraq, dünyanın ən ucqar yerlərinə qədər yayılmasına işarə edirdi.

Bu əmrə itaət edərək, Pavel və Barnaba cəsarətlə ibranilərə dedilər: [169] "Allahın Kəlamı əvvəlcə sizə təbliğ olunmalı idi. Madam ki siz onu rədd edirsiniz və əbədi həyata layiq olmadığınıza hökm verirsiniz, budur, biz də digər millətlərə tərəf dönürük. Çünki Rəb bizə belə əmr etmişdi: "Səni digər millətlər üçün işıq olaraq qoydum ki, yerin uclarına qədər xilas gətirəsən""" (Həv. iş. 13:46-48).

Məsihin həvariləri tərəfindən bəyan edilən Müjdə Onun dünyaya İlk gəlişindən xəbər verir və insanlara Ona iman etməklə xilas edilməyin şad xəbərini çatdırırdı. O, eyni zamanda, Məsihin Öz xalqını xilas etmək üçün böyük izzət içində baş verəcək İkinci gəlişinə işarə edirdi və insanlara iman və itaət vasitəsilə müqəddəslərin mirasında iştirak edəcəklərinə ümid verirdi. Bu xəbər bu gün də insanlara verilibdir və o, Xilaskarın İkinci gəlişinin yaxın olduğunu xəbər verir. Bir zamanlar Öz gəlişinin əlamətləri haqqında Onun xəbər verdikləri artıq baş vermişdir və İlahi Kəlamı öyrənərək görərik ki, Rəb artıq qapıdadır.

Vəhy Kitabında Yəhya Məsihin İkinci gəlişi haqqında müjdəni qabaqcadan xəbər verir. O, “göyün ortasında uçan bir mələk” görür. “Onun əbədi bir Müjdəsi var idi ki, yer üzündə yaşayanlara, hər millətə, həг qəbiləyə, hər dilə və həг xalqa təbliğ etsin. Və O, yüksək səslə deyirdi: Allahdan qorxun! Ona izzət verin! Çünki hökmünün vaxtı gəldi” (Vəh. 14:6, 7).

Bu peyğəmbərlikdə məhkəmə haqqında xəbərdarlıq digər xəbərlərlə ahəngdarlıqda İnsan Oğlunun səma buludlarında zühur etməsini qabaqcadan xəbər verir. Hökm haqqında xəbər onu göstərir ki,

Məsihin İkinci gəlişi yaxındadır. Xəbərin adı isə əbədi Müjdədir. Beləliklə, Məsihin İkinci gəlişinin təbliği və bu zühurun yaxında olmasının bəyan edilməsi Müjdə xəbərinin ayrılmaz hissələridir.

Müqəddəs Kitab xəbər verir ki, axır zamanlarda insanlar dünyəvi nemətlər, əyləncələr və qazanc dalınca qaçacaqdırlar. Onlar əbədi dəyərlərə qarşı kor və kar olacaqdırlar. Məsih deyir: "Nuhun günləri necə idisə, İnsan Oğlunun gəlişi də o cür olacaqdır. Çünki Nuhun gəmiyə girdiyi [170] günə qədər, tufandan əvvəlki günlərdə insanlar yeyib, içib, evlənib, ərə

gedirdilər və tufan gəlib hamısını aparıncaya qədər necə bixəbər idilərsə, İnsan Oğlunun gəlişi də bu cür olacaqdır”.

Həqiqətən də bu gün belədir. Adamlar qazanc və öz ehtiyaclarını ödəmək dalınca elə qaçırlar ki, sanki nə Allah, nə göylər, nə də gələcək vardır. Nuhun dövründə gələcək tufan haqqında qabaqcadan xəbərdarlıq edilmişdi ki, onlar günahkar olduqlarını dərk edib tövbə etsinlər. Eynilə Məsihin yaxın olan İkinci gəlişi haqqındakı xəbər insanları dünyəvi faniliyə qapılmaqdan saqındırmağa çağırmışdır. Bu xəbər onları əbədi dəyərləri dərk etmələri

üçün oyatmalıdır ki, insanlar Rəbbin dəvətinə səs verib, Onun süfrəsində iştirak edə bilsinlər.

Müjdənin dəvətnaməsi bütün dünyaya, "hər millətə, hər qəbiləyə, hər dilə və hər xalqa" aid edilmişdi (Vəh. 14:6). Saqındırma və rəhmin sonuncu xəbəri bütün yer üzünü öz izzəti ilə nurlandırmalıdır. O hər kəsin qulağına çatmalıdır: varlı və kasıbların, əsilzadə və sadələrin. "Get, bütün yolları və çəpərləri axtar, — deyir Məsih, — və insanları gəlməyə məcbur et ki, evim dolsun".

Dünya İlahi Kəlamın aclığını çəkərək, Müjdənin çatışmazlığından məhv olur. İnsanların çox az bir qismi

insan rəvayətləri ilə qarışdırılmamış təmiz İlahi Kəlamı təbliğ edirlər. Buna görə də insanlar Müqəddəs Kitabı əldə etsələr də, Allahın Yazılarda onlar üçün yerləşdirdiyi xeyirduaları almırlar. Rəbb Öz qullarını Onun xəbərini insanlara çatdırmağa çağırır. Günahlar içində məhv olan insanlara əbədi həyat Kəlamı bəxş edilməlidir.

“Yollar və çəpərlərlə” getməyə vadar edərək, Məsih bu vəzifəni Öz adı naminə xidmət etməyə dəvət etdiyi hamının qarşısında qoyur. Məsihin xidmətçiləri üçün bütün dünya fəaliyyət meydanıdır. Bütün bəşər ailəsi onların xidmətinə

mənsubdur. Rəbb istəyir ki, Onun lütf kəlamı hər qəlbə çatdırılsın. [171]

Bu xidmət xeyli dərəcədə şəxsi fəaliyyətlə yerinə yetirilməlidir. Məsihin üsulu belə idi. Onun Özü çox zaman məhz hər bir canla şəxsi ünsiyyət vasitəsilə insanlara xidmət edirdi. Yalnız bir dinləyici ilə söhbətə də böyük əhəmiyyət verirdi. Çox zaman tək bir can vasitəsilə xəbər minlərlə başqalarına çatırdı.

Biz insanların bizim yanımıza gəlməsini gözləməməliyik; özümüz onların olduğu yerlərə getməliyik. Kəlam kafedradan səsləndiyi zaman iş yenicə başlayır. Əgər onlara

çatdırmasaq, insanların böyük bir hissəsi Müjdəni eşitməyəcəkdir.

Ziyafətə dəvət ilk öncə bəşəriyyətin müəllimi və öndəri olacaq Məsihin gəlişindən xəbər verən peyğəmbərliklərə malik olan və Xilaskarın gələcək missiyasına dəlalət edən simvolik ibadətin etibar olunduğu ibrani xalqına verilmişdir. Kahinlər və xalq səmavi çağırışı dinləsəydilər, onlar Müjdə xəbərinin bütün dünyaya yayılmasında Məsihin elçiləri ilə birləşərdilər. Onlara başqaları ilə bölünəcək həqiqət etibar edilmişdir. Onlar bu çağırışı rədd etdikdən sonra o, dilənçilərə, əlillərə, topallara və korlara göndərildi.

Vergiyığanlar və günahkarlar da bu dəvəti qazandılar. Müjdə dəvəti bütpərəstlərə verildiyi zaman da eyni məqsədi daşıyırdı. Müjdə xəbəri əvvəl “yollara” — yəni bu dünyada mühum rol oynayan şəxslərə, xüsusilə müəllimlərə və xalqın liderlərinə ünvanlanır.

Rəbbin elçiləri bunu unutmamalıdırlar. Pastorların, Allahın seçdiyi müəllimlərin Müjdənin ilk olaraq yayılması haqqında sözlərə çox ciddi yanaşmaları gərəkdir. Onlar cəmiyyətin ali təbəqəsinə mənsub olan adamlara xüsusi diqqət və qardaşcasına hörmətlə yanaşmalıdırlar. Biznes

nümayəndələri, cəmiyyətdə yüksək vəzifələr tutan adamlar, yaradıcılıq və elm xadimləri, zəkalı və istedadlı adamların hamısının şüurları bu gün üçün xüsusi əhəmiyyət kəsb edən həqiqətlər üçün hələ dəvət almamışdır, onlar Allahın dəvətini öncə eşitməlidirlər. [172]

Bu dünyanın zənginlərinə də Allahın dəvətini çatdırmaq çox vacibdir. Onlarda göylərin bəxş etdiyi nemətlərə görə məsuliyyət hissi oyatmaq lazımdır. Onlara xatırlatmaq lazımdır ki, dirilərin və ölülərin Hökmdarına malik olduqları sərvətlərin xərclənməsi haqqında hesabat verməli olacaqlar. Zəngin

insan sizin Allah qorxusu və məhəbbət ilə gördüyünüz işə möhtacdır. Çox tez-tez o, başının üstünü almış təhlükəni hiss etmədən, öz dövlətinə güvənir. Onların nəzərini fani olmayan dəyərlərə yönəldib, həqiqi səadətin gücünü dərk etmələrinə kömək etmək lazımdır, o səadətin ki dəvət edib deyir: “Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin və sizə Mən rahatlıq verərəm. Boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin; zira Mən həlim və qəlbdən təvazökaram; və canlarınıza rahatlıq taparsınız. Çünki boyunduruğum asan və yüküm yüngüldür” (Mt. 11: 28-30).

Öz təhsilinə, varına, yaxud da vəzifəsinə görə dünyada yüksək mövqelərə sahib olan adamlara onların xilas olmalarına aid şəxsi sual ilə az-az müraciət edirlər. Məsihçi xidmətçilərin çoxu belə adamlar arasında iş aparmaqdan çəkinirlər. Ancaq bu, belə olmamalıdır. İnsan suda boğulduğu zaman biz onun vəkil, tacir, yaxud hakim olduğuna görə dayanıb, məhv olmasını laqeydliklə müşahidə etmirik. Əgər biz uçuruma tərəf qaçan insan görürüksə, onu yubanmadan, hansı vəzifə sahibi olduğundan asılı olmayaraq, saxlayırıq. Biz heç vaxt insanları onların canları üçün

təhlükəli olan şeylərdən çəkindirməkdə tərəddüd etməməliyik.

Açıqca dünyəvi dəyərlərə üstünlük verən insana da laqeyd olmaq düzgün deyildir. Cəmiyyətdə yüksək mövqelərə sahib olanların çoxusu malik olmadıqları qəlb rahatlığına ehtiyac duyurlar. Onlar şöhrətpərəst vurnuxmadan və ürək boşluğundan yorulublar. Cəmiyyətin ən yüksək təbəqələrində xilas üçün susayan və yanğı çəkənlər vardır. Əgər Rəbbin xidmətçiləri şəxsən, xoş niyyətlərlə və Məsihin yumşaltdığı ürəklə onlara yaxınlaşmış olsaydılar, onların çoxu ümid əldə etmiş olardılar. [173]

Təbliğatın müvəffəqiyyəti nitqlərin elmliliyindən, bəyanat və şəhadətlərin parlaqlığından, sübutların inandırıcı və dərin olmasından deyil, Xəbərin sadəliyindən, onun susamış qəlb üçün anlaşıqlı və aktual olmasından asılıdır. “Mən xilas olmaqdan ötrü nə etməliyəm?” — hər qəlbin ehtiyacı budur.

Minlərlə insan üçün ən sadə və adi sözlər tam inandırıcı ola bilər. Həqiqi fitri istedada malik olan yüksək intellektli insanlar çox vaxt ürəklərinə təskinlik və dəstəyi məhz Allahı sevən və bu məhəbbətdən yalnız ən maraqlı şeydən danışdığı

kimi bəhs edən adamların sadə kəlmələrində tapırlar.

Çox zaman qabaqcadan böyük səy ilə hazırlanmış cümlələr çox zəif təsir bağışlayır. Lakin Allah övladının səmimi inandırma, təbii sadəliklə bağlı olan sözü artıq çoxdan və sanki həmişəlik Məsih və Onun məhəbbəti üçün qapanmış ürəkləri açmaq gücünə malikdir.

Qoy Məsihin işçisi bilsin ki, öz şəxsi qüvvəsilə işləmir. Qoy o, Allahın taxtı önünə Onun xilas etməyə qadir olduğuna iman edərək qapansın. Qoy o, dualarda Allahla mübarizə etsin və sonra da Allahın bəxş etdiyi bütün qabiliyyətlərdən

istifadə edərək çalışsın. Müqəddəs Ruh onun fəal qüvvəsi olacaqdır. Qoruyucu mələklər onun yanında olacaqdırlar ki, onun müraciət etdiyi insanların ürəklərinə təsir edib həqiqət toxumu əksinlər.

Əgər Yerusəlimdə xalq ağsaqqalları və müəllimlər Məsihin onlara gətirdiyi həqiqəti qəbul etsəydilər, onların şəhəri necə bir missioner mərkəzinə çevrilə bilərdi! O zaman üz çevirmiş İsrail xalqı geri dönərdi. Rəbb üçün nəhəng ordu toplana bilərdi. Necə böyük sürətlə o, Şad Xəbəri dünyanın hər ucuna çatdıra bilərdi! Eləcə də indiki gündə yüksək mövqeyə və böyük istedada

malik olan adamlar Məsihin xidmətinə cəlb olunsa idilər, yıxılmışları qaldırmaq, rədd edilmişləri toplamaq, hər yerdə xilas haqqında xəbərləri yaymaq üçün necə nəhəng iş [174] görülə bilərdi. Allahın dəvəti çox tez bir vaxtda hər kəsə çatdırılardı və qonaqlar Rəbbin süfrəsinə toplaşardılar.

Ancaq biz yalnız dahiləri və istedadlıları düşünərək, yoxsulları unutmamalıyıq. Məsih öz elçilərinə eyni zamanda küçə və çəpərləri axtararaq, bu dünyanın yoxsul və məzlumlarının yanına getməyi əmr etmişdi. Böyük şəhərlərin həyət və səkilərində çoxlu sayda ailələr və

ayrı-ayrı insanlar, ola bilsin, yad torpaqda qərib olan adamlar vardır ki, onların imanlılar cəmiyyətinin olmasından heç xəbərləri də yoxdur və öz tənhalıqlarında özlərini Allah tərəfindən unudulmuş hesab edirlər. Onlar xilas olmaq üçün nə edəcəklərini bilmirlər. Onların çoxları günah çirkabında boğulurlar. Çoxları ümidsizliyə qapılıblar. Onlar öz əzabları, ehtiyacları, imansızlıqları və qəmləri içində sarsılıblar. Cürbəcür xəstəliklər onların bədənlərinə və qəlblərinə zərbə endirir. Öz bəlaları içində təskinlik tapmaq istədikləri zaman iblis onları çürüməyə və ölümə aparan ehtiras və tamahla sınağa çəkir. Şeytan onlara ağızda

toza çevrilən Sodom almalarını uzadır. Onlar öz pullarını çörək olmayana və öz səylərini həqiqi səadət gətirməyənə sərf edirlər.

Bu məzlumların simasında biz Məsihin xilas etdiklərini görməliyik. Onun çağırışı bunlara aiddir: “Ey bütün susamışlar, gəlin su başına! Ey pulu olmayanlar, gəlin, alın, yeyin! Gəlin, şərabı və südü pulsuz — parasız alın! Nə üçün pulunuzu çörək olmayan şeylərə, qazandığınızı sizi doydurmayan şeylərə xərcləyirsiniz? Məni diqqətlə dinləyin ki, yaxşı şeylər yeyəsiniz, nemətlərdən dadasınız. Qulaq asın, Mənim yanıma

gəlin, dinləyin ki, sağ qalasınız” (Yeş. 55:1-3).

Qərib və səfillərə, bütün ruhlu qüvvələrini itirmiş bədbəxt insanlara Allah xüsusi diqqət və qayğı ilə yanaşmağı əmr edir. İman məsələlərinə tamamilə biganə görünənlərin çoxları ürəklərinin dərinliyində sülh və qəlb rahatlığı üçün susayıblar. Onlar günah çirkabının lap dibinə düşmüş olsalar da, onların xilas olmalarına ümid vardır. [175]

Məsihin davamçıları Ona bənzəməlidirlər. O, bir yerdən başqasına getdiyi zaman məzlumlara təskinlik verir və xəstələri sağaldırdı.

Bundan sonra isə O onlara Öz Padşahlığının böyük həqiqətlərini açırdı. Onun davamçıları da belə etməlidirlər. Yalnız insanın bədəninin əzablarını yüngülləşdirdikdən sonra siz onun qəlbinin də ehtiyaclarını ödəmək imkanına malik ola bilərsiniz. Siz ona çarmıxa çəkilmiş Xilaskarı göstərərək dahi Təbibin məhəbbətindən danışa bilərsiniz, yalnız O yenidən yaratmaq və bərpa etmək qüdrətinə malikdir.

Yoxsul, ruhdan düşmüş və azmışlara deyin ki, onlar ümidsiz olmamalıdırlar. Onlar yıxılsalar da, düzgün xasiyyət tərbiyə etməsələr də,

Allah onları bərpa edib, Öz xilasının sevincini onlara verməkdən həzz alır.

O, ilk baxışda yararsız görünən və üzərində artıq iblisin öz işini görmüş olduğu xammalı götürüb, onları Öz aşıb-daşan lütfünün obyektinə çevirməyə şaddır. Allah onları itaətsizlərin üzərinə enəcək qəzəbdən xilas edə bildiyinə görə onların sağalmaq və təmizlənmək imkanı vardır. Onların hər biri üçün Rəbbin süfrəsi arxasında yer vardır. O onları se-

vinclə qarşılamaqdan ötrü gözləyir.

Yollar və çəpərlərlə gedənlər öz xüsusiyyətləri olan müxtəlif insanlara

rast gələcəklər, o kəslərə ki, yenə yardıma möhtacdırlar. Bunlar o kəslərdirlər ki, malik olduqları işığa müvafiq yaşayır, Allaha bıldıkləri səviyyədə ibadət edirlər. Ancaq onlar başa düşürlər ki, həm onların özləri Üçün, həm də onları əhatə edən insanlar üçün daha böyük iş görülməlidir. Onlar Allah haqqında daha artıq biliyə malik olmaq istəyirlər, çünki dərk edirlər ki, böyük işığın onlar yalnız ilk şüalarını görməyə nail olublar. Onlar gözləri yaşlı Allaha dua edirlər ki, O onların iman vasitəsilə uzaqdan sezdikləri xeyir-duaları göndərsin. Böyük şəhərlərin insafsızlığı və günahkarlığı içərisində belə adamlara çox rast

gəlmək olar. Onların çoxu sıxıcı şəraitdə yaşadıqları üçün dünya tərəfindən tapılmırlar. Onların çoxusu imanlılar cəmiyyətinə və onun xidmətçilərinə məlum [176] deyildirlər. Lakin onlar yoxsulluq və rəzillik içində yaşayan insanlardan ötrü Rəbbin şahidləridirlər. Onlar, ola bilsin ki, az işığa malikdirlər və təbliğat üçün xüsusi istedadları yoxdur, lakin aclıq, soyuq və rəzillik dünyasında onlar fədakarlıqla başqalarına xidmət edirlər. Qoy çoxçeşidli İlahi lütf evini tikənlər bu fədakar insanları axtarsınlar, onların evlərinə getsinlər və Müqəddəs Ruhun yardımı ilə onların ehtiyaclarını yüngülləşdirsinlər.

Onlarla bərabər Müqəddəs Kitabı tədqiq edin və Müqəddəs Ruhun sizə öyrətdiyi sadəliklə onlarla bir yerdə dua edin. Məsih Öz qullarına onların qəlbləri üçün səmavi çörək olacaq xəbəri verəcəkdir. Qiymətli xeyir-dua qəlbdən-qəlbə, ailədən — ailəyə keçiriləcəkdir.

Məsihin məsəldə səslənən "Gəlməyə məcbur et" nəsihəti bəzən yanlış şərh edilir. Bəziləri onu insanların zorla döndərilməsinə çağırış hesab edirlər. Əslində isə burada dəvətin inadlı və inandırıcı təsirə malik olmasının vacib olduğu qeyd edilir. İnsanları Məsihə gətirmək üçün Müjdə heç zaman güc işlətmir.

O yalnız çağırır: “Ey bütün susamışlar, gəlin su başına!” (Yeş. 55:1). “Ruh və gəlin də deyirlər: “Gəl!” Susayan qoy gəlsin, arzu edən qoy həyat suyunu müftə götürsün” (Vəh. 22:17). Allaha gəlməyə bizi Onun məhəbbətinin və lütfünün gücü vadar edir.

Xilaskar deyir: “Budur, Mən qapı qarşısında durub, onu döyürəm: kim səsimi eşidib qapını açarsa, Mən onun yanına girəcəyəm və Mən onunla, o da Mənimlə axşam yeməyini yeyəcəkdir” (Vəh. 3:20). Saymazlıq, imtina, nifrətlə qarşılandığı zaman O geri dönmür, lakin yorulmadan azmışları axtararaq,

deyir: “Səni necə tərk edim?” (Huş. 11:8). Sərtləşmiş ürək Onun məhəbbətini rədd etsə də, O təkrar-təkrar dönərək, ona daha böyük inadla yalvarır: “Budur, Mən qapı qarşısında durub, onu döyürəm”. Onun qalib gələn məhəbbətinin gücü canları Ona dönməyə vadar edir və onlar Məsihə belə cavab verirlər: “Köməyinlə məni yüksəltdin” (Məz.18:35). [177]

Məsih Özünün qeyb olmuşların axtarışı zamanı rəhbər tutduğu titrək məhəbbətdən Öz elçilərinə də verəcəkdir. “Gəlin” demək azdır. Bu çağırışın ünvanlandığı insanların arasında elələri vardır ki, eşitmə

qabiliyyətini itirdiklərinə görə bu sözlərin mənasına varmırlar. Onlara göstərilən xeyirxahlığı görməkdən ötrü görmə qabiliyyətləri çox zəifdir. Çoxları öz düşkünlüklərinin dərinliyini dərk edirlər. Onlar deyirlər: “Mən yardıma layiq deyiləm, tərk edin məni”. Lakin Məsihin döyüşçüləri geri çəkilməməlidirlər. Səmimi, qızğın məhəbbət və şəfqətlə məsum və taqətsizləri də dəstəkləyə bilərlər. Öz cəsarətinizin, ümidinizin və gücünüzün bir hissəsini onlarla bölüşün. Onların Məsihə dönmələri üçün xeyirxahlıqla təkid edin. “Və tərəddüd edən bəzilərinə qarşı mərhəmətli olun; digərlərini isə

oddan qaparaq xilas edin” (Yəhuda 22,23).

Əgər Allahın qulları iman içində Onunla bərabər olsalar, O onların müjdəsinə güc verəcəkdir. Onlar İlahi məhəbbəti elə təsvir edə biləcək və Onun lütfünün rədd edilməsinin təhlükəli olduğunu elə göstərəcəklər ki, insanlar Müjdəni məcburən qəbul edəcəklər. Əgər insanlar yalnız Allahın onlara tapşırdığı işi yerinə yetirsələr, Məsih möcüzələr yaradacaqdır. Keçən əsrlərdə müşahidə olunan böyük yenidənqurma bizim günlərdə də insan ürəklərində baş verə bilər. Con Bunyan küfr və sərxoşluq

məclislərindən, Con Nyuton isə qul alqı-satqısından çağınlmışdır ki, çarmıxa çəkilmiş Xilaskar haqqında bəyan etsinlər. Buna bənzər bunyanlar və nyutonlar bugünkü insanların içindən də çağırıla bilərlər. İlahi qüvvə ilə birləşmiş insan boruları vasitəsilə bir çox yoxsul, rədd edilmiş adamlar dönəcəklər ki, öz növbələrində Allahın surətini digər adamlarda bərpa etsinlər. Bir çox adamlar var ki, doğru yol ilə getmək üçün imkanı olmamışdır, yanlış yollarla yalnız ona görə gedirdi ki, o zaman yaxşısını tanımırdı, lakin işıq şüaları onlara da çatacaqdır. İlahi Kəlam onlara Məsihin Zəkkaya dediyi söz kimi gələcəkdir: "Bu gün

Mən sənin evində qalmalıyam” (Lk. 19:5); ümidsiz günahkar görünənlərin ürəkləri uşaq qəlbi kimi incə olacaqdır, çünki Məsih Öz lütfkarlığı ilə onları [178] seçmişdi. Çoxları dəhşətli yanılmalardan və günahdan dönərək, hər cür imkanlara və imtiyazlara malik olan, lakin onları lazımınca dəyərləndirməyən adamların yerini tutacaqdırlar. Onlar Onun dəyərli mirası hesab olunacaqlar, Allahın seçilmişləri sayılacaqlar; Məsih Öz Padşahlığını qəbul edən zaman onlar Onun taxtının önündə duracaqlar.

Ancaq “diqqətli olun, Danışanı rədd etməyin” (İbr. 12:25). İsa dedi:

“Dəvət olunanlardan heç biri mənim axşam ziyafətimdən dadmayacaqdır”. Onlar dəvəti rədd etdilər və heç biri yenidən dəvət olunmayacaqdır. Məsihi rədd etməklə, yəhudilər öz ürəklərini bərkitdilər və özlərini şeytanın əsarətinə saldılar; buna görə də onlar Allahın lütfünü qəbul etməyə qadir olmadılar. Həmin hadisəni biz bu gün də görürük. Əgər Allahın məhəbbəti bizim tərəfimizdən layiqincə dəyərləndirilmirsə, əgər o bizim qəlbimizi yumşaldan və itaətli edən rəhbər prinsipə çevrilmirsə, biz həmişəlik ölmüş sayılırıq. Rəbb artıq bizə verdiyi Öz məhəbbətinin təzahüründən çox bir şey verə bilməz. Əgər İsanın məhəbbəti ürəyimizi

təslim etmədisə, başqa heç bir şey artıq bizə kömək edə bilməyəcəkdir.

Siz mərhəmət çağırışından hər dəfə imtina edəndə imansızlığınızı möhkəmlədirsiniz. Siz öz ürəyinizin qapısını Məsihə açmaqdan hər dəfə imtina edəndə Onun səsini eşitmək qabiliyyətini itirirsiniz. Siz mərhəmətin son çağırışına səs vermək şansınızı azaldırsınız. Qoy sizin haqqınızda da qədim İsrail haqqındakı kimi yazılmasın: “Efrayim bütlərindən yapışdı. Burax onu!” (Huş. 4:17).

Qoy Məsih sizdən ötrü də, Yerusəlim üçün ağladığı kimi, yenə də ağlayıb deməsin: “Toyuq öz

cücələrini qanadları altına topladığı kimi, Mən də sənin övladlarını neçə dəfə toplamaq istədim, fəqət siz istəmədiniz! Budur, eviniz sizə tənha buraxılır" (Lk. 13:34, 35).

Biz o dövrdə yaşayırıq ki, bəşər övladı üçün həqiqət, sonuncu lütf çağırışı, son dəvət səslənir. "Get, bütün yolları və çəpərləri axtar" əmri çox tez bir zamandan sonra qəti yerinə yetiriləcəkdir. Məsihin dəvəti [179] hər bir adama veriləcəkdir. Onun elçiləri çağırırlar: "Gəlin, zira hər şey hazırdır". Səma mələkləri hələ də öz səylərini insanların səyləri ilə birləşdirirlər. Müqəddəs Ruh özünün bütün təsirindən istifadə edir

ki, bizi gəlməyə vadar etsin. Məsih gərgin halda və ümidlə izləyir ki, bizim ürəyimizin rəzələri çəkilib, qapısı Ondan ötrü aralansın. Mələklər gözləyirlər ki, yeni bir azmış günahkarın tapılması haqqında xəbəri də göylərə çatdırsınlar. Səma sakinləri gözləyirlər ki, öz arfalarının simlərinə toxunaraq, Quzunun axşam ziyafətinə dəvətini qəbul etmiş yeni bir can üçün sevinc nəğməsi ucaltsınlar. [180]

## Bağışlama dərəcəsi

(Mt. 18:21-35)

Peter Məsihə yaxınlaşaraq sual verdi: “Qardaşım mənə qarşı neçə dəfə günah işlədərsə, mən ona bağışlamalıyam? Yeddi dəfəmi?” Kahinlər üçüncü günaha qədər bağışlamağı vacib bilirdilər. Peter özünü Məsihin təliminə riayət edən adam hesab edərək, bu rəqəmi yeddiyə qədər artırdı. Bu rəqəm kamillik simvolu hesab olunurdu. Məsih isə öyrədirdi ki, bağışlamaq bizi heç zaman bezdirməməlidir.

“Yeddi dəfə yox, — O deyir, — yetmiş kərə yeddi dəfə”.

Davam edərək, O, həqiqi bağışlamağın nəyə əsaslandığını göstərir və eləcə də özündə bağışlamamamaq ruhunu bəsləyən insanın qarşılaşacağı təhlükədən danışır. O onlara padşah və onun padşahlığının işlərini idarə edən qulluqçuları haqqında məsəl söyləyir. Bu xadimlərin bəziləri dövlətə mənsub olan böyük pul məbləğinə nəzarət edirdilər. Padşah növbəti dəfə yoxlama keçirdiyi zaman bu adamların birini onun yanına gətirdilər. Məlum oldu ki, o, hökmdarın xəzinəsinə nəhəng məbləğ

— on min talant borclu qalmışdır. Bu nəhəng borcu qaytarmağa onun imkanı yox idi və mövcud olan adətə görə, padşah borcunu ödəmək üçün onun bütün var-dövlətini satmağı əmr etdi. Ancaq həmin adam qorxudan padşahın ayaqlarına düşüb yalvardı: “Ağa, səbir et! Mən hamısını ödəyəcəyəm”. Ağası qula acıdı, onu buraxdı və borcunu bağışladı. [181]

“Fəqət o qul çölə çıxıb ona yüz dinar borclu olan bir yoldaşını tapdı. Onu yaxaladı və: Borcunu ödə! — deyərək boğazından yapışdı. Yoldaşı yerə qapandı və ona: Səbir et! Sənin borcunu qaytararam, — deyə yalvardı. O isə istəmədi; fəqət gedib

borcunu ödəyincəyə qədər, onu zindana atdı. Həmin adamın yoldaşları baş verən hadisəni gördükləri zaman çox kədərləndilər və gedib ağalarına bütün olanı nəql etdilər. O zaman ağası onu yanına çağırıb dedi: Ey pis qul, bütün o borcu sənə bağışladım, çünki mənə yalvardın. Mən sənə mərhəmət etdiyim kimi, sən də yoldaşına mərhəmət etməli deyildinmi? Və ağası qəzəblənib bütün borcunu ödəyincəyə qədər onu işgəncə verənlərin əlinə verdi".

Bu məsəldə yalnız ümumi təsvir yaratmaqdan ötrü işlədilən, ancaq hekayədən hasil olan ruhlu həqiqətə

bilavasitə aid olmayan bir çox təfsilat vardır. Bunların üzərində dayanmağa dəyməz. Bu məsəl bəzi böyük həqiqətləri təsvir edir ki, biz məhz onların üzərində dayanacağıq.

Bu padşahın bəxş etdiyi borcun bağışlanması Allahın bütün günahları bağışlamasını göstərir. Məsih burada acıyaraq öz qulunun borcunu bağışlayan padşah kimi təsvir edilmişdir. İnsan pozulmuş qanunun lənəti altındadır. O öz-özünü xilas etmək iqtidarında deyildir. Bu səbəbə görə Məsih bizim dünyaya gəlmişdir. O Öz ilahiliyini insan bədəninə bürüdü və saleh və saleh olmayanlardan ötrü Öz həyatını

qurban verdi. Özünü bizim günahlarımızın əvəzinə verdi və Öz müqəddəs qanı ilə alınmış bağışlanmanı hər kəsə müftə verir. “Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var” (Məz. 130:7).

Bizim öz günahkar qardaşlarımıza qarşı şəfqətli olmamızın əsası budur. “Əgər Allah bizi belə sevdisə, biz də biri-birimizi sevməliyik” (1Yəh.4:11). “Müftə aldınız, müftə veriniz”, — deyir Məsih (Mt. 10:8).

Borclu borcunun qaytarılması üçün möhlət istəyib, “Səbr et, mən hamısını ödəyəcəyəm”, — deyə padşaha vəd etdiyi zaman ona qarşı verilmiş hökm ləğv edildi. Borcun

hamısı bağışlandı. Bir müddətdən sonra onu bağışlamış ağasının nümunəsində hərəkət etmək üçün özünə [182] də imkan verildi. Padşahın yanından çölə çıxıb, ona yüz dinar borclu olan bir yoldaşını tapdı. Ancaq bir az əvvəl böyük mərhəmətlə qarşılaşmış bu adam ona borclu olana tamamilə başqa cür yanaşdı. Onun yoldaşı ona özünün bir az əvvəl padşahın qarşısında etdiyi yalvarışlarla müraciət elədi, ancaq bu dəfə yalvarışlar təsirsiz qaldı. Bir az əvvəl özü bağışlanmış insan öz ağası kimi ürəyiyumşaq və acıyan deyildi. Ona göstərilmiş mərhəməti, o öz yoldaşına göstərmədi. O bir az səbir edib gözləməyə razılaşmır. Bu zalım

qul qarşısında yalnız o xırda məbləği görür və yalnız onu qaytarmağı düşünür. O, hüququ olan şeyin hamısını tələb edir və öz tərəfindən ona qarşı mərhəmətlə ləğv edilmiş qərarı həyata keçirir.

Nə qədər adam bu gün də bu ruhda hərəkət edir. Naşükür borclu öz ağasından rəhm dilədiyi zaman öz borcunun miqdarı haqqında düzgün təsəvvürə malik deyildi. Öz köməksizliyini dərk etmirdi. Öz canını qurtarmağa ümid edirdi. O deyir: “Ağa, səbir et! Mən hamısını ödəyəcəyəm”. Buna bənzəyərək, bizim dövrümüzdə də bir çox adamlar öz əməlləri sayəsində Allahın

iltifatını qazanmaq ümidindədirlər. Onlar öz vəziyyətlərinin nə qədər ümidsiz olmasını dərk etmirlər. Qül güman edirdi ki, hər hansı bir yol ilə borcundan canını qurtaracaqdır. Belə adamlar Allahın iltifatını könüllü, təmənnasız olaraq verilən ənam kimi qəbul etmir, onu özlərinin salehliyi sayəsində qazanmaq istəyirlər. Onlar ürəkdən itaət etməyərək, günahkar olduqlarına görə xəcalət çəkmirlər. Bu səbəbdən də onlar digərlərinə münasibətdə bu qədər rəhmsiz və tələbkardırlar. Onların Allahın hüzurunda etdikləri günahlar qardaşlarının onlara qarşı etdikləri haqsızlıqlarla müqayisədə on min talantla yüz dinarın fərqinə (bir

milyonla birin fərqinə) bərabərdir; lakin buna baxmayaraq, onlar yenə də mərhəmətsizdirlər.

Məsəldə padşah zalım qulu yanına çağırıb, ondan soruşur: "Ey pis qul, bütün o borcu sənə bağışladım, çünki mənə yalvardın. Mən sənə mərhəmət etdiyim kimi, sən də yoldaşına mərhəmət etməli deyildinmi? [183] Və ağası qəzəblənib bütün borcunu ödəyincəyə qədər onu işgəncə verənlərin əlinə verdi". "Hər biriniz qardaşlarınıza ürəkdən bağışlamasanız, — deyir İsa, — səmavi Atam da sizə elə edər". Əfv etməkdən imtina edən şəxs özünün bağışlanmasına əngəl olur.

Lakin bu məsəli birmənalı şərh etmək düzgün olmazdı. Allahın bizi bağışlaması bizim Ona qarşı itaətli olmağımızı ləğv etmir. Beləcə də qardaşlarımıza münasibətdə olan mərhəmət ruhu onların bizə olan borclarını ödəməkdən imtina etmələrinə icazə vermir. Şagirdlərinə öyüd verdiyi duasında Məsih deyir: “Və bizə borclu olanlara bağışladığımız kimi, bizim borclarımızı da bizə bağışla” (Mt. 6:12). Bununla O demək istəmir ki, günahlarımızın bağışlanması üçün biz digərlərindən bizə qarşı olan vəzifələrini ədalətlə icra etmələrini tələb etməməliyik. Əgər onlar bizimlə hesablaşa bilmirlərsə, ola bilsin ki,

hətta pis işlədiklərinə görə yenə də onları həbs etdirmək, sıxışdırmaq, yaxud da kobud rəftar etmək lazım deyildir; ancaq məsəl bizə tövsiyə etmir ki, biz onları qayğısızlığa və avaralığa həvəsləndirməliyik. Allah buyurmuşdur: "İşləmək istəməyən, yemək də yeməsin" (2 Sal. 3:10). Rəbb tələb etmir ki, kimsə öz ağır zəhmətilə digərlərində tənbəllik təşviq etsin. Çoxlarının kasıb və yoxsul olmalarının səbəbi, onların kifayət qədər işgüzar olmadıqlarında və vaxtlarını boş keçirməklərindədir. Belələrinə yardım etməyin xeyri, cəvahirləri deşilmiş kisəyə yığmaqdan çox deyildir. Ancaq bəzən, yoxsulluq insandan asılı

olmayan səbəblərdən baş verir və bu zaman biz bu zavallılara qarşı yumşaqlıq və mərhəmət göstərməliyik. Biz başqalarına özümüz onların vəziyyətində olduğumuz zaman arzuladığımız münasibəti göstərməliyik.

Həvari Pavel vasitəsilə Müqəddəs Ruh bizə deyir: “Beləliklə, əgər Məsihdə olmaqdan cəsarət, Onun məhəbbətindən təsəlli almışsınızsa, əgər ruha şəriksinizsə, şəfqət və mərhəmətiniz varsa, mənim sevincimi tam edin: eyni fikrə, eyni məhəbbətə malik olun, həmrəy və həmfikir olun; rəqabət və ya şöhrətpərəstliklə heç bir şey etməyin;

fəqət [184] təvazökarlıqla biri-birinizi özünüzdən yuxarı sayın, hər kəs yalnız öz mənfəətini deyil, digərlərinin də mənfəətini güdsün. Məsih İsada olan fikir sizin aranızda da olsun”(Flp.2:13).

Lakin günaha laqeyd və qeyri-ciddi yanaşmaq olmaz. Rəbb bizi qardaşlarımızın yola gəlmələrinə təsir etməyə çağırır. O deyir: “Əgər qardaşın sənə qarşı günah işlədərsə, onu məzəmmət et” (Lk. 17:3). Günahı öz adı ilə çağırmaq lazımdır və onu günahkara aydın göstərmək vacibdir.

Pavel özünün Timoteyə verdiyi nəsihətində Müqəddəs Ruhdan ilham

alaraq deyir: "Allahın sözünü təbliğ et, vaxtlı, ya vaxtsız hazır ol, tam səbirlilik və təmkin ilə ifşa et, məzəmmətlə, təşviq et" (2 Tim. 4:2). Titusa isə yazır: "Çoxlu intizamsız, boşboğaz və yalançı vardır... Bu səbəbdən onları sərt şəkildə məzəmmətlə ki, imanda sağlam olsunlar" (Tit. 1:10-13).

"Əgər qardaşın sənə qarşı günah işlədərsə, — deyir Məsih, — get onu təklikdə ifşa et; səni dinlərsə, qardaşını qazandın. Fəqət səni dinləməzsə, yanına bir və ya iki kişi daha al ki, iki və ya üç şahidin ağzı ilə sənin hər sözün təsdiq olunsun. Və əgər onları dinləmək istəməzsə,

cəmiyyətdə söylə. Və əgər cəmiyyəti də dinləmək istəməzsə, qoy o sənin üçün bir bütpərəst və vergiyığan kimi olsun" (Mt. 18:15-17).

Rəbb bizi öyrədir ki, məsihçilər arasında baş verən anlaşılmazlıqlar imanlılar cəmiyyətinin daxilində həll edilməlidir. Onları Allahdan qorxmayanların qarşısında açmaq düzgün deyildir. Əgər məsihçi öz din qardaşı tərəfindən incidilibsə, o, imansızlara, onların məhkəməsinə müraciət etməməlidir. Qoy o, Məsihin bu nəsihətinə uyğun şəkildə hərəkət etsin. Öz qisasını almağa can atmaq əvəzinə, qoy o, qardaşını xilas etməyə cəhd eləsin. Allah Onu

sevənlərin və Ona itaət edənlərin maraqlarını himayə edəcəkdir, buna görə də biz cəsarətlə öz çətinliklərimizi Ona etibar edə bilərik, çünki O, ədalətlə hökm edir.

Bəzən belə də olur ki, bir adam təkrar-təkrar eyni hərəkət və qüsurlara [185] yol verir və hər dəfə öz günahını etiraf etməsinə baxmayaraq, incimiş insan yorulur və qərara gəlir ki, kifayət qədər bağışlayıb. Ancaq Xilaskar bizə aydın şəkildə deyir ki, günah etmiş adamla necə rəftar etmək lazımdır: "Əgər qardaşın sənə qarşı günah işlədərsə, onu məzəmmət et və əgər tövbə edərsə, onu bağışla" (Lk. 17:3). Sizin

etibarınıza layiq olmayan kimi, ondan çəkinməyin. “Özünüzə fikir verin ki, imtahan olunmayasınız” (Qal. 6:1).

Sizin qardaşınız büdrəmişdirsə, siz onu bağışlamalısınız. O sizin yanınıza öz günahını etiraf etmək üçün gəldiyi zaman siz onun kifayət qədər itaət edib öz təqsirini tam dərk etdiyinə şübhə etməməlisiniz. Məgər siz onun ürəyini Görən kimi mühakimə edə bilərsinizmi? İlahi Kəlam deyir: “Əgər tövbə edərsə, onu bağışla və əgər gündə yeddi dəfə sənə qarşı günah işlədərsə və gündə yeddi dəfə qayıdıb sənə: “tövbə edirəm” deyərsə, onu bağışla” (Lk. 17:3, 4). Yalnız yeddi dəfə yox, yetmiş kərə

yeddi dəfə — Allah sizi bağışladığı qədər çox bağışlamalısınız.

Biz özümüz hər şeyimizlə Allahın bəxş etdiyi lütfə borcluyuq. Əhdin lütfü bizim övladlığımızı təsdiq edir. Xilaskarda verilən lütf isə bizim xilasımızı, bərpamızı və Məsihin həmvarislərinin arasına daxil olmağımızı yerinə yetirir. Qoy bu mərhəmətli lütfkarlıq digərlərinə də açılsın.

Büdrəyənləri ruhdan düşməyə qoymayın. İmkan verməyin ki, sizi fərisey daşürəkliliyi tutsun və siz qardaşınıza əzab verəsiniz. İnsafsız istehzanın sizin ürəyinizdə, yaxud şüurunuzda yer tutmasına imkan

verməyin. Qoy sizin səsinizdə nifrət kölgəsi olmasın. Əgər siz öz nitqinizi tarazlaya bilməsəniz, öz hərəkətlərinizlə günahkara qarşı münasibətinizdə laqeydlik göstərsəniz, yaxud da ona şübhə ilə və etibar etməyərək yanaşsanız, bu zaman siz xilasa möhtac olan bir qəlbi həmişəlik qeyb etmiş olarsınız. Büdrəyən üçün Böyük Qardaşın ürəyinə bənzər ürəkli qardaş gərəkdir, şəfqətlə dolu olan, buna görə də günahkarın ürəyinə yol aça bilən qardaş. Ona güclü Əllərin şəfqət və dəstəyini hiss [186] etdirin və dua etməyə dəvət edən pıçıltını eşitdirin. Allah sizin münasibətlərinizi zənginləşdirə bilər. Dua bizi bir-

birimizlə və Allahla birləşdirir. Dua İsanı köməyimizə çağırır və zəifləmiş, cəsarətsiz qəlbə dünya ilə, öz bədəni və iblislə mübarizə etmək üçün yeni güc verir. Dua şeytanın hücumlarını dəf etməyə kömək edir.

Biz öz nəzərimizi insani qüsurlardan çəkib İsaya yönəltdiyimiz zaman Allah bizim xasiyyətimizdə yeniləşmə aparır. Məsihin Ruhu ürəyimizdə iş apararaq, onu Öz surətinə uyğun şəklə salır. Qoy sizin səyləriniz İsanın yüksəldilməsinə və izzətləndirilməsinə həsr edilsin. Qoy sizin nəzərləriniz “dünyanın günahını ortadan qaldıran Allahın Quzusuna”

yönəlsin (Yəh. 1:29). Büdrəyənin xilasına yönəlmiş səylər göstərdiyiniz zaman unutmayın ki, “günahkarı yanlış yolundan döndərən, onun canını ölümdən qurtarır və bir çox günahın üstünü örtür’’ (Yaq. 5:20).

“Fəqət siz insanları bağışlamasanız, Atanız da sizin təqsirlərinizi bağışlamaz” (Mt.6:15). Heç nə kinliliyə bəraət qazandıra bilməz. Başqalarına qarşı münasibətində mərhəmətli olmayan insan, bununla göstərir ki, onun özünün Allahın hər şeyi bağışlayan lütfündə payı yoxdur. Allahın bağışlaması sayəsində günahkarın ürəyi Əbədi Məhəbbətin böyük

ürəyinə daha çox yaxınlaşır. İlahi şəfqət axını onun qəlbinə, onun vasitəsilə isə digərlərinin qəlblərinə daxil olur. Özünün dəyərli, şəxsi həyatında izhar etdiyi həlimlik və mərhəmət Onun Lütfünü bölüşdürənlərin həyatlarını bəzəyəcək və əksinə, "lakin kimdə Məsihin Ruhu yox isə, o adam Məsihə aid deyildir" (Rom. 8:9). O, özünü Allaha yad edir, özünü Ondan əbədi ayrılığa məhkum edir.

Ola bilsin ki, bu adam artıq nə vaxtsa Allah tərəfindən əfv edilmişdir, lakin indi bunu unudaraq və rəhmsizlik göstərərək, əslində Allahın hər şeyi bağışlayan

məhəbbətini rədd edir. O, Allahdan ayrılaraq, yenidən əfv olunduqdan əvvəlki vəziyyətə düşür. Öz tövbəsindən də imtina edir və heç tövbə etməmiş kimi, onun günahları üzərində qalır. Məsəlin [187] böyük ibrəti ondan ibarətdir ki, o, Allahın mərhəməti ilə insanın qəddarlığı arasındakı təzadı göstərir; Allahın mərhəməti bizim bağışlamaq qabiliyyətimizin ölçüsü olmalıdır. “Mən sənə mərhəmət etdiyim kimi, sən də yoldaşına mərhəmət etməli deyildinmi?”

Biz bağışladığımıza görə yox, bağışladığımız zaman əfv edilirik. Həqiqi əfv etməyin əsasında layiq

olmadığımız İlahi məhəbbət durur, bizim başqalarına münasibətimiz isə aydın şəkildə bu məhəbbəti özümüzünkü edib-etmədiyimizi göstərir. Məhz bu haqda Məsih deyir: “Nə hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsımz; və hansı ölçü ilə ölçərsinizsə, o ölçü ilə də sizə ölçüləcəkdir (Mt. 7:2). [188]

## Fəlakətli nailiyyət

(Lk. 12:13-21)

Məsih Öz şagirdlərinə öyüd verdiyi zaman, həvarilərdən əlavə Onun ətrafına digər adamlar da toplaşırdılar. Bir dəfə O, şagirdlərinə yaxın zamanlarda onları nə gözlədiyi haqqında danışırdı. Onlara etibar edilmiş həqiqətləri onlar bəyan etməli idilər və bu zaman dünyanın güclüləri ilə münaqişəyə cəlb ediləcəkdirlər. Onun adını daşıdıqlarına görə hakimlərin, kübarların və padşahların hüzurunda dayanacaqdırlar. O onlara

heç kimin müqavimət göstərə bilməyəcəyi müdriklik verəcəyini vəd etdi. Onun Öz kəlmələri və hiyləgər əleyhidarlarını çaşqınlığa salan və adamların ürəklərini oyadan məharəti Müqəddəs Ruh vasitəsilə Öz davamçılarına bəxş edəcəyini vəd etdiyi bu inandırma qüvvəsi haqqında şəhadət edir.

Dinləyicilərin çoxu isə səma lütfünü yalnız öz şəxsi mənafelərini ödəmək üçün əldə etmək istəyirdilər. Onlar görürdülər ki, həqiqəti belə aydın işıqda təsvir edən Məsih nə böyük qüvvəyə malikdir. Onlar Onun hökmdarlar və hakimlərlə danışmaq üçün bəxş edəcəyi müdriklik

haqqında eşidirdilər. Bəlkə O onlara da dünyəvi məqsədlərinə çatmaqdan ötrü güc verəcəkdir.

“Xalqın içindən biri Ona dedi: Müəllim! Qardaşıma de ki, mirası mənimlə bölsün”. Musanın vasitəsilə Allah mülkiyyətin verilməsi haqqında biliklər verdi. Böyük oğul ata mülkündən bölünən payın ikiqat hissəsinə [189] sahib olmalı idi (Qan.tək. 21:17), digər qardaşlarına isə eyni pay düşürdü. Bu adam mirasın bölünməsi vaxtı özünü aldanmış hesab edirdi. Onun hesab etdiyi kimi, hüququ çatdığı şeylərə öz səyləri ilə sahib ola bilmədiyi zaman güman etdi ki, əgər Məsih ona yardım

etsə, istədiyinə mütləq nail olacaqdır. O, Məsihin həyəcanlandırıcı müraciətlərini və Onun qanunşünasları və fəriseyləri ciddi surətdə ifşa etməsini eşitmişdi. Bu gücə malik olan sözlər onun qardaşına yönəlmiş olsa idi, o bu incidilmiş adamın miras payını kəsməyə cəsarət etməzdi.

Məsihin Öz şagirdlərinə verdiyi bu təntənəli nəsihətləri dinlədiyi zaman bu adam gözlənilmədən öz eqoist istəklərini ifşa edir. O, Rəbbin yalnız onun dünyəvi işlərində müvəffəqiyyət verə biləcək qabiliyyətini dəyərləndirə bilmişdi; Məsihin öyüdlərindəki mənəvi

həqiqətlər isə onun nə şüuruna, nə də ürəyinə toxunmuşdu. O, bütövlüklə mirasın bölüşdürülməsilə məşğul idi. İzzət Padşahı olan İsa, o Kəs ki zəngin olduğu halda, bizdən ötrü yoxsul olmuşdur, həmin anda İlahi məhəbbətin sərvətlərini ona açırdı. Müqəddəs Ruh onu “çürüməyən, ləkəsiz, solmayan” mirasın varisi olmağa dəvət edirdi (1 Pet. 1:4). O, Məsihin qüdrətinin şahidi idi. İndi dahi Müəllimlə söhbət etmək, Ona öz ürəyinin ən gizli istəyini bildirmək imkanına malik idi. Lakin Bunyanın alleqoriyasındakı dırmıqlı adam kimi, onun diqqəti torpağa yönəlmişdi. O öz başı üstündəki tacı görmürdü: Sehrbaz Şimon kimi (Həv. iş. 8:24),

o, İlahi ənamı yalnız dünyəvi məqsədlərinə çatmaq üçün vasitə kimi dəyərləndirirdi.

Xilaskarın yer üzündəki missiyası sürətlə öz sonuna yaxınlaşırdı. Etməli olduğu işini yer üzərində Öz lütfünün padşahlığının qurulmasını başa çatdırmaq üçün yalnız bir neçə ay qalırdı. Buna baxmayaraq, insan acgözlüyü Məsihi Onun böyük işindən yayındıraraq bir parça torpaq üstündəki mübahisəyə cəlb edirdi. Ancaq İsa Öz missiyasını yerinə yetirməkdən yayınmamalı idi. O cavab verdi: "Kim Məni sizə hakimlik etməyə, yaxud malınızı bölməyə təyin etdi?" [190]

İsa, əlbəttə ki, bu adama onun qardaşı ilə mübahisəsində kimin haqlı olduğunu söyləyə bilərdi. Ancaq hər iki qardaş acgöz idi və Məsih mübahisəni uduzana əslində aşağıdakını söylədi: “Belə mübahisələri araşdırmaq Mənim işim deyildir”. O, dünyaya başqa məqsədlə gəlmişdi: insanlara Müjdəni çatdırmaqla onları əbədi dəyərləri dərk etməyə sövq etmək üçün.

Məsihin bu məsələyə münasibəti Onun adı naminə xidmət edənlərin hamısına örnəkdir. Şagirdlərinin on ikisini də xidmət etmək üçün yola saldığı zaman dedi: “Və gedərkən: “Göylərin Padşahlığı yaxındır”, deyə

təbliğ edin. Xəstələri sağaldın, ölüləri dirildin, cüzamlıları təmiz edin, cinləri çıxarın; müftə aldınız, müftə veriniz” (Mt. 10:7, 8). Onlar insanların əvəzinə onların dünyəvi işlərini həll etməli deyildilər. Onların vəzifəsi — insanları Allahla barışmağın vacib olduğuna inandırmaq idi. Onların bəşəriyyətə xeyir-dua gətirmələri məhz bu işdə gizlənmişdir. Bəşəriyyətin günah və iztirablardan azad olmasının yeganə yolu — Məsihdir. Yalnız Onun Lütfünün Müjdəsi cəmiyyət üçün lənətə çevrilmiş qüsurları müalicə edə bilər. Həm varlıların kasıblara qarşı ədalətsiz olmaları, həm kasıbların varlılara nifrət etmələri eyni kökə —

eqoizm və tamahkarlığa bağlıdır. Bunları yalnız Məsihə təslim olaraq aradan qaldırmaq olar. İnsana eqoist ürək əvəzinə yeni məhəbbət ürəyini yalnız O verə bilər. Qoy Məsihin xidmətçiləri Müjdəni göylərdən enmiş Ruhun qüdrətilə təbliğ etsinlər və insanların xeyri üçün Onun kimi işləsinlər. Bu zaman bəşəriyyətin xeyir-dua almasının və yüksəlməsinin elə nəticələri aşkar olacaq ki, onları insanın səyləri ilə əldə etmək qətiyyən mümkün deyildir.

Rəbbimiz həm bu adamın Məsihə müraciət etdiyi, həm də digərlərinin qarşısında duran problemin kökünə işarə etdi: "Diqqətli olun,

tamahkarlıqdan qaçının, zira insanın həyatı onda olan şeylərin çoxluğundan asılı deyildir”.

“Və onlara bir məsəl söylədi: bir nəfər zəngin adamın torpağı bol [191] məhsul verdi və o özü-özlüyündə düşünürdü: “Nə edim? Məhsulumu qoymağa yerim yoxdur”. Və dedi: “Belə edərəm: anbarlarımı söküb daha böyüklərini tikərəm və bütün məhsulu və bütün dövlətimi oraya toplaram. Və canıma deyərəm: Ey canım! Çox illər üçün toplanmış dövlətin var: rahatlıq çək; ye, iç, kef et”. Fəqət Allah ona dedi: “Divanə! Elə bu axşam sənin canını tələb edəcəklər; sənin hazırladığın şeylər

bəs kimin olacaq?" Allah qarşısında zəngin olmaq əvəzinə, özü üçün dövlət toplayan hər bir adamın aqibəti belə olur".

Zəngin divanə haqqındakı məsəllə Məsih, bütövlüklə dünyəvi şeylər üzərində fikrini cəmləşdirənlərin ağılsızlığını göstərir. Bu adam Allahdan hər şey almışdır. Günəşə onun torpağı üzərində də parlamağa icazə verilmişdir; çünki onun şüaları həm salehlərin, həm də günahkarların üzərinə düşür. Göy yağmurları da həm yaxşıların, həm də pislərin üstünə yağırdı. Rəbb onun məhsulunu bitirdi və tarlalar çoxlu məhsul gətirdi. Zəngin adam bu qədər

məhsulu hara yığacağını bilməyərək, hətta çaş-baş qalmışdı. Onun anbarları artıq dolu idi və yeni məhsulu yığmağa yer yox idi. Ancaq o, bütün bu nemətləri göndərən Allahı düşünmürdü. O dərk etmirdi ki, əslində Allah onu Öz nemətlərinin sərəncamçısı etmişdir ki, ehtiyacı olanlara yardım edə bilsin. O, xeyriyyəçilik işində Allahın xidmətçisi olmaq imkanı əldə etmişdi, lakin yalnız öz firavanlığı haqqında fikirləşirdi.

Dünyada nə qədər kasıb, yetim, dul, iztirab çəkən, məzlumlar vardır — onların hamısı onun qayğı və diqqət obyektinə çevrilə bilərdilər;

ona bəxş edilmiş varı xeyirxah məqsədlər üçün istifadə etməkdən ötrü çox vasitələr vardı. O asanlıqla artıq qalan məhsuldan azad ola bilərdi, bir çox aclar doyardı, çılpaqlar geyinərdi, bir çox ürəklər sevinclə dolardılar və izzət nəğməsi göylərə ucalardı. Rəbb ehtiyaclıların dualarını eşidirdi və Öz mərhəmətinə görə kasıbın möhtac olduğunu hazırlayırdı. Məhsulun bərəkətini çoxlarının ehtiyaclarını ödəmək üçün nəzərdə tutmuşdu. Lakin zəngin ehtiyacı olanların yalvarışlarına ürəyini qapayaraq, [192] öz qullarına dedi: “Belə edərəm: anbarlarımı söküb daha böyüklərini tikərəm və bütün məhsulu və bütün dövlətimi

oraya toplaram. Və canıma deyərəm: Ey canım! Çox illər üçün toplanmış dövlətin var: rahatlıq çək; ye, iç, kef et".

Bu adamın arzu və məqsədləri sırf heyvani istəklərdən üstün deyildir. O elə yaşayırdı ki, sanki nə Allah, nə göylər, nə də gələcək həyat vardır; sanki malik olduğu hər şey yalnız ona məxsusdur və nə Allaha, nə də insanlara heç nə verməli deyil. Belə zəngin haqqında zəbur oxuyan deyir: "Axmaqlar ürəyində "Allah yoxdur!" deyə düşünürlər" (Məz. 14:1).

Bu adam yalnız özü üçün yaşayır, həyatını öz faydası üçün planlaşdırırdı. O görür ki, gələcəyi

tam təmin edilmişdir və ona, güman etdiyi kimi, daha heç nə etmək gərək deyildir — yalnız çəkdiyi zəhmətin məhsulu ilə həzz almaq qalmışdır. Özünü başqalarından bəxtəvər və yüksək sayır, var-dövlətini öz ağıllı təsərrüfatçılığının nəticəsi kimi dəyərləndirir. Öz həmvətənləri arasında da bacarıqlı, təcrübəli insan və zəngin vətəndaş kimi hörmət qazanmışdır. Çünki "uğur qazananda tərifələnir" (Məz. 49:18).

Ancaq "bu dünyanın müdrikliyi Allah qarşısında ağılsızlıqdır"

(1 Kor. 3:19). Zəngin adam gələcək ləzzətləri xəyalən duyduğu zaman Rəbbin başqa niyyətləri vardı.

Etibarsız təsərrüfatçıya xəbərdarlıq verilir: "Divanə! Elə bu axşam sənin canını tələb edəcəklər". Bu tələbi pulla ödəmək mümkün deyildir. Onun bu qədər dəyərləndirdiyi vardövlətlə möhlət almaq olmazdı. Bir anda öz gələcəyini təmin etmək naminə yığdığı var-dövlət ondan ötrü bütün dəyərini itirir. "Sənin hazırladığın şeylər bəs kimin olacaq?" Geniş tarlaları və dolmuş anbarları ondan uzaqlaşacaqdır. "həqiqətən, o boş yerə çarpışır, var-dövlət yığarı kimə qalacağını bilmir" (Məz.39:6).

İndiki anda ona həqiqi xeyri ola biləcək yeganə bir şeyi, o elə də əldə etmədi. Özü ilə məşğul olaraq, onun

vasitəsilə yaxınlarına da veriləcək [193] İlahi məhəbbəti rədd etdi. Bununla da o, həyatın özünü rədd etdi. Axı Allah məhəbbətdir və yalnız məhəbbət həyatdır. Bu adam dünyəvi olanı ruhlu olandan üstün tutdu, deməli, o, məhv olmalıdır, necə ki bütün dünyəvi olanlar həmişəlik məhv olurlar. “İnsan dəyərli olsa da, anlamır, həlak olan heyvana oxşayır” (Məz. 49:20).

“Allah qarşısında zəngin olmaq əvəzinə, özü üçün dövlət toplayan hər bir adamın aqibəti belə olur”. Bu, hər bir dövrə aiddir. Öz istəklərinizi ödəmək üçün planlar qura bilərsiniz, var-dövlət toplaya bilərsiniz, uca və

ecazkar malikanələr tikərək, qədim Babilin inşaatçılarına bənzəyə bilərsiniz; lakin elə uca divar, yaxud elə möhkəm darvaza qura bilməzsiniz ki, onlar sizi mühakimə elçilərindən qoruya bilsin. “Belşassar padşah böyük bir ziyafət qurdu” və “şərab içərək qızıl, gümüş, tunc, dəmir, ağac və daş allahlara həmd etdilər” (Dan. 5:3, 4). Ancaq Görünməz olanın əli onun divarı üzərində həlledici sözləri yazdı və düşmən ordusunun ayaq səsləri sarayı önündə eşidildi. “Həmin gecə Babil padşahı Belşassar öldürüldü” (Dan. 5:30).

Özü üçün yaşamaq — ölmək deməkdir. Tamahkarlıq, yalnız özünə

firavanlıq arzulamaq canı həyatdan qoparır. Toplamaq, hər şeyi özünə çəkmək — iblisin ruhudur. Məsihin Ruhu isə — vermək, başqalarının xeyri üçün özünü qurban verməkdir. “Şahidlik isə budur ki, Allah bizə əbədi həyat vermişdir və bu həyat Onun Oğlundadır. Oğula malik olanın həyatı vardır. Allahın Oğluna malik olmayanın isə həyatı yoxdur” (1 Yəh. 5:11, 12).

Məhz buna görə O deyir: “Diqqətli olun, tamahkarlıqdan qaçının, zira insanın həyatı onda olan şeylərin çoxluğundan asılı deyildir”. [194]

## “Aramıza böyük bir uçurum qoyulmuşdur”

(Lk. 16:19-31)

Zəngin adam və yoxsul Lazar haqqındakı məsəldə Məsih onu demək istəyir ki, insan artıq bu həyatda ikən öz əbədi aqibətini həll edir. Yerdəki həyatın sınaqları içində Allahın lütfü hər bir cana təklif edilir. Ancaq əgər insan öz imkanlarım ehtiraslarını ödəmək üçün sərf edirsə, o özünü əbədi həyatdan ayırır. Heç bir yeni sınaq vaxtı ona daha verilməyəcəkdir. Öz şəxsi seçimləri

ilə, insanlar özləri və Allah arasında keçilməz uçurum yaradırlar.

Bu məsəl özünün Allahdan asılılığını hiss etməyən zəngin ilə, Allahı özünə yeganə istinadgah eləmiş yoxsul arasındakı ziddiyyəti göstərir. Məsih bəyan edir ki, zaman gələcək insanların bu iki təbəqəsi yerlərini dəyişərək, indiki yerlərinin əksində olacaqlar. Dünya nemətlərilə kasıb olan, lakin iztirablarında səbir edərək Allaha qısılanlar bir zaman dünyada uca mövqe tutan, ancaq həyatını Allaha həsr etməyənlərdən üstün tutulacaqlar.

“Bir nəfər, — Məsih deyir, — çox zəngin idi, mor və incə kətandan

paltar geyir və hər gün təmtəraqla kef edərdi. Lazar adlı bir yoxsul var idi. Onun bədənini yara bürümüşdü və o, zəngin adamın qapısı ağzında uzanmışdı. Zəngin adamın süfrəsindən tökülən qırıntılarla qarnını doydurmaq arzusunda idi". [195]

Bu zəngin adam özünün Allahı tanımadığını və insanlara qarşı laqeyd olduğunu açıq-açığına bəyan edən günahkar hakim sinfinə mənsub deyildi. Bu zəngin özünü İbrahimin oğlu hesab edirdi. O, məsəldə təsvir edilmiş yoxsul ilə kobud davranmırdı, onu çirkin görkəminə görə qovmurdu. Əgər bu yazıq, bədbəxt, heybət

doğuran insan darvazadan içəri daxil olan zəngini gördüyü zaman rahat qala bilirdisə, zəngin də onun mövcudluğuna dözürdü. Ancaq öz iztirab çəkən qardaşının ehtiyaclarına o biganə qalırdı.

O dövrdə xəstələrə xidmət göstərən xəstəxanalar mövcud deyildi. İztirab çəkənlər və ehtiyacı olanlar Rəbbin var-dövlət bəxş etdiyi adamların diqqətini özlərinə cəlb etmək istəyirdilər ki, onlardan bir qədər kömək və şəfqət ala bilsinlər. Zəngin ilə yoxsul da bu vəziyyətdə idilər. Lazarın yardıma çox ehtiyacı var idi: onun nə dostları, nə evi, nə pulu, nə də yeməyi var idi. O hər gün

eyni ağır vəziyyətdə qaldığı halda, zəngin əsilzadə özünün istədiyi arzusunu ödəmək imkanına malik idi. Öz yaxınının iztirablarını yüngülləşdirmək üçün hər cür imkana malik olaraq, o, yalnız özü üçün yaşayırdı, necə ki, bizim günlərdə çoxları yaşayırlar.

Bu gün də bizim yanımızda çoxlu ac, yoxsul və evsiz adamlar vardırlar. Öz vasitələrimizlə bu ehtiyacı olanlarla və iztirab çəkənlərlə bölüşməməyimiz üzərimizə nə vaxtsa rastlaşmaq istəmədiyimiz təqsir yükü qoyur. Hər cür tamahkarlıq bütpərəstlik kimi mühakimə edilir. Öz ehtiraslarına və cismani istəklərinə

xidmət etmək Allah qarşısında təhqiramizdir.

Allah zəngin adamı Öz vasaitlərinin sərəncamçısı təyin etmişdir və Allahın fikrincə, onun vəzifələrinə məhz ağır vəziyyətə düşmüş adamlara kömək etmək daxil idi. Bizə deyilmişdir: “Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla, var gücünüzlə sevin” (Qan.tək. 6:5) və “qonşunuzu özünüz kimi sevin” (Lev. 19:18). Zəngin adam ibrani idi və təbii ki, Allahın bu əmrlərini bilirdi. Lakin o unutmuşdu ki, ona etibar edilmiş [196] vəsait və imkanların sərf edilməsinə görə məsuliyyət daşıyır. Ona bolluqla

Rəbbin xeyir-duası verilmişdi, ancaq o onlardan eqoistcəsinə, Yaradanını deyil, özünü izzətləndirmək üçün istifadə elədi. Qazancın artması ilə onun malik olduğu var-dövlətdən bəşəriyyətin xeyri naminə istifadə etməsinin məsuliyyəti də böyüyürdü. Rəbb belə buyurmuşdu, ancaq zəngin özünün Allah qarşısındakı vəzifələrini heç düşünmürdü. O, faizlə borc pul verirdi, lakin Allahın onun sərəncamına verdiyinin bir qismini də Ona qaytarmırdı. Ona bilik və istedad bəxş olunmuşdu, ancaq o onları artırmaq üçün səy göstərmirdi. Özünün Allah qarşısındakı məsuliyyətini və Ona hesabat verəcəyini unudaraq, bütün qüvvəsini

öz ehtiraslarını ödəmək üçün sərf edirdi. Onu əhatə edən hər şey: məşğuliyyət və əyləncə dairəsi, yoldaşlarının tərif və yaltaqlıqları eqoist təbiətinə həzz vermək üçün idi. Öz yoldaşları ilə ünsiyyətə o qədər cəlb edilmişdi ki, Allahın mərhəmət işində Onunla əməkdaşlıq etmək vəzifəsini tamamilə unutmuşdu. Allahı dərk edib, öz həyatında Onu rəhbər tutmaq imkanına malik idi, lakin onun seçdiyi cəmiyyətdə hökm sürən həzlərin dalınca qaçmaq onun bütün vaxtını almışdı və o, əbədi Allahı unutmuşdu.

Bu iki adamın vəziyyətlərinin dəyişdiyi vaxt gəlib çatdı. Uzun illər

boyunca əziyyət çəkən, lakin bütün iztirabları səbirlə və deyinmədən keçirən yoxsul öldü və torpağa tapşırıldı. Onun üstündə ağlayan yox idi; ancaq iztirablar içində öz mətinliyi ilə o, Məsih haqqında şəhadət edirdi, o, iman sınağından çıxmışdır və ölümündən sonra mələklər tərəfindən İbrahimin qucağına götürülmüş təsvir edilibdir.

Lazar burada Məsihə iman edən hər bir yoxsulu təcəssüm etdirir. Şeypur çalınan zaman və qəbirlərdə olanların hamısı Məsihin səsini eşidərək dirilən zaman onlar öz mükafatlarını alacaqdırlar; çünki

onların Allaha olan imanları yalnız nəzəriyyə yox, canlı həqiqət idi.

“Zəngin adam da öldü və dəfn edildi. Ölülər aləmində əzab çəkdiyi zaman gözlərini qaldırıb, uzaqda İbrahimi və qucağında olan Lazarı [197] gördü və bağıraraq dedi: Ey İbrahim ata! Mənə yazığın gəlsin, Lazarı göndər barmağının ucunu suda islatsın və mənim dilimi sərinlətsin; zira mən bu alovda əzab çəkirəm”.

Bu məsəldə Məsih insanlarla onların öz təsəvvürləri əsasında, malik olduqları təsvirlərdən istifadə edərək söhbət edir. Onların çoxu hesab edirdi ki, ölüm və dirilmə arasında insan şüurlu vəziyyətdə olur.

Xilaskar bu mövhumatları bilirdi və buna görə də Öz məsəlində onlardan istifadə etdi ki, insanlara mühüm həqiqətləri açsın. Sanki O, dinləyicilərin qarşısında güzgü qoydu ki, onlar orada özlərinin Allahla münasibətlərinin həqiqi vəziyyətini görə bilsinlər. O bu geniş yayılmış təhrifdən istifadə etdi ki, Öz dinləyicilərinin diqqətini mühüm bir həqiqətə cəlb etsin: insanın ləyaqəti onun mülkiyyətinin həcmi ilə ölçülmür, çünki onun malik olduğu hər şey əslində ona məxsus deyildir, ona Rəbb tərəfindən borc verilibdir. Bu ənamların düzgün sərf edilməməsi onun sahibini Allahı sevən və Ona

etibar edən ən kasıb və zavallı insandan alçaq edəcəkdir.

Məsih istəyirdi ki, Onun dinləyiciləri başa düşsünlər ki, öldükdən sonra canı xilas etmək artıq mümkün olmayacaqdır. “Ey övladım! — deyə İbrahim məsəldə zənginə cavab verir, — yadına sal ki, sən öz həyatında yaxşı şeyləri aldın, Lazar isə pis şeyləri aldı; lakin indi o, təsəlli tapır, ancaq sən əzab çəkirsən. Bundan başqa, sizinlə bizin aramızda böyük bir uçurum qoyulmuşdur ki, burdan sizin tərəfə keçmək istəyənlər keçə bilmir, eləcə də oradan bizim yanımıza keçmirlər”. Bu sözlərlə Məsih ikinci sınaq dövrünün tam

əhəmiyyətsiz olduğunu göstərir. İndiki yerdəki həyat insanın əbədiyyətə hazırlaşması üçün ayrılmış yeganə vaxtdır.

Zəngin özünün İbrahimin övladı olması fikrindən yenə də əl çəkmir və son dərəcə iztirab çəkdiyi zaman o, məsəldə ondan kömək uman təsvir edilibdir. “Ey İbrahim ata! — yalvarır o, — mənə yazığın gəlsin”. Ancaq o, Allaha yox, İbrahimə müraciət edir. Beləliklə o, İbrahimi Allahdan [198] üstün tutur və xilas edilməsinə bütün ümidlərini İbrahimə bağlayır. Çarmıxdakı quldur yalvararaq, Məsihə müraciət etdi. “Ya Rəb! Öz Padşahlığına gəldiyin zaman məni

yada sal!” (Lk. 23:42). Dərhal da cavab aldı: “Doğrusun sənə deyirəm ki, bu gün, Mənim çarmıxda, iztirab və alçaldılma içində olduğum zaman, sən Mənimlə bərabər cənnətdə olacaqsan”. Zəngin isə İbrahimə müraciət etdi və istəyinə nail olmadı. Allah “Rəis və Xilaskar olaraq İsrailə tövbə və günahların bağışlanmasını vermək” üçün yalnız Məsihi yüksəltdi (Həv. iş. 5:31). “Çünki göy altında olan insanlara verilmiş başqa bir isim yoxdur ki, onunla xilas ola bilək” (Həv. iş. 4:12).

Zəngin adam öz həyatını həzz almağa xərclədi və çox gec baxıb gördü ki, əbədiyyətə tamamilə hazır

deyildir. Öz ağılsızlığını dərk edib, dəhşətə gələrək qardaşları haqqında düşündü, o kəslər ki, öz ehtiraslarına rəvac verərək onun yolu ilə gedəcəkdilər. Onda o, İbrahimə müraciət etdi: “Ey Ata! Elə isə səndən rica edirəm ki, onu atamın evinə göndər, zira, mənim beş qardaşım vardır, qoy onları agah etsin ki, bu əzab yerinə gəlməsinlər”. Fəqət İbrahim dedi: “Onların Musası və peyğəmbərləri var; qoy onları dinləsinlər”. O isə dedi: “Xeyr, ey İbrahim ata! Yalnız ölülərdən biri gələrsə, onlar tövbə edərlər”. O zaman İbrahim ona dedi: “Əgər onlar Musanı və peyğəmbərləri

dinləmirlərsə, ölülərdən biri dirilsə belə, inanmazlar”.

Zəngin adam yalvarıb, öz qardaşlarının tövbə etməsi üçün əlavə şəhadət təqdim olunmasını istədiyi zaman ona deyildi ki, belə bir şəhadət onlara verilsə də, onları inandıra bilməyəcəkdir. Zəngin adamın bu xahişi əslində Allahın Sözünü şübhə altına alır. O sanki Allaha deyir: “Əgər Sən məni vaxtında lazımınca xəbərdar etsəydin, mən bura düşməzdim”. İbrahim məsəldə ona cavab verir: “Sənin qardaşların kifayət qədər xəbərdarlıq alıbdırlar. Onlara işıq verilmişdir, amma onlar onu görmək istəmirlər; onlara həqiqət

təqdim edilmişdir, amma onlar onu dinləmək istəmirlər”. [199]

“Əgər onlar Musanı və peyğəmbərləri dinləmirlərsə, ölülərdən biri dirilsə belə, inanmazlar”. İbrani xalqının tarixi bu sözləri tamamilə təsdiq edir. Məsihin göstərdiyi son möcüzə, Onun missiyasının tacı olan möcüzə — Beytanyalı Lazarın ölümündən dörd gün sonra dirilməsi idi. Bu möcüzə ibranilər üçün Xilaskarın İlahiliyini təsdiq edən təkzibolunmaz şəhadət olmalı idi, lakin onlar bu şəhadəti qəbul etmədilər. Lazar ölülərdən dirilib onlara şəhadət edirdi, amma onlar bütün şəhadətlər üçün ürəklərini

bərkitmişdilər və hətta Lazarı öldürmək istəyirdilər (Yəh. 12:9-11).

Musanın vasitəsilə Allahın göndərdiyi qanun və peyğəmbərlərin şəhadətləri Allahın insanların xilas edilməsi üçün istifadə etdiyi vasitələrdir. Öz məsəli ilə Məsih deyir: “Bu şəhadətləri dinləyin. Lakin əgər siz Allahın səsini Onun sözündə dinləmirsinizsə, onda ölülərdən dirilənin şəhadətinə də inanmayacaqsınız”.

Musanı və peyğəmbərləri dinləyənlərə isə Allahın onlara bəxş etdiyi işıqdan artıq lazım deyildir; lakin əgər insanlar bu işığı rədd edir və malik olduqları imkanlardan

istifadə etmirlərsə, ölülərdən kimsə dirilib onların yanına xəbərlə gəlsə belə, onlar inanmayacaqlar. Onları bu şəhadət də inandırmayacaqdır; çünki peyğəmbərlərin verdiyi qanunu rədd edənlər ürəklərini o qədər bərkidiblər ki, hər cür işığı da rədd edəcəklər.

İbrahimin bir zaman zəngin olan adamla söhbəti ibrətamiz metaforadır. Bu söhbətdən çox faydalı bir nəticə çıxarılmalıdır ki, hər bir adama Allahın onun üzərinə qoyduğu vəzifələri icra etməsi üçün kifayət qədər işıq verilmişdir. İnsanın Allah qarşısındakı məsuliyyəti Allahın ona verdiyi imkanlar və qabiliyyətlərlə müəyyən edilir. Allah hər kəsə

tapşırdığı işi yerinə yetirmək üçün lazım olan qədər işıq və lütf verir. Lakin əgər insan hətta ona verilmiş kiçik işığın göstərdiyini etmirsə, böyük işıq verilmiş xeyir-dualardan istifadə etmək də onun etibarsızlığını və bacarıqsızlığını ifşa edəcək. “Az şeydə sadiq olan çoxda da sadiqdir, fəqət az şeydə sədaqətsiz olan çoxda da sədaqətsizdir” (Lk. 16:10). [200] Musanın və peyğəmbərlərin şəhadət işığını rədd edərək, hansısa möcüzə göstərmək tələb edirlərsə, onlara göstərilsə belə, iman edə bilməyəcəklər.

Zəngin adam və Lazar haqqındakı məsəl göstərir ki, bu iki adamın

timsalında iki sinif insan gözəgörünməz dünyada necə dəyərləndirililirlər. Əgər salehliklə əldə edilibsə, zənginlik öz-özlüyündə günah hesab edilmir. Zəngin adam varlı olduğuna görə məhkum edilməyib; ona görə məhkum edilir ki, ona etibar edilmiş vəsaitləri eqoist məqsədlər üçün xərcləyir. Yaxşı olardı ki, öz pullarını Allahın taxtı qarşısına qoyaraq, onları xeyirxah işlərə sərf edəydi. Özünü bu tərzdə əbədi dəyərlər axtarışına həsr edən adamı ölüm yoxsul edə bilməz. Yalnız özü üçün vardövlət yığan adam isə onları özü ilə göylərə apara bilməyəcəkdir. O, yalnız özünü sədaqətsiz sərəncamçı kimi göstərir.

Yaşadığı zaman o hər şeydən faydalanırdı, ancaq özünün Allah qarşısındakı borcunu unutmuş, buna görə də səma sərvətlərinə nail olmamışdır.

Bu qədər üstünlüklərə malik olan məsəldəki bu zəngin adam elə bir insanı təsvir edir ki, o, malik olduğu ənamları çoxaltmalı idi ki, onun işləri genişlənib çiçəklənərək, ona getdikcə daha çox xeyir-dua bəxş edəydi. Qurtuluşun məqsədi də bundan ibarətdir — yalnız bizim günahlarımızı silmək deyil, ancaq həm də insana o ruhlu ənamları qaytarmaq ki, onları günahın dağıdıcı gücü altında itirmişdir. Pulları

gələcək həyata aparmaq mümkün deyildir, onlar orada gərəksizdir; amma Məsih üçün canlar cəlb etməyə həsr edilmiş xeyirxah işlərimiz bizim ardımızla səma həyətlərinə gedirlər. Rəbbin ənamlarını eqoistcəsinə özlərinə xərcləyənlər isə ehtiyacı olan həmqardaşlarını köməksiz qoyaraq və Allahın işinin qabağa getməsi üçün heç nə etməyərək, Yaradanı təhqir edirlər. Səma kitablarında onların adı qarşısında bu günah qeyd edilmişdir: Allahdan oğurlayan.

Zəngin adam pul ilə əldə etmək mümkün olan hər şeyə malik idi, ancaq bütün dünyadakı var-dövləti onun Allaha olan borcunu ödəmək

[201] üçün kifayət etməzdi. O elə yaşayırdı ki, sanki malik olduğu hər şey yalnız ona məxsus idi. O, Allahın çağırışını və iztirab çəkən yoxsulların ehtiyaclarını rədd etdi. Amma axırda rədd edə bilmədiyi çağırış onu yaxaladı. Onun müqavimət göstərə bilməyəcəyi qüdrət və şübhə altına ala bilmədiyi nüfuz ona əmr edir ki, artıq sərəncamçısı olmadığı mülkiyyəti tərk etsin. Nə vaxtsa zəngin olan adam indi ümidsiz yoxsula çevrilir. Məsihin səma dəzgahında toxunmuş salehlik paltarı onu heç vaxt örtə bilməyəcəkdir. Bir zamanlar mor və incə kətana bürünən şəxs çılpaq qalacaqdır. Onun sınaq vaxtı tükəndi. O, dünyaya heç nəyi

olmayaraq daxil oldu və özü ilə dünyadan heç nə götürə bilmir.

Burada Məsih səma örtüyünü qaldıraraq, kahinlərə və hökmdarlara, qanunşünaslara və fəriseylərə vahiməli təsvir göstərir: "Baxın, ey dünyəvi nemətlərlə zəngin, lakin Allah qarşısında yoxsul olanlar. Bu səhnə sizi düşünməyə vadar etmirmi?" İnsanların gözündə yüksək dəyərləndirilən şeylər Allah qarşısında murdardır. Məsih soruşur: "İnsan bütün dünyanı qazanıb, öz canını itirsə, ona nə fayda olacaqdır? Çünki insan öz canı əvəzinə nə verə bilər?" (Mk. 8:36, 37).

## Məsəlin ibrani xalqı üçün əhəmiyyəti

Məsih zəngin adam və Lazar haqqındakı məsəli söylədiyi zaman ibranilərin içində məsəldəki bu zəngin kimi acınacaqlı vəziyyətdə olanlar çox idi: onlar Rəbbin ənamlarından öz eqoist istəklərinin xeyrinə istifadə edərək, özlərinə şiddətli hökm hazırlayırlar: "Sən tərəzidə çəkildin və yüngül olduğun bilindi" (Dan. 5:27). Zəngin adam hər cür dünyəvi və ruhlu xeyir-dualara malik idi, lakin onların istifadəsində Allahla əməkdaşlıq etməkdən imtina etdi. İbrani xalqı ilə də belə oldu.

Rəbb ibraniləri müqəddəs həqiqətin qoruyucusu etdi. O onları Öz lütfünün sərəncamçısı təyin elədi. O, onlara hər cür dünyəvi və ruhlu üstünlüklər verdi [202] və başqa insanlarla bölüşməyə çağırdı. Onlara ölümə sürüklənən qardaşları ilə münasibətlərinə dair, qapılarını döyən qəriblərə dair, onların arasında olan kasıblara dair dəqiq tövsiyələr verilmişdi. Onlar öz varlarını yalnız öz xeyirləri üçün çoxaltmamalı, əksinə ehtiyac içində olanları unutmayaraq, onlarla olmalı idilər. Onların gördükləri məhəbbət və mərhəmət işlərinin müqabilində Allah onlara xeyir-dua verəcəyini vəd etmişdir. Lakin o zəngin kimi, onlar

da iztirab çəkən bəşəriyyətə öz kömək əllərini uzatmadılar ki, onların dünyəvi və ruhlu ehtiyaclarını yüngülləşdirsinlər. Qürurla dolu olaraq, onlar özlərini Allahın rəğbətini qazanmış seçilmiş bir xalq sayırdılar, amma əslində Allaha nə xidmət edir, nə də səcdə edirdilər. Öz müstəsnalıqlarını onlar yalnız o faktla əsaslandırırdılar ki, onlar İbrahimin övladlarıdır. "Biz İbrahimin nəslindənik", — onlar qürurla deyirdilər (Yəh. 8:33). Həlledici an gəldiyi zaman isə məlum oldu ki, onlar özlərini Allahdan ayırıb, ümidlərini İbrahimə bağladılar, sanki Allah odur.

Məsih istəyirdi ki, zülmətdə olan ibrani xalqının şüurunda işıq parlasın. O onlara dedi: “İbrahimin övladları olsaydınız, İbrahimin işlərini görərdiniz. Fəqət Məni, Allahdan eşitdiyim həqiqəti sizə söyləyən Adamı indi öldürməyə çalışırsınız; İbrahim bunu etmədi” (Yəh. 8:39, 40).

Məsih nəsil şəcərəsində hər hansı bir üstünlük, yaxud ləyaqət nişanəsi tanımırdı. O öyrədirdi ki, ruhlu bağlar bütün təbii münasibətlərdən üstündür. İbranilər özlərini İbrahimin törəmələri sayırdılar; ancaq madam ki onlar İbahimin işlərini görmürdülər, bunundla sübut edirdilər

ki, onun həqiqi övladları deyildirlər. Yalnız Allahın səsinə itaət edib, İbrahimlə ruhlu birlik və həmrəylik göstərən kimsələr onun həqiqi törəmələri hesab oluna bilərlər. Məsəldəki yoxsul, insanların ən alçaq sinif hesab etdikləri təbəqəyə mənsub idisə, Məsih onu İbrahimin ən əziz dostu kimi qəbul ediləcək adam hesab etdi.

Zəngin adam həyatını ağıla gələn hər cür cah-cəlalla əhatə etsə də, o qədər cahil idi ki, Allahın tutmalı olduğu yerə İbrahimi qoymuşdur. [203] Əgər o, malik olduğu yüksək imtiyazları dərk edib dəyərləndirə bilsə idi və öz şüur və ürəyinin İlahi

Ruh tərəfindən formalaşdırılmasına icazə versəydi, onun taleyi tamamilə başqa ola bilərdi. Bu zənginin təsvir etdiyi xalqa da bunu aid etmək olar. Əgər bu xalq Allahın çağırışına səs versə idi, onun gələcəyi tamamilə başqa ola bilərdi. İbranilər həqiqi ruhlu fərasət aşkar edə bilərdilər. Onlar elə imkanlara malik idilər ki, onları gələcəkdə Allah daha çox edəcəkdi və onlar bütün dünyaya xeyir-dua və maariflənmə verə biləcəkdilər. Ancaq onlar Allahın niyyətlərindən o qədər uzaqlaşdılar ki, bu, onların bütün həyatını pozdu. Onlar üzərlərinə qoyulmuş ümidi doğrultmayaraq, Allahın Öz sadiq sərəncamçıları kimi etibar etdiyi

ənamlardan həqiqət və salehliklə istifadə etmədilər. Onlar Öz nəzərlərini əbədi dəyərlərə yönəltmədilər. Onların sədaqətsizliyinin nəticəsində bütün xalq məhv oldu.

Məsih bilirdi ki, Yerusəlimin dağıldığı vaxt yəhudilər Onun xəbərdarlığını xatırlayacaqdırlar. Belə də oldu. Yerusəlimin üzərini fəlakətlər bürüyən zaman bu xalqın qismətinə hər cür aclıq və iztirablar düşən zaman onlar Məsihin sözlərini xatırlayıb, Onun nə vaxtsa söylədiyi məsəlin mənasını başa düşdülər. Onlar başa düşdülər ki, Allahın bəxş etdiyi işığın bütün dünyaya

yayılmasına kömək etməmələrilə üzərlərinə iztirablar cəlb etdilər.

## Son günlərdə

Zəngin adamla Lazar haqqındakı məsəlin sonu dünya tarixinin axır səhnələrini təsvir edir. Zəngin adam özünü İbrahimin oğlu hesab edirdi, lakin əslində o, İbrahimdən dərin uçurumla — öz düzgün formalaşmamış xasiyyəti ilə ayrılmışdır. İbrahim Allaha xidmət edərək, Onun sözünə sədaqət və itaətlə riayət edirdi. Zəngin isə nə Allahı eşidir, nə də əzablı bəşəriyyətin ehtiyaclarını ödəməyə

çalışırdı. Onunla İbrahim [204] arasındakı nəhəng uçurum — itaətsizlik uçurumudur. Bu gün çoxları həmin yol ilə gedirlər. Bəzən imanlılar cəmiyyətinin üzvü olaraq, onlar əslində imansız qalırlar. Onlar Allaha sitayiş edə bilərlər, onlar "maral axar sulara həsrət qalan kimi, ey Allah könlüm Sənin həsrətini çəkir!" (Məz. 42:1) deyə oxuya da bilərlər; ancaq onlar yalan şəhadət edirlər. Allahın gözündə onlar ən qatı günahkardan çox saleh deyildirlər. Dünya ləzzətlərinə can atan qəlb, şöhrətpərəstliklə dolmuş şüur Allaha xidmət edə bilməz. Məsəldəki zənginə bənzəyərək, belə bir adam öz cismani ehtiraslarına qarşı tamamilə

müharibə aparmaq iqtidarında deyildir. O, günahkar istəklərinə yol verir. O, günah atmosferini seçir. Qəflətən ölüm onu aparır və o, qəbirə iblisin əlaltılarının köməyi ilə formalaşmış xasiyyətlə düşürülür. Qəbirdə isə artıq yaxşı ilə pis arasında seçmək imkanı yoxdur, çünki insan öldükdən sonra onun bütün düşüncələri yox olur (Məz. 146:4; Vaiz 9:5, 6).

Allahın səsi ölüləri oyatdığı zaman onlar qəbirlərindən həyatda bəslədikləri ehtiras və istəklərilə, sevdikləri və nifrət etdikləri şeylərlə duracaqdırlar. Yeni insan olmaq istəməyənləri bərpa etmək üçün Allah

heç bir möcüzə yaratmayacaqdır, çünki onlara bundan ötrü hər cür imkan verilmişdir. Həyatda olduğu zaman o, Allahda sevinc tapmırdı, Ona xidmət etməkdən həzz almırdı. Onun xasiyyəti Allahla ahəngdar deyildi, buna görə o, səma ailəsində bəxtiyar ola bilməzdi.

Bizim günlərdə də özlərini saleh sayan insan kateqoriyası vardır. Onlar qarınqulu, şərab aludəçisi, yaxud zinakar deyildirlər; lakin onlar Allah üçün deyil, yalnız özləri üçün yaşamaq istəyirlər. O onların fikirlərində yoxdur, buna görə onları imansız hesab etmək lazımdır. Hətta Allahın şəhərinin darvazasından içəri

girmək imkanı verilsəydi belə, onların həyat ağacına heç bir hüquqları olmazdı, çünki onlara Allahın əmrləri və onlardan irəli gələn vəzifələr təqdim olunduğu zaman onlar yox cavabı verərdilər. Onlar Allaha burada, yerdə xidmət etmirdilər, ona görə Ona əbədiyyətdə də xidmət etmək istəməzdilər. Onlar yerdə [205] Onun hüzurunda yaşaya bilmirdilər, buna görə gələcəkdə də hər hansı bir başqa yeri göylərdən üstün tutardılar.

Məsihi dərk etmək Onun xasiyyətini əks etdirən lütfünü qəbul etmək deməkdir. Göylərin artıq yerdə olduğumuz zaman göndərdiyi

qiymətli imkanları və müqəddəs təsirini dəyərləndirib istifadə etməyənlər göylərdəki müqəddəs sitayişdə iştirak etməyə layiq deyildirlər. Onların xasiyyətləri Allaha bənzər formalaşmamışdır. Onların Allaha qarşı olan şəxsi etinasızlıqları və hörmətsizlikləri keçilməz uçurum yaratmışdır. Belə insanlarla salehlər arasına “böyük bir uçurum qoyulmuşdur”. [206]

## Söz və əməl

(Mt. 21:23-32)

“Bir adamın iki oğlu vardı; gəlib birincisinə: Oğlum, bu gün get üzüm bağına işlə, — dedi. O da cavab verib: İstəmirəm, — dedi. Fəqət sonra peşman olub getdi. Adam

ikincisinə yaxınlaşıb yenə eyni sözü söylədi. O, cavab verib: Gedirəm, ağam! — dedi və getmədi. İkisindən hansı atasının muradını yerinə yetirdi? Onlar: Birincisi, — dedilər”.

Dağ moizəsində Məsih demişdi: “Mənə: “Ya Rəbb, Ya Rəbb”, — deyən hər adam Göylərin Padşahlığına girməyəcəkdir; ancaq göylərdə olan Atamın iradəsini yerinə yetirən oraya girəcəkdir” (Mt. 7:21). Allaha olan sevgimizin səmimiliyi sözlərlə deyil, işlərlə təsdiqlənir. Məsih bizdən soruşmur: “Mühüm nə söyləyirsiniz?” O soruşur: “Mühüm nə edirsiniz?” (Mt. 5:47). Onun bu sözləri nə qədər əhəmiyyətlidir: “Əgər bu şeyləri bilirsiniz və onlara riayət edirsinizsə, bəxtiyarsınız” (Yəh. 13:17). Sözlər onlara müvafiq işlərlə təsdiq olunmayınca, heç bir dəyərə malik deyildir. İki oğul

haqqındakı məsəl də bizə məhz bu nəsihəti verir.

Məsih bu məsəli Yerusəlimə sonuncu gəlişi vaxtı, Öz ölümündən bir az əvvəl söyləmişdi. Bundan əvvəl O bütün alverçiləri və alıcıları məbəddən qovdu. Onun səsi dinləyicilərin ürəklərində Allahın hökmü kimi səslənirdi. Təəccüblənən və qorxu keçirən adamlar, Onun tələbinə mübahisəsiz və müqavimətsiz tabe oldular. [207]

Qorxu keçdikdən sonra kahinlər və ağsaqqallar məbədə qayıdan zaman Məsihi orada xəstələri və ölümcül olanları müalicə edən gördülər. Onlar şad nidalar və alqış

nəğməsi eşitdilər. Sağalmış uşaqlar əllərində xurma budaqları tutaraq, Davud Oğluna hosanna oxuyurdular. Uşaq səsləri izzətli Həkimə alqış edirdi. Ancaq kahin və qanunşünasların mənfi rəyinə və paxıllığına qalib gəlmək üçün bu şəhadətlərin hamısı kifayət deyildi.

O biri gün, Məsih məbəddə təbliğ etdiyi zaman, baş kahinlər və xalqın ağsaqqalları Onun yanına gəlib: “Bu işləri nə səlahiyyətlə edirsən? Və Sənə bu səlahiyyəti kim verdi?” — dedilər.

Kahinlər və xalqın ağsaqqalları Məsihin təkzibedilməz səlahiyyətinin şəhadətlərini görürdülər. O, məbədi

təmizləyən zaman onlar Onun üzündə əks olunan səmavi səlahiyyət görürdülər. Onlar bu səlahiyyətə müqavimət göstərə bilmirdilər. O Özünün yeni-yeni möcüzəli şəfa işlərilə onların bu suallarına cavab verirdi. O onlara Öz səlahiyyətinin şəhadətini təqdim etdi ki, onu təkzib etmək qeyri-mümkün idi. Ancaq bu onların arzu etdikləri şəhadət deyildi. Kahinlər və ağsaqqallar istəyirdilər ki, İsa Özünü Məsih elan etsin və bununla da onlara Onun sözlərini təhrif edilmiş şəkildə şərh etmək və xalqı Ona qarşı qaldırmaq üçün imkan versin. Onlar Onun təsirini sarsıtmaq, Özünü isə öldürmək istəyirdilər.

İsa bilirdi ki, əgər onlar Onda Allahı görə bilmədilərsə, etdiyi işlərin Onun İlahi təbiəti haqqında şəhadət etdiyini dərk edə bilmədilərsə, indi Məsih olduğu haqqında Öz şəhadətinə də inanmayacaqdılar. O onların gözlədiyi cavabdan yayınır və ittihamı onların özünə qarşı yönəldir:

"Mən də sizdən bir şey soruşacağam; onu Mənə söyləsəniz, bu işləri nə səlahiyyətlə gördüyümü Mən də sizə söylərəm. Yəhyanın vəftizi haradandı? Göydənmi, yaxud insanlardanmı?"

Kahinlər və hökmdarlar çaşmışdılar. "Onlar aralarında söyləşib dedilər: [208] "Əgər göydən

desək: Elə isə nə üçün ona iman etmədiniz? — deyəcək; fəqət insanlardan desək, xalqdan qorxuruq, çünki hamı Yəhyanı peyğəmbər sayır”. Və İsaya cavab verib: “Bilmirik”, — dedilər. İsa da onlara dedi: “Mən də sizə bu işləri nə səlahiyyətlə gördüyümü söyləmirəm”.

Onların “bilmirik” cavabı düşünülmüş yalan idi. Lakin kahinlər düşdükləri vəziyyəti anlayaraq yalan söyləyirdilər ki, özlərini xalqın qəzəbindən qorusunlar. Vəftizçi Yəhya gəlmişdi ki, onların indi səlahiyyətini şübhə altına aldıqları Şəxs haqqında şəhadət etsin. Ona

işarə edəгəк deyirdi: “Budur, dünyanın günahını ortadan qaldıran Allahın Quzusu!” (Yəh. 1:29). O Onu vəftiz etdi və vəftiz olunduqdan sonra Məsih dua etdiyi zaman göylər açıldı və Allahın Ruhu göyərçin kimi Onun üzərinə endi və göylərdən bir səs dedi: “Bu Mənim sevgili Oğlumdur. Ondan çox məmnunam” (Mt. 3:17).

Yəhyanın Məsih haqqındakı peyğəmbərlikləri təkrarən söylədiyini, İsanın vəftiz edildiyi anı xatırlayaraq, kahinlər və hakimlər yenə də Yəhyanın vəftizinin göydən olduğunu deməyə cəsarət etmədilər. Onlar Yəhyanın peyğəmbər olduğunu etiraf etsəydilər, necə ki daxilən belə

olduğunu hesab edirdilər, onda onun Nazaretli İsanın Allahın Oğlu olduğu haqqındakı şəhadətini necə inkar edə bilərdilər? Ancaq eyni zamanda da onlar "Yəhyanın vəftizi insanlardandır" deyə bilmirdilər, çünki Yəhyanın peyğəmbər olduğuna inanan xalqdan qorxurdular. Buna görə onlar dedilər: "Bilmirik".

Onda Məsih onlara ata və iki oğul haqqında məsəl söylədi. Ata gəlib birincisinə: "Oğlum, bu gün get üzüm bağına, işlə, — dedikdə, o cavab verib: "İstəmirəm", — dedi. O tabe olmaqdan imtina etdi və özünün günahlı yolları və pis vərdişlərini

davam etdirdi. Lakin sonra o tövbə etdi və atasına tabe oldu.

Ata ikincisinə yaxınlaşıb yenə eyni sözü söylədi: “Oğlum, bu gün get üzüm bağına, işlə”. Bu oğul cavab verib: “Gedirəm, ağam!” — dedi və getmədi. [209]

Ata bu məsəldə Allahı, üzüm bağı isə imanlılar cəmiyyətini təsvir edir. İki oğul timsalında rəmzi olaraq iki kateqoriya insan təsvir edilibdir. “İstəmirəm” deyərək atasının tapşırığını yerinə yetirməkdən imtina edən oğul Allaha qarşı açıq hörmətsizlik göstərən, imanlı görünməyə cəhd də etməyən, Allahın Qanununun tələb etdiyi təvazökarlıq

və itaət yükünü öz üzərlərinə götürməkdən açıq-açığına imtina edənləri təsvir edir. Fəqət belə adamların çoxu gələcəkdə tövbə edib Allahın dəvətinə təslim oldular. Müjdə onlara Vəftizçi Yəhyanın “Tövbə edin, çünki Göylərin Padşahlığı yaxınlaşıb” xəbərində gəldiyi zaman onlar tövbə edib öz günahlarını etiraf etdilər (Mt. 3:2).

“Gedirəm, ağam” deyib getməyən oğlun timsalında isə fəriseyin xasiyyəti açıqlanmışdır. Bu oğul kimi, yəhudi rəhbərləri də özlərinin həqiqətən tövbə etmədiklərini və özlərindən razı olduqlarını göstərdilər. İbrani xalqının dini həyatı

əsasən zahiri, formal şəkil aldı. Sina dağında Allahın səsi ilə insanlara verilmiş qanun bəyan edildiyi zaman bütün xalq təntənəli surətdə ona riayət edəcəyinə and içdi. Hamı dedi: “Gedirəm, ağam”, fəqət getmədilər. Məsihin Özü gəlib onların qarşısında Allahın Qanununu təsdiq etdiyi zaman isə onlar Onu rədd etdilər. Məsih o dövrün ibrani rəhbərlərinə Öz səlahiyyəti və İlahi qüdrəti haqqında həddindən çox şəhadət verdi, lakin buna tam əmin olduqlarına baxmayaraq, onlar bu şəhadətləri qəbul etmədilər. Məsih onlara göstərdi ki, onlar hələ də imansız olmaqda qalırdılar, çünki itaətə aparan ruha malik deyildilər. O

onlara deyirdi: “Siz öz ənənənizlə Allahın əmrini pozmusunuz... Ehkam olaraq insan əmrlərini öyrədərək, Mənə boş yerə ibadət edirlər” (Mt. 15:6, 9).

Məsihi dinləyənlərin içərisində qanunşünaslar və fəriseylər, kahinlər və hökmdarlar var idi, iki oğul haqqında məsəli danışıb qurtardıqdan sonra Məsih onlara müraciət edərək soruşdu: “İkisindən hansı atasının muradını yerinə yetirdi?” Özlərinə hesabat verməyərək fəriseylər cavab verdilər: “Birincisi”. Belə deyərkən, onlar dərk etmirdilər ki, bununla özlərinə [210] hökm çıxarırlar. Onda Məsihin dilindən amansız qərar

səslənir: “Doğrusun sizə deyirəm ki, vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər. Çünki Yəhya sizin yanınıza salehlik yolunda gəldi, siz ona inanmadınız; fəqət vergiyığanlar və fahişələr ona inandılar. Və siz onu gördüyünüz halda, ona inanmaq üçün sonradan peşman olmadınız”.

Vəftizçi Yəhya həqiqəti təbliğ etmək üçün gəldi, onun təbliği günahkarları inandırırdı və onları imana gətirirdi. Onlar Allahın Padşahlığına öz salehlikləri ilə fəxr edərək verilmiş xəbərdarlığı rədd edənlərdən qabaq daxil olacaqdırlar. Vergiyığanlar və fahişələr cahil idilər,

fəriseylər isə savadlı idilər və həqiqətin yolunu bilirdilər. Buna baxmayaraq, onlar Allahın Padşahlığına aparan yol ilə getməkdən imtina etdilər. Can bəxş etməli olan həqiqət onlardan ötrü ölüm gətirən düşmənə çevrildi. Özlərinə nifrət etmiş qatı günahkarlar Yəhyanın əli ilə vəftiz olundular, xilas edildilər. İbrani xalqının müəllimləri isə riyakarlıq etdilər. Onların daşlaşmış ürəkləri həqiqəti qəbul etmələri üçün sipər oldu. Onlar Müqəddəs Ruhun təsirinə müqavimət göstərdilər. Allahın əmrlərinə itaət etməkdən imtina etdilər.

Məsih onlara demir ki, onlar Allahın Padşahlığına girməyəcəklər, fəqət O göstərir ki, onların ora daxil olmalarına mane olan sipər özlərindədir. İbrani rəhbərləri üçün Allahın Padşahlığının qapısı hələ də açıq idi; dəvət öz gücündə idi, Məsih onları iman edib dönmüş görmək istəyirdi.

İsrailin kahinləri və rəhbərləri öz həyatlarını bütövlüklə dini mərasimlərin icrasına həsr etməkdə keçirirdilər, onların hesab etdiyinə görə, onlar adi dünya işləri ilə hər hansı bir bağlılıq üçün çox müqəddəs idilər. Buna görə də zahirən onların həyatı tam dindarlıq təntənəsi

təsəvvürü yaradırdı. Lakin onlar öz mərasimlərini elə yerinə yetirirdilər ki, insanlar bunu görüb onlar haqqında dindar və mömin kimi düşünsünlər. Allaha zahirən itaət edərək, onlar əslində [211] Ona təslim olmaqdan imtina edirdilər. Onlar zahirən etiqad etdikləri həqiqətə riayət etmirdilər.

Məsih Vəftizçi Yəhyanı ən böyük peyğəmbərlərdən biri elan etdi, Öz dinləyicilərinə göstərdi ki, onlara Yəhyanın Allahın elçisi olduğu haqqında kifayət qədər şəhadət verilmişdir. Səhrada həqiqətən təbliğ edənin sözləri böyük qüvvəyə malik idi. O öz müjdəsini cəsarətlə təbliğ

edərək, kahinləri və hökmdarları günahda ittiham edir və onlara Allahın Padşahlığına layiq işləri görməyi əmredirdi. Yəhya onları Atanın iqtidar və nüfuzuna günahkarcasına saymazlıq edərək, Onun tapşırdığı işi yerinə yetirməməkdə ittiham edirdi. O, günaha güzəştə getmirdi və onu dinləyənlərin bir çoxu öz günahlarından döndülər.

Əgər ibrani rəhbərləri səmimiyyətlə özlərinin bəyan etdikləri insanlar olsaydılar, onlar Yəhyanın şəhadətini qəbul edib, İsanın Məsih olduğunu etiraf edərdilər. Fəqət onlarda tövbə və

salehlik məhsulları cücərmədi. Buna görə də nifrət etdikləri insanlar Allahın Padşahlığına onlardan qabaq girdilər.

Məsəldə "Gedirəm, ağam" deyə cavab verən oğul, özünü sədaqətli və itaətkar göstərir; zaman isə göstərdi ki, onun zəmanəti həqiqi deyildir. O öz atasına həqiqi məhəbbət duymurdu. Eləcə də fəriseylər öz qüdsiyyətlərilə fəxr edirdilər, fəqət bu qüdsiyyət sınaqdan keçirilən zaman kifayət etmədi. Onlar öz maraqlarına uyğun olan zaman, qanunun tələblərini həddindən çox ağır edirdilər; fəqət qanuna itaət etmək onların özlərindən tələb edilən zaman

onlar Allahın göstərişlərindən yayınmalarını cürbəcür bəhanələrlə, hiyləgərcəsinə əsaslandırırdılar. Bunu Məsih onlar haqqında deyir: “Fəqət onların əməllərinə görə etməyin, çünki söylərlər, amma əməl etməzlər” (Mt. 23:3). Onlarda nə Allaha qarşı, nə də insana qarşı həqiqi məhəbbət yox idi. Allah onları çağırmışdı ki, Onun xeyir-dualarını dünyada yaymaq üçün Onunla əməkdaşlıq etsinlər; lakin onlar bu dəvəti zahirən qəbul etsələr də, əslində itaət etmədilər. Onlar özlərinə güvənir və öz xeyirxahlıqları ilə fəxr edirdilər, [212] ancaq Allahın əmrlərini icra etmirdilər. Allahın onlara etibar etdiyi işi icra etməkdən imtina etdilər və

onların bu itaətsizliklərinə görə, Rəbb itaətsiz xalqdan dönməyə hazır idi.

Öz gözündə saleh görünmək həqiqi salehlik deyildir. Öz salehliyi ilə fəxr edən adamlar bu fəlakətli aldanmanın nəticələrini dərk etmək üçün tərk ediləcəklər. Bizim günlərdə çoxları Allahın əmrlərinə sadiq olduqlarını bəyan edirlər, fəqət ürəklərində digərlərinə də veriləcək İlahi məhəbbətə malik deyildirlər. Məsih onları dünyanı xilas etmək işində Onunla birləşməyə çağırır, lakin onlar: “Gedirəm, ağam!” — deyir, fəqət getmirlər. Onlar həqiqətən Allaha xidmət edənlərlə əməkdaşlıq etmirlər. Boş həyat tərzini

davam etdirirlər. Sədaqətsiz oğul kimi, Allaha yalan vədlər verirlər. İmanlılar cəmiyyətinin bütün üzvləri qarşısında Rəbb ilə əhd bağlayaraq, onlar təntənəli surətdə İlahi Kəlamı qəbul edib ona riayət etməyi, özlərini Allaha xidmət etməyə həsr edəcəklərini vəd edirlər, fəqət bunu etmirlər. Onlar özlərini Allahın övladları elan edirlər, lakin öz həyatları və xasiyyətlərinin keyfiyyətləri ilə Onunla qohumluqdan imtina edirlər. Onlar öz iradələrini Allahın iradəsinə tabe etmirlər. Onların həyatları müddəalarına zidd olaraq, yalanlarını ifşa edir.

Onlardan qurban tələb edilənə qədər itaətli olmaq vədlərinə sadiq görünə bilərlər; fədakarlıq və özünü qurban vermək tələb ediləndə götürməli olduqları çarmıxı gördükləri zaman isə çəkinirlər. Beləliklə, məsuliyyət hissi kütləşir və bilərəkdən Allahın əmrlərini pozmaq vərdişə çevrilir. Qulaq İlahi Sözü eşidə də bilər, fəqət onu mənimsəmək üçün artıq ruhlu güc yoxdur. Ürək daşlaşmış, vicdan yatmışdır.

Güman etməyin ki, əgər Məsihə qarşı açıq düşmənçilik mövqeyində deyilsinizsə, siz bununla artıq Ona xidmət edirsiniz. Beləliklə biz yalnız öz-özümüzü aldadırıq. Əgər Allahın

bizə xidmət etmək üçün verdiyi şeyləri — vaxtımızı, yaxud vəsaitlərimizi və Onun bizə etibar etdiyi digər ənamlarını istifadəsiz saxlayırıqsa, Onun əleyhinə hərəkət edirik.

Şeytan məsihçi adı daşıyanların etinasız, yuxulu həyat tərzi keçirmələrindən, [213] öz gücünü artırmaq və canları öz tərəfinə çəkmək üçün istifadə edir. Çoxları hesab edirlər ki, onlar Məsih naminə real işlərdə iştirak etməsələr də, Onun tərəfindədirlər. Əslində onlar, hələ zəbt olunmamış sahəyə nəzarət etmək üçün düşmənə imkan verirlər və üstünlük qazandırırlar. Rəbbin

çalışqan işçiləri olmaq imkanlarını əldən verərək, vəzifələrini yerinə yetirməmiş, sözlərini isə deyilməmiş qoyaraq, onlar Məsih üçün alına biləcək canların şeytanın əsarətinə düşmələrinə imkan verirlər.

Biz heç zaman boş həyat keçirərək və fəaliyyətsizlik içində xilas ola bilməyəcəyik. Faydasız, mənasız həyat keçirən şəxs həqiqətən iman etmiş ola bilməz. Göylərə, sadəcə, axına uyğun üzərək girmək mümkün deyildir və heç bir avara ora girə bilməyəcəkdir. Əgər biz Allahın Padşahlığına girmək hüququ almaq üçün səy göstərmiriksə, əgər bu Padşahlığın qanunlarını səmimiyyətlə

dərk etmək istəmiriksə, onun üçün yararsız olacağıq. Allahla yerdə əməkdaşlıq etməkdən imtina edənlər Onunla göylərdə də əməkdaşlıq etməyəcəkdirlər. Onları ora buraxmaq təhlükəsiz deyildir.

Vergiyığan və günahkarların İlahi Kəlamı bilib ona riayət etməyənlərdən çox imkanları vardır. Öz günahını heç bir şeylə ört-basdır etmədən dərk edən, Allah qarşısında öz canının, bədəninin və ruhunun pozğunluğunu görən adam Allahın Padşahlığından əbədi olaraq ayrılmaqdan qorxur. O, xəstə olduğunu dərk edir və dahi Həkimdə əlac axtarır, O demişdir; “Mənim

yanıma gələni əsla rədd etmərəm” (Yəh. 6:37). Belə canlardan Rəbb Öz üzüm bağında iş görmək üçün yenə istifadə edə biləcəkdir.

Öncə atasının tapşırığını yerinə yetirməkdən imtina edən oğul Məsih tərəfindən ittiham edilmədi; fəqət o, rəğbət də qazanmadı. Məsəldə bu oğulun təsvir etdiyi adamlar özlərinin öncəki itaətsizliklərinə görə tərifə layiq deyildirlər. Onların itaətsizlik göstərməkdə səmimilikləri də təqdirə layiq deyildir. Əgər səmimiyyət həqiqət və qüdsiyyətlə təqdis edilmişdirsə, [214] o, insanı Məsihin cəsarətli şahidi edə bilər; lakin günahkarın dilində o, təhqiramiz,

ədəbsizdir və küfr ilə eynidir. Bir adamın imansız olduğu halda, riyakar olmaması onu daha ləyaqətli günahkar etmir. Müqəddəs Ruhun çağırışı bizim ürəyimizə çatdığı zaman bizim yeganə təhlükəsizlik tədbirimiz ona yubanmadan cavab verməkdir. Siz "Bu gün get üzüm bağına, işlə" çağırışını eşitdiyiniz zaman dəvətdən imtina etməyin. "Əgər bu gün Onun səsini eşitsəniz, ürəklərinizi daşa döndərməyin" (İbr. 4:7). İtaət etməkdə yubanmaq təhlükəlidir. Siz xilasedici dəvəti bir daha eşitməyə bilərsiniz.

Bir də ki, illər boyunca bəslədiyiniz günahlardan asanlıqla

azad olacağınıza ümid bağlamayın. Bu belə deyildir. Hər bir bəslənmiş günah durmadan xasiyyəti zəiflədir və zərərli vərdişləri möhkəmləndirir; bunun nəticəsində tədricən fiziki, əqli və əxlaqi pozğunluq baş verir. Siz öz səhv əməllərinizdən tövbə edib doğru yola qayıda bilərsiniz; lakin uzun müddət günahla əlaqədə olan şüurunuzun xüsusiyyəti xeyir və şəri seçməkdə sizə çətinlik yaradacaqdır. Sizdə formalaşmış zərərli vərdişlər isə sizə yeni-yeni hücumlar etmək üçün şeytan tərəfindən istifadə ediləcəkdir.

“Bu gün get üzüm bağına, işlə” dəvəti hər can üçün səmimiyyət

sınağıdır. Əməllər də sözlər kimi olacaqlarmı? Dəvət edilmiş adam özünün bütün bilik və bacarığından istifadə edərək, üzüm bağının Sahibi üçün sədaqətlə və təmənnasız işləyəcəkmi?

Həvari Peter bizə riayət edə biləcəyimiz hərəkət planı təklif edir. O deyir: “Allahın və Rəbbimiz İsanın dərk olunmasında lütf və sülh sizə bol-bol verilsin. Bizi Öz izzəti və fəziləti ilə Çağıranın dərk olunması vasitəsilə İsanın İlahi qüdrəti həyat və Allaha hörmət ilə əlaqədar olan hər şeyi bizə bəxş etdi. O bu yolla bizə qiymətli və möhtəşəm vədlərini verdi ki, bunların vasitəsilə siz, şəhvətdən

ötrü dünyada olan pozğunluqdan qaçıb, İlahi təbiətin iştirakçısı olasınız.

Elə buna görə siz bütün səyinizi sərf edərək, imanınıza fəzilət, fəzilətinizə [215] bilik, biliyinizə nəfsə hakim olmağı, nəfsə hakim olmağa təhəmmül, təhəmmülünüzə Allah qorxusu, Allah qorxusuna qardaşsevərlik və qardaşsevərliyinizə məhəbbəti əlavə edin" (2 Pet. 1:2-7).

Əgər siz öz canınızın üzüm bağına səylə qayğı göstərsəniz, Allah sizi Öz işlərində köməkçi edəcəkdir. Siz yalnız özünüz üçün deyil, digərləri üçün də çalışacaqsınız. İmanlılar cəmiyyətini üzüm bağına

oxşadaraq, Məsih bizi öz rəğbət və şəfqətimizi yalnız bizim imanlılar cəmiyyətinin üzvləri ilə məhdudlaşdıraraq ancaq onlar üçün çalışmağa çağırmır. Rəbbin üzüm bağı çoxaldılmalıdır. Rəbb istəyir ki, Onun üzüm bağı dünyanın hər ucuna yayılsın. Allahdan təlimat və lütf alaraq, biz qiymətli tənəkləri becərmək haqqında öz biliklərimizi digərləri ilə də bölüşməliyik. Ancaq beləliklə biz Rəbbin üzüm bağını genişləndirə bilərik. Allah bizim imanımızın, məhəbbətimizin və təhəmmülümüzün şəhadətlərini gözləyir. O istəyir ki, bizə bəxş edilmiş bütün ruhlu üstünlüklərdən istifadə edərək, Onun bu dünyadakı

üzüm bağında bacarıqlı işçilər olaq ki, gələcəkdə bir vaxtlar Adəm və Həvva öz günahları üzündən qovulmuş olduqları Allahın cənnətinə, o Ədəm bağına daxil ola bilək.

Allahın Öz xalqına münasibəti atanın öz övladlarına olan münasibətinə oxşayır, buna görə də Allahın bizdən sədaqətlə Ona xidmət etməyimizi gözləməyə ata hüququ vardır. Məsihi yadınıza salın. Bəşəriyyətin başında durub Öz Atasına xidmət edərək, O hər bir övladın ola biləcəyi nümunədir. Allah bu gün bəşəriyyətdən Öz dövründə Məsihin nümayiş etdirdiyi itaəti tələb

edir. Öz Atasına O, könüllü olaraq, həvəslə və məhəbbətlə xidmət edirdi. “Ey Mənim Allahım, Sənin istəyinə əməl etmək mənə zövq verir, Qanunun qəlbimdədir” (Məz. 40:8). Məsih heç bir qurbanı çox böyük, heç bir zəhməti çox ağır saymırdı. Göndərildiyi işi yerinə yetirmək üçün O, hər şeyə hazır idi. On iki yaşında ikən O dedi: “Bilmirdiniz ki, Mən Atamın işləri ilə məşğul olmalıyam?” (Lk. 2:49). O, çağırışı eşitdi və dərhal işə başladı. “Mənim yeməyim, — O deyir, — Məni Göndərənin iradəsini yeritmək və Onun işini tamamlamaqdır” (Yəh. 4:34). [216]

Beləliklə, biz Allaha xidmət etməliyik. Həqiqətən isə yalnız o adam xidmət edir ki, itaətkarlığın ən yüksək ölçüsünə uyğun hərəkət edir. Allahın oğul və qızları olmaq istəyənlərin hamısı özlərini Allahın, Məsihin və səma mələklərinin həmişçiləri kimi göstərməlidirlər. Hər bir adam beləliklə sınaqdan keçirilir. Ona sədaqətlə xidmət edənlər haqqında Rəbb deyir: "Fəaliyyətə keçdiyim gün onlar Mənə məxsus xalq olacaq. Bir ata özünə xidmət edən oğluna necə rəhm edərsə, Mən də onlara elə rəhm edəcəyəm" (Mal. 3:17).

Allahın bəsirətinin həyata keçməsində Onun müqəddəs məqsədi insanları sınaqdan keçirərək onlara öz xasiyyətlərini formalaşdırmaq və inkişaf etdirmək üçün imkan verməkdən ibarətdir. Beləliklə O, insanların Onun əmrlərinə tabe olub-olmadıqlarını müəyyən edir. Öz yaxşı əməllərimizlə biz Allahın məhəbbətini qazanmırıq; daha doğrusu, bizim yaxşı əməllərimiz göstərir ki, biz artıq bu məhəbbətə malikik. Əgər biz öz iradəmizi Allaha tabe ediriksə, bu o demək deyil ki, biz Allahın məhəbbətini qazanmaq üçün işləyəcəyik. Bu o deməkdir ki, Onun məhəbbəti artıq azad ənam kimi bizim tərəfimizdən qəbul edilibdir və

indi Ona bəslədiyimiz məhəbbətdən biz sevinə-sevinə Onun əmrlərinə riayət edəcəyik.

Müasir dünyada yalnız iki kateqoriya insan mövcuddur və məhkəmədə yalnız bu iki kateqoriya ayrılacaqdır: Allahın Qanununu pozan şəxslər və ona itaət edənlər. Məsih sədaqətli, yaxud itaətsiz olduğumuzu aydın göstərən meyar verir: "Əgər Məni sevirsinizsə, — O deyir, — əmrlərimi yerinə yetirin... Kim əmrlərimə sahib olub, onlara riayət edərsə, Məni sevən odur. Məni sevən Atam tərəfindən seviləcəkdir; Mən onu sevəcəyəm və Özümü ona göstərəcəyəm. Məni sevməyən

sözlərimə riayət etməz; eşitdiyiniz söz Mənim deyil, Məni göndərən Atanındır. Necə ki, Mən Atamın əmrlərini yerinə yetirib, Onun məhəbbətində qalıramsa, əgər siz də Mənim əmrlərimi yerinə yetirsəniz, Mənim məhəbbətimdə qalacaqsınız" (Yəh. 14:15-24; 15:10). [217]

## Rəbbin üzüm bağı

(Mt. 21:33-44)

Iki oğul haqqında məsəlin ardınca üzüm bağı haqqında məsəl gəlir. Birincisində Məsih ibrani xalqının müəllimlərinə Allaha itaət etməyin vacibliyindən danışır. İkincisində isə O, İsrailə bəxş edilmiş zəngin xeyir-dualara işarə edir və Allahın onlardan gözlədiyi itaətkarlıq tələbinin ədalətli olduğunu deyir. O, dinləyicilər qarşısında Allahın məqsədinin böyüklüyünü açaraq, bunun Ona tabe olmaqla yerinə yetəcəyini göstərir.

Gələcəyin üzərindən örtüyü götürərək göstərir ki, Onun niyyətini icra etməkdən imtina edən xalq Onun xeyir-duasını almayacaq və fəlakətə uğrayacaqdır.

"Ev sahibi olan bir adam var idi. Üzüm bağı saldı, — deyir Məsih, — ətrafını da hasarladı, içində bir üzümsıxan qazdı, bir qüllə tikdi və bağı bağbanlara icarəyə verib başqa məmləkətə getdi".

Bu üzüm bağının təsvirini Yeşaya peyğəmbər verir: "Sevgilimin üzüm bağı barəsində məhəbbət nəğməsini oxuyuram: torpağın məhsuldar bir təpəsində sevgilimin bir üzüm bağı var idi. O, torpağı belləyib daşları

kənara atdı, seçmə meynələr əkdi, ortada gözətçi qülləsi tikdi, üzümsıxan düzəltdi, üzümlüyün barını gözlədi" (Yeş. 5:1, 2).

Ev sahibi torpaq seçdi, onu hasarladı, təmizlədi, bellədi və seçilmiş üzüm basdıraraq, bərəkətli məhsul gözlədi. O gözləyirdi ki, indi ətrafındakı xam yerdən olduqca fərqlənən torpaq onun çəkdiyi zəhmət və qayğının [218]

müqabilində məhsul verəcək və ona şərəf gətirəcəkdir. Eləcə də Allah dünyadan bir xalqı seçdi ki, o, Məsih tərəfindən tərbiyə və nəsihət alsın. Peyğəmbər deyir: "İsrail nəsli Ordular Rəbbinin üzüm bağıdır,

Yəhuda adamları isə Onun sevimli meynələridir" (Yeş. 5:7). Bu xalqa Allah böyük üstünlüklər verərək, Öz səxavətli əli ilə onlara bolluca xeyir-dua verdi. O gözləyirdi ki, bu adamlar Onu məhsul gətirməklə izzətləndirəcəklər. Onlar hamıya Allahın Padşahlığının prinsiplərini açmalı idilər. Bu düşkünləşmiş günahkar dünyada onlar Allahın xasiyyətini nümayiş etdirməli idilər.

Rəbbin üzüm bağı olaraq, onlar bütpərəst xalqların gətirdikləri məhsula tamamilə oxşamayan məhsul verməli idilər. Bu bütpərəst xalqlar tamamilə günahlı əməllərə cəlb edilmişdilər. Zorakılıq və cinayət,

tamahkarlıq və istibdad, hər cür öldürücü adətlər hər hansı bir məhdudiyyətsiz bu xalqların həyatını doldururdu. Pozğunluq, çürümə və fəlakət bu cır ağacların məhsulları idi. Allahın basdırdığı tənəklərin məhsulları onlar kimi olmamalı idi.

İbrani xalqının xüsusi imtiyazı Allahın xasiyyətini Musaya açıldığı kimi nümayiş etdirmək idi. Musanın "İzzətini mənə göstər" duasına Rəbb cavab verərək vəd edir: "Mən bütün xeyirxahlığımı sənin qarşından keçirəcəyəm və Rəbb olan adımı qarşında bəyan edəcəyəm" (Çıx. 33:19). "Musanın qarşısından keçərək dedi: Rəbb Mənəm, rəhmli və lütfkar

Rəbb Allaham. Mən hədsiz səbirli, bol məhəbbətli və sədaqətliyəm, minlərlə nəslinə məhəbbətimi göstərərəm, cəzanı, asiliyi və günahı bağışlayaram; lakin cəzasız qoymaram, ataların cəzasını üçüncü-dördüncü nəslə qədər nəvə-nəticələrinə verərəm” (Çıx. 34:6, 7). Allah Öz xalqından da belə məhsul gözləyirdi. Ürəklərinin təmizliyi ilə, həyatlarının qüdsiyyəti ilə, mərhəmətli, xeyirxah və şəfqətli olmaları ilə onlar göstərməli idilər ki, “Rəbbin qanunu kamildir, canı təzələyir” (Məz. 19:7).

Allahın məqsədi ibrani xalqının vasitəsilə bütün digər xalqlara bolbol

[219] xeyir-dua vermək idi. İsrail vasitəsilə Onun nurunun parıltısı bütün dünyaya yayılmalı idi. Dünya xalqları öz pozğun ehtirasları və adətləri ardınca gedərək, Allah bilgisini unutdular. Buna baxmayaraq, Öz mərhəmətilə Allah onları yer üzündən silmədi. O onlara Öz imanlılar cəmiyyəti vasitəsilə Onu tapmaq imkanı verdi. O istəyirdi ki, Onun xalqı vasitəsilə açılmış ruhlu prinsiplər, insanda Allahın ruhlu surətini bərpa etməyə kömək etsin.

Məhz bu məqsədə görə Allah İbrahimi öz bütpərəst ətrafından ayrılıb Kənan torpağına getməyə təhrik etdi. "Səndən böyük bir millət

törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan” (Yar. 12:2).

İbrahimin törəmələri Misirə gətirildilər ki, bu çoxsaylı və günahkar xalqın içində onlar Allahın Padşahlığının prinsiplərini aça bilsinlər. Yusifin paklığı və onun bütün Misir xalqının həyatının xilası üçün gördüyü heyrətamiz işləri Məsihin xasiyyətinin gözəlliyini nümayiş etdirirdi. Musa və İbrani xalqının bir çox digər nümayəndələri də Allah haqqında şəhadət edənlər idilər.

İsraili Misirdən çıxararaq, Rəbb yenə də Öz gücünü və Öz mərhəmətini göstərir. Onun ibraniləri köləlikdən azad etmək üçün gördüyü heyrətamiz işləri, onlar səhrada olduqları zaman göstərdiyi himayə və mərhəmət yalnız bu xalqa qarşı xeyirxahlıq deyildi. Bunlar bütün ətraf xalqlar üçün ibrətamiz dərslər idi. Bununla Rəbb Özünü xalqlara hər cür insan hakimiyyətindən və insan ucalığından yüksək olan Allah kimi nümayiş etdirirdi. Onun Öz xalqı naminə göstərdiyi əlamət və möcüzələr Onun təbiət üzərində və təbiətə səcdə edənlərin ən dahiləri üzərində hakim olduğuna şəhadət edirdi. Allah qürurlu Misir torpağı

üzərindən axır günlərdə yer üzərindən keçəcəyi kimi keçdi. Od və tufanla, zəlzələ və ölümlə böyük "Mən Var Olanam" Öz xalqını xilas elədi. O onları quldarlıq ölkəsindən çıxardı. Onları "böyük və qorxunc səhradan, zəhərli ilan və əqrəblərlə dolu olan susuz şoran torpaqlardan" keçirdi [220] (Qan.tək.8:15). O "onlara yemək üçün manna yağdırdı, göylərin taxılını verdi" (Məz. 78:24). "Çünki Rəbbin payı Öz xalqıdır, — Musa dedi, — Yaqub Onun payına düşən mirasıdır. Onu quraq bir torpaqda, uğultulu boş — biyaban səhrada tapdı. Bir sipər kimi onu hifz etdi. Göz bəbəyi kimi onu qorudu. Yuvasında balalarını sövq etdirərək

uçuran, onların üzərində qanad çalan, qanadlarını açıb onları tutan, pərlərinin üzərində aparan qartal kimi, ona yol göstərən yalnız Rəbb idi. Yanında özgə bir allah yox idi" (Qan.tək. 32:9-12). Beləliklə, onları Özününkü etdi ki, onlar Uca Olanın qanadları altında qala bilsinlər.

Məsih İsrail övladlarının səhrada gəzdikləri zaman da rəhbəri idi. Gündüz buludda, gecə isə odda gizlənərək onlara istiqamət verirdi. O onları səhradakı təhlükələrdən qorudu, vəd edilmiş torpağa gətirdi və Allahı tanımayan bütün xalqların qarşısında İsraili Öz şəxsi mirası

kimi, Rəbbin üzüm bağı kimi təsdiqlədi.

Bu xalqa İlahi vəhy verilmişdi. Bu xalqın hasarları Onun qanununun müddəaları, əbədi həqiqət, salehlik və paklıq prinsipləri idi. Bu prinsiplərə riayət etmək onlar üçün mühafizə olmalı idi və onları günahkar işlərlə özlərini məhv etməkdən qorumalı idi. Üzüm bağındakı qüllə kimi, Allah da vəd edilmiş torpağın içində Öz müqəddəs məbədini yerləşdirdi.

Səhrada olduğu kimi, indi də Məsih İsrail xalqının müəllimi və onun rəhbəri idi. Qurbangah və məbəddə Onun izzəti daim əqdəsdə əhd sandığının üstündə idi. Allah

daim seçdiyi xalqa Öz məhəbbətinin və çoxsəbirliliyinin zənginliyini göstərirdi.

Allah Öz xalqını tərif və şərəf içində yüksəltmək istəyirdi. Bu xalqa bütün ruhlu üstünlüklər verilmişdi. Allah ondan heç nəyi əsirgəmədi ki, bu onlarda Onun haqqında yanlış təsəvvür formalaşdıra bilməsin.

İbranilərin İlahi Qanuna riayət etmələri onların bütün dünya qarşısında möcüzəli inkişafına səbəb olardı. Onlara ilkin müdriklik və bacarıq verən Şəxs, bundan sonra da onların müəllimi olaraq, Öz qanunlarına riayət etmək vasitəsilə onları daha çox yüksəldə və

nəcibləşdirə bilərdi. [221] Onlar itaətkar olsaydılar, özlərini xəstəliklərdən qoruyar və daha çox əqli xeyir-dualar alardılar. Onların inkişafında Allahın izzəti, Onun qadirliyi və qüdrəti izhar olunmalı idi. Onlar kahinlər və padşahlar xalqı olacaqdılar. Allah onların yer üzündə ən böyük xalq olmaları üçün hər cür xeyir-dua verəcəkdi.

Məsih, Musanın vasitəsilə aydın surətdə İsrail qarşısında Allahın məqsədini qoydu və onların inkişafının şərtlərini göstərdi. “Siz Allahınız Rəbbin müqəddəs xalqısınız. O sizi yer üzündəki bütün xalqlar içərisindən Özünə məxsus

xalq olaraq seçdi. Rəbbin sizi sevməsi, seçməsi o biri xalqlardan daha çox olduğunuz üçün deyil. Həqiqət, siz onlardan azsınız. Rəbb sizi sevdiyi və atalarınıza verdiyi vədi yerinə yetirmək istədiyi üçün qüdrətli əli ilə sizi Misirdən çıxartdı. O sizi köləlik diyarından, Misir padşahı firondan satın aldı. Bilin ki, Allahınız Rəbb əsl Allahdır. O, vəfalı Allahdır. Əhdinə sadiq qalıb Onu sevənlərin, əmrlərini yerinə yetirənlərin minlərlə nəslinə məhəbbətini göstərər. Ona nifrət edənləri isə qisas alaraq məhv edəcək. Onlardan qisasını almağa gecikməyəcək, mütləq edəcək. Ona görə sizə bu gün buyurduğum əmrləri, qanunları və hökmləri

diqqətlə yerinə yetirin. Əgər bu əmrlərə qulaq asıb diqqətlə əməl edəcəksinizsə, Allahınız Rəbb ata — babalarınıza etdiyi anda sadiq qalıb məhəbbətini göstərəcək. O sizi sevəcək, bərəkətli edib çoxaldacaq. Sizə vermək üçün atalarınıza and etdiyi torpaqda, bətndən doğulanlarınızı, torpağınızın bəhrəsini, buğdanızı, təzə şərabınızı, zeytun yağınızı, mal — qaranızın və qoyun — keçilərinizin balalarını bərəkətli edəcək. O biri xalqlardan daha çox siz xeyir-dua alacaqsınız... Rəbb üzərinizdən bütün xəstəlikləri götürəcək. Sizi Misirdə gördüyünüz dəhşətli xəstəliklərin heç birinə

məruz qoymayacaq” (Qan.tək. 7:6-15).

Əgər onlar onun əmrlərini yerinə yetirsəydilər, Allah onlara buğdanın ən yaxşısını verməyi və onlardan ötrü qayadan bal çıxaracağını vəd etmişdi. Onlara uzun ömür bəxş edəcək və xilasını açacaqdı. [222]

Allaha itaətsizliklərinə görə Adəm və Həvva Ədəmi itirdilər, onların günahı üzündən isə bütün yer lənətləndi. Fəqət Allahın xalqı Məsihin öyüdlərinə riayət etsə idi, onun torpağının bərəkəti və gözəlliyi bərpa olacaqdı. Allah insanlara torpağın becərilməsinə dair Özü nəsihət verdi; onlar onun bərpa

edilməsində yalnız Onunla əməkdaşlıq etməli idilər. Bütün dünya Allahın idarəsi altında olaraq, mənəvi həqiqətin təsviri dərsi olardı. Torpaq Allahın təbiətdə qoyduğu qanunlara uyğun olaraq öz məhsulunu verdiyi kimi, insanların ürəkləri də Onun ruhlu qanununa tabe olaraq, Onun xasiyyətinin keyfiyyətlərini əks etdirə bilərdi. Hətta bütpərəstlər də canlı Allaha xidmət və səcdə edənlərin üstünlüyünü etiraf edərdilər.

“Baxın, — Musa deyir, — Allahım Rəbbin mənə əmr etdiyi qayda və hökmləri sizə öyrətmişəm ki, mülk olaraq almaq üçün daxil olacağınız torpaqda bunlara əməl

edəsiniz. Onlara diqqətlə riayət edin. Bu, digər xalqlara nə qədər müdrik və aqil olduğunuzu göstərər. Onlar bu qaydaları eşidəndə deyəcəklər ki, bu böyük millət həqiqətən müdrik və aqil bir xalqdır! Allahımız Rəbb hər dəfə dua edərkən bizə yaxın olar. Axı hansı millət belə üstündür ki, Allahı ona bu cür yaxın olsun? Hansı millət belə üstündür ki, bu gün qarşınıza gətirdiyim bu Qanun kimi ədalətli qaydalara və hökmlərə malik olsun?" (Qan.tək. 4:5-8).

İsrail övladları Allahın onlar üçün nəzərdə tutduğu bütün ərazidə yayılmalı idilər. Bu torpaqlar İsrailə həqiqi Allaha səcdə və xidmət

etməyən xalqlardan verilməli idi. Lakin Allahın məqsədi israillilərin vasitəsilə Öz xasiyyətini açaraq, digər xalqları da Özünə cəlb etmək idi. Müjdənin dəvəti bütün dünyaya verilmişdir. Qurbanlıq mərasimində açılan təlim vasitəsilə Məsih bütün xalqlar qarşısında yüksəldilməli idi və Ona iman edən hər kəs yaşaya bilərdi. Kənanlı Rahav və Moavlı Rut kimi, bütpərəstlikdən dönüb həqiqi Allaha ibadət etməyə başlayan hər kəs Onun seçdiyi xalqla birləşməli idi. İsrailin sakinlərinin sayı artdıqca onun sərhədləri bu padşahlıq bütün dünyanı əhatə edənə qədər genişlənməli idi. [223]

Allah istəyirdi ki, bütün xalqlar Onun mərhəmətli rəhbərliyini qəbul etsinlər. O istəyirdi ki, yer üzü sevinc və sülh ilə dolsun. O insanı səadət üçün yaratmışdır və insanların qəlblərini səmavi sülh ilə doldurmağa çalışır. O arzu edir ki, burada, dünyada insan ailələri böyük səma ailəsinin simvolu olsunlar.

Fəqət İsrail Allahın məqsədini yerinə yetirmədi. Rəbb nida etdi: “Mən səni gözəl meynə, tər-təmiz toxum kimi əkmişdim. Sən necə əleyhimə çıxıb cır, yabanı meyvə oldun?” (Yer. 2:21). “İsrail bir qollubudaqlı meynədir ki, bol-bol bar gətirir” (Huş. 10:1). “İndi isə xahiş

edirəm, ey Yerusəlimdə yaşayanlar, ey Yəhuda adamları, mənimlə üzüm bağımın arasında hakim olun! Bağım üçün daha nə etməliyəm? Üzümlüyün barını gözləyərkən axı nə üçün bağım cır üzüm gətirsin? İndi qoy mən sizə bağımla nə edəcəyimi bildirim: çəpərini sökəcəyəm və meynələrini heyvanlar yeyib qurtaracaq, hasarını yıxacağam və onlar tapdalanacaq. Oranı viranəliyə çevirəcəyəm, oranı nə budayacaqlar, nə də belləyəcəklər. Orada tikan və qanqal bitəcək, buludlara əmr edəcəyəm ki, üzərinə yağış yağmasın. İsrail nəsli Ordular Rəbbinin üzüm bağıdır, Yəhuda adamları isə Onun sevimli meynələridir. O, ədalət gözləyirdi,

budur, zorakılıq gördü, O, salehlik gözləyirdi, budur, fəryadlar gördü!" (Yeş. 5:3-7).

Rəbb Musa vasitəsilə Öz xalqına onun sədaqətsizliyinin nəticələrini göstərdi. Onun əhdini qorumaqdan imtina etməklə, özlərini Allahda olan həyatdan ayırırdılar və Onun xeyir-duaları onlara çatmazdı. "Bu gün sizə buyurduğum Rəbbin əmr, hökm və qanunlarına riayət edin, — Musa deyirdi. — Yeyib doyanda, gözəl evlər tikib içərisində oturanda, naxırınız, sürünüz çoxalanda, qızıl-gümüşünüz və hər şeyiniz artanda ürəyiniz qürurla dolmasın. Diqqət edin ki, sizi Misir torpağından —

köləlik diyarından çıxaran Allahınız Rəbbi unutmayasınız. Rəbb sizi o böyük və qorxunc səhrada, zəhərli ilan və əqrəblərlə dolu olan o susuz şoran torpaqlarda gəzdirdi, sizə sərt qayalardan su çıxartdı. Sizi atalarınıza [224] məlum olmayan manna ilə qidalandırdı. Xoş güzəranınız olsun deyə qürurunuzu sındıraraq sizi sınaqdan keçirdi. Ürəyinizdə "biz öz qabiliyyətimizlə və biləyimizin gücü ilə bu sərvəti qazandıq" deməyəsiniz. Unutmayın ki, bu sərvəti qazanmaq qabiliyyətini sizə verən Allahınız Rəbdir. O bunu edir ki, bugünkü kimi atalarınıza vəd verərək sizinlə kəsdiyi əhdi yerinə yetirsin. Əgər Allahınız Rəbbi

unudub başqa allahların ardınca getsəniz, onlara sitayiş edərək səcdə etsəniz, bu gün sizin qarşınızda şəhadət edirəm ki, mütləq məhv olacaqsınız! Allahınız Rəbin sözünə qulaq asmasanız, Rəbb sizin qarşınızda millətləri yox etdiyi kimi, sizi də yox edəcək” (Qan.tək. 8:11-20).

İsrail xalqı bu xəbərdarlığa fikir vermədi. O heç nəyə baxmayaraq Allahı unutdu və Onun bu dünyada təmsilçisi olmaq kimi yüksək üstünlüyü nəzərdən qaçırdı. Onun aldığı xeyir-dualar bütün dünya üçün nəzərdə tutulmuşdur. Malik olduğu bütün üstünlüklər özünün

izzətləndirilməsi üçün sərf edildi. Onlar Allahdan Onun tələb etdiyi xidməti, yaxınlarından isə dini rəhbərliyi və müqəddəslik nümunəsini oğurlayırdılar. Daşqından əvvəlki dünyanın sakinləri kimi, onlar öz yaman ürəklərinin hər cür istəklərini ödəmək yolu ilə gedirdilər. Onlar Müqəddəs mərasimləri əyləncəyə çevirərək deyirdilər: "Burada Rəbbin məbədi var, Rəbbin məbədi var, Rəbbin məbədi var" (Yer. 7:4) və eyni zamanda, Allahın xasiyyətini təhrif edirdilər, Onun adını şərəfsiz edirdilər və Onun əqdəsini murdarlayırdılar.

Rəbbin üzüm bağına xidmət etmək tapşırılmış bağbanlar onlara göstərilmiş etibarı doğrultmadılar. Kahin və müəllimlər xalqın həqiqi öyüd verənləri olmadılar. Onlar xalqa Allahın xeyirxahlığını, Onun mərhəmətini və Onun onlardan məhəbbət və sədaqətli xidmət gözləməyə hüququ olduğunu nümayiş etdirmədilər. Onlar yalnız özlərinin izzətlənməsi üçün can atırdılar. Əslində üzüm bağının məhsulunu onlar özlərinə götürmək fikrində idilər. Onlar hörmət və diqqəti özlərinə cəlb etmək istəyirdilər. [225]

İsrail rəhbərlərinin təqsiri adi günahkarın təqsirindən fərqli idi. Bu

adamlar Allah qarşısında xüsusi məsuliyyət daşıyırdılar. Onlar öz üzərlərinə “Rəbb deyən kimi” öyrətmək və öz gündəlik həyat tərzlərilə Allaha itaətkarlıq nümunəsi olmaq işini götürmüşdülər. Bunun əvəzinə onlar Yazıları təhrif edirdilər. Onlar insanların üzərlərinə onların hər addımını izləyən gərəksiz mərasimlərin ağır yükünü qoymuşdular. Kahinlərin onların üzərinə qoyduqları tələbləri yerinə yetirə bilmədiklərinə görə, insanlar daim narahatlıq içində idilər. Onlar insanların icad etdikləri bütün qaydalara riayət etməyin mümkün olmadığını görərək, bu nəticəyə

gəlirdilər ki, Allahın əmrlərinə də qayğısız və etinasız olmaq olar.

Rəbb Öz xalqını öyrədirdi ki, üzüm bağının sahibi məhz Odur, insanların malik olduqları hər şey onlara Allah tərəfindən etibar edilmişdir və Onun məqsədlərinə xidmət etmək üçün istifadə olunmalıdır. Lakin kahin və müəllimlər onlara etibar edilmiş müqəddəs tapşırığı yerinə yetirməyərək, Allahın mülkiyyətini əmr oldunduğu kimi sərf etmədilər. Onlara etibar edilən və Onun işini yerinə yetirmək üçün nəzərdə tutulmuş vəsait və qabiliyyətləri özününkü edərək, daim Allahdan

oğurlayırdılar. Onların tamahkarlığı və hərisliyi hətta bütpərəstlərin də nifrətinə səbəb olurdu. Bütün bunların nəticəsində bütpərəst dünyası Allah və Onun padşahlığının qanunları haqqında səhv təsəvvür əldə etdi.

Ata təhəmmülü ilə Allah Öz xalqının ürəyinə yol axtarırdı. O onlara Öz yaxşılıqlarını verərək, yaxud alaraq təsir etməyə çalışırdı. Təhəmmül və inadla insanların günahlarını göstərərək gözləyirdi ki, onlar öz günahlarını dərk edib tövbə edəcəklər. Allah onların yanına peyğəmbər və elçilər göndərirdi, onlar inadla Allahın onlara bağban

kimi təqdim etdiyi tələblərini xatırladırdılar, fəqət İsrail xalqı onları dinləmirdi. Əksinə, onları düşmən kimi qarşılayırdılar, təqib edir və öldürürdülər. Allah onların yanına digər elçilər göndərirdi, fəqət onlarla da əvvəlkilər kimi davranırdılar, lakin daha böyük nifrətlə.

Nəhayət, Allah sonuncu vasitəyə əl atdı, O Öz Oğlunu göndərib dedi: [226] "Oğluma hörmət edərlər". Lakin əvvəlki müqavimətləri onları daşlaşdırdı və "aralarında dedilər: Varis budur, gəlin onu öldürək ki, miras bizə qalsın". Onlar üzüm bağını qəsb edib, onun məhsulu ilə özləri

istədikləri kimi rəftar etmək istəyirdilər.

Yəhudi rəhbərləri Allahı sevmirdilər; buna görə onlar özlərini Ondan ayırdılar və Onun Öz mülkiyyətinə olan tələblərinin ədalətli olduğunu sübut etmək üçün bütün cəhdlərini rədd etdilər. Məsih, Allahın Sevimlisi gəldi ki, üzüm bağının Sahibinin tələblərini təqdim etsin, fəqət bağbanlar Ona açıq nifrət hissi ilə yanaşaraq, dedilər: “biz istəmirik ki, bu adam bizim padşahımız olsun”. Onlar Məsihin xasiyyətinin gözəlliyinə paxıllıq edirdilər. Onun təlim üsulları onların şəxsi metodlarını qatqat üstələdiyinə görə

onlar Onun müvəffəqiyyətindən qorxurdular. O onlara xəbərdarlıq və töhmət edərək onların riyakarlığını ifşa edir və əməllərinin gələcəkdə baş verəcək nəticələrini açırdı. Onlar təkzib edə bilmədikləri töhmətlərə dözə bilmirdilər. Məsihin nümayiş etdirdiyi yüksək salehlik nümunəsinə nifrət edirdilər. Onlar görürdülər ki, Onun təlimi onları elə bir vəziyyətə salır ki, bu zaman onların eqoizmi aşkar olur. Onlar Onu öldürmək qərarına gəldilər. Onlar Məsihin gördüyü hər işində üzə çıxan doğruluq, möminlik və yüksək ruhanilik nümunələrinə nifrət edirdilər. Onun bütün həyatı onların özünəməhəbbət hisslərinə toxunurdu

və sonuncu sınaq vaxtı gəldiyi zaman, onlar əbədi həyat verən itaət və əbədi ölümə aparan itaətsizlik arasında seçməli olduqları zaman İsrail Müqəddəsini rədd etdilər. Məsihi, yaxud Barabbanı seçmək təklif edilən zaman onlar qışqırdılar: "Onu rədd et! Lakin bizə Barabbanı sərbəst burax!" (Lk. 23:18). Pilat soruşanda ki, "Elə isə Məsih deyilən İsaya nə edim?" onlar səbirsizliklə bağırdılar: "Çarmıxa çəkilsin!" (Mt. 27:22). Pilat onlara dedi: "Padşahınızı çarmıxamı çəkim?" Baş kahinlər cavab verdilər: "Qeysərdən başqa padşahımız yoxdur" (Yəh. 19:15). Pilat: "Mən bu Salehin qanı üçün cavabdeh deyiləm", — deyib xalq

qarşısında əllərini yuyandan sonra, bütün xalq cavab verib dedi: [227] “Onun qanı bizim və uşaqlarımızın üzərinə olsun” (Mt. 27:24, 25).

İsrail rəhbərləri öz seçimlərini etdilər. Onların qərarı Yəhyanın gördüyü taxtda Oturanın əlində olan və insanlardan heç birinin aça bilmədiyi kitabda yazılmışdır. Özünün bütün amansızlığı ilə bu qərar Yəhuda nəslindən olan Aslan tərəfindən həmin böyük gündə kitab açıldığı zaman onların qarşısına qoyulacaqdır.

Yəhudi xalqı ümid bəsləyirdi ki, o, səmanın sevimlisidir, Allahın imanlılar cəmiyyəti kimi daim

yüksəlmiş olmalıdır. İbrahimin övladları olmaları ilə qürrələnən yəhudilər öz firavanlıqlarının əsasını o qədər möhkəm sayırdılar ki, həm yerin, həm də göyün onları yüksək imtiyazlardan məhrum edə bilməyəcəyini düşünürdülər. Lakin öz günahkar həyatları ilə özləri üçün Göylərin mühakiməsini və Allahdan ayrılmağı hazırladılar.

Üzüm bağı haqqında məsəli söyləyərkən, Məsih kahinlərə onların sonuncu günahkar fəaliyyətlərini nümayiş etdirdi və axırda onlara sual verdi: “İndi bağın sahibi gəldiyi zaman bu bağbanlara nə edəcəkdir? Hekayə ilə cəlb edilmiş, fəqət

deyilənlərin özlərinə aidiyyəti haqqında düşünməyərək, kahinlər digər dinləyicilərə qoşulub belə cavab verdilər: “Bu pis adamları qorxunc bir ölümə uğradacaq və bağı elə bağbanlara icarəyə verəcək ki, məhsulunu mövsümündə ona versinlər”.

Onlar istəməyərəkdən özləri üçün hökm verdilər. İsa onlara nəzər saldı və Onun sınayıcı baxışları altında başa düşdülər ki, O onların ürək sirlərini oxuyur. Onun İlahi mahiyyəti onların qarşısında təkzibolunmaz qüvvə ilə parladı. Onlar birdən bağbanlarda özlərini görüb fəryad etdilər: “Allah, rəhm et!”

Dərin hüznlə Məsih onlara dedi: "Siz Yazılarda: "Bənnaların rədd etdikləri daş, küncün başı oldu. Bunu Rəbb etdi və bu bizim üçün heyrətli iş oldu" sözlərini heç oxumamısınızmı? Buna görə sizə deyirəm ki, Allahın Padşahlığı sizdən alınıb, Onun meyvələrini yetişdirəcək bir millətə veriləcəkdir. Bu daşın üstünə yıxılan parçalanacaq, o isə kimin üzərinə düşərsə, onu əzəcəkdir". [228]

Əgər bu adamlar Onu qəbul etsəydilər, Məsih ibrani xalqının üzərindən hökmü götürərdi. Lakin paxıllıq və qısqanclıq onları barışmaz etdi və onlar Nazaretli İsanı Məsih kimi qəbul etməmək qərarını verdilər.

Onlar dünyanın İşığını rədd etdilər və buna görə onların həyatı gecəyarısı zülmətinə qərq oldu. Yəhudi xalqı üzərində ona xəbərdarlıq edilmiş hökm icra edildi. Şəxsi idarəolunmaz yaman hissləri onları məhvə doğru apardı. Kor qəzəb içində adamlar bir-birini məhv edirdilər. Öz üsyankar, yenilməz qürurları ilə Roma fatehlərinin qəzəbinə düçar oldular. Yerusəlim bünövrəsinə qədər uçuruldu, məbəd xarabalığa çevrildi, onun dayandığı yer isə bellləndi. Yəhudi övladları ən dəhşətli ölümlə ölürdülər. Onlardan milyonları bütpərəstlərə qul kimi satıldılar.

Bir xalq kimi, yəhudilər Allahın məqsədini yerinə yetirmədilər və üzüm bağı onlardan alındı. Onların öz məqsədləri üçün istifadə etdikləri üstünlüklər, onların hörmətsizlik göstərdikləri iş — bütün bunlar digərlərinə tapşırıldı.

## İmanlılar cəmiyyəti bizim günlərdə

Üzüm bağı haqqında məsəl yalnız yəhudi xalqına aid deyildir. Onda bizim üçün də dərs vardır. Allah bu gün Öz imanlılar cəmiyyətinə böyük üstünlüklər və xeyir-dualar bəxş etmişdir və ondan müvafiq bəhrələr gözləyir.

Biz böyük qiymət hesabına xilas edilmişik. Bu bağışlanmanın nəticələrini biz yalnız verilmiş qurbanın böyüklüyünü layiqincə qiymətləndirdiyimiz zaman dərk edəcəyik. Bu torpaqda, Allahın Oğlunun göz yaşları və qanı ilə suvarılmış torpaqda qiymətli cənnət məhsulları bitməlidir. Allahın xalqının həyatında özünün bütün izzəti və kamilliyi ilə İlahi Kəlamın həqiqətləri açılmalıdır. Öz xalqı vasitəsilə Məsih Öz xasiyyətini və Öz padşahlığının prinsiplərini izhar etməlidir. [229]

İblis Allahın işinə mane olmaq istəyir və daim insanı öz şeytani

prinsiplərini qəbul etməyə təhrik edir. O, Allahın seçdiyi xalqı aldanmış kimi təsvir edir. O, qardaşların ittihamçısıdır və onun ittihamları salehlikdə sarsılmaz olanlara qarşı yönəlmişdir. Rəbb Öz xalqı vasitəsilə şeytanın bütün ittihamlarına cavab verərək, doğru olan prinsiplərə itaət etməyin nəticələrini göstərir.

Bu prinsiplər hər bir məsihçinin həyatında, hər bir ailədə, hər bir imanlılar cəmiyyətində və Allaha xidmət üçün yaradılmış hər bir məbəddə izhar edilməlidir. Bütün bunlar özündə dünya üçün görüləcək işi təzahür etdirməlidir. Bu salehlik prinsipləri Xoş Xəbər həqiqətlərinin

xilasedici qüvvəsini nümayiş etdirməlidir. Onların hamısı ondan ötrü nəzərdə tutulmuşdur ki, Allahın bəşəriyyətə aid məqsədini həyata keçirsin.

İbrani xalqının rəhbərləri öz möhtəşəm məbədlərinə və onun içində həyata keçirilən təmtəraqlı dini mərasimlərə iftixarla baxırdılar; lakin onlarda ədalət, mərhəmət və Allaha məhəbbət hissi çox az idi. Nə məbədin izzəti, nə onların ibadətlərinin təmtəraqlı olması onlara Allah qarşısında bəraət vermədi, çünki Onun gözündə qiymətli olan yeganə bir şeyi ona vermirdilər. Ona təvazökar və məğlub olmuş ruhun

qurbanını vermirdilər. Allahın Padşahlığının həyati prinsipləri itirilən zaman mərasimlər daha çox möhtəşəm və təsiredici olur. Xasiyyətin formalaşması baxımsız qaldığı zaman, ruhun uca keyfiyyətlərlə zənginləşdirilməsində səhlənkarlıq duyulduğu zaman, mömінliyin sadəliyi nəzərdən qaçırılan zaman insanın qüruru və zahiri cah-cəlala sevgisi möhtəşəm binalar ucaltmağı, təmtəraqlı bəzək vurmağı və valehedici mərasimlər və ayinlər icra etməyi tələb edir. Bunların hamısında Allaha həqiqi sitayiş çox azdır. Faniləşmiş imanlılar cəmiyyəti yalnız zahiri mərasimlərlə, üzdə olan mömінliklə və xarici cah-

cəlalla məhdudlaşanda Allaha məqbul deyildir. Belə ibadət Səma tərəfindən qəbul edilə bilməz.

İmanlılar cəmiyyəti Allahın gözündə çox qiymətlidir. O onu xarici [230] gözəlliyinə görə deyil, onu dünyadan fərqli edən səmimi möminliyinə görə qiymətləndirir. Məsih imanlılar cəmiyyətini onların Məsihi dərk etmələrində böyümələri və onların ruhlu təcrübələrinin genişlənməsi müqabilində dəyərləndirir.

Məsih istəyir ki, Onun üzüm bağı Ona gerçək qüdsiyyət və təmənnasızlıq məhsulu versin. O Öz üzüm bağında məhəbbət və

xeyirxahlıq prinsipləri axtarır. Heç bir incəsənət gözəlliyi həqiqi məsihçilərdə açılan xasiyyət gözəlliyi və yaxşı əxlaqla müqayisə edilə bilməz. imanlını əhatə edən lütf atmosferi, onun şüuru və ürəyi üzərində işləyən Müqəddəs Ruh onu dünyanın duzu, həyatverən ətir edir və bu, Allaha onların zəhmətlərinə xeyir-dua vermək imkanı verir.

İmanlıların yığıncaq yerləri ətrafda ən kasıb ola bilər. O, xarici gözəllikdən məhrum ola bilər; lakin əgər qardaşlıq üzvləri Məsihin xasiyyət keyfiyyətlərinə malikdirlərsə, onların qəlblərini Onun sevinci dolduracaqdır. Mələklər də

onların sitayişinə qoşulacaqdırlar. Onların minnətdar olan ürəklərinin alqış və şükranlığı Allahın yanına ən xoş qurbanlıq kimi yüksələcəkdir.

Rəbb istəyir ki, biz Onun yaxşılığını xatırlamağı unutmayaq və Onun qüdrətindən danışaq. Öz minnətdarlığımızı bildirərək və şükür edərək, biz Ona hörmət edirik. O deyir: “Kim ki şükür qurbanı təqdim edir, Məni şərəfləndirir” (Məz. 50:23). İsrail xalqı səhrada gəzərkən müqəddəs nəğmələrlə Allahı mədh edirdi. Rəbbin əmr və vədləri musiqiləşdirilərək, israillilərin səyahətləri boyunca oxunurdu. Eləcə də sonralar, Kənanda olarkən,

müqəddəs bayramlara yığılaraq, onlar Onun möcüzəli işlərini xatırlayaraq adına minnətdarlıq və izzət yüksəldirdilər. Allah istəyirdi ki, Onun xalqının bütün həyatı Ona alqış həyatı olaydı. “Qoy yer üzündə Sənin yolun, bütün millətin arasında qurtuluşun tanınsın” (Məz. 67:2).

Bu gün də bunu etmək lazımdır. Fəqət dünya xalqları yalançı ilahilərə səcdə edirlər. Onları səhv sitayişdən döndərmək lazımdır, lakin onların [231] bütlərini mühakimə etməklə deyil, fəqət onlara daha gözəl olanı göstərərək. İnsanlar qarşısında həqiqi Allahın yaxşılığını açmaq vacibdir.

“Sizsiniz şahidlərim, — Rəbb bəyan edir, — Allah Mənəm” (Yeş. 43:12).

Rəbb istəyir ki, biz böyük xilas planını aydın başa düşərək, Allahın övladları olmaq kimi yüksək üstünlüyümüzü lazımınca dərk edərək, Onun qarşısında itaətlə, minnətdarlıq edərək yaşayaq. O istəyir ki, biz Ona yeniləşmiş həyatımızla hər gün sevinc içində xidmət edək. Allah bizim adlarımız Quzunun həyat kitabında yazıldığı üçün və öz qayğılarımızı bizim qayğımızı Çəkənin üzərinə qoymaq imkanına görə ürəklərimizdən axan minnətdarlıq hissini görmək istəyir. O bizi sevinməyə dəvət edir, ona görə

ki, biz Rəbbin varisləriyik, ona görə ki Məsihin salehliyi — Onun müqəddəslərinin ağ paltarlarıdır, ona görə ki, biz öz Xilaskarımızın yaxın olan gəlişinə bəxtiyarlıq verən ümidlə baxırıq.

Dua etmək kimi, ürəkdən səmimiyyətlə Allahı izzətləndirmək bizim borcumuzdur. Biz dünyaya və bütün göy sakinlərinə göstərməliyik ki, biz Allahın yıxılmış bəşəriyyətə qarşı heyrətamiz məhəbbətini hədsiz dərəcədə qiymətləndiririk və Onun sonsuz dolğunluğundan daha çoxçox xeyir-dualar gözləyirik. Bizə indikindən daha tez-tez Allahın bizim həyatımızda gördüyü işlərdən

danışmaq gərəkdir. Əgər biz Allahın yaxşılığını, Onun Öz xalqı naminə gördüyü ecazkar işləri haqqında daim danışsaq, onda Müqəddəs Ruhun xüsusi göndərilməsindən sonra bizim Rəbdəki sevincimiz daha çox artacaq və bizim Ona xidmətimiz daha çox səmərəli olacaqdır.

Şükür və minnətdarlıq ruhu deyinmə və narazılıq ruhunu kənar edərək, şeytanın qüvvələrini elə qovur ki, imtahançının ayağı altından yer qaçır. Biz Allaha alqış və minnətdarlıq edəndə xasiyyətimizdə elə keyfiyyətlər formalaşır ki, onlar yer sakinlərini səma malikanələrində olmaq üçün yararlı edəcəkdir.

Allah haqqında bu kimi şəhadət digərlərinə də təsir edəcəkdir. İnsanları Məsihə cəlb etməyin bundan səmərəli vasitəsi yoxdur. [232]

Biz Allahın adının izzətlənməsi üçün əlimizdən gələni edərək, öz həqiqi və çox konkret xidmətimizlə Onu izzətləndirməliyik. Allah bizə öz ənamlarını ondan ötrü verir ki, biz də onları digərlərinə keçirə bilək; beləliklə, biz dünyaya Onun xasiyyətinin gözəlliyini açırıq. İbrani cəmiyyətində ənam və nəzir Allah xidmətinin mühüm hissəsi idi. İsraillilərə onların bütün gəlirinin onda birini müqəddəs yerdə xidmət

üçün verməyi öyrədirdilər. Bundan əlavə, onlar günah əvəzinə qurban, könüllü ənamlar və minnətdarlıq nəzirləri verməli idilər. Bunun hamısı o uzaq zamanlarda Müjdə xidmətinin köməyinə çatırdı. Allah bizdən bu gün də ondan az tələb etmir. İnsanların xilası üçün görülən böyük iş daima irəliyə getməlidir. Ondalıq, sovqat və ənamlar Onun tərəfindən bu böyük işin yerinə yetirilməsi üçün təyin edilibdir. Bunların hamısı Müjdə işinin köməyi üçün sərf edilməlidir. O ondalığın Ona məxsus olduğunu bəyan etdi və o Onun məqsədlərinin həyata keçirilməsi üçün xəzinəsinə qoyulacaq müqəddəs ehtiyat hesab edilməlidir. O xahiş edir

ki, biz eləcə də öz könüllü sovqatımızı və minnətdarlıq nəzirlərimizi verək. Bütün bunlar Xoş Xəbərin dünyanın hər ucuna yayılması üçün nəzərdə tutulub.

Allaha xidmət şəxsi xidməti də nəzərdə tutur. Öz şəxsi, bilavasitə səylərimizlə biz Allahla dünyanın xilası işində əməkdaşlıq etməliyik. Məsihin “Bütün dünyaya gedin, Müjdəni bütün xilqətə təbliğ edin!” (Mk. 16:15) çağırışı Onun hər bir davamçısına aiddir. Məsihdə yaşamaq üçün qabaqcadan müəyyən edilmiş hər kəs öz yaxınlarının xilas edilməsi üçün çağırılmışdır. Belə imanlının ürəyi Məsihin ürəyi ilə ahəngdar

döyünəcəkdir. O, başqa insanları Məsih sevən kimi sevəcəkdir. Bu müqəddəs işdə hamı eyni səviyyədə işləyə bilməz, lakin yer və iş hər kəs üçün vardır.

Qədim zamanlarda İbrahim və İshaq, Yaqub və Musa öz həlimlik və müdriklikləri ilə, Yeşeya öz çoxşaxəli istedadı ilə — hamısı Allahın işinə cəlb edilmişdilər. Rəbbə xidmət etmək üçün hər şey vacib idi: həm Məryəmin [233] musiqisi, həm Devoranın cəsur və mömin olması, həm Rutun övlad məhəbbəti, həm Şəmuelin itaət və sədaqəti, həm İlyasın dönməz sədaqəti, həm də Elişanın yumşaldıcı, təslimedici

təsiri. Eləcə də bu gün Allahın xeyir-dua ənamlarını almış hər kəs buna həqiqi xidmətlə cavab verməlidir, hər ənam Onun Padşahlığının möhkəmləndirilməsinə və Onun adının izzətləndirilməsinə sərf edilməlidir.

Məsihi öz şəxsi Xilaskarı kimi qəbul etmiş hər adam bütün həyatı ilə Müjdənin həqiqiliyini və onun xilaskar gücünü təsdiq etməlidir. Allah insana tələblər təqdim etməzdən əvvəl onların yerinə yetirilməsi üçün vacib olan hər şey verir. Məsihin lütfü ilə biz Allahın tələb etdiyi hər şeyi icra edə bilərik. Səmanın bütün zənginliyi Allahın

xalqı vasitəsilə izhar edilməlidir. “Atam çox məhsul vermənizlə izzətlənir; beləliklə Mənim şagirdlərim olacaqsınız” (Yəh. 15:8).

Allah bütün dünyanı Öz üzüm bağı sayır. İndi onun müvəqqəti olaraq qəsbkarın əlinə keçməsinə baxmayaraq, o, yenə də Allaha mənsubdur. O, Allaha yalnız Onun tərəfindən yaradılmışdır deyə yox, həm də Onun tərəfindən xilas edilmişdir deyə mənsubdur. Məsih dünyadan ötrü Özünü qurban verdi. “Zira, Allah dünyanı elə sevdi ki, vahid Oğlunu ona verdi” (Yəh. 3:16). Təkcə bu ənamın sayəsində insanlara bütün başqa şeylər də verilmişdir.

Bütün dünya hər gün Allahın xeyir-duasını alır. Bu naşükür bəşəriyyət üzərinə düşən hər günəş şüası, hər yağış damlası, hər bir yarpaq, çiçək və məhsul Allahın çox səbirli olduğu və Onun böyük məhəbbəti haqqında şəhadət edir.

Bizə hər cür nemətlər bəxş Edənin Özü bəs cavabında nə alır? İnsanlar Onun çağırışlarına necə cavab verirlər? İnsan kütlələri öz həyatlarını kimə xidmət etməyə verirlər? Onlar mammona xidmət edirlər. Var-dövlət, cəmiyyətdə yüksək mövqe, dünyəvi ləzzətlər — onların məqsədləri bunlardır. Var-dövlət isə yalnız insanlardan deyil,

Allahdan da oğurlamaqla toplanır. Bu, yaxud başqa yol ilə əldə edilmiş vəsaitləri insanlar öz eqoizmlərinin ödənilməsinə sərf edirlər. Qopara bildikləri [234] hər şey onların tamahkarlığının və ehtiraslarının ödənilməsinə yönəldilir.

Bu gün dünyanın günahı bir zaman İsraili məhvə gətirən həmin günahdır. Allaha qarşı naşükürlük, insanlara ənam edilmiş imkanlara və xeyir-dualara qarşı onların sayğısızlığı, Allahın ənamlarını eqoistcəsinə mənimsəmək — bütün bunları bir zaman Allahın qəzəbini öz üzərinə cəlb etmiş İsrailin günahı

özündə cəmləşdirmişdir. Elə bu da dünyanı bu gün məhvə sürükləyir.

Zeytun dağından seçilmiş şəhərə baxarkən Məsih yalnız Yerusəlim üçün ağlamırdı. Yerusəlimin timsalında O bütün məhvə doğru gedən dünyanı görürdü.

“Ah, kaş sənin bu günündə də olsa, sülhün üçün xidmət edən şeyləri biləydin! Amma bunlar indilik gözlərindən gizlənmişdir” (Lk. 19:42).

“Sənin bu günündə”. Həmin gün sona yaxınlaşır. Rəhm və lütf vaxtı yaxın zamanda qurtaracaqdır. Qisas və cəza buludları yığılır. Allahın

lütfünü rədd edənlər tez və qaçılmaz məhvə yaxınlaşırlar.

Amma dünya hələ də yuxudadır. Adamlar onlara yaxınlaşan günün vaxtını bilmirlər.

İmanlılar cəmiyyəti bu böhranlı vaxtda harada olmalıdır? Onun üzvləri Allahın tələblərinə riayət edirlərmi? Onlar Onun tapşırığını dünyada icra edirlərmi və Onun xasiyyətini bəşəriyyət qarşısında açırlarmı? Öz yaxınlarının diqqətini sonuncu rəhmli dəvətin xəbərdarlığına cəlb edirlərmi?

İnsanlar təhlükədədirlər. Çoxları məhv olmaqdadırlar. Fəqət özlərini Məsihin davamçıları adlandıranların

içində bu məhv olan insanlardan ötrü həyəcan keçirən nə azdır. Dünyanın taleyi tərəziyə qoyulmuşdur; lakin bu hətta həqiqətə ən əhatəli və dolğun şəkildə inandıqlarını bəyan edənləri də az həyəcanlandırır. Məsihi Öz səma evini tərk edib insan təbiətini qəbul edərək, bəşəriyyətə yaxınlaşdıran, onu Allaha qarşı aparmağa güc verən məhəbbətin azaldığı hiss edilir. Hətta Allahın xalqında da hansısa iradə iflici, donma hiss edilir, bunlarsa [235] onlara özlərinin ən mühüm vəzifələrini dərk etməyə mane olur.

İsraillilər Kənana daxil olduqları zaman onlar bütün bu torpağa malik

olmadılar, bununla da Allahın niyyətlərini həyata keçirmədilər. Torpağı qismən fəth edərək, onlar nail olduqlarında rahatlandılar və öz qələbələrinin məhsulları ilə fəxr etdilər. Öz imansızlıqlarında və asan yol ilə getmək arzularında güclənərək, zəbt etdikləri sahədə məskunlaşdılar və irəliyə gedərək yeni ərazilər zəbt etmək istəmədilər. Beləliklə, onlar Allahdan uzaqlaşmağa başladılar. Allahın niyyətlərini həyata keçirməkdə bacarıqsızlıq göstərməklə Allahın onlara vəd etdiyi xeyir-duasını da almadılar. İmanlılar cəmiyyəti bu gün də həmin işi etmirmi? Qarşılarında Müjdəyə möhtac olan bütün dünya

olduğu halda, özlərini məsihçi adlandıran adamlar Xoş Xəbərin gözəlliyindən yalnız özləri həzz ala bildikləri yerə toplaşırlar. Onlar irəliyə getmək ehtiyacı, yeni ərazilərə yol açaraq onu öyrənməyə, xilas xəbərini yeni yerlərə aparmağa ehtiyac duymurlar. Onlar Məsihin Bütün dünyaya gedin, Müjdəni bütün xilqətə təbliğ edin!" əmrini icra etməkdən boyun qaçırırlar (Mk. 16:15). Məgər onlar yəhudilərin imanlılar cəmiyyətindən azmı günahkardırlar?

Bu gün Məsihin bütün davamçıları Səma qarşısında sınaqdan keçirlər; fəqət şövq azlığı və

səylərin zəifliyi səbəbindən Allaha xidmətdə çoxları sədaqətsiz qul hesab ediləcəklər. Əgər onların gördükləri iş bacardıqlarının ən yaxşısı olsa idi, onlar mühakimə edilməzdilər; əgər onlara tapşırılan işlərinə ürəkdən sadiq olsa idilər, daha çox iş görə bilərdilər. Həm onların özləri, həm də dünya bilir ki, onlar çox şeydə fədakarlıq ruhunu və üzərlərinə çarmıxı götürməyə hazır olmalarını itirmişlər. Səma kitablarında onların bir çoxunun adı qarşısında yazılacaqdır: "İş görən deyil, istifadə edənlər". Məsihin adını daşıyanların bir çoxu insanların qarşısında Onun izzətini, gözəlliyini gizlədir və Onun şərəfini kiçildirlər.

Bu gün dünyada adları imanlılar cəmiyyətlərinin kitablarında yazılmış, [236] fəqət özləri Məsihin rəhbərliyi altında olmayanlar çoxdur. Onlar Onun öyüdlərini dinləmir və Onun işini yerinə yetirmirlər. Beləliklə də, onlar insan nəslinin düşməninin rəhbərliyi altına düşürlər. Əgər onlar bilavasitə və aydın şəkildə xeyirə xidmət etmirlərsə, deməli, onlar ölçüsü olmayan zərər verirlər. Onların təsiri həyatverən canlandırıcı ətir deyildirsə, onda o, ölüm üstünə ölüm gətirir.

Rəbb deyir: "Bunlara görə Mən onlara cəza verməyimmi?" (Yer. 5:9). İsrail oğulları Allahın niyyətini icra

etmədiklərinə görə tərk edildilər, Allahın dəvəti isə digər xalqlara yönəldi. Əgər onlar da sədaqətsiz olacaqlarsa, buna bənzər tərk edilməyəcəklərmi?

Üzüm bağı haqqında məsəldə Məsih bağbanları ittiham etdi. Onlar torpağının məhsulunu sahibinə qaytarmaqdan imtina etdilər. Bunlar ibrani xalqındakı kahin və müəllimlər idilər ki, xalqı səhv yola istiqamətləndirərək, Allahdan Onun tələb etdiyi xidməti oğurlayırdılar. Məhz onlar xalqı Məsihdən döndərdilər.

İnsan ənənələri ilə qarışdırılmamış Allahın Qanunu

Məsih tərəfindən itaətin ən böyük ölçüsü kimi nümayiş etdirilmişdir. Bu, kahinlərin düşmənçiliyinə səbəb oldu. Onlar insan təlimini İlahi Kəlamdan üstün tutdular və xalqı Onun qərarlarından döndərdilər. Onlar İlahi Kəlamın tələblərinə itaət etmək üçün insanların icad etdikləri əmrləri atmaq istəmirdilər. Onlar hətta həqiqət naminə belə, şüurlarının qüruru və insanlar qarşısındakı izzəti qurban vermədilər. Məsih gəlib xalqa Allahın tələblərini nümayiş etdirdiyi zaman kahin və ağsaqqallar Onun onlarla xalq arasında durmaq hüququnu qəbul etmədilər. Onlar Onun ifşasını və xəbərdarlığını rədd etdilər və bütün qüvvələrini xalqı Ona

qarşı qaldırıb, Onu məhv etməyə yönəltdilər.

İsrailin dini rəhbərləri Məsihin rədd edilməsinə və bunun nəticələrinə görə məsuliyyət daşıyırlar. Xalqın günahının və məhv olmasının məsuliyyəti onların üzərindədir. [237]

Məgər bizim günlərdə buna bənzər dağıdıcı qüvvələr mövcud deyilmi? Məgər bizim günlərdə Rəbbin üzüm bağının bağbanları yəhudi rəhbərlərinin izi ilə getmirlərmi? Din müəllimləri adamları İlahi Kəlamın aydın tələblərindən döndərmirlərmi? Adamlara İlahi Qanuna itaətli olmağı öyrətmək əvəzinə, Allaha qarşı

üsyankar olmağı öyrətmirlərmi? Bir çox imanlılar cəmiyyətində adamları öyrədirlər ki, İlahi Qanun daha insanları məhdudlaşdırmır. İlahi Qanun əvəzinə insani adətlər, qərarlar və ənənələr təsdiq edilir. Allahın ənamlarına malik olmaqları ilə əlaqədar Onun tələblərinə etinasızlıq edilərək, insanda qürur və özündən razılıq həvəsləndirilir.

İlahi Qanunu kənarlaşdıraraq, insanlar nə etdiklərini başa düşmürlər. Allahın Qanunu həm də Onun xasiyyətinin inikasıdır. Onda Onun Padşahlığının prinsipləri təcəssüm edilmişdir və bu prinsipləri qəbul

etməkdən imtina edən şəxs Allahın xeyir-dua axınından kənarda qalır.

İsrailə ənam edilmiş gözəl imkanlar yalnız Allahın əmrlərinə riayət etmək sayəsində həyata keçə bilərdi. Eləcə də biz vəd edilmiş gözəl xasiyyətə, bol-bol xeyir-dualara (şüurumuz, canımız və bədənimiz üçün xeyir-dualara, evimizin və tarlamızın xeyir-duasına, bugünkü həyatımız və gələcək həyatımız üçün xeyir-dualara) yalnız itaət vasitəsilə malik ola bilərik.

Mənəvi dünyada da, təbiətdə olduğu kimi, Allahın qanunlarına riayət etmək məhsul verməyin mütləq şərtidir. İnsanlar başqalarına Allahın

əmrlərinə sayqısızlıq göstərməyi öyrətməklə, dinləyicilərin Allahın izzəti naminə məhsul vermələrinə mane olurlar. Bu müəllimlər Rəbbi Onun üzüm bağının məhsulundan məhrum etməkdə təqsirkardırlar.

Allahın elçiləri bizim yanımıza Rəbbin tapşırığı ilə gəlirlər. Onlar gəlirlər ki, Məsih kimi bizdən İlahi Kəlama itaət etməyi tələb etsinlər. Onlar bizə Onun Öz üzüm bağının məhsullarına, məhəbbət, itaət və fədakar xidmət məhsullarına hüququndan danışırlar. Lakin məgər bizim [238] günlərin bağbanları yəhudi rəhbərlərinə bənzəyərək, qəzəblənmirlərmi? İnsanların

qarşısında İlahi Qanunun tələblərini açarkən, bu müəllimlər öz təsirlərindən istifadə edərək, insanları bu Qanunu rədd etməyə sövq etmirlərmi? Məhz belə müəllimləri Allah sədaqətsiz qullar adlandırır.

Allahın qədim İsrailə yönəlmiş sözləri müasir imanlılar cəmiyyətinə və onun rəhbərlərinə də təntənəli surətdə və ciddi xəbərdarlıq edir. İsrail haqqında Rəbb demişdir: “Mən onlar üçün çoxlu qanun yazdım, onlarsa bunları yad bir şey hesab etdilər” (Huş. 8:12).

Onun səsi xalqın kahinlərinə və müəllimlərinə yönəlmişdir: “Xalqım biliksizlikdən məhv oldu. Sən biliyi

rədd etdiyin üçün Mən də səni rədd edəcəyəm ki, bir daha Mənə kahinlik etməyəsən. İndi ki öz Allahının qanununu unutdun, Mən də sənin balalarını unudacağam” (Huş. 4:6).

Allahın xəbərdarlığı diqqətsiz qalacaqmı? Allaha xidmət etmək imkanları itiriləcəkmi? Dünyanın təkəbbürü, şüurun qüruru, bəşər adət və ənənələrinə sədaqət Məsihin davamçılarını Ona xidmət etməkdən çəkindirəcəkmi? Onlar İlahi Kəlamı bir zamanlar yəhudilər Məsihi rədd etdikləri kimi rədd etməyəcəklərmi? İsrailin günahının nəticələri bizə məlumdur. Bu, müasir imanlılar

cəmiyyəti üçün xəbərdarlıq olacaqdırmı?

“Fəqət əgər budaqlardan bəzisi qoparıldıqdan sonra sən yabanı zeytun ağacı olaraq, onların yerinə aşılanıb zeytun ağacının kökünə və bolluğuna şərik oldunsa, budaqlar qarşısında təkəbbürlənmə... onlar imansızlıqdan qırıldılar, sən isə imanına görə durursan; öyünmə, fəqət qorx. Zira, əgər Allahın təbii budaqlara rəhmi gəlmədisə, sənə də rəhmi gəlməyəcək” (Rom. 11:17-21). [239]

## Toy paltarı geyməyən adam

(Mt. 22:1-14)

Toy paltarı haqqında məsəl bizə böyük əhəmiyyəti olan dərs verir. Toyun timsalında bəşər ilə İlahinin ittifaqı təsvir edilir; burada toy paltarı yüksək ziyafətdə qonaq olmaq şərəfinə layiq olmuş hər bir kəsin malik olacağı xasiyyəti təsvir edir.

Bu məsəl də, böyük axşam ziyafəti haqqında olan məsəl kimi, ibrani xalqının rədd etdiyi Müjdə dəvəti və bu dəvətin bütpərəstlərə xitab edildiyindən bəhs edir. Lakin

dəvəti rədd edənlərə işarə edərək, bu məsəl daha həyasız təhqirdən və daha dəhşətli qisasdan xəbər verir. Ziyafətə dəvət burada padşahın çağırışıdır. O, hökm etməyə qadir və güclü olan tərəfindən verilmişdir. Bu dəvət böyük şərəfdir. Buna baxmayaraq, göstərilmiş hörmət qiymətləndirilmədi. Hökmdarın nüfuzuna hörmətsizlik edildi. Əgər böyük axşam ziyafəti haqqında məsəldə ev sahibinin dəvəti etinasızlıqla qarşılanmışdısa, bu məsəldə padşahın dəvəti təhqirlər və qətl ilə qarşılanmışdı. Padşahın elçilərini nifrət ilə qarşıladılar, onlarla amansız rəftar etdilər, sonra isə öldürdülər.

Toy məclisi haqqında məsəldə ev sahibi dəvət edilənlərin ona sayğısızlıq göstərdiklərini gördükdə bəyan etdi ki, onların heç biri axşam ziyafətində iştirak etməyəcəkdir. İndiki məsəldə isə padşaha öz nifrətini bildirənlər, sadəcə, dəvət olunmuşların siyahısından çıxarılmaqdan daha böyük cəza aldılar: "Hökmdar bundan xəbər tutaraq qəzəbləndi və [240] öz qoşunlarını göndərib, o qatilləri məhv etdi, şəhərlərini isə yandırdı".

Hər iki məsəldəki ziyafətdə axırda çoxlu qonaqlar olurlar, lakin ikinci məsəl göstərir ki, orada olanlar bəzi hazırlıq işləri görməli idilər.

Ziyafətə hazırlıq görməmiş gələnlər isə qovuldular. “Hökmdar qonaqlara baxmaq üçün girdikdə, orada toy paltarı geyməyən bir nəfəri gördü və ona dedi: Dostum! Sən toy paltarı geyinməmiş buraya necə girdin? O isə susdu. O zaman hökmdar qullarına dedi: Onun əllərini, ayaqlarını bağlayın və götürüb onu çöl qaranlığına atın; orada ağlama və diş qıcırtısı olacaqdır”.

İnsanları ziyafətə dəvət edənlər Məsihin həvariləri idilər. Bizim Rəbbimiz əvvəl on iki həvari, sonra isə əlavə yetmiş nəfəri göndərdi ki, Allahın Padşahlığının yaxınlaşdığını söyləsinlər və insanları tövbə edib

Müjdəyə iman etməyə dəvət etsinlər. Lakin bu çağırış diqqətsiz qaldı. Ziyafətə dəvət olunanlar gəlmədilər. Məsəldə nökərlər bir də göndərildilər. “Budur, mən ziyafətimi hazırladım, öküzlər və bəslənmiş mal-qara kəsilmiş, hər şey hazır, toy məclisinə gəlin”. Bu, yəhudi xalqına Məsihin çarmıxa çəkilməsindən sonra verilmiş xəbərdir; fəqət özünü Allahın xüsusi xalqı adlandıran xalq Müqəddəs Ruhun gücündə ona göndərilmiş Müjdəni rədd etdi. Çoxları onu nifrətlə rədd etdilər. Bəziləri isə xilas dəvətinə və onlara Rəbbin izzətini rədd etdikləri üçün təklif edilmiş əfvə görə o qədər hiddətlənmişdilər ki, qəzəblənərək bu xəbəri gətirənlərin

üzərlərinə hücum etdilər. “Sərt təqib başlandı” (Həv. iş. 8:1). Bir çoxları zirzəmilərə atıldılar, Rəbbin bəzi elçiləri — Stefan və Yaqub isə qətl edildilər.

İbrani xalqı beləliklə Allahın mərhəmətini rədd etdiyini təsdiq etdi. Məsih Öz məsəlində bunun dəhşətli nəticələrini göstərdi: “Hökmdar qəzəbləndi və öz qoşunlarını göndərib o qatilləri məhv etdi, şəhərlərini isə yandırırdı”. Burada ifadə edilmiş hökm İbrani xalqının həyatında da icra edildi: Yerusəlim dağıdıldı, millət isə bütün dünyaya səpələndi.

Ziyafətə olan üçüncü dəvət məsəldə Müjdənin bütpərəstlər arasinda [241] yayılmasını nümayiş etdirir. Padşah dedi: “Toy məclisi hazırdır, fəqət çağırılmış qonaqlar buna layiq deyildilər. Beləliklə, dörd yol ayrıcına gedin və kimi tapsanız, toya çağırın”.

Hökmdarın qulları “yollara çıxdılar və pis, yaxşı kimi tapdılarsa, hamısını topladılar”. Bu, çox əlvan bir məclis idi. Onlardan bəziləri ziyafətin sahibinə onun dəvətini ilk dəfə rədd edənlərdən çox hörmət bəsləmirdilər. İlk dəfə dəvət olunanlar öz dünyəvi işlərini padşahın ziyafətində iştirak etmək naminə

təxirə sala bilmədiklərini güman etdikləri kimi, son dəvəti qəbul edənlərin də çox qismi öz dünyəvi kefləri haqqında düşünürdülər. Onlar yeyib-içməyə gəlmişdilər, fəqət onları çağırmış hökmdarı izzətləndirmək fikrində deyildilər.

Hökmdar qonaqları görmək üçün onların qarşısına çıxanda onların hər birinin xasiyyəti ona aşkar oldu. Dəvət olunanların hər biri üçün toy geyimi hazırlanmışdı. Bu paltar hökmdarın ənamı idi. Bu paltarı geyinməklə, qonaqlar onları ziyafətə dəvət etmiş ev sahibinə öz hörmətlərini nümayiş etdirirdilər. Lakin qonaqlardan biri paltarını

dəyişməmişdi, öz adi geyimində idi. O, hökmdarın tələb etdiyi kimi ziyafətə hazırlaşmamışdı. Onun üçün hazırlanmış və böyük xərc tələb edən geyimə sayğısızlıq göstərmişdi. Bununla o, ağanı təhqir etmişdi. Hökmdarın “Sən toy paltarı geyməmiş buraya necə girdin?” sualına cavab verə bilmədi və beləliklə özünə hökm verdi. “O zaman hökmdar qullarına dedi: Onun əllərini, ayaqlarını bağlayın və çöl qaranlığına atın; orada ağlama və diş qıcırtısı olacaqdır”.

Bu məsəldə hökmdarın qonaqlarla tanışlığı hökm gününü təsvir edir. Müjdə ziyafətinin qonaqları Allaha

xidmət etdiklərini bəyan edənlər, adları həyat kitabında yazılanlardırlar. Lakin özlərini məsihçi hesab edənlərin hamısı Məsihin həqiqi davamçıları deyildirlər. Son mükafat verilməzdən əvvəl həll edilməlidir ki, onlardan kimlər salehlərin mirasını bölüşdürməyə layiqdirlər. Bu qərar Məsihin göy buludlarının üstündəki İkinci Gəlişindən əvvəl qəbul edilməlidir, çünki gəldiyi zaman artıq Öz [242] mükafatını, yaxud cəzasını gətirəcəkdir ki, "hər kəsə öz əməlinə görə ödəsin" (Vəh. 22:12). Artıq O gələnə kimi hər insanın ləyaqəti müəyyən edilərək dəyərləndiriləcək və Məsihin davamçılarının hər birinə

əməlləri müqabilində mükafat müəyyən ediləcək.

Hələ insanlar dünyada yaşadıqları zaman səma həyətlərində istintaq məhkəməsi gedir. Allah özünü Məsihin davamçısı adlandıran hər kəsin həyatını təhlil edir. Hər kəsin işinə səma kitablarında olan qeydlərə müvafiq şəkildə baxılır və orada yazılmış işlərə uyğun şəkildə hər adamın əbədi aqibəti müəyyən edilir.

Məsəldəki toy paltarı timsalında rəmzi olaraq Məsihin həqiqi davamçılarının malik olacaqları pak, ləkəsiz xasiyyət təsvir edilmişdir. İmanlılar cəmiyyətinə "geymək üçün parlaq, təmiz, zərif kətan verildi. Zira

zərif kətan müqəddəslərin saleh işləridir” (Vəh. 19:8). Ondan ötrü ki, “cəmiyyətdə ləkə, qarışıq, yaxud başqa qüsur olmasın” (Ef. 5:27). Zərif kətan — Məsihin Öz salehliyidir, Onun şəxsi qüsursuz xasiyyətidir, bu xasiyyət iman vasitəsilə Məsihi özünün şəxsi Xilaskarı kimi qəbul edən hər adama bəxş edilir.

Qüsursuzluğun ağ paltarlarını bizim əcdadlarımız Allah tərəfindən müqəddəs Ədəmdə məskunlaşdıqları zaman almışdılar. Onlar tamamilə Allahın iradəsinə uyğun yaşayırdılar. Onların bütün məhəbbət qüvvələri Səmavi Atalarına mənsub idi. Heyrətamiz dərəcədə gözəl nur, İlahi

nur müqəddəs varlıqları əhatə edirdi. Nurdan hörülmüş bu geyim Adəm və Həvvanın mənəvi geyimlərinin, onların səmavi təmizlik və qüsursuzluqlarının rəmzi idi. Əgər onlar həmişə Allaha sadiq olsaydılar, nur paltarı daim onları əhatə edərdi. Lakin günah daxil olduğu zaman onlar özlərinin Allahla bağlılığını kəsdilər və onları əhatə edən işıq yox oldu. Öz çılpaqlıqlarını görərək utanmış Adəm və Həvva öz eyiblərini bir-birinə bağlanmış əncir yarpaqları ilə örtməyə çalışdılar.

Əcdadlarımızın itaətsizliyi vaxtından İlahi qanunu pozanların hamısı belə edirlər. Onlar öz

çılpaqlıqlarını örtmək üçün əncir yarpaqları tikirlər. [243] Öz şəxsi ixtiralarının məhsulu olan paltarları geyinərək, öz şəxsi işləri ilə günahlarını ört-basdır eləmək və Allaha məqbul olmaq istəyirlər.

Lakin onlar buna heç bir vaxt nail ola bilməyəcəkdirlər. İnsan itirdiyi qüsursuzluq paltarını əvəz edə bilən heç nə yarada bilmir. Nə əncir yarpaqlarından olan geyimdə, nə də hər hansı bir başqa dünyəvi paltarda Quzunun toy məclisində Məsih və mələklərlə bərabər əyləşmək mümkün deyildir.

Yalnız Məsihin Özünün bizim üçün hazırladığı paltarda Allahın

qarşısında dura bilərik. Belə bir qiyafəti, Öz salehlik paltarını Məsih hər bir tövbə edən, iman edən adama geyindirəcəkdir. “Sənə məsləhət görürəm, — O deyir, — Məndən ağ paltarlar al ki, geyinəsən və sənin çılpaqlığının eybi görünməsin” (Vəh. 3:18).

Səmada toxunmuş bu paltar insanın səyləri ilə yaradılmışların heç birinə bənzər deyildir. İnsan təbiətini qəbul etmiş Məsih kamil xasiyyət işləmişdir və bu xasiyyəti O bizimlə də bölüşmək istəyir. Bütün saleh əməllərimiz murdar əskiyə bənzər” (Yeş. 64:6). Bizim görə biləcəyimiz hər şey həmişə günah ilə

ləkələnmişdir. Lakin Allahın Oğlu "ondan ötrü zühur etdi ki, bizim günahlarımızı götürsün; Onda günah yoxdur". "Günah — qanunsuzluqdur" (1 Yəh. 3:4, 5). Məsih isə Qanunun hər tələbinə itaət edirdi. O Özü haqda demişdi: "Ey Allahım, Sənin istəyinə əməl etmək mənə zövq verir, qanunun qəlbimdədir" (Məz. 40:8).

Dünyada olarkən Öz şagirdlərinə deyirdi: "Mən Atamın əmrlərini yerinə yetirdim" (Yəh. 15:10). O, Allahın əmrlərini mükəmməlliklə yerinə yetirməklə, hər bir adamın onlara riayət etməsinin mümkün olduğunu göstərdi. Özümüzü Məsihə tabe etdiyimiz zaman ürəyimiz Onun

ürəyi ilə birləşir, iradəmiz Onun iradəsində əriyir, şüurumuz Onun şüuru ilə bərabər düşünür, bütün fikirlərimiz Onda cəmləşir — Onun həyatı ilə yaşayırıq. Onun salehlik paltarını geyinmək budur. Bu zaman Rəbb bizə baxdıqda, O artıq əncir yarpaqlarından tikilmiş geyim, çılpaqlıq və günah ilə eybəcərləşən bədənimizi yox, Onun Qanununa [244] tam itaətdə olan Öz şəxsi salehlik paltarını görəcəkdir.

Hökmdar toy məclisinin qonaqlarına baxdı. Onların içərisindən yalnız onun tələblərinə tabe olub toy paltarını geymişlər məclisdə qaldılar. Quzunun toy

məclisinin qonaqları ilə də belə olacaqdır. Böyük Hökmdarın sınağa çəkən baxışı altına hamı çıxmalıdır və yalnız Məsihin salehlik paltarlarını geyinənlər qəbul ediləcəklər.

Salehlik — saleh əməllərimizdir və hamı məhz onlara görə mühakimə ediləcək. Xasiyyətimiz gördüyümüz işlərdə büruzə edilir. İşlərimiz imanımızın səmimiliyini göstərir.

İsanın fırıldaqçı olmadığına və Müqəddəs Kitabdakı hekayələrin mahirliklə quraşdırılmış əfsanə olmadığına inanmaq azdır. Biz inana bilərik ki, İsanın adı göylərin altındakı yeganə addır ki, onunla insan xilas edilə bilər, lakin bu inamla

da Onu öz şəxsi Xilaskarımız etmirik. Həqiqəti nəzəri surətdə qəbul etmək azdır. Özünü Məsihə iman etmiş hesab edib, adını imanlılar cəmiyyətinin kitabına yazdırmaq azdır. “Onun əmrlərinə əməl edənlər Onda, O da onlarda yaşayır. Və Onun bizdə yaşadığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə öyrənirik”. “Onu dərk etdiyimizi isə bundan bilirik ki, Onun əmrlərinə əməl edirik” (1 Yəh. 3:24; 2:3). İnsanın həqiqətən dönməsinin gerçək şəhadəti budur. Öz salehliyimiz haqqında nə qədər danışsaq da, Məsih əməllərimizdə izhar edilməzsə, o heç nəyə dəymir.

Həqiqət bizim ürəyimizdə köklənməlidir, şüurumuzu idarə etməlidir, hisslərimizə nəzarət etməlidir. Bizim bütün varlığımız öz üzərində İlahinin möhürünü daşımalıdır. İlahi Kəlamın hər bir sətri bizim gündəlik işlərimizdə təcəssüm etdirilməlidir.

İlahi təbiətlə əlaqədar olan adam Allahın böyük salehlik ölçüsü olan müqəddəs Qanunu ilə harmoniyada olacaqdır. Allah insanların hərəkətlərini bu müqəddəs etalona uyğun olaraq dəyərləndirir və məhkəmədə xasiyyətimizi sınayan ölçü məhz o olacaqdır.

Çoxları hesab edirlər ki, Məsihin ölümü qanunun ləğv edilməsinə [245] gətirdi; fəqət bununla onlar Məsihin sözlərinə zidd gedirlər: “Sanmayın ki, Mən qanunu və peyğəmbərlərin yazılarını pozmağa gəldim... Göy və yer keçib getmədən, hər şey icra olmadan, Qanundan ən kiçik bir hərf və ya nöqtə belə yox olmayacaqdır” (Mt. 5:17,18). İnsanı Qanunu pozmağının nəticələrindən xilas etməkdən ötrü, Məsih Öz həyatını verdi. Əgər qanun dəyişdirilə, yaxud ləğv edilə bilsə idi, Məsihə ölmək lazım olmazdı. Özünün yerdəki həyatı ilə Məsih Allahın Qanununu yüksəltdi. Öz ölümü ilə O təsdiq etdi onu. O Öz həyatını qurban vermədi ki

İlahi Qanunu məhv etsin, hansısa başqa, bir az zəif salehlik etalonu yaratsın, fəqət ondan ötrü ki, ədaləti dəstəkləsin, qanunun dəyişməz olduğunu göstərsin və onu əbədi olaraq təsdiqləsin.

İblis bəyan edirdi ki, insan Allahın qanunlarına riayət etmək gücündə deyildir; doğrudan da bu ancaq öz gücünə arxalanan insan üçün mümkün deyildir. Lakin Məsih insan təbiətini götürərək, Öz mükəmməl itaəti ilə sübut etdi ki, Allahla birləşərək, insan Allahın hər bir göstərişinə əməl edə bilər.

“Fəqət Onu qəbul edənlərin hamısına, Onun isminə iman edənlərə

Allahın oğulları olmaq səlahiyyətini verdi” (Yəh. 1:12). Bu səlahiyyət insanlardan deyil. Bu, Allahın səlahiyyətidir. Can Məsihi qəbul edərkən, o, Məsihin həyatı ilə yaşamaq üçün güc də alır.

Allah Öz övladlarından etalonunu Öz şəxsi xasiyyətini təcəssüm etdirdiyi Qanunda müəyyən etdiyi kimi kamillik tələb edir. Bu dəqiq standart hamıya izhar edildi ki, Allahın Öz Padşahlığına qəbul edəcəyi insanların malik olacaqları keyfiyyətlərə dair heç bir səhvə yol verilməsin. Məsihin yerdəki həyatı İlahi Qanunun mükəmməl ifadəsi idi. Buna görə də özlərini Allahın

övladları adlandıranlar xasiyyətlərində Məsihə bənzəyən zaman Allahın əmrlərinə də itaət edəcəkdirlər. Yalnız bu zaman Rəbb onları səma ailəsinin üzvləri edə biləcəkdir. Məsih salehliyinin izzətli paltarlarını geyinərək, onlar Padşahın toy məclisində yer alacaqdırlar. Onlar hüququla qan ilə paklanmışların sırasına daxil ediləcəkdirlər. [246]

Ziyafətə toy paltarında gəlməmiş adam isə müasir dünyamızdakı insanların bir çoxunun ruhlu vəziyyətini nümayiş etdirir. Onlar özlərini məsihçi sayır, Müjdənin verdiyi üstünlüklərə və xeyir-dualara hüqüqları olduğunu bəyan edirlər;

fəqət onlar xasiyyətlərini dəyişməyə ehtiyac duymurlar. Onlar Məsihə ehtiyacları olduğunu dərk etmir və Ona imanlarını bərkitmirlər. Belə adamlar özlərinin anadangəlmə və əldə etdikləri pisliklərə təmayüllərini ləğv etməmişlər. Yenə də onlar özlərini olduqca ədəbli sayırlar və Məsihə etibar etmək əvəzinə, yalnız öz qüvvələrinə istinad etməyi üstün tuturlar. Bunlar İlahi Kəlamı eşidərək ziyafətə gəlmiş, lakin Məsihin salehlik paltarını geyməyənlərdirlər.

Özlərini Məsihçi adlandıranların çoxları sırf moralistdirlər. Onlar Məsihi dünyaya nümayiş etdirərək, insanı Onu izzətləndirməyə qadir

edən yeganə bir ənamdan imtina etdilər. Müqəddəs Ruhun işi onlar üçün qəribə hadisədir. Onlar Kəlamın icraçıları deyillər. Məsihlə bir olanlar və dünya ilə birləşənlər arasında fərq qoymağı mümkün edən səmavi prinsiplər onlar üçün sanki fərqsizdir. Beləliklə, özlərini Məsihin davamçısı adlandıranların bir çoxu ayrıca və xüsusi bir xalq olmurlar. İmanlılarla imansızlar arasındakı fərq sanki görünməz olmuşdur. İnsanlar özlərini dünyaya, onun adətlərinə, onun özünəməhəbbətinə tabe etmişdirlər. Məbədin özü insanları İlahi Qanuna itaət etməyə gətirmək əvəzinə, bu qanunu pozmağında dünyaya

bənzəyir. İmanlılar cəmiyyəti getdikcə daha çox təşkilata bənzəyir.

Bu adamların hamısı Məsihin ölümü sayəsində xilas olmaq istəyirlər, lakin eyni zamanda, Onun fədakar həyatı ilə yaşamaq istəmirlər. Onlar təmənnasız ənam edilmiş lütfün sərvətlərini yüksəldirlər və saleh görünməyə çalışırlar, beləliklə xasiyyətlərindəki qüsurları gizlətməyə ümid edirlər, lakin Allahın böyük günündə onların bütün səyləri əbəs olacaqdır.

Məsihin salehliyi heç bir bəslənən, tövbə edilməmiş günahı yumayacaqdır. Elə olur ki, insan qanunu öz qəlbində pozur,

baxmayaraq ki, [247] zahirən heç bir cinayət etmir. Dünya onu qüsursuz adam hesab edə bilər, lakin İlahi Qanun onun ürəyinin sirlərini açır. İnsanın hər bir əməlinə onu doğuran səbəblərə görə qiymət verirlər. İnsanın yalnız o səbəbləri bəraət qazanacaq ki, onlar İlahi Qanunun prinsiplərinə uyğundur.

Allah — məhəbbətdir. Özünün bu məhəbbətini O, dünyaya Məsihi bağışlamağı ilə isbat etdi, "vahid Oğlunu ona verdi; bunu ona görə etdi ki, Ona iman edən hər adam həlak olmasın, əbədi həyata malik olsun" (Yəh. 3:16). Özü üçün xilas etdiklərindən ötrü O heç nəyi

əsirgəmədi. O bizə bütün səmanı verdi ki, biz oradan günaha üstün gəlmək üçün qüvvə və bacarıq alaq və büdrəyib düşmənimizə məğlub olmayaq. Lakin Allahın məhəbbəti o demək deyildir ki, O, günaha bəraət qazandıra bilər. O, şeytanın günahına bəraət vermədi; Adəmin və Qabilin günahına bəraət vermədi; hər hansı bir başqa adamın günahına da bəraət vermir. Bizim günahlarımıza barmaqarası baxmayacaq və xasiyyətimizdəki qüsurlara rəvac verməyəcəkdir. O istəyir ki, Onun adı naminə onlara qalib gələk.

Məsihin salehlik ənamını rədd edənlər onlara Allahın oğul və qızları

olmaq imkanı verən xasiyyət keyfiyyətlərindən imtina edirlər. Onlara toy məclisində iştirak etmək hüququ verə bilən yeganə şeydən imtina edirlər.

Bu məsəldə padşahın "Sən toy paltarı geyməmiş buraya necə girdin?" sualına o adam cavab vermədi. Böyük məhkəmə günündə də belə olacaqdır. Burada, yerdə, insan özünün bu, yaxud digər qüsurlarına bəraət qazandıra bilər, lakin hökm günü onun heç bir bəraəti olmayacaqdır.

Müasir məsihçi cəmiyyətlərinə böyük imtiyazlar və imkanlar verilmişdir. Rəbb bizə getdikcə

çoxalan işıqda açıldı. Bu gün bizim imtiyazlarımız Allahın xalqının qədimdə malik olduğundan qat-qat çoxdur. Biz yalnız bir zamanlar İsrailə ənam edilmiş böyük işığa malik deyilik, lakin Məsih vasitəsilə verilmiş sonsuz xilasedici lütfə malikik. İbranilər üçün [248] simvol və işarə olan hər şey bizim üçün reallıq oldu. Onlar yalnız köhnə əhdə malik idilər; biz isə ondan əlavə Müjdəyə malikik. Biz artıq gəlmiş, çarmıxa çəkilmiş, dirilmiş və Lazarın qəbri üzərində "Dirilmə və həyat Mənəm" deyən Xilaskarın vədinə malikik. Məsihi dərk etmək və Onun məhəbbəti vasitəsilə Allahın Padşahlığı bizim aramızda

qurulmuşdur. Məsih bizə moizə və nəğmələrdə açılır. Ruhlu ziyafət bizə özünün bütün gözəlliyi ilə nümayiş olunmuşdur. Sonsuz dəyər hesabına əldə edilmiş toy paltarı təmənnasız olaraq hər kəsə təklif edilir. Allahın elçiləri bizə bir çox qiymətli həqiqətlər açırlar: Məsihin salehliyi, imanla bəraət qazanmaq, İlahi Kəlamın bol-bol qiymətsiz vədləri, Məsih vasitəsilə Ata ilə azad ünsiyyət, Müqəddəs Ruhun təsəllisi, Allahın Padşahlığında əbədi həyat üçün etibarlı zəmanət. Allah böyük axşam yeməyinə, səma ziyafətinə hazırlıq üçün daha nə edə bilərdi?

Səmada mələklər dedilər: “Bizə tapşırılan xidməti icra elədik. Biz şər mələklərin ordularını sıxışdırırdıq. Biz insanların qəlblərinə işıq saçırdıq, onların şüurlarını Allahın Məsihdə izhar edilmiş məhəbbətini dərk etmələri üçün itiləşdirirdik. Biz onların nəzərlərini Qolqota çarmıxına yönəldirdik. Onların ürəkləri Allahın Oğlunu çarmıxa çəkən günahın mənası ilə dərindən sarsılmışdı. Onlar tövbə etdilər. Onlar düz yolu görürdülər; Müjdənin gücünü hiss edirdilər; ürəkləri Allahın məhəbbətinin şirinliyini hiss etdikləri zaman yumşalmışdı. Özləri üçün Məsihin xasiyyətinin gözəlliyini kəşf etmişdilər. Lakin çoxları üçün bunlar

faydasız oldu. Öz vərdiş və qüsurlarından imtina etmədilər. Onlar səma paltarlarını geyinmək üçün öz dünya paltarlarını atmadılar. Onların ürəkləri mənafeçiliyin əsarətində qaldı. Dünya ilə dostluq onlardan ötrü Allaha məhəbbətdən qiymətli oldu".

Onlardan ötrü son qərar günü sərt olacaqdır. Həvari Yəhya onu öz peyğəmbərliyində belə təsvir edir: "Sonra böyük ağ bir taxt və onda Oturanı gördüm. Yer və göy Onun hüzurundan qaçdı və onlar üçün bir yer tapılmadı. Mən ölüləri, böyükləri və kiçikləri taxtın qarşısında duran [249] gördüm. Tumarlar açıldı və həyat kitabı olan başqa bir tumar da

açıldı. Ölülər, kitablarda yazılanlara əsasən, hər kəs öz əməllərinə görə mühakimə olundu” (Vəh. 20:11,12).

Əbədiyyət qarşısında dönüb geri baxmaq onlarda dəhşət doğuracaqdır. Onların bütün həyatları olduğu kimi qarşılarından keçəcəkdir. Dünyəvi keflər, var-dövlət və hörmətlər indi dəyərsiz olacaqdır. İnsanlar görəcəklər ki, keçmişdə və indi yeganə həqiqi sərvət salehlikdir ki, onlar ona nifrət edirdilər. Onlar görəcəklər ki, öz xasiyyətlərini şeytanın yalançı vədlərinin təsiri altında formalaşdırıblar. Üstünlük verdikləri paltarlar sədaqətlərinin ilk böyük dönüklüyündən danışacaq.

Onda onlar öz seçimlərinin nəticələrini görəcəklər. Onda onlar başa düşəcəklər ki, Allahın əmrlərinin pozulması nəyə gətirib çıxarır.

Lakin əbədiyyətə hazırlaşmaqdan ötrü yeni sınaq vaxtı artıq olmayacaqdır. Yalnız bu həyatda bizə Məsihin salehlik paltarını geyinmək imkanı verilir. Bu öz xasiyyətimizi Məsihin əmrlərinə riayət edənlər üçün Onun hazırladığı evə layiq formalaşdırmağa yeganə imkandır.

Bizə sınaq üçün ayrılmış günlər sürətlə tükənir. Onların sonu artıq yaxındır. Bu xəbərdarlıq bizim üçün səslənir: “Saqının ki, ürəkləriniz qarınqululuq və sərxoşluqla və bu

həyatın qayğıları ilə ağırlaşmasın və o gün sizi qəflətən yaxalamasın" (Lk. 21:34). Saqının ki, həmin gün sizi hazır olmadığınız anda yaxalamasın. Diqqətli olun ki, İlahi ziyafətdə toy paltarınız olmaya bilər.

"İnsan Oğlu sizin zənn etmədiyiniz saatda gələcəkdir". "Oyaq olan, çılpaq gəzməsin və ayıbı görünməsin deyə, paltarlarını mühafizə edən nə bəxtiyardır!" (Mt. 24:44; Vəh.16:15). [250]

## Talantlar

(Mt. 25:13-30)

Zeytun dağında şagirdləri ilə bərabər oturan Məsih Özünün dünyaya İkinci Gəlişindən danışırdı. O, gəlişini qabaqlayan və yaxınlaşdığına işarə edən bəzi əlamətləri sadalayırdı. Öz şagirdlərinə ayıq-sayıq olmağı əmr etdi və yenidən xəbərdarlıq elədi: "Beləliklə oyaq durun, zira nə İnsan Oğlunun gələcəyi günü və nə də saatı bilirsiniz". Bundan sonra O onlara ayıq olub Onun gəlişini gözləməyin

mənasını başa saldı. Gözləmə vaxtı səyli əməyə həsr olunmalıdır, boş vaxt keçirməyə yox. Bu dərsi O, talantlar haqqında məsəl ilə təsvir edir.

Göylərin Padşahlığı, — O deyir, — "başqa məmləkətə gedərək, öz qullarını çağırıb onlara malikanəsini tapşıran bir şəxs kimidir. Birinə beş, birinə iki, birinə də bir talant verdi. Hər birinə öz qabiliyyətinə görə verdi və yola çıxdı".

Başqa məmləkətə gedən şəxs — burada tezliklə yerdən göyə yüksəlməli olan Məsihi təsvir edir. "Qullar", yaxud nökərlər məsəldə Məsihin davamçılarını təsvir edirlər.

Biz, imanlılar, özümüzə məxsus deyilik. Biz “gümüş və qızıl kimi fani şeylərlə deyil... Məsihin qiymətli qanı fidiyəsi ilə” (1 Pet. 1:18,19) “çox baha qiymətə alınmışıq” (1 Kor. 6:20) ki, yaşayanlar artıq özləri üçün yox, onlar uğrunda ölən “və Dirilən üçün yaşasınlar” (2 Kor. 5:15). [251]

Bütün insanlar bu sonsuz qiymət hesabına günahın əlindən alınmışdırlar. Bütün səma sərvətlərini bu dünyaya bəxş edərək, Məsihdə bizə bütün göyü verən Allah hər bir adamın iradəsini, hisslərini, şüurunu, qəlbini almışdır. İman edənlər və etməyənlər, bütün insanlar eyni dərəcədə Allahın mülkiyyəti olaraq,

Ona məxsusdurlar. Buna görə də, hamı Ona xidmət etməyə borcludur, böyük hökm günündə isə hər bir şəxs Allahın çağırışına necə cavab verdiyi haqqında hesabat verməli olacaqdır.

Lakin bütün insanlar Allahın tələblərini qəbul etmirlər. Məsəldə Onun nökərləri kimi yalnız o şəxslər təsvir olunublar ki, onlar özləri Məsihə xidmət etmək istəklərini bəyan ediblər.

Məsihin bütün davamçıları xidmət etmək üçün alınıblar. Rəbbimiz öyrədir ki, həyatın əsas məqsədi — Ona xidmət etməkdir. Məsihin Özü yorulmaz işçi idi və Özünün bütün davamçılarına xidmət

etmək qanunu, Allaha və öz yaxınlarına xidmət etmək qanunu vermişdir. Məsih həyat, onun mənası haqqında dünyaya yeni, daha yüksək təsəvvür gətirdi. Başqalarına xidmət edərək insan Məsihlə birləşir. Beləliklə, xidmət etmək qanunu bizi Allahla və digər insanlarla birləşdirən canlı rabitəyə çevrilir.

Məsih Öz qullarına "malikanəsini", yəni Ondan ötrü istifadə edilməli olan şeyləri tapşırdı. O hər adama müəyyən iş tapşırdı. Əbədi səmavi planda hər adama xüsusi yer ayrılmışdır. Hər bir şəxs üçün Məsihlə əməkdaşlıqda insanların xilası üçün iş vardır.

Səmavi iqamətgahlarda bizdən ötrü yerlərin olduğu doğru olan kimi, o da həqiqətdir ki, burada, yerdə Allah naminə işləməyimiz üçün də xüsusi yer ayrılıbdır.

## Müqəddəs Ruhun ənamları

Məsihin Öz imanlılar cəmiyyətinə etibar etdiyi talantlar Müqəddəs Ruhun bəxş etdiyi ənam və xeyir-duaları təsvir edir. “Ruh birinə hikmət kəlamı, digərinə isə eyni Ruh bilik kəlamı verir; başqasına isə eyni Ruh [252] iman verir; bir başqalarına da eyni Ruh şəfa hədiyyələri verir; birinə möcüzələr yaratmaq məharəti,

başqasına peyğəmbərlik, digərinə ruhları ayırd etmək məharəti, bir başqasına müxtəlif dillər, digərinə də dilləri izah etmək məharəti verir. Bütün bunları isə eyni Ruh icra edir və istədiyi kimi hər birinə şəxsən bölüşdürüb verir” (1 Kor. 12:8-11). İnsanların heç biri eyni hədiyyələr almırlar, fəqət Rəbbin hər bir quluna Ruhun hansısa ənamı vəd edilmişdir. Öz şagirdlərini tərk etdikdən əvvəl Məsih “onlara üfürdü və: Müqəddəs Ruhu qəbul edin, — dedi” (Yəh. 20:22). Yenə də deyir: “Mən Öz Atamın vəd etdiyini üzərinizə göndərəcəyəm” (Lk. 24:49). Lakin yalnız Məsih yüksəldikdən sonra bu ənam tam dolğunluğu ilə onlara

verildi. Müqəddəs Ruhun göndərilməsi yalnız o zaman baş verdi ki, şagirdlər iman və dua vasitəsilə özlərini tamamilə Ona xidmət etməyə həsr etdilər. Bu zaman xüsusi mənada səmavi mülkiyyət Məsihin davamçılarına tapşırıldı. “Yüksəyə qalxdı və bir ordu əsiri də Özü ilə apardı. O, insanlara hədiyyələr verdi” (Ef. 4:8). “Hər birimizə isə lütf Məsihin ehsanının ölçüsü ilə bəxş edilmişdi” (Ef. 4:7). “Bütün bunları isə eyni Ruh icra edir və istədiyi kimi hər birinə şəxsən bölüşdürüb verir” (1 Kor. 12:11). Hədiyyələr artıq Məsihdə bizimdir, lakin həqiqətən onlara malik

olmağımız bizim İlahi Ruhu qəbul etməyimizdən asılıdır.

Ruhun vədi lazımınca dəyərləndirilmir, buna görə də o mümkün olduğu qədər icra olunmur. Müjdə xidmətini tamamilə gücsüz edən Müqəddəs Ruhun olmaması bunda büruzə edilir. İnsan əla təhsilə, istedadlara, nitqə, müxtəlif təbii ənamlara və əldə edilən qabiliyyətlərə malik ola bilər, lakin İlahi Ruhun iştirakı olmadan heç bir ürəyə toxunulmayacaq, heç bir günahkar Məsih üçün alınmayacaq. Digər tərəfdən, Məsihlə bir olaraq, Ruhun hədiyyələrini qəbul edərək, Onun davamçılarının ən zəif və savadsızı

ürəkləri fəth edən qüvvəyə malik olacaqdır. Allah belə adamları Kainatda ən güclü təsir keçiricilərinə çevirir. [253]

## Digər talantlar

Məsəldə nümayiş etdirilən talantlar yalnız Ruhun xüsusi hədiyyələri deyildir. Burada insanın bütün ənam və qabiliyyətlərindən, anadangəlmə, yaxud əldə edilmiş, təbii yaxud, ruhlu hədiyyələrdən bəhs edilir. Onların hamısı Məsihə xidmətə həsr olunmalıdır. Onun şagirdləri olarkən biz malik olduğumuz hər şeylə birlikdə özümüzü Ona veririk.

Bizim bu hədiyyələrimizi O bizə təmizlənmiş və nəcibləşdirilmiş şəkildə qaytarır ki, onlar Onun izzəti və yaxınlarımızın xeyri naminə istifadə oluna bilinsin.

Hər bir adama Allah “gücünə görə” verir. Talantlar təsadüfi paylanmır. Kim beş talant saxlamağa qadirdirsə, beşini alır. Kim özündə yalnız iki talant inkişaf etdirə bilərsə, ikisini alacaqdır. Kim yalnız birindən ağılla istifadə edə bilirsə, birini də alacaqdır. Heç kim gileylənməməlidir ki, ona böyük ənamlar verilmədi; çünki o Şəxs ki onları hər bir adama bəxş edib, böyük, yaxud kiçik olmasından asılı olmayaraq, hər bir

etibar olunmuş talantla izzətləndirilir. Beş talant almış şəxs onları çoxaldaraq qaytarmalıdır, bir talant almış da həmin bir talantı çoxaldaraq qaytarmalıdır. Allah əvəzini "insanda olmayan mala görə deyil, olan mala görə" gözləyir (2 Kor. 8:12).

Məsəldə "beş talant alan dərhal gedib onlarla ticarət etdi, beş talant daha qazandı. İki talant alan da beləcə iki talant daha qazandı".

İnsana bəxş edilmiş bütün talantlar, nə qədər az olsalar da, sərfəli şəkildə istifadə olunmalıdır. Biz özümüzə "Mənə nə qədər verilib?" sualını yox, "Mən malik olduğumla nə edirəm?" sualını

verməliyik. Bütün qabiliyyətlərimizin və qüvvələrimizin inkişaf etdirilməsi Allah və yaxınlarımız qarşısında bizim başlıca vəzifəmiz olmalıdır. Əgər qabiliyyət və yararlılığı gündən-günə çoxalmırsa, heç bir şəxs Allahın ondan ötrü nəzərdə [254] tutduğu həyat məqsədini yerinə yetirmir. Məsihə iman etdiyimizi bəyan edərkən, biz üzərimizə Rəbbimiz üçün mümkün qədər yararlı işçilər olmaq vəzifəsini götürürük və biz özümüzün hər bir qabiliyyətimizi ən yüksək kamilliyə çatdırmalıyıq ki, bacardığımızın ən yaxşısını görə bilək.

Rəbbin görülməli olan böyük işi vardır və O, gələcək həyatda ən yaxşısını o kəslərə verəcəkdir ki, onlar bu həyatda sədaqətlə və məcbur edilmədən xidmət edir. Rəbb bu dünyada iş görmək üçün Özünə köməkçilər seçir və hər gün, ən müxtəlif vəziyyətlərdə Onun planını həyata keçirmək naminə etdikləri hər bir duaya cavab verərək, təcrübələrini artırır. O Özünə köməkçiləri kamil olduqlarına görə deyil, Onunla ittifaqda kamilliyə çata biləcəklər deyə seçir.

Allah yalnız yüksəklərə can atanları qəbul edəcəkdir. O güman edir ki, Onun hər bir köməkçisi

bacardığının ən yaxşısını edəcəkdir. Bu zaman onların hər birindən həm də əxlaqi kamillik tələb olunur. Biz heç bir vaxt öz irsi, yaxud əldə edilmiş olan şərə təmayülümüzü ona uyğunlaşdırmaq üçün salehlik standartını aşağıya salmamalıyıq. Biz daim xatirimizdə saxlamalıyıq ki, xasiyyətimizin qüsurları günaha aiddir. Bütün nəcib, müqəddəs keyfiyyətlər Allahda cəmləşmişdir və Məsihi Öz şəxsi Xilaskarı kimi qəbul edən hər bir adam bu keyfiyyətlərə malik olmaq üstünlüyü əldə edir.

Allahın həmişçisi olmaq istəyən hər bir şəxs öz bədəninin hər bir hissəsinin kamilliyinə və öz şüurunun

hər bir xüsusiyyətinin inkişafına çalışmalıdır. Həqiqi təhsil almaq bütün fiziki, əqli və əxlaqi keyfiyyətləri yüksək vəzifələrin icrası üçün hazırlamaq deməkdir; bu, bədəni, əqli və qəlbi Allaha sitayiş üçün hazırlamağı nəzərdə tutur. Belə təhsil əbədiyyətdə də davam etdiriləcəkdir.

Rəbb hər bir məsihçidən xidmət və qabiliyyətlərinin bütün sahələrdə yüksəlməsini gözləyir. Məsih günahımızı bizim əvəzimizə Öz qanı və əzabları ilə ona görə yudu ki, könüllü, səmimi ibadətimizi təmin etsin. [255] O, dünyaya gəldi ki, bizim necə işləməli olduğumuza və

öz işimizi hansı ruhla görməli olduğumuza nümunə versin. Məsih istəyir ki, biz Onun işinin dünyaya yüksək formada tərəqqisinin yollarını öyrənək və böyük məhəbbət, sədaqət və şərəflə Atanın adını izzətləndirək. Çünki O, "dünyanı elə sevdi ki, vahid Oğlunu ona verdi... ki, Ona iman edən hər adam həlak olmasın, əbədi həyata malik olsun" (Yəh. 3:16).

Lakin Məsih kamil xasiyyətə nail olmağın asan bir məsələ olduğu barədə bizə zəmanət vermir. Nəcib, bütöv xasiyyət irsən keçmir. O bizə təsadüf nəticəsində verilmir. Belə xasiyyət insanın şəxsi səyləri ilə, Məsihin xidmətləri və lütfü vasitəsilə

hazırlanır. Allah bizə talantlar, şüur qüvvələri bəxş edir; biz isə xasiyyətimizi öz şəxsi “mən”imizlə ağır və inadlı mübarizədə formalaşdırırıq. Biz pis vərdişlərimizə qarşı ardıcıl döyüşlər aparmalıyıq. Özümüzü diqqətlə təhlil edib tənqidi qiymət verməliyik ki, heç bir pis cəhətimiz düzəlməmiş qalmasın.

Qoy heç kim deməsin ki, mən öz xasiyyətimin qüsurlarını düzəldə bilmirəm. Siz belə bir nəticəyə gəlsəniz, uğursuzluğa düçar olacaq və heç zaman əbədi həyata nail olmayacaqsınız. İstəyin olmaması — əbədi həyata malik olmağın əsas

əngəli budur. Əgər siz istəmirsinizsə, qalib gələ bilməyəcəksiniz. Həqiqi çətinlik qüdsləşməmiş ürəyin pozğunluğunda və özümüzü Allahın nəzarətinə tabe etmək istəməməkdədir.

Allahın böyük və çətin işin görülməsi üçün səxavətlə hədiyyələr verdiyi çoxları məhz ona görə çox zəif nəticələr əldə etdilər ki, onlar çoxa heç nail olmağa da çalışmırdılar. Minlərlə insan həyatda elə yaşayır ki, sanki onların həyatda nə müəyyən məqsədləri, nə də çatmaq istədikləri yüksəklik vardır. Öz işləri müqabilində onlar müvafiq ödəniş alacaqdırlar.

Unutmayın ki, siz heç zaman qarşınıza qoyduğunuz məqsəddən çoxuna nail olmayacaqsınız. Ən yüksək məqsədlər qoyaraq, addım-addım, bəzən ağrı, fədakarlıq və qurbanlar vasitəsilə bütün tərəqqi nərdivanı boyunca qalxmaq gərəkdir. Heç nəyin qarşısında dayanmayın. [256] Bəxtin dönüklüyü hələ heç kimi o qədər möhkəm sarsıtmayıb ki, ümidsizliyə qapılmalı olsun. Ağır şəraitlər bizdə onlara qalib gəlmək qərarı oyatmalıdır. Biz qarşımıza çıxan birinci əngəli keçdikdən sonra irəliyə getmək üçün yeni cəsarət və yeni qüvvə əldə edəcəyik. Doğru istiqamətlə getməkdə inadlı olun və siz tezliklə aşkar edəcəksiniz ki,

şəraitlər bizim düşmənlərimiz yox, köməkçilərimiz olur.

Öz xasiyyətinizi Rəbbin izzəti naminə dəyişməkdə qeyrətli olun. Daim, xasiyyətinizin formalaşmasının hər mərhələsində Allahın işinə yaramağa çalışın. Siz bunu edə bilərsiniz, çünki Xənok ümumi pozğunluq dövründə Allahın işinə yaradı. Xənoka bənzəyənlər bu gün də vardır.

Daniel kimi, o sədaqətli ər kimi möhkəm dayanın ki, heç bir imtahan ona qalib gələ bilmirdi. Sizə olan məhəbbətindən Öz Şəxsi həyatını sizin günahlarınızı yumaq üçün verəni kədərləndirməyin. O deyir:

“Mənsiz heç bir şey edə bilməzsiniz” (Yəh. 15:5). Bunu heç vaxt unutmayın. Əgər səhv etmisinizsə, lakin onları dərk edir və onlarda təhlükə haqqında xəbərdarlıq edən mayaklar görürsünüzsə, siz, şübhəsiz ki, qalibsiniz. Bununla siz məğlubiyyəti qalibiyyətə döndərərək, öz düşməninizi pərt edir və öz Xilaskarınızı izzətləndirirsiniz.

İlahi xasiyyətə uyğun olan xasiyyət yeganə sərvətdir ki, onu biz bu həyatdan gələcəyə apara bilərik. Bu dünyada Məsihin rəhbərliyi altında olanlar özləri ilə səmavi iqamətgaha buradakı bütün İlahi nailiyyətlərini götürəcəkdirlər.

Əbədiyyətdə biz inkişafımızı davam etdirəcəyik. Bax buna görə artıq bu həyatda öz xasiyyətimizi yorulmadan kamilləşdirmək vacibdir.

Səmavi varlıqlar qərarlı imanla əməldə kamilliyə çatan mükəmməl xasiyyətə malik olmaq istəyən insana kömək edəcəkdirlər. Xasiyyətinin səma ölçülərinə uyğun formalaşması yolunu tutmuş hər bir adama Məsih deyəcəkdir: "Mən sənə kömək etmək üçün sənin sağ tərəfindəyəm". [257] İnsanın iradəsi Allahın iradəsi ilə birləşdiyi zaman o hər şeyə qadir olur. Onun əmri ilə görülməli iş Onun qüvvəsi ilə yerinə yetirilə bilər. Onun

bütün əmrləri onların icra edilməsi üçün qüvvə və imkanları nəzərə alır.

## Əqli qabiliyyətlər

Allah bizdən əqli qabiliyyətlərimizi inkişaf etdirməyi tələb edir. O gözləyir ki, Onun qulları onları əhatə edənlərdən daha böyük şüur və fərasətə malik olacaqlar və onları Öz tarlasında fəal, işgüzar, dərin biliyə malik olan işçilər olmaq əvəzinə, həddən artıq qayğısız və tənbəl görəndə kədərlənir. Rəbb istəyir ki, biz Onu bütün ürəyimizlə, bütün canımızla, bütün şüur gücümüzlə sevək. Bu bizim

üzərimizə daim öz təfəkkürümüzü inkişaf etdirmək vəzifəsini qoyur ki, biz onun imkanlarından bütün dolğunluğu ilə istifadə edərək, Yaradanımızı daha dərin dərk edək və daha güclü sevək.

Əgər biz Onun Ruhunun idarəsindəyiksə, bizim təfəkkürümüz olduqca dolğun inkişaf edir və beləliklə, Rəbbə xidmət üçün daha səmərəli istifadə oluna bilər. Rəbb Öz işində savadsız, lakin özlərini bütövlüklə Allaha həsr etmiş və öz yaxınlarına xeyir-dua gətirmək istəyən insanlardan istifadə edir və edəcəkdir. Lakin belə bir müqəddəs ruha malik olan və eyni zamanda

təhsil üstünlüyünə malik olan şəxs Məsih üçün olduqca əhəmiyyətli iş görə bilər, çünki böyük imkanlara malikdir.

Rəbb istəyir ki, biz hərtərəfli təhsil alaraq, əldə etdiyimiz bilikləri digər insanlarla bölüşək. Heç kim qabaqcadan deyə bilməz ki, o, Allaha harada və necə xidmət edə, yaxud Onun haqqında danışa biləcək. Yalnız Səmavi Atamız görür və bilir ki, Öz qullarının qüvvə və bacarıqlarından necə səmərəli istifadə etmək olar. Bizim qarşımızda daim yeni-yeni imkanlar açılır, bizsə öz imanımızın zəifliyindən onları görə bilmirik. [258] Biz öz şüurumuzu o dərəcədə

inkişaf etdirib zənginləşdirməliyik ki, lazım olduqda Onun Sözünün həqiqətlərini dünyanın ən nüfuzlu şəxsləri qarşısında elə tərzdə nümayiş etdirə bilək ki, Onun adı izzətləndirilsin. Allaha xidmət üçün təfəkkürümüzün inkişafına yaranan heç bir imkanı əldən buraxmamalıyıq.

Qoy təhsilə ehtiyacları olan gənclər ona malik olmaq üçün inadla çalışsınlar. Yalnız xaricdən kömək gözləməyin, lakin bu imkanları özünüz yaradın. Bundan ötrü əlinizə düşən hətta ən kiçik imkandan belə istifadə edin. Qənaətcil olun. Öz vəsaitlərinizi pozulmuş iştahanızın ödənilməsinə, yaxud da əyləncə

axtarışına sərf etməyin. Allah sizdən gözlədiyi kimi, Ona xidmətdə yararlı və bacarıqlı olmaq üçün qərarlı olun. Özünüzün hər bir başlanğıcınızda əsaslı və sədaqətli olun. Öz intellektinizi möhkəmləndirmək üçün əlinizə düşən həг bir imkandan istifadə edin. Kitabların təhlilini yararlı fiziki əməklə birləşdirin və inadla, iman və dua ilə yuxarıdan göndərilən müdrikliyə bağlanın. Beləliklə, siz hərtərəfli inkişaf edəcəksiniz. Bu sizə xasiyyətinizi kamilləşdirmək, başqalarının şüuruna təsir etmək, onları şərəf və qüdsiyyət yolu ilə aparmaq imkanı verəcəkdir.

Əgər malik olduğumuz imkan və üstünlükləri aydın dərk etsəydik, şəxsi təhsil işi olduqca uğurlu olardı. Həqiqi təhsil kollec diplomundan qat-qat böyük bir şeydir. Əlbəttə, elmlərin öyrənilməsinə etinasızlıq göstərmək düzgün deyildir, lakin həqiqi ali təhsil mövcuddur ki, ona yalnız Allahla canlı rabitə vasitəsilə nail olmaq olar. Qoy hər bir tələbə Müqəddəs Kitabı əlinə götürsün və onu öyrənərək, ən dahi Müəllimi dinləmək üçün öz ürəyini açsın. Qoy sizin şüurunuz hazır olsun ki, İlahi həqiqətə aparan yolda çıxa biləcək problemlərə qalib gələ bilsin.

Öz yaxınlarına xeyir-dua olmaq üçün yeni biliklərə can atan şəxslər, özləri Allahdan xeyir-dua alacaqdırlar. İlahi Kəlamın öyrənilməsi onların əqli qabiliyyətlərini genişləndirəcək, şüurlarını möhkəmləndirəcək və onları daha ciddi əməyə sövq edəcəkdir. [259]

Allahın işçisi olmaq istəyən hər kəs öz həyatında şəxsi intizam göstərməlidir. Bu, natiqlik qabiliyyəti, yaxud da ən parlaq istedadlardan daha çox iş görəcəkdir. Ən adi, lakin şəxsi intizama öyrənmiş şüur mühüm dərəcədə yaxşı və daha çox iş görəcəkdir, nəinki ali savadlı

və möhtəşəm istedadlar şəxsi intizamdan məhrum olduqda.

## Nitqin inkişafı

Nitq mədəniyyəti səylə inkişaf etdirilməli olan istedadlardan biridir. Bizim Allahdan aldığımız hədiyyələrdən heç biri başqalarına bunun qədər xeyir-dua verə bilməz. Nitqin köməyi ilə biz dəvət edir və inandırırıq, Allaha dua və alqış edirik, başqalarına Xilaskarın məhəbbətini açırıq. Buna görə nitqin hərtərəfli inkişafı nə qədər vacibdir.

Bəzən ən yüksək intellektli insanlar da öz məsihçi

fəaliyyətlərində nitq mədəniyyətinə və səsin düzgün istifadə edilməsinə etinasızlıq göstərirlər. Çoxları o qədər sakit, yaxud elə sürətlə oxuyur, yaxud danışırlar ki, bəzən onları başa düşmək olmur. Bəzilərinin zəif səsi və aydın olmayan tələffüzü vardır; digərləri isə dinləyicilərin çətin qavradıqları sərt, kəsici nitqə malikdirlər. Mətnlər, himnlər, məruzələr və digər çıxışlar bəzən elə bir tərzdə auditoriyaya təqdim olunur ki, onların bütün gücü və təsiri itirilir

Bu qüsuru ləğv etmək mümkündür və lazımdır. Bu barədə Müqəddəs Kitab tövsiyə verir. Əzranın dövründə Yazıları xalqa

oxuyan levililər haqqında deyilmişdir: “Onlar Allahın Qanun kitabından oxuyub aydınlaşdırdılar və mənasını camaata izah etdilər ki, oxunan ayələr başa düşülsün” (Nəx. 8:8).

Ciddi səylər ilə hamı aydın oxumaq və dolğun, təmiz səslə, aydın və təsirli danışmaq qabiliyyətinə malik ola bilər. Belə etsək, biz Məsihin işçiləri kimi öz səmərəliliyimizi olduqca artıra bilərik. [260]

Hər bir məsihçi başqalarına Məsihin tükənməz zənginliyini çatdırmağa dəvət olunubdur; buna görə o öz nitqini kamilləşdirməlidir.

O, İlahi Kəlamı elə təqdim etməlidir ki, dinləyiciləri cəlb etsin. Allahın niyyətində yoxdur ki, Onun Kəlamının çatdırılmasının insan vasitələri yararsız olsunlar. Allah istəmir ki, insan Onun vasitəsilə dünyaya axan səmavi axının gücünü zəiflətsin və sarsıtsın.

Biz Məsihə kamil bir nümunə kimi baxmalıyıq, Müqəddəs Ruhun yardımını istəməliyik və Onun gücü ilə bədənimizin həг bir hissəsini qüsursuz iş üçün hazırlamalıyıq.

Bu, xüsusilə ictimai xidmətə çağırılanlara aiddir. Hər bir moizəçi, həг bir müəllim daim yadında saxlamalıdır ki, o, insanlara əbədiyyət

haqqında xəbərləri çatdırır, çünki son ödənişin böyük günü insanları bu həqiqət mühakimə edəcək. Bəzi adamlar üçün xəbərin necə çatdırılması onun qəbul, yaxud rədd edilməsində əsas amil olacaq. Kəlamı elə çatdırın ki, o, şüuru çağırsın və ürəyə toxunsun. Qoy o rahat, aydın və təntənəli və eyni zamanda səmimi, bu sözün əhəmiyyətini təsdiq edən inandırıcılıqla deyilsin.

Nitq mədəniyyəti, sözün gücündən düzgün istifadə etmək məsihçi həyatının bütün sahələrində — ailədə, evdə ünsiyyət zamanı, yaxud başqa insanlarla söhbətimizdə lazımlıdır. Biz özümüzü məlahətli

səslə, bununla bərabər düzgün və təmiz nitqlə, nəzakətli və xeyirxah sözlər seçərək danışmağa öyrətməliyik. Məlahətli və xoşagələn sözlər qəlb üçün şeh və mülayim yağmur kimidir. Yazılar Məsih haqqında yazırlar ki, Onun "dodaqlarından lətafətli sözlər tökülür" və O "yorğunlara sözlə dayaq olurdu" (Məz. 45:2; Yeş. 50:4). Rəbb də bizi öyrədir: "Qoy sözünüz həmişə nəvazişli olsun" ki, (Kol.4:6), "sizi dinləyənlərə nemət versin" (Ef. 4:29).

Başqalarını düzəltmək, yaxud öyrətmək istəyiriksə, öz sözlərimizi həssaslıqla seçməliyik, çünki onlar

canverən ətir ola bildikləri kimi, məhvə sürükləyən yol da ola bilərlər. İnsanı məzəmmət edərkən, yaxud [261] ona tövsiyə verərkən çoxları sərt, çətin sözlər işlədirlər ki, bu şözlər də yaralı qəlbə şəfa verə bilmir. Belə nitq yalnız ruhu qızışdırır və çox vaxt səhv edən kəsdə kortəbii müqavimət oyadır. Həqiqət prinsiplərini qoruyan hər bir şəxs səmavi məhəbbət yağına möhtacdır. Hər cür şəraitdə məzəmmət məhəbbətlə ifadə edilməlidir. Bu zaman bizim sözlərimiz üsyana yox, düzəlməyə gətirəcəkdir. Məsih Müqəddəs Ruh vasitəsilə bizim sözlərimizə güc və hökm verəcəkdir. Axı bu Onun işidir.

Heç bir söz düşünülmədən söylənməməlidir. Nə acıdillilik, nə boşboğazlıq, nə qəzəbli ifadələr, yaxud qeybət sözləri Məsihin davamçılarından eşidilməməlidir. Müqəddəs Ruhun təsiri altında həvari Pavel deyir: "Ağzınızdan heç bir çürük söz çıxmasın" (Ef. 4:29). Burada yalnız nalayiq ifadələr deyil, lakin müqəddəs prinsiplərə və dinin paklığına zidd olan hər bir ifadə nəzərdə tutulur. Buraya kinayəli sözlər və şərin üstüörtülü pıçıldamaları da aiddir. Bunun qarşısı dərhal alınmazsa, bunların hamısı böyük günaha səbəb olacaqdır.

Hər bir ailəyə, ayrılıqda hər bir məsihçinin üzərinə nalayiq ifadələrin qarşısını almaq vəzifəsi qoyulmuşdur Əgər biz boşboğazlıq edənlərin arasında olsaq, bizim borcumuz mümkün qədər söhbətin mövzusunu dəyişdirməkdir. Allahın lütfünün köməyi ilə gözəçarpmaz tərzdə, bir neçə rahat sözlə söhbətin mövzusunu xeyirxah məcraya yönəltmək olar.

Valideynlərin vəzifəsi də öz övladlarını lazımi danışıq qaydalarına öyrətməkdir. Bunu ən yaxşı ev şəraitində görmək olar. Körpə yaşlarından uşaqlara öz valideynlərinə və digər insanlara hörmət etməyi öyrətmək lazımdır.

Bilməlidirlər ki, onların dilindən yalnız nəvaziş, həqiqət və təmiz sözlər çıxmalıdır. Qoy valideynlərin özləri hər gün Məsih məktəbinin səliqəli şagirdləri olsunlar. Onda yalnız öyüdlə deyil, öz şəxsi nümunələrilə də onlar öz övladlarını "təkzibedilməz sağlam sözlər" danışmağa öyrədə biləcəklər (Tit. 2:8). Bu, ən mühüm və ən məsuliyyətli vəzifələrdən biridir.

Məsihin sədaqətli davamçıları olaraq, biz öz sözlərimizlə bir-birimizə [262] məsihçi həyatımızda kömək edib sınaqlarda bir-birimizi dəstəkləməliyik. Biz olduqca çox və tez-tez Allahla ünsiyyətimizdən

danışmalıyıq. Bir-birimizə Allahın mərhəmət və məhəbbətindən, Məsihin sonsuz məhəbbətinin həyatımızdakı təzahüründən danışmalıyıq. Bizim sözlərimiz alqış və minnətdarlıq sözləri olmalıdır. Əgər insanın şüur və ürəyi İlahi məhəbbətlə doludursa, bu, mütləq onun sözlərində də ifadə ediləcəkdir. Bu təqdirdə o, qəlbini dolduran hissləri ifadə etməkdə çətinlik çəkməyəcəkdir. Ali fikirlər, nəcib arzular, həqiqət haqqında aydın təsəvvür, təmənnasız məqsədlər, insanın İlahi və müqəddəs Olana yanğısı mütləq öz məhsullarını ürəyin xəzinəsini açan sözlərdə verəcək. Beləliklə, Məsih nitqimizdə açılan

zaman sözlər qəlbləri Ona cəlb etmək gücünə malik olacaq.

Biz Məsih haqqında hələ Onu tanımayanlara danışmalıyıq. Bu zaman Məsih kimi hərəkət etmək lazımdır. O hər yerdə — havrada, yol kənarında, qayıqda, fəriseyin verdiyi ziyafətdə, yaxud vergiyığanın masası arxasında səmavi olan şeylər haqqında danışırdı. Təbiət hadisələrini, gündəlik həyat əhvalatlarını O, həqiqət kəlamları ilə bağlayırdı. Dinləyənlərin ürəkləri Ona yönəlirdi, çünki O, xəstələri müalicə edir, kədərlilərə rahatlıq verir, onların uşaqlarını əlinə götürüb, xeyir-dua verirdi. O danışmağa

başlayan zaman hamının diqqəti Ona yönəlirdi və Onun hər sözü kimdən ötrü isə canlandıran ətir olurdu.

Bu bizim üçün nümunə olmalıdır. Harada olsaq da, biz başqalarına Xilaskar haqqında danışmaq imkanı tapmalıyıq. Əgər biz Məsih kimi yaxşılıq etsək, insanların ürəkləri bizə də Ona açılan kimi açılacaq. Sərt və kobud tərzdə deyil, İlahi məhəbbətin bizə göstərdiyi yolla biz "on minlərlə digərlərindən yaxşı Olan" və "büsbütün lütfkarlıq" Olan haqqında danışa biləcəyik (Nəğ. nəğ. 5:10, 16). Bu bizim öz nitq istedadımızdan istifadə edə biləcəyimiz ən yüksək əməkdir. O bizə məhz ondan ötrü

verilmişdir ki, insanlara Məsihi rəhmli və bağışlayan Xilaskar kimi aça bilək. [263]

## İnsanlara təsir göstərmək

Məsihin həyatı Onu Allahla və bütün bəşər ailəsilə bağlayan sonsuz, hüdudsuz təsir idi. Məsihin vasitəsilə Allah insanı elə bir təsirlə əhatə etmişdir ki, bu Ona yalnız Özü üçün yaşamaq imkanı vermir. Müstəqil varlıqlar olaraq, biz öz həmqardaşlarımızla bağlıyıq və Allaha məxsus olan böyük ailənin üzvləriyik. Bir-birimizə qarşı vəzifələrimiz bundan irəli gəlir. Heç

bir adam başqalarından, öz yaxınlarından tam azad ola bilməz, hər bir şəxsin firavanlığı digərlərinin firavanlığından asılıdır. Allahın məqsədi ondan ibarətdir ki, hər bir adam kiməsə lazım olduğunu hiss etsin və başqalarına xoşbəxtlik gətirmək imkanları arasın.

Hər bir adamın ətrafında özünə məxsus atmosfer yaranır, bu ya həyat verən iman, cəsarət, ümid və məhəbbət atmosferidir, ya da ağır və soyuq, qəmgin, əhatəmizdə olan hər şeydən narazılıq, qısqanclıq, özünəməhəbbət, ürəkdə bəslənən günahın ölümgətirən nəfəsi ilə zəhərlənmiş atmosferdir. Bizi əhatə

edən atmosferlə istər-istəməz bizimlə ünsiyyətdə olan hər bir insana təsir edirik.

Bu elə bir məsuliyyətdir ki, biz ondan azad ola bilmirik. Bizim sözlərimiz, əməllərimiz, geyimimiz, hətta üzümüzün ifadəsi — bunların hamısı təsir edir. Beləliklə, başqalarına göstərdiyimiz təsir müəyyən yaxşı və pis nəticələrə gətirir ki, onları ölçmək və qiymətləndirmək qeyri-mümkündür. Bizdən törəyən həг bir istək başqalarında əkilən toxumdur ki, o da öz növbəsində öz məhsullarını verəcəkdir. Bu, müxtəlif insanların həyatındakı hadisələrin ucu

görünməyən üfüqlərə qədər uzanan zəncirinin bir halqasıdır. Əgər öz nümunəmizlə biz başqalarına özlərində xeyirxah prinsipləri inkişaf etdirməyə kömək ediriksə, bununla onlara yaxşılıq etmək üçün güc veririk. Onlar öz [264] növbələrində bu təsiri başqalarına, başqaları isə digərlərinə keçirəcəklər. Buna görə də bizim dərk etmədiyimiz təsirimiz minlərlə insan üçün xeyir-dua ola bilər.

Gölə bir daş atsaq, görərik ki, suyun üzü ilə o biri sahilə çatana kimi bir-birinin dalınca dalğalar yayılacaq. Eləcə də bizim hətta düşünülməmiş və qəsdən edilməmiş təsirimiz başqa

insanlar üçün xeyir-dua, yaxud lənət ola bilər.

Xasiyyət — böyük təsirə malik olan qüvvədir. Həqiqi, təmənnasız, mömin həyatın sakit şəhadəti təkzibedilməz təsir bağışlayır. Öz həyatımızda Məsihin xasiyyətini açaraq, biz insanların xilas edilməsi işində Onun həmişçiləri oluruq. Biz yalnız o zaman Onunla uğurlu əməkdaşlıq edə bilərik ki, ətrafımızdakılar bizim həyatımızda Onun xasiyyətinin əks olunmasını görə bilsinlər. Təsir sahəmiz nə qədər geniş olarsa, bir o qədər çox yaxşılıq edə bilərik. O zaman ki özlərini Allahın qulları hesab edənlər öz

gündəlik həyatlarında İlahi Qanunun prinsiplərini rəhbər tutaraq Məsihin nümunəsinə oxşamağa çalışacaqlar, o zaman ki onların hər bir əməli Allahı hər şeydən çox sevdiklərinə və öz yaxınlarını özləri kimi sevdiklərinə şəhadət edəcəkdir, onda imanlılar cəmiyyəti dünyanı dəyişmək gücünə malik olacaqdır.

Lakin unutmaq olmaz ki, insanın təsiri eyni dərəcədə şərə də xidmət edə bilər. Öz canını itirmək dəhşətlidir, başqa canların ölümünə səbəb olmaq bundan da dəhşətlidir. Bizim təsirimizin ölümgətirən ola biləcəyi fikri qorxudur; lakin bu mümkündür. Özlərini Məsihlə

birləşən adlandıranların çoxu, əslində, insanları Ondan uzaqlaşdırırlar. Məhz buna görə imanlılar cəmiyyəti bu qədər zəifdir. Çoxları tənqid və ittiham etməyi özlərinə rəva bilirlər. Şübhələri, paxıllıqları və narazılıqları ilə onlar şeytana üzərlərində hakim olmaq ixtiyarı verir və onun əlində alətə çevrilirlər. Onlar nə etdiklərini dərk edənə kimi bəşər düşməni onların vasitəsilə öz məqsədinə çatır. Şər artıq öz təsirini göstərdi, kiməsə artıq kölgə salındı, şeytanın oxları öz hədəfinə çatdı. Şübhələr, imansızlıq [265] və hətta açıq allahsızlıq hissləri başqa şəraitdə Məsihi qəbul edə biləcək insanlara hakim kəsilir. Bu zaman onların bədbinliyə sövq

etdikləri adamlara şeytanın köməkçiləri rahatlıqla baxırlar və bu səbəbdən daşlaşmışları, irad və xahişlərə kar olmuşları müşahidə edirlər. Onlar öz-özlərini tərifləyirlər ki, başqaları ilə müqayisədə onlar saleh və xeyirxahdırlar. Bu zaman dərk etmirlər ki, bu zavallılar məhz onların məhdudiyyət bilməyən dilinin və üsyankar ürəyinin nəticəsində itirildilər. Məhz onların təsiri nəticəsində bu zəif canlar sınağa düşdülər.

Beləliklə, özlərini məsihçi adlandıranların həyatında təzahür edən yüngüllük, özünə qarşı güzəştli münasibət, qayğısızlıq və laqeydlik

bir çox canları həyat yolundan çəkindirir. Məsihin belə davamçılarından olanlar Allahın hökm günündə öz pis təsirlərinin məhsulları ilə qarşılaşmağa qorxacaqdırlar.

Biz bu istedaddan yalnız Allahın lütfü vasitəsilə düzgün istifadə edə bilərik. Öz-özlüyündə bizdə elə bir şey yoxdur ki, başqalarına yaxşı təsir bağışlasın. Öz şəxsi köməksizliyimizdə özümüzə hesabat verib və Allahın gücünə ehtiyacımız olduğunu dərk edərək, biz heç bir şeydə özümüzə arxalanmayacağıq. Biz hər bir günün, saatın və hətta anın hansı nəticələr verəcəyini

bilmədiyimizə görə heç bir günümüzü öz taleyimizi Səmavi Atamıza həvalə etmədən başlamamalıyıq. Onun mələkləri bizə nəzarət edirlər və əgər özümüzü onların rəhbərliyi və mühafizəsi altına təslim etsək, hər cür təhlükə anında onlar bizim yanımızda olacaqdırlar. O zaman ki, biz özümüzdən asılı olmayaraq pis təsir göstərmək qarşısında olacağıq, mələklər onda da yanımızda olacaqlar ki, bizi düzgün qərara istiqamətləndirsinlər, lazımi sözlər öyrətsinlər və bizim hərəkətlərimizə təsir etsinlər. Buna görə bizim təsirimiz sakit, nəzərəçarpmaz, lakin başqalarının Məsihə və səmavi aləmə

cəlb edilməsində böyük qüvvə ola bilər. [266]

## Vaxt

Bizim vaxtımız Allaha mənsubdur. Həyatımızın hər anı Ona məxsusdur və ən təntənəli vəzifəmiz bu ənamın Onun adının izzətləndirilməsi üçün istifadə edilməsidir. Allahın bizə bəxş etdiyi vaxt haqqındakı qədər heç bir talant haqqında biz Ona elə dəqiq hesabat verməyəcəyik.

Vaxtı heç bir qiymət ölçüsünə yerləşdirmək olmaz. Məsih həyatının hər anını dəyərli sayırdı və biz də

zamana belə baxmalıyıq. Həyat onu boş şeylərə sərf etmək üçün çox qısadır. Bizim boş-boşuna keçirmək, yaxud eqoist ləzzətlərə və günaha yol vermək üçün vaxtımız yoxdur. Məhz indi, bu qısa həyatda, biz öz xasiyyətimizi əbədi həyat üçün hazırlayırıq. Yalnız indi və bir daha heç vaxt, biz öz əməllərimizin gələcəkdəki aqibətinə hazırlaşmalıyıq.

İnsan ailəsi yaşamağa yeni başlayan kimi dərhal ölməyə başladı. Əgər əbədi həyat haqqında həqiqi bilik əldə edilməyibsə, insanın fasiləsiz əməyi heç nəyə gətirməyəcəkdir. Vaxtı zəhmət

çəkmək üçün müəyyən edilmiş kimi dəyərləndirən insan özünü səma iqamətgahına, ölümsüz həyata hazırlayacaqdır. Belə insan öz doğumuna bəraət qazandıracaqdır.

Bizə bəxş olunmuş vaxtdan səmərəli istifadə etməliyik. Lakin boş yerə sərf edilmiş vaxtı qaytarmaq mümkün deyildir. Biz yaşadığımız heç bir anı geriyə qaytara bilmərik. İtkini ödəməyin yeganə vasitəsi Allahın böyük xilas planının həyata keçirilməsində Onun həmişçiləri olmaqdır.

Bunu edən şəxsdə xasiyyət dəyişikliyi baş verir. O, Allahın övladı, hökmdar ailəsinin üzvü,

Səmavi Padşahın övladına çevrilir. O, mələklərlə ünsiyyətə hazırdır.

Bu gün bizə öz yaxınlarımızın xilası üçün verilmiş vaxtdır. Çox [267] adamlar hesab edirlər ki, əgər onlar Məsihin işinə pul köçürürlərsə, vəzifələrini yerinə yetirirlər, lakin şəxsən Ona xidmətə həsr oluna biləcək vaxt həmişəlik itirilmişdir. Sağlamlığa, qüvvəyə və istedadlara malik olan hər kəsin imtiyazı və eyni zamanda yüksək vəzifəsi Allaha əməli xidmətdir. Məsih üçün canlar qazanmaqdan ötrü hamı çalışmalıdır. Sadəcə pul köçürmək işi əvəz edə bilməz.

Bizim yaşadığımız hər bir an əbədiyyətdə öz əks-sədasını tapır. Biz xidmət üçün dəvətə daim hazır olmalıyıq. Bu saat, bu an ehtiyacı olan bir cana həyat sözünü demək üçün malik olduğumuz imkan bir daha olmaya bilər. Kömək edə bilmədiyimiz insana Allah hər bir an deyə bilər: “Bu gecə sənin canını tələb edəcəklər” (Lk. 12:20) və o, yalnız ona görə buna hazır olmayacaqdır ki, biz öz vəzifəmizə laqeydlik etdik. Böyük hökm günündə biz necə hesabat verəcəyik?

Həyat onu keçəri dünya məqsədlərinə, əbədiyyətlə müqayisədə tamamilə dəyərsiz olan

qayğılar və narahatçılıq gətirən əşyalara tabe etmək üçün çox dəyərlidir. Buna baxmayaraq, Allah bizi keçəri yaşayış işlərində də Ona xidmət etməyə dəvət edir. Çalışqanlıq belə işdə həqiqi dinin möminlik qədər vacib hissəsidir. Müqəddəs Kitab bizim dünyamız üzərində daim hökm sürən avaralığa bəraət qazandırmır. Hər bir həqiqətən iman etmiş insan öz işlərində çalışqan olacaqdır.

Biliyə nail olmağımız və əqli keyfiyyətlərimizin inkişafı bizim öz vaxtımızdan necə istifadə etməyimizdən asılıdır. İntellektin inkişafına nə kasıblıq, nə sadə mənşəli olmağımız, nə münbit

şəraitin olmaması mane olmalıdır. Yalnız həyatın hər anını dəyərləndirmək gərəkdir. Bir neçə qısa an burada, bir neçə dəqiqə orada, mənasız söhbətlərə sərf edilmiş vaxt, tez-tez yataqda keçirilən sübh saatları, nəqliyyatda, nəhəng növbələrdə, görüşə vaxtında gəlməyənləri gözləməkdə keçirilən saatlar — hamısını saymaq olmaz. Daim əlimizin altında kitab olsaydı və bu vaxt parçalarını oxumağa, yaxud düşüncələrə həsr etsəydik, nə çox işlər görmək olardı. Qoyulmuş məqsədə tərəf getməkdə inadkarlıq, [268] əməkdə səyli olmaq və vaxtın həssas qənaəti insanlara elə biliklər və şüura elə nəzarət verir ki, onların

yararlı olmaqlarına və təsirlərini büruzə verməyə kömək edir.

Hər bir məsihçinin vəzifəsi özündə nizam, həssaslıq və səliqə tərbiyə etməkdir. Hər hansı bir işi çəkib uzatmağın heç bir ciddi bəraəti yoxdur. Əgər insan daim işləyir, lakin iş yaxşı getmirsə, deməli, o öz işinə bütün şüur və ürəyini vermir. İşi yubandıran və zərər verən bu çatışmazlıqları kənarlaşdırmalıdır. Ona öz şüurunu inkişaf etdirmək lazımdır ki, ən yaxşı nəticələrə nail olmaq üçün vaxtını düzgün planlaşdıra bilsin. İşin düzgün planlaşdırılması ona gətirir ki, bir nəfərin beş saat ərzində gördüyü iş

üçün başqasına on saat lazım olur. Ev işləri ilə məşğul olanların çoxu ona görə fasiləsiz və durmadan çalışmırlar ki, onların həddindən çox vəzifələri və yükləri vardır, fəqət ona görə ki, onlar işlərini vaxta qənaət etmədən planlaşdırırlar. Öz tənbəllikləri ilə, işi uzatmaqları ilə onlar çox kiçik bir işi böyük işə çevirirlər. Lakin həqiqətən arzu edən gec-tez zərərli ləngimə verdişinə qalib gələ biləcəkdir. Bundan ötrü yalnız işə başlayarkən qarşıya müəyyən məqsəd qoymaq lazımdır. Özünüz üçün müəyyənləşdirin ki, qarşınızda duran iş nə qədər vaxt tələb edir və sonra bütün səylərinizi sərf edərək, işi həmin vaxtda başa

çatdırın. İradənin belə məşqi ona gətirəcəkdir ki, əlləriniz də daha cəld olacaqdır.

İnadkarlıqları, özlərini ələ alıb dəyişməyə qadir olmadıqları üzündən adamlar yanlış həyat tərzinin əsarətinə düşürlər; fəqət öz qabiliyyətlərini inkişaf etdirib iradələrini möhkəmləndirərək, onlar üzərlərinə götürdükləri vəzifələri ən yaxşı surətdə yerinə yetirə bilərlər. Onda onlar hər yerdə və hər zaman lazımlı olacaqlar. Onları xidmət və ləyaqətlərinə görə yüksək qiymətləndirəcəkdirlər.

Uşaq və gənclərin bir çoxu çox vaxt öz valideynlərinə olan

məhəbbətlərini və onların çətinliklərinə şərik olduqlarını nümayiş etdirərək onlara ev işlərində kömək etmək əvəzinə, vaxtlarını boş-boşunä sərf edirlər. [269] Gənclər öz güclü çiyinlərinə bir çox kimsələrin götürməli olduğu vəzifələri götürə bilərdilər.

Məsihin həyatı ən kiçik yaşlarından fəallıq və işgüzarlıqla müşahidə olunurdu. O, yalnız Özü üçün yaşamırdı. Əbədi Allahın Oğlu olmasına baxmayaraq, atası Yusifə kömək edərək, dülgərlik edirdi. Onun atasının emalatxanasında işləməyi müəyyən dərəcədə əlamətdar idi. O, dünyaya xasiyyət inşaatçısı kimi

gəldi, ona görə də Özünün hər bir işində kamilliyə çatmağa çalışırdı. Öz gündəlik əməyinə O Onun İlahi qüdrəti ilə yeniləşmiş insanların xasiyyətlərində olan kamilliyi gətirdi. Biz də Onun kimi hərəkət etməliyik.

Valideynlərin öz uşaqlarına vaxtı dəyərləndirməyi və ondan səmərəli istifadə etməyi öyrətməsi gərəkdir. Onlara Allahın izzətlənməsinə və insanların xeyrinə olan işləri görməyi öyrədin. Öz kiçik yaşlarında da uşaqlar Allahın təmsilçiləri ola bilərlər.

Valideynlərin öz uşaqlarının avaralıq etməyinə icazə verməkdən böyük günahları yoxdur. Uşaqlar

tənbəlliyə çox tez öyrənirlər və gələcəkdə onlardan köməksiz və yararsız insanlar yetişir. Yaşlaşdıqca, insanın işləyərək artıq həyat üçün vəsaitlə öz-özünü təmin etdiyi zaman, ləng və təşəbbüs göstərmədən işləyirlər və eyni zamanda onların işinə uyğun olmayan məvacib gözləyirlər. Belə işçilərlə Allahın sadiq sərəncamçısı olmağı dərk edənlər arasında böyük uçurum vardır.

Süstlük, gündəlik işlərə münasibətdə məsuliyyətsizlik belə adamların dini həyatlarına da yayılaraq, onları Allah üçün görüləcək hər hansı bir yararlı işə

qabiliyyətsiz edir. Öz səyli əməkləri sayəsində dünya üçün xeyir-dua ola biləcək bir çoxları, özlərini tənbəlliklə məhv etdilər. Boşluq, həyatda məqsədlərin olmaması insanı qarşısına çıxacaq minlərlə imtahanlar önündə köməksiz edir. Nadürüst yoldaşlar və zərərli vərdişlər şüur və canı məhv edirlər. Nəticədə insan həm indiki, həm də gələcək həyat üçün məhv olur.

Məşğul olduğumuz işin sahə və səviyyəsindən asılı olmayaraq, Allahın [270] Kəlamı bizə deyir: "Səydə zəifləməyin; ruhda hərarətli olun; Rəbbə xidmət edin". "Bilərək ki, mükafat olaraq, Rəbdən miras

alacaqsınız”, “çalışmaq üçün nə bacarırsan, var gücünlə et”. “Çünki xidmət etdiyiniz Rəbb Məsihdir” (Rom. 12:11; Vaiz 9:10; Kol. 3:24).

## Sağlamlıq

Sağlamlıq Rəbbdən gələn elə bir xeyir-duadır ki, onu az adam dəyərləndirir; lakin eyni zamanda, bizim əqli və fiziki qüvvələrimizin istifadə edilməsinin effektivliyi əsas etibarilə ondan asılıdır. Bütün impulslar, vadaredici səbəblər və hisslər bizim bədənimizdə yaranır. Məhz buna görə də o, ən yaxşı fiziki vəziyyətdə saxlanılmalıdır və ən

yüksək ruhlu təsir altında olmalıdır ki, bizim istedad və qabiliyyətlərimiz ən yaxşı surətdə istifadə edilə bilinsin.

Fiziki sağlamlığımızı korlayan hər şey bizim şüurumuzu da zəiflədərək, onun yaxşını pisdən seçmək qabiliyyətini məhv edir. Biz xeyrə qarşı qeyri-həssas oluruq və düzgün saydığımızı etmək üçün güc və iradəmizi itiririk.

Fiziki qüvvələrimizin mənasız xərclənməsi ömrümüzü qısaldır, halbuki bizim qüvvələrimiz Allahın izzətləndirilməsinə xidmət edə bilərdi. Çox vaxt bu bizi Allahın dəvət etdiyi işi yerinə yetirməyə

tamamilə qabiliyyətsiz edir. Öz zərərli vərdişlərimizi təşviq edərək, mənasız yerə gecə yarısına qədər oturaraq, öz sağlamlığımızın zərərinə iştahamıza rəvac verərək öz fiziki gücümüzü zəiflədirik. İdmana etinasızlıq edərək, şüur və bədənimizi həddindən çox yükləyərək öz sinir sistemimizin tarazlığını pozuruq. O şəxslər ki, təbiət qanunlarını pozaraq və beləliklə öz ömürlərini qısaldaraq özlərini Allaha bütövlüklə xidmətdən məhrum edirlər, Ondan oğurlamaqda təqsirkardırlar. Bundan əlavə, onlar öz qonşularından da oğurlayırlar, çünki öz yararlı fəaliyyət müddətlərini qısaldır [271] və başqalarına xeyir-dua verməyə qadir

olmurlar, fəqət Allah onları dünyaya bunun üçün göndərmişdir. Müəyyən bir zaman ərzində edə biləcəkləri iş üçün özlərini yararsız edirlər. Əgər öz sağlamlığımızı zərərli vərdişlərlə korlayaraq, dünyanı bizim vasitəmizlə bəxş oluna biləcək xeyirdən məhrum ediriksə, Rəbb bizi təqsirkar sayır.

Beləliklə, fiziki qanunların pozulması həm də ruhlu qanunların pozulmasıdır, çünki Allah yalnız ruhlu qanunun deyil, həm də fiziki qanunların həqiqi yaradıcısıdır. Onun qanunu ilə insana bəxş olunmuş hər əsəbdə, hər əzələdə və hər bir qabiliyyətdə Öz əli təcəssüm

etdirilmişdir. Hər dəfə öz bədənimizin hansısa hissəsi ilə pis rəftar etdiyimiz zaman biz Allahın Qanununu pozuruq.

Hər bir şəxs öz bədənini tanımalı və başa düşməli, xüsusiyyətlərini bilməlidir ki, onu düzgün saxlaya bilsin, Rəbbin işini yerinə yetirməyə hazır olsun. Fiziki sağlamlığımızı daim həssaslıqla qorumalı və inkişaf etdirməliyik ki, İlahi təbiət bütün dolğunluğu ilə insan təbiətində açıla bilsin. Tərbiyə işinin ən mühüm tərəflərindən biri bədənin fiziki fəaliyyəti ilə ruhlu həyatı arasındakı əlaqəni başa salmaqdır. Bu məsələlərə həm evdə, həm də məktəbdə xüsusi

diqqət yetirmək lazımdır. Hamının öz fiziki quruluşu və təbii həyatı idarə edən qanunlar haqqında təsəvvürü olmalıdır. Bilərəkdən bu qanunları bilməməzliyə salan və cahilliyinə görə onları pozan şəxslər Allah qarşısında günah edirlər. Hər bir şəxs öz həyat və sağlamlığını qorumalıdır. Bizim vərdişlərimiz şüurumuzun, o isə öz növbəsində Allahın nəzarətində olmalıdır.

"Məgər bilmirsiniz ki, — həvari Pavel deyir, — bədənləriniz sizdə yaşayan Müqəddəs Ruhun məbədidir və Onu sizə Allah vermişdir və siz özünüzə məxsus deyilsiniz? Zira siz çox baha qiymətə alınmısınız. Buna

görə Allahınkı olan bədəninizlə və ruhunuzla Allahı izzətləndirin” (1 Kor. 6:19, 20). [272]

## Qüvvələrimiz

Biz Allahı yalnız şüur və ürəyimizlə deyil, lakin özümüzün bütün qüvvələrimizlə sevməliyik. Bu bizim fiziki qüvvələrimizin tam, şüurlu istifadəsini nəzərdə tutur.

Məsih yalnız ruhlu işlərdə deyil, həm də dünyəvi işlərdə həqiqi zəhmətkeş idi. Özünün hər bir işində O Öz Atasının iradəsini yerinə yetirməkdə iradə və səy göstərirdi. Səmavi ilə dünyəvi şeylər çoxlarının

güman etdiklərindən daha sıx bağlıdır və daha artıq Məsihin bilavasitə nəzarəti altındadır. Yerdəki ilk qurbangahın quruluşunu Məsih planlaşdırırdı. Süleymanın məbədinin inşasına dair konkret göstərişlər verən də O idi. Öz dünyadakı həyatında Nazaretdə dülgər işləyən Məsih həm də Onun adının izzətlənməli olduğu müqəddəs məbədin planını hazırlayan səmavi memar idi.

Məhz Məsih qurbangahın inşaatçılarına müdriklik bəxş etdi ki, bu da onlara bu işi həqiqi ustalıq və gözəlliklə icra etmək imkanı verdi. O dedi: "Bax, Yəhuda qəbiləsindən Xur oğlu Uri oğlu Besaleli adı ilə çağırıb,

onu Allahın Ruhu ilə hikmət, dərrakə, bilik və hər cür məharətlə doldurmuşam ki, qızıl, gümüş və tuncla işləməyi bacarsın, daş-qaş yonsun, ağac oysun, hər cür məharət göstərə bilsin. Mən də Dan qəbiləsindən Aximasaq oğlu Oholiavı ona köməkçi təyin etmişəm. Hər müdrik adamın ürəyinə hikmət qoymuşam ki, Mən sənə necə əmr etmişəm, belə də etsinlər" (Çıx.31:2-6).

Allah istəyir ki, Onun işçiləri hər bir işlərində Ona malik olduqları hər şeyi verən kimi baxsınlar. Həг bir həqiqi kamilləşdirmə və ixtira Ondan törəyir, Onun Özü tövsiyədə ecazkar

və işində kamildir. Həkimin bizim əsəb və əzələlərimizin vəziyyətini təyin edən əlinin həssaslığı, onun qəliz insan orqanizmini bilməyi İlahi qüdrətin əzab çəkənlərin xeyrinə [273] bəxş etdiyi müdriklikdir. Dülgərin çəkiclə ustalıqla işləməsi, dəmirçinin zindana vurduğu qüvvəsi Allahdan gəlir. O, insana istedadlar bəxş etdi və gözləyir ki, insan öz işində məsləhət üçün Ona müraciət etsin. Biz nə iş görsək də, hansı işi bizə tapşırsalar da, O, şüurumuzu idarə etmək istəyir ki, öz işimizdə kamilliyə nail olaq.

Ruhlu və dünyəvi əmək bir-birindən o qədər də uzaq sahələr

deyil. Müqəddəs Kitab prinsipləri bizim hər bir işimizin və sözümüzün əsası olmalıdır. İlahi və bəşəri qüvvələr həm dünyəvi, həm də ruhlu sahələrdə həqiqi müvəffəqiyyətə nail olmaq üçün birləşməlidirlər. Bu qüvvələr insan fəaliyyətinin bütün sahələrində, istehsal və kənd təsərrüfatında, ticarət və elmi layihələrdə həmrəy olmalıdırlar. Belə bağlılıq məsihçi fəaliyyətinin hər bir sahəsində təzahür edilməlidir.

Allah bəşəri və İlahi qüvvələrin buna bənzər birliyinin qurulması prinsiplərini bəyan etmişdir. Allahla bərabər işləyənlərin əsas aparıcı motivi hər cür fəaliyyətdə Onun

izzətləndirilməsi fikri olmalıdır. Bizim hər bir işimiz Allaha məhəbbətdən doğmalı və Onun iradəsinə uyğun olaraq həyata keçirilməlidir.

Allahın iradəsini dini sitayişdə iştirak etdiyimizdə olduğu qədər binanın inşasında da yerinə yetirmək vacibdir. Əgər işçilər öz şəxsi xasiyyətlərinin formalaşmasında müqəddəs prinsipləri rəhbər tuturlarsa, hər bir binanın inşasında da onlar lütf və bilgilərdə yüksələcəkdirlər.

Əgər insan öz "mən"ini canlı qurban kimi qurbangaha qoymursa, Allah onun ən böyük istedadını da, ən

gözəl xidmətini də qəbul etməyəcək. Kökün özü müqəddəs olmalıdır, əks halda o, Allahın qəbul edə biləcəyi məhsulu verə bilməz.

Rəbb Daniel və Yusifi ağıllı rəislər kimi yetişdirdi. O, onların vasitəsilə ona görə iş görə bildi ki, onlar öz istəklərini ödəmək üçün yaşamır, Allahın işinə yaramaq istəyirdilər.

Danielin nümunəsi bizim üçün ibrət dərsidir. O göstərir ki, işgüzar adam mütləq fəndgir və hiyləgər olmaya da bilər. O özünün hər addımında [274] Allahın rəhbərliyini axtara bilər. Daniel Babil padşahlığının baş naziri, eyni

zamanda Allahın peyğəmbəri idi və Ondan səmavi vəhy işığı alırdı. Fani şəxsi heysiyyətlər əsarətində olan dünyəvi dövlət xadimləri İlahi Kəlamda çiçəkləri məhsul verməyən otlara bənzədilmişlər. Rəbb Öz köməkçilərində müxtəlif istiqamətlərdə xidmət edə bilən insanları görmək istəyir. Ona özlərinin hər bir işində böyük həqiqət prinsiplərinə istinad edə bilən iş adamları da lazımdır. Ən dəqiq tədqiqat və səyli hazırlıq ilə onlar öz istedadlarını kamilləşdirməlidirlər. Əgər insanlara hansısa fəaliyyət sahəsində daha müdrik və səmərəli olmaq üçün bütün olan imkanlardan istifadə etmək gərəkdirsə, bunu bütün

güc və bacarıqlarını dünyamızda Allahın Padşahlığının qurulmasına həsr edənlərin xeyrinə etmək lazımdır. Ən dəqiq təhlil edərək, biz Danielin bütün fəaliyyətində heç bir səhv, yaxud yanılma aşkar edə bilmərik. Hər bir iş adamı üçün o, nümunə olmalıdır. Danielin taleyi bizə göstərir ki, Allahın xidmətinə öz şüur və əllərinin var qüvvəsini, bütün ürəyini və həyatını verən insan nəyə qadir ola bilər.

## Maddi vəsaitlər

Allah insanlara həm də vəsaitlər verir. O, insanlara vəsait əldə etmək

və çoxaltmaq üçün güc verir. Torpağı səmavi şeh və təravətli yağışlarla sulayır. O, torpağı isindirən gün işığı verir, bütün təbiətə həyat verərək çiçəklənmə və məhsul bəxş edir. Ona həqiqətən məxsus olanın qaytarılmasını gözləyir.

Bizə vəsait ona görə verilməmişdir ki, biz özümüzü izzətləndirək. Sadiq idarəçilər kimi, biz bəxş edilmiş hər şeyi Allahın şərəfi və izzəti naminə istifadə etməliyik. Bəziləri hesab edirlər ki, malik olduqları vəsaitin yalnız bir hissəsi Allaha məxsusdur. Onun bir hissəsini dini və xeyriyyə məqsədlərinə ayıraraq, bütün qalan

hissəsini özləri istədikləri [275] kimi istifadə edə biləcəkləri mülkiyyət hesab edirlər. Ancaq bunda səhv edirlər. Bizim malik olduğumuz hər şey Allahındır və onların istifadə edilməsinə görə Onun qarşısında cavabdehik. Bizim hər qəpiyimizi necə xərclədiyimiz Allahı hər şeydən artıq və qonşumuzu özümüz qədər sevib-sevmədiyimizi çox aydın şəkildə göstərir.

Pulun böyük dəyəri vardır, çünki onun köməyi ilə çoxlu yaxşılıqlar etmək mümkündür. Allahın övladlarının əllərində pul — aclar üçün qida, susuzlar üçün su və çılpaqlar üçün paltardır. Onda

istismar edilənlər üçün mühafizə və xəstələr üçün yardım vardır. Lakin əgər mühüm həyat ehtiyaclarının ödənilməsinə, başqalarının xeyir-duasına və Allahın işinin irəliləməsinə xidmət etmirsə, öz-özlüyündə pul qumdan artıq dəyərə malik deyildir.

Var-dövləti bir məqsəd olaraq toplamaq yalnız xeyirsiz deyil, əsl lənətdir. Həyatımızda pul toplamaq qəlb üçün tələdir, o bizi səmavi sərvətlərə bağlılıqdan və məhəbbətdən yayındırır. Böyük İlahi hökm günündə istifadə edilməmiş talantlar və itirilmiş imkanlar haqqında şəhadət edərək, toplanmış

var-dövlət öz sahibini məhkum edəcəkdir. Yazılar deyir: “Gəlin indi, ey varlılar, başınıza gələcək fəlakətlərdən ötrü ağlayın və fəryad edin! Var-dövlətiniz çürüyüb, paltarlarınızı da güvə yeyib. Qızıl və gümüşünüz paslanıb və onların pası sizə qarşı şəhadət olacaq və ətinizi od kimi yeyəcək. Siz son günlərdə sərvət topladınız. Budur, tarlalarınızı biçən işçilərin hiylə ilə gizlətdiyiniz əmək haqqı fəğan edir. Biçinçilərin fəryadı Səmavi Orduların Rəbbinin qulaqlarına çatdı!” (Yaq. 5:1-4).

Lakin Məsih şüursuz israfçılığa da bəraət qazandırmır. O, qənaətcil olmağı öyrədir: “Heç bir şey zay

olmasın deyə artıq qalan tikələri toplayın" — bu dərs də Onun bütün davamçılarına aiddir (Yəh. 6:12). Vəsaitin Allahın verdiyi güc olduğunu başa düşən şəxs onlardan qənaətlə istifadə edəcək və onları mühafizə edərək gələcəkdə verməyi özünə borc biləcəkdir. [276]

Biz cah-cəlala və öz ehtiraslarımızın ödənilməsinə nə qədər çox vəsait sərf edəcəyiksə, acı yedirtmək və çılpağı geyindirmək üçün bir o qədər az ehtimal yaranır. Hər bir ağılsız xərclənən qəpik bizi gözəl yaxşılıq etmək imkanından məhrum edir. Bu isə o deməkdir ki, biz Allahdan oğurlayaraq, Onu izzət

və şərəfdən məhrum edirik, O bunu bizə etibar etdiyi talantların düzgün istifadə olunması ilə qəbul edə bilərdi.

## Xeyirxah niyyət və meyllər

Xeyirxahlıq, alicənablıq, qəlb həssaslığı, ruhlu incəlik elə dəyərli istedadlardır ki, onlar öz sahiblərinə əlavə məsuliyyət yükü verir. Onların hamısı Allahın xidmətinə sərf olunmalıdır. Lakin burada çoxları yanılırlar. Bu keyfiyyətlərə özlərinin malik olmaları ilə kifayətlənərək, bu adamlar onlardan hansısa bir əməli xidmətdə başqalarının xeyrinə

istifadə etmək imkanını əldən verirlər. Onlar özlərinə təsəlli verirlər ki, əgər onlara müvafiq imkanlar verilsə idi, əgər münasib şərait olsa idi, böyük xeyirxah işlər görə bilərdilər. Lakin onlar belə imkanları yalnız passiv vəziyyətdə gözləməkdədirlər. Onlar ehtiyacı olana könülsüz şəkildə qəpik-quruş verən xəsisə nifrət edirlər. Onlar görürlər ki, xəsis özü üçün yaşayır və bilirlər ki, öz istifadə edilməmiş talantlarına görə o cavab verəcəkdir. Böyük məmnunluqla özləri ilə bu avam, xəsis insanlar arasındakı təzadı qeyd edirlər, güman edirlər ki, onların vəziyyətləri bu xəsislərinkindən qat-qat üstündür. Lakin özlərini aldadırlar. İstifadə

edilməyən keyfiyyətlərə ancaq malik olmaq, insanın məsuliyyət və təsirini yalnız ağırlaşdırır. Allahdan böyük və alicənab hissləri pay almış insanlar, onları yalnız öz dostlarına qarşı deyil, köməyə ehtiyacı olanların hamısına münasibətdə göstərməlidirlər. Sosial üstünlüklər də talantlardır ki, bizim təsir hüdudlarımızda olanların hamısının xeyirinə istifadə olunmalıdır. Yalnız çox az adam üçün göstərilən məhəbbət həqiqi [277] məhəbbət deyildir. Bu ancaq pərdələnmiş özünəməhəbbətdir. O heç cür canların xeyrinə və yaxud Allahın izzəti üçün xidmət etməyəcəkdir. Öz talantlarını istifadə etməyənlər Allah qarşısında daha çox

təqsirkardırlar, nəinki onların nifrət etdikləri insanlar. Onlara deyiləcəkdir: “Siz Ağanın iradəsini bilirdiniz, lakin onu icra etmədiniz”.

## İstifadə olunaraq çoxaldılmış talantlar

İşlədilən talantlar çoxalır. Müvəffəqiyyət heç zaman təsadüf, yaxud tale işi deyildir; bu, Allahın şəxsi Uzaqgörənliyinin nəticəsi, iman və tədbirlilik, xeyirxahlıq və əzmli səylər əvəzində verilən təltifdir. Rəbb istəyir ki, biz hər ənam istifadə edək; əgər biz bunu ediriksə, Rəbb bizə daha çox hədiyyələr verir. O bizə

malik olmadığımız keyfiyyətləri fövqəl təbii surətdə vermir; fəqət malik olduğumuzu istifadə etdiyimiz zaman Allahın Özü bizimlə işləyərək, olan keyfiyyətləri kamilləşdirir. Rəbbə qızğın, fədakar xidmət etməklə biz özümüzü itirmirik. Əksinə, qüvvələrimiz çoxalır. Özümüzü Müqəddəs Ruha tabe etdikdə, Onun aləti olduqda Allahın lütfü bizdə hərəkətə gəlir ki, qəlbimizdən əvvəlki niyyətlərimizi kənar etsin, pis təmayüllərimizə qalib gəlsin və yeni, xeyirli vərdişlər yaratsın. Ruhun belə bir faydalı təsiri altına düşərək, ürəklərimiz daha çox Onun gücündə olur və bu bizə öz işimizi daha yaxşı yerinə yetirmək imkanı verir. Bizim

bu ana qədər yatmış qüvvələrimiz oyanır və tələb edilməmiş qabiliyyətlərimiz yeni həyata malik olur.

Allahın çağırışına itaətlə səs verən ləyaqətli işçi Onun köməyinə əmin ola bilər. Belə bir böyük və müqəddəs məsuliyyəti öz üzərinə götürmək artıq öz-özlüyündə xasiyyətin yüksəldilməsi deməkdir. Bu məsuliyyət ən yüksək əqli və ruhlu qüvvələri hərəkətə gətirir, şüur və ürəyi möhkəm və təmiz edir. Allahın qüdrətinə imanla zəif insan necə böyük gücə malik olur, onun səyləri necə qərarlı olur və necə gözəl nəticələr [278] verir. Kim ki ən kiçik

biliklərdən başlayaraq, öz təvazökarlığına görə yalnız həqiqətən bildiyi haqda danışır, eyni zamanda daha çox bilməyə çalışaraq, öz ehtiyaclarını ödəmək üçün onu gözləyən hüdudsuz səma sərvətlərini aşkar edəcəkdir. Ona verilmiş işığı nə qədər başqalarına verməyə çalışacaqsa, bir o qədər işıq ona veriləcəkdir. İlahi Kəlamı başqalarına nə qədər çox izah ediriksə, o bizim üçün bir o qədər aydın olur. Biz öz biliklərimizlə nə qədər çox bölüşürüksə və öz qabiliyyətlərimizi burada, yerdə, insanların içində nə qədər fəal istifadə ediriksə, bir o qədər çox bilik və qüvvələr alacağıq.

Bizim Məsih naminə göstərdiyimiz hər bir səyimiz özümüzün xeyirdua almağımıza səbəb olur. Bütün imkanlarımızı Onun izzətləndirilməsi üçün istifadə ediriksə, O bizə daha da çox verir. Biz başqa canlar haqqında qayğını öz üzərimizə götürərək, onları Məsihə cəlb etmək istəyəndə öz ürəklərimiz Allahın lütfünün təsiri altında daha bərk döyünür; öz hisslərimiz İlahi eşq ilə alovlanır; bizim bütün məsihçi həyatımız daha çox cəhdli və dualı olaraq böyük reallığa malik olur.

Səmada insanın dəyəri onun ürəyinin Allahı dərk etmək qabiliyyətinə uyğun olaraq müəyyən

edilir. Bu dərrakə bütün gücümüzün törədiyi mənbəədir. Allah insanı elə xəlq edibdir ki, onun hər bir qabiliyyəti İlahi şüuru əks etdirə bilsin; O daim çalışır ki, insan şüurunu Allahla harmoniyaya gətirsin. O, dünya qarşısında Məsihin lütfünü göstərməklə bizə Onunla əməkdaşlığın xeyir-dualı imkanını verir ki, biz bu müqəddəs işdə səmavi biliklərimizi çoxalda bilək.

Məsihə baxaraq biz Allahı daha aydın və əyani dərk edirik və bu bizi dəyişir. Bu zaman xeyirxahlıq, öz qonşularımıza qarşı məhəbbət təbii ehtiyaclarımız olur. Bizdə Allahın xasiyyətinə uyğun olan şəxsi cəhətlər

inkişaf edir. Ona bənzər böyüyərək Allahı dərk etmək qabiliyyətimizi inkişaf etdiririk. Səmavi aləmlə münasibətlərimiz getdikcə daha çox dərin, məhsuldar olur və bizim bilik sərvətlərini və müdriklik mənbəyini mənimsəmək gücümüz daim çoxalır. [279]

## Bir talant

Bir talant alan adam “gedib yeri qazdı və ağasının pulunu gizlətdi”. Ən kiçik hədiyyə alan öz talantından istifadə etmədi. Burada özlərini az istedadlı hesab edərək, bundan Məsihə xidmət etməkdən yayınmaq

üçün istifadə edənlərə xəbərdarlıq vardır. Onlar düşünürlər ki, böyük işlər görə bilsəydilər, nə böyük sevinclə işləyərdirlər; lakin Allaha xidmət etmək imkanları çox kiçik göründüyü üçün onlar heç bir şey etmirlər. Onlar bunda yanılırlar. Rəbb ənamları paylayarkən xasiyyətimizi sınağa çəkir. Öz talantının çoxaldılmasına etinasızlıq göstərən adam özünü sədaqətsiz qul kimi göstərdi. İnamla demək olar ki, o, beş talant alsa idi, yenə də gedib onları gizlədərdi. Öz yeganə talantına münasibəti göstərdi ki, o, ümumiyyətlə, səma ənamlarına etinasızlıqla yanaşır.

“Az şeydə sadiq olan çoxda da sadiqdir” (Lk. 16:10). Kiçik şeylərin əhəmiyyəti çox zaman məhz onların kiçikliyinə görə lazımınca dəyərləndirilmir; ancaq həyatın həqiqi nizamı məhz onlara əsaslanır. Məsihçinin həyatında əhəmiyyətsiz şeylər yoxdur. Əgər biz həyatda az olanı dəyərləndirmiriksə, bizim xasiyyətimizin formalaşması işində daim böyük təhlükələr olacaqdır.

“Az şeydə sədaqətsiz olan çoxda da sədaqətsizdir”. Hətta ən kiçik vəzifələrində sədaqətsiz olan insan öz Yaradanından borclu olduğu xidmətdə oğurlayır. Belə sədaqətsizlik insanın özünün

əleyhinədir. O lütfü, gücü, xasiyyət möhkəmliyini xansını ki, yalnız özünü Allaha tam təslim etməklə əldə edə bilər, əldə edə bilməyəcəkdir. Belə insan Məsihdən uzaqlaşaraq, şeytanın imtahanları qarşısında özünü köməksiz edir və Rəbb üçün gördüyü işində mütləq səhvə yol verir. Bir halda ki o, az şeylərə münasibətdə ali prinsiplərə istinad etmir, özünün xüsusi vəzifəsi saydığı böyük işlərdə də Allaha təslim ola bilməyəcəkdir. Sadə [280] həyat vəziyyətlərində büruzə edilən qüsurlar daha mühüm işlərə də keçir. O, adət etdiyi prinsiplərə uyğun hərəkət edir. Beləliklə, onun hərəkətləri qüsurlu vərdişlər formalaşdınr, onlar isə öz

növbəsində müvafiq xasiyyət formalaşdırır. Xasiyyət isə həm dünya, həm də əbədi həyat üçün bizim aqibətimizi müəyyən edir.

Yalnız az şeylərdə sədaqətli olmaqla, bizdən böyük məsuliyyət tələb olunduğu zaman da düzgün hərəkət etmək olar. Allah Danieli və yoldaşlarını Babilin böyük adamları ilə ünsiyyətə gətirdi ki, bu bütpərəstlər həqiqi imanın prinsiplərini bilsinlər. Burada, bütpərəstlərin içində Daniel Allahın xasiyyətini nümayiş etdirməli idi. Bu böyük etimad və şərəfə o necə nail oldu? Onun məhz az şeylərdə sədaqətli olması bütün həyatının

tamlığının əsası idi. O, ən kiçik vəzifələrində belə, Allaha sayğı göstərirdi və Rəbb ona kömək edirdi. Daniel və yoldaşlarına Allah "hər cür ədəbiyyatı və elmi öyrənmək üçün bilik və dərrakə verdi. Daniel isə həг cür görüntüləri və yuxuları yozmağı da bacarırdı" (Dan. 1:17).

Allah Danieli Babildə Onun haqqında şəhadət etməyə çağırdığı kimi, bizi də müasir dünyamızda Onun şahidləri olmağa çağırır. Ən kiçik və ən böyük həyat hadisələrində O bizim vasitəmizlə insanlara Öz padşahlığının prinsiplərini açmaq istəyir.

Məsih Özünün yerdəki həyatında dəfələrlə ən kiçik iş və qayğılara diqqətli, ciddi münasibət nümunəsi verdi. Onun qəlbində daim böyük xilas işinin məsuliyyət yükü var idi. Nəsihətlər və şəfa verdiyi zaman Onun şüur və bədəninin bütün qüvvələri son dərəcə gərgin olurdu; buna baxmayaraq, O, həyat və təbiətdə baş verən ən sadə şeyləri qeyd etməyi bacarırdı. Onun ən dərin dərsləri sadə təbiət hadisələri ilə təsvir olunurdu, onların nümunəsində O, Allahın padşahlığının böyük həqiqətlərini öyrədirdi. O Öz qullarının ən sadələrinin də ehtiyaclarına laqeyd qalmırdı. Onun qulağı hər bir kömək diləyini eşidirdi.

Qələbəlik içində əziyyət çəkən qadının toxunduğunu hiss etdi; ən yüngül inam titrəyişi [281] Onda cavab doğurdu. O, Yairin qızını həyata qaytardıqdan sonra valideynlərinə ona yemək vermələrini xatırlatdı. Öz şəxsi qüdrəti ilə dirildikdən sonra büküldüyü kəfəni səliqə ilə qatlayıb yerinə qoymağı vacib saydı.

Məsihçilərin dəvət olunduğu iş insanların xilası naminə Məsihlə əməkdaşlıqdan ibarətdir. Biz bu işi yerinə yetirmək üçün Onunla əhd bağlamışıq. Bu işə etinasızlıq göstərmək — Məsihə qarşı xəyanət etməkdir. Lakin bu işi yerinə

yetirmək üçün biz Onun sədaqət, az şeylərə şüurlu diqqət nümunəsindən öyrənməliyik. Məsihçi həyatının bütün sahələrində və başqalarına təsirdə müvəffəqiyyət qazanmağın sirri bundadır.

Rəbb Öz xalqının ən yüksək pilləyə çatmasını istəyir ki, onlara vermək istədiyi qabiliyyət və imkanları əldə edərək, Onu izzətləndirə bilsinlər. Allahın lütfü vasitəsilə bizə lazım olan hər şey verilmişdir ki, dünyaya onun yaşadığı planlardan daha yaxşı olan böyük planların icra olunması üçün işlədiyimizi göstərə bilək. Biz Allaha və Onun insanların qəlbinə təsir

etmək qüvvəsinə iman edərək, intellektdə, dərrakədə, ustalıq və biliklərdə üstünlük əldə etməliyik.

Lakin böyük hədiyyəyə malik olmayanlar da kədərlənməsinlər. Onlar malik olduqlarını ağılla istifadə edərək, Allaha sədaqətlə xasiyyətlərinin hər bir zəif cəhətini pisləşməkdən qoruyaraq, öz qəlblərini İlahi lütfün köməyi ilə möhkəmlətməlidirlər. Həyatdakı hər bir hərəkətimizə bütün sədaqət və itaətimizi cəlb edərək, özümüzdə o cəhətləri möhkəmləndirməliyik ki, onlar bizə tapşırılanı yerinə yetirməyə kömək edəcəklər.

Biz öz vəzifələrimizə etinasızlıq etmək vərdişi ilə qətiyyətlə mübarizə aparmalıyıq. Çoxları unutqanlığa istinad edərək, onu hətta ən kobud səhvlərə bəraət hesab edirlər. Lakin onlar da, başqaları kimi, intellektual imkanlara malik deyildirlərmi? Onlar unutqanlığı ləğv etmək üçün öz şüurlarını intizamlı etməlidirlər. Vacib olanı yerinə yetirməyi unutmaq, [282] borcuna etinasızlıq etmək günahdır. Əgər öz unutqanlığınızla barışsanız, nəticədə öz canınızın xilasına da etinasız ola bilərsiniz və gectez aşkar edəcəksiniz ki, Allahın Padşahlığına hazır deyilsiniz.

Böyük həqiqətlər sizin hətta kiçik işlərinizi də işıqlandırmalıdır. Əməli din gündəlik həyatımızın dolu olduğu az əhəmiyyətli vəzifələrin icrasına da daxil edilməlidir. Hər adamın ən böyük ləyaqəti və həqiqi böyüklüyü onun Rəbbin sözünə bütünlüklə və şərtsiz itaət etməsindədir.

Çoxları öz həyatlarını yararsız sayırlar, çünki bilavasitə hansısa bir mühüm dini fəaliyyətdə iştirak etmirlər və güman edirlər ki, Allahın Padşahlığının yaxınlaşması üçün onlar heç nə etmirlər. Lakin bu düz deyildir. Əgər onlar kiminsə görəcəyi işi görürlərsə, özlərini Allahın nəhəng təsərrüfatında lazımsız, xeyirsiz

saymamalıdırlar. Heç hansı bir, hətta ən kiçik vəzifələrə belə etinasızlıq etmək olmaz. Hər bir namuslu iş xeyir-duadır, onun icrasında göstərilən sədaqət və səylər isə gələcəkdə daha böyük vəzifələrin icrası üçün hazırlıq ola bilər.

Ən xırda iş belə, əgər Allah üçün tam səylə görülübsə, Onun tərəfindən ən yüksək xidmət kimi qəbul edilir. Əgər səmimi ürəklə, qəlbdə sevinclə verilibsə, heç bir sovqat az deyil.

Biz harada olsaq da, Məsih bizə görəcəyimiz işi tapşırır. Əgər bu, evdirsə, istəklə alovlanın və səylə onun abadlıq və gözəllik işinə başlayın. Əgər siz anasınızsa,

uşaqlarınızı Məsih üçün tərbiyə edin. Bunların hamısı Allah üçün vəzçinin kafedra arxasındakı işi kimidir. Əgər siz mətbəxdə aşpazsınızsa, qarşınıza mahir aşpaz olmaq məqsədi qoyun. Elə yeməklər hazırlamağa çalışın ki, həm xeyirli, həm enerjili, həm də dadlı olsun. Xörəyin hazırlanmasında ən yaxşı ərzaqlardan istifadə etdiyiniz kimi, öz şüurunuzu da ən gözəl fikirlərlə qidalandırın. Əgər siz torpağı becərməklə, yaxud başqa xeyirli işlə məşğulsunuzsa, öz vəzifələrinizi ən yüksək səviyyədə icra etməyə çalışın. Öz şüurunuzu icra etdiyiniz işdə cəmləşdirin. Özünüzün hər bir fəaliyyətinizdə Məsihə bənzəməyə çalışın. [283]

Sizin yerinizdə O necə hərəkət edərdirsə, elə hərəkət edin.

Sizin talantınız nə qədər az olsa da, Allah ondan ötrü öz mühüm yerini müəyyən edibdir. Hətta bu bir talant ağılla yönəldilərək, onun üçün nəzərdə tutulmuş işi yerinə yetirəcəkdir. Ancaq ən kiçik vəzifələrimizin icrasında səy göstərərək, biz öz talantlarımızın çoxaldılmasını düşünməliyik; Allah isə Öz tərəfindən onların bizdə çoxaldılması üzərində işləyəcəkdir. Bu tərkib hissələrinin hamısı Onun işinə ən dəyərli töhfə olacaqdır.

Qoy sizin canlı imanınız ən kiçik vəzifələrinizin belə icra edilməsində

parıldayan qızıl ip olsun. Onda sizin hər bir gündəlik işiniz məsihçiliyin möhkəmlənməsi və genişlənməsinə xidmət edəcəkdir. Nəzəriniz daim İsaya yönələcəkdir. Ona olan məhəbbətiniz gördüyünüz həг işə canlı qüvvə verəcəkdir. Beləliklə, talantların layiqli istifadəsi ilə özümüzü qızıl zəncirlə uca aləmlə bağlaya bilərik. Həqiqi qüdsiyyət elə budur; çünki qüdsləşmək gündəlik vəzifələrimizi sevinclə icra etmək, tamamilə Allahın iradəsinə itaət etmək deməkdir.

Ancaq bir çox məsihçilər onlara yalnız hansısa böyük bir işin tapşırılmağını gözləyirlər. Öz

iddialarına uyğun geniş meydan tapmayaraq, onlar adi həyat vəzifələrini səy ilə icra etməyə çalışmırlar. Bu onları maraqlandırmır. Beləliklə, gündən-günə Allaha öz sədaqətlərini göstərmək imkanlarını əldən verirlər. Həyat ancaq böyük işlər gözləməklə keçir. Nəticədə normal həyat məqsədinə çatılmır, insanın öhdəsindən gələ biləcəyi iş görülməmiş qalır.

## Qaytarılmış talantlar

“Uzun bir zaman keçdikdən sonra həmin qulların ağası gəldi və onlardan hesabat tələb etdi”. Rəbb Öz

qullarından hesabat tələb etdiyi zaman müəyyən edəcəkdir ki, insan öz talantlarından nə qədər [284] səmərəli istifadə etmişdir. Görülmüş iş işçinin xasiyyətini aşkar edir.

Beş və iki talant alanlar onlara etimad edilmiş ənamları qazanılmış gəlirlə bərabər Rəbbə qaytarırlar. Bunu edərkən, onlar özləri üçün heç bir mükafat tələb etmirlər. Axı talantları onlara Allah vermişdir; gəlirə gəldikdə isə, talantlar olmasa idi, o da olmazdı. Onlar doğru hesab edirlər ki, yalnız öz borclarını icra edirlər. İlkin sərmayə Rəbbə məxsusdur; deməli, gəlir də Ona mənsubdur. Əgər Xilaskar onların

üzərinə Öz məhəbbət və lütfünü axıtmasa idi, onlar əbədiyyət üçün yararsız olardılar.

Lakin Ağa talantları alarkən işçiləri elə təqdir və təltif edir ki, sanki xidmət tamamilə onlara məxsusdur. O onlara razılıq və sevinclə baxır. O, xoşbəxtdir ki, onlara xeyir-dua verə biləcəkdir. Onun onlardan gözlədiyi bütün xidmət və sovqatlar Ona borcun qaytarılması üçün deyil, ürəyi onlara qarşı sevgi və şəfqətlə dolu olduğu üçün lazımdır.

“Afərin, yaxşı və sadiq qul! — O deyir. — Sən az şeydə sadiq oldun,

səni çox şeylər üzərinə qoyacağam; ağanın sevincinə şərik ol”.

Allaha sədaqətli, vəfalı olmaq, Ona məhəbbətlə xidmət etmək İlahi etiraf alır. Müqəddəs Ruhdan törəyən və insanı xeyrixahlığa vadar edən, onu Allaha yönəldən hər bir təkan səmavi kitablarda qeyd edilir və İlahi hökm günündə Onun Öz planını həyata keçirməsində istifadə etdiyi işçilər təltif ediləcəkdirlər.

Onlar Onun padşahlığında öz zəhmətləri vasitəsilə bağışlananları gördükləri zaman Rəbbin sevincinə şərik olacaqdırlar. Onlar orada da Onun işlərində iştirak edə biləcəklər, çünki Onun buradakı işində iştirak

etməklə özlərinin yararlı olduqlarını sübut etdilər. Bizim səmada malik olacağımız xasiyyətimiz də buradakı müqəddəs xidmətimizdəkinin inikası olacaqdır. Məsih Özü haqda dedi: "İnsan Oğlu Ona xidmət edilmək üçün deyil, xidmət etməyə gəlmişdir" (Mt. 20:28). Yerdəki bu işi göydə də Onun işidir. Bizim də bu dünyada Məsihlə işləməyimizin mükafatı daha böyük qüvvə [285] və Onunla gələcək dünyada işləməyimiz üçün daha geniş üstünlük olacaqdır.

"Və bir talant almış da gəlib dedi: Ağa, sənin sərt bir adam olduğunu bilirdim; əkmədiyin yerdən biçirsən, səpmədiyin yerdən yığırsan.

Qorxdum, gedib sənin talantını torpaqda gizlətdim; götür öz malını geri!"

Beləliklə, insanlar özlərinin Allahın ənamlarına etinasızlıqlarına bəraət qazandırmağa çalışırlar. Onlar Allaha sərt müstəbid, onların hər bir səhvini qeyd etməyə çalışan və onları Öz hökmü ilə yaxalamağa tələsən bir varlıq kimi baxırlar. Elə hesab edirlər ki, O onlardan heç vaxt vermədiyini tələb edərək, səpmədiyi yerdən yığır.

Çoxları öz ürəklərində hesab edirlər ki, Allah sərt ağadır, çünki Özünə xidmət tələb edərək, onlardan özlərinə məxsus olan şeyləri istəyir. Əslində isə, biz Allaha Onun

mülkiyyəti olandan başqa heç nə verə bilmərik. "Çünki hər şey Səndəndir, — Davud deyir, — və əlindən aldığımızı Sənə verdik" (1 Saln. 29:14). Hər şey Allaha məxsusdur və yalnız yaradılış nəticəsində deyil, həm də xilas nəticəsində. Bu dünyada və gələcəkdə bizə veriləcək bütün xeyir-dualar üzərində Qolqota çarmıxı nişanı olaraq verilir. Buna görə Allah zalım ağadır" müddəası yalan və əsassızdır.

Məsəldə ağa pis qulun ədalətsiz ittihamlarını təkzib etmir, lakin göstərir ki, qulun davranışı məhz ona görə bağışlanmazdır ki, o qabaqcadan ağanın tələblərini bilirdi. Qulun

talantdan gəlir əldə etmək üçün imkan və qabiliyyətləri var idi. “Mənim gümüşümü sərraflara verməli idin ki,o deyir, — mən gələndə onu gəlirlə geri alım”.

Səmavi Atamız bizdən öz imkan və qabiliyyətlərimiz sayəsində görə biləcəyimizdən nə az, nə də çox istəyir. O Öz qullarının üzərinə onların götürə bilməyəcəkləri yükü qoymur. “Çünki necə yarandığımızı bilir, torpaqdan düzəlməyimizi unutmur” (Məz. 103:14). Onun bizdən tələb etdiyi hər şeyi, İlahi lütf vasitəsilə verə bilərik. [286]

Ancaq “kimə çox verilmişsə, ondan çox tələb olunacaqdır” (Lk.

12:48). Bizim hər birimiz bacardığımızdan bir az belə zəif işlədiyimizə görə məsuliyyət daşıyacağıq. Rəbb bizim xidmət üçün ehtiyatımızda olan hər bir imkanı dəqiq bilir. İstifadə edilməmiş qabiliyyətlər — artıra bilmədiyimiz qabiliyyətlər kimi əleyhimizə şəhadət edəcəkdir. Allah bizi ola biləcəyimiz, lakin öz talantlarımızı lazımınca istifadə etmədiyimizə görə olmadığımız hər şeyə görə məsul hesab edir. Biz görməli olduğumuz, lakin öz qüvvələrimizi Allahın izzətləndirilməsi üçün istifadə etmədiyimizə görə görmədiyimiz işlərə müvafiq mühakimə ediləcəyik. Hətta tamamilə öz canımızı itirməsək

də, biz əbədiyyətdə talantlarımızdan istifadə etməməyin nəticələrini dərk edəcəyik. Bizim əldə edib inkişaf etdirə biləcəyimiz, lakin etdirmədiyimiz bilik və bacarığa müvafiq müəyyən əbədi itki olacaqdır.

Lakin əgər bütövlüklə özümüzü Allaha həsr ediriksə və özümüzün bütün fəaliyyətimizdə Onun göstərişlərinə riayət ediriksə, O, üzərimizə qoyduğunun yerinə yetirilməsi üçün Özünü məsul edir. O istəmir ki, biz öz başlanğıclarımızın və səylərimizin uğur, yaxud uğursuzluğuna dair tərəddüd edək. Bir an belə öz müvəffəqiyyətimizə

şübhə etməməliyik. Biz məğlubiyyət bilməyən Şəxslə əməkdaşlıq edirik.

Öz zəifliyimizdən və nəzərdə tutulanları icra edə bilmədiyimizdən danışmamalıyıq. Bu, Allaha imansızlıq, Onun sözünə şübhə etmək olardı. Biz qayğılar yükünə görə şikayət etməklə və yaxud da Onun bizdən tələb etdiyi məsuliyyəti üzərimizə götürməkdən hər hansı bir yolla imtina etməklə demək istəyirik ki, O, sərt ağadır, bizdən icra edilməsi üçün güc vermədiyi şeyi tələb edir.

Tənbəl qul ruhunu biz çox zaman itaət adlandırırıq. Ancaq həqiqi itaət tam başqa şeydir. İtaətkar olmaq — intellektual gerilik rolu ilə

razılaşmaq, yüksək arzulardan imtina etmək, qorxaq olmaq, öz yükünü gücü çatmayacaq deyə apara bilməməkdən qorxmaq demək deyildir. [287] Həqiqi itaətkarlıq Allahın hər bir niyyətini Onun gücünə istinad edərək icra etməyə hazır olmaq deməkdir.

Allah istədiyi adamın vasitəsilə hərəkət edir. Bəzən O, ən sadə zəhmətkeşi böyük işin görülməsi üçün seçir ki, Onun gücü insanların ən zəiflərinin vasitəsilə açılsın. Bizim öz ölçülərimiz vardır və onlara uyğun olaraq, bir şeyi əhəmiyyətli sayırıq, başqasını isə əhəmiyyətsiz; lakin Allah bizim ölçülərimizlə ölçmür.

Bizdən ötrü böyük olan Allah üçün heç belə sayılmaz, bizim nəzərimizdə əhəmiyyətsiz olan isə mütləq Ondan ötrü də kiçik deyildir. Öz talantlarımız haqqında müzakirə etmək, yaxud da özümüz üçün fəaliyyət səhəsi seçmək bizim işimiz deyildir. Biz öz üzərimizə məhz o yükü qoymalıyıq ki, Allah onu bizə Onun naminə daşımaq göstərişi verir; hətta rahatlıq vaxtında da Ona gəlməliyik. Biz hər hansı bir iş görsək də, əgər onu təmiz ürəklə, sevinclə edirikse, Allaha sayğı göstəririk. Öz vəzifələrimizi minnətdarlıqla, Onun həmişçiləri olmağa layiq olduğumuza sevinərək icra etməyimiz Ona xoşdur.

## Alınmış talant

Fərsiz qula qərar çıxarıldı: “İndi talantı ondan alın və on talant olana verin!” Burada, sadəcə olaraq, son məhkəmədə sədaqətli işçiyə mükafat kimi verilmiş əvəz yox, fəqət bu həyatdakı tədrici əvəzvermə prosesi göstərilir. Təbiətdə olduğu kimi, ruhlu aləmdə də bu qanun mövcuddur: hər bir istifadə edilməyən qüvvə və qabiliyyət zəifləyir və yox olur. Hərəkət — həyatdır; hərəkətsizlik — ölümdür. “Fəqət hər kəsə Ruhun zühuru xeyir üçün verilir” (1 Kor. 12:7). Ruhun başqalarının xeyir-duası üçün istifadə edilən ənamları çoxalır.

Onlar gizlədilib yalnız özünə xidmət üçün istifadə edildikdə zəifləyir və nəhayət alınır. [288] Kim əldə etdikləri ilə bölüşməkdən imtina edirsə, axırda aşkar edəcək ki, bölüşmək üçün artıq bir şeyi yoxdur. O, inkişafın mütləq istismarına aparan yola düşür, sonra isə qəlbin qabiliyyətlərinin tam dağılmasına nail olur.

Qoy heç kim sanmasın ki, eqoistcəsinə yaşayıb, sonra öz şəxsi maraqlarına xidmət edərək, Öz Rəbbinin sevincinə şərik ola biləcəkdir. Eqoistlər təmənnasız məhəbbət sevincində iştirak edə bilməyəcəklər. Onlar səma

iqamətgahları üçün yararsız olarlar. Səmanı dolduran pak məhəbbət atmosferini dəyərləndirə bilməzlər. Mələklərin səsləri və arfalarının musiqisi onlara həzz verməz. Səmavi elm onlar üçün anlaşılmaz bir tapmaca olar.

Böyük hökm günündə kim Məsih üçün işləmirsə, kim yalnız özü haqda düşünərək, yalnız özünə xeyir verərək, hər cür məsuliyyətdən yayınırsa, bütün yer üzünün Hakimi qarşısında pisliklər edənlərlə bərabər dayanacaqdır. Onların hökmü eyni olacaqdır.

Özlərini məsihçi hesab edənlərin çoxları Allahın dəvətinə etinasızlıq

göstərirlər və bunda heç bir pis cəhət görümürlər. Onlar yaxşı bilirlər ki, Allaha söyənlər, qatil və zinakarlar cəzaya layiqdirlər; özlərinə gəldikdə isə, yalnız dini sitayişlə kifayətlənirlər. Onlar müjdənin təbliğini dinləməkdən xoşlandıqları üçün özlərini məsihçi sayırlar. Həyatlarını yalnız Öz qayğıları ilə yaşamaqlarına baxmayaraq, özlərinə qarşı bu hökmü eşidəndə məsəldəki sədaqətsiz quldan az təəccüblənməyəcəklər: "Onun talantını alın". Yəhudilər kimi, onlar da başa düşməlidirlər ki, bəxş edilmiş hədiyyələrin sevinci onların xeyirli istifadəsindədir.

Məsihçi fəaliyyətində özlərinin iştirak etmədiklərinə bəraət qazandıraraq, çoxları iddia edirlər ki, onların belə işə qabiliyyətləri yoxdur. Lakin məgər Allah onları belə qabiliyyətsiz etmişdirmi? Əlbəttə yox. Bu gücsüzlük öz passivliklərinin nəticəsidir və onların şəxsi seçimləri haqqında şəhadət edir. Artıq bu gün öz xasiyyətlərində onlar [289] hökmün nəticəsini dərk edirlər: "Onun talantını alın". Öz istedadlarının inkişafına daim etinasızlıq göstərmək yeganə işıq mənbəyi olan Müqəddəs Ruhun tövsiyələrini eşitməməzliyə gətirir. "Yaramaz qulu çöl qaranlığına atın" hökmü onların əbədiyyət üçün öz

seçimlərini yalnız təsdiqləyir və bərkidir. [290]

## “Haqsız sərvətlə əldə edilmiş dostlar”

(Lk. 16:1-9)

Məsihin birinci gəlişi dünyəvi maraqların tam hökmranlığı dövrü idi. İnsanlar dünyəvi olanı əbədi olandan üstün tutur, gələcəyin tələblərini bu günün işlərinə tabe edirdilər. Onlar xəyalı həqiqət sayır, həqiqi dəyərləri isə qeyri-real hesab edirdilər. Onlar səma aləmini imanlıların görə bildiyi kimi görmürdülər. Şeytan dünyəvi dəyərləri onların gözündə cazibəli və hər şeyə üstün gələn kimi təsvir

edirdi və insanlar onun yalanlarına inanırdılar.

Məsih gəldi ki, dəyərlərin bu düzümünü dəyişdirsin. O, aldanmış insanların gözlərini tutmuş ovsunu dağıtmağa çalışırdı. Öz təlimində O, insanların dünyəvi və səmavi ehtiyaclarını aydın bölüşdürməyə çalışaraq, onların fikirlərini bu gündən gələcəyə yönəltmək istəyirdi. Müvəqqəti sərvətlər dalınca qaçmaqdan əl çəkib, əbədiyyətə hazırlaşmağa çağırırdı.

“Zəngin bir adamın eşikağası vardı və ona xəbərçilik etdilər ki, eşikağası onun malını israf edir. Zəngin adam onu yanına çağırıb dedi:

Sənin haqqında eşitdiklərim nədir? Öz idarən barədə hesabat ver, sən daha eşikağası ola bilməzsən".

İşdən azad olmaq təhlükəsi qarşısında qalan eşikağası özü üçün üç mümkün olan çıxış yolu görürdü. Ya onun özü işləməlidir, ya dilənməlidir, [291] ya da ac qalmalıdır. O öz-özünə dedi: "Nə edim? Ağam evin idarəsini məndən alır. Torpaq qaza bilmirəm, dilənməkdən utanıram; işdən çıxarıldığım zaman məni öz evlərinə qəbul etsinlər deyə nə edəcəyimi bilirəm. Və öz ağasına borclu olanları ayrı-ayrılıqda çağırıb, birincisinə dedi: Mənim ağama nə qədər borcun

var? O dedi: Yüz ölçü zeytun yağı. Və ona dedi: Öz qəbzini götür, otur və tez yaz: əlli. Sonra o birisinə dedi: Bəs sən nə qədər borclusan? O cavab verdi: Yüz ölçü buğda. Və ona dedi: Öz qəbzini götür və yaz: səksən”.

Sədaqətsiz qul başqalarını da öz əyriliyinin iştirakçısı etdi. O öz ağasını onun borclularının xeyrinə aldatdı, belə yalana razılaşaraq, onlar ona borclu oldular və öz evlərinin dostu etdilər.

Məsəlin davamı saleh məsihçinin hiddətinə səbəb ola bilər: “Ağası dürüst olmayan eşikağasını fərasətli hərəkət etdiyinə görə təriflədi”. Belə tərzdə bəzən dünyəvi adam onun

özünü aldatmış olan başqasının hiyləsini tərifləyir. Lakin zənginin bu təşviqini Allahın təşviqi hesab etmək olmaz.

Məsih haqsız eşikağasını bəyənmir, lakin O bu geniş yayılmış hadisədən istifadə etdi ki, təqdim etmək istədiyi dərsi təsvir etsin: “Yalan mammonla özünüzə dostlar əldə edin ki, — O deyir, — sərvətiniz yox olduqda onlar sizi əbədi məskənlərə qəbul etsinlər”.

Məlum olduğu kimi, fəriseylər Xilaskarı vergiyığan və günahkarlarla ünsiyyətdə olduğuna görə ittiham edirdilər. Lakin Onun onlara olan diqqəti azalmadı və onlara

münasibətdə səyləri zəifləmədi. O görürdü ki, vergiyığanların işlərinin özü onları imtahana çəkirdi. Onların qarşısında hər zaman şər tələsi var idi. Bununla bərabər, yalana ilk addım atmaq çox asan idi, daha böyük haqsızlığa və ciddi cinayətə sonrakı düşmə isə fəlakətli dərəcədə sürətli olurdu. Məsih müxtəlif vasitələrlə vergiyığanları günahın əlindən alıb, onları yüksək məqsədlərə və nəcib prinsiplərə yönəltməyə çalışırdı. Haqsız koxa haqqında məsəli söyləməklə, O məhz bu məqsədi güdürdü. Şübhəsiz ki, vergiyığanlar məsəldə bəhs [292] edilən hadisələrə bənzər əhvalatlarla tanış idilər və Məsihin hekayəsində

özlərinin iş üslublarını görürdülər. Onlar böyük diqqətlə qulaq asırdılar və onların şəxsi haqsızlıqları haqqındakı hekayə çoxlarına ruhlu həqiqət dərsi verirdi.

Lakin məsəl bilavasitə Məsihin şagirdlərinə yönəlmişdir. Həqiqət mayası ilk olaraq onlara verilmişdir və onların vasitəsilə başqalarına yayılmalı idi. Məsihin təlimindən çox şey əvvəlcə şagirdlərinə aydın deyildi və çox vaxt Onun bəzi dərsləri tam unudulurdu. Lakin Müqəddəs Ruhun təsiri altında bu həqiqətlər gələcəkdə baş qaldırırdı və Məsihin şagirdlərinin vasitəsilə cəmiyyətə

daxil olan yeni imanlılara aydın şəkildə təqdim olunurdu.

Bundan əlavə, bu məsəldə Məsih həm də fəriseylərə müraciət edirdi. O hələ də ümid edirdi ki, onlar Onun sözlərinin təsiri altına düşəcəkdirlər. Onların çoxu hər halda öz təqsirlərini dərk edirdilər və Müqəddəs Ruhun təsiri altında həqiqət sözlərini dinləyərək, xeyli hissəsi Məsihə iman etdilər.

Fəriseylər vergiyığan və günahkarlarla ünsiyyətdə olduğu üçün Məsihin üzərinə ətrafdakıların ittihamını yönəltməyə çalışırdılar. İndi isə O Öz ittihamını onların üzərinə yönəldir. Vergiyığanlar

arasında mövcud olan hadisəni O, alleqoriya formasında fəriseylər qarşısındada nümayiş etdirərək, onların şəxsi əməllərini, öz günahlarını bağışlada biləcəkləri yeganə yolu göstərir.

Məsəldə ağa nadürüst eşikağasına öz sərvətini xeyirxah məqsədlərə istifadə etmək üçün etibar etmişdi; o isə ondan özü üçün istifadə etdi. Bunu İsrailə də aid etmək olar. Allah İbrahim evini seçdi. Əlini uzadaraq onları Misir köləliyindən azad etdi. Onları bütün dünyanın xeyir-duası üçün nəzərdə tutulan müqəddəs həqiqətin qoruyucuları etdi. Müqəddəs Yazıları onlara etibar etdi

ki, işığı digərlərinə çatdıra bilsinlər. Lakin Onun eşikağaları bu ənamlardan özlərinin yüksəlməsi və varlanması üçün istifadə etdilər. [293]

Öz dəyərlilikləri və salehlikləri ilə qürrələnən fəriseylər Allahın onlara etibar etdiyi və Onun izzəti naminə istifadə üçün nəzərdə tutulmuş sərvətin sərf edilməsində haqsız oldular.

Məsəldə qul hətta öz gələcəyini belə təmin etməmişdi. Başqalarının xeyri naminə ona etibar edilmiş nemətləri o, yalnız özü üçün istifadə elədi, lakin bu zaman yalnız bu gününü düşündü. Başının üstünü öz vəzifəsini itirmək təhlükəsi alanda isə

heç nəyi olmadı. Lakin ağanın malikanəsi hələ də onun əlində idi və o yenidən öz vəzifəsindən sui — istifadə etdi ki, öz gələcək ehtiyaclarını təmin etsin. Məqsədinə çatmaq üçün yeni fəaliyyət planı hazırladı. Əvvəlki kimi, özü üçün sərvət toplamaq əvəzinə, başqalarına verməyə məcbur oldu. Beləliklə, o, işini itirdikdən sonra onu qəbul edəcək dostlar əldə edə bilərdi. Fəriseylər də bunun kimi edirdilər. Allahın ənamları ilə idarəçilik tezliklə onlardan alınacaqdı və onlar heç olmasa öz gələcəklərini təmin etmək dəvətini eşitdilər. Bu zaman yalnız başqalarına yaxşılıq etməyə çalışaraq, onlar özlərinə də xeyir qazana

bilərdilər. Yalnız indiki həyatda Allahın ənamlarını başqalarına verməklə, onlar özləri əbədiyyətə hazırlaşa bilərdilər.

Məsəli danışdıqdan sonra Məsih deyir: “Bu dövrün oğulları öz nəsilləri ilə münasibətlərində nur oğullarından daha fərasətlidirlər”. Məsəl aşağıdakı mənanı kəsb edir ki, dünyəvi cəhətdən müdrik insanlar özlərinə xidmətdə Allahın övladlarının Ona xidmətdə göstərdiklərindən daha çox ağıl və səy göstərirlər. Məsihin dövründə belə idi. Biz bunu bu gün də görürük. Özünü məsihçi adlandıranların bir çoxunun həyatına diqqət yetirin.

Rəbb onlara qabiliyyətlər, qüvvələr, təsir gücü bəxş etmişdir; O onlara pul bəxş etmişdir ki, böyük xilaskarlıq işində Onun köməkçiləri olsunlar. Onların bütün ənamları bəşəriyyətin xeyir-duası, iztirab çəkənlərin və möhtac olanların həyatlarını yüngülləşdirmək üçün istifadə olunmalıdır. Biz acları yedirtməli, çılpaqları geyindirməli, dul qadın və yetimlərin qayğısını çəkməli, ümidsiz və məzlumlara xidmət etməliyik. Allah heç bir vaxt istəməzdi ki, dünyada bədbəxtlik bu qədər [294] geniş yayılsın, istəməzdi ki, yer üzündə bir nəfər həddindən artıq cahcəlal içində yaşasın, digəri isə adi çörək üçün fəğan etsin. İnsanın həqiqi

tələbatından çox olan vəsaitlər yaxşılıq etmək, bəşəriyyətə xeyirdua gətirmək üçün verilmişdir. Rəbb deyir: “Nəyiniz varsa satın və sədəqə verin” (Lk. 12:33). “Əliaçıq və öz malınızı digərləri ilə bölüşməyə hazır olun” (1 Tim. 6:18). “Ziyafət düzəldəndə yoxsulları, əlilləri, topalları, korları dəvət et” (Lk. 14:13). “Haqsızlığın buxovlarını qır”, “boyunduruğun iplərini aç”, “sıxıntı içində olanları azad et”, “hər cür boyunduruğu məhv et”. “Yediyin çörəyi acla bölüşdür”, “yurdsuz kasıbları evinə gətir”, “çılpaq görəndə geyindir”. “Fəqirlərin ehtiyaclarını ödə” (Yeş. 58:6, 7, 10). “Bütün dünyaya gedin, Müjdəni bütün xilqətə

təbliğ edin” (Mk. 16:15). Rəbbin əmrləri bunlardır. Özlərini məsihçi adlandıranlar icra edirlərmi?

Əfsus! Dünyada Allahın ənamlarını mənimsəyənlər nə qədər çoxdur! Onların neçələri ev dalınca ev, sahə dalınca sahə alırlar. Neçələri pullarını əyləncələrə, hədsiz iştahalarını ödəməyə, təmtəraqlı evlərə, mebel və geyimə xərcləyir. Onların qonşuları isə elə bu zaman fəlakətli vəziyyətdə, cinayət edərək, xəstəliklərdən əziyyət çəkərək məhv olurlar. Bir çox adam tək bir şəfqətli baxış, söz, yaxud kömək görmədən ölür.

Bir çox adam Allahdan oğurlamaqda təqsirkardır. Onlara etibar edilmiş vəsaitlərin eqoistcəsinə istifadə edilməsi Rəbbi bəşəriyyətin əzablarını yüngülləşdirməklə və canları xilas etməklə Ona yüksələcək izzətdən məhrum edir. Onlara etibar edilmiş sərvətləri mənimsəyirlər. Rəbb isə bəyan edir: "Cəza vermək üçün sizə yaxınlaşacağam... yalandan and içənlərə, muzdurun, dul qadının, yetimin, qəribin haqqını tapdalayanlara... İnsan da Allahdan oğurlayarmı? Siz isə Məndən oğurlayırsınız. Səndən nəyi oğurlayırıq? — deyə soruşursunuz. Ondabirləri və təqdimləri oğurlayırsınız. Siz böyük lənətə düçar

oldunuz. Çünki bütün bu millət — hamınız Məndən oğurlayırsınız” (Məl. 3:5, 8, 9). “Gəlin indi, [295] ey varlılar... Var-dövlətiniz çürüyüb, paltarlarınızı da güvə yeyib. Qızıl və gümüşünüz paslanıb və onların pası sizə qarşı şəhadət olacaq və ətinizi od kimi yeyəcək. Siz son günlərdə sərvət topladınız...” “Siz dünyada zövqlə yaşadınız və kef çəkdiniz”. “Budur, tarlalarınızı biçən işçilərin hiylə ilə gizlətdiyiniz əmək haqqı fəğan edir. Biçinçilərin fəryadı Səmavi Orduların Rəbbinin qulaqlarına çatdı! (Yaq.5:1-5).

Hər kəsdən ona bəxş edilmiş ənamlar haqqında hesabat tələb

olunacaqdır. Son məhkəmə günündə insanların topladıqları bütün sərvətlər onlar üçün yararsız olacaqdır. Onlar tam hüquqla özününkü adlandıra biləcəkləri heç nəyə malik deyildirlər.

Ömürlərini dünyəvi sərvətlərin toplanmasına sərf edənlər öz əbədi rifahları üçün daha az müdriklik, daha az qayğı göstərirlər, nəinki o nadürüst eşikağası öz dünyəvi gələcəyi üçün. Özlərini nurun övladları hesab edənlər daha az müdrikliyə malik olurlar, nəinki bu əsrin övladları öz nəsillərində. Peyğəmbər özünün böyük hökm gününün görüntüsündə məhz onlar haqqında deyir: “O gün insanlar

səcdə etmək üçün düzəlmiş qızıl və gümüş bütlərini götürüb köstəbək və yarasaların yuvalarına atacaqlar ki, Rəbb yeri sarsıtmağa qalxarkən Onun zəhmli üzündən, ehtişamın əzəmətindən qaçmaq üçün qayalıqdakı çatlaqlara, uçurumlardakı yarıqlara girsinlər" (Yeş. 2:20, 21).

"Yalan mammonla özünüzə dostlar əldə edin ki, — Məsih deyir, — sərvətiniz yox olduqda onlar sizi əbədi məskənlərə qəbul etsinlər". Allah, Məsih və mələklər incidilmişlərə, iztirab çəkən və günahkarlara kömək edirlər. Bu işi icra etmək üçün özünüzü Allaha təslim edin, bu məqsəd üçün Onun

ənamlarından istifadə edin və siz səma sakinlərinin cəmiyyətinə girəcəksiniz. Sizin ürəyiniz onlarla birgə döyünəcək, səma sakinlərinin keçirdikləri hisslərlə dolacaqdır. Siz öz xasiyyətinizlə də onlara bənzəyəcəksiniz. Əbədi iqamətgahın sakinləri sizə yad olmayacaqlar. Bütün dünyəvi şeylər keçəndən sonra səma darvazalarının mühafizləri sizi içəri girməyə dəvət edəcəklər. [296]

Başqalarının xeyir-duası üçün istifadə edilmiş vəsaitlər öz mənfəətini verəcək. Düzgün sərf olunmuş var-dövlət böyük yaxşılıq edəcəkdir. Məsih üçün yeni canlar əldə ediləcəklər. Bu həyatda Məsihin

verdiyi planı rəhbər tutanlar Allahın malikanələrində dünyada uğurlarında zəhmət çəkdikləri və fədakarlıq etdikləri insanları görəcəkdirlər. Bağışlanmışlar onların xilası üçün alət olanları minnətdarlıqla xatırlayacaqlar. İnsanların xilas edilməsində sədaqətli olanlar üçün səma malikanələri çox dəyərli olacaq.

Bu məsəl hamı üçün dərsdir. Hər kəs Məsih vasitəsilə ona verilmiş lütfə görə cavab verəcəkdir. Həyat həddindən çox ciddi və məsuliyyətlidir ki, onu fani dünya işlərinə həsr edəsən. Rəbb istəyir ki, biz başqalarına gözəgörünməz və

əbədi Olanın bizə bəxş etdiyini çatdıraq.

Hər il milyonlarla insan xilas olmadan əbədiyyətə ona görə qovuşur ki, vaxtında xəbərdar edilməyib. Həг an bizim daima dəyişən həyatımızda kimlərinsə qəlblərinə yol taparaq xilas etmək üçün müxtəlif imkanlar açılır. Bu imkanlar daima gəlib-gedir. Allah istəyir ki, biz onlardan tam istifadə edək. Günlər, həftələr və aylar keçir; bizim öz vəzifəmizi yerinə yetirməyimiz üçün bir gün, bir həftə və yaxud bir ay daha az vaxtımız qalır. Ən çoxu yenə bir neçə il keçəcək və cavab verməkdən imtina edə bilmədiyimiz səs bizdən

tələb edəcəkdir: “Öz idarən barədə hesabat ver”.

Məsih hər kəsi bu barədə düşünməyə dəvət edir. Qoy hər kəs hər şeyi diqqətlə ölçüb-biçsin. Tərəzinin bir gözündə — əbədi sərvətlər, həyat, həqiqət, göylər və Onun xilas etdiyi canların sevinci olan İsa; o biri gözündə — dünyanın verə biləcəyi bütün cazibə və zövqlər. Tərəzinin bir gözündə — öz canınızın və xilas olmalarında həlledici rol oynaya biləcəyiniz insanların itirilməsi; o biri gözündə — Allahın həyatı ilə ölçülən həyat. Bir gözündə — müvəqqəti, o birisində — əbədi. Bütün bunları müqayisə edərkən

Məsihin sözlərini dinləyin: “Zira, insan bütün dünyanı qazanıb, öz canını itirsə, ona nə fayda olacaqdır?” (Mk. 8:36). [297]

Allah istəyir ki, biz dünyəvi olanın əvəzinə səmavini seçək. Malik olduğumuz vəsaitləri səmavi xəzinəyə yerləşdirmək imkanı verir. O, bizə ən yüksək arzularımızı həyata keçirmək üçün güc verəcək. O bizim ən dəyərli sərvətlərimizi saxlayacaqdır. O bəyan edir: “İnsan saf qızıldan da az olacaq, adam Ofir qızılından da nadir halda tapılacaq (Yeş. 13:12). Çürüyən, güvə və pasla xarab edilən sərvətlər yox olan zaman Məsihin davamçıları çürüməyən səma

sərvətlərinə malik olaraq sevinəcəkdirlər.

Məsihin xilas etdiklərinin dostluğu hər cür dünya dostluğundan yaxşıdır. Rəbbin bizim üçün hazırlamağa getdiyi malikanələrinə girməyə layiq olmaq dünyada ən zəngin sarayı miras almaqdan qat-qat üstündür. Hər cür dünyəvi tərif sözlərindən Xilaskarın Öz sadiq qullarına dediyi sözlər üstündür: “Ey sizlər, Atamın mübarəkləri, gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Padşahlığı miras alın” (Mt. 25:34).

Onun mülkiyyətini mənasız şeylərə xərcləyənlərə Məsih yenə də

həqiqi sərvətlər əldə etməyə imkan verir. O deyir: “Verin, sizə də veriləcəkdir”. “Özünüzə göylərdə tükənməyən sərvətlər hazırlayın. Oraya oğru yaxınlaşmaz və orada güvə yeməz” (Lk. 6:38; 12:33). “İndiki zəmanədə varlı olanlara tapşır ki,... qoy onlar xeyirxahlıq etsinlər, yaxşı işlərlə varlı olsunlar, əliaçıq və öz malını digərləri ilə bölüşdürməyə hazır olub, özlərinə gələcək üçün yaxşı təməl olacaq bir xəzinə toplasınlar ki, həqiqi həyata nail olsunlar” (1 Tim. 6:17-19).

Beləliklə əldə edilmiş mülkiyyət sizdən əvvəl göylərə girəcəkdir. Öz sərvətlərinizi Allahın taxtı önünə

qoyun. Məsihin saysız-hesabsız sərvətlərinə öz hüququnuzu bərkidin. “Yalan mammonla özünüzə dostlar əldə edin ki, sərvətiniz yox olduqda onlar sizi əbədi məskənlərə qəbul etsinlər”. [298]

## “Mənim qonşum kimdir?”

(Lk. 10:25-37)

“Mənim qonşum kimdir?” sualı ibranilər arasında tükənməz mübahisələrə səbəb olurdu. Bütpərəstlərə və samariyalılara qarşı münasibətdə onların şübhəsi yoxidi. Onlar yad və düşmən idilər. Lakin qonşu və yad arasındakı xətti öz xalqının və cəmiyyətin müxtəlif sinifləri arasında necə çəkmək olar? Kahinlər, ravvinlər və ağsaqqallar kimi öz qonşuları hesab etməlidirlər? Onların həyatı bir çox mərasimlərin

icrasından ibarət idi, bunun sayəsində özlərini paklaşdırmaq istəyirdilər. “Müqəddəs ayinlərə etinasız olan cahil kütlə ilə görüş və ünsiyyət, — onlar öyrədirdilər, — sizi murdar edəcəkdir və ondan təmizlənmək üçün yorucu ayinləri təkrarlamaq lazım gələcəkdir”. Onlar “murdarları” öz qonşuları hesab etməlidirlərmi?

Bu suala Məsih mərhəmətli samariyalı haqqındakı məsəl ilə cavab verir. O göstərir ki, biz yalnız öz imanlılar cəmiyyətimizi, yaxud da bizim etiqadımıza riayət edənləri öz qonşumuz hesab etməməliyik. Qonşu anlayışı heç cür irqi və sinfi mənsubiyyətə bağlı deyildir. Bizim

qonşumuz — bizim köməyimizə ehtiyacı olan hər bir insandır. Bizim qonşumuz — düşmən tərəfindən döyülmüş və yaralanmış hər bir insandır. Bizim qonşumuz — hər bir adamdır, çünki o, Allahın mülkiyyətidir.

Mərhəmətli samariyalı haqqında məsəl bir qanunşünasın Məsihə verdiyi sualına cavab olaraq söylənmişdir. Məsih öz şagirdləri ilə söhbət [299] etdiyi zaman “bir qanunşünas qalxdı və Onu sınayaraq dedi: “Müəllim! Əbədi həyatı miras almaq üçün mən nə etməliyəm?” Fəriseylər bu sualı Məsihi sözlərində tutmaq üçün təklif etdilər və

səbirsizliklə Onun cavabını gözləyirdilər. Lakin Xilaskar mübahisə etmədi. Onun Özü cavab olaraq sual verdi. “Qanunda nə yazılıb? — O dedi. — Necə oxuyursan?” İbranilər hələ də İsanı onlara Sina dağında verilmiş qanuna etinasızlıqda təqsirləndirirdilər, lakin O, xilas haqqında sualı Allahın əmrlərinə riayət haqqında suala çevirdi.

Qanunşünas cavab verdi: “Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün qüvvətinlə və bütün düşüncənlə sev və qonşunu özün kimi sev”. “Doğru cavab verdin, Məsih dedi, — buna əməl et, yaşayacaqsan”.

Fəriseylərin tutduqları mövqe və işləri qanunşünası razı salmırdı. O, Yazıları səylə öyrənərək, onun həqiqi mənasını dərk etməyə çalışırdı. Onun tam səmimiyyətlə verdiyi suala həqiqi, canlı marağı var idi: “Mən nə etməliyəm?” Qanunun tələblərinə dair öz cavabında o, mərasim və ayin xarakterli bütün tələbləri sadalamır. O onlara böyük əhəmiyyət vermir və yalnız iki böyük təməl haqqında danışır ki, bütün qanun və peyğəmbərlər onların üzərində dayanmışdır. Qanunşünasın bu cavabını Məsihin bəyənməsi Onu kahinlər üçün əlçatmaz edir. Onlar Onu qanunşünasın dediyini təsdiq etdiyinə görə ittiham edə bilməzdilər.

“Buna əməl et, yaşayacaqsan”, — dedi Məsih. Öz təlimində O həmişə qanunu bütöv İlahi birlik kimi təsvir edir və göstərirdi ki, onun bir prinsipinə riayət edib, başqasını pozmaq olmaz; çünki bütün əmrlər ümumi bir təmələ söykəniblər. İnsanın taleyi onun bütün qanuna necə riayət etməsi ilə müəyyən ediləcək.

Məsih bilirdi ki, heç kim yalnız öz gücünə arxalanaraq qanuna əməl edə bilməz. O, qanunşünası bu məsələnin daha aydın və tənqidi tədqiqinə cəlb edirdi ki, həqiqəti öyrənsin. Yalnız Məsihin xidmətini və lütfünü qəbul edərək biz qanuna

riayət edə bilərik. Günahın bağışladılmasına [300] iman etmək nsana bütün ürəyi ilə Allahı sevməyə və qonşusunu özü qədər sevməyə imkan verir.

Qanunşünas bilirdi ki, o nə ilk dörd, nə də axırıncı altı əmrə riayət edirdi. Məsihin sınayıcı sözlərində o, mühakimə gördü, lakin öz günahını etiraf etmək əvəzinə, özünə bəraət qazandırmağa çalışdı. Həqiqəti qəbul etmək əvəzinə, göstərmək istəyir ki, bu əmri icra etmək nə qədər çətin bir işdir. Beləliklə, o, ittihamı öz üzərindən götürməyə və xalqın gözündə özünə bəraət qazandırmağa çalışır. Xilaskarın sözləri göstərdi ki,

onun sualı əsassızdır, çünki özü ona cavab verə bilər. Lakin buna baxmayaraq, o, başqa sual verir: “Mənim qonşum kimdir?”

Yenə də Məsih mübahisədən qaçaraq, Özünü ona cəlb etməyə qoymur. O, suala hələ də onların xatirindən silinməmiş hadisəyə istinad edərək cavab verir. “Bir nəfər, — O deyir, — Yerusəlimdən Yerihoya gedərkən quldurların əlinə keçdi. Quldurlar onun paltarını çıxartdılar, özünü yaraladılar və yarımcan halda qoyub, getdilər”.

Yerusəlimdən Yerihoya gedərkən, səyahətçi Yəhudeyanın bir hissəsini səhra ilə keçməli idi. Yol vəhşi,

qayalıq bir vadidən keçirdi, orada yoldan keçənlərə soyğunçuluq məqsədi ilə hücum edən quldurlar gizlənirdilər. Məhz burada səyahətçi hücuma məruz qaldı, nəyi vardısa itirdi və yarımcan halda yol kənarına atıldı. Təsadüfən bir kahin həmin yol ilə gedirdi; o, qan içində olan, döyülmüş və yaralanmış bir insan gördü, lakin ona heç bir yardım etməyərək keçib getdi. Ondan sonra levili gəldi. Nə baş vermişdir deyə maraqlanaraq, dayanıb yaralıya baxdı. Başa düşdü ki, yaralıya kömək etməlidir, lakin bu xoşagəlməz vəzifəni öz üzərinə götürmək istəmədi. Təəssüfləndi ki, bu yol ilə getdi və yaralını gördü. Özünü

inandırdı ki, bu ona aid deyildir və əvvəlki kimi keçib getdi.

Fəqət bir samariyalı o yoldan keçərkən yaralıya rast gəldi və ondan əvvəlkilərin etməli olduqları, lakin etmədiklərini elədi. Xeyirxahlıq və həlimliklə o yaralı insana yardım elədi. "Onu gördükdə yazığı gəldi, yaxınlaşıb [301] onun yaralarına zeytun yağı və şərab tökərək sarıdı; onu öz eşşəyinə mindirib bir mehmanxanaya gətirdi və onun qayğısına qaldı. Ertəsi gün isə oranı tərk edərkən iki dinar çıxarıb mehmanxana sahibinə verdi və dedi: "Onun qayğısına qal və əgər artıq xərcin çıxarsa, geri qayıdanda mən

sənə ödəyərəm”. Kahin və levili açıq surətdə öz möminliklərini bəyan edirdilər, lakin həqiqətən imanlı olduğunu samariyalı nümayiş etdirdi. Öz ruhu və əməlləri ilə o təsdiq etdi ki, Allah ilə harmoniyadadır.

Dinləyicilərə bu dərsi təqdim edərək, Məsih onlara qanunun prinsiplərini çox aydın və inandırıcı tərzdə nümayiş etdirir. O Öz xidmətçilərinə göstərir ki, onlar bu prinsiplərin icrasına etinasızlıq etdilər. Onun sözləri o qədər aydın və dəqiq idi ki, Onu dinləyənlər cavab verməyə söz tapmadılar. Qanunşünas bu nəsihətdə təkzib ediləsi heç nə tapmadı. Onda Məsihə qarşı mənfi

rəy qalmadı. Lakin yenə də o, samariyalılara qarşı olan milli barışmazlığı o dərəcədə ləğv edə bilmədi ki, məsəldə mərhəmət göstərənin həqiqi adını deyə bilsin. Məsih soruşanda ki: "Səncə, bu üç nəfərdən hansı quldurlar əlinə düşən adamın qonşusu oldu?" qanunşünas onun adını çəkməyərək, cavab verdi: "Ona mərhəmət göstərən adam".

"İsa da ona dedi: Get, sən də elə hərəkət et". Ehtiyac içində olanlara sən də belə şəfqətli xeyrixahlıq göstər. Bununla sən göstərəcəksən ki, bütün qanuna riayət edirsən.

İbranilərlə samariyalıları bir-birindən onların iman məsələlərinə

müxtəlif münasibətləri və ilk növbədə Allaha həqiqi sitayişin nədən ibarət olması məsələsi fərqləndirirdi. Fəriseylər heç zaman samariyalılar haqqında yaxşı danışmırdılar, ancaq onları lənətləyirdirlər. İbranilərlə samariyalılar arasındakı qarşılıqlı düşmənçilik o qədər güclü idi ki, samariyalı qadına Məsihin ondan su istəməsi qəribə göründü. “Sən yəhudi, mən də samariyalı bir qadın, necə olur ki, məndən su istəyirsən?” “Zira, — müjdəçi izah edir, — yəhudilərin samariyalılarla əlaqəsi yoxdur” (Yəh. 4:9). [302] İbranilər Məsihə qarşı barışmaz nifrətə düçar olub Onu məbəddə daşa tutmaq istəyən zaman isə daha ağır söz

tapmayaraq nida etdilər: “Sən smariyalısan və Səndə cin var, dediyimiz doğru deyilmi?” (Yəh. 8:48). Buna baxmayaraq, kahin və levili Rəbbin onların üzərinə qoyduğu vəzifəyə etinasızlıq göstərərək, nifrət etdikləri samariyalıya öz həmvətənlərinə yardım etmək imkanı verdilər.

Samariyalı “qonşunu özün kimi sev əmrini icra edərək göstərdi ki, ona nifrət edənlərdən daha çox salehdir. Öz şəxsi həyatını təhlükə altında qoyub (axı hadisə təhlükəli vadinin yaxınlığında baş verirdi), o, insanın yaralarını sarıyaraq, ona öz qardaşı kimi kömək etdi. Məsəldəkı

bu samariyalı Məsihi təsvir edir. Bizim Xilaskarımız bizə heç bir insanın sevgisi ilə müqayisə edilə bilməyən məhəbbət bəsləyir. Məhv olduğumuz zaman, O bizə mərhəmət etdi. O yan keçmədi, bizi ümidsiz və köməksiz bir halda ölməyə qoymadı. Bütün səma sakinləri tərəfindən sevildiyi yerdə, Özünün müqəddəs, bəxtiyar iqamətgahında qalmadı. O bizim fəlakətlərimizi gördü, bizim vəziyyətimizə girdi və bəşəriyyətin maraqlarını Özününkü etdi. O Öz düşmənlərinin xilası naminə öldü. O Öz qatilləri üçün dua etdi. Öz şəxsi nümunəsinə işarə edərək, O, davamçılarına buyurur: “Bir-birinizi sevəsiniz deyə bu şeyləri sizə əmr

edirəm”, “Sizi sevdiyim kimi, siz də bir-birinizi sevin” (Yəh. 15:17; 13:34).

Kahin və levili məbəddə xidmət etmək üçün təyin edilmişdilər. Onların xidməti Allahın Özü tərəfindən müəyyən edilmişdi. Bu xidmətdə iştirak etmək böyük və yüksək etimad idi və həm kahin, həm də levili hesab edirdilər ki, onlar belə bir şərəfə layiq görülmüşdürlərsə, yol kənarındakı naməlum məzluma kömək etmək onlar üçün alçaqlıqdır. Bununla da Allahın onlara qonşularına yaxşılıq etmək üçün təqdim etdiyi imkanı rədd etdilər.

Bu günə kimi bir çoxları belə səhvlər edirlər. Onlar öz vəzifələrini iki ayrıca sahəyə bölürlər. Vəzifələrinin bir qismi İlahi Qanunla idarə edilən böyük işlərdən ibarətdir; digər vəzifələr isə kiçik işləri əhatə edir və [303] guya "qonşunu özün kimi sev" əmri bura daxil deyildir. Bu fəaliyyət sahəsi şıltaqlıqdan, əşyanın cazibəsindən, yaxud da ani bir istəkdən asılıdır. Bu, xasiyyətin korlanmasına və Məsihin həqiqi dini haqqında yanlış təsəvvürə gətirib çıxardır.

Bəziləri hesab edirlər ki, məzlum insanlığa xidmət etmək onların ləyaqətini alçaldır. Çoxları öz can

məbədlərini xarabalıqlara çevirmiş zavallılara laqeyd və etinasızdırlar. Digərləri isə yoxsullara başqa səbəblərə görə etinasızdırlar. Onlar güman edirlər ki, Məsihin işi üçün çalışaraq, layiqli bir təşəbbüs göstərmək istəyirlər. Hesab edirlər ki, böyük bir iş görürlər və ondan yayınaraq ehtiyacı olanların və ümidsizlərin hansısa bir şəxsi tələbatı üzərində dayanıb, onlara kömək edə bilməzlər. Özlərinin güman etdikləri böyük işlərində onlar yoxsulları hətta sıxışdıra da bilərlər. Yoxsulları ağır vəziyyətə salmaq, onların hüquqlarını pozmaq və ehtiyaclarına etinasız olmaq kimi halları təbii sayırlar. Onlara elə gəlir ki, bunların hamısına

bəraət vermək olar, çünki onların fikrincə, Məsihin işinə yardım edirlər.

Çoxları laqeydliklə öz qonşularını ağır şəraitdə buraxırlar. Özlərini məsihçi hesab edərək, onlar, çox güman, elə bilirlər ki, öz soyuqluqları ilə Məsihi nümayiş etdirirlər. Madam ki, özlərini Rəbbin qulları hesab edən bu adamlar Onunla həqiqi əməkdaşlıq etmirlər, onların vasitəsilə dünyaya gəlməli olan Allahın məhəbbəti onların qonşularına çatmır. Nəticədə insanların alqış və minnətdarlıqlarının çox qismi Allaha ucaldılmır. Ondan bu cəhətdən oğurlanır ki, Onun müqəddəs adına həqiqətən məxsus olan izzəti almır. Onu Məsihin

uğrunda öldüyü canlardan məhrum edirlər, o canlardan ki, O onları Öz Padşahlığına daxil etmək istəyir ki, Onun himayəsində sonsuz əsrlər boyunca yaşasınlar.

İlahi həqiqət hələ də dünyada kifayət qədər yayılıb və təsdiq edilməyibdir. Fəqət o bizim köməyimizlə bəşəriyyətə olduqca böyük təsir göstərə bilər və göstərməlidir. Çoxları uca səslə dindar olduqlarını bəyan edirlər, lakin bunun böyük əhəmiyyəti olmur. Biz səmimiyyətlə [304] özümüzü Məsihin davamçısı hesab edə bilərik, insanları əmin edə bilərik ki, İlahi Kəlamın hər bir həqiqətinə inanırıq; lakin əgər

bütün həyatımızı öz imanımıza tabe etməyəcəyiksə, bunlar bizim qonşumuza xeyir verməyəcəkdir. Bizim etiqadımız səma qədər uca ola bilər, lakin əgər biz həqiqi məsihçi olmasaq, o nə bizi, nə də bizim qardaşlarımızı xilas edəcəkdir. Xeyirxah bir iş dünyaya daha çox xeyir verə bilər, nəinki bizim bütün bəyanatlarımız.

Məsihə xidməti eqoist fikirlər və hərəkətlərlə bir araya qoymaq olmaz. Axı əgər Onun məqsədi yoxsul və məzlumların xoşbəxtliyidirsə, Onun davamçılarının ürəklərində Məsihə məxsus olan dərin şəfqət hissi daha çox olmalıdır və çox qiymətli sayıb

Öz ömrünü onların xilas olmaları üçün verdiyi insanlara qarşı dərin məhəbbət hissi olmalıdır. Bu insanlar Allahın gözündə o qədər qiymətlidirlər ki, öz dəyərlərinə görə bizim Allaha verə biləcəyimiz hər bir sovqatdan üstündürlər. Bütün enerjimizi, ola bilsin ki, həqiqətən böyük bir işə həsr etmək, lakin bununla bərabər ehtiyacı olanlara biganə qalmaq, yaxud qəribi rədd etmək Allahın bəyəndiyi həqiqi xidmət deyildir.

Qəlbin Müqəddəs Ruhun gücü ilə qüdsləşməsi Məsih təbiətinin insan varlığına nüfuz etməsidir. Xoş Xəbər dini — bizim həyatımızda olan və

onun canlı, fəal əsasını təşkil edən Məsihdir. Bu, insanın xasiyyətində və onun xeyirxah əməllərində büruzə verilən Məsihin lütfüdür. Şad xəbər prinsipləri bizim praktiki həyatımızın hər hansı bir sahəsindən qoparıla bilməz. Məsihçinin həyat və fəaliyyətinin hər sahəsi Məsihin xasiyyətini əks etdirməlidir.

Məhəbbət — möminliyin əsasıdır. İnsan nə söyləsə də, əgər onda öz qonşusuna qarşı təmənnasız məhəbbət yoxdursa, o, Allaha da pak sevgi bəsləmir. Lakin təkcə başqa insanları sevməyə çalışaraq, biz belə sevgi ruhuna heç vaxt nail ola bilməyəcəyik. Bizə lazım olan hər

şey ürəyimizdə Məsihin məhəbbətini əldə etməkdir. Bizim “mən”imiz Məsihdə yox olanda məhəbbət öz-özünə törəyir. Məsihçinin xasiyyəti o [305] vaxt kamil olur ki, onda başqalarına kömək etmək arzusu və qonşularına qarşı mərhəmətli olmaq istəyi möhkəm, başlıca və daxili tələbata çevrilir, səmavi işıq ürəyini doldurur və üzündə əks olunur.

Məsihin bərqərar olduğu ürək sevgiyə yad ola bilməz. Əgər biz həqiqətən Allahı ona görə seviriksə ki, öncə O bizi sevibdir, biz həm də Məsihin uğurlarında öldüyü hər kəsi sevəcəyik. Biz bəşəriyyətlə ünsiyyətə girmədən Allahla ünsiyyətə girə

bilmərik; çünki kainatın taxtında oturmuş Olanın Özündə İlahi və bəşəri birləşmişdir. Məsihlə birləşərək, biz öz qonşularımızla da qızıl məhəbbət ipləriə birləşirik. Bu zaman Məsihin şəfqəti və mərhəməti bizim də həyatımızın tutumu olur. Biz daha gözləməyəcəyik ki, ehtiyacı olanlar və zavallılar nə vaxt bizim yanımıza gələcəklər. Başqalarının dərdinə şərik olmaq üçün bizə yalvarmaq lazım olmayacaqdır. Ehtiyacı olan və iztirab çəkənlərə xidmət etmək bizim üçün Məsihin xeyirxahlıq etməsi qədər təbii olacaqdır.

Biz hər dəfə özümüzdə sevgi və şəfqətə, başqalarına xeyir-dua və yardım etməyə istək hiss edəndə bilməliyik ki, bu, Allahın Müqəddəs Ruhunun işidir. Hətta bütpərəstlər arasında da elə adamlara təsadüf edilirdi ki, onlar yazılı İlahi Qanun və Məsihin adı haqqında heç bir məlumatları olmadan Onun qullarına qarşı münasibətdə xeyirxahlıq edirdilər, bəzən öz həyatlarını təhlükə altında qoyaraq onları qoruyurdular. Onların hərəkətləri İlahi gücün təsirinə şəhadət edirdi. Müqəddəs Ruh Məsihin lütfünü bütpərəstlərin ürəklərinə salıb, onları şəfqətə vadar etdi, bu isə nə onların təbiətinə, nə də tərbiyələrinə məxsus idi. “Dünyaya

gələn, hər insanı nurlandıran həqiqi Nur" (Yəh. 1:9) onun qəlbində parlayır; və əgər bu nur qəbul edilərsə, onun ayaqlarını Allahın Padşahlığına yönəldəcəkdir.

Səmavi izzət yıxılanın qaldırılmasında və kədərliyə təsəlli verilməsindədir. İnsanın ürəyində bərqərar olaraq Məsih adamlara bu tərzdə açılır. Məsihin dini harada olursa olsun, xeyir-dua gətirəcəkdir. O harada işləyirsə işləsin, orada nur olacaqdır. [306]

Allah milli, irqi və ictimai fərqlər qoymur. O, bütün bəşəriyyətin Yaradıcısıdır. Həm yaradılış, həm də xilas sayəsində bütün insanlar bir ailə

hesab olunurlar. Məsih gəldi ki, insanları bir-birindən ayıran bütün divarları uçursun, məbədin bütün sahəsini açsın ki, hər kəs Allahla ünsiyyət üçün azad olsun. Onun məhəbbəti elə geniş, elə dərin, elə dolğundur ki, hər şeyi doldurur və hər yerdən keçir. O, şeytanın yalanına uymuş zavallı insanları onun caynağından qoparır. Onları Allahın taxtı önünə, göy qurşağı əhdi ilə əhatə olunan taxtın önünə gətirir.

Məsihdə nə yəhudi, nə yunan, nə qul, nə azad, nə kişi, nə də qadın vardır. "İndi Məsihin qanı səbəbilə yaxın oldunuz" (Qal. 3:28; Ef. 2:13).

Dini etiqadlarda nə qədər fərq olsa da, hər bir əzab çəkən insanın fəryadına cavab verilməlidir. Dini görüşlərdəki təsəvvür fərqlərinə görə yaranmış ziddiyyətli hisslər mövcud olan yerdə insanlara şəxsi xidmətin böyük birləşdirici rolu vardır. Ürəkdən edilən belə xidmət xürafatları dağıdır və Allah üçün insanlar qazanır.

Biz başqa insanların kədərinə, çətinliyinə və bəlalarına şərik olmalıyıq, Biz yüksəkdəki və aşağıdakıların, varlı və kasıbların sevinc və qayğılarını bölüşdürməliyik. “Müftə aldınız, — Məsih deyir, — müftə veriniz” (Mt.

10:8). Bizim əhatəmizdə zavallı, imtahana çəkilən insanlar vardırlar, onların şəfqətli bir sözə və köməyə ehtiyacları var. Diqqət və köməyə ehtiyacları olan dul qadınlar, yetim uşaqlar, o kəslərin ki qayğısını Məsih Öz davamçılarına etibar etmişdir, çox vaxt insanlar onlardan yan keçirlər. Onlar bəzən xoşagəlməz görünə bilərlər; lakin onlar da Allahın mülkiyyətidir. Onlar da çox baha qiymət sayəsində xilas edilmişdirlər və Onun gözündə bizim qədər dəyərlidirlər. Onlar böyük Allah ailəsinin üzvləridirlər və məsihçilər Onun eşikağaları olaraq, onlara görə cavabdehdirlər. "Onun qanını, — O deyir, — səndən soruşacağam".

Günah bütün pisliklərin ən ağırıdır, lakin günahkara mərhəmətlə kömək etmək bizim borcumuzdur. Əlbəttə, bütün günahkarlara eyni tərzdə [307] yanaşmaq düzgün deyildir. Onların bir çoxu çoxdan bəri ruhlu aclıq hiss edirlər. Onlar üçün həlim bir söz, yaxud xeyirxah bir xatirə də layiqli dəstək olacaqdır. Digərləri isə daha acınacaqlı vəziyyətdə olub, bütövlüklə günah çirkabına bataraq, artıq öz vəziyyətlərini dərk etmirlər. Bir çoxları artıq o qədər düşmüşdürlər ki, əbədi dəyərlər haqqında hər cür təsəvvürü itiriblər, Allaha bənzərliyi itiriblər və çətinliklə başa düşürlər ki, xilas edilməlidirlər, ya yox. Onların

nə Allaha imanları var, nə də inşanlara etibarları. Onlara yalnız təmənnasız xeyirxahlıq büruzə edən hərəkətlə kömək etmək olar. İlk növbədə onların fiziki ehtiyaclarını ödəmək lazımdır. Onları yedirtmək, çimizdirmək və geyindirmək lazımdır. Sizin təmənnasız sevginizin şəhadətlərini gördükləri zaman onlara Məsihin məhəbbətinə iman etmək də asan olacaqdır.

Çox adamlar, sadəcə olaraq, ölümcül yanılırlar. Onlar özlərinin eyiblərini və təqsirlərini hiss edirlər. Öz səhvlərini və yanıldıqlarını görərək, onlar ümidsizliyə qapılırlar. Bu adamlara güc və cəsarət əldə

etməyə yardım etmək lazımdır. Cərəyanın əksinə üzən insan onu geri aparan axının bütün gücünü hiss edir. Ona kömək əlinizi uzadın, necə ki suya batmağa başlayan Peterə Böyük Qardaş Öz əlini uzatdı. Ona ümidverici sözlər deyin ki, imanı dirilsin və sevgisi oyansın.

Sənin ruhən zəif olan qardaşının sənə ehtiyacı var, necə ki sənin öz qardaşının məhəbbətinə ehtiyacın vardır. Nə vaxtsa onun kimi zəif olanın təcrübəsinə ehtiyacı vardır, o adama ki, onu qaldıra bilər və ona yardım edə bilər. Öz zəifliyimizi dərk etməyimiz bizə başqalarına da buna bənzər ehtiyacda dəstək verməyə

kömək edir. Heç zaman əzablı adamın yanından keçərək, özümüzün Allahdan aldığımız yardımla bölüşməmək olmaz.

Məsihlə birləşməyimiz, diri Xilaskarla şəxsi ünsiyyətimiz şüurumuza, ürəyimizə və qəlbimizə alçaq təbiətimiz üzərində qələbə çalmağa imkan verir. Yorğun yolçuya onu qaldıra biləcək Qadir Əldən danışın, Məsihin sonsuz insanpərvərliyindən danışın, bu onu dəstəkləyəcəkdir. [308] Ona izah edin ki, yalnız qanuna və öz qüvvələrinizə, o təbiət substansiyalarına ki, şəfqət və kömək üçün dəvəti eşitməyə malik deyildirlər, onlara inanmaq azdır.

Onun qızğın ələ və şəfqət və mərhəmətlə dolu olan ürəyə etibar etməyə ehtiyacı vardır. Qoy onun şüurunu İlahi iştirak haqqında fikir işıqlandırsın, hansı ki onu tərk etməyib və şəfqətli məhəbbət ilə onu müşayiət edir. Qoy o, günahından kədərlənən Ata ürəyi haqqında düşünsün, hələ də ona uzanmış Ata əlini görsün, hələ də “Mənə pənah gətirsin, Mənimlə barışsın” (Yeş. 27:5) — deyə ona səslənən Ata səsini eşitsin.

Əgər siz belə səylər göstərsəniz ki, məhv olanı xilas edəsiniz, siz özünüz bu işinizdə insan gözünün görə bilmədiyi köməkçilərin dəstəyini

alacaqsınız. Səma mələkləri yaralı yolçuya xidmət edən samariyalının yanında idilər. Səmavi iqamətgahlardan olan mələklər Allahla işləyərək öz qonşularına xidmət edənlərlədirlər. Məsihin Özü də onları dəstəkləyəcəkdir. O, böyük Şəfavericidir və Onun himayəsi altında işləyərək, siz böyük nəticələr əldə edəcəksiniz.

Bu işin icrasında sizin sədaqətinizdən yalnız başqalarının xoşbəxtliyi deyil, sizin əbədiyyətdəki şəxsi taleyiniz də asılıdır. Məsih Onunla əməkdaşlığa nail olanların hamısını yüksəltməyə çalışır ki, biz Onunla bir olaq, necə ki O da Atası

ilə birdir. O bizi iztirab və bədbəxtliklərlə qarşılaşmaqdan ona görə azad eləmir ki, bizi eqoizmin əsarətindən qoparmaq istəyir; bizdə Öz xasiyyətinin xeyirxah keyfiyyətlərini — şəfqət, incəlik və məhəbbət hisslərini inkişaf etdirmək istəyir. Başqalarına xidmət etməyə səy göstərərək özümüzü Onun yeniləşdirici hakimiyyətinə veririk ki, bu da bizi Allahın malikanələrinə layiq edəcəkdir. Qonşularımıza münasibətdə öz borcumuzu icra etməkdən imtina edəndə isə Onun tövsiyəsini rədd etmiş oluruq və özümüz üçün Rəbbdən əbədi ayrılığı seçirik.

“Əgər yollarımla getsən... — Rəbb bəyan edir, — burada duranların arasında içəri keçmək haqqını sənə verirəm” (Zək. 3:7). Səmavi qüvvələrin [309] yerdəki işlərində onlarla əməkdaşlıq edərək, özümüzü səmada da əməkdaşlığa hazırlayırıq. “Qurtuluşu miras alacaq olanlara yardım etmək üçün göndərilən xidmətçi ruhlar” (İbr.1:14), səmavi mələklər o kəsləri alqışlayacaqdırlar ki, dünyada onlara xidmət etsinlər deyə yox, xidmət etmək üçün yaşayırdılar (Mt. 20:28). Bu xeyirxah əməkdaşlıqda biz “Mənim qonşum kimdir?” sualına hədsiz sevincimizə səbəb olan qəti cavab alacağıq. [310]

## Lütfün mükafatı

(Mt. 19:16-30; 20:1-16; Mk. 10:17-31; Lk. 18:18-30)

Azad lütf ənamı haqqında həqiqət yəhudilər tərəfindən, demək olar ki, unudulmuşdu. Kahinlər öyrədirdilər ki, Allahın rəhmini qazanmaq gərəkdir. Salehlik xeyirxah işlər əvəzində mükafat kimi əldə edilə bilər. Deməli, onların Allaha xıdmətləri mənfəət və fayda ruhu ilə şərtlənirdi. Bundan hətta Məsihin şagirdləri də azad deyildilər və Xilaskar hər imkandan istifadə edirdi

ki, onlara səhvlərini göstərsin. Məhz işçilər haqqında məsəli danışmazdan əvvəl bir hadisə baş verdi ki, Ona şagirdlərinə həqiqət prinsiplərini nümayiş etdirməyə imkan verdi.

Yol gedən zaman Ona bir gənc adam rast oldu və yaxınlaşıb qarşısında diz çökərək sayğı ilə Ona müraciət etdi. "Yaxşı Müəllim, - o dedi, — əbədi həyatım olsun deyə nə yaxşılıq etməliyəm?"

Bu hakim Məsihə, sadəcə olaraq, hörmətli bir Müəllim kimi müraciət edərək, Onun simasında İlahinin Oğlunu görmürdü. Xilaskar ona dedi: "Nə üçün Məni yaxşı adlandırırsan? Allahdan başqa yaxşısı yoxdur".

Nəyə görə Məni yaxşı adlandırırsan? Yalnız Allah yaxşıdır. Əgər sən Məni Allah sayırsansa, sən Məni Onun Oğlu və təmsilçisi olaraq qəbul etməlisən.

“Əgər sən həyata qovuşmaq istəyirsənsə, - O əlavə etdi, - əmrlərə riayət et”. Allahın xasiyyəti Onun qanununda ifadə olunubdur; [311] Allahla razılıqda olasan deyə sənin hər bir hərəkətin Onun qanununa uyğun olmalıdır.

Məsih qanunun tələblərini azaltmır. Birmənalı şəkildə O, qanuna itaəti əbədi həyatın şərti kimi nümayiş etdirir — bu, Adəmin günah etməsinə qədər ondan tələb olunan

şərtdir. Rəbb indi də bizdən Ədəmdə insandan tələb etdiyindən — tam itaət, qüsursuz salehlikdən az tələb etmir. Bu tələb, lütfün yeni əhd dövründə də hələ Ədəmdə irəli sürülmüş tələb qədər çoxşaxəli olmaqdadır; o, müqəddəs, saleh və yaxşı olan İlahi Qanunla harmoniyanı nəzərdə tutur.

“Əmrlərə riayət et” sözlərinin cavabında gənc adam soruşdu: “Hansı əmrlərə?” O güman edirdi ki, söhbət hansısa mərasimlərin icrasından gedir, Məsih isə Sina dağında verilmiş qanunun icrasını nəzərdə tuturdu. O, ikinci lövhənin bir neçə əmrlərini sadalayır və axırda

onların hamısını yeganə bir prinsipdə cəmləşdirir: “Qonşunu özün kimi sev”.

Gənc adam tərəddüd etmədən cavab verdi: “Bütün bunlara mən gəncliyimdən riayət edirəm; daha nəyim çatışmır?” Onun qanun haqqında təsəvvürü hələ də zahiri və dayaz idi. İnsan ölçüsü ilə götürsək, o, qüsursuz xasiyyətə malik idi və onu ləkəsiz saxlamışdı. Zahirən onun həyatı böyük dərəcədə günah və təqsirdən azad görünürdü; o, səmimiyyətlə güman edirdi ki, itaəti kamildir. Yenə də o, gizli bir qorxu hissi keçirirdi ki, qəlbinin Allahla münasibətində hər şey o qədər də

doğru və düzgün deyildir. Onun sualına səbəb də məhz bu idi: “Daha nəyim çatışmır?”

“Əgər kamil olmaq istəyirsənsə,dedi Məsih,get nəyin varsa sat və yoxsullara payla, göylərdə xəzinən olacaqdır. Fəqət gənc adam bu sözü eşitdikdə kədərlənib getdi, çünki çox malı var idi”.

Özü və mənfəəti üzərində cəmləşmiş bu adam artıq qanunun pozucusudur. Məsih gənc adama məhz bunu açmaq istəyirdi və O onu elə sınağa çəkdi ki, bu sınaq ona ləkəsini göstərdi. Gənc adam öz qəlbinin daim maariflənməsinə

çalışmırdı. O öz qəlbində büt bəsləyir və ona sitayiş [312] edirdi; onun ilahisi dünya və dünyəvi mənfəətlər idi. O güman edirdi ki, əmrlərə riayət edir, lakin bütün qanunun ruhunu və canını təşkil edən yeganə bir təməldən məhrum idi. Onda Allaha və insana qarşı həqiqi məhəbbət çatışmırdı. Bu çatışmazlıq onun həqiqətən Səmavi Padşahlığa girə biləcəyini təsdiq edə bilən qalan şeylərin çatışmazlığını göstərirdi. Özünə məhəbbətində və dünyəvi şeylərə bağlılığında o, səma prinsipləri ilə harmoniyadan məhrum idi.

Bu zəngin gənc İsaya yaxınlaşdığı zaman Xilaskarın ürəyini öz səmimiyyəti və yanğısı ilə fəth etdi. “İsa ona baxdı, onu sevdi...” Bu gəncdə O, salehlik vəzçisini gördü. O bu ağıllı və nəcib gənci məmnuniyyətlə qəbul edərdi, necə ki artıq Onun ardınca gedən yoxsul balıqçıları qəbul etmişdi. Əgər bu zəngin gənc adam öz qabiliyyətlərini insanların xilas edilməsinə yönəltsə idi, o, Məsihin əzmkar və uğurlu işçisi ola bilərdi.

Lakin bundan əvvəl ona şagird ola biləcəyi şərtləri qəbul etmək lazım idi. O özünü bütövlüklə Allaha həsr etməli idi. Xilaskarın çağırışı ilə

Yəhya, Peter, Matta və onların yoldaşları hər şeylərini ataraq Onun ardınca getdilər (Lk. 5:28). Gənc varlıdan da özünü belə həsr etmək tələb olunurdu. Bununla bərabər, Məsih Özünün verdiyi qurbandan böyüyünü tələb etmirdi. "O, zəngin olduğu halda, sizin uğrunuzda yoxsullaşdı ki, siz Onun yoxsulluğu ilə zənginləşəsiniz" (2 Kor. 8:9). Gəncdən yalnız Məsihin getdiyi yol ilə getmək tələb olunurdu.

Məsih gənc adama onun qəlbini fəth etmək arzusu ilə baxırdı. O onu insanların yanına xeyir-dua vermək üçün yollamaq istəyirdi. Gəncin imtina etdiyi şeyin əvəzində ona Özü

ilə əməkdaşlıq etmək şərəfini təklif edirdi. “Ardımca gəl”, — O dedi. Belə bir şərəfli təklif Peter, Yaqub və Yəhya tərəfindən sevinclə qarşılanmışdı. Gənc də Məsihə heyrətlə baxırdı. Onun ürəyi Xilaskara cəlb edilirdi. Lakin o, Məsihin dediyi fədakarlığa hazır deyildi. Gənc adam öz dünyəvi var-dövlətini İsadan üstün tutdu. O, əbədi həyata malik olmaq istəyirdi, lakin hələ də həqiqi həyat [313] olan fədakar məhəbbəti öz qəlbinə sığışdıra bilmirdi, ürəyində kədərlə o, Məsihdən uzaqlaşdı.

O uzaqlaşandan sonra İsa Öz şagirdlərinə dedi: “Zəngin adam

Göylərin Padşahlığına çətinliklə girəcəkdir". Bu sözlər şagirdləri heyrətləndirdi. Onları var-dövlətə göylərdən göndərilmiş xeyir-dua kimi baxmağa öyrədirdilər; onların özləri də Məsihin padşahlığı qurulduğu zaman dünyəvi hakimiyyət və var-dövlət əldə edəcəklərini düşünürdülər; əgər varlılara bu padşahlığa girmək çətindirsə, başqa adamlar nəyə ümid etsinlər?

"İsa şagirdlərinə dedi: Doğrusun sizə deyirəm ki, zəngin adam Goylərin Padşahlığına çətinliklə girəcəkdir. Yenə sizə deyirəm: Dəvənin iynə deşiyindən keçməsi zəngin adamın Allahın Padşahlığına

girməsindən daha asandır. Onlar isə həddindən çox təəccüblənirdilər”. İndi dərk etdilər ki, bu sözlərdən gələn xəbərdarlıq həm də onlara aiddir. Xilaskarın sözlərinin işığında özlərinin də var-dövlətə və hakimiyyətə gizli istəkləri onlara aşkar edildi. Öz üzərlərindəki təhlükəni hiss edərək, onlar nida etdilər: “Bəs kim xilas ola bilər?”

“İsa onlara baxıb dedi: İnsanlar üçün bu imkansızdır, fəqət Allah üçün hər şey mümkündür”.

Zəngin adam öz-özlüyündə Göylər Padşahlığına girmək iqtidarında deyildi. Onun yerdəki mövqeyi ona səma nurunda

müqəddəslərin mirasını almaq hüququ vermirdi. Yalnız bizim qazanmadığımız Məsihin lütfü və rəhmi vasitəsilə insanlar İlahi şəhərə girmək hüququ əldə edə bilərlər.

Müqəddəs Ruhun "Siz özünüzə məxsus deyilsiniz; zira siz çox baha qiymətə alınmısınız" (1 Kor. 6:19, 20) sözləri yalnız yoxsullara deyil, onlarla bərabər həm də varlılara aiddir. İnsanlar bunu lazımınca dərk etdikləri zaman başa düşürlər ki, onların mülkiyyəti onlara yalnız ondan ötrü etibar olunubdur ki, ondan məhv olanların xilası və iztirab çəkənlərin və yoxsulların dəstəyi üçün Allahın göstərişləri əsasında

istifadə [314] etsinlər. İnsan üçün bu, imkansızdır, çünki onun ürəyi dünyəvi sərvətlərə bağlıdır. Mammona xidmət etməyə öyrənmiş qəlb ehtiyacı olan bəşəriyyətin yalvarışlarına kardır. Allahla isə hər şey mümkündür. Qarşısmda Məsihin hədsiz məhəbbətini görərək, özünü sevən ürək yumşalır və tabe olur. Zəngin gənc o məqama hələ gətiriləcəkdi ki, fərisey Şaul kimi desin: "Fəqət mən üstünlük təmin edən hər şeyi Məsih naminə zərər saydım. Və hətta, uğrunda hər şeyin zərərini çəkdiyim Rəbbim Məsih İsanı dərk etməyin üstünlüyündən ötrü hər şeyi ziyan hesab edir və zibil sayıram ki, Məsihi əldə edim" (Flp.

3:7, 8). Bu zaman onlar malik olduqları heç nəyi öz şəxsi əmlakları hesab etməyəcəklər. Özlərinə Allahın çoxsaylı lütfünün idərəçisi və Onun adı naminə bütün insanlar üçün qul kimi baxaraq onlar sevinəcəklər.

Xilaskarın sözlərinin şagirdlərində yaratdığı təəssüratdan Peter birinci özünə gəldi. Böyük məmnuniyyətlə o özünün və həmqardaşlarının Məsih naminə verdiyi şeylər haqqında düşünürdü. “Budur, — dedi o, — biz həг şeyi buraxdıq və Sənin ardınca gəldik”. Məsihin zəngin gəncə Onun ardınca getdiyi halda “Göylərdə xəzinən olacaqdır” vəd etdiyini xatırlayaraq,

Peter soruşur ki, o və yoldaşları verdikləri qurbanlar əvəzində nə ilə mükafatlandırılacaqlar.

Xilaskarın cavabı bu qalileyalı balıqçıların ürəklərini heyrətə saldı. Onların qarşısında hər bir arzularından üstün olan izzət və şərəf açıldı: "Doğrusun sizə deyirəm ki, İnsan Oğlu hər şeyin yenilənməsində, izzətli taxtına oturacağı zaman, Mənim ardımca gələn sizlər də İsrailin on iki nəsil budağına hökm etmək üçün on iki taxt üzərində oturacaqsınız".

O əlavə edir: "Və hər kəs Mənim adım naminə evlər, qardaşlar, bacılar, ata, ana, uşaqlar və yaxud tarlalar

buraxarsa, yüz dəfə artıq alacaq və əbədi həyatı miras götürəcəkdir”.

Lakin Peterin “Bizim nəyimiz olacaq?” sualı Məsihin şagirdlərində elə fikirlər aşkar etdi ki, vaxtında kənar edilməsəydi, onlara Məsihin elÇiləri olmağa mane olardı; çünki belə fikirlər könüllü qula yox, muzdlu [315] işçiyə məxsusdur. Onun şagirdləri İsanın məhəbbəti ilə cəlb olunsalar da, hələ də fəriseylikdən tamamilə azad deyildilər. Onlar hələ də öz səylərinə müvafiq olacaq mükafat arzusu ilə işləyirdilər. Onlara hələ də özündən razılıq və özünü ucaltma ruhu yad deyildi; onlar özlərini bir-biri ilə müqayisə

edirdilər. Onlardan biri nədəsə büdrəyəndə, digərləri özlərini ondan üstün sayırdılar.

Şagirdlərinin Müjdə prinsiplərini duymaları üçün Məsih onlara Allahın Öz qulları ilə necə rəftar etdiyini təsvir edən və Onun onlarda hansı ruhu görmək istədiyini nümayiş etdirən bir məsəl danışır.

“Zira Göylərin Padşahlığı, — O deyir, — səhər erkən düşüb öz üzüm bağı üçün işçi tutmağa çıxan ev sahibinə bənzər”. O dövrün adətinə görə, iş tapmaq istəyən adamlar bazar meydanlarında gözləyirdilər, çünki işverənlər işçi tutmaq üçün ora gəlirdilər. Məsəldə sahibkar işçi

tutmaq üçün günün müxtəlif vaxtlarında çıxan adamı təsvir edir. Erkən saatlarda işə girən adamlar bütün gün ona müəyyən məbləğə işləməyə razılaşdılar; sonralar işə girənlər isə sahibkarın müəyyən etdiyi qədər almaq ümidində idilər.

“Axşam olduqda bağ sahibi öz eşikağasına dedi: İşçiləri çağır və sonunculardan başlayaraq birincilərə kimi muzdlarını ver! On birinci saat radələrində işə başlayanlar düşündülər ki, daha çox alacaqlar; lakin onlar da adam başına bir dinar aldılar”.

Öz üzüm bağında işçilərlə hesablaşan sahibkar, bu məsəldə

Allahı Onun bəşər ailəsi ilə münasibətlərində təsvir edir. Bu münasibətlər adi insan qaydalarına uyğun deyildir. Dünyəvi işlərdə həmişə mükafat görülmüş işin miqdarına uyğun olur. İşçi yalnız qazandığını alır. Məsəldə isə Məsih açıq şəkildə Öz Padşahlığının — bu dünyadan olmayan padşahlığın prinsiplərini göstərir. O hər hansı bir bəşəri prinsiplərə istinad etmir. Rəbb deyir: "Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil... Çünki göylər yer üzündən nə qədər yüksəkdirsə, yollarım da sizin yollarınızdan, [316] fikirlərim də sizin fikirlərinizdən o qədər yüksəkdir" (Yeş. 55:8, 9).

Məsəldə birinci işçilər danışılmış məbləğə işləməyə razılaşdılar və onlar vəd ediləni aldılar, ondan artıq yox. Sonradan işə girənlər sahibkarın vədinə inandılar: “Nə düşəcək, onu alacaqsınız”. Onlar ödənişin miqdarı haqda sual verməyərək, özlərinin ona etibarlarını nümayiş etdirdilər. Onlar onun ədalətinə, qərəzsizliyinə inandılar. Onlar mükafatlandırıldılar — işlərinə müvafiq yox, sahibkarın səxavətinə müvafiq.

Beləcə, Allah da istəyir ki, biz Ona etibar edək, O, günahkarı da bağışlayır. Onun mükafatı dəqiq olaraq bizim xidmətlərimizə uyğun deyil, lakin Onun şəxsi məqsədinə,

dünya yaranandan əvvəlki təyinatına uyğun, “Rəbbimiz İsada Allahın icra etdiyi əzəli məqsədə görə” verilir (Ef. 3:11). “Salehliklə görə biləcəyimiz işlərdən dolayı deyil, Öz mərhəmətinə görə bizi xilas etdi” (Tit. 3:5).

Bizim Allah üçün gördüyümüz işin dəyərini O, zəhmətin miqdarına, yaxud onun gözəgörünən nəticələrinə görə deyil, onu gördüyümüz ruha görə qiymətləndirir. Üzüm bağına saat on birdə gələnlər işləyə biləcəklərinə görə minnətdar idilər. Onların ürəkləri işverənə qarşı minnətdarlıqla dolu idi; günün sonunda sahibkar onlara bütün günün

əmək haqqını verəndə, onlar çox təəccübləndilər. Sahibkarın xeyirxahlığı onları sevindirdi. Onlar heç zaman öz əməklərinə görə bu qədər səxavətli mükafatı unutmayacaqlar. Layiq olmayaraq Sahibkarın üzüm bağına on birinci saatda girən günahkarla da belə olur. Ona elə gəlir ki, xidmət etmək üçün qalmış ömrü o qədər qısadır ki, o, dəyərli bir mükafata layiq deyildir; lakin sevinc içindədir ki, Allah ümumiyyətlə onu qəbul etmişdir. O, Məsihin həmişçisi olmaq imkan və şərəfinə minnətdar olaraq, etibar və təvazökarlıqla çalışır. Belə işçinin ruhunu Allah mükafatlandırmağa şaddır.

Rəbb istəyir ki, biz mükafatımızın miqdarı haqqında düşünməyərək, Onda olaq. Qəlbdə Məsih olan zaman mükafat haqqında fikir əsas olmur. Mükafat bizim xidmətimizin əsas vadaredici səbəbi deyildir. Biz, [317] əlbəttə ki, mükafat almaq imkanına malik olduğumuz üçün minnətdar olmalıyıq və heç vaxt onu unutmamalıyıq. Allah istəyir ki, biz Onun vəd etdiyi xeyir-duaları dəyərləndirək. Ancaq O istəmir ki, biz məhz və yalnız mükafata can ataq və hesab edək ki, hər bir işə görə mükafat almalıyıq. Biz saleh işləri mükafat almaq üçün deyil, heç bir mükafatın fərqinə varmadan könüllü etməyə can atmalıyıq. Bizim bütün

hərəkətlərimizin əsas səbəbi hər şeydən əvvəl Allaha və öz qonşularımıza məhəbbət olmalıdır.

“Əkən də, sulayan da heçdir, böyüdən Allahdır. Əkən və sulayan isə mahiyyətcə eynidirlər; amma hər biri öz əməyinə görə mükafat alacaqdır. Zira biz Allahın həmişçiləriyik... zira heç kim qoyulan təməldən, yəni İsa Məsihdən başqa, ayrı təməl qoya bilməz... Hər kəsin işi zahir olacaqdır... Kimin inşa etdiyi iş davam gətirərsə, o, mükafat alacaqdır” (1 Kor. 3:7-14).

Bu məsəl iş üçün birinci dəvəti eşidib, lakin Rəbbin üzüm bağına getməyənlərə aiddir. Ev sahibi

meydana on birinci saatda gəlib orada boş dayanmış işçiləri görən zaman onlara dedi: “Nə üçün burada bütün gün avara durursunuz?” Onlar cavab verdilər: “Çünki kimsə bizi tutmadı”. Gec işə girənlərin heç biri səhər erkən meydanda yox idi. Onlar işə dəvətdən qaçmırdılar, sadəcə olaraq, orada deyildilər. Öncə xidmətə dəvəti rədd edən adamlar isə hər halda peşman olurlar və sonra düşünərək, əlbəttə ki, düzgün hərəkət edirlər, lakin mərhəmət çağırışına belə sadəlövh yanaşmaq təhlükəlidir.

Üzüm bağındakı işçilərin hər biri “bir dinar” aldıqda səhərdən işə başlayanlar incidilər. Məgər biz

bütövlüklə on iki saat işləmədikmi? deyə onlar düşünürdülər. Məgər biz ədalət naminə günün sərin vaxtında cəmi bir saat işləyənlərdən artıq almamalıyıqmı? “Bu sonuncular bir saat işlədilər və sən onları günün ağırlığını və istiliyini çəkən bizlərlə bir cərgəyə qoydun”. [318]

“Dostum! — deyə sahibkar onlardan birinə cavab verdi, — mən sənə haqsızlıq etmirəm, sən mənimlə bir dinara razılaşmadınmı? Özünə yetəni al, get; bu sonuncuya sənə verdiyim kimi vermək istəyirəm. Malımla istədiyimi etməyə səlahiyyətim yoxdurmu? Bəlkə sən

mənim comərdliyimə pis gözlə baxırsan?”

“Beləcə də sonuncular birinci və birincilər sonuncu olacaqlar; zira dəvətli çox, seçilmiş isə azdır”.

Bu məsəldə birinci işə girmişlər o adamları təsvir edirlər ki, onlar başqalarının içində birinci olmağı iddia edir və xüsusi xidmətləri müqabilində onlara düşən mükafat olaraq onların üzərində yüksəlməyə çalışırlar. Onlar öz işlərinə özünü təsdiq etmək vasitəsi kimi baxaraq, xidmətlərində özündən imtina, fədakarlıq ruhunun mövcud olmasına səy göstərmirlər. Ola bilsin ki, onlar həqiqətən də öz ömürləri boyunca

həssaslıqla Allaha xidmət edirlər, mümkündür ki, onların üzərinə digərlərindən daha çox çətinliklər, məhrumiyyətlər və sınaqlar düşmüşdür və buna görə də daha böyük mükafat istəməklərində sanki haqlıdırlar. Lakin əfsus! Məsihin qulları olmaq üstünlük və şərəfindən daha çox mükafat haqqında düşünürlər. Onların fikrincə, verdikləri zəhmət və qurbanlar onlara daha böyük şərəf hüququ verir və onların bu hüququ başqaları tərəfindən etiraf və təsdiq olunmayanda inciyir, özlərini talan edilmiş sayırlar. Onlar öz işlərinə məhəbbət və etibar ruhu daxil etsəydilər, həqiqətən birinci ola

bilərdilər; lakin deyingən, daim narazı xislətləri qeyri-məsihçi olaraq onları etibarsız qullar kimi ifşa edir. Bu hissləri onlardakı gizli şöhrətpərəstlik yanğısını, Allaha etibarsızlıqlarını, öz həmqardaşlarına qarşı qısqanclıq və paxıllıq ruhunu büruzə verir. Rəbbin xeyirxahlığı, Onun başqalarına qarşı da səxavətli olması onlara deyinmək üçün yalnız səbəb olur. Bu onu göstərir ki, onların qəlbləri ilə Allah arasmda canlı, möhkəm bağlılıq yoxdur. Onlar Yaradan ilə həqiqi əməkdaşlıq sevincini dərk etməmişlər.

Allah üçün belə dar mənfəət ruhundan təhqiramiz heç nə yoxdur.

[319] O, belə keyfiyyətləri olan insanlarla əməkdaşlıq edə bilmir. Onlar Müqəddəs Ruhun təsirinə qarşı hissiyyatsızdırlar.

İbranilər birinci olaraq Rəbbin üzüm bağına dəvət olunmuşdular və bu onlarda qürura səbəb oldu və özlərinin seçilmiş xalq olduqları və xüsusi salehlik haqqında fikirlər doğurdu. Uzun müddət xidmət etməklərini onlar öz imtiyazları saydılar, bu isə onlara digərlərindən daha çox mükafat almağı təyin edirdi. Bütpərəstlərin də Allahın işində onlarla bərabər hüquqlara malik olmaları yəhudiləri hər şeydən çox hiddətləndirirdi.

Məsih birinci olaraq Öz ardınca getməyə çağırdığı şagirdlərinə özlərində belə rəqabət ruhu bəsləməyin təhlükəsi haqqında xəbərdarlıq edirdi. O görürdü ki, şəxsi salehlikləri ilə razılıq imanlılar cəmiyyətinin zəifliyi və lənəti olacaqdır. İnsanlar düşünə bilərlər ki, müstəqil olaraq Göylər Padşahlığında yer qazana bilərlər. Onlar güman edə bilərlər ki, hansısa mühüm işlərdə şəxsi təşəbbüs göstərdikdə Rəbb yalnız onlara köməyə gələcəkdir. Beləliklə, aydın surətdə öz “mən”imizin rolunun çoxalması və İsanın rolunun azaldılması müşayiət edilir. Allaha xidmət işində yalnız bir neçə addım atmış bir çox adamlar

qürrələnərək özlərini başqalarından yüksək tuturlar. Onların səyləri az qiymətləndiriləndə qısqanclıq hissi keçirir və öz ünvanlarına tərifi sevirlər. Öz məsəlini söyləyərkən Məsih şagirdlərini məhz bu təhlükədən saqındırmaq istəyir.

Hər cür özünüöymə, şəxsi xidmətlərin şişirdilməsi tamamilə yersizdir. “Müdrik müdrikliyi ilə öyünməsin, igid öz gücü ilə öyünməsin, varlı öz sərvəti ilə öyünməsin. Ancaq öyünən onunla öyünsün ki, Mən Rəbbin dünyada məhəbbət, ədalət və salehlik yaratdığını dərk edir və Məni tanıyır.

Çünki Mən bunlardan xoşlanıram" (Yer. 9:23, 24).

Mükafat insandan törəmir; o, Allahın lütfündən törəyir və insanlara öyünmək lazım deyildir. "Bəs bədənə görə atamız olan İbrahim haqda nə deyək? O, nə əldə etdi? Əgər İbrahim əməllərilə saleh sayıldısa, onun öyünməyə haqqı vardır; fəqət Allah qarşısında deyil. Zira, Yazı nə [320] deyir? "İbrahim Allaha iman etdi və bu ona salehlik sayıldı". Əməl edənə əvəz lütf deyil, borc sayılır. Lakin əməl etməyib, fəqət allahsızı saleh sayana iman edənin imanı salehlik sayılır" (Rom. 4:1-5). Buna görə bir kimsənin digəri üzərində

yüksəlməsinə, yaxud bir-birinə paxıllıq etməsinə səbəb yoxdur. Heç kəs digərlərindən daha imtiyazlı vəziyyətə qoyulmamışdır və heç kim öz mükafatını tamamilə qazanılmış hesab edə bilməz.

Həm birinci, həm də axırıncı əbədi böyük mükafatı bölüşdürür və birinci axırıncını sevinclə salamlamalıdır. Başqasının mükafatına paxıllıq edən unudur ki, onun özü də yalnız lütf sayəsində xilas edilmişdir. İşçilər haqqında məsəl hər cür qısqanclıq və şübhəni pisləyir. Məhəbbət həqiqətdə öz sevincini tapır və kinayəli rəqabətdən uzaqlaşır. Məhəbbətə malik olan şəxs

yalnız Məsihin ecazkarlığı ilə öz kamil olmayan xasiyyətini müqayisə edir.

Bu məsəl bütün işçilər üçün, onların xidmət müddətindən və gördükləri işlərdən asılı olmayaraq, xəbərdarlıqdır; məsəl bütün insanlara deyir ki, öz həmqardaşlarına məhəbbətsiz, Allah qarşısında itaətsiz olanlar heç nəyə yaramırlar. Özünüyüksəltmə həqiqi dinin prinsiplərinə uyğun deyildir. Şöhrətlənməyi özünə məqsəd edən şəxs özünü Məsihə xidmət üçün yararlı edə biləcək yeganə lütfdən məhrum edir. Harada insan öz

qüruruna və özündən razılığa rəvac verirsə, iş zəifləyir.

Bizim işimiz Allah tərəfindən uzunmüddətli olduğuna görə deyil, lakin bu işdə bizim hazırlığımız və sədaqətimizə görə dəyərləndirilir. Həqiqi xidmət bizim “mən” imizin bütövlüklə Allaha verilməsini tələb edir. Ən kiçik vəzifələrin icrasında göstərilən səmimi və fədakar səylər Allaha daha məqbuldur, nəinki nəhəng, lakin özünü təsdiq etmək istəyi ilə görülmüş işlər. O bizim xidmətimizdə görmək istəyir ki, biz nə dərəcədə Məsihin Ruhuna malikik və nə dərəcədə bizim işimizdə Ona bənzərliyimiz aşkar edilir. O bizim

gördüyümüz işin həcmini bu işin görülməsində izhar etdiyimiz məhəbbət və sədaqət qədər dəyərləndirmir. [321]

Yalnız o zaman ki özünəməhəbbət ləğv edilir, üstünlüyə can atmaq yox olur bizim ürəyimiz minnətdarlıq hissi ilə dolur və məhəbbət bizim həyatımızı ətirli edir, onda yalnız Məsih birdəfəlik bizim qəlbimizdə məskunlaşır və biz Allahla bərabər işçi sayılırıq.

İş nə qədər ağır olsa da, həqiqi işçi onu özünə yük hesab etmir. O özünü işə həsr etməyə hazırdır və ağırlığına baxmayaraq, iş ona sevinc gətirir, şən ürəklə yerinə yetirilir.

Allahda sevinc İsa Məsih vasitəsilə ifadə edilir. Onların sevinci Məsihin qarşısında duran sevincdir ki, “Məni Göndərənin iradəsini yeritsin və Onun işini tamamlasınlar” (Yəh. 4:34). Onlar izzət Rəbbi ilə əməkdaşlıq edirlər. Təkcə bunu düşünmək bütün smaqları yüngülləşdirir, güc verir, ruhumuzu möhkəmləndirir və bizi gözləyən hər şeyə dözmək qabiliyyəti verir. Ürəyimizdə Məsihlə bölüşdürdüyümüz nəcibləşmiş iztirablar və təvazökarlıqla işləyərək, Onunla ümumi istiqamətə malik olub, Onun işlərində iştirak edərək, Allahın əzmkar işçiləri Onun sevincinin

çoxalmasına səbəb olur və Onun uca adına yeni şərəf və izzət gətirirlər.

Allaha hər cür həqiqi xidmətin ruhu belə olmalıdır. Belə ruhun olmaması səbəbindən xidmətdə birinci görünən əslində axırıncı olacaqdır; belə xidmət ruhu ilə yaşayan isə birinci olacaqdır, baxmayaraq ki, insanlar arasında axırıncı sayılır.

Bir çox adamlar vardır ki, Məsihə təslim olmuşdurlar, lakin özləri üçün Onun naminə böyük bir iş görmək, yaxud Onun adı naminə hansısa bir mühüm qurban vermək imkanları görmürlər. Bu adamlar bilməlidirlər ki, Allahdan ötrü yalnız əzabkeşin

fədakarlığı mühüm deyildir və səma kitablarında birinci olaraq mütləq, bəzi missionerlərin həyatlarında olduğu kimi, daim həyat üçün təhlükə ilə müşayiət olunan xidmət yazılmır. Ən sıravi məsihçi, əgər onun gündəlik şəxsi həyatı daima fədakarlıqla, məqsəd və fikirlərinin paklığı ilə əlamətdardırsa, əgər təmkinlik və dözümlülük onu hər cür təlatümlü vəziyyətlərdə tərk etmirsə, əgər o həmişə iman və xeyrxahlıq içindədirsə, ən kiçik işlərində belə [322] Allaha sadiqdirsə və əgər onun ailə həyatında Məsihin xasiyyəti nümayiş edilmişdirsə, o, Rəbbin gözündə daha çox hörmətli və ləyaqətli ola bilər, nəinki bütün

dünyada məşhur missioner, yaxud əzabkeş.

İnsanın xasiyyətinin ölçülməsində insanların və Allahın ölçüləri nə qədər fərqlidir. Rəbb Allah insanın başqalarının, dünyanın, hətta ən yaxın dostlarının da gözlərindən gizli saxladığı sınaqlara — evində və ürəyində baş verən sınaqlara necə məruz qaldığını görür. Allah insanın öz zəifliyi ilə ağırlaşmış təvazökarlığını görür; onun hətta günahkar saydığı fikirlərində tövbəni də görür. Allah təmiz ürəklə Ona həsr edilən xidməti də görür. Rəbb insanın öz “mən”i ilə bir çox döyüş saatları haqqında bilir, o döyüş haqqında ki,

Onun Özü artıq qalib çıxmışdır. Bütün bunlar Allaha və mələklərə məlumdur. Onun qarşısında yazılan xatirə kitabı Rəbbdən qorxan və Onun adına hörmət edənlər haqqında yazılır.

Müvəffəqiyyətimizin sirri bizim təhsilimizdə, mövqeyimizdə, gücümüzdə, yaxud bizə etibar olunmuş istedadlarda, bizim iradəmizdə gizlənməyibdir. Öz zəifliyimizi hiss edərək, biz fikrimizlə Məsihə müraciət edirik və bütün qüvvələrdən yüksək Olanın, bütün fikirlərdən uca Olanın köməyi ilə qələbə ardınca qələbə qazanırıq.

Bizim xidmətimiz nə qədər kiçik də olsa, gördüyümüz iş nə qədər sadə də olsa, əgər biz Məsihin ardınca sadə imanla gediriksə, peşiman olmayacağıq, layiqli mükafat alacağıq. Hətta ən dahi və müdriklərə verilməyəni ən zəif və sadələr alacaqlar. Göylərin qızıl darvazası özlərini yüksək tutanların qarşısında açılmır. 0, ruhən qürurlu olanlar qarşısında qalxmayacaqdır. Fəqət əbədi girişlər körpənin zəif toxunuşundan geniş açılacaqdır. Sadə iman və məhəbbətlə Allah üçün çalışanlara lütfün mükafatları xeyir-dualı olacaqdır. [323]

## Adaxlının qarşılanması

(Mt. 25:1-13)

Məsih Öz şagirdləri ilə Zeytun dağında oturmuşdu. Günəş dağların arxasına enmişdi və səma qaralmışdı. Onların qarşısında bayram üçün hazırlanmış kimi bəzəkli yaşayış evi vardı. Qapı və pəncərələrdən işıq saçırdı. Evin qabağında adamlar dayanmışdılar. Çox güman ki, tezliklə toy şənliyinin gəlməsi gözlənilirdi. Şərqin çox yerlərində toy şənlikləri axşam keçirilir. Adaxlı qabaqcadan yola düşür ki, öz nişanlısını

qarşılayıb, onu evinə qədər müşayiət etsin. Çıraq işıqlarında toy şənliyi gəlinin evindən adaxlının evinə yollanır, orada dəvət olunmuş qonaqlar üçün toy ziyafəti olmalıdır. Məsihin gördüyü səhnədə qonaqlar toy şənliyinin gəlişini gözləyirdilər ki, ona qoşulsunlar.

Gəlin evi qarşısında ağ paltarlar geymiş on qız əyləşmişdir. Hər birinin çırağı və yağ üçün qabları vardır. Onlar adaxlının gəlişini gözləyirlər. Fəqət o gecikir. Saatlar keçir; gözləməkdən yorulanlar mürgüləyib yatdılar. Gecə yarısı bir qışqırıq qopdu: "Budur, adaxlı gəlir, onu qarşılamağa çıxın!" Yatanlar

oyanıb ayağa qalxdılar. Onlar parlaq çıraqlarla və şən musiqi ilə hərəkət edən toy şənliyini gördülər. Adaxlı ilə gəlinin səslərini eşidirdilər. Qızların onu da durub öz çıraqlarını düzəltdilər ki, şənliyə qoşulsunlar, lakin onların beşinin qabında yağ qalmamışdı. [324] Onlar güman etmirdilər ki, bu qədər çox gözləmək lazım olacaq və ona görə də çıraqlarında yağ qurtaracaqdır. Həyəcan içində onlar öz ehtiyatlı rəfiqələrinə müraciət edirlər: "Bizə yağınızdan verin, çünki çıraqlarımız sönür". Lakin onlar öz çıraqlarını dolduraraq, artıq yağ qablarını boşaltmışdılar. Onlarda artıq yağ yoxdur və onlar cavab verirlər:

“Xeyr! Bizə və sizə çatmaya bilər. Hər şeydən yaxşı gedin satıcılardan alın”.

Yağ almaq üçün getdikləri zaman isə şənlik onları arxada qoyub irəliyə getdi. Yanan çıraqlarla beş qız şənliyə qoşularaq adaxlının evinə girdilər. Ağılsız qızlar şənliyə gəldikləri zaman isə onları içəri buraxmadılar. Ev sahibi onlara dedi: “Doğrusun sizə deyirəm ki, sizi tanımıram”, onlar kimsəsiz küçədə gecənin qaranlığında qaldılar.

Məsih adaxlını gözləyənlərə baxaraq, Öz şagirdlərinə on qız haqqında danışdı ki, onların timsalında bilavasitə Onun İkinci

gəlişindən əvvəl imanlılar cəmiyyəti ilə nə baş verəcəyini göstərsin.

Gözləyən qızların iki qrupu öz timsallarında Rəbbləri ilə böyük görüşü gözləyən iki insan kateqoriyasını təsvir edir. Onlar məhz ona görə qızların timsalında təsvir olunublar ki, özlərinin ən pak imana malik olduqlarını bəyan ediblər. Məsəldəki çıraqlar İlahi Kəlamı təsvir edir. Zəbur oxuyan deyir: "Sözün hər addımım üçün çıraqdır, yollarıma işıqdır" (Məz. 118:109). Çıraqlar üçün yağ Müqəddəs Ruhu təsvir edir. Eyni ilə Müqəddəs Ruh Zəkəriyyənin peyğəmbərliyində də təsvir olunubdur. "Mənimlə danışan mələk

geri qayıdıb, — o deyir, — məni yuxusundan oyanan adam kimi oyatdı. O məndən soruşdu: “Nə görürsən?” Mən dedim: “Büsbütün qızıldan olan bir çıraqdan görürəm. Onun başında zeytun yağı üçün bir qab, üzərində yeddi çıraq, çıraqlarda isə yeddi lülə var. Çıraqdanın yanında isə biri yağ qabının sağında, o biri solunda olmaqla iki zeytun ağacı var”. Sonra mənimlə danışan mələkdən soruşdum: “Ay ağam, bunlar nədir?” Mənimlə danışan mələk “bunların nə olduğunu bilmirsənmi?” deyə soruşdu. Mən də “yox, ağam” dedim. O mənə cavab verdi: “Zerrubbabilə Rəbbin sözü budur: “Güclə, qüdrətlə [325] yox,

yalnız Mənim Ruhumla iş görəcəksən” deyir Ordular Rəbbi. Sən kimsən, ey uca dağ? Zerrubbabilin önündə düzənliyə çevriləcəksən. O “nə gözəldir, nə gözəldir” nidaları altında məbədin təpə daşını götürəcək”. Mənə Rəbbin sözü nazil oldu: “Bu evin təməlini Zerrubbabilin əlləri qoydu, onun əlləri də bunu sona çatdıracaq. Onda biləcəksən ki, Ordular Rəbbi məni sizin yanınıza göndərmişdir. Bu günü kim əhəmiyyətsiz hesab edə bilər? Məhz bu gün adamlar Zerrubbabilin əlində şaqulu görəndə sevinəcək. Bu yeddi çıraq isə Rəbbin bütün yer üzündə dolaşan gözləridir”. Mən ondan soruşdum: “Bəs çıraqdanın sağ və

solunda olan bu iki zeytun ağacı nədir?" Sonra yenə soruşdum: "İki qızıl borucuq vasitəsilə içindən qızıl rəngində yağ axan bu iki zeytun budağı nədir? O məndən soruşdu: "Bunların nə olduğunu bilmirsənmi?" Mən də "yox, ay ağam" dedim. O mənə dedi: "bunlar bütün yer üzünün Sahibinin önündə duran məsh olunmuş iki nəfərdir" (Zək. 4:1-14).

İki zeytun ağacından qızıl yağ qızıl borucuqlarla çırağın yağ qabına axıdılır və oradan əqdəsə işıq saçan qızıl qəndillərə tökülür. Beləliklə, Allahın önündə duran müqəddəslərdən Onun Ruhu, Allahın sözünü Onun xidmətinə təyin edilmiş

kahinlərə verir. İki məsh olunmuşun vəzifəsi Allah adamlarına Onun sözünü addımlar üçün çıraq və yol üçün işıq edə biləcək səmavi lütfü çatdırmaqdan ibarətdir. “Güclə, qüdrətlə yox, yalnız mənim Ruhumla iş görəcəksən” deyir Ordular Rəbbi” (Zək.4:6).

Bu məsəldə qızların onu da adaxlını qarşılamağa çıxmışdılar, hamısının çırağı və yağ qabı vardı. Əvvəl onların arasında fərq yox idi. Beləcə, müəyyən vaxta kimi Məsihin İkinci gəlişindən qabaq imanlılar cəmiyyəti də belə görünəcək. Hamıya Yazı verilmişdir, hamı onu bilir və hamı Məsihin tezliklə gələcəyini

eşitmişdir. Hamı inamla Onun zühur edəcəyini gözləyir. Fəqət indi də məsəldəki kimidir: gözləmə vaxtı keçir, imanın sınaq vaxtı yaxınlaşır, lakin eşidəndə ki “Budur? adaxlı gəlir, onu qarşılamağa çıxın!” çoxları hazır olmayacaqlar. Onların qablarında öz çıraqları üçün yağ yoxdur. Onlarda Müqəddəs Ruh yoxdur. [326]

Allahın Ruhu olmadan Onun sözünü bilmək faydasızdır. Yalnız ağılla qavranılmış və Müqəddəs Ruhla möhkəmləndirilməmiş həqiqət nəzəriyyəsi qəlbi canlandıra və ürəyi qüdsləşdirə bilməz. İnsan Müqəddəs Kitabın əmr və vədlərini öyrənə bilər;

fəqət Müqəddəs Ruh bu həqiqətləri onun ürəyində kökləndirməsə, insanın xasiyyəti dəyişməyəcək. Müqəddəs Ruhla maariflənmədən insan həqiqətləri yalanlardan ayırmağı öyrənməyəcək və şeytanın hiyləgər imtahanları qarşısında məğlub ediləcək.

Ağılsız qızlar bu məsəldə hiyləgərləri təmsil etmirlər. Bu qızlar həqiqətə sayğı göstərirlər, həqiqəti qoruyurlar, həqiqətə iman edənlərə can atırlar; fəqət özləri Müqəddəs Ruhun yeniləşdirici təsirinə təslim olmayıblar. Onlar İsa Məsih Qayasına yıxılsalar da, köhnə təbiətlərinin dağılmasına icazə verməmişlər.

İnsanların bu növü həm də əkinçi haqqında məsəldə alleqoriya şəklində daşlı torpaq kimi təsvir edilmiş insanlara bənzəyirlər. Onlar İlahi Kəlamı dərhal qəbul edirlər, lakin onun prinsiplərini mənimsəmirlər. Kəlamın təsiri daimi deyildir. Ruhun insan qəlbində işləməsi üçün sonuncunun istəyi və yeni təbiətə malik olmaq arzusu gərəkdir; ağılsız qızların timsalında göstərilmiş insanlar isə zahiri təsir ilə kifayətlənirlər. Onlar Allahı tanımırlar. Onun xasiyyətini dərk etməmişdirlər; Onunla daimi ünsiyyətdə olmadıqlarına görə Ona necə etibar etməyi, necə baxmağı və Onda necə yaşamağı bilmirlər.

Onların Allaha xidmətləri formal xarakter alır. “Xalq hər vaxt olduğu kimi sənın yanına gəlir. Mənim xalqım olduqları halda önündə oturur, sözlərinə qulaq asır, amma dediklərini etmirlər.Dilləri ilə səmimi olduqlarını iddia edirlər, ancaq ürəkləri haram qazanc dalınca gedir” (Yez. 33:31). Həvari Pavel qeyd edir ki, insanların Allaha qarşı belə münasibəti xüsusilə Məsihin İkinci gəlişindən əvvəl geniş yayılacaqdır. O deyir: “Son günlərdə çətin anlar gələcək. Zira insanlar xudbin, məğrur, zövqü Allahdan çox sevən, bir din şəklini tutan, bunun qüdrətini isə inkar edən olacaqlar” (2 Tim. 3:1-5). [327]

Bu sinif insanlar həyəcan və çətinliklər dövründə etinasızlıqla sülh və təhlükəsizlik bəyan edirlər. Onlar öz ürəklərinə lay-lay çalırlar ki, yaxınlaşan təhlükə haqqında fikirdən gizlənsin və təcili olaraq xilas axtarmasınlar. Gözlənilmədən yuxudan oyandıqda isə aşkar edirlər ki, fəlakətli bir vəziyyətdədirlər və vaxt ikən özləri ehtiyat görmədikləri şey üçün başqalarına müraciət edirlər. Fəqət heç kim insanın ruhlu itkisini ödəyə bilməz. Allahın lütfü azad surətdə hər bir cana təklif edilirdi. Müjdə hamı üçün eyni dərəcədə səslənirdi: “Susayan qoy gəlsin, arzu edən qoy həyat suyunu müftə götürsün” (Vəh. 22:17). Başqasına öz

xasiyyətini, öz keyfiyyətlərini vermək imkansızdır. Heç kim başqa adamın əvəzinə Ruha malik ola bilməz. Ruhun işinin məhsulu olan xasiyyətini heç kim başqasına verə bilməz. “Nuh, Daniel və Əyyub... — Rəbb Allah deyir, — nə oğullarını, nə də qızlarını qurtarar, salehlikləri ilə yalnız öz canlarını qurtarar” (Yez. 14:20).

İnsanın xasiyyəti sınaq vaxtı aşkar edilir. Gecə yarısı “Budur, adaxlı gəlir, onu qarşılamağa çıxın!” çağırışı eşidiləndə və yatan qızlar oyandıqda dərhal müəyyən oldu ki, baş verən hadisəyə kim hazırdır. Onların heç birinə başqa bir

xəbərdarlıq verilməmişdi, onların hər biri gözlənilmədən oyandılar; fəqət bir qismi qabaqcadan ola biləcək hadisəyə hazırlaşmışdılar, digərləri isə çaş-baş qaldılar, hazır olmadılar. Eləcə də bu gün insanı ölümlə üz-üzə qoyan gözlənilməz və gümanedilməz fəlakət, təsadüf aşkar edir ki, bu insan Allahın vədlərinə real imana malikdirmi, onun qəlbi lütf ilə dəstəklənirmi. Ən böyük, axırıncı sınaq insanın dünya həyatı sona çatan zaman gəlir, onda qəlbin tələblərini ödəmək artıq çox gec olur.

On qız dünya tarixinə məxsus axşamda səbirsizliklə gözləməkdədir. Onların hamısı özlərinin Məsihə iman

etdiklərini bəyan edirlər. Hamısı dəvəti eşidiblər, məsihçi adı alıblar, çıraq götürüblər və hamısı bəyan edirlər ki, Allaha xidmət edirlər. Hamısı Məsihin [328] gəlişini gözləyirlər. Fəqət onların beşi buna hazır deyildir. Onların beşi məəttəl qalacaq, məyus olacaq və ziyafətə girməyəcək.

Son gündə bir çoxları Məsihin Padşahlığına girməyə hüquqları olduğunu bəyan edərək, deyəcəklər: "Biz Sənin önündə yeyib-içirdik və Sən bizim küçələrdə öyrədirdin". "Ya Rəbb, Ya Rəbb, biz Sənin isminlə peyğəmbərlik etmədikmi?... və Sənin isminlə çox möcüzələr

yaratmadıqmı?" Fəqət cavabında onlar eşidəcəklər: "Sizə deyirəm ki, sizi tanımıram, haradansınız; Məndən uzaqlaşın" (Lk. 13:26, 27; Mt. 7:22). Bu həyatda onlar Məsihlə etibarlı münasibətlər yaratmadırlar; buna görə səmavi dil onlara yaddır, onlar səmavi sevincdən uzaqdırlar. "Zira, insan düşüncələrini insanın özündə olan ruhdan başqa insanlar arasında kim bilər? Beləcə də, Allahın düşüncələrini Allahın Ruhundan başqa heç kim bilmir" (1 Kor.2:11).

İnsanın nə vaxtsa eşitdiyi sözlər içində bu sözlərdən qəmlisi yoxdur. "Mən sizi heç vaxt tanımamışam". Sizin rədd etdiyiniz Ruhun

məhəbbəti, yalnız o, sizi şən ziyafətin qonağı edə bilərdi. Fəqət siz onda iştirak etmirsiniz. Onun işığı sizin tutulmuş gözlərinizə düşməyəcək, onun nəğməsi sizin eşitməyən qulaqlarınıza çatmayacaqdır. Bu ziyafətin sevgisi və sevinci süstləşmiş dünyəvi ürəkdə qarşılıqlı sevinc oyada bilməz. Onlarla görüşə hazır olmadığınıza görə siz göylərdən istisna edilmisiniz.

Biz "Budur, adaxlı gəlir!" nidasından oyanıb, dərhal Rəbbi qarşılamağa hazırlaşa bilməyəcəyik. Bütün yerdəki həyatımız müddətində Məsihdən uzaqda yaşayıb və eyni

zamanda Onunla göylərdə ünsiyyətə hazırlaşmaq imkansızdır.

Ağıllı qızlar öz çıraqları üçün yağ qablarını qabaqcadan hazırlamışdılar. Onların çıraqları intizar gecəsini işıqlandıran parlaq alovunu saxlayırdı. Onların işığı adaxlının şərəfinə bütün ətrafa yayılırdı. Qaranlıqda parlayaraq, o, adaxlının evinə aparan yolu toy məclisi olacaq evə kimi işıqlandırırdı. [329]

Beləcə, Məsihin həqiqi davamçıları dünyanın qaranlığında nur saçmalıdırlar. Müqəddəs Ruhun sayəsində Allahın Sözü, üzərinə axdığı hər kəsin həyatını yeniləşdirir. İnsanların ürəyində İlahi Kəlamın

prinsiplərini kökləndirərək, Müqəddəs Ruh onlarda İlahi keyfiyyətlər inkişaf etdirir. Onun izzətinin nuru — Onun xasiyyəti ardıcıllarının qəlblərində yanmalıdır. Beləcə, onlar Allahı izzətləndirərək, Adaxlının iqamətgahına, Səmavi şəhərə, Quzunun toy məclisinə gedən yolu nurlandırırlar.

Məsəldə adaxlı ən qaranlıq saatda, gecə yarısı gəldi. Beləcə, Məsihin gəlişi də dünya tarixinin ən qaranlıq dövründə baş verəcək. Nuhun və Lutun dövrləri İnsan Oğlunun gəlişi ərəfəsindəki dünyanın təsvirini verir. Yazı bu dövrə işarə edərək göstərir ki, şeytan həmin

günlərdə “tam qüdrət... və yalançı xariqələrlə” hərəkət edəcək (2 Saln. 2:9, 10). Bu son günlərdə onun hiyləgər işi qaranlığın qatılaşması ilə hər cür yalanın, cəfəngiyyatın görünməmiş təntənəsi ilə müşayiət ediləcək. Şeytan öz hiyləsi ilə yalnız ayrı-ayrı adamları tutmayacaq, həm də özünü məsihçi adlandıran imanlılar cəmiyyətlərinə təsir edəcək. Böyük küfr zülmətə gətirəcək, gecə yarısında olan zülmətə, o zülmət ki işıq keçirmir. Allahın xalqı üçün o, sınaq gecəsi, ağlaşma gecəsi, həqiqətə görə təqiblər gecəsi olacaqdır. Fəqət bu gecə zülmətindən Allahın nuru parlayacaqdır.

O, “qaranlıqdan işıq parlayacaq” deyir (2 Kor. 4:6). Nə zaman ki “yer quruluşsuz və boş idi; dərin sular üzərində qaranlıq var idi. Allahın Ruhu suların üzərində dolaşırdı. Allah dedi: Qoy işıq olsun. İşıq oldu” (Yar.1:2,3). Beləcə, ruhlu zülmət gecəsində də Allahın səsi eşidilir: “İşıq olsun”. O Öz xalqına deyir: “Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərində gəldi!” (Yeş. 60:1).

“Budur, — Yazı deyir, — dünyanı qaranlıq, ümmətləri zülmət bürüyəcək. Amma Rəbb üzərinə nur saçacaq, izzəti səni əhatə edəcək” (Yeş.60:2). [330]

Allah haqqında yanlış təsəvvürün qaranlığı dünyanı bürüyübdür. İnsanlar Onun haqqında doğru təsəvvürü itirirlər. Onlar Onu başa düşmürlər və Onun haqqında yalan danışırlar. Bizim dövrümüzdə Allahın xəbəri, işıq saçan və xilas etmək gücünə malik olan xəbər bəyan edilməlidir. Dünyaya Onun xasiyyəti izhar edilməlidir. Dünyanın qaranlığına Onun izzətinin işığı, yaxşılığının, mərhəmətinin və həqiqətinin işığı axıdılmalıdır.

Yeşaya peyğəmbər bu iş haqqında deyir: “Ey Siona müjdə gətirən, yüksək dağa çıx! Ey Yerusəlimə Xoş Xəbər gətirən, ucalt səsini, car çək,

qaldır səsini, qorxma. Yəhuda şəhərlərinə de: Budur Allahınız! Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, Mükafatı Onunladır, ənamı önündədir” (Yeş. 40:9, 10).

Adaxlını gözləyənlər insanlara deməlidirlər: “Budur Allahınız!” Lütfkar işığın son şüaları, məhv olan dünyaya axırıncı mərhəmət xəbəri Onun Məhəbbət olduğunun vəhyidir. Allahın övladlarına Onun izzətini bəyan etmək gərəkdir. Öz şəxsi həyatımız və xasiyyətimizin ləyaqəti ilə biz Allahın lütfünün bizim üçün nə etdiyini hamıya nümayiş etdirməliyik.

Salehlik Günəşinin işığı onların xeyirxah işlərində — həqiqi sözlərində və müqəddəs işlərində parlamalıdır.

Məsih, Atanın izzətinin parıltısı, dünyaya işıq kimi gəldi. O, insanlara Allahı izhar etmək üçün gəldi və Onun haqqında yazılıb ki, O, "Müqəddəs Ruh və qüdrətlə" məsh edilmişdir və "yaxşılıq edərək dolaşırdı" (Həv. iş. 10:38). Nazaretin havrasında O dedi: "Rəbbin Ruhu üzərimdədir; çünki yoxsullara Müjdəni bildirmək üçün O Məni məsh etdi, Məni qəlbi sınıq olanlara şəfa verməyə, əsirlərə azadlıq, korların gözlərinin açılmasını təbliğ

etməyə, əzab çəkənləri azad etməyə və Rəbbin xoş ilini elan etməyə göndərdi” (Lk. 4:18, 19). Bu işi O Öz şagirdlərinə də tapşırdı. “Siz dünyanın işığısınız, — dedi O — Qoy sizin işığınız insanların [331] qarşısında elə parlasın ki, xeyirxah işlərinizi görsünlər və Göydəki Atanıza həmd etsinlər” (Mt. 5:14, 16).

Bu, Yeşaya peyğəmbərin təsvir etdiyi işlərdir: “Yediyiniz çörəyi acla bölüşdürmək, yurdsuz kasıbları evinizə gətirmək... çılpaq görəndə geyindirmək, yaxınlarınızdan köməyinizi əsirgəməmək gərəkdir. Onda şəfəq kimi nurunuz saçacaq,

tezliklə şəfa tapacaqsınız, qarşınızda salehliyiniz gedəcək, Rəbbin izzəti sizə arxa olacaq” (Yeş. 58:7, 8).

Beləcə, ruhlu qaranlıq gecəsində Allahın izzəti Onun imanlılar cəmiyyətinin içində parlayaraq, hamıya işıq saçır, əyilmişləri qaldırır və kədərlilərə təsəlli verir.

Hər yandan dünyəvi bəlalar içərisində məhv olan insanların fəryadları ucalır. Ətrafımızda ehtiyacı olanları və iztirab çəkənləri görürük. İnsanların həyatdakı bəlalarını, onların bədbəxtliklərini yüngülləşdirmək və yumşaltmaq gərəkdir.

Belə işlər adi təbliğdən qat-qat artıq nəticələr verəcək. Aclara qida, çılpaqlara paltar, evsizlərə sığınacaq vermək lazımdır. Fəqət biz bundan da böyük işlər görməyə çağırılmışıq. Qəlbin yanğısını yalnız Məsih ödəyə bilər. Əgər Məsih bizdə yaşayırsa, bizim ürəklərimiz İlahi şəfqətlə dolur. Buna kimi səmimi məsihçi məhəbbətinin gizli olan mənbələri indi açılacaqdır.

Allah bizi ehtiyacı olanlarla ancaq paylaşmağa deyil, həm də onlara dost şəfqəti ilə, sevinc gətirən ümid sözləri ilə, təmənnasız dəstəklə təsəlli verməyə dəvət edir. Məsih xəstələri sağaldanda O, əllərini onların üstünə

qoyurdu. Eləcə də bizə dəstək vermək istədiyimiz adamlarla sıx dostluq əlaqəsi yaratmaq gərəkdir.

Bizim ətrafımızda hər cür ümidini itirmiş adamlar çoxdur. Onları yenidən gün işığına qaytarın. Çoxları cəsarətini itirmişlər. Onlara təsəlli sözləri deyin. Onların naminə dua edin. Həyat çörəyinə ehtiyacı olanlar da çoxdur. Onlara İlahi Kəlamı oxuyun. Bir çoxunun xəstəliyini heç bir dünyəvi dərman ilə sağaltmaq mümkün deyildir, onlara heç bir həkim [332] kömək etməyəcək. Onların canları naminə dua edin; onları İsaya gətirin. Onlara deyin ki,

Gileadda dərman vardır və Şəfaverici oradadır.

İşıq xeyir-duadır, ümumi xeyir-duadır ki, öz sərvətlərini naşükür, pozğun və düşmüş dünyaya axıdır. Salehlik Günəşi də belədir. Günahın qəm və iztirab qaranlığına bürünmüş dünya İlahi məhəbbətin idrakı ilə işıqlanmalıdır. Göylərin taxtından axıdılan bu işıq heç kimi, heç bir adamı kənarda qoymamalıdır.

Ümid və mərhəmət xəbəri dünyanın hər ucuna çatdırılmalıdır. O zaman arzu edən hər kəs Allahın verdiyi gücə bağlana bilər və Onun qarşısına çıxaraq, xilasedici dəstəyini hiss edər, Onunla ittifaq bağlayaraq

qəlbində sülhə malik olar. Bütpərəstlər daha gecə yarısı zülmətində olmayacaqdırlar. Zülmət Salehlik Günəşinin parlaq şüaları altında dağılacaqdır. Cəhənnəm qüvvələri məğlub ediləcəklər.

Fəqət Allahın işığını dünyaya gətirmək üçün özümüz bu işığa malik olmalıyıq. Allahın işində insanın özü nəyinsə mənbəyi ola bilməz. Heç kim şəxsi səyləri ilə özünü Allah üçün işıq daşıyıcısı edə bilməz. Bundan ötrü qızıl yağı qızıl borucuqlara axıdılmalıdır, bu borucuqlar qızıl yağı qabından məbədin çıraqlarına aparır və parlaq, göz qamaşdıran işıq saçılır; səma elçiləri tərəfindən qızıl yağı

axıdılmalıdır. Bu daima insana verilən Allahın məhəbbətidir ki, ona başqaları ilə bu işığı paylaşmaq imkanı verir. Qızıl məhəbbət yağı asanlıqla iman vasitəsilə Allaha birləşənlərin ürəklərinə axır və Allah onlara həqiqi, ürəkdən olan xidmətlərində xeyirxah işlərilə parlamağa imkan verir.

Göylərin bütün mənbələri böyük və hədsiz olan Müqəddəs Ruhun ənamında gizlənmişdir. Əgər Onun lütfünün axınları bəzən insanlara çatmırsa, bu, Allahın təqsirindən deyildir. Əgər insanların özləri həqiqətən səmavi sərvətlərə malik

olmaq istəsəydilər, hər kəs Onun Ruhu ilə dolmuş olardı.

Hər adama canlı arx olmaq üstünlüyü bəxş edilmişdir ki, onun vasitəsilə Allah dünyaya Öz Lütfünün sərvətlərini, Məsihin tükənməz cəvahiratını [333] axıdır. Məsihin Onun Ruhunu və xasiyyətini dünyaya izhar edə biləcək vasitəçilərə malik olmaqdan böyük arzusu yoxdur. Dünyanın insan vasitəsilə izhar edilən Xilaskarın məhəbbətinə olduğu qədər heç nəyə ehtiyacı yoxdur. Göylər səbirsizliklə yeni-yeni arxlar gözləyir ki, onların vasitəsilə müqəddəs zeytun yağı insanların ürəklərinə

axıdılaraq, onları sevinc və xeyir-dua ilə doldura biləcək.

Məsih hər şey etdi ki, Onun imanlılar cəmiyyəti yeniləşərək dünya üçün İşığa çevrilsin, İmmanuelin izzətinin daşıyıcısı olsun. O hər bir məsihçini yüksək işıq və sülh atmosferi ruhu ilə əhatə etmək istəyir. İstəyir ki, biz öz şəxsi həyatımızda Onun sevincini başqalarına açaq.

Müqəddəs Ruhun insanda mövcud olmasının doğru əlaməti ondan axıdılan səmavi məhəbbət axınıdır. İlahi dolğunluq Məsihin qüdsləşmiş davamçılarının vasitəsilə

yayılaraq, başqa adamların üzərinə də axacaqdır.

Həqiqət Günəşi "Öz şüalarında şəfa gətirir" (Məl. 4:2). Ona görə Məsihin hər bir həqiqi davamçısından insanlara həyat, cəsarət, ümid və həqiqi şəfa gətirən təsir törəməlidir.

Məsihin dini, sadəcə günahların bağışlanmasından daha böyük şeylər verir; O bizim üzərimizdən günahlarımızın uzaqlaşması və əmələ gələn boşluğun Müqəddəs Ruhun ənamları ilə dolması deməkdir. O, İlahi paklaşma, Allahda sevincə malik olmaq deməkdir. O, eqoizmdən azad olmuş və Məsihlə dolmuş ürək deməkdir. Məsih qəlbə hakim olanda

insan paklığa, günahdan azadlığa malik olur. Müjdə planının izzəti, dolğunluğu, tamlığı onun həyatında icra edilir. Xilaskarı qəbul etmək insana kamil məhəbbətin, kamil sülhün və kamil yəqinliyin parlaqlığını bəxş edir. Belə adamın həyatında izhar edilmiş Məsih xasiyyətinin gözəllik və ecazkarlığı şəhadət edir ki, Allah həqiqətən Öz Oğlunu dünyaya göndərdi ki, O, dünyanın Xilaskarı olsun.

Məsih Öz davamçılarına ətrafdakı insanların üstünə işıq saçmaq üçün səy göstərsinlər deyə əmr etmir. O deyir: "Qoy sizin işığınız parlasın". [334] Əgər siz Allahın lütfünə

maliksinizsə, işıq artıq sizdədir. İşığın qarşısını kəsən maneələri kənarlaşdırın və Rəbbin izzəti açılacaqdır. Ətrafdakı zülməti dağıtmaq üçün parlamaya bilməyəcəksiniz.

İnsan varlıqlarında və onların vasitəsilə Onun şəxsi izzətinin izhar edilməsi göyləri insana o qədər yaxınlaşdıracaqdır ki, insan bədəninin məbədində məskunlaşan gözəllik Xilaskarın mövcud olduğu hər kəsdə görünəcək. Məsihin insanın ürəyində mövcud olan bu izzəti insanları cəlb edəcək. Bu üsul ilə Allah üçün fəth edilmiş bir çox qəlblərdən ucalan alqış və minnətdarlığın geniş axını

vasitəsilə izzət geriyə, böyük Vericiyə qayıdacaqdır.

“Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərinə gəldi!” (Yeş. 60:1). Bu xəbər Adaxlını qarşılamağa çıxanlara verilmişdir. Məsih böyük izzət və qüdrətlə gələcək. O Öz şəxsi izzəti və Atanın izzəti ilə gələcək. Bütün müqəddəs mələklərlə birlikdə gələcək. O zaman ki, bütün dünya zülmətə qərq olacaqdır, işıq Ruhun mövcud olduğu hər bir müqəddəsdən axacaqdır. Onlar ilk olaraq Onun İkinci gəlişinin işığını duyacaqlar. Onun böyüklüyü pak işıqla parlayacaq və Ona xidmət edənlərin hamısı Xilaskar Məsihlə

fərəhlənəcəklər. O zaman ki, günahkarlar Onun mövcudluğundan qaçacaqlar, Məsihin davamçıları isə sevinəcəklər. Əyyub ata uzaqlara, Məsihin İkinci gəlişi dövrünə baxaraq, demişdir: “Mən Ona baxacağam, başqası yox, öz gözlərimlə görəcəyəm” (Əyy. 19:27 ). Öz sadiq davamçıları üçün Məsih həmişə daimi yoldaş və yaxın dost olmuşdur. Onlar Allahla sıx ittifaqda, daimi ünsiyyətdə yaşamışlar. Onların üzərində Rəbbin izzəti doğmuşdur. Onlarda Allahın izzətinin İsa Məsih vasitəsilə dərk edilməsinin işığı əks olunmuşdur. İndi isə onlar Padşahın izzəti işığının parlaq şüalarında Onun tam böyüklüyü içində şadlanırlar.

Səmavi görüşə onlar hazırdırlar, çünki çoxdan bəri göyləri öz ürəklərində saxlamışdılar.

Göylərə yönəlmiş və parlaq haqq Günəşinin şüaları ilə işıqlanmış sifətlər yaxınlaşan xilasın sevincində Adaxlının qarşısına çıxaraq, nida [335] edirlər: “Budur bizim Allahımız! Ona etibar etdik, O bizi qurtardı” (Yeş. 25:9).

“Və sanki böyük bir izdihamın səsini, gur-gur axan suların təlatümünü, qüvvətli göy gurultularının səsini eşitdim. Onlar deyirdilər: Haleluya! Çünki Külli-İxtiyar Rəbb Allahımız səltənət sürür. Sevinək və şadlanaq və izzəti Ona

verək! Çünki Quzunun toy saatı gəldi. Onun gəlini özünü hazırladı... Və mələk mənə dedi: Yaz: Quzunun toy ziyafətinə dəvət olunanlar nə bəxtiyardırlar! O, rəbblərin Rəbbi və padşahların Padşahıdır və Onunla bərabər olanlar dəvət edilmiş, seçilmiş və sadiqdirlər” (Vəh. 19:6-9; 17:14).